HƏŞİM HƏSƏNOĞLU

# AZƏRBAYCANIN DİNİ-TARİXİ ABİDƏLƏRİ ZİYARƏTGAHLARI



## SEYİDLƏRİ ÖVLİYALARI







**Allah sağlıqlarında dost olmuş və ömürləri boyu islama sədaqətlə xidmət etmiş ümummilli liderimiz Heydər Əlirza oğlu Əliyevə və atam Həsən Şükür oğlu Heydərova rəhmət eləsin, qəbirləri nurla dolsun!**

**Amin!**

***Müəllif***


Ş 38
H63
232899



**HƏŞIM HƏSƏNOĞLU**


# Azərbaycanın dini-tarixi abidələri, ziyarətgahları, seyidləri, övliyaları

## I HISSƏ


M.F.Axundov adına Azərbaycan MK Kitabxanası



**Bakı -"Nasir" nəşriyyatı -2005**

*Redaktoru:* **Hacı Vasim Məmmədəliyev,**
*AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor, BDU-nun ilahiyyat fakültəsinin dekanı, Qafqaz Müsəlmanları İdarəsi Elmi-Dini Şurasının sədri*

*Rəyçilər:* **Cəfər Qiyasi,**
*AMEA-nın müxbir üzvü, memarlıq doktoru, professor*
**Oqtay Salamzadə,**
*Qafqaz Müsəlmanları İdarəsi Elmi-Dini Şurasının sədr müavini, yazıçı-ilahiyyatçı, AZƏRKİVİHİ-nin sədri*

*Məsləhətçilər:* **Hacı Fəttah Heydərov**
**Hacı Miribadulla Hüseynzadə**

**HƏŞİM HƏSƏNOĞLU.**
AZƏRBAYCANIN DİNİ-TARİXİ ABİDƏLƏRİ, ZİYARƏTGAHLARI, SEYİDLƏRİ, ÖVLİYALARI
Bakı " Nasir" nəşriyyatı, 2005, səh. 524

**Kitabda Azərbaycanın dini-tarixi abidələri, ziyarətgahları, ocaq və pirləri ilə yanaşı, tariximizin iqtisadi-siyasi həyatında mühüm rol oynamış görkəmli din xadimləri, seyid və övliyalar, onların bu günkü varisləri barədə söhbət açılır. Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.**

*Kitabın araya-əpsəyə gəlməsində göstərdikləri köməyə görə Mədəniyyət Nazirliyinə, Dini İşlər Üzrə Dövlət Komitəsinə, Qafqaz Müsəlmanları İdarəsinə və ayrı-ayrı xeyirxah insanlara dərin minnətdarlığımı bildirirəm.*

**Müəllif**

H $\frac{4702060104}{2005}$ qrifli nəşr

© "Nasir" nəşriyyatı. 2005.

# *Bismillahir-Rəhmanir-Rəhim.*

**"ALLAHIN YOLUNDA HAMIMIZ BİR OLAQ"**

**H.Əliyev**

**Hörmətli oxucu!**

Yazıçı- publisist və ilahiyyatçı Həşim Həsənoğlunun bu kitabına Azərbaycanın dini-tarixi abidələri, ziyarətgahları, seyidləri və övliyaları haqqında dərin araşdırma-materiallar daxil edilmişdir.

Kütləvi ziyarət obyektinə çevrilmiş abidələrimizin yaranması, mənşəyi haqqında 2 hissədən ibarət bu kitabda oxucularda dolğun təsəvvür yaradılır, əzəli torpaqlarımızda qalan abidələrimizlə bağlı qiymətli bilgilər verilir. Ölkəmizin ərazisinə islam dininin yayıldığı ilk əsrlərdə ucaldılan məscid və ibadətgahlar, onların quruluşu, memarlıq üslubu, müəllifləri haqqında da lazımi məlumatlar təqdim olunur.

Nəşrdə həmçinin islamın ilk çağlarında Azərbaycana pənah gətirən imam-peyğəmbər övladları, seyid və övliyalar, onların həyat və fəaliyyəti də öz əksini tapıb. Oxucular təkcə uzaq yüzilliklərdə ömür sürmüş seyidlər, ruhanilərlə deyil, həm də hazırda bizimlə birgə yaşayan, müasirimiz olan pak, mömin insanlarla tanış olacaq, onların ibrətamiz yaşam tərzləri, kəramətləri barədə məlumatlanacaqlar.

Kitabda müəllifin şahidi olduğu real əhvalatlarla bu görüntülər daha da canlandırılır. Müasirlərimizə örnək olası belə nümunələr oxucuda bir mənəvi

yüngüllük, təmizlik, ruhi sakitlik yaradır, ulu Tanrını dərk etmək, sevgili peyğəmbərimizi sevmək, müqəddəs Quranı uca tutmaq, seyid-peyğəmbər övladlarına hörmətlə yanaşmaq kimi dərin hisslər aşılayır.

"Qızıl qələm" fəxri media mükafatı laureatı olan müəllifin böyük zəhməti hesabına ərsəyə gələn kitab məhz bu baxımdan güclü mənəvi-psixoloji təsir qüvvəsinə malikdir. Kitab boyu təqdim edilən materiallar "Quran" ayələri ilə nurlanmış, yer üzünün sonuncu peyğəmbərinin və imamlarımızın hədisləri və kəlamları ilə zinətlənmiş, klassik şairlərimizin şerlərindən nümunələrlə zənginləşmişdir. Odur ki, bu kitab uca tutulmalı, pak yerdə saxlanmalıdır.

**Vəssəlamu əleykum və rəhmətullahi və bərəkatihu.**

**Hacı Vasim Məmmədəliyev,**
*AMEA-nın müxbir üzvü,*
*filologiya elmləri doktoru, professor,*
*BDU-nun ilahiyyat fakültəsinin dekanı,*
*Qafqaz Müsəlmanları İdarəsi*
*Elmi-Dini Şurasının sədri*



## DİNİ-TARİXİ ABİDƏLƏRİMİZ HAQQINDA YAZILAN HƏR BİR TƏDQİQAT ƏSƏRİ TƏQDİRƏ LAYİQDİR

***Bismillahir-rəhmanir-rəhim.***

**Qələmi və publisistikası ilə tanınmış istedadlı jurnalist, "Sahil" və "Xəzinə" qəzetlərinin baş redaktoru, "Azərbaycan mədəniyyəti və incəsənəti" qəzetinin məsləhətçisi,** Qarabağın füsunkar qucağında dünyaya göz açan Həşim müəllim bu yaxınlarda çox ağır və məsuliyyətli, amma xeyirxah işini başa çatdırmışdır. O, Azərbaycanın dini-tarixi abidələrinin, müqəddəs ocaq və pirlərimizin, ziyarətgahlarımızın, peyğəmbər övladlarının adlarını tarixin yaddaşına yazmaq amalı ilə üç ildən artıq bir müddətdə apardığı tədqiqat işlərini, elmi araşdırmalarını yekunlaşdırmışıdır.

İndiyənədək Həşim Həsənoğlu əsrarəngiz Qarabağın 101 müqəddəs seyid və ocaqları haqqında çox dəyərli məqalələr dərc etdirmiş, xatirələr toplamış və bütün bunları "Qarabağın seyidləri" adlı kitabda dərc etdirmişdir.

Çox təəssüf ki, bu gün Azərbaycanın maddi-mədəniyyət abidələrinin bir çoxu mənfur ermənilərin zəbt etdiyi Qarabağ bölgəsində, o cümlədən azərbaycanlıların dədə-baba yurdları olan Qərbi Azərbaycanda qalıb. Amma müəllif çox çətinliklə də olsa həmin ərazilərdə mövcud olmuş qədim dini-memarlıq abidələri barədə qiymətli materiallar toplaya bilmişdir.

Kitabın bu növbəti hissəsində ümummilli liderimiz, dini-tarixi abidələrimizin qorunmasında və bərpasında əvəzolunmaz xidmətləri olmuş **rəhmətlik Heydər Əliyevin** din xadimləri ilə görüşləri, ziyarətgahların abadlaşdırılmasında göstərdiyi qayğı və diqqət, onun siyasi varisi **prezident İlham Əliyevin** də müqəddəs məkanlarımıza böyük ehtiramı ilə bağlı maraqlı yazılar geniş əksini tapmışdır.

Ümidvarıq ki, "Azərbaycanın dini-tarixi abidələri, ziyarətgahları, seyidləri, övliyaları" kitabı hər birimizin stolüstü kitabı olacaqdır.

Müqəddəs ziyarətgahlarımızın mərhəməti heç vaxt üstünüzdən əskik olmasın.

Amin!

**Vəssəlamu əleykum və rəhmətullahi və bərəkatihu.**

**Oqtay Salamzadə,**
*Qafqaz Müsəlmanları İdarəsi Elmi-Dini Şurası üzrə sədr müavini, yazıçı-ilahiyyatçı, AZƏRKİVİHİ-nın sədri*



## AZƏRBAYCAN MEMARLIĞI TARIXINDƏN

Azərbaycan xalqı zəngin ədəbi-bədii, mədəni irsə, qədir keşməkeşli tarixə malikdir. Ulu keçmişimizin maddi və mənəv sərvətlərinin bu günə gəlib çatmasında islam dininin böyük rol olmuşdur. Tariximizin elə bir səhifəsi olmaz ki, ora islam təsi etməmiş olsun. Milli-mənəvi dəyərlərimizin daşıyıcısı islamı cəmiyyətin inkişafında müstəsna rolu olub. Dinimizin insanları saflaşması, təmizlənməsi, təkamülü, tərəqqisində oynadığı rol bə rədə minlərlə elmi, bədii, fəlsəfi əsərlər yazılmış və bu gün d yazılmaqdadır. Dünyanın ən görkəmli mütəfəkkirləri, alimlər düşünən beyinləri min ildən çoxdur ki, islamın fəzilətlərində əxlaqi-mənəvi dəyərlərindən yazır, münasibətlərini bildirirlə Klassik mütəfəkkirlərdən biri demişkən, meşələr qamış, dən mürəkkəb olsa, min illər bundan sonra da yazılsa belə, islamı böyüklüyünü əhatə edə bilməz. Allah-təalanın qüdrəti, onun i sanlara göndərdiyi rəsullar, imamlar, müqəddəs seçilmişlər ha qında bəşəriyyət yaranandan bəri deyilir, lakin bu mövzu tükə mir ki, tükənmir. Dünyanın qüdrətli sənətkarları və söz ustala bu sahəyə toxunduqca etiraf etmişlər ki, dəryada bir damcı qəd iş görə bilmişlər. Məgər bu ilahinin qüdrətindən xəbər vermi mi? Bu özü bir sirr deyilmi?

Şükür olsun Allahın camalına və cəlalına!

Allah-təalanın seçilmiş bəndələri, imam-peyğəmbər övladl rı - seyidlərimiz barədə ilk kitabımı dərc etdirəndən sonra qə ra aldım ki, ikinci kitabımda hələ də tam araşdırılmamış bir s həyə -dini-tarixi abidələrimizin tədqiqinə də yer ayırım.

Doğrudan da respublikamız dini-memarlıq abidələri ilə zə gindir. Xalqımızın ulu tarixinin öyrənilməsi baxımından çox zə gin məlumatları hələ də özündə qoruyub saxlayan dini abidələ miz - məqbərələr, mavzoleylər, türbələr, pir və ocaqlar, qəd qəbristanlıqlardakı baş daşları, məscid və imamzadələrimiz x qımızın tarixinin daha dərindən araşdırılması üçün çox qiymə mənbə, materialdır.

Allah-təalanın mənə verdiyi imkan qədər dini-tarixi abidə rimizin yaranma tarixini araşdırarkən heyrət, təəccüb, özümün

tam dərk edə bilmədiyim bir sirr qarşısında qaldım. Hər daşda, hər müqəddəs məkanda ilahi qüdrət və kəramət o qədər açıq-aşkar idi ki, onu görmək üçün heç də bəsirət gözlü olmaq lazım deyilmiş. Tədqiqat zamanı müqəddəs insanların ruhları ilə rastlaşdım. Çətinə düşdüm, xoş günlər də yaşadım. Bilmirəm, Allah-təalanın mənə bəxş etdiyi bu bəsirəti sizə də çatdıra biləcəyəmmi?

Beləliklə, ulu Tanrını, imam-peyğəmbərlərimizin cəddini çağırıb sirlər-möcüzələr dünyasına - Azərbaycanımızın qədim tarixinə səfərə, ulu Yaradanı bir daha dərk etmək üçün sirlər dünyasına səfərə başlayıram.

**Əziz oxucular!** Bəri başdan etiraf edim ki, bu kitabda Azərbaycan ərazilərində olan dini maddi-mədəniyyət abidələri nin heç də hamısı haqqında məlumat vermək mümkün olmadı. Bura bir neçə səbəb daxildir. Əsas da odur ki, kitabın həcmi artıq olduğundan maliyyə problemi yarandı. Inşallah bu iş davam edir və növbəti kitablarda hamısı barədə məlumat veriləcək.

Bu kitabı ümummilli liderimiz, həyatını bütövlükdə xalqına və dövlətçiliyimizə həsr edən, mərhum prezidentimiz **HEYDƏR ƏLIRZA OĞLU ƏLIYEV**-in Azərbaycanın dini mədəniyyət ocaqlarına göstərdiyi qayğıya, eləcə də ötən əsrin 70-80-ci illərində atam **HƏSƏN ŞÜKÜR OĞLU HEYDƏROV-la** etdiyi dostluğa ithaf etməyi özümə borc bildim. Allah hər ikisinə rəhmət eləsin!

...Azərbaycan ərazisi hələ min illər bundan əvvəl də yaşayış məskəni olmuşdur. Bunu dövrümüzə gəlib çatan milyonlarla arxeoloji tapıntı, qədim sərdabələr, qəbristanlıqların qalıqları, Gəncə,Xocalı,Xanlar,Gədəbəy,Mingəçevir, Ağdam, Füzuli və Qızıl Vəngdəki kurqanlar da sübut edir.

Azərbaycan ərazisində ən qədim tayfalar ölkənin cənub və cənub-qərb bölgələrində yaşamış midiyalılardır. IX əsrə aid tapılmış saxsı lövhələrdəki yazılar da dediklərimizi təsdiq edir. Roma və Yunan müəlliflərinin əsərlərində adı çəkilən albanlar isə ölkənin Araz çayından şimala qədərki ərazilərində yaşayırdılar. Manna və Urartu tayfaları ilə mübarizədə bərkiyən Midiya dövləti artıq e.ə VII əsrdə çox qüdrətli bir imperiyaya çevrilmişdi. Onun ərazisi Fars körfəzindən Kiçik Asiyaya qədər uzanırdı. Qədim dünyanın ən əlverişli hissəsində yerləşən Midiya dövləti atəşpərəstliyin vətəni sayılırdı.



Sonrakı əsrlərdə Midiyanın siyasi həyatında kahinlər müstəs na rol oynamışlar. Bakıda-Suraxanıda bu günə qədər gəlib çatmı məbəd min illər bundan əvvəl Midiya dövlətinin, atəşpərəstliyi son qığılcımlarındandır. Əsrlər keçsə də, eralar, dinlər dəyişs də, bu qədim məbəd gəlib dövrümüzə çata bilmişdir.

Xalqımız min illər bu cür həyat sürmüş, dövlətlər, dövran tə zələnmişdir. Nəhayət, VII əsrdə Ərəbistanda islam dini bərqərar ol duqdan sonra dünyanın gedişatında qlobal dəyişikliklər baş verdi.

Azərbaycan islam dininin daha erkən yayıldığı ölkələrdəndi Islam dini zaman-zaman xalqın mənəviyyatında, mədəniyyətind adət-ənənələrində, məişət və təsərrüfat həyatında yalnız müsb dəyişikliklərə səbəb oldu. Islam dini yayıldıqca və bu din sənə karlıq, ticarət və əkinçiliyə daha böyük üstünlük verdiyindən c miyyət böyük sürətlə inkişaf edir, iri şəhərlər yaranırdı. Dünyan mühüm ticarət yollarının kəsiyində yerləşən Dərbənd, Beyləqa Bərdə, Ərdəbil, Təbriz, Marağa, Naxçıvan, Külsarə, Şamaxı, Gə cə və başqa şəhərlərin də əhəmiyyəti artır, bu şəhərlərin qərb şərq ölkələrinin iri ticarət mərkəzləri ilə əlaqələri güclənirdi. C Qafqazda bütün ticarət yollarının kəsişdiyi, şimalla tranzit ticar mərkəzi olan Bərdə şəhəri xüsusilə qeyd edilməlidir. Təsadüfi d yil ki, ərəb tarixçiləri bu şəhər haqqında maraqlı məlumatlar ve miş, onu "Arranın anası" kimi dəyərləndirmişlər.

IX-X əsrlərdə Azərbaycan memarlığının inkişafında da isla mühüm rol oynamışdır. Bir çox qalalar, müdafiə qurğuları ilə b likdə şəhər darvazalarının yanında məscidlər, mədrəsələr də til lir, burada camaatın savadlanması üçün dərslər keçilirdi. Iri m cidlərlə yanaşı islamın Azərbaycanda yayılmasında mühüm oynamış ordu başçıları, dini rəhbərlərin qəbirləri üzərində də b yük məqbərələr, xanəgahlar tikilir, müxtəlif pir və ziyarətgah inşa edilirdi. Qəbələdəki məscid, Ərdəbildə, Bərdə şəhərind məqbərə və məscid də IX-X əsrlərin yadigarıdır. Onu da xa latmalıyıq ki, Azərbaycanda Islam dini tam bərqərar olduq sonra qədim dini abidələr yenidən qurulurdu. Bunu Ağsu ra nunda VIII əsrdə tikilmiş məscidin quruluşu da təsdiq edir. metr uzunluğu olan həmin məscid üçbucaqlı şəklində tikilib. hissəyə bölünərək hər birinə minbər quraşdırılmışdır. Məsci xarici memarlıq görünüşü Q. Qaqarinin Rusiya muzeyində sa

nılan rəsm əsərində əks olunmuşdur. 9 sütunlu Bərdə məscidi isə öz planına, layihə- tikinti xüsusiyyətlərinə görə Ağsu, Şamaxı məscidlərindən fərqlənirdi.

Xanəgahlar, ocaq və pirlər isə ilk növbədə mühüm karvan yolları üzərində tikilirdi. Dərbənd-Nardaran-Şamaxı-Gəncə, Bakı-Şamaxı-Tbilisi yollarının üstündə ilk ziyarətgahlar meydana gəlirdi. İri şəhərlərin, məscid və mədrəsələrin tikintisində ilk növbədə Naxçıvan, Şirvan-Abşeron memarlıq üslubu özünü göstərirdi. Azərbaycan başqa ölkələrə inteqrasiya olunduqca onun memarlığına qonşu dövlətlərin memarlıq ənənələri də təsir göstərirdi.

X əsrdə dini-tarixi abidələrimizin tikintisində Roma üslubu, qotik formanın çalarlarına rast gəlmək olur. Xorasan, Ərdəbil memarlıq məktəblərinin də təsiri şəhərsalmada, qala və bürclərin tikintisində, mədrəsə və məscidlərin inşasında özünə yer tuturdu.

O dövrlərdə tikintidə əsasən müxtəlif növ daş materiallarından, yanmış kərpicdən daha çox istifadə olunurdu. Binaların üst hissəsinin bağlanmasında isə bloklar tətbiq edilirdi. Van gölünün ətrafındakı Ulu Came, Həmədandakı Ələviyən pirinin işlənilməsində, arxitektura ansamblının yaradılmasında bu cür bloklardan istifadə edilmişdi.

Azərbaycanın şimal bölgəsində daş kəsmələr, daşların üzərində oymalar geniş yayılmışdı. Bu, binalara xüsusi yaraşıq və gözəllik verirdi. Məscid və minarələrə yüksək dərəcəli xəttatlar tərəfindən ilahi kəlamlar nəqş edilir və mütləq kim tərəfindən inşa edildiyi də göstərilirdi. Müxtəlif ornamentlərdən, bəzək əşyalarından, döymələrdən cənub bölgələrinin sənətkarlığında daha çox istifadə olunurdu. Lakin bununla belə Azərbaycanın hər bir bölgəsinin özünəməxsus memarlıq üslubu vardır. Biz təxminən X-XII əsr Azərbaycan memarlığı barədə qısa məlumat verdik. Hər bir rayonda olan dini abidələrimizin bəziləri haqqında isə həmin rayonların təsnifatında daha geniş bilgilər verəcəyik.

***Müəllifdən***



## ƏRDƏBİL

Bəzi məlumatlara görə, Ərdəbilin əsası V əsrdə qoyulub Azərbaycanın qədim paytaxtı, zəngin, keşməkeşli tarixə mali Ərdəbil şəhəri öz dini- tarixi abidələri ilə bütün dünyada məş hurdur. Ərdəbil XIV əsrdə yerli şeyxlərin iqamətgahı idi. X əsrdə Azərbaycanda və İranda hakimiyyətini möhkəmlədə Ərdəbil şeyxləri şəhərin inkişafına xüsusi diqqət yetirirdilə Orta əsr səyyahları Ərdəbilin böyük, gözəl şəhərlərdən oldu ğu barədə məlumat verirlər.

## ŞEYX SƏFİ TÜRBƏSİ



Şeyx Səfi türbəsi Yaxı Şərqin ən görkəmli tarixi ab dələrindən biridir. Türb kompleksinin tikilməsi ha qında dəqiq məlumat olma da, onun XIV-XVII əsrlər inşa edildiyi güman edil Türbə kompleksinin bir yeri də burada dəfn edilmiş Şe Bədrəddinlə birlikdə onu kən Yusif Zahir oğlunun yonma üzrə nəqqaş - kalliqr Şeyx Sultanın da adı çəkilir.

## TƏBRİZ

Şah İsmayıl Xətai Şirvanşah Fərrux Yəssarın (1500) Ağqoyunluların ordularını (1501) darmadağın etdikdən son Səfəvilər dövləti daha da möhkəmləndi. Azərbaycanı, Ira başqa ölkələri də öz hakimiyyəti altında birləşdirən Ş.I.Xə Təbriz şəhərini Azərbaycan-Səfəvi dövlətinin paytaxtı seç Şəhər siyasi və iqtisadi mərkəzə çevrilərək sürətlə inkişaf

məyə başladı. 1530-cu ildə tarixçi Xandəmir yazırdı ki, Təbriz insanların dünyada daha çox məskunlaşdığı dörd böyük diyardan biridir. XVII əsrdə isə Təbrizin əhalisi yüz minlərlə ölçülürdü. Elm, sənət, incəsənət, memarlıq, ədəbiyyat özünün yüksək həddinə çatmışdı. Sonralar ölkənin paytaxtı əvvəlcə Qəzvinə, sonra isə Isfahana keçirilsə də Təbriz yenə öz əhəmiyyətini qoruyub saxlayırdı.

XVII əsrdə yaşamış Evliya Çələbi bildirirdi ki, 1647-ci ildə Təbrizdə 200 karvansaray, 47 min bağ, bir neçə yüz məscid və mədrəsələr vardı. Əhalinin sayı isə 300 minə çatırdı. Bu dövrdə Təbriz memarlığının yeni üslubu yaranırdı. Vəzir Hacı Tacəddin Əlişah Gilyani yeni üslubda böyük Cümə məscidi saldırmışdı.



## MAVİ MƏSCİD

Təbrizdə kərpic materiallarından istifadə edilməklə tikilən memarlıq abidələrinin ən parlaq nümunələrindən biri də Mavi məsciddir. Bu məscidin inşasında istifadə edilən memarlıq üslubu əvvəlki dövrlərdəkindən fərqlənir.

## DƏRBƏND

Dərbənd şəhərindəki Cümə məscidi VII əsrə aid edilən məbədin üzərində tikilmişdir. Zəlzələ nəticəsində uçmuş məscid 1368-1369-cu illərdə yenidən tikilib. Məscidi bakılı bənna Tacəddin inşa edib. Yaxınlığında mədrəsə də fəaliyyət göstərirdi.







Respublikamızın paytaxtı Bakı şəhəri dini-tarixi memarlıq abidələri ilə zəngindir.

Içərişəhərdə, sahil tərəfdə tikilmiş Məhəmməd məscidi və minarəsi tarixi dəqiq məlum olan ilk abidələrimizdəndir. El arasında keçmişdə ona **"Sınıq qala"** da deyərmişlər. Məscidin kitabəsində göstərilir ki, minarə Abubəkrin oğlu ustad Məhəmməd tərəfindən 1078-1079-cu illərdə inşa edilib.

Məscid çox güman ki, minarədən sonra, köhnə məscidin yerində tikilib.

XIII-XIV əsrlərdə Bakıda və Abşeron yarımadasında böyük, həmçinin məhəllədaxili çoxlu məscidlər tikilirdi. Xıdır məscidi (1301), Mirzə Əhməd məscidi (1345), Çin məscidi (XIV əsr) və başqaları.



Novxanı qəsəbəsində Şahsultan məscidi (XVII əsr), Saray qəsəbəsində Kəsrani türbələri və karvansaray, hamam, Fatmeyi kəndində Hacı Heybət məscidi (XVII əsr), Salam məscidi (XIX əsr), Masazır kəndindəki məscid (XIX əsr), türbə (XIX əsr) və s. var. O dövrdə tikilən məscidlər öz sadəliyi ilə seçilirdilər. Yalnız mehrablara bəzək-düzək vurular, ornamentlərdən az istifadə edilərdi.

Nardarandakı Hacı Baxış məscidi XVII əsr memarlığının nümunəsidir. Məsciddəki ərəb və fars dillərində yazılmış yazılardan bəlli olur ki, məscid 1662-1663-cü illərdə usta Murad Əli tərəfindən Baxışəlinin oğlu Mirzə Məhəmmədin rəhbərliyi ilə inşa edilib.





## ATƏŞGAH

Səyyahlar və şərqşünaslar Suraxanıdakı oda itaət edənlərin məbədi haqqında çoxlu məlumatlar verirlər.

XVII-XVIII əsrlərdə əcnəbi səyyahlar Kempfer, Villot, Lerx və başqalarının yazdıqlarına və hindi dilində olan məlumatlara əsasən demək olar ki, məbədin əsas hissəsi 1713-cü ildə tikilib, bir neçə dəfə qurulsa da, öz əvvəlki formasını saxlamışdır.

XIX əsrdə **Məhəmməd Əsəd bəy** "Şərqdə neft və qan" əsərində yazırdı:

*...Möminləri şər başlanğıc Anhra-Maniyadan (Əhriman) qoruyan, Bizansla Buxara arasında padşahın kim olacağını müəyyənləşdirən və işıq allahı Ahura Mazdaya (Hörmüz) citayiş edən qüdrətli kahinlər ölkəyə hökmranlıq edirdilər. ...Adi inanclılar isə odun üstünü örtən qübbə qarşısında səcdə ilə kifayətlənirdilər. Roma üzərində bir neçə dəfə qələbə çalmış Iran padşahı Azərbaycana gələr, kahinlərin ayağının tozunu öpər və kuhurinlə yuyunardı ki, bu da xalis salehlik sayılardı. Müqəddəs odu qorumaq və Romanı yenmək üçün Iranın yeni padşahına şahənşah adı verildi. Ərəblər gəlib sonuncu odsevər padşah Sursuz Yezdəgirdi öldürənə, kahinləri dağıdana, böyük Allahı maraqlı bir təbiət hadisəsi səviyyəsinə endirənə qədər əsrlər uzunu beləcə davam etdi. Ərəblərin gəlişi ilə də müqəddəs torpağın ad-sanına və aralarında da Sirus, Kambis, Dara və Artakser olan padşahlar nəslinə son qoydu ki, onların da ilk üçünün adı məktəb dərsliklərində, sonuncusu isə Herodotun adı ilə Bibliyada çəkilir.*

*Odsevərlər məhv edildi, onlar islama keçib Azərbaycan adının anlamını unutdular:"Əbədi odun müqəddəs məskəni". Zərdüşt tərəfdarlarının son qalıqları Hindistana və Iran Yəzdinə qaçdılar ki, onlar bu gün də orada yaşayırlar.*

## BİBİ -HEYBƏT MƏSÇİDİ



Bibi-Heybət məscidi Bakıdan 4-5 km aralı, Xəzər dənizinin 0,5 kilometrliyində, yamacda XIII əsrdə Şirvanşah II Fərruxzad tərəfindən inşa edilmişdir. Məscidin divarındakı kitabədən A. Bakıxanov, P.I. Berezin, B. Dorn, N. O. Xanıkov bəhs etmişlər. Həmin kitabədə məscidin 1281-1282-ci illərdə II Fərruxzad ibn II Aksitan ibn III Fəribürzün tərəfindən memar Mahmud ibn Sədin tikdiyi bildirilir.

Kitabədə belə bir yazı diqqəti cəlb etmişdir:

**"Bu məscidi tikməyi əzəmətli məlik, böyük sultan, dövlətin və dinin qoruyucusu, möminlər əmirinin köməkçisi, Əbü-l-Fəth Fərruxzad ibn Axsitan özünə rəva görmüşdür. Allah onun hakimiyyətini ucaltsın".**

Bu əzəmətli türbədə VII imam Museyi- Kazımın qızı Həzrət Həkimə və imamın daha üç- iki oğlan və bir qız nəvəsi uyuyur.

Bəzi tarixi rəvayətlərdə onların Azərbaycana gəlişi islam dininin təbliği və islamın Azərbaycana yayılması ilə bağlıdır.

Digər bir tarixi rəvayətdə isə deyilir ki, imam Rza Bağdad xəlifəsi Harun Ər-Rəşidin oğlu Xəlifə Məmun tərəfindən Xorasan şəhərində zəhərləndirildikdən sonra, imam övladlarının peyğəmbərin dəfn olunduğu Mədinə şəhərinə buraxılması yasaq edildi.

Sevimli qardaşının ölümündən sonra imam Museyi- Kazımın 3 nəvəsi ilə Həzrət Həkimə xanım İranın Ənzəli şəhərinə zəvvar olur. Ənzəlidən isə xeyirxahı Baba Sucədin vasitəsilə Bakı limanına gəlir. Baba Sucəd Bakını Həzrət Həkimə üçün təhlükəsiz bildiyindən, xanımı Hacı Bədir adlı imkanlı







bir dostuna tapşırır.

232899

Hacı Bədir varlı, ədəbli, sadiq bir insan olduğundan bütü ömrü boyu Həzrət Həkimə xanımın xidmətkarı olmuşdu Düşmənlərinə xəbər çatmasın deyə, Həzrətin əsl adını gizl dib, ona "Bibi", - deyə müraciət etmişdir.

"Əlifba" sözü bildiyimiz kimi ərəb əlifbasının birin "Əlif" və ikinci "Bə" hərflərinin adlarından götürülmüşdü Hacı Bədir də "Hacı" sözünün birinci hərfi "Hey" və "Bədi sözünün birinci "Bə" adlarından istifadə edərək "Heybət" gi li adını qəbul etmişdir.

İmam Museyi- Kazımın 3 nəvəsini və onun sevimli q Həzrət Həkiməni himayə edən Hacı Bədir onları bütün qalm qal və dedi-qodulardan, təqib və zülmlərdən hifz etmişdir.

1257-ci ildə dünyasını dəyişən xanım ərə getməmiş, ö rünü qardaş və bacı balalarına həsr etmişdir.

Hacı Bədir öz arzusuyla xanımın ayaq tərəfində dəfn e mişdir. Bu, azərbaycanlı Hacı Bədirin xanım həzrətlərinə ümumən islam dünyasına olan sədaqət və məhəbbətinin tə hürü idi.

XIX əsrin ən görkəmli şəxsiyyətlərindən olan, Azərb can xalqının şairə qızı Xurşidbanu Natəvan ərə gedəndən



M.F. Axundov adına Azərbaycan MK Kitabxanası

neçə il keçdikdən sonra övladı olmamış və həzrət Həkimə xanımın ziyarətinə gələrək Allahdan övlad diləmişdir. Oğlu dünyaya gələndən sonra balasını qolları üstə alıb Həzrət Həkimə xanımın ziyarətinə gəldiyini söyləyirlər. Niyyəti həyata keçən Xan qızı Şıx yolunu saldırmışdır.

Həzrət Həkimə xanımın türbəsini Quba xanı Fətəli xan da tez-tez ziyarət edərmiş. Bu ziyarətlərin birində dünyasını dəyişən Fətəli xan elə müqəddəslərin dəfn olunduğu məzarlıqda öz arzusuyla torpağa tapşırılır.

Sovet hakimiyyəti illərində, daşa doğrusu 1934-cü ilin sentyabrında o illərin sərt küləkləri Xanım Həzrətlərinin müqəddəs türbəsindən də yan keçmədi. Dinamitlə partladılan məscid və minarə yerlə-yeksan oldu.

Bibi- Heybət məscidinin bərpası kimi sağalmaz bir yara yalnız **mərhum prezidentimiz Heydər Əliyev** işə qarışdıqdan və onu şəxsi himayəsinə götürdükdən sonra öz həllini tapdı. Müqəddəs ziyarətgahımız bu gün çox yüksək səviyyədə bərpa edilərək xalqın ixtiyarına verilmişdir.

**Ziyarətgahın axundu Hacı Hikmət Əlizadədir.**

*"Kim Peyğəmbərə itaət etmiş olarsa, Allaha itaət etmiş olar."*





## NARDARAN PİRİ



Nardaran piri bakılıların və Abşeron əhlinin əsrlərlə iman gətirdikləri bir inanc yeridir. Türbə binası memarlıq-konstruktiv quruluşuna görə XIII-XIV əsrlərə aid edilir.

Kitabəsində yazılıb:

"Bu mübarək məscidin, Allahın salavatına yetişəcək evin bina olunmasına, iki müqəddəs məkanın, Hacıların seçilmişi, dövrün yeganəsi, böyük sədr X cə Hacı Həmzə ibn Qutlu Mahmud Şahabadi-Allah onun m vəffəqiyyətini əbədi etsin-765-ci (1364-1365) ildə əmr etm dir".

Kitabədə qeyd olunan Xacə Hacı Həmzə Şirvanşah dövlətində baş sədr vəzifəsində işləmişdir. Bu sərdabədə \ Imam - Museyi-Kazımın qızı, VIII Imam Rzanın bacısı xan Rəhimə dəfn olunub.

Bu gün Nardaran kəndinin nər oğulları xanım Rəhimə məqbərəsini Şərqin çox möhtəşəm bir abidəsi kimi qoşa ı narə ilə göylərə ucaldıb. **Hacı Hafiz Həsən oğlunun** gördi bu xeyirxah və misilsiz işi müqabilində şübhəsiz ki, uca Al onu da ucaldar.

Onu da xatırladaq ki, **ümummilli liderimiz, mərh Heydər Əliyev** Nardaran pirində ziyarətdə olmuş, pirin xa kitabına öz ürək sözlərini yazmışdır.

1999-cü ildə cənab prezidentimiz Ilham Əliyevin qay və şəxsi təşəbbüsü ilə pirə uzaq ellərdən gələn zəvvarl qalması, dincəlməsi üçün bir qonaq evi ayrılmış zəvvarları tifadəsinə verilmişdir.

Allah köməyi olsun.

"Nardaran piri" memarlıq abidələri və bədii daşyo

əsərləri kompleksində bir neçə məscid, məqbərə, başdaşı, sənduqə formalı tarixi mədəniyyət abidələri cəmləşmişdir.

Ziyarətgahın **axundu Hacı Ədalət** bura üz tutub pənah gətirənlərə yüksək səviyyədə xidmət göstərilməsini daim öz nəzarətində saxlayır.

## CAME MƏSCİDİ



Azərbaycanın ictimai-siyasi həyatında came məscidlərinin rolu əvəzsizdir. Mühüm dövlət sənədləri, şah fərmanları camelər vasitəsi ilə xalqa çatdırılırdı. Came məscidlərinin nəzdində mədrəsələr fəaliyyət göstərirdi. Bakı, Gəncə, Şamaxı, Ordubad və digər şəhərlərdə fəaliyyət göstərmiş və bu gün də öz əzəmətini qoruyub saxlayan bu böyük islam mərkəzləri həm dinimizin yayılmasında, həm əhalinin savadlanmasında, həm də dünyəvi elmlərin-həndəsə, təbabət, fəlsəfə və s.nin öyrənilməsində mühüm rol oynamış böyük elm mərkəzləri idi. Came məscidlərində dərin biliyə, hərtərəfli dünyagörüşə malik alimlər toplaşırdılar.

Islam dünyasında xüsusi rolu olmuş Bakı Came məscidi altı guşəli formadadır. Divarlarında xırda pəncərələri olub. Bu came Təbrizdəki Əlişah məscidi ilə eyni üslubda tikilib. Binada ibadət üçün kişi və qadınlara yer ayrılıb. Qala divarlarına bitişik Came məscidinin daşları arasından tapılmış yazını Məşədixanım Nemət və A. Pavlinov oxuyublar. Sətri tərcüməsi belədir: ***"Bu imarətin təzələnməsini Əmir Şərafəddin Mahmud əmr edib (1309-1310)".***

Məsciddən fərqli olaraq burada XV əsrdə tikilmiş minarə daha yaxşı vəziyyətdə qalıb.





## KEŞLƏ ŞAH ABBAS MƏSCİDİ



Keşlə Şah Abbas məscidi digər məscidlərimizdən əsaslı surətdə fərqlənir. 12 metr uzunluğunda olan məscid kvadrat formasındadır. Tikintisi XVII əsrə aid edilir. Kəndin yaşlı ağsaqqallarının dediklərinə görə keçmişdə məscidin arxa tərəfində divarda güclə hiss edilən bir şəkil həkk edilmişdi. Günorta günəş məscidin arxa diva na düşdüyü zaman kəndin camaatı gözəl bir mənzərənin şal di olurmuş. Divarda Şiri-Xurşud nişanı bütün əzəməti ilə n zərə çarparmış. Məlum olduğu kimi bu nişan Şah Abbas bayrağında əks olunmuşdu. Sonralar məscid yaxınlığında en ji stansiyası tikildiyinə, həmin yer kölgədə qaldığına görə ı şanı görmək mümkün olmamışdır.

Məscid uzun illər bağlı olmuşdur. Nəhayət yenidənqurı illərində, 1988-ci ildə kəndin mötəbər ağsaqqalları **Kərbəl Məşədi Mirzağa Əliyev** (o, həm də məscidin ilk axundu muşdur), **Vəlican Kərimov, Həbib Məcidov** və başqaların təşəbbüsü və yaxından iştirakı ilə məscidin açılışı olmuş camaatın istifadəsinə verilmişdir. Məscidin axundu Hacı Ə dülhəsənin rəhbərliyi ilə icmanın üzvləri və kəndin xeyir ağsaqqalları məscidi əsaslı təmir etdirmiş, burada əlavə ot lar, Quran sinfi tikilmiş, dəstəmazxana yenidən qurulmuş Bu yaxınlarda isə **soyadının hallanmasını istəməyən bir yirxah, nəcib insan** da öz şəxsi vəsaiti hesabına məsci xeyli abadlıq işləri gördürmüşdür.

Məscidin axundu yüksək əxlaqlı, dərin bilikli, nəcib qardaşımız **Hacı Əbdülhəsəndir.** Müdiri isə **Hacı Yəhya**

## ƏJDƏR BƏY MƏSCİDİ (GÖY MƏSCİD)



Ötən əsrin əvvəllərində neft və milyonlar səltənətinə çevrilmiş Bakı şəhəri sürətlə inkişaf edirdi. Bu dövrdə cəmiyyətin sosial-iqtisadi həyatında mühüm rol oynayan məscid və mədrəsələrin də sayı artmaqda idi. Onu da xatırlatmaq yerinə düşərdi ki, ümumiyyətlə bu dövrdə Bakı və ətraf qəsəbələrdəki əksər tikililər Hacı Zeynalabdin Tağıyevin adı ilə bağlıdır.

Məscid əsrin əvvəllərində "Ittifaq" məscidinin yerində inşa edilib. 1906-cı ildə Sabunçu kəndindən olan Əjdər bəy Aşurbəyzadə (1854-1920) 30 kq qızıla bu yeri pristavdan satın alıbmış.

Tarixi sənədlərdən məlum olur ki, məscidin inşası 1912-ci ildə başa çatıb. Gümbəzində "Cümə" surəsi nəqş edilib. Çöldə, qapının üstündə Merac ayəsi kitabəyə salınıb. "Sübhanə əlləzi əsra biəbdib leylən min əl məscidül- həram 1321". Sətri tərcüməsi belədir: Pak olan Allah həzrəti peyğəmbəri gecə vaxtı Məscidül-həramdan meraca göndərdi.

Digər kitabədə isə məsçidi inşa etdirənin adı həkk olunub: "Əz vağirul şərif Hacı Əjdər bəy ibn Ibrahimbəy ibn mərhum Musabəy Aşurzadə (1275-1345)".

Qeyd edək ki, Əjdər bəyin özü məscidin girişində dəfn edilib.

Azərbaycanda şura hökuməti qurulandan 1943-cü ilə qədər məscid bağlı olub. Uzun müddət Allah evi at saxlamaq üçün istifadə olunub. Lakin 1943-cü ildə I.V.Stalin Tehran konfransına gedərkən M. C. Bağırova təcili olaraq həmin məscidi boşaltdırıb camaatın istifadəsinə verməyi tapşırıb. Çünki





bir vaxtlar, Stalin Bakıda yaşayarkən təqiblərdən qaçıb b məsciddə gizlənmiş, canını xilas etmişdi.

Bu məsciddə dövrümüzün məşhur şeyxləri, müctehid v üləmaları çalışmışlar.

Hal-hazırda məscidə **Hacı Səlimxan Ağalı oğlu** rəhbərli edir.

Bu yaxınlarda **Qafqaz Müsəlmanları Ruhani Idarəsini sədri Hacı Allahşükür Paşazadənin** köməkliyi və **Hacı S limxanın** dəstəyi ilə məsciddə yenidənqurma işləri görülmü həyəti genişləndirilmiş, su quyusu vurulmuş, yuyucuxana k çürülərək ayrıca girişlə təmin edilmişdir.

Bu məscidin fondundan hər ay onlarla imkansız ailə yardım göstərilir. Əjdər bəyin qız nəvəsi Əsli xanıma da ya dım etmək unudulmur.

Məscidin axundları **Hacı Ismayıl və Hacı Ilham**, dini i manın sədri **Hacı Səlimxan** müsəlman bacı-qardaşlarımı yüksək dini xidmət göstərmək üçün əllərindən gələni əsirg mirlər.

## TƏZƏ PİR MƏSÇİDİ



Bakıda yaşayan **Nabat xanım Xocabəy qızı Aşurbəyli** ərindən və atasından ona miras qalmış varidatla bu qoşa minarəli məscidi tikdirdi. Zivər bəy Əhmədbəyovun nəfis layihəsi ilə inşa edilən bu ibadətgahın əsası 1905-ci ildə qoyulmuş, inşası 1914-cü ildə sona yetmişdir. Şahidi olanlar söyləyirdilər ki, məscidin inşası tamam olub axırıncı daşı qalanda bənna əl saxlayır ki, gərək bütün bənnaların başçısı Hacı Zeynalabdin Tağıyev gəlib binanı tamamlasın, bünövrəsini o qoyub, axır cı daşı da o qoymalıdır. Hacının dalınca adam göndərirlər. (

lir və axırıncı daşı hörür. Bənnaya və usta köməkçilərinə bir el ağsaqqalı kimi şirinlik paylayır.

Məscidin tikintisini həyəcan və təlaşla gözləyən Nabat xanıma çox təəssüf ki, ömür vəfa etmir. Səbirsizliklə gözlədiyi gün ona qismət olmur. 1912-ci ildə, yəni məscid tikilməmişdən iki il əvvəl dünyasını dəyişən Nabat xanım məscidin eyvanında, baş qapısının sağ tərəfində dəfn edilir.

## HACI SOLTANƏLİ MƏSCİDİ



1904-cü ildə Bakının tanınmış axundlarından biri bu məscidin bünövrəsini qoyub. Bu gün "Axund hamamı" kimi tanınan, "Nizami" metrosunun arxasında yerləşən hamamı da o tikdirib. Axund məscidin bünövrəsini tökdükdən sonra xəstələndiyinə görə tikilini davam etdirə bilmir. Hacı Soltanəli Haşımov həmin tikilini satın alır və məscidin inşasına başlayır. Hacı Soltanəli dövrünün xeyirxah, imanlı hacılarından idi. Hələ bu məsciddən əvvəl Balaxanıda, Lahıc bağlarında da məscidlər inşa etdirmişdi.

Məscidin inşası 1910-cu ildə başa çatdırılıb. Tikintidə Şərq memarlıq üslubunun formalarından yüksək məharətlə istifadə edilib. Kümbəzi və divarlarındakı arkalarda 14 məsumun adları həkk olunub.

Hacı Soltanəli məscidi Sovet hakimiyyəti illərində müxtəlif təyinatlar üzrə istifadə olunub. Uzun müddət burada hərbi yataqxana, dərzixana, musiqi məktəbi yerləşib.

1992-ci ildə məscid yenidən müsəlman bacı-qardaşlarımıza qaytarılıb.

Əvvəllər məscidin 10 metr hündürlüyündə minarəsi olub. Lakin sonralar həmin minarə 8 yerdən çatlamış, uçmaq təhlü-





kəsi ilə üzləşmişdi. Moskvada yaşayan iş adamı, xalqımızı nəcib, xeyirxah oğlu **Hacı Arif Həmid oğlu** 1995-ci ildə ö şəxsi vəsaiti hesabına məscidi əsaslı təmir etdirdi, köhnə m nara sökülüb yenisi, daha möhtəşəmi ilə əvəz olundu.

Hacı Arif həmin tikinti işlərində çalışan 24 nəfər usta v fəhləni öz hesabına Kərbəlaya, Suriyaya ziyarətə göndərd Məscidin axundu **Hacı Mirənnağı Hacı Mirqədir oğlunu** v memarını isə Məkkə ziyarətinə yola saldı.

Məscid bu gün respublikada fəaliyyət göstərən möhtəşə dini abidələrimizdən biridir.

## "ƏLİ AYAĞI" QƏDƏMGAHI



Bir çox qədim tarixi mənbələrdə Buzovna ilə bağlı məlumatlara rast gəlinir. Buradakı tarixi- memarlıq abidələri, türbələr, **(seyid Qasım, Şeyx Cavad, seyid Gülşan)**, "Qara paltar" piri (1306), "Xəlifə Əli və Məhəmməd mömin" türbəsinin qalıqları dediklərimizə əyani sübutdur. Bu cür abidələr göst rir ki, Buzovna İslamın erkən təşəkkül tapdığı, yüksək mə səbli din xadimlərinin, imamlarımızın və onların övladların mehr saldığı bir müqəddəs məkan olmuşdur.

Qəsəbədəki "Əli ayağı" qədəmgahı isə imam Həzrət Ə ə.s.-nın adı ilə bağlıdır. Bəzi tarixçilərimiz Həzrət Əlinin b ra necə gəlib çıxdığını əsaslandırmağa çətinlik çəkirlər. E isə peyğəmbər salavatullahın Məscidül-həramdan merа qalxmasını necə izah edə bilərlər? Hər gün yüz minlərlə ins dara düşəndə Allahın sevimli imamı Həzrət Əlini köməyə ğırır və nicat tapırlarsa, Əli ə.s. onların hayına necə yetişir

1919-cu ildə Bakı Dövlət Darülfünündə müəllim işləmiş görkəmli alim **Mirzə Məmmədağa yazırdı:**

"Deyilənlərə və əsrimizə gəlib çatan rəvayətlərə görə, Hicrətin 13-cü ilində naməlum bir dəstə Abşerona gəlib, hər yeri gəzib və heç kimlə əlaqə saxlamayıb.

Məkkə və Mədinədən tez-tez Bakıya ticarət etməyə gələn və imamı tanıyan iki qardaşdan biri dəniz kənarında bu atlı dəstəsini görür və məəttəl qalır. O, diz çökərək dəstə başçısından soruşur:

- Ya Əli, siz burda neyləyirsiniz?!

Həzrət onu tanıdıqları üçün hirslə bir ayağı üzəngidə, bir ayağı yerdə ata qalxır. Soruşur ki, onu haradan tanıyır?

O, tacir olduğunu, tez-tez Məkkə və Mədinədən Bakıya gəldiyini və Həzrəti oradan tanıdığını bildirir.

Həzrət Əli ə.s. ata minərək o yerdən uzaqlaşır. Tacir dəstə getdikdən sonra qayanın üstündə imamın ata qalxdığı anda ləpirinin və atın dırnaqlarının yerinin qaldığını görüb ətrafdakı insanları bu möcüzəyə baxmağa dəvət etmişdir.

O vaxtdan həmin yer müqəddəs hesab edilmiş və insanların ziyarətgahına çevrilmişdir. Hətta çar canişinliyi burada baş verən möcüzələri eşidərək 10 nəfər ruhaninin şahidliyi ilə 1861-ci ildə 12647 saylı nömrə siyahısı ilə qədəmgahı rəsmi qeydiyyata almış və Şeyx Kərbəlayi Əliyarın oğlu Şeyx Hacı Hüseynəlini qədəmgaha nəzarətçi təyin etmişdi.

Sovet hakimiyyəti illərində əksər abidələrimiz kimi, buradakı tikililərə də böyük ziyan vurulmuşdu. Müstəqillik əldə etdikdən sonra digər dini sərvətlərimiz, tarixi abidələrimiz kimi, qədəmgah da abadlaşdırıldı.

1986-cı ildə qəsəbənin nüfuzlu ağsaqqalları başda **Hacı Soltan olmaqla Xosrov Xudabaxış oğlu, Hacı Salman** Hacı Arifə müqəddəs "Əli ayağı" ziyarətgahına nəzarət etməyi tövsiyyə etdilər.

Qədəmgahın abadlaşdırılması və yenidən ərsəyə gəlməsində **Şeyx Hacı Arifin və Neft Akademiyasının professoru və qədəmgahın baş müşaviri, texnika elmləri namizədi**







**Gərşivəz Quliyevin** də müstəsna xidmətləri olmuşdur. Onl[a] burada işlədiyi dövrdə qədəmgahın bir şüarı olub və bu gü[n] də belədir: **Gələn paylanır, yoxsa- Allaha şükür olunur.**

Qədəmgahın gördüyü xeyriyyə işlərini sadalamaqla qurta[r]maz. Buzovnada yerləşən Qocalar və Əlillər evində vəfat e[t]miş kimsəsizlərin dəfn mərasimi Qədəmgah tərəfindən həy[a]ta keçirilir və bu rəqəm artıq beş yüzü keçib. Azərbaycan[ın] müxtəlif bölgələrindən olan iki yüzə qədər imkansız insanı [a]z da olsa aylıq yaşamaq minumumu ilə təmin edir. Bundan ba[ş]qa hər il Həzrəti imam Hüseynin qətlinin 40-cı günü qədən[g]ahda işçilər və zəvvarlar tərəfindən qan verilir və bu qan e[h]tiyacı olanlara- xəstəxanalara verilir. Bundan başqa Buzovn[a]da yerləşən Gindes adına Vərəm dispanserinə və hospitala [d]a müəyyən yardımlar göstərilir.

Qədəmgaha uzun illər rəhbərlik etmiş Şeyx Hacı Arif[in] ölümü ilə də bütün müsəlman qardaş və bacılarımıza bir örn[ək] oldu. Öz vəsiyyəti ilə imkansızların, kimsəsizlərin torpağa ta[p]şırıldığı qəbirstanlıqda dəfn edildi. Bu əməli ilə də Hacı insa[n]lığın, böyüklüyün, xeyirxahlığın ən bariz nümunəsi oldu.

1994-cü ildə Ramazan bayramı günlərində ümummilli liderimiz, mərhum Heydər Əliyev qədəmgahı ziyarət etmiş və ziyarətgahın fəxri kitabında öz ürək sözlərini yazmışdı:

***"Bu gün, Ramazan bayramı günü bu müqəddəs yeri ziyarət etməyimdən çox məmnunam. Bu ibadətgahı qoruyan, saxlayan və abadlaşdıran vətənpərvər insanlara hörmət və ehtiramımı bildirirəm. Bayramınız mübarək olsun".***

Doğrudan da eloğlularımız ziyarətgahı abadlaşdırmış, yenidən qurmuşlar.



Xeyirxah insan **Hacı Isaq Məmmədrəhim oğlu**nun şəxsi vəsaiti hesabına qədəmgahda şərq memarlıq üslubunda məscid inşa edildi. **Azər qardaşımız** Qədəmgahın üstünü götürtdü. **Məhbubə xanım, Hacı Rahib** qədəmgahda müəyyən işlər görmüşlər. Onlarla adlarını sadalamadığımız eloğlularımız da qədəmgahın abadlaşmasında böyük zəhmət çəkmişlər.

Bu gün nəinki respublikamızın rayonlarından, eləcə də xarici ölkələrdən yüzlərlə bacı-qardaşlarımız, başqa millətlərin nümayəndələri də ziyarətgaha gəlirlər. Hətta "Neftçi" yığma komandasının keçmiş qapıçısı Koramarenkonun oğlu burada müsəlman dinini qəbul edib.

Indiyənədək bu qədəmgahda minlərlə kəramət baş verib. Yüzlərlə dili tutulan, ruhi xəstələr, müxtəlif dərdlərə düçar olanlar qədəmgahın kəraməti sayəsində şəfa tapmış, minlərlə insan öz arzu-diləklərinə yetişmişlər.

Hər hansı bir xeyir işə başlayanlar, uzaq səfərə gedənlər, təzə ailə həyatı quranların da ziyarətə gəlməsi Bakı və Bakı ətrafı kəndlərin camaatının bir ənənəsinə çevrilib. "Əli ayağı" qədəmgahına ziyarətə gələnlər heç vaxt buradan naümid geri qayıtmırlar.





Keçmişdə olduğu kimi, indi də müqəddəs yerlərə gedə zəvvarların əksəriyyəti ziyarətini bu ocaqdan başlayır və b ocağın xeyir- duası ilə ziyarətlərini davam etdirirlər.

Hal-hazırda Qədəmgaha rəhmətlik Hacı Şeyx Arifin oğl İslam Universitetinin məzunu **Hacı Maarif** rəhbərlik edir. D ni məsələlərdə isə ona qardaşı, dərin bilikli din xadimi **Ha Vasif**, Buzovna qəsəbəsinin axundu **Hacı Soltan** və ümumi yətlə, bütün el-oba köməklik göstərir.

Uzun müddət burada müşavirlik etmiş Neft Akademiya nın professoru, texnika elmləri namizədi Gərşivəz Əhməd ( lunun yerində isə oğlu **Təhmasib Quliyev** baş müşavir ki əlindən gələn köməkliyi heç kəsdən əsirgəmir.

Allahköməkləri olsun!

## ƏLİDİR

Mömin sayılan hər kəsin ünvanı Əlidir,
Təqvadə mükəmməl olanın canı Əlidir.
Xəlq eylədi əvvəlcə Əli nurunu Allah,
Dünyaya səbəb xilqəti-fərmani Əlidir.

Bildinmi necə əfv eylədi Adəmi Xaliq,
Bu mənfirətin rəhməti-cüfrani Əlidir.
Fəryadə gəlib Nuh eyləyib ahu-fəqani,
Çün dadə yetən sevgili-canani Əlidir.

Fironu necə qərq eylədi Həzrəti Musa,
Dəryani bölən möcüzi-bürhani Əlidir.
Ibrahim üçün atəşi göndərdi Ilahi,
Bir gülşənə ki, bülbülü-nalani Əlidir.
Insanı çəkib dardan ərşə aparandır,
Aləmdəki müşküllərin asani Əlidir.

Meraca gedib Əhmədi Mahmudi Mühəmməd,
Kəşf etdi bəşər dərdinin dərmani Əlidir.
Yerdən göyə meracı elədi "Nəhcül-bəlağə",
Ümmül-kitabın qardaşı, Qurani-Əlidir.

Kafirlər üçün Zülfüqarı lərzədir, çünki,
Islamın əsil xəncəri-üryani Əlidir.
Bir şah Mühəmməddi, Nəbilər ona ulduz,
Bu mənzərənin bürcüsi-Keyvani Əlidir.

Hatəmdə səxavət var idi, sözdü deyirlər,
Mövzu bu səxavətdisə, ümmani Əlidir.
Pərvanə Həsən ilə Hüseyndir ona şəksiz,
Zəhra evinin şəbi-şəbistanı Əlidir.

Səcdə eləmək bəxşdi Səccadə Əlidən,
Baqir sözünün gizli nigahbani Əlidir.
Cəfər dediyim babi-ülum babi-Əlidən,
Kazim-nəfəsi-rayihəyi-cani-Əlidir.

Göz yaşı ilə bəhs elə biçarə Rizadan,
Qürbətdə bitən bir gülü- reyhani-Əlidir.
Yem dadinə, ey Şahi-Nəcəf, zari Təqinin,
Fəryadrəs ol, çün onun əfqani Əlidir.
Dünyada Nəqi vardır, Həsən Əsgəri vardır,
Hər ikisinin dəhridə meydani Əlidir.

Mehdi gələcək, oldu zaman- sahibi, çünki,
Hər vaxt onun ərseyi-dövrani Əlidir.
Kim ki, onu sevdi dəxi cənnət nə gərəkdi,
Aşiqlərinin rövzeyi-rizvani Əlidir.

Sidqilə onu daima sevmiş Hacı Soltan,
Sadiq olanın daimi Soltani- Əlidir.

***Axund Hacı Soltan Əlizadə***





## PİRHƏFTƏXAR PİRİ




Deyilənlərə və dövrümüzə gəlib çatan rəvayətlərə əsasən, Bilgəh qəsəbəsində Pirhəftəxar pirində imam Museyi-Kazımın başqa bir qızı - **Leyla xanım** dəfn edilmişdir. Xanımın dəfn edildiyi məkan əvvəllər qədim qəbiristanlıq olmuşdur. Pirhəftəxar - həftənin gəlini mənasını verir. Deyilənə görə, Leyla xanım ailə həyatı qurandan bir həftə sonra vəfat edib. Hələ lap qədim vaxtlardan bu yer yerli əhalinin, ətraf bölgələrdən gələnlərin ziyarətgа olub. Lakin sovet hakimiyyəti illərində pir baxımsızlıq ucı tından acınacaqlı vəziyyətə düşmüşdü. Sağ olsun xalqımı: qeyrətli oğul və qızlarını.

90-cı illərdə pir abadlaşdırılmağa başlanıldı. 2002-ci il ilahi vergili, xeyirxah insan, ocağından çoxlarının şəfa tapd Hacı Etibar Misir oğlu Nəsibovun şəxsi vəsaiti hesabına bu da təmir işləri görülmüşdü. 2004-cü ildə isə adının açıqlanı sını istəməyən çox nəcib bir xanım pirdə əsaslı surətdə təı işləri gördürməyə başlamışdır.

Bu gün pirin görkəmi əməlli-başlı dəyişilib. Bura ziyar gələnlər üçün hər cür şərait yaradılıb.

Allah-təala pirin abadlaşmasında böyük zəhmət çəkəı nəcib xanımın ailəsinin, balalarının üstündən Leyla xanı nəfəsini heç vaxt əskik eləməsin.

Onu da qeyd edək ki, Pirhəftəxara ziyarətə gələn insa ra **Hacı Abbasqulu** və həyat yoldaşı **Səmərrux bacı** xid göstərirlər.

# AQİL BABA, YEDDİ QAPI ZİYARƏTGAHI



Maştağa qəsəbəsindəki ulu, nəcib seyidlərimizdən biri də 425 il bundan əvvəl yaşamış **seyid Mirkamil ağadır.** Keçmiş zamanlarda onun qəbrinin üstündə seyid Pənah seyid Şahmar oğlu tərəfindən məqbərə tikilmişdir.

Seyid Mirkamil ağa uzunömürlü olub. Rəvayətə görə 125 il ömür yaşayıb. O, dövrünün müdrik, aqil, sınaqlı, kəramətli seyidi idi. Elə ona görə də el arasında ona çox vaxt "Aqil baba" deyə müraciət edərdilər.

Şah Abbas öz hakimiyyəti illərində göstəriş vermişdi ki, Azərbaycanın bütün bölgələrində məscidlər tikilsin. Fərmandan müəyyən bir vaxt keçəndən sonra onun yerinə yetirilməsinin nəticələrini öyrənmək üçün Şah Abbas səfərə yollanır. Gəzə-gəzə gəlib Maştağa qəsəbəsinə çıxır. Burada ilahi vergili, imam Hüseyn ə.s nəslindən olan seyid Mirkamil adlı bir seyidin kəramətləri barəsində xəbər tutur. Şah Abbas seyid Mirkamil ağanı sınamaq istəyir. Tərxi-libas olub dərviş paltarında ağanın Güladizidəki bağına yollanır. Soraqlayıb ağanın bağını tapır. Bərk istilər keçirmiş. Şah Abbas ağanın bağının qapısını döyür. Görür ki, ağa yayın istisində ləklərdən alaq otlarını təmizləyir. Yaxınlaşıb salam verir.

Seyid Mirkamil ağa:

- Xoş gəlmisən, şahım, - deyə salamı alır.

Şah Abbas onu necə tanıdığına məəttəl qalır. Deyir ki, madam ki, sən belə qüdrətli, kəramətlisən, niyə bir dua etmirsən ki, otlar- alaq özü təmizlənsin?

Seyid Mirkamil ağa ixtisarə edir. Ləkdə olan alaq otları kənara tökülür.





Yenə dua oxuyur. Otlar yenə öz yerinə qayıdır. Ağa Ş. Abbasa öz möcüzəsini göstərəndən sonra deyir ki, bu, məni zəhmətimdi. Onu çəkməliyəm.

Şah Abbas seyid Mirkamil ağanın özü ilə aparmaq istə də o razılaşmır...

Seyid Mirkamil ağanın dəfn edildiyi qəbirstanlıq "Seyid qəbirstanlığı" adlanır. Onun buradakı qəbri üstündə **Hacı sey Muxtar ağa** gözəl bir kümbəz ucaldıb, tikinti işləri görüb, çəkdirib. O rəhmətə gedəndən sonra onun xeyirxah əməlle ni oğlu **seyid Əkbər ağa** davam etdirib. Seyid Əkbər bura məscid tikdirib, yollar salıb, ziyarətgahın həyətində gül-çiç əkdirib, bir çox xeyirxah işlərin təşəbbüskeşi və icraçısı ol

Onu da xatırladaq ki, seyid Mirkamil ağanın kümbəzi içərisində **Ağamir Əbdülqəni ağa və iki oğlu, o cümləd axund Mircavad, axund seyid Məhəmməd** də dəfn edilibl

Ağanın kümbəzinin yanında daha iki kümbəz ucaldılıb.

Birinci kümbəz onun nəslinin davamçısı, özü kimi kə mətli, sınaqlı **seyid Ibad ağa (19 1972) və bacısı Xədicə xanımın dır.**



**Seyid Ibad Kərbəlayi seyid ı dı oğlu** Maştağada doğulmuş Qardaşları **seyid Miryəhya və M möhsün** müharibəyə getmiş və o rın qara kağızları gəlmişdir.

Seyid Ibad ağa dünya malı gözü olmayan, xeyirxah əməllər çısı idi. Minlərlə insan onun ya pənah gətirər, dərdlərinə şəfa ta dılar. Böyük Vətən müharibəsi rində ağaya çoxlu sayda gətirilən zir-niyazı o fağırlara, xəstəxanalara paylayırdı. Bəzən "Tərki dünya" da deyirdilər. Çünki onu nə vaxt çağırsan mişə haya çatandı.



Onun yaşadığı evi bu gün ziyarətgaha çevrilib. Ocaqdan 300 nəfərə yaxın imkansıza maddi yardım göstərilir.

Seyid Ibad ağanın ocağında Hacı seyid Məhəmməd ağanın bacısı oğlanları, **seyid Əkbər, Məşədi Adil və Məşədi Qasıməli** ziyarətə gələnlərə xidmət göstərir, insanlara dua edirlər.

Seyid Mirkamil və seyid Ibad ağanın kümbəzlərindən bir az aralıda dövrünün oxumuş, dərin savadlı, neçə-neçə alim yetişdirmiş **axund Mir Həbib ağa oğlu Mir Mustafa** ilə dəfn ediliblər. Onların üstündə də xeyirxah eloğullarımız kümbəz ucaldıblar.



Bu qədim qəbirstanlığa ziyarətə gələnlər ilk növbədə qorxu pirindən- həştəridən, yeddi qapıdan ibarət, "Cənnət qapısı" deyilən qapılardan keçirlər. Bu ocağın da böyük kəraməti var. Dili tutulanlar, müxtəlif əsəb xəstəlikləri keçirənlər bu qapılardan keçir və şəfa tapırlar.

Aqil baba və yeddi qapı ziyarətgahına Maştağa qəsəbə sakini, nurlu insan, xoş əməlləri ilə el-obanın, ziyarətə gələnlərin dərin hörmətini qazanmış **Hacı seyid Məhəmməd ağa Məşədi Mirrəcəb oğlu** rəhbərlik edir.

Allah köməyi olsun!

**Nadir Rzayev,**
*"Azərbaycan mədəniyyəti və incəsənəti" qəzetinin baş redaktoru*





## PİRHƏSƏN TÜRBƏSİ



Mərdəkan qəsəbəsində yerləşən bu türbə XVII əsrə aid edilir. Düzbucaqlı formasında olan türbənin giriş hissəsindəki kitabədə yazılıb: "Bu mübarək məqbərə ən kamil insanların nümunəsi Pirhəsənindir. Əzəmətli xaqan Şah Abbas (Allah onun hökmranlığını əbədiləşdirsi vaxtında Dərviş əl -Hüseyni tikdirmişdir. 1021-ci il" (161 1613-cü illər). Ustası Nadirəli Yarəli oğludur.

Əsrlərlə bu türbə insanların pənah gətirdiyi ziyarətgahl dan olub. Bu da onu göstərir ki, Pirhəsən müqəddəs bir şə siyyət olaraq hələ qədim zamanlarda da camaatın inanc y idi. Sonralar türbənin yanında bir məqbərə də tikilib. Yı əhalinin, yaşlı adamların dediklərinə görə burada 7-ci imaı mız Museyi-Kazımın qızlarından biri - **xanım Xədicə** d edilib. Məqbərədəki sinə daşı olduqca uzaq keçmişimizı xəbər verir. Çox güman ki, Pirhəsən türbəsinin yerləşdiyi ə zidə qədim qəbirstanlıq olub.

Uzun müddət türbə baxımsızlıq üzündən bərbad vəziy tə düşmüşdü. 1994-cü ildə qəsəbə sakini, imam- peyğəm aşiqi **Kərbəlayi Lətif** türbənin abadlaşdırılmasına, ətrafının mizlənməsinə başladı. Özü də, balaları da çox əzab-əziy çəkdilər. Gərgin zəhmət bəhrəsiz qalmadı. Türbənin ətrafı mizləndi, zəvvarlar üçün hər cür şərait yaradıldı. Indi bu qurbangah, köməkçi otaqlar, dəstəmazxana inşa edilib. Hal

zırda dövrünün görkəmli alimi-axund Turabın məzari-şərifi üzərində də türbə ucaldılır. Bu işlərin aparılmasında Kərbəlayi Lətiflə birlikdə qəsəbə sakinləri, respublikamızın xeyirxah oğlulları, xüsusilə **"Azal" dövlət şirkətinin prezidenti Cahangir Əsgərovun** mühüm xidmətləri olmuşdur.

2000-ci ildə hörmətli **prezidentimiz cənab Ilham Əliyev** ziyarətgahda olarkən, ərazidə abadlıq işləri aparmaq, burada park salmaq barəsində göstəriş verdi. Indi bura- Hacı Zeynalabdin Tağıyevin, onun qızı Saranın, axund Turabın dəfn edildiyi bu yer cənnət-məkanı xatırladır.

Allah gənc prezidentimizə min ömür versin. Kərbəlayi Lətifin və oğlanlarının zəhmətini yerdə qoymasın.

Hər gün respublikamızın yaxın-uzaq ellərindən onlarla zəvvar bu müqəddəs ziyarətgaha üz tutur və dərdlərinə şəfa tapırlar.

Allah ziyarətinizi qəbul eləsin.







## SEYİD MİRMÖVSÜM AĞA

*"Hesab edirəm ki, millətimiz üçün, millətimizi, xalqımızı düzlüyə, saflığa, xeyirxahlığa, əməli-salehliyə dəvə etmək üçün ziyarətgahlar çox əhəmiyyətlidir. Xüsusil Mirmövsüm ağanın qəbri, bu ziyarətgah..."*

**Heydər Əliye**



Insan ömrü! Milyard-milyard illərin bir-birini qovduğu, sonsuzluğu bilinməyən, işıqlı dünyanın gecə-gündüz çarxı fırlanan zaman- məkan axarında ani bir dayanacaq. Milyon, milyard illər gəlib keçəcək və biz bu işıqlı dünyanı, ayı, günəşi, ulduzları, yeri-göyü, təbiəti bir daha görməyəcəyik. Səhərlər bizsiz açılacaq, axşamlar bizsiz axşamlayacaq. Görəsən, bu dünyanın faniliyini, gəldi-gedər olduğunu başa düşür, dərk edirikmi? Yox, əsla yox! Əgər başa düşsəydik, bu qədər gi nahlar etməz, bir az da bu dünyadan sonrakı dünyamızı düş nərdik.

Təəssüf ki, biz o dünyanı bir qəbirstanlığa, əzizlərimi qara torpağa tapşırmağa gedəndə, xəstələnəndə, bir də qoc lıb lap əldən düşəndə fikirləşir, bax məhz o vaxt axır ki, A lahımızı dərk edir, ondan pənah, mərhəmət diləyirik. Allah isə rəhmi çoxdur. Hər şeyə qadir Ulu Tanrı da zaman-zam bizi imtahana çəkir, dünyanı dərk etmək üçün bizə imkan y radır. Biz isə, heyhat!!!

Tanrı öz yazıq bəndələrini düz yola qaytarmaq üçün ge gündüz əlləşir. Gah bizə peyğəmbərlər, gah da müqəddəs tablar göndərdi. Oxuyun, dərk edin, bu dünya ilə axirət di



yasını anlayın.Tez-tez ağır bəlalara, xəstəliklərə, müşküllərə tuş oluruq. Niyə, nəyə görəsən? Üz tutub müqəddəs ocaqlara Allahdan imdad, kömək diləyirik. Allah-təalanın qüdrəti sonsuz, əbədidir. Məgər görmürük ki, özü xəstə olan bir imam-peyğəmbər övladının nəfəsi ilə şəfa tapırıq? Bu təkcə inamla bağlıdırmı? Xeyr. Siz üz tutduğunuz o insanların, Allahın izni ilə dərdli insanlara şəfa verənlərin simasına, cöhrəsinə baxıb, onlardakı ilahi paklığı, ruhu görmürsünüzmü?

Dünya öz köhnə çarxları ilə taqqıltı sala-sala dəyişir, irəli gedir, tələsir, tələsir. Dəyişməyən isə Allah-təalanın qüdrəti, qadirliyi, əzəmətidir.

Nəinki respublika əhalisinin, eləcə də əksər ölkə vətəndaşlarının yaxşı tanıdığı **Ağa Seyidəli Mirabutalıb oğlu Mirmövsümzadə (Ətağa) ağa** da Allah-təalanın öz fəqir bəndələrinə göndərdiyi bir xəbərdarlıq işarəsidir.

Özü də Mirmövsüm ağa dinin zəiflədiyi, islamın yasaq edildiyi illərlə varid oldu. Varid oldu ki, insanlarda islama olan





məhəbbəti gücləndirsin, insanları haqq yoluna qaytarsın. buna nail də oldu.

Mirmövsüm ağanın nəsil şəcərəsi ulu, müqəddəsdir. A Mirabutalıbın soy-kökü 7-ci imamımız Museyi Kazıma ba nır. Ulu babaları Kərbəlada doğulmuş, bu müqəddəs mə da- imam Hüseyn ə.s. qanı ilə yoğrulmuş torpaqda böyi ərsəyə çatmışdılar. Mirabutalıb ağa dövrünün oxumuş din dimlərindən, sınaqlı seyidlərindən idi. XIX əsrin axırlar Abutalıb ağa Azərbaycana köçür. O vaxt Bakı sürətlə inl edir, şəhər dünyanın qabaqcıl neft mərkəzlərindən birinə rilirdi.

Seyid Abutalıb ağanın üç oğlu və üç qızı var idi. S **Hüseyn, seyid Mirkazım, seyid Mirmövsüm, qızları Qö Səkinə, Fatmanisə və Zeynəb.**

Ailənin böyüyü **seyid Hüseyn ağa** Kərbəlada təhsil a dı. Dövrünün qabaqcıl elm, din xadimləri ilə bir sırada ad layar, mütərəqqi fikirli ziyalılarla oturub durardı. Seyid Hü ağa müdrik, əqidəli imam- peyğəmbər övladı idi. Nəvəsi **fət Mahmudov** danışır ki, seyid Hüseyn ağa ilahi vergili da qardaşı Mirmövsüm ağanı Böyük ağa kimi qəbul edir

Mirmövsüm ağanın 3-cü qardaşı **seyid Mirkazım** 1886-cı ildə Içərişəhərdəki 3 saylı evdə anadan olub. O, rünün tanınmış ziyalısı idi. Fransada ali təhsil almış, ərəb ingilis dillərini mükəmməl öyrənmişdi.

Bu nəslin 4 nümayəndəsi: **Mir Abutalıb, onun həya daşı Xədicə xanım, seyid Hüseyn ağa və Mirzeynəb x** Kərbəlada rəhmətə gediblər. Seyid Mirkazım ağa və S xanım Şüvəlan qəbirstanlığında, Fatmanisə xanım isə B nada dəfn olunublar.

Ağanın nəslindən olanların hamısı ilahi vergilidir. Mirkazım ağanın qızı **seyid Səkinənin, Hacı Həsən ağa zı Mədinə xanım** isə xüsusilə seçilir. Bəlkə də bu onu nın yaşadığı evdə doğulması və yaşaması ilə əlaqədard

...Seyidəli ağa 1883-cü ildə Içərişəhərdə anadan olı

Hələ körpəlikdən iflic olmuş, sümük, hərəkət-dayaq sistemi inkişafdan qalmışdı. Bu insanın fiziki varlığı ona və ailəsinə niskil, qüssə gətirsə də nəfəsi ilə minlərlə insana sağlamlıq, xoşbəxtlik gətirmişdir.

Əlbəttə, bu ilahinin qüdrəti sayəsində mümkün olmuşdu. El içində bəzən ona "Ətağa", bəzən də "Yaşıl seyid", deyə müraciət edərdilər. Yanına gələn insanlara xırıltılı səslə dua edər, insanlar onun əlinin şəfası ilə nicat tapardılar. Kim bilir seyid Mirmövsüm ağa bu yolla neçə-neçə insanı haqq dünyasına qaytarıb.

Dinimizin möhkəmlənməsi üçün gördüyü işləri biz indi-indi dərk edir, Ulu Tanrının qüdrətinə heyran oluruq.

Mirmövsüm ağa sirli, kəramətli, bəsirət gözlü müqəddəs imam-peyğəmbər övladı idi. Respublikamızın tanınmış ziyalıları, alimləri, hökümət rəhbərləri aşkar və ya gizlincə onu ziyarət edər, ağanın nurlu sifətindən özlərinə ilahi payı alar, paklanar, bəd əməllərdən, şər işlərdən uzaq olardılar.

Təsadüfi deyil ki, M.C. Bağırov ağanın xətrini xüsusilə çox istəyirdi. Məhz 50-ci illərdə erməni-rus şovinistləri ağanın Şüvəlandakı qəbrini məhv etmək istəyəndə M. Bağırov həmin çətin məqamda işə qoşuldu və qəti şəkildə öz sözünü dedi. O uzaqdan-uzağa olsa da ağanın qohumlarını, evini və qəbrini qoruyur, mühafizə etdirirdi. Hətta uzaq səfərə çıxanda ağanın cəddinə nəzir ayırardı.

Seyidəli ağa xəstə olduğu üçün bacısı Qönçə-Səkinə xanım ailə həyatı qurmamış, ömrü boyu qardaşına xidmət etmişdi. Məhz bacısının vəfatına dözə bilməyən Seyidəli ağa da az bir müddətdən sonra - 1950-ci ilin 17 noyabrında haqq dünyasına qovuşmuşdur. Ağanın böyük nüfuzundan qorxan hökümət adamları onun məsciddə yuyulmasına imkan verməmiş, ağa həyətlərində yuyulmuş, yas mərasimi dövlətin ciddi nəzarəti altında həyata keçirilmişdi. Ağanın yasına on minlərlə insan axışmışdı.

Böyük el karvanı Binəyə çatarkən camaatın istəyi ilə ağa-







nın cənazəsi Binədən Şüvəlana qədər əl üstə aparılmış və torpağa tapşırılmışdır.

...Seyidəli ağanın müqəddəs nəşi torpağa tapşırılandan sonra Böyük ağa üçün əzəmətli məqbərə ucaltmaq zaman-zaman xalqın işıqlı oğullarını düşündürürdü.

1987-ci ildə Qafqaz Müsəlmanları İdarəsinin sədri Ş Hacı Allahşükür Paşazadənin tapşırığı ilə tikinti üzrə bö təcrübəsi olan **Hacı Oqtay Əsəd oğlu Rəhmanzadə** ağ məqbərəsinin tikintisinə başladı. Dörd il yarım gecə-gün əzab-əziyyət çəkdi. Məqbərənin inşasını yüksək səviyy apardığına görə o vaxt kənd sovetinin sədri işləmiş, indiki lət vəkili **Şayəddin Əliyev** Şüvəlandakı məscidin bərpasın ona tapşırdı.

Hacı Oqtayın başladığı bu xeyirxah işi sonralar **Hacı zam Habil oğlu** davam etdirmişdir. Ümumiyyətlə, burada rılan yenidənqurma-abadlıq işləri **mərhum prezident Heydər Əliyevin** tövsiyəsi və tapşırığı ilə xalqın vəsaiti, lan nəzir-niyazın hesabına görülmüşdür.

Budur, artıq bütün kompleks hazırdır. Şərqin möhtəşən yarətgahlarından olan Mirmövsüm ağa ziyarətgahı zəvvar üzünə müqəddəs nurunu çiləyir.

Vaxtilə Şüvəlanda Mir Mövsümzadə qardaşlarına mə böyük bağ evi olub. Məhz ağanın Şüvəlanda dəfn edilmə bununla əlaqədardır. Minlərlə insan ağanın sağlığında bur nah gətirər, bağda yatar, şəfa tapardılar.

Uzun illər ağanın qohum-əqrabası bu bağa varislik h qundan məhrum edilmişdi. Allaha çox şükür ki, axı

vəl haqq öz yerini tapdı. Ağanın Şüvəlandakı bağı çox çətinliklə də olsa varislərinə qaytarıldı. İndi hər gün ağanın dəfn edildiyi qəbirstanlığa ziyarətə gələnlər mütləq buranı da ziyarət edir, müqəddəs ağamıza Allahdan rəhmət diləyirlər.

Içərişəhərdə, Firdovsi küçəsi 3-də, ağanın yaşadığı evdə qardaşı **qızı seyid Səkinə və həyat yoldaşı Hacı Həsən ağa** gözəl xatirə kompleksi saldırmış, bura ziyarətə gələnlərin rahatçılığı üçün hər cür şərait yaradılmışdır.

Bu ocağın hər daşı, hər qarışı müqəddəs-uludur. Axı Böyük ağamız ömrünü bu evin divarları arasında keçirmişdir. Elə ona görə də bu evdə ağanın adı ilə bağlı nə varsa göz bəbəyi kimi qorunur.

Təsadüfi deyil ki, zəvvarlarımız öz ziyarətlərini Mirmövsüm ağanın yaşadığı, nəfəsi hopduğu, gəzdiyi, insanlara şəfa payladığı evindən- Içəri şəhərdəki mənzilindən başlayırlar. Çünki bu ünvanda ağanın müqəddəs ruhu dolaşır.

Allah ziyarətinizi qəbul eləsin. Seyid Mirmövsüm ağanın ruhu şad olsun.






# ASTARA

















**Astara şəhər məscidinin inşası XIX əsrə aiddir**

## MƏHƏMMƏD HƏNƏFİYYƏ MƏSCİDİ

Məhəmməd Hənəfiyyə məscidi 1460-cı ildə Ərçivan kəndinin orta hissəsində tikilmişdir. Məscid Şeyx Zənd Gilani və ya Məhəmməd Hənifə adlanır (Məhəmməd Hənifə I Imam Əli (ə) oğludur).

Deyilənlərə görə məscidin bünövrəsi qeybdən gəlib. Rəvayətə görə Şeyx Zənd Gilani Ərçivan kəndinin ilk sakini olub. O, Keysani müharibəsində 60 yaşında meraca gedibdir. Şeyx Zənd Gilani VII Imam Museyi-Kazım ə.s-nın qız nəvəsidir. Məscidin yanında təkiyə də tikilmiş, sonralar isə söküntüyə məruz qalsa da, yeri bu gün də görünür.

Məscidin həyəti böyük qəbirstanlıqdır.

Şah Ismayıl Xətai Ərçivanda qışı keçirərkən, Məhəmməd Hənəfiyyə məscidinə nəzir qoyub, ziyarət etdikdən sonra fatehlik fəaliyyətinə başlamışdır.

XIX əsrdə məscid yenidən tikilmiş, bir neçə dəfə təmir olunmuşdur. 1917-ci ildə məscid yandırılmışdır. 80-cı illərdə Astara rayon Partiya Komitəsinin katibi işləmiş Çingiz Fərəcov tərəfindən təmir etdirilmişdir.



Vaxtilə məscidin həyətində neft fantan vurub. Keçmişdə kəndin camaatı ondan istifadə edirdi. Həyətdəki nil ağacı məscidə xüsusi gözəllik verir.

Məscid xalq tərəfindən müqəddəs bir ocaq kimi ziyarət olunur. Bura deyilən nəzir-niyaz həmişə qəbul olunub.

Məscidin xuddamı Kərbəlayi Orucəli Feyziyev dedi ki, hələ babası Kərbəlayi Nüsrət danışardı ki, bu məsciddə çox niyyətlər hasil olub.

Bu gün də yaxın-uzaq ellərdən məscidə nəzirlər gətirilir. Biz orada olarkən, diləyinə çatmış bir ailə məscidə xalça gətirmişdi. Allah qəbul eləsin!





## SEYİD ƏHMƏD ZİYARƏTGAHI - MAŞXAN OCAĞ



Maşxan - "Ma-şeyxam" söz birləşməsindən əmələ gəlib. Yəni "Mən şeyxəm, mən müqəddəsəm" mənasını verir. Ziyarətgah Soltan Əhmədin, daha doğrusu seyid Əhmədin adı ilə bağlıdır.

**Tarixçi alim Məşədixanım Nemət** və **Zərbi Ələsgərov** öz əsərlərində bu qədim ziyarə gah barəsində ətraflı məlumat vermişlər:

"Maşxan kənd qəbiristanlığında yerli əhalinin "Seyid Ə məd piri" adlandırdığı bir məqbərədə Soltan Əhmədin epita yası mühafizə olunur.

Ərəb-fars dillərində olan kitabədə yazılıb: Bu qəbir Solt Əhməd ibn Kərimindir. Səkkiz yüz yetmiş altıncı il tarix (vəfat etmişdir)". Hicri 876-cı il 1471-1472-ci miladi ilinə m vafiqdir. Farsca kitabəsi mənzumdur. Soltan Əhmədin cav öldüyünü göstərir:

*Bağda yeni hasilə gəlmiş o gül,*
*Zülmlə qoparmış onu külək bil.*
*Biçarənin ürəyində ümid çox,*
*Ömür gödək, ümidi ürəkdən sil.*

*Qılmadı rüzgar kimsəyə vəfa,*
*Aqilə etməz xəta tiri-cəfa*
*Əyninə kimsənin dünya dərzisi*
*Köynək tikmədi ki, etməsin "qəba".*

Yerli əhali həmin məqbərənin sahibi haqqında müxt rəvayətlər söyləyirlər.

Deyilənə görə XIV əsrdə bu yerlərdən keçib getmək i yən və əslən Ərdəbil şeyxlərindən olan seyid Əhməd Maşx da gecələməli olur. O, ev sahibinin səhərə qədər yatmadı

görür. Səhəri isə ev sahibinin və kənd sakinlərinin torpaq və su üstə dava-dalaş saldıqlarının şahidi olur. Seyid Əhməd camaatı sakitləşdirmək istəyir, lakin heç kim onun sözünə qulaq asmaq istəmir. Onda seyid Əhməd ləbbadəsinin cibindən ilan çıxardır. Ilanı meydanın ortasına qoyub tütəyi çalmaqla ilanı oynadır. Camaat heyrətə gəlir. Soruşurlar ki, bu necə olur ki, ilan onun əmri ilə oynayır? Cavab verir ki, mən seyidəm, şeyxəm, bütün canlılar məni eşidir, sözümə baxır. Siz də eşidin, onda Allah da sizi bağışlayar.

Xalq arasında "ilanı seyid Əhməd əli ilə tutarlar" ifadəsi bəlkə də o vaxtlardan qalıb.

Təxminən 40-50 yaşlarında kəndə gələn seyid Əhməd 30 il burada yaşadıqdan sonra haqq dünyasına qovuşur (1461-1493). Kənd camaatı onu hörmətlə dəfn edir, məzarını türbəyə çevirirlər.

O vaxtdan bu ocağa ən çoxu ilan vuran, ilandan qorxub müxtəlif xəstəliklər tapanlar pənah gətirirlər.

Bu ocaq eloğlumuz, **Astara rayon sakini, xeyirxah, nəcib, səxavətli insan Nazim Böyükağa oğlu Quliyev** tərəfindən abadlaşdırılmış, ziyarətgah Azərbaycanın ən gözəl ocaqlarından birinə çevrilmişdir. Ətrafı mərmər piltələrlə, müxtəlif ornamentlərlə bəzədilmişdir.

Ulu Tanrı nəzərini heç vaxt onun üstündən əskik eləməsin!

## SEYİD CƏMALƏDDİN MƏQBƏRƏSİ

XII əsrin sonunda Suriyada, Ərəbistanda və bir neçə başqa müsəlman ölkələrində seyidlərə dözülməz divanlar tutulurdu. Təzyiqlərə məruz qalan **seyid Cəmaləddin** öz ailəsi ilə Xarəzmdən Gilana gəlmiş, sonralar Qəzvində yaşamış, Qəzvindən Bütəsərə, (Pensər kəndi) sonralar Malvan kəndinə daimi yaşamağa köçmüşdür.

Bütəsərdə özünə məskən seçmiş seyid Cəmaləddin ağa







islam dininin təbliğinə başlamış və bir neçə görkəmli şəxsiyyətlər yetişdirmişdir. Onlarla birlikdə dini işlərlə məşğul olarmış.

Seyid Cəmaləddin ağanın peşəsi pambıqçılıq olmuşdur. Əkilən pambığı yığdıraraq, öz ailə üzvlərinə, müridlərinə və tələbələrinə paltar toxutdurar, artıq qalan pambığı satdırıb çəltiyə, düyüyə dəyişdirib öz əyyarlarını saxlayarmış.

Seyid Cəmaləddinin bir tələbəsi Tacəddin Ibrahim idi.

Sonralar Tacəddin Ibrahim Şeyx Zahid təxəllüsü ilə məşhurlaşdı. Hal- hazırda Şeyx Zahidin məqbərəsi Lənkəran rayonunun Şıxəkəran kəndində yerləşir. XIV əsrdə yaşamış mütəfəkkir Təfəkkürlü ibn Bəzzaz seyid Cəmaləddini hündürboy, enlikürək, qüvvətli, qoçaq, igid, cəsarətli bir şəxs kimi səciyyələndirir.

Bəzi müəlliflərin, mülahizəçilərin fikrincə, seyid Cəmaləddin ağa 60-100 il arası ömür sürmüşdür.

Lakin Məşədixanım Nemətin yazdığına görə, seyid Cəmaləddin ağa 44 ildən bir az artıq ömür sürmüş, 651-ci ilin şəvval ayının 4-də (28 noyabr 1253-cü il) Pensər kəndində vəfat etmiş və orada dəfn edilmişdir:

***Camale millətü din,***
***Qotbe ovlyayi-xoda,***
***Ke astaneye ubud***
***Qibleye əbdal,***
***Be hecrat rəft.***

**Tərcüməsi:** Astanası abdalların qibləsi sayılan, Allah övliyasının (Allahın müqəddəs adamlarının) qütbü, millət din ca-

malı hicri 651-ci il Şəvvalın 4-də (28 noyabr 1253-cü il) bazar ertəsi dünyadan getdi.

Qeyd etmək lazımdır ki, seyid Cəmaləddin ağanın Şeyx Zahiddən başqa daha iki tələbəsi vardı. Onlardan biri Gijə təxəllüsü ilə məhşurlaşmış Pirə Məhəmməd idi. Çox ehtimal ki, Astara rayonundakı Kijabə kəndinin adı həmin Pirə Məhəmmədin ləqəbi ilə bağlıdır.

Digər tələbəsinin isə adı Babul idi.

Seyid Cəmaləddin ağanın məqbərəsi sovetlər vaxtında dəfələrlə dövlət tərəfindən təzyiqlərə məruz qalmış, sökülmüş və hətta yandırılmışdır. Lakin xalqımız müqəddəs şəxsiyyət olan seyid Cəmaləddin ağanın məqbərəsini yenidən tikmişdir.

1937 və 1953-ci illər arasında ağanın məqbərəsi tamam dağıdılmış və yandırılmışdır.

1956-cı ildə Pensər ağsaqqalarının, o cümlədən **Ağadada Camalov, Məşədi Abdul Şabanov, Məşədi Məlik Babayev, Şeyx Sultan Məmmədov** və başqalarının səyi nəticəsində ağanın binası gecələr, hökümətdən gizli bərpa edilmişdir.

1985-ci ildə ziyarətgahın rəhbəri **Kərbəlayi Həzrətqulu** məqbərə binasının yararsızlığını nəzərə alaraq, məqbərəni sökdürmüş, hazırladığı orijinal layihə əsasında yenidən tikdirmişdir.

Məqbərə binası iki otaqdan ibarətdir: 1-ci otaqda seyid Cəmaləddin ağanın məzarı, 2-ci otaqda isə Asfahabad şahının qəbri, otağın girəcəyində dördbucaqlı mərmərdən qadına məxsus başdaşı qoyulmuşdur.

Epitafiyaya əsasən abidənin isfəhbod-salar-baş sərkərdə **Pir Hüseynin** 811-ci ildə (1408-1409) vəfat etmiş qızı **Xudavənd** xatuna aid olduğunu söyləmək olar.

Məqbərə binası qırmızı (bişmiş) kərpicdən götürülmüş, içərisində restavrasiya işləri aparılmış və bəzi tikinti işləri hələ davam etdirilməkdədir. Hər iki otaq xalı-xalça ilə döşənilmiş, əziz imamlarımızın şəkilləri ilə bəzədilmişdir.

Bu müqəddəs qəbiristanlığın içərsində, 14x 8m enində





çadır, bir çarhovuz tikilmiş, (su ilə doldurulmuş) ziyarətgahın yolu asfaltlaşdırılmış və başqa işlər görülmüşdür.

Ziyarətə rəhbərlik edən Kərbəlayı Həzrətqulu Sultan oğlu onu da bildirdi ki, 1992-ci ildə Iran Islam Respublikasının ərazisində yerləşən Imam Rzanın (ə.c.) ziyarətində olduğu vaxt orada **Şeyx Cəbhi ibn Mütəllibla** görüşmüşdür. O bildirmişdir ki, Bütəsər vilayətində vaxtılə məskən salmış müqəddəs şəxsiyyətlərdən biri olan seyid Cəmaləddin ağa 6-cı imamımız **Cəfəri Sadiqin** nəvələrindəndir. Iranın din xadimləri seyid Cəmaləddin ağa haqqında məlumatlar verərək bildirmişlər ki, Şurəvidən (onlar bizi "şurəvi" adlandırırlar) ziyarətə getməzdən qabaq, seyid Cəmaləddin ağanı ziyarət etməli və ondan sonra səfərə hazırlaşmalıdırlar.

Seyid Cəmaləddin ağanın ziyarətinə nəinki Irandan, hətta respublikamızın uzaq rayonlarından gəlir, qurbanlar kəsir, ehsan verir, öz arzu- mətləblərini Böyük Tanrıdan və ağadan diləyirlər. Seyid Cəmaləddin ağanı ziyarət edənlər mətləblərinə çataraq Allahın dərgahına şükürlər deyirlər.

Allah-təala hamımızın mətləb və arzularını versin.

## SELƏKƏRAN KƏND MƏSCİDİ



Seləkəran kəndindəki məscid 1886-cı ildə xalq tərəfindən inşa edilmişdir. Məscid böyük olmasa da, təziyələr vaxtı bura rayonun bütün yerlərindən əhali axışır. Məscidin həyətində qəbirstanlıq da vardır.

## SEYİD KƏRİM TÜRBƏSİ



**Maşxan kəndində,** "Seyid Əhməd piri"nin sol tərəfində, yuxarıya tərəf olan yerdə **Seyid Kərimin türbəsi,** sağ tərəfində isə **Maşxan kənd məscidi** yerləşir. Deyilənə görə bu türbədə məşhur övliyalardan olmuş Seyid Əhmədin atası dəfn edilmişdir. Seyid Kərim türbəsindən sağ tərəfdə 2 ədəd nil ağacı vardır ki, yaşlı sakinlərin deməsinə görə, onların yaşı 600-700 ildən çoxdur.

Türbə kiçik otaqdan ibarətdir. Sinə daşının üstündə ərəb dilində yazılar var. Bir az aralıda da yazılı başdaşı vardır. Başdaşının üstündəki yazıları oxumaq mümkün deyildir.

Türbə binasının sağ tərəfindən 10-14 metr aralıda qoz ağacının kökü yerdən yarımdairə formasında çölə çıxmışdır. İnanca görə, körpə uşaqlarda "göy öskürək" xəstəliyi olan zaman onu bir dəfə qoz ağacının kökündən keçirib, sonra içəri salırlar. Bundan sonra xəstə şəfa tapır.

Türbənin ətrafında hündür bir kurqan da yerləşir. Yerli əhali Seyid Kərim türbəsinə "Şəfa ocağı" da deyirlər.

Tarixçi Məşədixanım Nemətin dediyi kimi, "Seyid Əhməd piri"nin 1472-ci ildə yaradıldığını əsas götürsək, onun atası Seyid Kərim ocağının daha qədim tarixə malik olmasını söyləyə bilərik.





## ZOLAZO ZİYARƏTGAHI

**Zolazo ziyarətgahı** ən qədim ziyarətgahlardan hesab edilir. Deyilənlərə görə bura XII əsrdə bina olmuşdur. Ziyarətgah Kijabə qəsəbəsinin Bürzubənd kəndinə gedən yolun sol tərəfində yerləşir. Zolazo ziyarətgahına girişdən qabaq tərəfdə böyük bir ərazini əhatə edən təhnə - kurqan vardır ki, burada müqəddəs şeyxlər, dövrünün tanınmış şəxsləri dəfn edilib.

Vaxtilə burda böyük qəbirstanlıq olub. Girəcəyində türbə inşa edilmişdir. Təpənin üstündə hündür başdaşları vardır ki, ən hündürü (7 metr) Şeyx Şəmsinin başdaşıdır. Deyilənlərə görə, qotur (qara) xəstəliklərinə mübtəla olanlar bu ziyarətgaha pənah aparıb burdakı daşa özlərini sürtməklə şəfa tapırlar.

Yerli əhali nəql edir ki, ötən əsrin 90-cı illərində altında qızıl basdırıldığını zənn edən bəzi adamlar başdaşının altını qazmaq istəyiblər. Bu zaman çoxlu sayda qarğa və digər quşlar bir neçə gün gecə-gündüz qazıntı aparanların başı üzərində gəzərək, hay-həşir salmışlar. Bu qışqırığa yerli əhali gəlib. Bu hadisədən sonra ziyarətgaha bir də yaxın getməyə heç kim cürət etmir.

"Zolazo" sözünün etimoloji mənasını yerli əhali bir neçə cür izah edir.

Bir ehtimal odur ki, "Zolazo" talışca - Zoli zoə, yəni zalın oğlu mənasını verir.

Digər ehtimal isə Şeyx Zolaninin adı ilə adlandırılıb.

## GƏZƏNDAŞ ZİYARƏTGAHI

**Gəzəndaş** - "Gəzəndaşt" kimi yerli əhali tərəfindən ən kəramətli ziyarətgahlardan biri sayılır.

Gəzəndaş Astara şəhərinin mərkəzi ilə Ərçivan kəndi arasında yerləşir. Bu ziyarətgah barədə iki rəvayət mövcuddur. Bura ağır yer - yəni müraciət edənlərin arzusunun yerinə yetirildiyi ziyarətgahdır. Guya, Allah tərəfindən göndərilən və Imam Hüseynin qanı ilə yoğrulan bir daş vardır ki, o da gəzir. Gəzən daşda iri bir palıd ağacı vardır ki, onun altında pir düzəldilmişdir. Bu ağacın 300-350 il yaşı olduğunu deyirlər. Deyilənə görə bu ağacın gövdəsindən həmişə qan axır. Ağacın içi demək olar ki, boşdur. Gəzəndaşın ətrafında "Xangəldi" deyilən bir sahə vardır ki, bura guya qədim xanlara məxsus olmuşdur. Sovxozlar vaxtı burada şumlama işləri aparılarkən, IX-X-XI əsrlərə aid çoxlu sayda zərbi düz olmayan sikkə pullar tapılmışdır. Indi həmin pul nümunələri tarix-diyarşünaslıq muzeyində saxlanılır.



***I Şah Abbasın möhürü***

**Məlumatı hazırladı:**
**Əfqan Şəfiyev,**
*YUNESKO-nun Beynəlxalq Muzeylər Şurasının həqiqi üzvü.*





## HACI SEYİD MİRHƏŞİM AĞA



Təxminən iki əsr bundan əvvəl, Cənubi Azərbaycandan üç seyid qardaş - **Kərbəlayi seyid Miri, seyid Mirağa və seyid Mirsəmid** indiki Iran ərazisində olan "Yeddi evlər" deyilən yerə köçüb yaşayıblar.

O vaxtlar kəndlərdə yeni mədrəsələr, məscidlər çox az idi. Lakin Astara rayonunda, Iranla sərhədə yaxın kəndlərdə, Gülüstan müqaviləsi ilə iki yerə ayrılmış, rusların itaəti altında qalmış kəndlərdə isə məscidləri barmaqla saymaq olardı. "Yeddi evlər"in ağsaqqalları yığışaraq qərara gəlirlər ki, bu tayda da məscid tikdirsinlər.

Belə də edirlər. Məscid Məhəllə kəndindəki **Molla Baba məscidinin** bünövrəsi bu cür qoyulur. Bu məscid Astara rayonunda ən qədim məscidlərdəndir.

Soy-kökü IV imam Zeynalabdin (ə.s.)-ya bağlanan Kərbəlayi seyid Mirağa da öz qardaşları ilə bu taya köçür. 1885-ci ildə Kərbəlayi seyid Mirağanın oğlu **seyid Mirfəttah** dünyaya gəlir. O da qardaşları seyid Mirsəmid, Kərbəlayi seyid Miri də atalarından dini təhsil alaraq el-obanın nüfuzlu, əlləri-nəfəsləri son dərəcə şəfalı ağsaqqallarından idilər.

Seyid Mirfəttah ağa isə xüsusilə seçilirdi. Onun imam Hüseyn teşti, Həzrət Abbas ələmi bu gün nəvəsi **Hacı Mirhəşim ağanın** evindədir.

Ağa çox kəramətli ağa olub. Dediyi ilə gördüyü bir olardı. Yaşlı sakinlər onun kəramətlərini bu gün də xatırlayırlar. Ağa çörmədən xörək yeyərdi, xörək azalıb qurtarmaq bilmirdi. Qapısının ağzında soyunduğu ayaqqabıları tərsə olanda özü cütlənib, düzlənərdi.

Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonra da ağa



namazından, orucundan qalmaz, kolxoz işlərində də işləyərdi. Balıq tutmağı da xoşlayardı. Balaları **seyid Mirmusanı, seyid Mirvəlini, seyid Mirhidayəti, seyid Seyidağanı, qızları Mirxanımı, Mirxədicəni və Mirbanunu** da əməyə məhəbbət, halallıq, paklıq ruhunda böyütmüşdü.

Həmişə balalarına Qurani-Kərimin "Əhzab" surəsinin 33-cü ayəsini xatırladar, onları nəfsinin qulu olmamağı, çirkin əməllərdən uzaq olmağı tövsiyə edərdi: "Allah yalnız siz əhli-beytdən hər cür çirkinliyi və sizi təmiz, pak etmək istəyir".

Seyid Mirfəttah ağanın oğlu **seyid Mirhidayət** ağa (1911-1943) atasının tövsiyələrini həmişə layiqincə yerinə yetirər, İslami etiqadlara doğru-dürüst əməl edərdi.



1937-ci illərdə seyid Mirhidayət ağanın ailəsində seyid **Mirhəşim ağa** dünyaya gəldi. İllər keçdikcə ağa böyüyür, öz kamilliyi, sözübütövlüyü, gözükönlü toxluğu ilə camaatın hörmətini qazanırdı. Atasını erkən yaşlarında itirsə də, babası **Mirfəttah ağa, nənəsi Şirinin, anası Ağabacının, bacıları Seyidnənənin, Xalidənin** və onun korluq çəkməsinə imkan verməyiblər.

Seyid Mirhəşim ağa da heç vaxt babasının zəhmətini itirməyib. Kənddə, uzun illər çalışdığı Rayon Mərkəzi Xəstəxanasının kollektivi də, Astara camaatı da onun xeyirxahlığından, zəhmətsevərliyindən, mötəbər ağsaqqallığından danışır.





Ağa 1999-cu ildə müqəddəs Kərbəlada, 2000-ci ildə isə Məkkə ziyarətində olub. Allah-təala bu nəcib insanı həyatda istədiyi arzularına çatdırıb. Həyat yoldaşı nəcib, xeyirxah anamız **Məşədi Miyasə** xanımla gözəl, nurlu balalar böyüdüb ərsəyə çatdırıblar: **seyid Seyidağa, seyid Yusif, seyid Mirhidayət, seyid Sübhan, Məşədi seyid Mirələm, Ilhamə, Mirnisə, Aidə, Rayidə və Könül.**

Təkcə Hacının deyil, bu nəslin bütün övladları əhli-ibadət, xeyirxah, müqəddəs seyid övladlarıdır.



Hacı Mirhəşim ağanın əmisi **seyid Mirmusanın oğlu Məşədi seyid Mirələkbər** ağa cavan olsa da, çoxdan el-obanın dərin məhəbbətini qazanıb. Hal-hazırda o, Baba məscidinin axundu vəzifəsində çalışır. Camaatın xeyir-şər məclisinin yaraşığıdır.

Onu da qeyd etmək yerinə düşərdi ki, kənddəki Baba məscidi son illər eloğlumuz, xoş əməlləri ilə camaatın hörmətini qazanmış, aclıq-qıtlıq illərində camaatı korluq çəkməyə qoymayan, nəcib insan - Moskvada yaşayan **Əliəkbər Xoca Həsən oğlunun** vəsaiti və Hacı Mirhəşim ağanın təşkilatçılığı ilə yenidən qurulmuş, xalqın istifadəsinə verilmişdir.

Qoy Allah-təala bütün iman sahiblərinin imanını kamil etsin, qəriblikdə olan qeyrətli Vətən oğullarını öz qanadı altında saxlasın.

## SEYİD ƏLİ SEYİD MİRHƏMZƏ OĞLU



Soy-kökü altıncı imamımız Cəfəri Sadiq ə.s.-ya bağlanan seyidlərimiz bu gün dünyanın hər yerinə yayılıblar. Ulu nəsillərinin qədim şəcərələrini yüz illərin qan-qadasından qoruyub saxlaya bilən, zaman-zaman təqiblərə, məşəqqətlərə məruz qalan **Məşədi seyid Mirqulu ağa** XIX əsrdə Cəlilabadda doğulmuşdu. Lakin taleyi onu Astaraya gətirib çıxarır. O, burada evlənir, ev-eşik sahibi olur, el-oba ilə qaynayıb-qarışır.

Seyid Mirqulu ağanın iki övladı olub.

Oğlu **Məşədi Mirağa** dəvə karvanı ilə ziyarətə gedib-gələrdi. Son dərəcə böyük əl qabiliyyətinə malik kamil daş ustası idi. Oğlanları **seyid Mirəli, seyid Mirkitab, seyid Mirənnağı, seyid Mirhəmzə** ataları kimi əhli-ibadət olublar.

**Seyid Mirhəmzə ağa** (1898-1960) da atasının yolunu layiqincə davam etdirərdi. Həm bacarıqlı usta, həm də nüfuzlu bir seyid kimi ad-san qazanmışdı.

**Seyid Mirhəmzə ağanın övladları seyid Əli, seyid Mirhəşim, seyid Mirhüseyn, seyid Mirhadı (rəhmətə gedib), seyid Mirhəsən, Kərbəlayi seyid Mirsahib, Mirsəkinə, Mirxanım, Hacı Seyidxanım və Seyidnənədir.**

Seyid Əli ağa 1930-cu ildə Astarada andan olub. Uzun müddət rabitə sahəsində çalışıb. Heç vaxt da namazından, ibadətindən qalmazdı. Çox möcüzəli, imanlı seyid övladı idi.





Bir gün atası ilə bazara getmişdi. Bir nəfər seyid Əliyə şər atır. Deyir ki, guya yerə düşən dəsmalını o götürüb. Seyid Əli and-aman eləyir. Xeyri olmur. Axırda əlacı kəsilib ona şər atana deyir ki, mən götürmüşəmsə, Allah mənlə olsun, yoxsa səninlə.

Heç on beş dəqiqə keçməmiş o adamı maşın vurur.

Ağanın ayaqları xəstə idi. Ağrısa da heç vaxt xeyir-şərdən qalmaz, özü sağlam olmasa da insanlara şəfa paylayardı.

Bu da Allah-təalanın bir möcüzəsidir.

2000-ci ildə ağa haqq dünyasına qovuşdu və Qum küçəsindəki qəbirstanlıqda torpağa tapşırıldı.

Allah rəhmət eləsin!

Seyid Əli ağanın 6 övladı var: **seyid Mirzadə, Mirxanım, seyid Mirağa, Nurzadə, Hacı Hürriyyət, Məşədi Mirabbas, Mehriban və Səbinə.**

Ata yurdunda oğlu Məşədi seyid Mirabbas ağa yaşayır. **Seyid Əli ağanın həyat yoldaşı Hacı xanım Zümrüd Qəmbər qızıdır.**

**Seyid Əli ağanın qardaşı Mirhəşimin Şəhla, Ağasəməd, Könül və Vüsalə adlı övladları var.**

**Məşədi Mirhüseyn ağanın övladları isə Məşədi Mirhəmzə, seyid Nurməhəmməd, Güleyim, Məşədi Əlinurdur.**

Seyid Mirhəsənin isə 2 qızı var: **Könül və Ilahə.**

Evin sonbeşiyi **Kərbəlayi Mirsahib** isə 2 oğul, 1 qız atasıdır: **seyid Əli, seyid Ramin və Aynurə.**

Bu gün seyid Əli ağanın müqəddəs məzarı Astara camaatının, cənub bölgəsində yaşayan insanlarının səcdəgahıdır.

Allah- təala onun cəddini el-obanın üstündən əskik eləməsin.

## KƏRBƏLAYİ MƏŞƏDİ SEYİD MİRHAŞİM SEYİD MİRDADAŞ OĞLU



Şiyəkəran kəndi Lənkəran-Astara şose dəmir yolunda, rayon mərkəzindən 15 km cənubda yerləşir. 453 təsərrüfatı, 2302 nəfər əhalisi vardır. Adı "Şeyx evləri" deməkdir. Yazılı məlumatlara görə hələ XIII əsrdə **Şeyx Zahid Ibn Şeyx Rövşən Əmir** bu kənddə yaşamış, 1300-cü ildə burada vəfat etmişdir. Qəbri və türbəsi burada yerləşdiyi üçün bu kənd Şiyəkəran adını almışdır.

Şiyəkəran kəndi təkcə öz böyüklüyünə, əhalisinin çoxluğuna görə deyil, həm də nurlu seyidlərimizin, imam-peyğəmbər övladlarının ulu nəslinin bu kənddə yaşaması ilə də tanınır. Yaxınlıqdakı Pensər qəbirstanlığında sorağı respublikamızın hüdudlarından da kənara yayılmış Seyid Cəmaləddin türbəsi yerləşir. Həmin türbədə uyuyanlardan biri də Tehranda uzun illər dini təhsil almış seyid Mirdadaş ağadır.

Seyid Mirdadaş ağanın ata-babası qədim Mahmudavardan, indiki Lənkərandandır.

**Seyid Mirdadaş ağanın oğlu seyid Mirhaşim ağa** 1893-cü ildə Şiyəkəran kəndində anadan olmuşdur. O, ilk təhsilini atasından aldıqdan sonra, Tehranda davam etdirmişdi. Uzun illər şəriətlə sıx məşğul olmuş, el-obanın xeyir-şər işlərini layiqincə yerinə yetirmişdir.

Sovet hakimiyyəti illərində baramaçılıq üzrə briqadir işləsə də, heç vaxt öz əqidəsindən dönməmiş, islamın yasaq edildiyi illərdə belə namazından, orucundan qalmamışdı.

El-obanın çətin işlərində həmişə qabaqda olub. Şər-şeytan əməllərdən uzaq idi. Çalışırdı ki, haqqı nahaqqa verməsin. Se-





**yid Mircəfər, seyid Mirdadaş, Hacı seyid Əsgər, Mirbəyim, Seyidbəyim, Fatma, Şabibi, Miryaqut, Seyidxanım** və **Böyükxanım** kimi gözəl, ləyaqətli övladlar tərbiyə edib.

Bu gün ağanın yurdunda seyid Mirdadaş ağa yaşayır.

Seyid Mirhaşim ağa 1969-cu ildə rəhmətə gedib. O da atasının yanında, Seyid Cəmaləddin türbəsinin qəbirstanlığında dəfn edilib.

Hər gün onun ziyarətinə yüzlərlə insan gəlir.

Bəli, illər ötsə də, yaxşı ağsaqqalların, seyidlərin adı, xatirələri heç vaxt yaddan çıxmır, unudulmur.

Allah seyid Mirhəşim ağaya rəhmət eləsin.

## KƏND MƏSCİDLƏRİ



**Ərçivan kəndind**ə XIII əsrə aid türbə v. minarənin qalıqları d durur. Orta əsrlərdə hə min yerlər xalqın inan yerləri olmuş və sonr lar hansısa hadisənin tə sirindən söküntülər məruz qalmışdır.



**Pensər kəndində** bir-birindən bir az aralı, XIX əsrdə tikilmiş Hacı Teymur məscidi və Hacı Cahanbaxış məscidi vardır.

## SEYİD MİRƏSGƏR AĞA OCAĞI



Cənub bölgəsinin daha bir nurlu ağası-**Miriyev seyid Mirhəmzə Məşədi seyid Miri oğlu** 1906-cı ildə Astara rayonunun Giləkəran kəndində, mülkədar ailəsində anadan olub. Onun ulu nəsli ağır seyidliyi ilə el-obada yaxşı tanınmışdı. Deyilənlərə görə kəramətli ocaq sahibi olan seyid Mirhəmzə ağanın ayaqqabıları onun atası üçün dönərək cütlənərdi.



Atası Məşədi seyid Miri böyük kəramət sahibi olmuşdur. Ağzı dönənlərin üzünə əlini sürtməklə onları sağaldarmış. Xörək qazanı boşalanda, səhər yenidən dolduğu və üstündə iki ədəd əl çörəyin peyda olması dillər əzbəridir. Onun qapısına hər həftə bir ceyran gələrmiş. Ağa bu ceyranı kəsib yeyəndən sonra yenisi gəlsə də seyid Miri ağa da bu ceyranın başını sığallayıb yola salarmış. Adamlara, qohum-əqrabaya deyərmiş ki, bu ceyrana dəyməyin, onun balası var.

Onun oğlu seyid Mirhəmzə ağa







isə əkinçiliklə məşğul olmuş, Böyük Vətən müharibəsi başlayanda müharibəyə getmiş, əsir düşərək yaralanmışdır. Ağa kənddə, rayonda, eləcə də ətraf ellərdə böyük hörmət sahibi idi. Deyilənlərə görə, dükan qabağına gedib gələndən sonra cibləri pulla, bərəkətlə dolarmış.

Səsi-sorağı yaxın-uzaq ellərə yayılmış ilahi vergili seyid Mirəsgər ağa Mirhəmzə ağanın doğma babası olub.

Seyid Mirhəmzə ağanın oğlu **seyid Miribrahim** 1939-cu ildə Finlandiya müharibəsinə getmiş, həmin döyüşlərdə həlak olmuşdur. Allah rəhmət eləsin!

**Seyid Mirhəmzə ağanın digər oğlanları seyid Mirkitab, seyid Mirhüseyn və seyid Mirəhməd ağadır.**



Oğlanlarından **seyid Mirkitab** ata ocağını yaşatmaqdadır. Ağzı əyilənlər, müxtəlif dərdlərə mübtəla olanlar ona pənah gətirir və Allah-təalanın qüdrəti və ağanın kəraməti sayəsində dərdlərinə şəfa tapırlar.

Seyid Mirhəmzə ağanın özü 1941-ci ildə, müharibədə olarkən əsir düşür. Onu güllələmək istəyərkən kəlmeyi-şəhadətini tələsik söyləməyə başlayır. Onunla yanaşı duran bir yəhudi əsilli əsgər də ağanın dediklərini ucadan təkrarlayır. Müsəlmanları aşkar etmək üçün alman əsgərləri ilə gələn türk nümayəndələri ağanın seyid olduğunu bilib, onu və yanında kəlmeyi-şəhadəti təkrarlayan yəhudini öldürməyə qoymurlar.



Atası Məşədi seyid Miri də çox nüfuzlu, kəramətli cəddə malik seyidlərimizdən idi. Vaxtilə, yəni 1918-20-ci illərdə rayonda baş verən hərc-mərcliklər zamanı quldurların əlindən qaçıb canını qurtarmaq istəyənlər Məşədi seyid Mirinin yaşadığı ocağa pənah gətirərdilər. Sovet hakimiyyətinə qarşı vuruşan dəstənin başçısı Hüseyn Ramazanov öz adamlarına tapşırıq vermişdi ki, seyidin evinə pənah gətirənləri güllələməsinlər.



Bu seyid nəslinin qədim, ən azı 270-300 il yaşı olan nəsil şəcərəsi vardır. Həmin şəcərədə nəslin 300 il ərzində bütün nümayəndələrinin adı qeyd olunaraq, dövrünün müctehidlərinin möhürləri ilə təsdiq edilmişdir.

Indi Astara rayonunun keçmiş Giləkəran kəndində Məşədi seyid Mirinin atası, seyid Mirhəmzə ağanın babası seyid Mirəsgər ağanın ocağı vardır. Ocaq qəbirstanlıqda yerləşir və yaxın-uzaq ellərin ziyarətgahı kimi inanc yeridir. Əhali buraya ilin bütün vaxtlarında axışıb gəlir, nəzir-niyaz paylayır.

Hazırda ata ocağında çıraq yandıran **seyid Əhməd** ağadır. Allah onun, qardaşlarının və ata-babalarının pak nəfəsini heç vaxt camaatın üstündən əskik eləməsin.

Amin!





## MƏŞƏDİ SEYİD MİRİSLAM SEYİD MİRPAŞA OĞLU



**Əliyev Məşədi seyid Mirislam seyid Mirpaşa oğlu** 1916-cı ildə Astara rayonunun Şiyəkəran kəndində anadan olmuşdur. O, 6 yaşında ikən atasını itirmiş, anasının himayəsində böyümüşdür. 1924-cü ildə məktəbə getmiş, 1929-cu ildə Pənsər ibtidai məktəbini başa vurub, həmin il Lənkəran Pedaqoji texnikumuna daxil olmuşdur. 1931-1935-ci tədris ilində məktəbi əla qiymətlərlə bitirmiş və öz kəndinə müəllim təyin olunmuşdur.

Hələ körpəliyindən poeziyaya maraq göstərmişdir. Onun şerləri məktəbin divar qəzetində çap olunurdu. 1942-ci il yanvarın 14-də ordu sıralarına getmiş Məşədi seyid Mirislam ağa Voroşilovqradda 3 ay təlim keçəndə yaralanmış, 80 fayiz görmə qabiliyyətini itirmişdir. Elə həmin vaxt da əsir düşmüşdür. 1947-ci ildə öz vətəninə qayıtmış və yenidən doğma məktəbində müəllim vəzifəsinə bərpa edilmişdir. Mirislam müəllim də bir çox hərbi əsirlər kimi o vaxt sovet hökumətinin haqsız təzyiqlərinin qurbanı olmuşdur. Müharibə qurtardıqdan sonra vətənə qayıdan Mirislam müəllimi hərbi əsir kimi bir il altı ay müddətinə Irkutska işləməyə göndərmişlər. Burada Mirislam ağa bənnalıq sənətinə yiyələnmiş və bir sıra binaların tikintisində çalışmışdır. Sonralar o Irkutskdan Ulan-Ude şəhərinə göndərilmiş, orada da 6 il işləmişdir. 1957-ci ildə yenidən öz vətəninə dönmüşdür.

Elə həmin ildən də yenidən doğma məktəbində müəllimlik fəaliyyətini davam etdirmişdir. Mirislam müəllim həmişə öz şerlərini vətəninə, kəndinə, məktəbə, elmə, biliyə həsr etmiş və şagirdlərini yaxşı oxumağa ruhlandırmışdır. O, hər zaman gözü ilə gördüyü bütün mənfi və müsbət cəhətləri şerlər-

rində tərənnüm etməyə çalışmışdır və bu şerləri hər zaman çap etdirmək arzusunda olmuşdur. Həyatının 89-cu baharını yaşayan Mirislam müəllimə gələcək işlərində müvəffəqiyyətlər və möhkəm can sağlığı arzulayırıq.

**Züleyxa MIKAYILOVA**

**BİZİM KƏND**

Gözəldir çölləri, bağı, çəməni,
Ətrafı yamyaşıl, təmiz səhəri,
Bu yerdə şən keçir insan günləri,
Görüm barlı olsun daim bizim kənd.

Sağında dağların, solunda Xəzər,
Çölündə seyr edir oğlanlar, qızlar,
Sanki ətir saçır üzə tarlalar,
Məhsulla bol, varlı indi bizim kənd.

Burda azad gəzir ata, analar,
Qocalar, cavanlar, körpə uşaqlar.
Halal zəhmət ilə həyat qururlar,
Günəşdən, şəfəqdən nurlu bizim kənd.

Limon, mandarin, üzümdür hər yan,
Var olsun əlləri yaşıllıq salan,
Yazı da, qışı da bahardı, inan,
Bax necə səfalı olmuş bizim kənd.

Yayı sərin keçir, gəzişi rahat,
Xəzər sahilində evləri qat-qat,
Burda qocalmayır insanlar heç vaxt,
Yaşadıqca gözəlləşir bizim kənd.

Günəşdən nur alır səndəki torpaq,
Yaz gəlir, ağaclar açırlar yarpaq,
Səndə gözəlləşir insani əxlaq,
Mirislam çox sevir səni, bizim kənd.



# BİLƏSUVAR









## ŞƏHƏR MƏSCİDİ



Biləsuvar şəhər məscidinin bünövrəsi 1993-cü ildə qoyulub. Tikintisində Yaxın Şərqin memarlıq abidələrinə məxsus müxtəlif ornamentlərdən, orijinal arxitektura detallarından məharətlə istifadə olunub. Məscidin inşası 1998-ci ildə başa çatdırılıb.

Məscidin açılışında **mərhum prezidentimiz, ümummilli liderimiz Heydər Əliyev** iştirak edib.

Bu gözəl, yaraşıqlı Allah evinin ərsəyə gətirilməsində rayon icra hakimiyyəti rəhbərliyinin, xeyirxah iş adamlarının, ağsaqqalların, camaatın böyük xidməti olub.

Məscidin axundu gənc islamşünas din xadimimiz **Hacı Əlifağa Böyükağa oğludur.**



*"Milli-mənəvi dəyərlərimiz xalqımızın əsas sərvətidir, İslam dini, İslam əxlaqı ilə formalaşıb. Biz İslam dinini qoruyub-saxlamalı, inkişaf etdirməli, xalqımız arasında təbliğ etməli və yaşatmalıyıq".*

**Heydər Əliyev**





## HACI SEYİD MİRSULTAN AĞA



"Hər kimə həcc nəsib olsa, Xuda qismət edər, hər istədiyin xanəsinə dəvət edər".

Hacı seyid Mirsultan ağanın atası seyid Alməmməd ağa vaxtı ilə Yardamlı rayonunda Perinbel kəndinin əsasını qoymuş Xəlifeyi-Kamal və Xəlifeyi-Qiyasın nəslindən olan seyid Sultanalı ağanın oğludur. Seyid Alməmməd ağa qəlbi nurlu, imanlı, xeyirxah, alicənab və səxavətli bir seyid idi. Onun nəsil şəcərəsi dördüncü imamımız Bimari-Zeynalabdindən başlayır. Nəsillərinin soy kökünü xatırladırıq:

**Seyid Piri seyid Qafur oğlu**
**Seyid Cahangir seyid Piri oğlu**
**Seyid Nuru seyid Cahangir oğlu**
**Seyid Sultanalı seyid Nuru oğlu**
**Seyid Alməmməd seyid Sultanalı oğlu**
**Seyid Mirsultan seyid Alməmməd oğlu**
**Seyid Mirislam seyid Alməmməd oğlu**

Hacı seyid Mirsultan ağanın oğlu Hacı seyid Miralim bu şəcərənin 1358 illik bir tarixə malik olduğunu söyləmişdir.

Seyid Alməmməd ağanın övladları və nəvə-nəticələri Azərbaycanın müxtəlif yerlərində yaşayırlar.

Seyid Alməmməd ağanı Cənubi Azərbaycanda da yaxşı tanıyırdılar.

1937-1939-cu illərin repressiyaları zamanı bir çox vətən övladları kimi mömin ailələri də "Dini təbliğ edənlər", "Şuranın düşmənləri" adı ilə sürgün edildilər. Bu qanlı repressiya nüfuzlu din xadimi kimi seyid Alməmməd ağanın da ailəsindən yan keçmədi. Ağanın ailəsini əvvəlcə Qazaxıstanın Com-

bul vilayətinə sürgün etmək istədilər. Lakin seyid Alməmməd ağanın ceddinin möcüzatlarına görə Lənkəranda gəmi işləməmişdi. Dəfələrlə bunu təkrarlasalar da heç nə alınmamışdı. Dövlət rəhbərləri bunun möcüzə olduğuna inanaraq məcburiyyət qarşısında qalıb inadlarından əl çəkmişdilər. Seyid Alməmməd ağa 1949-cu ildə Perinbelə qayıtmış və bu kənddə vəfat etmişdir.

Ağanın ömür-gün yoldaşı **seyid Mirgülgəz xanım** da adlısanlı seyid nəslindəndi. Seyid Mirgülgəz xanım 1979-cu ildə həyat yoldaşı seyid Alməmməd ağanın yanında dəfn olunmuşdur.

... Bir gün ağanın qohumlardan Məşədi Cəbrayıl və Mirhüseyn seyid Alməmməd ağaya zarafatla dedilər:

- Əmi, sizə günorta yeməyə gəlmişik.

Seyid Alməmməd ağa bu zarafata cavab verib dedi:

- Qonaq gəlməyində olsun, ev sahibi yola salmağında. Ağa bunu deyib üzünü Mirgülgəz xanıma tutdu:

-Kərbəlayi Nəcəf qızı, bu ağalara layiq qonaqlıq süfrəsi hazırla!

Varlığa nə darlıq, deyiblər. Ağanın evinin qabağındakı bağın içində əyləşdilər, hərəsi bir rözə oxudu. Şəriət söhbəti edildi. Çay-çörək yeyildikdən sonra seyid Alməmməd ağa soruşdu ki, Mirsultan hanı?

Mirsultan atasına yaxınlaşdı. Ağa ona tapşırdı ki, bir dəftər, qələm gətirsin. Vəsiyyətnamə yazacaqsan.

Mirsultan cavab verdi ki, bu sözü yaza bilməyəcək.

Ağa ona dedi ki, oğul, vəsiyyət diri üçündür. Mən deməklə ölmürəm ki...

Vəsiyyətnaməni Mirmikayıl, Məşədi Cəbrayılın oğlu yazmalı oldu.

Rəhmətlik seyid Alməmməd ağa Məşədi Cəbrayıla və Mirhüseyn ağaya dedi:





-Əgər mən dediklərimə dəqiq əməl eləməsiniz, yanıma üzüqara gələssiniz. Bunu deyib vəsiyyətnaməsini yazdırdı. Və bildirdi ki, bu həftə sizdən əbədi ayrılıb dünyadan köçəcəyəm.

Bu sözü eşidən Mirhüseyn ağa soruşdu:

-Əmi, bu xəbər vəhdən gəldi?!

-Bəli,- deyə ağa cavab verdi.

Məşədi Cəbrayıl yenə də zarafat elədi:

-Əmi, bu xəbəri adaşımmı gətirdi?!

Bu zaman ağa üzünü qəzəblə Məşədi Cəbrayıla çevirib əsəbiləşdi:

-Məşədi, sən də Mirhüseyndən geri qalmırsan. Madam ki, buna şəkkin var mənə cavab verin. Siz seyidlər, 450-dən çox təssərüfatı olan Perinbel kəndinin kişiləri, qadınları niyə mənim ceddimə nəzir boyun olur, qapımda qurban gətirib kəsir və məni ziyarət edirsiniz?!

Mirhüseyn ağa bir anlığa fikrə getdikdən sonra dedi:

-Əmi, sən Allah məni bağışla, ceddin xatirinə qəzəbin məni tutmasın. Sənə qurban olum, bu sözümə görə Allah məni bağışlasın. Allah-təala tərəfbazlıq edib. Dövləti, ceddin möcüzatını sənə verib.

Sonra seyid Alməmməd ağa dedi:

-Madam ki, bunu bilirsiniz, onda mən deyənə, vəsiyyətimə əməl edərsiniz. Öləndən sonra məni evimin qarşısında, çörək yediyimiz bu yerdə dəfn edərsiniz. Bir də sizə bir tapşırığım da var. Mirhüseyn! Oğlum Mirsultanı sənə, ikinci oğlum Mirislamı isə Məşədi Cəbrayıla, sizi də Allaha tapşırıram. Bizim görüşməyimiz bir də qiyamətə qaldı.

Rəhmətlik seyid Alməmməd ağa o günün səhərisi xəstələndi, Hərarəti yüksəldi, vəziyyəti ağırlaşdı.

Danışdıqları, söz-söhbəti Allah və ceddi Məhəmməd peyğəmbər salavatulladan olurdu. Heç namazından da qalmırdı. Ibratəmiz söhbətlər edər, öyüd-nəsihət verirdi. Deyirdi ki, öv-

ladlarım və qohumlarım. Allahdan həya edin, həmişə Ona ibadət edin. Haram- halalı gözləyin, haramdan, Şeytandan uzaq olun. O lənətullah sizin və Allahın düşmənidir. Bu dünya beş günlükdür. Mehriban yaşayın. Şadlıq o dünyadadır, bu vəfasız dünyada yaxşı əməl sahibi olun. Allaha ibadət edənin yeri behiştlik olar. O cümlədən dünya malı sizi aldatmasın, təkəbbürlü olmayın.

Sonra ağa əlavə etdi ki, 5 üsuliddinə ürəkdən inanıb 10 firudinə əməl edin. Belə olarsa Allahın mömin bəndələrindən olarsınız, inşallah. Heç kimin qəlbinə dəyməyin, imkansızlara, xüsusən yaxın qohum- qardaşa kömək edin, varınıza yox deməyin, başqalarında eyib axtarmayın, öz eybinizi axtarın. Böhtan, yalan danışmayın, Allahın dostu ilə dost, düşməni ilə düşmən olun.

Rəhmətlik seyid Alməmməd ağa cəddi Məhəmməd peyğəmbər s. kəlamlarını xatırladırdı. Deyirdi ki, cəddim buyurub ki, mənim ümmətlərim, sizə tapşırıram: boğazınızı gözləyin, gözlərinizi və dilinizi qoruyun.

Seyid Mirislam ağanın o vaxt 9 yaşı vardı. Uşaq sadölövhlüyü ilə soruşdu ki, ağa, soyuqdan qoruyaq?

Ağa sevimli balasına baxıb belə dedi:

-Oğul, sən deyən də olar. Amma cəddim isə bizə belə deyir:

Qızları qoruyun. Naməhrəm arvad və qızlara pis gözlə baxmayın.

Boğazınızı qoruyun. Haram tikə dilinizə dəyməsin!

Dilinizi isə yalan, qeybət və böhtandan qoruyun.

Ağa danışa-danışa, xoş səslə kəlmeyi- şahədətini deyib son vəsiyyətini etdi:

-Qardaşoğlu Mirmehti ağa. Yaxın durun, uşaqlara, qohum-qardaşa, sizə bir də baxım. Ilahi tərəfindən gözlərimə nur gəldi. Allahımdan, sizin hamınızdan çox razıyam. Indi yönümü qibləyə çevirin.





Bu sözləri deyib 1949-cu ildə gözlərini əbədi yumdu. Sanki seyid Alməmməd ağa elə bil yuxuya getdi. Heç ağanın canverməsini də heç kim bilmədi. Bu özü də bir möcüzədir. Adətən insan can verəndə sinəsi qalxıb enər, amma seyid Alməmməd ağanın ölümünü heç kəs dərk edə bilmədi.

Allah rəhmət eləsin.

Onu da xatırladaq ki, seyid Alməmməd ağanın nəslindən bir çoxları öz ölüm tarixini bilirdilər. Belə ki, ağanın böyük oğlu Hacı Mirsultan ağa, qızı Mirsurahi xanım, həyat yoldaşı Mirgülgəz xanım da dedikləri vaxtda rəhmətə getmişlər.

Allah hamısına rəhmət eləsin.

Tarixdə nadir hadisələrdən biri də insanın özünü sağlığında əbədiləşdirə bilməsidir. Bu millətinə, xalqına sədaqətlə təmənnasız xidmətdən keçən bir yoldur. Elə rəhmətlik seyid Alməmməd ağada yuxarıda deyilən xüsusiyyətlər var idi.

Seyid Alməmməd ağa kəraməti, əsil- nəsilli nəcib seyidliyi, cəddinin möcüzatı, səxavəti ilə tanınmışdı. Yaxşı əməlləri, cəddinin xalq arasında sınaqdan çıxmış kəraməti və eyni zamanda səxavəti, yetim-yesirləri öz balası kimi tanıması, qazandığı çörəyi tək yeməməsi, qohum-qardaşa, imkansızlara əl tutması ilə yadda qalmışdır. Bununla yanaşı seyid Alməmməd ağanın saat hesabı cəddinin möcüzatları hər yerdə məşhur olmuş, ağır xəstələrə, sağalmayan yaralara şəfa, övladı olmayanlara oğul-qız payı vermişdir. Ağzı-gözü əyilənlərə dua oxuyub, mübarək şəfalı əlləri ilə şillə vurması ilə o saat da düzələrdi. Elə bu möcüzələri ilə də xalq yanında böyük hörmət, ad qazanmışdır. Ağa rəhmətliyə getsə də elə indi də Cəlilabad, Biləsuvar, Sabirabad, Masallı, Lənkəran və s. rayonlarında seyid Alməmməd ağanın cəddinə nəzir-qurban boyun alır və qəbul olunmuş nəzirləri qəbri üstünə aparır, ya da oğlu rəhmətlik Hacı Mir Sultan ocağına, Biləsuvarda olan nəvələrinə verirlər.

Perinbel kəndinin ziyalılarından Hacı Mir Həqiqət müəl-

lim də qeyd etdi ki, biz də seyid-peyğəmbər övladlarıyıq. Lakin buna baxmayaraq hələ rəhmətlik atam da seyid Almәmmәd ağanın cәddinә and içәrdi. Bu seyidlәrin cәddlәrinin möcüzatları haqqında bizә çox danışardı vә bir mәsәlә dә çәkәrdi. Deyәrdi ki, keçmişdә Hәzrәti Yaqub peyğәmbәrin 11 oğlu olub. Lakin Allah tәrәfindәn oğlanlarından Hәzrәti Yusifi әxlaqına, imanına görә qardaşlarından fәrqlәndirәrәk peyğәmbәr etmişdir. Biz seyidlәr içәrisindә Xudavәndi- alәm dә seyid Sultanalı vә seyid Almәmmәd ağanı fәrqlәndirib. Bu iş Allahın öz işidir.

Seyid Almәmmәd ağanın cәddinin möcüzatları çox olub.

**Cәlilabad rayonundan 70 yaşlı Pörüz kişi:**

-Cavan vaxtlarım idi. Cәlilabad rayonunun Şabanlı kәndinin adamlarından kimsә ağanın qәlbinә toxunmuşdu. Seyid Almәmmәd ağa әsәbilәşib deyir ki, Allah sizin kәndә vәba xәstәliyi versin ki, seyid nә olduğunu bilәsiniz. O günün sәhәrisi xәbәr gәldi ki, hәmin kәnddәn 15-16 nәfәr rәhmәtә gedib. Ağanın bu möcüzatını görәn, ağlı kәsәn ağsaqqallar seyid Almәmmәd ağanın әl-ayağına düşüb әlindәn, üzündәn öpdülәr ki, bizı bağışla. Bundan sonra ağa o kәndin camaatının tәqsirindәn keçdi.

**76 yaşlı Sabirabad rayon sakini, hal-hazırda Bakı şәhәri, Әhmәdli qәsәbәsindә yaşayan Mirzağa Xankişi oğlu:**

-Mәn bәrk xәstәlәnmişdim. O hәkim, professor qalmadı ki, mәnә baxmamış olsun. Çox müalicәlәr etsәm dә әlac olmurdu. Bir dәri, bir sümük qalmışdım. Nәhayәt, ümidim Allaha vә yer alәmindә isә seyid Almәmmәd ağanın kәramәtinә, sınanmış cәddinә idi. Biz sabirabadlıların, Moranlı kәndinin adamlarının seyid Almәmmәd ağanın özünә vә övladlarına böyük hörmәti var. Ağa qışda qonaq gәlәndә biz, Moranlı vә Hәşimxanlı kәndlәrinin camaatı seyid Almәmmәd ağa gәlәn yola xalça, gәbә salardıq ki, ağanın mindiyi atın ayaqları belә





torpaqda yox, xalça, gәbә üstә yerisin. O vaxt (1939-cu ildәn 1948-ci ilә kimi) 100-120 adamla ağanın qabağına çıxıb elә yolda onu ziyarәt edәrdik.

Mәn o vaxt seyid Almәmmәdi öz gözlәrimlә görüb, ziyarәt etmiş vә qulluğunda durmuşam.

Nәhayәt, mәn bәrk xәstәlәnib ölüm halına gәldim vә dedim ki, mәni aparın seyid Almәmmәd ağanın ocağına. O vaxt ağanın böyük oğlu Hacı Mirsultan ağa sağ idi. Mәni seyid Almәmmәd ağanın oğlu Hacı Mirsultan ağanın yanına apardılar. Ağa mәnim sağlamlığım barәdә Allaha dua etdi. Sonra Hacı Mirislam ağa dedi ki, Mirzağa әmini aparaq atamızın doğulduğu kәndә.

Mәn ağanın oğlu ilә seyid Almәmmәd ağanın qәbrini ziyarәt etdim. O gün orada qalmalı olduq vә sәhәrisi yuxudan ayılanda öz-özümә inanmadım. Fikirlәşdim ki, yәqin bu yuxudu. Çünki mәn özümü çox sağlam hiss edirdim. Demәk ağanın cәddinin xatirinә Allah mәnә şәfa vermişdi. O vaxtdan 50 ildәn dә çox bir vaxt keçib. İndi yaşım 90-nı haqlayıb, amma şükür ilahinin kәramәtinә, bir şikayәtim yoxdur.

Mәnim böyük qardaşım Mirzәhüseynin övladı olmurdu. Qardaşımın 65 yaşı var idi. Çoxları deyirdilәr ki, bu yaşda uşaq olmaz. Ancaq qardaşım seyid Almәmmәd ağaya nәzir boyun olub, cәddindәn bir oğul payı istәdi. Elә dә oldu. Allah ağanın cәddi xatirinә qardaşıma bir oğul payı verdi.

Allah seyid Almәmmәd ağaya vә haqq dünyasına qovuşmuş övladlarına rәhmәt elәsin.

**Mirzәqasım Mirzәhüseyn oğlu, Yardımlı rayonu Perinbel kәnd sakini, hal-hazırda Bakı şәhәri Binәqәdi rayonunda yaşayır:**

- 1947-ci ildә mәn Cәlilabad rayonunda rәhmәtlik әmim seyid Almәmmәd ağanın qulluğunda durub ona çay qoyurdum.

Bir gün ağanın dostu Muxtar kişi vә Pişan kişı ağanı ziya-

rət etdikdən sonra ondan xahiş etdilər ki, onları Mənsimlidən Hüseyn kişi ilə barışdırsın ki, arada düşmənçilik olmasın.

Seyid Alməmməd ağa Hüseynin yanına adam göndərdi ki, sabah saat 11-də yanımda olsun. Hüseyn ağanın onu nəyə görə çağırdığını bildiyindən deyir ki, seyiddir getsin öz işi ilə məşğul olsun, mənim şəxsi işimə qarışmasın.

Xəbəri ağaya çatdıranda o bir papiros yandırdı. Dərindən bir-iki qullab vurub, köksünü ötürərək dedi:

-Əmioğlu Mirzəqasım, burdasanmı?

-Bəli, ağa,- deyə cavab verdim.

- Məni həmişə hamı eşidib. Cəddimə xatir neçə-neçə qan bağlamış, barışıq etmişəm. Arada 4 ölüm var, Hüseyn kişi isə məni eşitmək istəmir. Heç eybi yox, qoy gəlməsin, ancaq!...O da qismət olsa cəddimin möcüzatını görər, inşallah.

Nəhayət o gündən 2 gün sonra bir neçə adam gəlib ağanın ayaqlarına düşdülər. Əllərindən öpüb dedilər ki, ağa, Hüseyni bağışla gəlib səndən üzr istəsin. Iki gündür ağır xəstələnib.

Ağa dedi ki, Abdulla kişi, mən demişəm öz ayaqları ilə gəlsin, o ki uzanmış haldadır.

Bu sözü eşidəndə tüklərimiz biz- biz oldu. Axı ağa bunu haradan bildi.

Mən soruşdum ki, əmi, bunu kim dedi?

Cəddim və Allahım ürəyimə vəhy saldı, -deyə cavab verdi.

Bundan sonra yenə ağa Abdulla kişiyə dedi ki, gedin görün öz ayağı ilə gələ bilirsə gəlsin. Amma araba ilə yox! O, arabada uzanmış haldadır.

Bundan sonra bir neçə adamla getdik ki, xəstəni gətirək. Lakin çox təəssüf ki, artıq Hüseyn arabada ölmüşdü.

Bu möcüzatı mən öz gözlərimə görmüşəm.





## HACI SEYİD MİRSULTAN AĞA



Seyid Alməmməd ağanın böyük oğlu Hacı seyid Mirsultan ağa 1933-cü ildə Yardımlı rayonunun Perinbel kəndində anadan olmuşdur.

Atası dünyasını dəyişəndən sonra ailənin bütün ağırlığı onun üzərinə düşür. Cavan olmasına baxmayaraq nəinki öz nəslinə, bütün kənd əhlinə öz xeyirxah əməlləri ilə ağsaqqallıq etmişdir. Bütün xeyir-şər işlərində ağsaqqal kimi iştirak edir, xeyir-duasını verirdi. Bir ağa kimi elin ona böyük hörməti olub. Ağa atasının adına layiq şərəfli bir həyat yaşamışdır.

Hacı seyid Mirsultan ağa 18 yaşında ailə həyatı qurmuşdu. Allah-təala ağaya 12 övlad, çoxlu nəvə-nəticə payı vermişdi: **Hacı seyid Mirnicat, Hacı seyid Miralim, Hacı seyid Mirəyyub, Hacı seyid Mirqadir, Hacı seyid Mirhənifə, Hacı seyid Mirrafiq, Hacı seyid Mirrövşən, Hacı Mirzeynəb, Məşədi Mirsədaqət, Məşədi Mirşərafət, Məşədi Mirnəzakət və Mirsəadət.**

Hacı Mirsultan ağa adı altında yaşamaq, ömür başa vurmaq həm şərəflidir, həm də çətindir. Atanın övladlarının hər biri bu şərəfi, bu çətinliyi öz üzərində hiss edir. Onlar hansı sahədə çalışırlar çalışsınlar, elə həyat tərzi keçirirlər ki, xalq arasında Hacı seyid Mirsultan ağanın etimadını doğrultsunlar.

Onun övladları gücləri çatan qədər atalarının yolunu öz əməlləri ilə davam etdirir, ağanın adını qoruyub saxlayırlar.

Ağanın ocağında oğlu, 4 dəfə müqəddəs Məkkə ziyarətində olmuş, artıq cənub bölgəsində nurlu bir ağsaqqal kimi tanınmış **Hacı seyid Miralim ağa** oturur: Onun altı övladı var:



**Hacı seyid Mirnatiq, seyid Mirtahir**, seyid Mirmahir və üç qız övladı.

Hacı seyid Mirnicatın da altı övladı var: **seyid Mirəli** və beş qız övladı.

Hacı seyid Mirəyyub isə iki qız və **seyid Mirtural** adlı oğulun atasıdır.

Hacı seyid Mirilqarın **seyid Mircavid və seyid Mircavad** adlı oğlu və bir qızı var.

Hacı seyid Mirhənifə adı kimi özləri də gözəl **seyid Əliəkbərin, seyid Əliəsgərin və seyid Qasimin** atasıdır.

Hacı seyid Mirrafiqin bir oğlu, iki qızı var. Oğlunun adı **seyid Mirəşrəfdir**.

Hacı seyid Mirrövşənin isə üç oğlu, bir qızı var: **seyid Məhəmməd, seyid Mirhüseyn və seyid Mirhəsən.**

Hacı seyid Mirsultan ağanın bütün övladları, nəvə-nəticələri bir-birindən gözəl, xeyirxah, nurlu balalardır.

Allah hamısını başacan eləsin.

Atası kimi Mirsultan ağanı da 50-ci illərdə sürgünə göndərmək istəmişlər. Ancaq sevindirici haldır ki, ağanın ceddinin kəraməti sayəsində sürgünlüyü Qəbələ rayonu ilə əvəz olunmuşdur. Həmin ildə ağanın qohumlarını - Şavruq övladlarından bir neçəsini də həmin rayona sürgün etmişlər.

1952-ci ildə Bum kəndində sürgünlüyü bitdikdən sonra dostları ağanı bir müddət Salyanın Arbatan kəndində saxlamışlar.

Müəyyən bir vaxtdan sonra Mirsultan ağa ömrünün axırınacan Biləsuvar rayonunun Əsgərabad kəndində yaşamışdır. Mirsultan ağa bu kənddə yaşadığı illərdə müəyyən rəhbər vəzifələrdə çalışmış, həmişə xalqın, millətin mənafeyini düşünmüş və bütün imkansızların ümid yeri olmuşdu. Dövlət tərəfindən medallarla, "Pobeda" avtomobili ilə mükafatlandırılmışdı.





Biləsuvar rayonunda heç bir xeyir-şər məclisi onsuz keçirilməzdi. Mirsultan ağanın xeyirxah əməllərini sadalamaqla qurtarmaq olmaz.

Onun ölümü də bir möcüzə, bir sirri-xuda idi. Ağaya hər şey qabaqcadan aydın olurdu. Ağa Həcc ziyarətinə hazırlaşarkən bütün əhli-əyalla halallaşmış, bir-birinə mehriban olmağı tövsiyyə etmişdir. Mirsultan ağa qabaqcadan kasetə harda, nə vaxt, necə dünyadan köçəcəyini yazdırıb böyük oğlu Mirnicata verir və tapşırır ki, "Məndən xəbər çıxmayınca bu kaseti oxutmayın".

Məkkəyə yola düşməmişdən bir gün qabaq əhali ağa ilə vidalaşır və bu vidalaşma gecə saat 2-3-ə qədər davam edir. Ağa saat 3 radələrində namaz qılıb dua edərək, maqnitafonda vəfat edəcəyi vaxtı peyğəmbərcəsinə çox dəqiq söyləmişdir:

**"Mən seyid Alməmməd oğlu Mirsultan bu dünyadan 1993-cü il iyunun 4-də, günortadan sonra Mina dağında bütün ayinləri yerinə yetirdikdən sonra köçəcəyəm. Allah sizlərə kömək olsun".**

Ağa Məkkədə olanda həmin tarixdə övladları yuxularını qarışdırmış, kaseti dinlədikdən sonra əhvalatdan hali olmuşlar.

Nəinki Azərbaycanda, bir çox xarici dövlətlərdə də Mirsultan ağanı tanıyır, onu hörmətlə xatırlayırlar.

Iran Islam Respublikasında, Türkiyədə, Rusiyada və başqa dövlətlərdə ağanın böyük hörməti var. Iran Islam Respublikasının bir çox şəhərlərində ağanın **Hacı Məhəmməd Müqəddəm** kimi çoxlu dostları onu həmişə böyük ehtiramla yad edirlər.

Artıq 12 ildir ki, hər il - iyun ayının 4-də ağanın ocağına 4-5 min nəfər ziyarətə gəlir, ağanın vəfat gününü yad edirlər.

Həmin tarix hər bir azərbaycanlının yaddaşına əbədi həkk olunub.

Ağa sağlığında adamların qəlbində xeyirxah, nurlu bir şəxs kimi əbədi iz qoymuşdu. Ocağına üz tutmuş neçə-neçə şikəst şəfa tapmış, övladları olmayanlara övlad nəsib olmuşdur.



Bu gün də ağanın ruhu bu ocağın üstündə dolanır, müqəddəs ocağa pənah gətirənləri naümid qoymur.

**Hacı Səlim:**

-Rəhmətlik Hacı Mirsultan ağa ilə 1980-cı ildən dostluq edirdik. Nə vaxt ağa Bakıya gəlirdisə mənə baş çəkərdi. Rəhmətliyin sağlığında bir dəfə bərk xəstələnmişdim, ürəyim məni incidirdi. O, bizə gələndə əlini ürəyimə çəkdi. Elə bil bütün ağrılarım yox oldu və bu mənə bir möcüzə kimi göründü.

Yadımdadır, 1993-cü ildə rəhmətlik qardaşlığı Hacı Müqəddəmlə bizə gəldilər. Dedi ki, qardaşlığımla gəlmişəm ki, səni də özümüzlə ziyarətə aparaq. Mən ona dedim ki, siz gedin, inşallah, gələn il bir yerdə gedərik. Mənə dedi ki, qardaş, mən əhd eləmişəm ki, bu il gedim Kəbəni ziyarət edim və orada haqq dünyasına qovuşam. Ona görə də gəlmişəm səninlə görüşəm. Sonra biz vidalaşdıq və ağanı Kəbəyə yola saldıq. Ondan on gün sonra mən Tehrana getdim və mənə xəbər gəldi ki, ağa ziyarətdə vəfat edib. Mən Biləsuvara gəldim və rəhmətliyin hüzr mərasimində iştirak etdim. Bundan sonra 1997-ci ildə mən Kərbəla ziyarətinə gedib qayıtdım. Hal-hazırda ağanın pak əməllərini onun oğlanları davam etdirir və mən onlarla daim əlaqə saxlayıram.

Allah ona rəhmət eləsin, ruhu şad olsun.

**Aydın Həsənov, polkovnik:**

-Hacı Mirsultan ağa təkcə Cənub bölgəsində yox, eləcə də Azərbaycanda tanınan, sevilən ağır nəfəsli seyidlərimizdəndir. Mən hələ uşaq vaxtlarımdan Hacı Mirsultan ağa haqqında ailəmizdən eşidib, onun möcüzatlarının, xeyirxahlığının şahidi olmuşam.





Biz dindar ailədə böyüyüb, tərbiyə almışıq. Bəlkə də mənim müsəlman dünyasına, ağır nəfəsli seyidlərimizə, müqəddəs ocaq və pirlərimizə bu qədər inamım, hörmətim bundan irəli gəlir.

Hacı Mirsultan ağa başdan-ayağa möcüzəli, hikmətli bir şəxsiyyət idi. Müdrikliyi, uzaqgörənliyi ilə hamımızın ürəyində əbədi məskən salmışdır. Ona adi seyid kimi baxmaq olmurdu. Alicənab, xeyirxah, sadə və öz hörmətini saxlayan bir el ağsaqqalı idi. Bəlkə də taleyimin mənə bəxş etdiyi xoşbəxtlikdir ki, ulu Tanrımın sayəsində mən belə bir qəlbinurlu ağanı yaxından tanımışam.

Bir müsəlman övladı kimi imkanım olanda ağanın ölüm günü ocağını ziyarət edir, yaxınlarına səbr diləyirəm.

Yüksək insanlığa malik olmuş ağaya Allah rəhmət eləsin.

**Hacı Mübariz Rahibzadə:**

-Mən 1993-cü ildə Mirsultan ağa ilə bir heyətdə müqəddəs torpaqları ziyarət etmişəm. O vaxt düz 22 gün ağa ilə bir yerdə olmuşam. Hamı kimi mən də ona başqa cür hörmət edirdim. Əvvəllər də ağa haqqında çox eşitmiş, onun ağır seyid olduğunu bilirdim. Ziyarət vaxtı kiçik olduğum üçün onun qulluğunda durmağı özümə şərəf duyurdum.

Onunla söhbət edərkən adam rahatlıq tapırdı.

Bir gün biz Ərəfatdan qayıdarkən şeytana atmaq üçün xırda daş yığdıq, sonra Mina dağına gəldik. Şeytana daş atdıqdan sonra ağanın halı dəyişdi və rəhmətə getdi. Ağa müqəddəs torpaqda dəfn olundu.

Allah ağaya rəhmət eləsin, qəbri nurla dolsun.

**Məmmədov Əlibəndə Fazil oğlu:**

-Mən Hacı Mirsultan ağanı uşaq vaxtlarımdan tanıyırdım. Onun haqqında valideynlərim, kəndimizin ağsaqqalları-ağbirçəkləri həmişə xoş sözlər söyləyir, onun cəddini çağırıb səfərə çıxır, dar günlərində ona pənah gətirirdilər.

Hələ elə bir insan olmayıb ki, sidq- ürəkdən onun cəddinə pənah gətirsin, ağanın yanına xəstəsini aparıb şəfasız qayıtsın, onun evindən imkansızlar pay aparmamış olsun.

Belə söyləyirlər ki, ağanın həyat yoldaşı bir gün deyir ki, ağa, unumuz az qalıb, qonaq-qara çox olur, un almaq lazımdır. Səhəri gün imkansız bir kəndlisi ona pənah gətirərək evində yeməyə çörəyi olmadığını bildirir və ondan kömək istəyir. Mirsultan ağa həyat yoldaşını çağırıb tapşırır ki, ona un versin. Xanımı bildirir ki, ağa, axı mən sizə dünən dedim ki, un birce kisə qalıb. Ağa buyurur ki, ver aparsın, Allah yetirər.

Kəndli minnətdarlıq edərək unu götürüb gedir. Səhər açılan kimi qapıları döyülür. Görürlər ki, qapıda bir maşın dayanıb. Qapını döyən adam bildirir ki, maşında 20 kisə un var, sizə göndəriblər, icazə verin boşaldaq.

Mirsultan ağa ildə dörd-beş dəfə ehsan verər, kasıbların, kimsəsizlərin payını ayrıca göndərərdi.

Ağa Bakıya gələndə həmişə mənim yanıma gələrdi, görüşərdik.

O, həmişə el-obasının çətinliklərindən söhbət edər, insanlara köməklik göstərmək üçün yollar axtarardı.

Allah ona rəhmət, balalarını ocağında min budaq eləsin.



## HACI SEYİD MİRİSLAM AĞA

Ağanın qardaşı Hacı seyid Mirislam ağa 8 yaşından oruc tutur, namaz qılır. Iman, ədalət sahibi kimi özünə böyük hörmət qazanıb. Hacı Mirislam ağa sözün düzünü deyən adamdır. Dünya malından kasıb olsa da, seyid kimi imanda, əqidədə çox varlıdır. Mirislam ağa Allahın yolunu saxlayır,





işi müşkülə düşənləri naümid geri qaytarmır. Hamını mehriban olmağa, düzlüyə, birliyə çağırır.

Hacı seyid Mirislam ağa 5 dəfə Məşhəd, 1995-ci ildə isə Məkkə ziyarətlərində olub. Məşhədə həyat yoldaşını və oğlanlarını da aparıb.

Ömür-gün yoldaşı **Məşədi Təbərrik xanımla** özləri kimi 5 nurlu övlad böyütmüşlər: **Arzu, Məşədi seyid Mirramin, Məşədi seyid Mirzamin, Nigar və Kəmalə**. Üç də nəvəsi var.

Hal-hazırda Hacı Mirislam ağa Binəqədi rayonu, 4-cü mikrorayonda yaşayır.

Hacı Mirislam ağa çox sadə, əsl insanpərvər, mehriban, qayğıkeş, təqvalı, Allaha dərin məhəbbəti olan, cəddinin yolu ilə gedən imam əhli, imkanı olan yerdə varına yox deməyən səxavət sahibidir. Bir neçə yerdə (Bakı, Biləsuvar, Cəlilabad və s. rayonlarında ) qan işini bağlamış, küsülüləri barışdırmış, könülləri sevindirmişdir.

Hacı Mirislam ağanın qapısında tez-tez qurbanlar kəsilir.

Kim ki, Hacı Mirislam ağanın cəddinə ürəkdən nəzir və qurban boyun olursa, Allah da onun cəddi xatirinə qurbanlarını qəbul edir.

**Bəli, ulu, müqəddəs seyid Alməmməd ağa, onun oğlu Hacı seyid Mirsultan ağa bu gün aramızda olmasa da onların pak ruhları həmişə bizimlədir. Ruhunuz şad olsun, ey böyük Azərbaycanımızın BÖYÜK AĞALARI!**

***Mövti cismani ilə sanma mənim ölməyimi,***
***Seyyida, ölmərəm, aləmdə səsim var mənim!***

## KƏRBƏLAYİ SEYİD MİRTAHİR SEYİD MİRMEHDİ OĞLU



Həzrət Məhəmməd peyğəmbər ə.s. buyurub:

**"Alimlər peyğəmbərin vərəsələridir".**

Müqəddəs peyğəmbərin vərəsələri olan alimlərdən biri də seyid Mirtahir ağadır.

Seyid Mirtahir ağa haqqında fikir söyləmək və ya yazmaq sevindirici hal olmaqla yanaşı, həm də çox məsuliyyətli və çətindir. Hədislərdə deyildiyi kimi, alimin mömin simasına baxmaq, onun xatirələrindən danışmaq ibadətdir. Təbii ki, keşməkeşli həyat tərzi keçirən, 7-8 yaşlarından islam elmi ilə məşğul olan, pak və müqəddəs ömrünü Allah yolunda sərf edən, çoxsaylı insanların sevimlisi, dahi şəxsiyyət haqqında araşdırmalar aparıb müəyyən qədər tarixi məlumat vermək borcumuzdur.

Düşündükcə görürük ki, ağanın elmi, kəraməti insan ağlını heyrətdə qoyur. Ağa həmişə tövsiyə edir ki, ruhani dediyi sözlərə gərək əvvəl özü əməl etsin. Onda onun sözünün təsiri olar. Görünür ağanın kəlamlarının insanların qəlbində iz buraxaraq öz yerini tutması onun təqvasının gücündəndir. O, həmişə çox yəqinliklə danışır. Axirət aləmindən, behiştdən söhbət edərkən adama elə gəlir ki, sanki ağa cənnətdə oturub oradakı gözəlliklərə baxaraq danışır.

Seyid Mirtahir ağanın həyatı hələ gənc yaşlarından bu günə qədər kəramətlərlə doludur.

Onun ulu babaları- iki qardaş: **seyid Mirməcid və seyid Mircavad** İranın Burucurd vilayətindən köçərək Cəlilabad rayonunun Şatırlı kəndində məskunlaşmışlar.





Bir neçə il orada yaşadıqdan sonra şəriətimizi təbliğ etmək üçün Mircavad ağa Sabirabad rayonuna, Mirməcid ağa isə Lerikin Kalaxan kəndinə köçür.

Seyid Mirməcid ağa Lerikə köçdükdən sonra dini təhsilini davam etdirmək məqsədilə Ərdəbilə yollanır, orada böyük din xadimlərindən dərs alır. Oğlu **seyid Mirkazım ağa** isə Amburdərədə yaşayır. Atasının yolunu davam etdirən Mirkazım ağa Ərdəbilə gedib orada mədrəsəyə daxil olur. Təhsilini başa vurduqdan sonra vətənə qayıdır. Uzun illər şəriətlə sıx məşğul olur və vəfat etdikdə Amburdərədə dəfn olunur.

Onun vəfatından sonra oğlu **seyid Mirmehdi ağa** bu ilahi işləri mərdliklə davam etdirir. O, mübarək ruhunu Allah qarşısında təslim etdikdən sonra Lerikdə torpağa tapşırılır. Hal-hazırda qəbrinin üstündə kiçik məqbərə tikilib və insanlar tez-tez onun qəbrini ziyarətə gəlirlər.

Seyid Mirmehdi ağanın 5 oğlu, 5 qızı olub.

Oğlanları **seyid Mirməhyəddin, seyid Mirteyyub, seyid Miryusif, seyid Mirtahir və seyid Mirxasdır.**

**Seyid Mirməhyəddin və seyid Mirteyyub** 1937-ci ildə sürgün olunublar.

**Seyid Miryusif ağa** Lənkəranda yaşayıb. Elə müqəddəs qəbri-şərifi də Lənkərandadır.

**Seyid Mirxas ağa** elm sahibidir. Hal-hazırda Biləsuvar rayonunda yaşayır. Dinimizi təbliğ etməklə məşğuldur.

Dinimizi və peyğəmbərin şəriətini daha mükəmməl formada davam etdirən **Kərbəlayi seyid Mirtahir ağadır**. Ağa, 1910-cu il aprel ayının 9-da anadan olub. O, hələ gənc yaşlarından elmə maraqlı olub. İraqın Nəcəfül-Əşrəf şəhərində, İranda yaşayan müctehidlər tərəfindən tanınan Şeyx Qüdrət, Nəcəf alimi Molla Hüseyn İrəvani və digər alimlərlə yaxın münasibət saxlamaqla, onlarla elmi müzakirələr aparıb, həmişə də qalib olub. Az bir zamanda böyük elmi naliyyətlər əldə edib. Zaman keçdikcə yüksək səviyyəli din xadiminə, elm sahibinə, ruhanilərin müəlliminə çevrilib. İnsanlar həmişə dini

suallarını ona verir və hərtərəfli, dolğun-düzgün cavab alırlar.

Ağanı başqalarından ayıran cəhətlərindən biri də, onun Allahın izni ilə göstərdiyi kəramətləridir.

...Elturan adlı (**Atayev Elturan Nuşirəvan oğlu**) gənc bir oğlanın lifma vəzlərində şiş vardı. Bakının əksər xəstəxanalarına müraciət edir, onu yüksək səviyyəli həkimlərin müayinəsindən keçirir, müalicə edirdilər. Lakin onun boğazında, qollarında, sinəsindəki şişlər getdikcə artırdı. Elturanın vəziyyəti bütün ailə üzvlərini dəhşətli dərəcədə narahat edirdi. Savadlı həkimlər onun xəstəliyinin müalicəsinin çətin olduğu və gələcəkdə xərçəngə çevriləcəyi barəsində bədbin məlumat verirlər. Hadisədən xəbər tutan Elturanın yaxın qohumu Vidadi müəllim Mirtahir ağanın kiçik oğlu Mirkərim ağa ilə görüşür və Elturanı ağanın ziyarətinə aparmalarını xahiş edir. Simasından nur tökülən ağa əlini şiş olan yerlərə sürtür, əlini onun başına qoyub dua edir. Bir neçə gündən sonra sözün əsl mənasında möcüzə baş verir. Böyük nəsli narahat edən xəstəlikdən əsər-əlamət qalmır. Allahın izni və ağanın kəraməti ilə şəfa tapan Elturan isə yenidən ağanın ziyarətinə gedir və o müqəddəs ocaqda qurban kəsir.

Seyid Mirtahir ağanın duaları nəticəsində şəfa tapanların sayı yüzlərlədir. Ağanın səxavəti, kimsəsizlərə köməyi haqqında deyilənlərin hamısını yazmaq mümkün deyildir. Respublikamızın ilahiyyat alimi Hacı Şeyx Məhəmməd həmişə seyid Mirtahir ağa barəsində danışar, onunla fəxr etdiyini bildirərdi. O deyərdi:

***"Zamanamızda ruhanilər çoxdur, lakin əsl ruhani-alim odur ki, onda iman və elm bərabərlik təşkil etsin. Şükürlər olsun Allaha ki, bu bərabərliyi özündə əks etdirən ağa Mirtahir kimi seyid və alim var".***

Doğrudan da ağanın həyatına nəzər salanda insan maraqlı əhvalatlarla üzləşir. Bəzən ağa hüzr mərasimlərində heç bir şey yemir, sadəcə su və ya çayla kifayətlənir. Səbəbini soruşduqda deyir: Bunlar xums vermirlər. Mən xumsu verilməmiş





ruzunu yesəm Allah dualarımı qəbul etməz. Ağa həmişə harada olmasından asılı olmayaraq namazını gecikdirməz, vaxtında qılmağın fəzilətindən danışır.



Ağanın elmindən, əxlaqından qida almış **Məşədi seyid Mirpaşa Bayramovun** dediklərini dinləmək də maraqlıdır.

"Mən 13-14 yaşlarında olanda ağanın möizə etdiyi məclislərdə olurdum. Camaat həmin məclislərə getmək istəməsə də Mirtahir ağanın ora gələcəyini bilib tələsik halda məclisə gedərdilər. Deməks olar ki, hüzr məclisinə başsağlığı üçün gələnlərin 50-60%-i ağanı görməyə və dinləməyə gəlirdilər. O, çox diqqətli və həssas insandır. Yüksək səviyyəli yaddaşa malikdir. Təvazökarlığı isə insanı valeh edir.

Bir gün 250-300 nəfərin iştirak etdiyi bir məclisdə mən də asta-asta Quran oxuyurdum. Bu zaman ağa mənim adımı soruşdu. Dərhal ayağa qalxıb özümü təqdim etdim. Seyid olduğumu və Quran oxumağı bacardığımı bildikdən sonra simasında sevinc təbəssümü göründü. "Əlhəmdullah" deyib məni yanına çağırdı. Qurani-Kərimi açdı və məclisdə əyləşənlərin eşidə biləcəyi bir tərzdə oxumağımı tapşırdı. Oxumaq üçün isə Quranın ən çətin oxunan "Yusif" surəsi düşmüşdü. Həm surənin çətinliyi, 200-dən artıq adamın mənə diqqət yetirməsi və ağanın nurlu siması məni şoka salmışdı. Mən oxumağa başladım. 15-20 ayə oxuduqdan sonra ağa üzümdən öpüb "Əhsən", "Maşallah" dedi. Camaata tapşırdı ki, məndən muğayat olsunlar və dedi ki, sənin gələcəyini yaxşı görürəm.

İndi başa düşürəm ki, mən o vaxt surəni heç də yaxşı oxumasam da ağa məni həvəsləndirmək istəyirdi...

Seyid Mirtahir ağanın altı oğlu vardır: **Hacı Seyidağa,**



**Kərbəlayi Mirağa, Kərbəlayi Mirməhəmməd, Mirmehdi, Seyfəddin və Mirkərim.**

Ağanın oğlanlarının hamısı ali təhsillidir və onun yolunu şərəflə davam etdirirlər. Lakin ondan daha mükəmməl formada bəhrələnən, ondan mənəvi qida alan sonuncu oğlu **seyid Mirkərim ağadır**. O, Tibb Universitetini bitirib. Dini bilgilərlə yanaşı dünyəvi elmləri də çox gözəl bilir. Olduqca səmimi, mehriban, səxavətli və imanlı imam-peyğəmbər övladıdır. Iki qızı, **Mirkamil** adlı bir oğlu var.

Bu ocağın ən sonuncu və məsum daşıyıcısı seyid Mirkərim ağanın oğlu **seyid Mirkamil ağadır**. Balaca seyidin 10 yaşı olsa da, yaşına görə bilik səviyyəsi yüksəkdir. Hiss olunur ki, onda ilahi vergisi var. Quran oxuyub, namaz qılır. Hal-hazırda Binəqədi rayonu 6-cı mikrorayondakı mədrəsədə təhsil alır. Məqsədi- ilahiyyat alimi olmaqdır.

Allah-təala seyid Mirtahir ağa kimi nurlu seyidlərimizin pak nəfəsini heç vaxt camaatımızın üstündən əskik eləməsin!





## HACI SEYİD MİRXAS KƏRBƏLAYİ SEYİD MİRMEHDİ OĞLU



Dünyanın peyğəmbəri Həzrəti Məhəmməd (s) buyururdu ki, günün zərrəsi də gündəndir, seyidlər də mənim zərrəmdir. Həqiqətən də seyidlərimiz peyğəmbərimizdən bizə qalan dəyərli əmanətdir.

Hüney müharibəsində peyğəmbər (s) ordusuna çoxlu qənimət qalır. Qənimət bölünərkən Həzrət Məkkə əhalisinə çox pay ayırır. Əsabələri qayıdır ki, ya peyğəmbər, sən yerlipərəstlik etdin, qənimətin çoxusunu onlara verdin. Peyğəmbər (ə.s.) onlara cavab verir ki, onlara çox pay ayırsam da, özüm sizinlə qaldım.

Nə yaxşı ki, bu gün çətin günlərdə dayağımız, arxamız olan seyidlərimiz bizimlədir. Biz onların pak nəfəsini hər gün eşidir, onların mərhəmətindən bəhrələnirik.

Təəssüf ki, zaman-zaman belə nurlu seyidlərimiz, peyğəmbər əmanətləri müxtəlif təqiblərə, təzyiqlərə məruz qalıblar.

Imam Zeynalabidinin (ə.s.) törəmələri, əslən Mədinədən olan **Kərbəlayi seyid Mirböyükağa** Iraqda yaşayarkən Höccət ibn Yusifin zülmünə tuş gəlir. Onlar zülmdən baş götürüb Cənubi Azərbaycanın Burucud şəhərinə pənahlanıblar.

Bu nəslin nümayəndələrindən olan **Kərbəlayi Seyid Mirkazım ağanın** taleyinə didərginlik həyatı yazılıb. O, Cəlilabadın Pərdili kəndinə köçüb yaşayır. Bir müddət orada yaşadıqdan sonra Lerikin Amburdərə kəndindəki süd bacısının yanına köçür. Müəyyən vaxt keçəndən sonra ali dini təhsil almaq, həm də həkimlik sənətinə yiyələnmək üçün Qəzvinə oxumağa yollanır. Düz 12 il orada təhsil alır, həkimlik sənəti-

lə yanaşı bir çox elmləri də mükəmməl öyrənir. Elə Qəzvində də **Böyükxanım** adlı bir qadınla ailə həyatı qurur.

Ağa təhsilini tamamladıqdan sonra yenidən Amburdərəyə qayıdır. Vilayətin nurlu seyidi, bacarıqlı bir həkim kimi xalqa xidmət göstərir.

Kərbəlayi seyid Mirkazım ağanın 5 oğlu və beş qızı dünyaya gəlir: **Kərbəlayi seyid Mircavad, Kərbəlayi seyid Böyükağa, Kərbəlayi seyid Mirağa, Kərbəlayi seyid Mirhəsən, Kərbəlayi seyid Mirmehdi.**

Kərbəlayi seyid Mirkazım ağa Lerikdə - Amburdərədə rəhmətə gedib. Onun müqəddəs şərifi-məzarı el-obanın sınaqlı ziyarətgahıdır.

Kərbəlayi seyid Mirkazım ağanın nəslinin əksəriyyəti ali ruhani təbəqəyə aid olduqlarına görə sovet hakimiyyəti illərində repressiyalara məruz qalıblar. Ona görə də Kərbəlayının böyük oğlu **Kərbəlayi seyid Mircavad ağa** 80 yaşında siyasi məhbus kimi Sibirə sürgün edilir. Amma cəddi-cənab peyğəmbər onu zindanlarda hifz eləyir. Ağa sürgündən sağ-salamat qayıdır, 1948-ci ildə rəhmətə gedir və atasının barigahında dəfn edilir.

Allah-təala Kərbəlayi seyid Mircavad ağaya bircə oğul payı vermişdi: **seyid Ağamir ağa.**

Bacarıqlı, qeyrətli prokuror işçisi olan **Mirqəni seyid Mirqəvvam oğlu** onun nəvəsidir.

Kərbəlayi seyid Mirkazım ağanın ikinci oğlu Kərbəlayi seyid Böyükağa da Lerikdə yaşayıb və orada rəhmətə gedib. Çox savadlı din xadimi idi. Elə balaları da özünə oxşamışdı. **Seyid Mirsaleh, seyid Mirsəlim, seyid Miryunis, seyid Mirfəyyaz** adlı oğlanları və bir qız uşağı vardı.

Ağanın üçüncü oğlu Kərbəlayi **seyid Mirhəsən ağa** da 37-ci illərin repressiyalarının qurbanı olub. Incəvardan sonralar ağanın nahaqdan tutulduğunu bilib, ona bəraət vermişdilər.

Kərbəlayi seyid Mirhəsən ağanın övladları aşağıdakılardır: **seyid Mirağagül, seyid Mirmüctəba, seyid Mirfəzilət, seyid Mirmənsur və dörd qız övladı.**





Tanınmış seyidlərimizdən olan **Hacı seyid Mirtohid Kərbəlayi Mirhəsən ağanın** nəvəsidir.

Kərbəlayi seyid Mirkazım ağanın dördüncü oğlu **Kərbəlayi seyid Mirağa** uzun illər dini işlərdə çalışıb.

Əvvəlcə Amburdərədə yaşayıb, vilayətin axundu kimi yüksək bir vəzifə ona tapşırılıb. Təəssüf ki, ondan sonra oğlanları Seyidağa və Mirrza rəhmətə gediblər.

Kərbəlayi seyid Mirkazım ağa ocağının sonbeşiyi **Kərbəlayi seyid Mirmehdi ağa** (1877-1934) Lerikdə anadan olub. Quranı mükəmməl öyrənib. El-obanın dərin hörmətini qazanmışdı. Lakin qardaşlarının dərdi onu tez qocaltdı. 57 yaşında sanki qoca kişini xatırladırdı. Özü haqq dünyasına tez qovuşsa da, övladları **seyid Miryusif, seyid Mirməhiyəddin, Kərbəlayi seyid Mirtahir, seyid Mirteyyub** və **Hacı seyid Mirxas** və beş qızı el-obada öz xeyirxah əməlləri ilə ata-babasının ocağının nurunu gurlandırıblar.

Ailənin böyüyü **seyid Miryusif ağa** Lənkəranda yaşayıb. Dərin savad sahibi idi. Balalarına da şəriəti öyrədib. Amma övladları **Ağa Mirtəyyar** (rəhmətə gedib), **Hacı Ağasəf** dayılarından həm də dini elmi əxz ediblər.

Hal-hazırda Hacı seyid Ağasəf axundluq edir.

Seyid Mirməhiyəddin ağanın da taleyi yaxşı gətirməyib. 1941-ci ilin avqust ayında siyasi məhbus kimi tutulub, 1944-cü ildə Türkmənistan zindanlarında vəfat edib.

Seyid Mirməhiyəddin ağa 12 il dayısı **Mirzə Vahiddən**, 4 il isə **molla Hüseyndən** dərs almışdır. Şəriəti beş barmağı kimi bilirdi. Allah-təala ona həm də bala dağı göstərmişdi. 4 övladı elə öz sağlığında rəhmətə getmişdi. Əvəzində Allah-təala qardaşı seyid Mirtahir ağaya nurlu, uzunömürlü balalar qismət elədi: **Hacı Seyidağa, Kərbəlayi seyid Mirağa, Kərbəlayi seyid Mirməhəmməd** (o Cəlilabad şəhər məscidində çalışır, həm də həkimdir), seyid Mirmehdi, seyid Seyfəddin, seyid Mirkərim və beş qız övladı.

Kərbəlayi seyid Mirmehdi ağanın dördüncü oğlu **seyid**

**Mirteyyub ağa** Böyük Vətən müharibəsinə gedib, qayıtmayıb.

Bu ulu nəslin ocaq yaşadıcısı, adı- sanı, xeyirxah əməlləri ellərə yayılmış, nurlu ağsaqqalımız, elm-ürfan sahibi, qüdrətli üləma, müqəddəs **Hacı seyid Mirxas ağadır**. Köklü, ulu bir nəslin ocağından pöhrələnmiş, müqəddəs nəfəsi ilə neçə-neçə ailəyə, insanlara mərhəmət vermiş Hacının nurani sifətinə, simasına baxmaq, onu ziyarət eləmək bizə də nəsib oldu.

**Hacı seyid Mirxas ağa** 1926-cı ildə Amburdərə kəndində anadan olub. Hələ orta məktəb illərində qardaşı Mirməhiyəddindən ibtidai dini təhsil alıb. Uzun illər kolxozda işləyib. Böyük Vətən müharibəsinin qanlı yollarını şərəflə addımlayıb. İkinci Ukrayna cəbhəsinin tərkibində düz Almaniyaya qədər gedib çıxıb. Döyüşlərdə göstərdiyi rəşadətə görə "Şərəf" ordeni və müxtəlif medallarla təltif edilib. Dəfələrlə yaralanıb. II qrup əlil kimi Vətənə dönüb. Arxa cəbhədə də fədakarlıqla çalışıb. Lakin ağa harada olursa-olsun heç vaxt öz əqidəsindən dönməyib. Nəslinə-kökünə bağlılığı, şəriətə olan məhəbbəti onun oxumağa, öyrənməyə olan həvəsini daha da artırıb. **Şeyx Qələmdən, Mirkərim ağadan** İslamın sirlərini mənimsəyib.

Sonralar, 1952-ci ildə Biləsuvarın Əmən kəndinə, oradan isə Yuxarı Cürəliyə köçüb. Öyrənmək, dinimizin incəliklərini daha mükəmməl mənimsəmək üçün lənkəranlı Mirzə Məhəmməd ağadan, Cəlilabadda Şeyx Qüdrətdən, Biləsuvarın axundu molla Hüseyndən uzun müddət elm öyrənib. Öyrəndiklərini də başqalarına öyrədib.

Sovet hakimiyyəti illərində öz evində gizlicə mədrəsə açıb. Dinimizi təbliğ edib.

Hacı 1990-cı ildə Məkkəyə gedən ilk zəvvarlarımızdandır. Bundan başqa ağa 1993-cü ildə Kərbəla ziyarətində də olub. Məkkə ziyarətinə yenə getmək arzusundadır.

El ağsaqqalı, nurlu seyid-üləma Hacı seyid Mirxas ağa bu gün də öyrənməkdə, öyrətməkdədir. Fərman Kərimzadə, Əlfi **Qasımov, Oktay Rza, Əhmədağa Əhmədov, Sevdalı Həsən,**





**Misir Alarlı, şair Adillə dostluq edib.**



Ağa gənclərin təlim-tərbiyəsində fəal rol oynayır. O olan yerdə prokurora, polisə ehtiyac yoxdur.

Özü də söz sərrafı, müdrik kəlamlar sahibidir. Xalqın inamının, imanının bərqərar olmasında öz qüvvə və bacarığını əsirgəmir. Deyir ki, iman insanın ən etibarlı, güvəncli sərvətidir. İmanlı xalq heç vaxt xar olmaz, zülmə boyun əyməz, əsarətlə barışmaz, haqqı nahaqdan seçər.

Ağa öz ömrünü el yolunda qətrə-qətrə əridən hacılarımızdandır. Kəndin abadlıq işlərində, xeyir-şər mərasimlərində onsuz keçinmirlər.

Kənddə 1967-ci ildə tikilmiş məscidin bərpasında öz köməkliyini əsirgəməyib. 1994-cü ildə tikilmiş yeni məscid də onun rəhbərliyi ilə ərsəyə gəlib.

Ağa həyat yoldaşı **Kərbəlayi Ərkinaz Ağaməməd qızı** ilə nurlu, savadlı, kamil biliyə və dərin mənəviyyata malik balalar böyüdüblər: **Məşədi seyid Mirnizam, seyid Mircəlil, Məşədi seyid Mirnəsib, seyid Mirbəşir, seyid Mirhəbib** və yeddi qız övladının hamısı elmlə yanaşı, həm də dini savadlıdırlar.

Allah başacan eləsin!

Onu da qeyd edək ki, Hacı Mirxas ağanın anasının əmisi Mirzəcəfər Kəlvəzi böyük müştehid, onun qardaşı **Hacı Məhəmməd** isə tanınmış ruhani idi.

Hacının dayıları Mirzə Əbdül Cənubi Azərbaycana köçüb. Orada mədrəsəsi olub. Bu gün onun oğlanları Qum Univesitetində dərs deyirlər. O biri dayıları **Mirzə Səid Hacı Məhəmməd ağa, Mirzə Vahid və Mirzə Məsud din** üstündə repressiya olunublar. Qaynı **Məşədi Allahverən** isə Yardımlının el ağsaqqallarındandır.

Allah hamısını var etsin!

**Nizami Nuriyev, Yuxarı Cürəli kənd sakini:**

- Yaxın günlərin söhbətidir. Qonşuda hüzr məclisi idi. Məclis iştirakçıları respublikada böyük nüfuz sahibi olan ağsaqqalını- Hacı Mirxas ağanı gözləyirdi. Hacının məclisə gecikməsinin səbəbi Lənkəran şəhərində başqa bir məclisdə olması idi. Az vaxtdan sonra Hacı gəldi. Bu gəliş bütün məclis iştirakçılarına həm rahatlıq, həm də narahatlıq verdi. Rahatlıq verdi, ona görə ki, məclisə hər kəlamı Quran ayələri qədər ibrətli bir şəxsiyyət gəlmişdi. Narahatlıq verdi, ona görə ki, Hacı çox qocalmışdı, çox.

Hacının bu qocalığı məni ondan bir xahiş etməyə məcbur etdi.

## Qocalma, Hacı, qocalma!

Elə sanma mən dəliyəm,
Qəbul eylə, dərd əhliyəm,
Səndən sənə gileyliyəm,
Qocalma, Hacı, qocalma!

Bildiyin çox, verdiyin az,
Dərdin alım, belə olmaz,
Hələ çoxdur yol anlamaz,
Qocalma, Hacı, qocalma.

Xeyir-şərin yaraşığı,
Hər məclisin gur işığı,
Qurani- Kərim aşiqi,
Qocalma, Hacı, qocalma.





Dəryada bil gəmi məni,
Nolar, qırma yelkənimi,
Bilmərəm mən öz yerimi,
Qocalma, Hacı, qocalma.

Yanar oda salma bizi,
Küt eyləmə dilimizi,
Kəsmə ümid yerimizi,
Qocalma, Hacı, qocalma.

Bir bulaqsan yol boyunca,
Içməmişik biz doyunca,
Gəl rəhm eylə sən biz aca,
Qocalma, Hacı, qocalma.

Yalvarıram, kərəm əhli,
Qoyma gəzəm dərdli-dərdli,
Sənsiz həyat müsibətdi,
Qocalma, Hacı, qocalma.

Necə olar bağ-bağbansız,
Dünya yolsuz, el Allahsız,
Bizi qoyub ağsaqqalsız,
Qocalma, Hacı qocalma.

# HACI SEYİD MİRTOHİD AĞA

*Bu ucsuz-bucaqsız göyün altından,*
*Şən keçin, dövranda az deyil cəfa.*
*Sənə növbə çatdı, heç ah eyləmə,*
*Hamı gedəcəkdir çünki torpağa.*
*Ö. XƏYYAM*



Bəli, bu dünya bir pəncərədir, hər gələn baxar keçər. Xoşbəxt o kəslərdir ki, bu dünyada iz qoyub gedir. Belə insanlar ölmür, ürəklərdə, xatirələrdə əbədi yaşayırlar. İnsanı əbədi yaşadan isə onun əməlləri, bu dünyada gördüyü xeyirxah işləridir.

Biləsuvar elinin nurlu ağası - sözün əsl mənasında sözünün, əqidəsinin, nəfsinin ağası **Hacı seyid Mirtohid ağa** bu gün aramızda olmasa da, xoş xatirəsi minlərlə insanın qəlbində, dilindədir. Axı, başqa cür də ola bilməzdi. Onun böyüdüyü, tərbiyə aldığı ailəsi, soy-kökü qoca tarix qədər qədim və uludur.

Ağanın elminin, savadının yüksək məqama yetməsinin bir neçə səbəbi var: əvvəla, saf əqidəyə malik ağanın atdığı hər addım, danışdığı hər bir söz yalnız Allaha görə idi. "Mənə Allah əmr etdiyi üçün atama qulluq edirəm, övladlarıma ona görə belə baxıram ki, Allah əmr eləyib". Onun məqsədi, hədəfi, fikri-zikri yalnız və yalnız Allah-təala idi.

Ikincisi, ağanın ulu nəslinin Həzrəti -Məhəmməd peyğəmbər (s)-nın nəslindən olmasıdır. Ağanın özü də, bütün qohum-əqrabası da özlərini peyğəmbərimizin adına layiq aparmış, xalq içərisində həmişə hörmətlə, nufuzla yaşamış, seyidlik adına xələl gətirə biləcək hərəkətlərə yol verməmişlər.







Hacı seyid Mirtohid ağanın yeddinci babası **seyid Məhəmməd Mehdi Bəhrul Ülumidir.** O, otuz yaşında Nəcəfül-Əşrəfdə Islam Elm Mərkəzinin rəhbəri olub. Bir çox elmi əsərlərin, kəşflərin müəllifidir. O, gərəkli, elmi əsərləri ilə islam aləmində yaxşı tanınıb. Seyid Məhəmməd Mehdi Bəhrul Üluminin yetirmələrindən 12-si dünya şöhrətli, ensiklopedik biliyə malik alimlər olmuşlar.

1995-ci ildə Hacı seyid Mirtohid ağa və Hacı seyid Mirkazım ağa Kərbəlada olarkən Tusi məqbərəsində dəfn olunmuş seyid Məhəmməd Mehdi Bəhrul Ülüminin məzarını ziyarət etmişlər. Onun başdaşında belə bir cümlə yazılıb: Qərib alim vəfat etdi (1741-1798). Deməli, alim cəmisi 57 il ömür sürüb. Bu çox da böyük ömür deyil, amma insanlara sərf olunubsa, deməli, əbədiyyət qazana bilib.

Hacı seyid Mirtohid ağa da böyük alim və insan idi. Görünür Hacının elmə meylliliyi ona babalarından keçmişdi. O, 1950-1990-cı illərdə əsl din fədaisi, dinimizin yorulmaz təbliğatçısı, xalqa doğru yol göstərən bir şəxs kimi fəaliyyət göstərib. Hacının uca məqama yetməsində daha bir amili də yaddan çıxartmaq olmaz. O, bu böyük mənsəbə zəhmətsevərliyi, elm-el yolunda yorulmadan çalışması, bir gün də olsun istirahətini boş keçirməməsi sayəsində nail olmuşdu. Ömrü boyu onun istirahəti Quranla keçib. Balalarını da bu cür tərbiyələndirib. Zəhmətsevərlik, halallıq, el yolunda gecə-gündüz təmənnasız çalışmaq onların qanına, canına işləyib.

Hacı seyid Tohid ağa həmişə də öz fikirlərini məntiqlə, sübutla ətrafdakılara başa salar, görkəmli dövlət, din xadimlə-

rindən, peyğəmbər əleyhissəlamın hədislərindən, Qurani-Kərimdən sitat gətirərdi.

Hacı seyid Tohid ağanın babası Kərbəlayi seyid Mirhəsən ağa Lerik rayonunun Amburdərə kəndində yaşamışdır. O da dövrünün mütərəqqi fikirli elm və ürfan sahibi idi.

Deyirlər ki, xain xoflu olar. Şura hökuməti bu cür savadlı, oxumuş ziyalılardan, nüfuzlu din xadimlərindən qorxurdu. Ona görə də Kərbəlayi 37-ci illərin repressiyalarının qurbanı oldu. Üçlüyün qərar ilə o, on gün içərisində güllələndi. Seyid nəslinə mənsub olduqlarına görə ailənin digər üzvləri də təqib olunurdu. Lakin bütün bu məşəqqətlərə baxmayaraq övladları ata-baba yolundan dönmədilər. Seyid Mirhəsən ağanın yurdu ocaqsız qalmadı. **Oğlu Mirağagül ağa** (1904-1986) atasının yolunu davam etdirdi. Heç nədən qorxmadı, çəkinmədi, heç kəsə əyilmədi. **Balaları seyid Mirtohidi, seyid Mirkazımı, seyid Əsədağanı, seyid Mirəkrəmi** də bu cür barışmaz, əqidəli, saf, hərtərəfli dünyagörüşünə malik böyütdü. Onların mükəmməl təhsil almaları üçün heç nəyini əsirgəmədi. Təsadüfi deyil ki, bu imam-peyğəmbər övladlarının əksəriyyəti ali təhsillə yanaşı, şəriəti də dərindən öyrənmişlər.

**Hacı seyid Mirkazım ağa** ixtisasca həkimdir. Kərbəla, Məkkə ziyarətlərində olub. Iki övladı var: **seyid Mircəlal və Fəxriyyə.**

**Seyid Əsədağa** da həkimlik peşəsinə yiyələnib. **Seyid Miryusif və Rəşidə** adlı nurlu balaların atasıdır.

**Seyid Mirağagül ağanın** o biri oğlu seyid **Mirəkrəm ağanın övladları seyid Mirfəzilət və Suqra** da əmiləri kimi şərəfli həkimlik sənətinin sahibidirlər.

**Seyid Mirağagül ağanın** böyük oğlu, el-obanın nüfuzlu seyidi, ağsaqqalı, xeyirxah əməllər carçısı **Hacı seyid Mirtohid ağa** isə nəinki Biləsuvar rayonunda, eləcə də respublikamızda tez-tez imdada çağrılan, cəddinə ehtiyac duyulan ulu bir şəxsiyyət idi.

O, 1932-ci ildə ata-baba yurdunda- Amburdərədə anadan





olmuşdu. Əvvəlcə atasından, sonra isə tanınmış din xadimi Molla Hüseyndən şəriəti öyrənmişdi. Uzun illər "Promxor"da işləsə də, heç vaxt şəriətdən ayrılmamışdı. Quran oxuyar, kəbin kəsərdi.

1990-cı ildə Məkkə ziyarətinə gedən müsəlman bacı-qardaşlarımızla birgə o da müqəddəs məkanı ziyarət etmiş, sonralar 3 dəfə Kərbəlada və Məşhəddə olmuşdu.

Elin xeyirxah ağsaqqalı, sınaqlı seyidi Hacı seyid Mirtohid ağa 1997-ci ildə haqq dünyasına qovuşdu.

Ağa ömrü boyu insanlardan öz elmini, səxavətini əsirgəməmişdi. Ona görə də el-oba ona olan böyük ehtiramını müqəddəs məzari-şərifinin üzərində kümbəz ucaltmaqla bir daha təsdiq etdi.

Allah rəhmət eləsin.

Hacı seyid Mirtohid ağanın **böyük oğlu Hacı seyid Mirhəmid** (o üç dəfə Məkkə ziyarətində olub-red) hal-hazırda Bakı şəhərinin Bül-bülə qəsəbəsindəki məscidin axundudur. Qəzvində ali ruhani təhsil alıb. **Seyid Əhməd adlı** oğlu və iki qızı var.

**Seyid Mirabbas** isə 6 qız övladının atasıdır.

Hacı seyid Mirtohid ağanın üçüncü oğlu **seyid Əlidir.** Adları imam Həsən (ə.s.) və Imam Hüseynin (ə.s.) şərəfinə qoyulmuş iki oğlu və bir qızı var.

**Seyid Mirnəsib** isə hələ subaydır. Suriyada ali ruhani institutunu başa vurub. Inşallah, gələcəyin görkəmli din xadimi olacaqdır.

Bəli, insan cismən ölsə də, ruhən əbədi yaşayır.

Xüsusən də ömrünü -gününü islamın möhkəmlənməsinə, qorunmasına sərf edənlər.

Hacı seyid Mirtohid ağa kimi müqəddəslərimiz isə heç vaxt ölmür, yaddan çıxmırlar.

**Allah ona rəhmət eləsin.**

## HACI SEYİD MİRTAPDIQ SEYİD MİRMƏHƏMMƏD OĞLU



Bir əsrə yaxın, 94 il şərəfli bir ömür sürmüş, minlərlə insana nur, şəfa vermiş müdrik el ağsaqqalı, ilahi vergili Mirtapdıq ağa (**ona el arasında "seyid Tapı" da deyərdilər - red.**) imam Museyi - Kazım (ə.s.) nəslindəndir.

Deyirlər, Allah-təala öz istəkli bəndələrini tez-tez sınağa çəkər. Iki müxtəlif quruluşda yaşamış Mirtapdıq ağa da ilahinin və insanların sınaqlarından həmişə üzüağ, alnıaçıq çıxmışdı.

1888-ci ildə Cəlilabadın Xəlifə Yusuflu kəndində, müqəddəs bir ailədə - **Mirməhəmməd ağanın ocağında dünyaya göz açan Mirtapdıq** ağa hələ erkən vaxtlarından ağır zəhmətə qatlaşmış, əlinin qabarı ilə çörəyini qazanmışdı. Çar II Nikolay taxtdan düşəndən, Azərbaycanda kommunist rejimi qurulandan sonra **qardaşları Mirzəli, Şükür, Əzizalı və bacısı Təzəgüllə** təzə hökumətin sərt qanun-qaydalarınınm tələbləri ilə yaşamalı oldular. O vaxtlar Şura hökuməti nüfuzlu seyidlərimizin, ağsaqqallarımızın adından belə qorxar, onların camaata təsirini azaltmaq üçün öz dədə-baba yurdlarından pərən-pərən salardı.

Əslən Mədinədən olan ağanın da nəsli Perinbeldə, sonra isə Cəlilabadda yaşayıb. Seyid Mirtapdıq ağagilin də ailəsini buradan köçürürlər. Nəslin nümayəndələrinin əksəriyyəti Salyan rayonunun Xələc kəndində məskunlaşır.







Böyük Vətən müharibəsi illərində nəslin bir çox üzvləri rəhmətə getdi. O vaxt ölkənin hər yerində aclıq, səfalət hökm sürürdü. Mərhumiyyətlərə dözməyə vərdiş edən Mirtapdıq ağa da **oğlu Mirkərimi** də götürüb Biləsuvar rayonuna köçür. Onlar rayondakı elektrik şəbəkəsində bir balaca daxmaya yerləşirlər.

Hələ o vaxtlar ağanın ulu bir seyid nəslindən olduğunu heç kəs bilmirdi.

Günlərin bir günü təsadüf elə gətirir ki, xırmana taxıl aparan maşın ağanın yaşadığı evin qabağında palçığa düşüb batır. Nə illah edirlər, maşını palçıqdan itələyib çıxara bilmirlər. Bu mənzərəni seyr edən ağa yaxına gəlir, Allahını, cəddi cənabi- peyğəmbəri köməyə çağırıb, maşını itələyir. Sanki möcüzə baş verir. 3-4 nəfər adamın çıxarda bilmədiyi maşın, ağanın mübarək əllərinin kəraməti ilə lehmədən çıxır. Bunu görən **Abdul Ismayılov ağanın** seyid nəslindən olduğunu başa düşür və o gündən ağaya böyük inam bəsləyir.

Ağanın bu möcüzəsi ildırım sürəti ilə rayona yayılır. Elə o gündən də seyid Mirtapdıq ağanın cəddini köməyə çağırmağa, dara düşəndə ona pənah gətirməyə başlayırlar.

Övlad üzünə həsrət olanlar, uzaq səfərə çıxanlar, xeyir iş



görənlər, müxtəlif mərəzlərə ürcah olmuş insanlar ağanın pak nəfəsi, duası sayəsində bərəkət tapmış, dolaşıq məsələləri həll edilmiş, bəlalardan xilas olmuşlar.

Ağa həyat yoldaşını itirsə də, bir də ailə həyatı qurmadı. Ömrünü balalarına həsr etdi və 1982-ci ildə Tanrı dərgahına qovuşdu.

El-oba ağanı böyük hörmət və ehtiramla şəhər qəbirstanlığında dəfn etdi. Həmyerliləri məzarı üstündə adına layiq kümbəz tikdilər.

**Ağanın ocaq yaşadıcısı, yeganə oğlu Məşədi seyid Mirkərim ağadır.** O da atası kimi, ömrü boyu halal işlər, xeyirxah əməllərlə məşğul olub. 1992-ci ildə müqəddəs Məşhəddə imam Rza (ə.s.)-nın məzarını ziyarət edib.

**Məşədi seyid Mirkərim ağanın 3 oğlu, 3 qızı, çoxlu nəvəsi var: Mirhicran, seyid Tehran, seyid Miralim, Tamella, Məlahət və Rövşanə.**

**Məşədi seyid Miralim ağa** rayonda böyük hörmət qazanmış gənc din xadimlərimizdəndir. Bakı Islam Universitetini bitirib. Respublikamızın bir çox üləmalarından islamın sirlərini mənimsəyib. Yüksək əxlaqi dəyərləri, davranışı, qabiliyyəti ilə el-obanın hörmətini qazana bilib. Bu gün o, şəhər məscidinin axundu, nəcib insan **Hacı Əlifağanın** müavinidir. Məşədi seyid Miralim ağa ata-babasına layiq seyid övladıdır.

Allah seyid Tapdıq ağaya rəhmət eləsin.





## HACI SEYİD MİRBABA SEYİD MİRQASIM OĞLU



**Dünya duracaq yer deyil ey can, səfər eylə...**

Atalar çox haqlı demişlər, dünya heç kəsin deyil, onu el üçün yaşayanlarındır.

Soy-kökü yeddinci imam Müseyi-Kazım ə.s.-ya bağlanan **seyid Mirhadı seyid Səndəl oğlu** iki əsr bundan əvvəl Yəməndən Ərdəbil yaxınlığındakı Kəlansora kəndinə, oradan isə Yardımlı rayonunun Anzov kəndinə köçüb. **Oğlu seyid Miribrahim** və nəvəsi həmin kənddə yaşayıb, haqq dünyasına qovuşublar.

Yardımlı rayonunun Solqard kəndində doğulan **seyid Mirqasım seyid Miribrahim oğlu** (1891-1968) Ərdəbildə dini təhsil almış, ömrü boyu təsərrüfat işləri ilə məşğul olmuşdu. Sonralar ailə müəyyən səbəblərdən Cəlilabadın Həsənli kəndinə köçür.

Seyid Mirqasım ağanın beş oğlu və bir qız övladı olub: **seyid Mürtəza, seyid Mirbaba, seyid Əli, seyid Mirəşrəf və seyid Mirbəşir.**

**Ailənin böyük oğlu seyid Mürtəza** 1938-ci ildə Yardım-



lı rayonunun Alar kəndində anadan olub. **Oğlanları seyid Hikmət, seyid Səid, seyid, Nemət, seyid Xalid** və qız övladları ocaq yaşadıcılarıdır.

Seyid Mirqasım ağanın o biri **oğlu seyid Mirəşrəf ağanın seyid Qalib, seyid Ibrahim, seyid Rahim** adlı oğlanları və iki qızı var.

**Ailənin sonbeşiyi Məşədi seyid Mirbəşir** din xadimidir. Kənd məscidinin axundudur. Məşhəd ziyarətində olub. **Seyid Amil, seyid Mirəziz və seyid Sirac** adlı üç oğulun və bir qız övladının atasıdır.

**Hacı seyid Mirbaba ağa** 1940-cı ildə Yardımlı rayonunun Alar kəndində anadan olub, 2001-ci il aprelin 23-də Ismətli kəndində haqq dünyasına qovuşub. Ilk təhsilini atasından, sonra isə Lerikin Zövnə kəndindən olan, zəmanənin məşhur alimi, Nəcəfdə ali ruhani təhsili almış, dəfələrlə repressiya olunsa da, əqidəsindən dönməyən **molla Qələmdən** alıb. Ondan əzmkarlıq, mətinlik, xeyirxahlıq, səxavət və cəsarət kimi məziyyətləri əxz eləyib. Həmişə, hətta sovet hakimiyyətinin çətin illərində qorxmadan islamın təbliği üçün dini kitabların yayılmasında fəal iştirak edərdi. Bəzən kitabların pulunu da özü ödəyərdi. Hacı seyid Mirbaba ağa xeyirxahlığı, xoş əməlləri ilə həmişə öndə olub.

"Allah sən elə elə bu hökumət tez dağılsın, **(söhbət sovet hökümətindən gedir, - red.)** oğlum Mirhadının əlindən tutub, Məşhədə gedim,"- deyə həmişə namaz üstə Allaha dua edərdi.

Ağanın duası müstəcəb oldu. Illərlə ürəyində gəzdirdiyi arzusuna çatdı.

Sovet quruluşu dağılandan sonra 12 dəfə Məşhəddə, bir dəfə isə Kərbəla və Məkkə ziyarətlərində oldu. Oğlu Mirhadını da özü ilə aparmışdı...

Hacı seyid Mirbaba ağa çox çılğın təbiətli idi. Sözləri müdrikliklə, kəlamları hikmətlə yoğrulmuşdu. El-obanın xeyir-şərinə xüsusi yaraşıq verərdi. Hər məclisin ruhuna uyğun söz danışardı. Heç nədən qorxmaz, mübariz insan idi. Hər kəsin nöqsanını üzünə deyərdi. Ümumiyyətlə, ağa nurani seyidlərə xas olan bütün cəhətləri özündə birləşdirmişdi.





Hacı seyid Mirbaba ağa özü kimi nurlu övladlar böyüdüb. **Seyid Mirməzahir, Məşədi Şəfayət, seyid Mirəli, Məşədi seyid Zahir, Məşədi seyid Mirhadı** adlı oğlanları və dörd qız övladı var.

Bu gün ağanın yolunu oğulları davam edirirlər. Məşədi seyid Zahir Qumda- Elmiyyi Hövziyyədə oxuyur.

Seyid Mirməzahirin **Məsumə və Mirsaleh** adlı iki övladı; Məşədi Şəfayətin **Nuranə və Ceyhun** adlı övladları var.

Hacı seyid Mirbaba ağanın iki oğlu isə hələ yeni ailə həyatı qurub.

Ağa ilə Məşhəd ziyarətində olmuş Məşədi Mirhadı isə hələ subaydır.

**Bəybala Rza oğlu Cəbrayılov, Ismətli kənd sakini:**

- Mən Hacını kiçik yaşlarımdan tanıyırdım. Atasını, əmisini də görmüşdüm. Adam onlarla görüşəndə bir yüngüllük tapırdı. Bu seyidlər sözün həqiqi mənasında öz ali mənsəblərinə böyük hörmət və ehtiram bəsləyiblər.

Hacı seyid Mirbaba ağa ilə həm də yaxın qonşu olmuşuq. Tez-tez bir yerə yığışar, şirin söhbətlər edərdik. Dəfələrlə Məşhəd ziyarətində olmuşdu. Səfərdən bir az gec qayıdanda hamımız narahat olardıq. Çox da sınaqlı, mübariz seyid idi.

90-cı illərdə dayım oğlu **Vahid** Sankt-Peterburqda yaşayarkən hələ şəhər qeydiyyatına düşməmişdi. O vaxtlar çox çətin idi. Yolda maşınları saxlayıb yoxlayır, azərbaycanlıları döyüb-incidirdilər.

Vahid danışır ki, OMON-çular bizə tərəf yaxınlaşanda ağanın cəddini köməyə çağırdım. Sanki polislərin gözləri qapandı. Sağımızdakı, solumuzdakı maşınları yoxladılar, bizə isə dəymədilər.

Allah Hacı seyid Mirbaba ağaya rəhmət eləsin.

**Adil Şüküroğlu, Yardımlı rayonu, Alar kənd sakini (hal-hazırda Sankt-Peterburq şəhərində yaşayır, iş adamıdır):**

- Mənim atamla Hacı Mirbaba ağa möhkəm dost olublar. Atam da namaz qılan, oruc tutan, dindar, imanlı ağsaqqaları-

mızdan idi. Ağa tez-tez bizə gələr, maraqlı söhbətlər edər, atamla islamın ehkamları, fəzilətləri barəsində fikirlərini bölüşərdi. Biz də oturub bu müdrik insanların söhbətinə qulaq asar, onlardan çox şey öyrənərdik.

Hacı Mirbaba ağa son dərəcə dərin bilikli, müdrik insan idi. Onun nəsihətamiz söz-söhbətindən doymaq olmurdu. Mən uzun illərdir ki, Sankt-Peterburq şəhərində yaşayıram. Həmişə bir çətinliyim olanda onun cəddini köməyə çağırmış və diləklərimə çatmışam.

Allah ona, cəmi haqq dünyasında olan müsəlman bacı-qardaşlarımıza rəhmət eləsin.

**Vaqif Ibayev, Alar kənd sakini:**

- Bir dəfə Bakıdan kəndə gəlirdim. Ailəmizin qızıl əşyalarını da yol çantasına yığmışdım. Vağzalda çantanı bir nəfər yaşlı qadına tapşırıb, su içmək üçün köşkə tərəf getdim. Su içib qayıdında gördüm ki, nə qadın var, nə də çanta. Taksi tutub rayona gedən avtobusun dalınca düşdüm. Dedim bəlkə arvad həmin avtobusda olar. Yolda Hacı seyid Mirbaba ağanın cəddini çağırdım. Rayona çathaçatda gördüm ki, çanta yolun qırağındadır. Içərisindən isə heç nə götürülməmişdi.

Ağam belə ağa idi.

**Allah ona rəhmət eləsin.**

Hacı seyid Mirbaba ağa qəflətən rəhmətə getdi. Həmişə də arzulayardı ki, Peyğəmbər salavatullanın, Əli əleyhissəlamın ömründən çox yaşamasın.

Belə də oldu. 61 yaşında haqq dünyasına qovuşdu. Dəfn mərasimində onu göyərçinlər də müşaiyət edirdi.

Hacı seyid Mirbaba ağanın rayonda böyük hörməti vardı. Ona görə də kənd camaatı, ağsaqqallar ağanın müqəddəs məzarı üstə məqbərə ucaldıblar.

Allah Hacı seyid Mirbaba ağaya rəhmət eləsin.





## SEYİD ƏZİZAĞA SEYİD SADIQ OĞLU



Müqəddəslərin doğulduqları ocağın, pirlərin imanla bağlı olması barədə çox deyilib, çox yazılıb. Yazılmayanları isə yazmamaq günahdır. Biz də ulu yaradanın rüsxəti ilə bu müqəddəs işi görmək istədik.

Islam din xadimlərinin dəfn olunduğu sahə ibadət və sitayiş yeridir. Onu da bilirik ki, belə yerlər hələ islamdan çox-çox əvvəllər də mövcud idi. Belə yerlərə getmək- buradan imdad və iman diləməkdir.

Belə mənəvi xəzinələrdən biri də **Biləsuvardakı "Seyid Sadıq ağa ocağı"**dır ki, burada boya-başa çatanlardan biri- **seyid Əzizağa** haqqında ayrıca söz açmaq fikrindəyik.

Əvvəlcədən qeyd edək ki, onun atası seyid Sadıq ağa 1913-cü ildə Biləsuvarın Xırmandalı kəndində anadan olub. Əməksevərliyi ilə seçilən seyid Sadıq ağaya Xırmandalıda hamı hörmətlə yanaşıb, onun böyüklüyünü, müqəddəsliyini nəzərə alıb daim ona "Seyid kişi" kimi müraciət ediblər. Ağa ömür-gün yoldaşı Zəhra xanıma və övladlarına daim xeyirxah olmağı tövsiyə edərdi.

**Seyid Sadıq ağa** həmişə övladlarını tərbiyəli, ədalətli, torpağını sevən, elinə-obasına yarayan bir insan kimi görmək istəyirdi. O, övladlarını hər vaxt düzlüyə, paklığa, saflığa çağırırdı və buna nail olub da. O, övladlarını bu ruhda tərbiyə edib, böyütdü. 1986-cı ildə seyid Sadıq ağa dünyasını dəyişdi, Biləsuvarın Xırmandalı kəndində dəfn olunan seyidin müqəddəs məzarı ziyarətgaha çevrildi.

Allah qəni-qəni rəhmət eləsin.

**Anası Zəhra Məşədi Məmməd qızının** dediklərinə görə,

seyid Əzizağa ailədə üçüncü övladdır. Hələ uşaqlıqdan qardaşlarından seçilib. Atası rəhmətlik seyid Sadıq ağa heç vaxt onu adı ilə deyil, "Ağam"- deyə çağırardı. Çünki onda **seyid Sadıq ağanın babası Kərbəlayi Mirtağının** cizgilərini görürdü.

Bu ocağın yetirmələrinin hər biri el-obanın layiqli övladlarıdır.

**Seyid Seyidağa** 1949-cu ildə anadan olub. Gözəl ailə başçısıdır, üç oğul, üç qız atasıdır.

**Seyid Qayıbağa** isə 1952-ci ildə dünyaya gəlib. Iki oğul, iki qız atasıdır.

Ailənin sonbeşiyi olan **seyid Qəribağa** 1958-ci ildə anadan olub və ömrünün bahar fəslində - 1999-cu ildə haqq dünyasına qovuşub. **Ilhamə, seyid Sadıq, seyid Mirəli adlı** üç balası qalıb.

Allah rəhmət eləsin.

**Seyid Əzizağa** 1956-cı ildə Xırmandalı kəndində anadan olub. Xırmandalıdakı 1 saylı orta məktəbi bitirib. 1974-1976-cı illərdə hərbi xidmətdə olub. Əsgərlikdən sonra akademik Firuz Əli oğlu Məlikov adına Salyan Kənd Təsərrüfatı Texnikumunun aqronomluq fakültəsinə qəbul olub və oranı bitirdikdən sonra təyinatla Biləsuvar rayonundakı 146 saylı texniki-peşə məktəbinə müəllim təyin olunub. Hazırda həmin məktəbin müəllimidir. 1985-ci ildən isə məktəb həmkarlar komitəsinin sədridir. Ailəlidir.

Seyid Əzizağa barəsində nəsil-nəcabət, onu yaxından tanıyanların ürək sözlərini toplayıb qələmə almaq mümkün olsaydı, daha bir samballı toplu alınardı.

Seyid Əzizağa həmişə imam övladı, seyidlər nəslindən olması ilə fəxr edir. Çünki islama, Allaha pənah aparanlar belə düşünürlər.

Allah onu eldən əskik eləməsin.



# CƏLİLABAD









## ALAR MƏSCİDİ



Hər bir insan bu dünyada öz əməlləri ilə tanınır, gördüyü işlərlə də yadda qalır. Yol çəkən, körpü salan, gözəl binalar ucaldan, məscidlər, mədrəsələr inşa etdirən xeyirxah insanlar, sənətkarlar, hacılar, məşədilər tarixə öz adlarını dünya durduqca əbədi həkk ediblər. Bu cür insanlar yaratdıqları sənət əsərləri, memarlıq abidələri əsrlərin tufanlarından keçir, tarixdə qalır, nəsillərin yaddaşında, kitablarda öz əksini tapır.

Tikdim ki, izim qala...

Bəli, Cəlilabad rayonunun Alar kəndində minarələri göylərə ucalan, Şərq memarlığının klassik üslubunda inşa edilmiş yaraşıqlı məscid respublikamızda ən möhtəşəm məscidlərdəndir. Bu məscidi nəcib, mötəbər insan, dəfələrlə müqəddəs məkanlarda - Kərbəlada, Nəcəfdə, Məşhəddə, Samirə və Kazimeyn şəhərlərində, Məkkə və Mədinədə ziyarətlərdə olmuş, adının qabağına mübarək **Kərbəlayi, Məşədi, Hacı** adlarını da əlavə etmiş **Hacı Şövkət xanım Qara qızı Əliyeva** öz oğlanları ilə birlikdə inşa etdirmişdir.

Hər gün onlarla müsəlman bacı-qardaşlarımız bu Allah evinin qapısını açır və belə yaraşıqlı məscid tikdirdiklərinə görə Hacı xanıma və onun qohum-əqrəbasına cansağlığı, ölənlərinə min rəhmət diləyirlər.

Allah-təala sizin kimi xeyirxah insanları həmişə pisliklərdən və xəta-bəladan hifz eləsin.





## GÖYTƏPƏ MƏSÇİDİ



Göytəpə qəsəbəsi qədim yaşayış məskənlərimizdəndir.

Qədimdə böyük ticarət yollarının üstündə yerləşməsi onun əhəmiyyətini daha da artırırdı. Əvvəllər burada çoxlu sayda ruslar yaşayır, kilsə fəaliyyət göstərirdi. Yerli sakinlərin- müsəlmanların isə namaz qılmaları, ibadət etmələri üçün məscidləri belə yox idi. Bu hal başqa qeyrətli vətən oğulları kimi, **Hacı Sərdar Məşədi Əsgər oğlunu** (1929-1993) da həmişə narahat edirdi.

Allaha çox şükür ki, respublikamız müstəqillik əldə etdikdən sonra dinimiz də özümüzə qaytarıldı, məscidlərin, mədrəsələrin tikintisinə başlanıldı.

1992-ci ildə Hacı Sərdarın təşəbbüsü və şəxsi vəsaiti hesabına Göytəpə qəsəbəsində milli arxitekturaya uyğun məscidin təməli qoyuldu.

Hacı Sərdar ömrü boyu xeyirxah işlərlə məşğul olub. Torpaqlarımızda müharibə gedən illəri əsgərlərimizə yardım göstərər, kasıb-küsuba əl tutardı. Həmişə də Allahın, imam-peyğəmbərlərin yolun saxlayar, ibadətindən qalmazdı.

Masallıda, Yardımlıda, Biləsuvarda, Cəlilabaddakı məscidlərin tikintisinə hərtərəfli kömək etmişdi.

Nurlu Hacı 1990-cı ildə Məkkəyə gedən ilk zəvvarlarımızdan idi.

Qəsəbədə məscidin tikintisinə başlayanda sevincinin həddi-hüdudu yox idi. Hər şeyi özü etmək istəyirdi. Tikintidən başı çıxdığına görə məscidin layihəsini də özü hazırlamışdı.

Həmişə də harasa tələsirdi. Ömrü boyu narahat idi. Sanki ömrünün az qaldığını da hiss etmişdi.

Nəhayət, 1993-cü ildə, ölümündən bir həftə qabaq məscidin açılışı oldu.

Bu gün Hacı Sərdar aramızda olmasa da, onun xeyirxah əməlləri yaşayır, ruhuna dualar oxunur.

Onu da xatırladaq ki, **Hacının yolunu övladları Kərbəlayi Zakir, Əfqan, Məşədi Ziyafət, Faiq, Məşədi Üzeyir** və 4 qız övladı şərəflə davam etdirirlər.

Allah Hacı Sərdara rəhmət, balalarını min budaq eləsin.

***



Göytəpə qəsəbəsinin girəcəyində, Masallı-Cəlilabad magistralının üstündə son dərəcə yaraşıqlı bir məscid və yanında şəhidlərimizin xatirəsinə abidə ucaldılmışdır.

Məscid və abidəni el-obanın dərin hörmətini qazanmış **Məşədi Adil** və onun **qardaşı Kərbəlayi Bayraməli** öz şəxsi vəsaitləri hesabına inşa etdirmişlər. Bu yolla gedən, səfərə çıxan dindarlarımız burada əylənir, namaz qılır, Allaha ibadət edirlər.

Onu da xaırladaq ki, bu xeyirxah qardaşlar el yolunda görülmüş bir çox xeyirxah işlərin təşəbbüsçüsü və səbəbkarlarıdır.

Camaatımızın nurlu oğulları-bu nəcib insanların bacısı oğlu **Kərbəlayi Əyyar Yavər oğlu** da dayılarından geri qalmır. Göytəpə şəhər qəbirstanlğının abadlaşdırılmasında onun xidmətləri daha çoxdur.

Allah bütün iman sahiblərinin imanını kamil eləsin.





## SULUÇEŞMƏ MƏSCİDİ

Elimizin xeyirxah oğlu, gərəkli işləri ilə el-obanın dərin hörmətini qazanmış **Hacı Museyib Teyyub oğlu Zamanov** 1999-cu ildə Suluçeşmə kənd məscidini tikdirib el-obanın, müsəlman bacı-qardaşlarımızın istifadəsinə verib.

Hacı həmişə öz xeyirxah əməlləri ilə kənddə seçilib. Suluçeşmədə imkanlı adamlar çox olsa da, sanki heç kəsin yadına məscid inşa etdirmək düşmürdü. Allah-təala sanki nurlu Hacıya bəsirət gözü vermiş, müqəddəs Allah evini tikdirməyi onun taleyinə qismət eləmişdi.

**Atası Teyyub Kərbəlayi Əfşalı oğlu** 5 il Ərdəbildə ali ruhani təhsili alıb. Dövrünün oxumuş, dərin bilikli, mütərəqqi fikirli, səxavətli ağsaqqalı idi. Uşaqlarını da bu ruhda tərbiyələndirmişdi.

Hacı Museyib 1997-ci ildə Kərbəla, 1998-ci ildə isə Məşhəd, Məkkə ziyarətlərində olub.

Allah ziyarətlərini qəbul eləsin!

Onun xeyirxah əməlləri bir deyil, beş deyil.

Neçə-neçə imkansıza dayaq, pasiban durub. Kənd yollarının abadlaşdırılmasında, müxtəlif işlərdə ömrü boyu el-obadan öz köməkliyini əsirgəməyib.

Əvvəllər hüquq-mühafizə orqanlarında çalışan Qarabağ müharibəsi iştirakçısı **Tapdıqəli Məmmədovun** böyrəkləri işləmirdi. Uzun illər müxtəlif xəstəxanalarda müalicə alan Tapdıqəlinin maddi imkanı tamam tükənmişdi. Hacı Museyib onu Tehrana müalicəyə ·pardı. Özü də bir ay onunla Tehranda qaldı. Allaha çox şükür ki, çəkilən əziyyət, xərc -xəsarət öz bəhrəsini verdi. Bu vətən oğlu Hacının zəhməti hesabına ağır xəstəlikdən şəfa tapdı.

Həmkəndlisi **Nurəddin Məmmədov** uzun illərdi ki, belnahiyyə travmasından əziyyət çəkirdi. Cavan oğlan iflic olmuşdu. O da Hacınının sayəsində müalicə olunaraq şəfa tapıb və ömrü boyu nurlu Hacıya minnətdardır.

Hacı Museyib dünya ilə bir ad-sanları olan qeyrətli, cəngavər oğulların atasıdır.

**Coşqun** karate üzrə Isveçdə keçirilən çempionatda Dünya kubokunu qazanaraq Azərbaycan bayrağını yüksəklərə qaldırdı. **Gənc prezidentimiz cənab Ilham Əliyev** bu gənc idmançının qələbəsini yüksək qiymətləndirib.

**Aqşin** də karate üzrə "Qara dan" kəmər ustasıdır. Karate üzrə çempiondur.

Hal-hazırda o da qardaşının bitirdiyi BDU-nun hüquq fakultəsinin tələbəsidir.

Allah xeyirxah əməllər sahibi Hacı Museyib kimi qeyrətli oğulları bu torpaqdan, el-obadan əskik eləməsin.

## ASTANABAD KƏND MƏSÇİDİ



Qədim Astanabad kəndinin ortalığında çox yaraşıqlı, memarlıq cəhətdən mükəmməl, gözəl ornamentlərlə bəzədilmiş bir məscid var. Tikintisinə camaat, el-oba köməklik edib. Əsas təşkilatçısı və əziyyət çəkəni isə **Hacı Ismayıl Camal oğlu** olub.

**Bənnası usta Yavərdir.**

Qoy ulu Tanrı el yolunda, dinimizin möhkəmlənməsi uğrunda fədakarlıq göstərən xeyirxah əməl sahiblərinin Allah dərgahına qaldırdığı əllərini heç vaxt naümid etməsin!





## SEYİD MİRMƏHƏMMƏD AĞA



Böyük kəramət sahibi olan **Hacı Mirhüseyn oğlu Mirməhəmməd ağa** 1899-ci ildə Cəlilabad rayonunun Hasıllı kəndində dünyaya göz açmışdı. Mirməhəmməd ağanın ulu babası 7-ci imamımız Museyi-Kazımın nəslindən olan **seyid Xürrəm** bir neçə əsr bundan əvvəl Yardımlı rayonun Sırıq kəndinə köçüb gəlib.

**Seyid Xürrəmin oğlu seyid Ağamirzə** də o kənddə yaşayıb. Lakin **seyid Ağamirzənin oğlu seyid Kazım** Oduraqaran kəndinə köçür. Hələ seyid Xürrəmdən başlayaraq, bu nəsil öz paklığı, şan-şöhrəti ilə yerli camaatın dərin hörmətini qazanır. Sonradan Hasıllıya köçüb gəlmiş **seyid Kazımın oğlu seyid Mirhüseyn** bu bölgənin ən nüfuzlu, hörmətli, ağır nəfəsli seyidlərindən idi.

..."Hasıllıda din xadimləri, seyidlər təkcə dini vəzifələrdə deyil, həm də dünyəvi vəzifələrdə çalışmışlar. Məsələn, bunu qeyd etmək lazımdır ki, **Hacı Mirxas ibn Möhsün ağanın** ölümündən sonra Hasıllının dini rəhbəri **Hacı Mirhüseyn seyid Kazım oğlu** seçildi. Hacı Mürhüseyn ağa orta dini təhsili Ərdəbildə və Təbrizdə almışdı. Bir müddət Serab şəhərində ruhanilik etmiş, atası onu Nəcəf şəhərində Hövzeyi- Elmiyyədə təhsil almağa göndərmişdir. Orada ilahiyyat və nüçum elminə yiyələnir. Kərbəlada müəyyən vaxt qalaraq elmi təhsilini mükəmməlləşdirir. Kərbəlada olarkən Məkkəyə də getmiş, "Hacı" rütbəsinə malik olmuşdur. Hacı Mirhüseyn ağa seyid Kazım oğlu Hasıllıda ən böyük din xadimi sayılırdı.

...Hasıllıda və yaxud mahalın kəndlərində sözü keçən ağsaqqal- yekun sözünün sahibi idi..."

Hacı Mürhüseyn ağanın iki oğlu: **Seyid Əşrəf və seyid Mirməhəmməd** və bir qızı **seyid Fatma** olmuşdur.

**Seyid Əşrəf** 1942-ci ildə Böyük Vətən müharibəsində rəhmətə getmişdir. Onun da dörd övladı olmuşdur: **seyid Mirmehdi** (1929-1997), **seyid Mirhadı, Tahirə və Məhluqə.**

Mirməhəmməd ağa atası Hacı seyid Mirhüseynin yolunun davamçısı olmuşdur. O da Ərdəbildə dini təhsil almış, mütərəqi elmlərə yiyələnmiş, zəmanənin ən müdrik, savadlı ziyalılarından biri idi. Ağa təkcə ərəb-fars dillərini deyil, rus dilini də mükəmməl bilirdi. O, keçmiş SSRI-nin bir çox gülçülük təsərrüfatları ilə müntəzəm yazışmalar aparar, müxtəlif gül toxumları və bitki növləri sifariş verdirər və həyətində becərərdi. Gülçülüyə "Kənd təsərrüfatının incəsənətidir" - deyərdi.

Mirməhəmməd ağa heç kəsə tutduğu mövqeyə və mənsubiyyətinə görə fərq qoymazdı. Onun üçün hamı bərabərdi. Etdiyi xoşməramlı əməllərini çalışardı ki, heç kəs bilməsin.

Bir də görürdün axşamtərəfi uşaqlarından birinə içi müxtəlif ərzaqla dolu zənbili verib hansısa bir kasıbın evinə göndərdi. Dönə-dönə də tapşırardı ki, kim göndərdiyini qətiyyən bildirməsin.

Heç vaxt da Allaha, Qurana, cəddinə and içməzdi. Təsadüfi hallarda "And olsun Allahın vəhdaniyyətinə" - deyərdi. Yolunu azanlara, tikəsinə haram qatanlara, pis yola qurşananlara öyüd-nəsihət verər, tez-tez camaatın içərisinə çıxar, qalan vaxtlarını da həyətyanı sahəsində çalışar, əkib-becərərdi.

Müharibə illərində, camaatın yeməyə pencər belə tapmadığı illərdə ağanın anbarının qapısı heç vaxt bağlı olmazdı. Bir gündə ağagilə gəlib iki dəfə taxıl götürənlərin xətirinə belə dəyməz, bircə "a bala, bu müsibət sabah da var",-deyə yüngülcə iradını bildirərdi. Gözü- könlü, nəfsi tox ağsaqqal idi. Dünyəvi elmlərlə məşğul olmağı xoşlayardı. Tez-tez evlərinə elm adamları gələr, elmi- dini müzakirələr keçirərdi. **Feyzulla Qasımov, Əli Fəhmi** bu evin müntəzəm qonaqlarından idi. Bax beləcə, hərtərəfli seyid-ziyalı idi Mirməhəmməd ağa.





77 il şərəfli və mənalı ömür sürmüş bu şəxsin yaşı kimi, işi də bəlli olmuşdur.



Mirməhəmməd ağa həyata yeddi övlad bəxş etmişdir:

**Miryəhya** (1937-1983), **Rəhilə, Hacı Mirhüseyn, Hacı Mirhəsən, Hacı Mirkazım, Sara və Sevda.**

Mirməhəmməd ağa Allaha çox şükür ki, əvvəldən sevinib, sonradan məyus olan atalardan olmayıb.

Ağa öz balalarına elmi-dini tərbiyə vermiş, onların hamısı Quranı oxuyub çıxmışlar. Ağanın övladlarının hər biri atalarına layiq övladlardır.

**Həyat yoldaşı, Şeyx Əliəsgərin qızı Kafiyə xanımla** birgə həyatı cavanlarımıza örnəkdir.

Hasıllı kəndində dərin bir çaylaq var idi. Oradan kənd camaatının keçib getməsi çox çətinlik törədirdi. 1959-cu ildə öz maddi vəsaiti hesabına fəhlə gətirdi, tikinti materialları aldı, körpü saldı. İndi həmin körpü xalqın istifadəsindədir. Onun üstündən keçən minlərlə insan ruhuna rəhmət diləyir.

Totalitar sovet rejimi dövründə, 1952-54-cü illərdə başqa din xadimləri kimi, bu ailəni də Ismayıllı rayonunun Mican kəndinə sürgün etdilər. Amma çox sağ olsun Ismayıllı camaatını ki, onlara böyük hörmət göstərdilər.

Ağa dünyasını dəyişsə də, xoş əməlləri həmişə onu sevənlərin qəlbində xatırlanır, adına rəhmət oxunur.

**Hacı Şeyx Məhəmməd Şeyx Qüdrət oğlu** (Allah rəhmət eləsin):

- Mirməhəmməd ağa, onun qardaşı seyid Əşrəfi də yaxşı dindar, seyid kimi tanıyırdım. Mirməhəmməd ağa ən yaxşı seyidlərimizdən, qeylü-qalı yatırmağa qadir və qabil adam idi. Ağanın atası Hacı seyid Mirhüseyn ağa bizim mahalın ən hör-

mətli ağsaqqalarından olub. Yaxşı deyirlər ki, oğul xələf, ata sələfdir. Ağa da atasının adına layiq seyid idi. Adətən insanı abırdan, gözdən dolaşıq hərəkətləri, şuluq əməlləri salar. Mirməhəmməd ağa ömrü boyu düzlüyün yolu ilə gedib."Camaatın gözü aynadır",- deyirlər. Xalq onu əməlinə, əqidəsinə görə sevirdi. Böyüyə-kiçiyə, varlıya-kasıba fərq qoymazdı. Adil idi, ədalətli idi Mirməhəmməd ağa.

***Barriət sülhü kun***
***Və əccəngi xəsmi eyməni şin***
***Zon ki, şahənşahi adilira***
***Rəiyyət leşkəri.***

Yəni, rəiyyətlə sülh eləsən müharibəni, düşmənçiliyi görməzsən. Çünki adil olan şahənşahın rəiyyəti onun qoşunudur.

Mirməhəmməd ağanın xeyirxah əməlləri, xoş rəftarı, davranışı, gözütoxluğu, nəfsibütövlüyü onu camaatın gözündə müqəddəsləşdirib, hörmət sahibi edib.

Allah cəmi dünyadan gedən seyidlərimizə rəhmət eləsin.

**Hacı Mirağagül Məhəmməd oğlu Mirhəsənov, Cəlilabadın el ağsaqqalı:**

- Mirməhəmməd ağa gözəl xüsusiyyətlərə, xasiyyətə malik möminlər mömini idi. Cənubdan şimala - İrana qədər hamı onu sevirdi. Hamı onunla təmasda, həmsöhbət olmağı Allahın qismət elədiyi ən böyük xoşbəxtlik hesab edirdi. Onun ruhu qarşısında baş əyirəm. O, Allahın xoşbəxt bəndəsi idi.

Mirməhəmməd ağa 3 il idi ki, qonşu kənddə yaşayan dostugilə getmirdi. Dostu dalınca gəlir, deyir, ağa, sən gəlmirsən, əkinlərimizi, biçənəklərimizin bərəkəti kəsilib. O, dostunun sözünü eşidir, kəndə gedir. Həmin il kənd camaatı bol məhsul götürür.

Mirməhəmməd ağanın ləyaqəti uzun, kəraməti çoxdur.

Ağanın oğlanları da atasına oxşayır. 1998-ci ildə Mürhüseynlə Məkkədə ziyarətdə olmuşuq. Məkkədə vəfat etmiş, Şeyxi Əbutalıb qəbirstanlığında dəfn olunmuş Hacı Mirsultan ağanın məzarını da ziyarət etdik. O, bizim əmimiz oğlu idi.





Allah həm Mirsultan ağaya, həm də Mirməhəmməd ağaya qəni-qəni rəhmət, balalarına uzun ömür bəxş eləsin!

**Hacı Xanlar:**

- Elm və ürfan sahibi olan Mirməhəmməd ağa öz biliyini gələcək nəsillərə ərmağan etməklə bərabər, böyük bir nəslin əsasını qoyub getmişdir.

Hasıllı kəndində ağamın müqəddəs məzarı həmişə anılmış, uzaq səyahətlərə gedənlərin, nəzir-niyaz sahiblərinin, niyyət edənlərin ziyarətgahına çevrilmişdir.

Ağanın müdrikliyi, uzaqgörənliyi indi də dillərdə söylənilməkdədir.

Mirməhəmməd ağa elimizin-obamızın nüfuzlu, müdrik ağsaqqallarından idi.

***

Cəlilabad rayon sakini, ulu bir nəslin ocaq yaşadıcısı Mirsüleyman Mirxaslı Mirməhəmməd ağa haqqında geniş söhbət açdı. Onu da xatırlatmaq yerinə düşərdi ki, Mirsüleyman Mirxaslının ulu babası **Hacı Mirxas ağa Mir Möhsün oğlu** da Mirməhəmməd ağanın atası Hacı Mirhüseyn ağa kimi, bölgənin sayılıb-seçilən seyidlərindən olub. **Leyla xanım Muğanlı** göstərir ki, o, Hasıllının məşhur din xadimi olmuş, el ağsaqqalı sayılmış, mütərəqqi fikirli ziyalı-alim olmuşdur.

Mirxas ağanın 2 oğlu var idi. **Seyid Əhməd** və **seyid İlyas.** Seyid İlyas Ərəbistanda dini təhsil aldıqdan sonra bir çox islam ölkələrində işlədikdən sonra Sankt-Peterburqda, Mirzə Kazımbəyin yanında dərs demiş, Nikolay hökumətinin ali mükafatlarını almışdır. Hacı Mirxas ağanın müqəddəs məzarı da Hasıllı kəndindədir.

**Hacı Qurbanəli Süleymanov:**

- Mirməhəmməd ağa çox zəhmətkeş insan idi. Həmişə bostan əkərmiş. Əgər hər hansı bir kəs pis niyyətlə, ziyankarlıqla o bağa girərmişsə, həyət ilanla dolu olarmış, ora yaxın düşmək mümkün olmazmış. Əgər ıc imişsə, ağadan icazə almışsa və ya ürəyində bir pis niyyəti yox idisə, bir dənə də ilan gözə dəyməzmiş.

Ağır seyid idi, həm də vergili idi. M.C.Bağırov dövründə bütün camaat kimi, ağanı da sürgün etmək istəyiblər, maşın hərəkət etməyib. Sonradan ağanın öz istəyi ilə şimal tərəfə sürgün ediblər.

**Bəylər Bayramov:**

- Mirməhəmməd ağanı nəinki cənub bölgəsinin, eləcə də bütün Azərbaycan xalqının ziyalısı - ağır nəfəsli seyidi kimi tanıyırdım. O, son dərəcə qənimət, camaatın xeyir-şərinə yarıyan adam idi. Onun simasında nuru görən adam ömürlük ona məftun olardı.

Hələ lap cavan vaxtlarımdan polis orqanlarında çalışıram. Dəfələrlə ölümlə üzləşmişəm. Çətinə düşəndə ağamın cəddini sınamış, heç vaxt da darda qalmamışam.

Allah ona və cəmi haqq dünyasına qovuşmuş seyidlərimizə rəhmət eləsin!

**Əziz Əzimov:**

- Mirməhəmməd ağa bizim bölgədə sayılıb-seçilən, sınanılıb-inanılmış bir el ağsaqqalı idi. Xoş xasiyyəti, az danışmağı, yaxşı əməlləri ilə elin-obanın qəlbində əbədi yuva salmışdır.

Mirməhəmməd ağa xalqına irs qoyduğu ən nəcib insani sifətlərlə özünə ikinci bir ömür qazanmış seyidlərimizdən idi.

**Qardaşxan Alıyev:**

- Dinə etiqad hər bir müsəlmanın müqəddəs borcudur. Hər elin-obanın özünün sınanılıb-inanılmış nurlu seyidləri olmuşdur. Cəlilabad bölgəsində isə çox müdrik el ağsaqqalı olan Mirməhəmməd ağa layiqli əməlləri ilə xalqın sevimlisi olmuşdur. O kişinin nurlu siması indi də gözlərim önündədir.

Bir dəfə Lənkərandan Bakıya gələrkən Cəlilabad rayonunun yol ayrıcında bilmədən yol hərəkəti qaydasını pozmuşdum. Maşınımı əyləndirən yol polisi müfəttişinə dedim ki, Mirməhəmməd ağanın cəddi haqqı qaydanı bilərəkdən pozmamışam. O isə heç nə demədən öz növbəsində mənə uğurlu yol arzuladı.

Ağa mənim babam **Həbib kişi** ilə yaxın yoldaşlıq etmişdi. Babam 117 il ömür sürmüşdür. 1979-cu ildə dünyasını dəyişmişdir. Babam ömrü boyu Mirməhəmməd ağa cəddinə sadiq olmuşdur. O sadiqlik nəsilbənəsil bizlərə ərmağandır.





Allahdan ona rəhmət, xalqımıza əmin-amanlıq diləyirəm!

**Əlipənah Əliyev:**

- Mirməhəmməd ağa başdan-ayağa möcüzəli, hikmətli bir şəxsiyyət idi. Uzaqgörənliyi, müdrikliyi ilə xalqın ürəyində özünə əbədi bir məskən salmışdır.

O kişi adi seyid deyildi və hörmətini saxlayan bir insan, çox gözəl bir ailə başçısı idi. Hal-hazırda ağanın övladları da onun adına layiq əməlləri ilə xalqımızın gözündə ucalıblar. Təhsil alıb, elmin müxtəlif sahələrində fədakarcasına çalışırlar.

Allahdan dünyasını dəyişmiş cəmi seyidlərimizə rəhmət diləyirəm!

**Qubad Salayev:**

- Hər dəfə kəndə gedəndə mütləq uşaqlarımla birlikdə ağanın qəbrini ziyarət edirəm. Hər belə ziyarətdən sonra həm özümdə, həm də işimdə bir yüngünllük hiss edirəm.

Mən ağanı lap uşaq vaxtlarımdan tanıyırdım. Bir dəfə ailəmizlə birlikdə ağanı ziyarətə getmişdik. Evə girəndə otaqda çoxlu ilanlar gördüm. Qorxdum, qaçmaq istədim. Ağa "qorxma, onlar sənə dəyməz" - dedi.

Bizim kəndimiz ağamgilin kəndi ilə qonşu idi. Aramızda bir dağ var idi. Tez-tez onu ziyarətə gedirdik.

Allah ona qəni-qəni rəhmət eləsin.

**Hacı Vaqif Abbasov:**

- 1963-cü ildən Bakı şəhərində yaşamağıma baxmayaraq, Mirməhəmməd ağa haqqında xatirələrim çoxdur. Ağam dinə kor-koranə sitayiş edən xadimlərdən deyildi. O əsl, yəni mütərəqqi dinin tərəfdarı idi. Mən o şəxsiyyəti təmizliyin etalonu kimi xatırlayıram. Elə o təsirdən də mən Həcc ziyarətində olmuşam. Ziyarətə getmək hər bir müsəlmanın ülvi arzusudur.

Bir dəfə uşaq vaxtı anam mənə 5 manat pul verib dedi ki, apar bu pulu Mirməhəmməd ağaya ver. Onların evi bir az aralı idi. Ona görə də tənbəllik etdim. Pulu da götürüb getdim ba-

zarın yanına. Yolda Mirməhəmməd ağaya rast gəldim və dedim:

- Ağa, olar sizə bir söz deyim?

Çox ədəb-ərkənla mənə salam verib, başımı sığallayıb dedi:

- Nə deyirsən, bala?!

Mən əlimdə tutduğum 5 manatı ağaya uzadıb, anam verib, niyyət etmişdi, niyyəti hasil olub, - dedim. Başımı elə bu tərəfə çevirmişdim ki, ağa "beşliyi" yanından ötən şikəst bir nəfərə verdi...

**Rafiq Abbasov:**

- Həyatını mütərrəqi dinin xalq kütləsi arasında geniş yayılmasına sərf etmiş və şan-şöhrət tapmış Mirməhəmməd ağa seçdiyi yolun işığına söykənmişdir. Bu işıq onu xalqın ürəyinin ən incə güşələrinə çatdırıb, sevdirib. Onun el-oba qarşısında xeyirxah əməlləri sonsuzdur. Ağanın qayğısı nəticəsində o vaxtlar Hasıllı kəndində abadlıq işləri aparılmışdı.

Yaxşı yadımdadır, 1959-cu ildə Hasıllıda, çaylağın üstündən saldırdığı o körpü indi də rayon camaatının istifadəsindədir. Mirməhəmməd ağa çox sadə, həlim təbiətli, səmimi bir din xadimi kimi bizlərin qəlbində əbədi iz salıb. Elə buna görə də hamı onu sevir, ondan razılıq edir.

**Ağahüseyn Ağayev:**

- Mirməhəmməd ağa dərin ruhani təhsili almış, çox böyük nüfuza malik olmuşdur. O kişinin hansı dolaşıq hadisənin baş verməsindən asılı olmayaraq, getdiyi yerdə razılıq olar, qan bağlanardı. Təkcə Cəlilabadın yox, Biləsuvar, Yardımlı, Salyan, Lerik, Astaranın, ümumiyyətlə, bütün elin ağsaqqalı idi.

Şəxsən mən oğlumun şəfasını onun ocağından görmüşəm. 12-13 yaşlı oğlumun allergiya xəstəliyinin müalicəsinə nail ola bilmir, əziyyət çəkirdik. Allergiya adlandırılmış bu xəstəlikdən qəfil dodağı və barmağı şişər və bir müddətdən sonra yox olardı. Narahatçılığımız müalicələrin xeyrinin olmaması səbəbindən artırdı. Nəhayət, yoldaşımla qərara aldıq ki, uşağı götürüb gedək ocağa. Mirməhəmməd ağanın oğlu və onun yol-





daşı bizi çox gözəl qarşıladı. Ora getdiyimiz gündən də hər şey bitdi. Oğlum tamam sağaldı. Nəzirimiz qəbul oldu. Ümumiyyətlə, ağanın ocağını və qəbrini tez-tez ziyarət edərdik. Şahidi olmuşam ki, heç kəsi oradan ağanın çörəyindən yeməmiş, çayından içməmiş buraxmırlar. Ocağına gətirilən nəzir-niyaz yerindəcə kasıblara paylanır. Mən ikinci belə qüdrətli şəxsiyyət tanımıram.

**Davud Bədirov:**

- Gecəyarısı da gəlsələr ki, gedək, köməyin lazımdı, gedərdi, istər yağış yağsaydı, ya tufan olsaydı belə. Deyərdi ki, o gələ bilibsə, demək mən də gedə bilərəm.

Bazarda qarşısına qaçıb əlini, ətəyini öpmək istəyən adamların ürəyini sındırmaz, işarə edərdi ki, lazım deyil. Varlı-kasıb, gözəl-kifir adam yox idi onun nəzərində. Hamının üzünə eyni, mehriban bir təbəssümlə baxar, başını sığallayardı. Nəzir verən və alan arasında vasitəçi rolu oynayardı. Nəzir çox kiçiksə, üstünə özü də əlavə etdiyinin şahidi olmuşam.

**Nizami Əhmədov;**

- Xalq ona hədsiz rəğbət bəsləyirdi. Eşitdiyimə görə İsmayıllıya sürgün olunanda hamının əli işdən soyumuşdu. Dini etiqadından, milliyyətindən asılı olmayaraq, başqa millətlərin nümayəndələrinin də böyük inamı var idi ona.

Bir dəfə rayonda Nikolay adlı tanıdığım bir rusun bazarda dizin-dizin sürünüb ağanın ətəyini öpməsi yadımdadır. Bazar da palçıqlı idi. Ancaq o, buna əhəmiyyət vermirdi. O zaman uşaq idim. Dostum, məşhur müğənni **Qədir Məmmədovla** bir müddət bu mənzərəni seyr etdik. Ağa onun rus millətindən olmasına heç əhəmiyyət belə vermədən, xoş bir nəvazişlə onun yerindən qalxmasına işarə etdi.

**İsa Əsgərov:**

- Rəhmətlik əmim, tanınmış ziyalı **Nuruş Əsgərovun Mirməhəmməd ağa** ilə sıx dostluq əlaqəsi olub. Əmim həmişə deyərdi ki, Mirməhəmməd ağada peyğəmbər övladına məxsus bütün əlamətlər var. Bəd işləri yoluna qoyardı. Ona ün-

vanlanmış nəzirin üstünə özü də qoyub, siyahı ilə, yetim-yesirə deyibsə, paylayardı.

**Mənsi Ağayev:**

- Ailə vəziyyətimizlə əlaqədar hələ uşaq ikən Cəlilabaddan uzaqlaşmağımıza baxmayaraq, Mirməhəmməd ağa evimizdə tez-tez yada salınıb. Hər hansı bir çətinliyə düşdükdə niyyət edib onun ocağına nəzir deyilibsə, o işimiz tezliklə yoluna qoyulub.

**Şəmsəddin Əliyev:**

- Şəxsən mənim öz xatirəm olmasa da, ağa haqqında çox eşitmişəm. Seyid Mirməhəmməd ağa böyük şəxsiyyət, elinə layiqli insan olub, dar gündə camaata arxa-dayaq durub.

Elin-obanın müdrik din xadimi Mirməhəmməd ağaya Tanrıdan qəni-qəni rəhmət diləyirəm. Necə deyərlər, Allah o dünyasını versin!

**Hacı Fazil İsmayılov:**

- 1974-75-ci illərin avqust ayında Iraqa işləməyə gedəsi oldum. Görüşmək və xeyir-duasını almaq üçün ağanın yanına getdik. Qardaşım da mənimlə getmişdi. Xeyir-duasını aldıqdan sonra qayıdanda onun üçün Kərbəla torpağından nə gətirməyimi soruşdum. Mənə dedi ki, özün məndən yaxşı bilirsən.

Qayıdanda çox fikirləşdim. Ağaya imamlarımızın şəklini, qara kəhrabadan təsbeh, möhür və Kərbəla torpağı gətirdim.

İşlərim getməyəndə ruhuna "Yasin" oxudur, nəzir verirəm, işlərim yoluna düşür.

Allah rəhmət eləsin.

**Seyidağa Muradov:**

- Bacım toyundan sonra qəfil xəstələndi. Həkimlər dərman yazır, o isə qəbul etmirdi. Bir dəfə anam ona dərmanla birlikdə su verəndə stəkanı əlinə alıb dedi ki, bu stəkanda Mirməhəmməd ağa su içib, bu onun stəkanıdır. Bacım dedi ki, mən ondan su içə bilmərəm, gərək gedib ağanın məzarını ziyarət edəm. Biz də onu tez apardıq ağanın qəbrinin üstünə. Bacım qəbri öpə-öpə





bir neçə dəfə fırlandı. Oradan çıxıb evə gəlmək istəyəndə, bacım tamam sağalmışdı. Hamımız heyrətə gəlmişdik.

**Mürsəl Əliyev:**

- Biz ailəliklə bütün dini mərasimlərə riayət edirik. Namaz qılır, oruc tuturuq. Mən Mirməhəmməd ağanı şəxsən görməmişəm. Buna baxmayaraq, onun barəsində ən yaxşı, ən xoş təsəvvürə malikəm. Fəxr edirəm ki, belə bir şəxsiyyət, belə bir müdrik insan, seyid mənim doğulduğum torpaqda yaşamışdır. Mən onun cəddinə inanır və ruhuna dua edirəm.

**Əlǝddin Məhərrəmov:**

- Bizim bölgədə həmişə dinə xüsusi hörmət bəsləyiblər.

Ağamızın haqqında şəxsən şahidi olduğum bir xatirəni xatırlatmaq istəyirəm.

Bir dəfə Cəlilabad rayonunun girəcəyində dayanmışdım. Bu vaxt bir maşın gəlib dayandı. Bir nəfər maşından düşüb məndən ağanın yaşadığı ünvanı xəbər aldı. Mən ağanın evini həmin yoldaşa istiqamət verdim. Iki saat çəkmədi ki, həmin yoldaş geri qayıtdı və mənə minnətdarlıq etdi. Gəlişinin səbəbini xəbər aldım. Dedi ki, mən universitetin tələbəsiyəm. Məni dinlə əlaqədlar bir sualın cavabı maraqlandırırdı. Nə qədər alimlərə, din xadimlərinə müraciət etdimsə, heç kəs sualıma ətraflı cavab verə bilmədi, elə ona görə də ağaya müraciət etdim. Ağa çox sağ olsun, sualımı ətraflı izah etdi. Allah-təaladan o kişiyə rəhmət diləyirəm.

**Gülağa Niftəliyev:**

- Rayonumuzda öz müdrikliyi, alicənablığı, sadəliyi ilə tanınan, şəxsiyyətinə böyük hörmət bəslədiyimiz, elimizin müdrik ağsaqqallarından biri də Mirməhəmməd ağadır. O, bizim düzlük, halallıq mücəssəməmiz idi. Ağanın əməlləri onu sevənlərin qəlbində əbədi iz salıb.

Ağamız öz taleyi ilə bərabər, həm də xalqının, el-obanın taleyini yaşayan bir insan olmuşdur.

Çox sevindirici haldır ki, ağanın həyata bəxş etdiyi övladları onun adına layiq əməlləri ilə yaşayıb, yaradırlar.

Allah-təaladan Mirməhəmməd ağaya, o cümlədən dünyasını dəyişmiş cəmi seyidlərmizə rəhmət diləyirəm.

**Yusif Mustafayev, müğənni:**

- Mirməhəmməd ağa şahanə duruşu, vüqarlı görkəmi ilə yüz adamın içindən seçilərdi. Mən o rəhmətliyi belə xatırlayıram. Cəlilabadın mərkəzində böyük bir bazar var idi. Həmişə ağamız bazara gələrdi. Çox adamlar ondan dəyərli məsləhətlər alardı. O yerdə ağzını açardı ki, orada düşünmək lazım idi. Onun səsindən insanların qəlbinə məlahət, el xəmrindən yoğrulmuş hikmət paylanardı.

Allah ona rəhmət eləsin!

**Həsən Paşayev:**

- Mən ağanın oğlanlarını yaxşı tanıyıram. Rəhmətlik **Miryəhya ağayla** orta məktəbi bir yerdə oxumuşduq. Sinfimizdə ən yaxşı oxuyan idi. Məktəbi qurtarandan sonra Miryəhya ağa elə həmin il də AZI-yə qəbul olundu. Institutda oxuyanda heç görüşməmişdik. Bir gün dostum Əhəd mənə zəng etdi ki, səninlə görüşmək istəyirəm. Getdim ki, üç nəfər dayanıb. Heç Miryəhya ağanı tanımadım. O qədər sakit, təmiz insan idi ki... Həyatdan tez köçdü. Heyf ondan.

Mirməhəmməd ağaya mən də hamı kimi, dərin hörmət bəsləyirəm. Təxminən 49-50-ci illərdə onu görmüşdüm. O, sözün əsl mənasında böyük din xadimi idi. Şəxsiyyət idi. Başına buxara papaq qoyardı. Geyimi o qədər səliqəli-sahmanlı idi ki...

Mirməhəmməd ağa bazara gələndə rastına gələn yetim-yesirə ayaqqabı, kiminə paltar alardı, pulunu da özü verərdi.

Allah ona rəhmət eləsin.

**Hacı Xanoğlan Şıxəliyev:**

- Ağa haqqında söz demək həm məsuliyyətli, həm də şərəflidir. Allah-təala hər bir insanın, hərəsinə bir cür ömür bəxş eləyib. Mirməhəmməd ağanın ömrü isə əksər insanlarınkından fərqlənir. O qədər pak, təmiz, müqəddəs insan idi ki... Eşitdiyimə görə, hətta ondan qat-qat yaşlı ağsaqqallar belə onunla məsləhətləşməyə gələr, ağanın tövsiyələrinə qulaq asardılar.





Biz tərəfdə - Sabirabadda **seyid Rəsul ağa** da rayonun sayılan-seçilən seyidlərindən idi. O da Mirməhəmməd ağa kimi nurlu, hörmətli-izzətli şəxsiyyət idi.

Allah onlara və cəmi ölənlərimizə rəhmət eləsin.

**Onu da xatırladaq ki, ağanın qəbrinin üzərində ucaldılmış möhtəşəm məqbərənin tikintisində oğlanları ilə yanaşı Hacı Xanoğlanın da zəhməti olub. Allah köməyi olsun!**

**Yaşar Məstəliyev:**

- Evin böyük oğlu kimi ailənin həftəlik bazarlığını mən edərdim. Bazar günləri Mirməhəmməd ağa rayona baş çəkərdi. O, bazarın mərkəzində görsənən kimi şəhərin bütün sakinləri, ağsaqqalları onu görməyə can atardı. Çox səliqəli, nurani kişi idi. Mən də onun ətrafına fırlanar, sözlərinə qulaq asar, ona olan məhəbbətimizi bildirərdim. O heç kəsə oxşamayan, bənzərsiz, səliqəli kişi idi.

Mirməhəmməd ağanın cəddinə and içmək ən ülvi bir qanun sayılıb. Lakin yalan söz işlədib, and içənlər həmişə cəzalanıblar. Yeganə inam, güman yerimiz onadır. Ocağında yaşayan **oğlu Hacı Mirhəsənin** yanına tez-tez baş çəkirəm.

Allah Mirməhəmməd ağaya rəhmət eləsin.

## ŞEYX HACI MƏHƏMMƏD ŞEYX QÜDRƏT OĞLU

**"Alimləri eşidin, onlar dünyanın çırağı, axirətin nurudurlar".**

Dövrümüzün görkəmli, işıqlı oğlu, böyük mütəfəkkir və alimi, söz xiridarı Şeyx Məhəmməd ağanın əbədiyyətə qovuşmasından bir il yarım keçdi.

Şeyx Məhəmmədin atası, Azərbaycanda yaxşı tanınmış görkəmli alim **Şeyx Qüdrət** ağır və şərəfli bir ömür yaşamışdır.

Ərkivanda doğulan Şeyx Qüdrət Ərdəbildə, uzun illər isə Nəcəfdə təhsil aldıqdan sonra XX əsrin əvvəllərində Cəlilabada qayıdır.

Lakin artıq Azərbaycanda Şura hökuməti qurulmuşdu. Hökumətin qısqılarına, təzyiqlərinə baxmayaraq o, islami dəyərlərin təbliği ilə məşğul olur. Ona görə də 30-cu illərdə bir neçə dəfə həbs edilir.

Hələ sağlığında ağa ali dini rütbə - dərin elminə, hərtərəfli biliyinə görə Şeyx titulu qazanmış, onu tanıyanlar ona "Şeyx" deyə müraciət etmişlər.

O, həqiqətən dövrünün müştehidi idi. Şeyx dövrünün güclü alimləri: **Masallıdan Şeyx molla Bəşirlə, Molla Hüseyn** kimi alimlərlə mübahisələr edərdi. Fitri istedadı, dərin biliyi ilə çoxlarından üstün idi. Nəinki din xadimləri, alimlər, elm xadimləri də onun biliyi qarşısında təslim olar, ona qibtə edərdilər.

Şeyx Qüdrət 1960-cı ildə vəfat etmiş, Cəlilabad şəhər qəbirstanlığında dəfn edilmişdir.

Şeyx Qüdrətin 3 övladı olub: **Şeyx Məhəmməd, Əli** və **Həsən**.

Şeyx Məhəmməd Qüdrət oğlu 1928-ci ildə Cəlilabadda anadan olmuşdur. Ilk təhsilini atasından, sonra isə müxtəlif din xadimlərindən alıb. Amma müntəzəm mütailələr yolu ilə dərin biliklərə yiyələnib.

Şeyx Məhəmməd uzun illər Lenin adına kolxozda sıravi işlərdə çalışıb, həyatda çox əzab-əziyyət çəkib, amma heç





vaxt kitablardan ayrılmayıb. Şura hökumətinin "tuthatut" vaxtlarında belə şəriətlə məşğul olub. Azərbaycandakı bütün müqəddəs yerlərdə, eləcə də Məşhəddə, Kərbəla ziyarətlərində olmuşdu. Hacı **Vasim Məmmədəliyevlə** bir yerdə Məkkə ziyarətinə getmişdi. Görkəmli alimimiz Vasim Məmmədəliyev Şeyx Məhəmmədi yüksək qiymətləndirirdi.

Şeyx Məhəmmədin altı oğlu, iki qızı var: **Zeynalabdin, Səkinə, Fatimə, Məmmədbağır, Sadıq, Kazım, Məşədi Rza** və **Tağı.**

2002-ci ilin sentyabrın 9-da Şeyx Hacı Məhəmməd rəhmətə getdi. Onun vəfatı xalqımız üçün böyük itki oldu.

Şeyx Məhəmmədin hüzrünə respublikamızın bütün bölgələrindən yüzlərlə insan, hörmətli **şeyximiz Hacı Allahşükür Paşazadə** və onlarla başqa din-elm xadimlərimiz gəlmiş, onun itkisini ürək ağrısı ilə yad etmişlər.

Allah rəhmət eləsin!

Hər sahədə dərin elmi biliyi ilə seçilirdi Şeyx Məhəmməd. Xüsusən də təbabət, riyaziyyat elmlərinin bilicisi idi. Çox təvazökar insan idi. Atası Şeyx Qüdrət vəfat edəndə o, atasının əbasını özünün yox, seyid Mirməhəmmədin çiyninə atdı. Şeyx Məhəmmədin ölümündən sonra isə onun əbasını rayonun ağsaqqalları, Masallıdan və başqa rayonlardan gəlmiş molla və seyidlərimizin iştirakı ilə oğlu Məşədi Rzanın çiyninə saldılar.

Məşədi Rza da atası kimi dərin bilikli, qabiliyyətli din xadimlərimizdəndir. Bu gün də öz biliklərini dərinləşdirmək üçün görkəmli alimlərdən təhsil almaqda davam edir.

Şeyx Məhəmməd heç vaxt nahaq işlərə getməzdi. El yolunda heç nəyini əsirgəməz, lazım olsa, ölümə belə gedərdi. Ölkənin çətin vaxtlarında, asayişin qorunmasında, rayonda sabitliyin bərpa edilməsində böyük rol oynamışdı.

Ağzından çıxan hər söz məntiqli, tərbiyəvi idi. Hədərə, boş-boşuna söz deməzdi.

Hamı da xətrini istəyirdi.

**Hörmətli Taleh Qaraşov Cəlilabad rayon İcra Hakimiyyətinin başçısı** təyin ediləndə Şeyx Məhəmməd çox sevinmişdi. Bu cür bacarıqlı insanın onların rayonuna işləməyə göndərilməsini o, Allah-təalanın lütfükarlığı hesab edirdi. Taleh müəllim də el ağsaqqalını ziyarət etmiş, onunla ata-bala olacağına söz vermişdi.

Həqiqətən də Taleh müəllim Şeyx Məhəmməd kimi qüdrətli alimlərimizin, din xadimlərimizin, seyid və ocaqlarımızın qayğıkeşidir. Həmişə imkanı daxilində onlardan öz mənəvi köməyini əsirgəməyib.

Allah köməyi olsun.

Şeyx Məhəmməd **Hacı Əlihəsən,** Gözbulaq kəndindən **Mirmehdi** ilə siğə qardaşı idi. Onunku hər adamla tutmazdı. Şeyx tələb edilən ala bilmirdi. Hasıllıdan **seyid Mirməhəmməd ağa** kimi insanlarla görüşəndə çox rahat olardı. Gülməmmədlidən **Mirtəhməz ağanın** xətirini çox istəyirdi.

Xalqın bir-birinə olan münasibətindən narahat olardı. Deyərdi ki, xalq gərək bir-birinə dayaq olsun. Xüsusən də qaçqınların taleyinə çox acıyırdı. Onların vəziyyətini görəndə səhərə qədər yatmırdı. İmkanı daxilində onlara kömək edər, maddi imkanı olmasa da, onlara mənən dayaq durardı. Ağdamda, Qarabağda çox məclislərdə olmuşdu. Onların halına ürəkdən yanırdı. İstək gərək içəridən gəlsin, deyərdi.

Deyərdi ki, hər hansı bir düz sənətkarın düz işi də çətindir. Kommunistlərin, mollaların da düz işi çətin idi.

**Deyərdi:**

Alçaq dünya murdar bir leş kimidir,
Üzərindən min-min quzğun yol salar.
Çaqqallaşıb didər biri-birisin,
Dimdikləyib o birisi də can alar.
Didişərək məhv olarlar hər ikisi,
Ortalıqda yenə murdar leş qalar.

Həzrət Əli ə.s.-ın, imamlarımızın pərəstişkarı idi. Tez-tez də onlardan hədislər danışardı. Ən çox da falçılardan, cindarlardan zəhləsi gedərdi. Deyərdi ki, islamda belə şey yoxdur. Onlara qarşı mübarizə aparardı.





Kimliyindən asılı olmayaraq, sözünü birbaşa, məntiqlə, kəsərli başa salardı.

**Sübutla yaşadı ömrünü.**

Hər bir hərəkətində ədalət hiss olunardı. Övladı ilə özgələrini fərqləndirməzdi. Ədalətsiz söhbət etməzdi. Haqsızlığa qarşı barışmaz idi. Düşməni də olsa, dediyi haqq idisə, qəbul edərdi.

Deyirdi ki, dünyanın gərdişi pozulub. Bu cür getsə, bəla bizi tutacaq.

Bir məclisdə açıq-saçıq geyinməyə haqq qazandırmaq istəyən bir nəfərə: "Açıq-saçıq gəzmək mədəniyyətdirsə, onda çöldə gəzən bütün heyvanlar mədəniyyətin ən yüksək mərhələsindədir", - deyə tutarlı cavab vermişdi.

Televizora özü də baxmazdı, uşaqları da qoymazdı baxsın. Deyərdi ki, sən bir sərfəli işlə məşğul ol. Sən də xeyir görərsən, millət də. Şeş-beş, dama, nərd oynayanlardan acığı gələrdi. Həmişə deyərdi ki, bunlar insanı zəhmətdən, elmdən uzaqlaşdıran işlərdir. İnsan ömrünü oxumaqla, ruzi qazanmaqla keçirməlidir. Elmdən uzaq, nadan adamlara seyid Əzimin, Sabirin şerləri ilə cavab verərdi.

Uşaqları da, camaat da ona "ağa" deyə müraciət edərdilər. Ölüm gününü də dəqiq bilirdi. Deyərdi ki, vaxtıma lap az qalıb.

Allahın ona verdiyi qiyməti hiss elədik. 75 yaşı vardı, amma elmi mübahisə edəndə deməzdi ki, filan kitaba baxın. Ölən günə qədər zehni, şüuru yerində idi. Nə var sinəsində qaldı. Kərbəlada bir yerdə olduğu dostu **Hacı Müşfiqə** deyərdi ki, Əli ə.s. onun sinəsindədir. Nə qədər yüksəklikdə idi, eləcə də qaldı.

Dünya malına maraqlı, həris adam deyildi. Dünyaya birmənalı baxışı vardı. Elə qəbrinin üstündə də belə yazılıb:

"Allah bir bəndəsinə xeyir istədikdə onu şəriət elmində müctəhid edər".

Bir şeyin ömür boyu ağrısını çəkdi. Deyirdi bir adam tapmıram, söhbət edəm. Insanlar qarın davası çəkirlər. Tamahkarlara qarşı barışmaz idi. Çox kəskin sözü vardı. Insanın ki tamahı ağlını mindi, ondan insan olmaz. Insanın gərək ağlı tamahının belində gəzə.

Heyif səndən, Şeyx Məhəmməd. Təəssüf ki, sizin kimi dahi adamların söz xəzinəsindən, biliyindən bəhrələnsək də, yazıb yığışdırmadıq. Qoy bu kiçik yazı sizin ruhunuzu şad etsin. Allah sənə rəhmət eləsin!

***

***Seyid Mirkamil seyid Mirxəlil oğlu Kərimli 1942-ci ildə Cəlilabad şəhərində anadan olub. Soy kökü Imam Əli ə.s.-a bağlanır. Əsilləri Cənubi Azərbaycanın Meşkin əyalətinin Milli seyidlərindəndir.***

***Mirkamil ağa 7 kitab müəllifidir. Hal-hazırda növbəti kitab üzərində işləyir. 3 oğul, 2 qız atasıdır: Mirdaməd, Miraqil, Mirnatiq, Sənubər və Südabə.***

Onun "Əbülqasim Mühəmməd-Əmin" kitabından bir hissəni nəzərinizə çatdırırıq:

Mühəmməd böyüdü çatdı həddinə,
Görənlər heyrandır onun qəddinə.
Uca boylu idi, qamətli idi,
Dostluqda dostlara səxavətli idi.
Onun bu yaşında bir yaxın dostu,
Daima onunla təmasda idi.
Evdə olanda da onunla olur,
Səfərə çıxanda qəlbində olur.
Kim idi bu dostu, bilmək istərsiz?
Ona diqqət etsəz bu gün görərsiz.
Onun yaxın dostu Qurani- Kərim;
Onu çox oxuyur o, olur dərin.





Ondan ayrılmağı rəva bilməyir,
Ondan ayrılmağa səbəb görməyir.
Quranla təmasda olan bir cavan,
Allahla təmasda olur hər zaman.
Mühəmmədi Qüdrət çəkir dərinə,
Özünü tez qoyur onun yerinə.
Özü öz gəncliyin yadına salır,
Mühəmmədə baxır, çox fərəhlənir.
Gələcək alimlə durur üz-üzə,
Bəzən həmlə edir, gəlir göz-gözə.
Elmi həmlələrə Mühəmməd dözür,
Şeyx Qüdrət oğlunu diqqətlə süzür.
Elə ki, arada aramlıq olur,
Şeyx Qüdrət dəlalət edir oğlunu.
Özün səviyyədə mənə həmlə et,
Elmin dəryasında çox dərinə get.
Harada dayandın itirmə özün,
Mülayim dayanıb tez söylə sözün.
Mən səni dinləyib kömək edərəm,
Bütün sualları təhlil edərəm.
Güzəştə getmərəm elmidə sənə,
Mübahisə edərik, vurarıq çənə.
Sənin səviyyəndə kim qalib gəlsə,
"Sağ ol" mükafatı verərəm sənə.
Keçən dərslərini unudan görsəm,
Möhkəm cəza verrəm, rəhm yoxdur sənə.
Dərslər rəvan gedir, söz ola bilməz,
Belə bir tələbə hər cavan dözməz.
Möhkəm dayanmışdır bizim Mühəmməd,
Islamın yolunda o çəkir zəhmət.

## SEYİD MİRŞÜKÜR AĞA

Atanın övlad qarşısında borcu - onların tərbiyəsidir.

Övladın ata qarşısında borcu - onun təmiz adını qorumaqdır.

Ən yaxşı sədəqə odur ki, sağ əlin verdiyini sol əl bilməsin.

Əməllərin dəyəri onların məqsəd və nəticəsi ilə ölçülür.

**Məhəmməd peyğəmbər (s)-nın kəlamlarından**



Şan-şöhrəti, hörməti, qüdrəti ilə tanınan, ağsaqqallığı ilə seçilən, qan bağlayan, qəlbləri oxşayan, insanları müşküldən qurtaran seyid Mirşükür ağanın atasının da adı seyid Mirşükür idi. Ata-babası Yardımlı rayonunun Perinbel kəndində ulu seyidlər yurdunda doğulsa da, kənd repressiyaya uğrayandan sonra ağa Cəlilabadda tanıdığı, ünsiyyətdə olduğu insanların arasında məskunlaşdı. El-oba ilə qaynadı, qarışdı, özünə ev-eşik yaratdı.

Seyid Mirşükür ağanın dörd övladı var idi.

Ağanın **iki oğlu - Maşallah** və **Mirisa** müharibə illərində itkin düşmüşlər.

Onların **qardaşı Mirinşallah ağa** isə 1983-ci ildə haqq dünyasına qovuşmuşdur.

Seyid Mirşükür ağa isə 1911-ci ilin Perinbel kəndində anadan olmuş, 1991-ci ilin iyul ayında Cəlilabad şəhərində vəfat etmişdir.

Seyid Mirşükür ağa hələ dünyaya gəlməmiş atası haqq dünyasına qovuşmuş, ona görə də yetimçiliyin hər üzünü görmüşdü.





Həyat yoldaşı, 1928 -ci ildə anadan olmuş **Ağabəyim seyid Rəsul qızı** da öz doğma kəndlərindəndir.

Seyid Mirşükür ağayla Ağabəyim nənənin 9 övladı olmuşdur: **seyid Mirəzim, Məşədi seyid Mirnazim, Minarə, seyid Mirzuvvar, seyid Mirimdad, Məşədi seyid Miryusif, Mirbəyim, Faxmirə** və **Zemfira.**

Seyid Mirəzimin **seyid Azər, seyid Anar, seyid Aqil** adlı oğlanları, **Hümeyrə** və **Rühəngiz** adlı qızları;

Məşədi seyid Mirnazimin 2 övladı var: **Samirə** və **seyid Səbuhi.**

Seyid Mirzuvvar ağa isə 3 övlad atasıdır: **Məhnurə, seyid Xəzər** və **seyid Mirsəid.**



Seyid Mirimdad ağanın isə 2 oğlu var: seyid **Araz** və **seyid Qaya.**

Məşədi seyid Miryusif ağanın 2 övladı artıq Məşədidir. **Aydan, Məşədi Nabat, seyid İdrak, Məşədi seyid Mirşükür.**

Allah ziyarətlərini qəbul eləsin.

Seyid Mirşükür ağanın həyat yoldaşı **Ağabəyim nənənin dediklərindən:**

- Biz Mirşükür ağayla Perinbeldə ailə həyatı qurmuşuq.

Onunla həmişə mehriban yaşamışıq. Əl-ələ verib boya-başa çatdırdığımız övladlarımız da mehriban və ataları kimi xeyirxah işlərlə məşğuldurlar. Mirşükür ağa nurlu bir seyid, həm müdrik el ağsaqqalı, həm də ağır təbiətli bir insan idi. Ailədə uşaqlarla çox mehriban dolanardı. Uşağın birinin canı ağrıyanda özünə yer tapmazdı. Bir körpənin belə qəlbini sındırmamışdı. Onun xoş əməlləri, görmüş olduğu işlər heç vaxt gözümdən getmir. Biz də onun bir sözünü iki etməzdik.

Günlərin birində Bakıdan-qızımgildən evə, Cəlilabada gəlirdik. Yolda sürücü ağanın qəlbinə dəydi, biz maşından düşməli olduq. Maşın bizdən uzaqlaşandan az sonra çarxı çıxdı. Az qaldı maşın aşa. Səhv etdiyini başa düşən sürücü gəlib ağanın əl-ayağına düşdü. Ağa onu bağışladı, əlini maşının üstünə qoydu. Maşına heç nə olmamış kimi işə düşdü.

Cəlilabad camaatı tez-tez ağanın qəbri üstə gedir, onu ziyarət edir.

...Seyid Mirşükür ağanın balaları da atalarının yolu ilə gedirlər. El-oba üçün çox işlər görüblər. Həmişə kasıblara əl tutmuş, kənd yollarının düzəldilməsində, abadlaşmasında öz köməklərini əsirgəməmiş, Aşura və təziyyələrdə ehsan vermiş, qurban kəsib xalqa paylamış, qəbirstanlıqda çardaq tikdirmiş və onlarla xeyirxah əməllərlə məşğul olmuş və bu gün də öz xeyirxah əməllərini davam etdirirlər. Sanki onlar bu işləriylə atalarının ruhu qarşısında hesabat verirlər. Camaat bu layiqli imam-peyğəmbər övladlarından çox razıdır. Çünki onlar Allah yoluyla getməyi özlərinə müqəddəs borc bilirlər.

Allah-təala, Mirşükür ağanın cəddi Əliyyən Mustafa xətrinə millətimizi bir-birinə mehriban etsin.

**Məşədi seyid Mirnazim ağa:**

- Mən atam haqqında bütün günü, ayı danışsam belə qurtarmaz. Atam bizim üçün həm ata, həm yoldaş, həm də dost olub. O, öz kasıblığıynan hamımızı oxutdurub savad sahibi etmişdir. Atam öz övladlarını həddən artıq böyük məhəbbətlə sevirdi. Bununla yanaşı o başqa kasıb, kimsəsiz uşaqları da görəndə ürəyi ağrıyar, imkanı daxilində onlara əl tutmağa, əlindən gələn yaxşılığı etməyə çalışardı.





Heç yadımdan çıxmır. 1973-cü il idi. Bir dəfə ağır xəstələnmişdim. Vəziyyətim ağır idi. Atam düz iki ay mənim yanımdan evə getmədi, çarpayımın yanından aralanmadı. Tamam yaxşılaşandan sonra birgə evə getdik. Atamın yolunda nə qədər xeyirxah işlər görsək belə, onun haqqının mində birini yerinə yetirmiş oluruq.

Allah ona rəhmət eləsin.

**Məşədi seyid Miryusif ağa :**

- Mən də qardaşımın dediyi sözlərlə şərikəm, çünki ata haqqında söz danışmaq həm məsuliyyətli, şərəfli, həm də fəxrlidir. Odur ki, atamızın tutmuş olduğu o xeyirxah işlərin davamçısıyıq. Əlimizdən gələn yaxşılıqları məzlumlara, Allah yolu ilə gedənlərə, dindarlara, kasıb-füğaralara edirik.

Bir xatirə danışmaq istərdim.

1986-cı ildə II kursda oxuduğum vaxt Böyrək xəstəxanasına düşdüm. Bunu atamdan gizli saxlamışdıq. Məndə cərrahiyə əməliyyatı aparıldıqdan sonra atam Cəlilabaddan Bakıya-birbaşa xəstəxanaya, yatdığım otağa gəldi. Biz məəttəl qaldıq. Soruşduqda ki, bunu sənə kim bildirdi? Dedi ki, mənə gecə yuxuda əyan oldu.

Allah bütün dünyasını dəyişmiş Əli şiələrinə rəhmət eləsin.

**Seyid Mirimdad ağa:**

- Atam öz övladlarını dərin məhəbbətlə sevdiyi kimi, xalqının övladlarını da öz övladı hesab edirdi. Camaatla xoşrəftar olmağı bizə də tövsiyə etmişdi. Özü ali təhsilli olmasa da, çox oxumuşlardan savadlı idi. Həmişə də dərslərimizlə maraqlanardı.

Orta məktəbdə ə`laçı idim. Bir gün dərslərimi arxayınçılıq ucbatından ala-yarımçıq öyrənmişdim. Elə dərs təzəcə başlamışdı ki, atam içəri girdi. Icazə alıb arxada əyləşdi və məni dinləyəcəyini müəllimimizə bildirdi.

Lövhə qarşısına çıxanda müəllim sifətimdəki cizgilərdən

dərsə hazırlaşmadığımı duyub, əvvəlki dərsi danışmağı buyurdu. Həmin dərsi isə ə`la bilirdim.

Danışdım. Müəllim atamı yola salandan sonra dedi ki, səni atanın qarşısında pərt etmədim, ancaq bir də hazırlıqsız dərsə gəlmə. O müəllim indi dünyasını dəyişmişdir.

Camaatın atamıza olan böyük hörmətinin şahidiyik. O, bu hörməti öz hərəkətləri, xeyirxah əməlləri, nəcib ağsaqqallığı ilə qazanmışdı.

Atamız yaxşı ailə başçısı idi.

Hərbi xidmətdən qayıtdıqdan, əlim çörəyə çatandan sonra atam çox yaşamadı. İstərdim onu əlimin içində saxlayım. Ancaq az da olsa qulluğunda dura bildim.

Allah ona rəhmət eləsin.

**Minarə, ağanın qızı:**

- Atamın övladlarına etdiyi yaxşılıqlara bütün Cəlilabad əhli şahiddir. Biz də həmişə ağır nəfəsli seyid, ağsaqqal və nəhayət, bir ata kimi onun yolunu saxlamışıq. Atamızla söhbət zamanı həmişə çəkinə-çəkinə söz kəsmişik. Həmişə aramızda ünsiyyət, abır-ismət pərdəsi olmuşdur.

Bir dəfə uşaqlarımızdan biri qonşunun üzüm çöplərindən birini təndirə atmaqdan ötrü həyətə tullamışdı. Atam bunu bilən kimi bizi çağırıb sorğu-sual etdi. Qardaşımın qorxudan dizləri əsməyə başladı və dili dolaşdı. Atam da bildirdi ki, balalarım, bilin ki, bizim ocağa haram tikə düşmür. O çöpdən bizim öz evimiz yanar.

Qardaşım da tez ağacı, üzüm çöpünü qonşunun bələtinə qoydu ki, evimiz indicə yanar, qoy yanmasın.

Atamın ağır nəfəsli seyid olmasını bütün Cəlilabad və eləcə də onu tanıyanlar yaxşı bilirlər. Hətta atam rəhmətə gedəndə qonşular küçədə darvazalarına qara yaylıq bağlamışdılar. Qoy bizim cəddimizin hörmətini saxlayan bütün insanları Allah xoşbəxt eləsin!

**Hacı seyid Mirdilavər ağa:**

- Möcüzatları ilə Yardımlı, Perinbel və Cəlilabadın şəhər





və kəndlərində tanınmış **Kərbəlayi Şavruq, seyid Cahangir, seyid Mirtəhməz, seyid Alməmməd, seyid Nuru, Məşədi Cəbrayıl, seyid Sultanlı, seyid Piri, seyid Mirsultan, seyid Mirşükür** və s. bu kimi seyidləri yaxşı tanıyırdım. Onlara Allah qəni-qəni rəhmət eləsin.

Onlar ağır nəfəsli seyid olmaqlarıyla yanaşı əsl insan idilər.

Son zamanlar Şavruq övladlarının nurani, insani və bir ağır nəfəsli seyidi kimi tanınıb, dünyasını dəyişən seyidlərdən Mirşükür ağa haqqında danışmaya bilməzsən. Onun boya-başa çatdırdığı övladları da ağanın adına layiq xeyirxah işlərlə məşğuldurlar.

Allah onları elimizdən, obamızdan əskik etməsin.

Mirşükür ağanın da qəbri nurla dolsun.

**Kərbəlayi Mirxudaqulu Vəzirov:**

- Seyid Mirşükür ağayla həm kəndçi, həm də dost olmuşam. Yoldaşlığımız da həddən ziyadə idi. Böyüyüb başa çatdıqda seyid Mirşükür ağa Ağabəyim xanımla ailə həyatı qurmuş, Allah da onlardan öz gözəl payını əsirgəməmişdir. İstər sağlığında, istərsə də ölümündən sonra onun övladları atalarının adına layiq hərəkətlər edirlər. Cəlilabad şəhərinin ali dini ocaqlarında elə hey camaatımızın dilindən seyid Mirşükür ağanın oğlanlarının xoş soraqlarını eşidirəm.

Allah Mirşükür ağaya rəhmət etsin.

**Hacı Mircəfər Babayev:**

- Uşaqlıq illərində Mirşükür ağayla yaxın yoldaşlığım olub. Yaylaqda heyvanları bəsləyəndə onunla çox ünsiyyətdə olmuşdum. O, əsl insan, övladlarının qayğısını çəkən, ailəsini sevən bir kişi, el-obanın ağır nəfəsli seyidi idi. Onun övladlarına çəkdiyi zəhmət öz bəhrəsini vermiş və verməkdə davam edir.

Allah Mirşükür ağanın övladlarına min ömür versin, özünə qəni-qəni rəhmət eləsin.

**Mircahangir Piriyev**

## MƏŞƏDİ KƏRBƏLAYİ SEYİD MİRTƏHMƏZ AĞA



Adını yaxın-uzaq ellərdən çoxdan eşitdiyimiz, haqqında ancaq xoş sözlər dolaşan, dirikən özünə min rəhmət qazanmış **Mirtəhməz ağa** Gülməmmədli kəndində yaşayır.

Rayonun ağsaqqalları və ziyalılarının dediyinə görə, Gülməmmədli kəndinin yaranma tarixi 150-160 il bundan əvvələ təsadüf edir. Kənd yaylaqla aranın arasında, dağların qurtardığı, düzənliklərin başlandığı yerdə bərqərar tutub. Necə deyərlər, nə yaylaqdır, nə aran. Hələ o vaxt kəndin camaatı tərəkəmə həyat tərzi keçirərmiş. Kəndin sakinlərindən Gülməmməd adlı bir şəxs həmişəlik burada məskən salmış və kəndin adı da onun adından götürülmüşdür.

**Mirtəhməz ağanın** atası ağır nəfəsli imam övladı **seyid Mirazadxan ağanın** müqəddəs məzarı kəndin başında, nərgizlərlə örtülmüş qəbristanlıqda uyuyur. Sanki onun nəzəri bütün kəndin üzərində dolaşır, camaatı xətadan-bəladan qoruyur. Bir az aşağıda, ağanın qəbrindən bir qədər aralı daha bir insanın- çətin, keşməkeşli 70-ci illərdə ağanın qəbrinin üstünü götürmüş, məqbərə tikmək üçün dəridən-qabıqdan çıxmış **Qulam Hüseynovun** da ruhu uyuyur.

Allah ağaya, Qulam müəllimə və bütün dünyadan keçənlərimizə rəhmət eləsin.

Seyid Mirazadxan dövrünün hörmətli ağsaqqallarından, ağır nəfəsli seyidlərindən olmuşdur. Başı çox müsibətlər çəksə də heç vaxt nəfsinin qulu olmamışdır. Bu gün onun müqəddəs məzarı minlərlə insanın ümid, nicat yeridir.

Seyid Mirazadxan seyid Ağamalı oğlunun 4 oğlu: **seyid Sulduz, seyid Bəxtiyar, seyid Mirəli, seyid Mirtəhməz** və bir **qızı- Xanımgül** olmuşdur.





Seyid Mirtəhməz ağanın **ulu babası seyid Xanmirzə seyid Ağaməmməd oğlu** 4-cü imamımız Zeynalabidin (ə.s.) nəslindən olub, hələ bir neçə yüz il əvvəl Yardımlı rayonunun Perinbel kəndinə köçüb gəlmişdi. Sonradan seyid Mirazadxan ağa Gülməmmədliyə-Bozayırana köçmüşdür.

Kərbəlayi Məşədi seyid Mirtəhməz ağa 1931-ci il iyul ayında anadan olub. Ömrü-günü zəhmətlə keçib. Ağanın çoxlu nəvə- nəticəsi var. Balalarının hamısı təhsillidir. Kərbəla, Məşhəd ziyarətlərində olub.

1954-cü ildən ağanın qulluğunda duran, hər gün bu müqəddəs insanla bir nəfəs alan anamız, Mirtəhməz ağanın həyat yoldaşı **Nəzakət xanımla** dünyaya 7 övlad bəxş etmişdir:

**Məşədi Barat, Hacı Mirazadxan, Mirkainat** (rəhmətə gedib-red), **Mirmüqəddəs, Mirəşrəf, Mirfatma, Mirmöminə.**

Məşədi Baratın **Mirəli, Mirağaməli, Məşədi Mirəsabə** adlı oğlanları, **Kəmalə və Xanımqız** adlı qızları;

Hacı Mirazadxanın isə 3 oğlu, 2 qızı var: **Mirəkrəm, Mirmehdi, Mirhadı, Ülfət və Əminə.**

Rəhmətlik Mirkainat isə **Mirbaxdur, Kəminə, Nuranə, Rəvanə, Pərvanə və Aytacın** atası idi.

Mirmüqəddəsin övladları isə **Mirnağı, Miryəhya, Zəkiyyə, Rüqəyya və Mehribandır.**

Seyid Mirəşrəf ağanın isə bir oğlu, 3 qızı var: **Mirəfsər, Zeynəb, Zəhra və Mələk.**

**Kərbəlayi Məşədi seyid Mirtəhməz ağa:**

- **Böyük qardaşım Sulduz ağa** o vaxtlar məsul vəzifədə işləyirdi. O, müharibəyə gedəndə dedi ki, zamana pis gəlib. Mən gedəndən sonra siz də buradan köçüb gedərsiniz. Sizə əzab-əziyyət verərlər. Onun vəsiyyətinə görə də biz kənddən çıxdıq. O, müharibədən qayıtmadı.

Ondan kiçik qardaşım da müharibəyə getdi, ondan da bir xəbər gəlmədi. Atam fağır adam idi. Əkinçiliklə məşğul olardı. Xalqın ona etimadı çox idi.

Vəfat edəndə də mənə dedi ki, bala, kimsə məndən inci-

məyib, heç kəsə borcum yoxdu, nə də düşmən qazanmamışam. Allahın yolun saxlamış, həmişə ibadətimi eləmişəm.

Dedim ki, bəs məni niyə belə qoyub gedirsən?

Dedi ki, yaman gün mənlə gedər.

Elə nə təhər deyibsə, elə də olub. Heç ondan narazı olan olmayıb. "Məclisdə hamı ayağa durursa, bu mənim üçün ən böyük hörmətdi."

Rəhmətə gedəndə heç xəstə də olmadı. Kənddə bir Məhəmməd kişi var idi. Dost idilər. Bir gün deyər ki, Məhəmməd kişi, 14 keçər, 15-ci gün gələr, mənim şivənimə qulaq asarsan. Məni torpağa tapşıracaqlar.

Məhəmməd kişi də 14 gün gözləyər, deyər görək ağanın hikmətinin axırı nə olacaq? Həqiqətən də 15-ci gün gəlir ki, camaat ağanı torpağa tapşırır.



**Məşədi seyid Barat, ağanın böyük oğlu:**

-Deyirlər qılınc qınını kəsməz. Amma belə deyil. Bir neçə il bundan əvvəl kiçik qardaşımın- Əşrəfin toyuna hazırlaşırdıq. Özüm sovxozda çalışırdım. Əlimdə də beş-on manat pul var idi. Bir gün atama dedim ki, ağa, icazə ver, toya aşıq gətirək. Ağam əsəbiləşib dedi ki, sənin toyunu aşıqsız etmişik, bu toy da aşıqsız olacaq.

Mən israr etdim. Ağam dedi ki, gətirə bilsən, gətir. Görək ona harada qulaq asacaqsan.

Ağamla söhbət edə-edə əlimdə bir qaşınma hiss etdim. Bir gün keçmiş əlim şişdi. Əşrəf də yıxılmışdı, ayağı zədələnmişdi. Heç bilmədik toy haradan gəldi, hara getdi. Göytəpədə dayım oğlu Mirtofiq cərrah həkimidi, dedi, əmioğlu, gərək barmağın burdan kəsilə. Gərək Bakıya gedəsən.

Ağa yanıma gəldi, dedi, bala, aşıq gətirdinmi?

Bir yandan da ağanın tənəsi...





Ağa dedi aç əlini. O, dua oxudu, əlini əlimə vurdu. Heç bir az keçməmiş barmağımdan çirk axmağa başladı. O sağalan, barmağım sağaldı. Bax, ağanın xətrinə dəyməyim məni bu cür əzaba salmışdı.

Bir dəfə də təzə aldığım maşınla Bakıya gedirdim. Ağa da maşında idi. Onu da deyim ki, mən maşını çox pis, yəni, son dərəcə sürətlə sürürəm.

Bakıdan çıxanda 3-4 maşınla ötüşməyə başladım. Qəflətən bir "Zil" maşını qabağıma çıxdı. Əyləci basdım. Gördüm ki, xeyri yoxdu. Qabaq dağ, arxa dənizdi. Nə qədər əlləşdim, maşını yığışdıra bilmədim. Dənizə tərəf çevrildi. Ağa yuxudan ayılıb dedi, a bala, deyən maşın çəp gedir. Heç nə olmaz, Allah saxlayar.

Doğrudan da maşın qəzadan sovuşub yola düzəldi.

**Hacı Xosrov, Cəfərxanlı kənd sakini:**

- Mən Hələb şəhərində olarkən xanım Zeynəbin qəbrini ziyarət etmək istəyirdim. Ha gəzdim, gedib tapa bilmədim, yorulub gəlib yatdım. Yuxuma Mirtəhməz ağa girdi. Əlini əlimə verib dedi ki, ziyarətin qəbul olunub.

Əvvəllər Rusiyaya mal, meyvə-tərəvəz buraxmırdılar. Mən də malı maşına vurub dedim: "Ya Mirtəhməz ağanın cəddi, özün kömək ol".

Qubada sərhəddə şlaqbaum qalxdı, heç deyən olmadı ki, hara gedirsən, nə aparırsan? Amma kiçik maşınları belə ələk-vələk edirdilər.

Mirtəhməz ağa elimizin ağır seyididir. Bir çətinə düşəndə onu çağırırıq.

Allah onun balalarını eldən əskik eləməsin!

**Malik Seydullayev:**

- Ağaya nə qədər tərif desən, yaraşar.

Bir dəfə İrandan qızımgilə qonaq gəlmişdi. Seyidlərə o qədər inanmırdı. Bir dostu vardı, xəstə idi. Dedi, ağanı sınayacam. O, nəzir dedi və sağaldı. O qonaq indi də gələndə ağanı ziyarət edib, ona dua oxuyur.

Oğlum institutda oxuyurdu. Danışır ki, bir gün kurs işi müdafiə edirdim. Müəllim də çətin adam idi. Mirtəhməz ağaya nəzir dedim, amma nə təhər oldusa, pulum qurtardı və nəzir pulunu xərcləməli oldum. Kurs dəftərim itdi. Ürəyimdə Allaha yalvarırdım ki, ilahi, mən Mirtəhməz ağanın nəzirini xərcləmişəm, keç günahımdan. Heç bir az keçməmiş dəftər tapıldı. Kəndə gələndə ağanı ziyarət etdim.

**Kərbəlayi Höccət:**

- Mənim həkimim bu ağa olub. Uşaq vaxtlarımda möhkəm xəstələndim. Qarnım şişmişdi, yeriyə bilmirdim. Anam məni ağagilə gətirdi. Üç dəfə əlini vurdu, onunla da şəfa tapdım.

Ağa həm də müdrik ağsaqqaldır. Bir adamın xeyir-şərindən qalmaz. Hətta mən razı olmasam da, o, Qazaxıstana, qardaşım oğlunun xeyir işinə gedib. Özü də nə illah etsək də, yol xərcini özü çəkib. Yeddi qızım, bir oğlum var. Adəm adını da uşağa ağa yuxuda verib. Allah ondan razı olsun. Onun cəddinin gücünü çox görmüşük.

**Alam Əliyev:**

- Allah Mirtəhməz ağanı el içində daha da uca etsin. Onun özünün və balalarının bu eldə zəhməti çoxdur. O da xoşbəxtlikdəndir ki, belə müqəddəs insanlar bizim kənddədir. Ağanın qardaşı da böyük hörmət sahibi idi. Heyif ki, aramızdan tez getdi. Mirtəhməz ağa böyük-kiçiyin ağsaqqalıdır. Həm qızlarımızın, həm də oğlanlarımızın böyüyüdür. Balaları da ona layiq hərəkət edirlər. Oğlu Mirazad ağa 20 km-lik el yolunu düzəltdirib.

**Hacı Mirazad ağa:**

- Elin sözü bizim sözümüzdür. Ata övladın gözündə hamıdan qüvvətli, hamıdan güclü görünür. Biz də atamızı belə görmüşük.

**Habil Səfərov:**

- Mirtəhməz ağa təkcə Cəlilabadda deyil, ətraf rayonlarda da tanınmış, sınanılmış seyidlərimizdəndir. Onun gözütoxluğu, camaata əl uzatması ağanın hörmətini birə-beş qaldırıb.





... Bir dəfə alverə gedirdik. Hamı da ağaya nəzir edirdi. Kəndimizdə Həsən adlı bir kişi var. Ona dedim ki, Həsən, sən də ağaya nəzir de.

Dedi ki, ağama Kürün o tayında rast gəlsəm verəcəm, gəlməsəm, verməyəcəyəm. Həmin səfərdə yaxşı alver etdik. Qayıdanda gördük ki, ağa Kürün o tayındadır. O, heç vaxt buralara gəlməzdi. Həsən qayıtdı ki, ağa, cəddinə qurban olum, nə yaxşı ki, buralara gəlmisən,- deyə zarafat elədi və ağanın nəzirini verdi.

Ağa bax belə möcüzəli, hörmətli, sınanılmış seyid, gözəl el ağsaqqalıdır.

Allah ona min ömür versin.

**Ələsgər Haxıyev:**

- Seyid Mirtəhməz ağa haqqında nə qədər danışılsa, nə qədər yazılsa, yenə də azdır.

Bildiyiniz kimi. seyid- ağa deməkdir.

Çox təəssüflər olsun ki, elə seyidlərimiz var ki, əməlləri ilə seyid adına ləkə gətirirlər. Bələlərinə seyid deməyə adamın dili gəlmir. Əsil seyid olan kəs ictimai mənafeyi şəxsi mənafedən üstün tutmalıdır.

Seyid Mirtəhməz ağa öz əməlləri ilə həmişə seyid adına hörmət- izzət gətirən seyidlərdən olub. Bizim bölgədə Mirtəhməz ağa ağsaqqallığı, müdrik fikirləri ilə xalqa örnək olmuşdur. Harada qan davası düşərdisə, ora ağa təşrif buyurarsa, bütün işlər öz yoluna qoyular.

Cəlilabadda Mirməhəmməd ağadan sonra əsil seyid kimi böyük bir məsuliyyəti Mirtəhməz ağa öz üzərinə götürüb.

Məhəmməd peyğəmbər ə.s. buyurub ki, valideynlərin övladlarına təhsil vermək borcu var. Seyid Mirtəhməz ağa da peyğəmbərimizin buyruğuna əməl edib. Öz övladlarının hərtərəfli təhsil almasına yardımçı olub.

İndi də ağanın övladları atalarının adına layiq əməlləri ilə xalq arasında xüsusi hörmətə malikdirlər.

**Rəşid Əsgərov:**

- Mən Mirtəhməz ağanı görə bilməsəm də, onun oğlu Mirazadla məclislərdə çox olmuşam. Mirazad çox ədəb-ərkanlı, mərifətli, əsil seyidlərə məxsus savadlı, elmli insandır. İslamın saflığı barəsində bir neçə dəfə söhbətlərimiz olub. Mirazad gənc olmasına baxmayaraq, islama münasibəti obyektivdir.

Məsələn, bir çox mollalar mərhum akademik Ziya Bünyadovun tərcümə etdiyi "Quran"a mənfi yanaşırlar. Mirazadın isə mövqeyi fərqlidir.

Ümumiyyətlə, islam olduğu kimi şərh olunmalıdır.

Çoxları istəyir ki, islamın ümumbəşəri dəyərlərinə xələl gətirsinlər. Lakin unudurlar ki, Isa haqqında müqəddəs "Quran"da da xoş kəlamlar var.

Onu demək istəyirəm ki, islam dini həmişə elmin, mədəniyyətin tərəqqi etməsinə xidmət etmişdir. Mirazad da islamda xurafata deyil, ürpani sahəyə üstünlük verir. Bu da onun gələcəkdə böyük din xadimi olacağından xəbər verir.

**Arif Piriyev:**

- Mən gözümü açandan Mirtəhməz ağanı görmüşəm. Rəhmətlik atamla bərk dost idi. Bakıya gələndə mütləq bizə gələrdi. Deyirlər, dünyanın yeddi möcüzəsi var. Ağa dünyanın 8-ci möcüzəsidi.

70-ci illərin axırı idi. Ailəvi dostumuz Ülkərin işi hökumətə düşmüşdü. Bir gecə yuxusunda Mirtəhməz ağanı görür. Niyyət eləyir, nəzir deyir. Elə bununla da işi düzəlir.

Bir neçə il bundan əvvəl Zərgərlik zavodunda oğurluq hadisəsi baş verəndə, məni çək-çevirə salmışdılar. Ağanın cəddini köməyə çağırdım. Heç məni incitmədilər də.

Ağanın oğlanları ilə də yaxşı münasibətlərimiz var. Onların da nəfəsi çox ağırdır.

Allah həm ağaya, həm də balalarına min ömür versin, eldən əskik eləməsin.





**Vəlixan Əliyev:**

- Mirtəhməz ağa çox ağır, hər hərəkətini ölçüb-biçən adamdır. Indi olmasın, atamla bərk dost idilər. Evimizə, ailəmizə gəlib-gedəndi. Ağa hər adamla oturub-durmaz. Həqiqi mə`nada camaat ondan təsəlli tapır.

**Babam Fərhad kişi** Mirtəhməz ağanın atası ilə çox yaxın olub. Bizim nəslimiz səhər duranda da, axşam yatanda da Mirtəhməz ağanın cəddini çağırır. Bu da bizim qanımıza keçib.

Həmişə öz işimdə bir balaca çətinliyə düşəndə onun cəddini çağırıram. Gedib onunla, oğlanları ilə görüşürəm. Allah-təala onu o qədər səbrli, nəfsitox bir insan yaradıb ki...

Onun yanından sakitcə ötüb-keçmək mümkün deyil. Adam istər-istəməz onun nurlu simasını görmək, əlini-əlinə vurmaq istəyilə alışıb-yanır. Mirtəhməz ağanın nüfuzu sayəsində neçə-neçə qanlar yatırdılıb, münaqişələr həll edilib. Ağanın oğlanları da elə özünə oxşayırlar.

Yaxşı yadımdadır, cavan vaxtlarımda bizim keçmiş Səməd Vurğun sovxozundan şəhərin mərkəzinə süd daşıyırdım. Çox vaxt rayon mərkəzinə ağanı da özümlə aparırdım. Qışın soyuğunda üşüməz, yolu da rahat gedib-gələrdik. Mö`cüzəydi, ayrı vaxt maşında, bayırda soyuq adamı kəsərdi, amma ağayla olan günü üşümək nəydi, bilmirdik.

Allah-təaladan ağama min ömür diləyirəm.

**Cəmil Səfərov:**

- Məni tanıyanlar yaxşı bilir ki, şüurlu həyatım boyu elə bir an olmayıb ki, qəlbimdə Allah qorxusu olmasın. Həmişə Allah-təala qayda-qanunlarına böyük hörmətlə yanaşmış, onun elçiləri olan peyğəmbərlərin müqqəddəsliyini qəbul etmişəm. Bu müqəddəslərin özlərini görməsəm də, elə bir şərəf sahibi olmuşam ki, bunların nəslinin ləyaqətli davamçıları olan seyidlərin bəzilərini demək olar ki, hər gün ziyarət edir və onlarla ünsiyyətdə oluram. Belə peyğəmbər övladlarından biri də daim ziyarətinə tələsdiyimiz Mirtəhməz ağadır.

Mirtəhməz ağa inkaredilməz və ləyaqətli bir peyğəmbər

davamçısıdır. Ağa haqqında bu sözləri demək üçün mənə əsas verən onun yüksək mərifət, mədəniyyət, səxavət və xüsusilə də ədalət sahibi olmasıdır. Bizim bölgədə elə bir xeyir- şər məclisi olmaz ki, ağa vaxtının azlığına baxmayaraq, o məclisə qatılıb, "öz sözünü" deməsin, məsləhətlərini verməsin. Elə bir imkansız adam tapılmaz ki, ağanın səxavətindən kənarda qalsın. Elə bir hadisə olmaz ki, orada ədalət pozularsa, ağa ədaləti burada bərpa etməsin. Bütün bu xüsusiyyətlərilə yanaşı, Mirtəhməz ağa möcüzələr göstərmək qabiliyyətinə malik bir peyğəmbər övladıdır. Ağanın kəramətləri haqqında onu deyə bilərəm ki, ümidsizliyə qapılanlar Mirtəhməz ağa ocağında ümid tapıblar, açılmaz sirlərin açarı Mirtəhməz ağa ocağının ziyarəti olub. Bir sözlə, Mirtəhməz ağa və onun nəsli böyük mütəxəssis tədqiqatına ehtiyacı olan sirli bir aləmdir. Mən fəxr edirəm ki, qaranlıq aləmə işıq saça bilən belə bir müqəddəs ocağı tanıyıram və bu ocağın ziyarətində olmuşam. Eyni zamanda minlərlə insana şərəf gətirən odur ki, Mirtəhməz ağanın özü və nəslinin müqəddəsliyinə layiq övladları bu ocağı yaşadır və yaşadacaqlar.

**Hacı Kamil Bayramov:**

- Bizim Cəlilabad bölgəsində Mirməhəmməd ağadan sonra Mirtəhməz ağa gözütox, könlüxoş bir seyid kimi xalq arasında xüsusi hörmətə malikdir. Ağa Azərbaycanda barmaqla sayılan seyidlərimizdəndir.

Məkkədə olarkən eşitmişəm ki, Bakıda Zirə uşaqları da xümsü-zəkatı təmizliyinə görə yığıb ona verərmişlər ki, vaxtlı-vaxtında yerinə çatdırsın.

O kişi elə bir insan idi ki, etdiyi yaxşılıqları belə dilinə gətirməzdi. Necə deyərlər, "Sağ əl verəni, sol əl bilməsin".

Allahdan Mirtəhməz ağaya, onun simasında bütün seyidlərimizə xeyirxah əməllərində uğurlar və uzun ömür arzu edirəm.

**Arif Baxışov:**

- Mirtəhməz ağanın bacısı oğlu Məmmədəli ilə birlikdə





ordu sıralarında qulluq etmişik. Məmmədəlinin vasitəsi ilə də Mirtəhməz ağanı tanımışam. Vəziyyət elə gətirdi ki, əsgərlik günlərindən sonra mən Məmmədəli ilə birlikdə müəyyən müddət işləməli oldum. Bunları deməkdə məqsədim odur ki, taleh özü məni Mirtəhməz ağanın ailəsinə yaxınlaşdırdı.

Mirtəhməz ağanın ziyarətinə gedirəm, nəzir aparıram. Və ziyarətdən sonra özümdə mənəvi dayaq və yüksələn ruh hiss edirəm. Mirtəhməz ağaya rast gəldiyim gün problemlərim asanlıqla həll ounur.

Mirtəhməz ağanın oğlu Mirazad ağanı yaxşı tanıyıram. Mirazad ağanın apardığı məclislədə iştirak etmişəm və onun dərin bilikli olması ilə fəxr edirəm. Mirazad ağanın cavan olmasına baxmayaraq, onu el ağsaqqalı hesab edirəm. Ümumiyyətlə, Mirtəhməz ağanın ailəsinə böyük hörmətim var.

Allah onu eldən əskik eləməsin.

**Əgər sadə qəlbli olmaq istəyirsinizsə, kasıblarla bir yerdə əyləşin və onlarla bərabərləşin.**

## KƏRBƏLAYİ SEYİD MİRYUSİF AĞA

*Axtargilən sən, əhli- dilə sirrini söylə,*
*Hal-əhli tapıb zillət ilə gəzməyə dəyməz.*

***Kərbəlayi seyid Miryusif ağa***



Keçmiş zamanlarda Alar kəndi Incəkənd çayının adı ilə Incəkənd adlanırdı. Uzaq keçmişlərdə bura qışlaq olub. Insanların burda daha sıx məskunlaşması isə ötən əsrin əvvəllərində baş verib. "Alar" Şimali və Cənubi Azərbaycanda geniş yayılmış kənd adlarından biridir. Iranın ərazisində, o cümlədən Yardımlı rayonunda da Alar kəndi var.

Alar kəndində yaşayıb insanlara nur paylamış **Kərbəlayi seyid Miryusif ağanın** ulu babası Xorasanda doğulub, yaşayıb. Sonralar onlar Meşkin şəhərinin Ərcə kəndinə köçmüşlər. **Babası seyid Mirəziz ağa** burada ticarətlə məşğul olar, gözəl də bağ-bağat becərərdi.

Onun oğlu Kərbəlayi seyid Miryusif ağa da bağçılıqla məşğul olar, əlinin qabarı ilə becərdiyi bağının məhsulu ilə dolanardı. Hələ 14-19 yaşlarında 4 dəfə Kərbəla ziyarətində olmuşdu. Nəsillərinin 25 müştehidən imzası və möhürü ilə təsdiq olunmuş nəsil şəcərəsi ən əziz əmanət kimi qorunmuş, dövrümüzə qədər gəlib çatmışdır. Şəcərəni nəzərinizə çatdırırıq:

**Kərbəlayi seyid Miryusif Kərbəlayi seyid Mirfəttah oğlu**
**Kərbəlayi seyid Mirfəttah seyid Mirəziz oğlu**
**Seyid Mirəziz seyid Dədəcan oğlu**
**Seyid Dədəcan seyid Mirabdulla oğlu**
**Seyid Mirabdulla seyid Miribrahim oğlu**





**Seyid Miribrahim seyid Mirtahir oğlu**
**Seyid Mirtahir seyid Sədrəddin oğlu**
**Seyid Sədrəddin seyid Saleh oğlu**
**Seyid Saleh seyid Əli oğlu.**

**Seyid Əli ağa** Xorasanda doğulmuş və Imam Müseyi- Kazım ə.s.-nın nəslindəndir.

Seyid Mirəziz ağanın oğlu **Kərbəlayi seyid Mirfəttah ağa** atasının yolunu davam etdirərdi. Onun iki oğlu vardı: **Kərbəlayi seyid Mirağa, Kərbəlayi seyid Miryusif** və **qızı Mirzəhra.**

Kərbəlayi seyid Mirağa qardaşı ilə Cəlilabada köçüb və burada yaşayıb. Sonralar Kərbəla ziyarətinə gedəndə orada rəhmətə gedib.

O vaxtlar Şahsevənlər başqa seyidlərimiz kimi seyid Mirfəttah ağanın da ailəsini sıxışdırır, onları incidirdilər. Əvvəllər də onların Cəlilabad rayonu ilə get-gəlləri vardı. Ona görə də ağanın oğlu Kərbəlayi seyid Miryusif Irandakı hərc-mərclikdən, soyğunçuluq və quldurluqdan qurtarmaq üçün 1910-11-ci illərdə Cəlilabad rayonunun Xəlilabad kəndinə köçür. O, burada bir müddət yaşadıqdan sonra dostu Səfəralı kişinin dəvəti ilə Sərablı kəndinə köçür və burada **Gülxanımla** ailə həyatı qurur.

Artıq o, Şimali Azərbaycana köçəndə bilikli bir molla idi. Elə ona görə də Sovet hakimiyyəti illərində dəfələrlə təzyiqlərə məruz qalıb. Bir neçə dəfə komsomol və kommunist "fəalları" ağanı NKVD-yə çağırmışlar. Lakin xoş təsadüflər və xalq içərisində olan böyük nüfuzu Kərbəlayi seyid Miryusif ağanı gözlənilən bəlalardan qurtarmışdır. Kəndin xeyirxah adamları onu qorumuşlar.

Ağa kolxozda işləsə də, heç vaxt şəriətdən ayrılmayıb. Hələ o vaxtlar evinin qarşısındakı - Əlli ev məhəlləsində məscid tikdirmişdi.

Seyid Miryusif ağa dövrünün son dərəcə savadlı, kəskin nəfəsli seyidlərindən idi.

Kərbəlayi seyid Miryusif ağa ilk təhsilini mədrəsədə al-

mışdı. Ona görə də ərəb və fars dillərini sərbəst bilir, fars dilində şerlər də yazardı.

Ağa "Quran"ın hafizi idi. Heç bir molla onunla mübahisəyə girişməzdi. Dövrünün məşhur din xadimləri Şeyx Əsədulla və Şeyx Qüdrətlə dostluq edərdi.

**Tədqiqatçı Zaman Əsgərli yazır:** "Seyid Miryusifdə Raci təravəti hiss olunur. Raci, Qumri, Dəxil kimi görkəmli mərsiyyə şairləri ilə yanaşı, onun da adı geniş oxucu kütləsinə yaxşı tanışdır".

Kərbəlayi seyid Miryusif ağanın yüzlərlə şeri, imam Hüseyn (ə.s) təziyyəsi ilə əlaqədar 10 rövzədən ibarət əlyazması qiymətli xəzinədir.

### Imam Hüseyn (ə)ın Həzrət Abbasın üzərində dediyi nöhə

Qızıl qaninə qəltan, vay Əbəlfəzl, can Əbəlfəzl!
Olan xakilə yeksan, vay Əbəlfəzl, can Əbəlfəzl!

Əxi, ya nuri eyni ya şəqiqi,
Fəla qəd kuntə kər-ruknil vəsiqi,
Məni bu dərdi-hicranın əmiqi,
Edibdir ğərqi- əlan, vay Əbəlfəzl, can Əbəlfəzl!

Nədir yüz döndəribsən bu əxadən,
Gözün aç, küsmə Şahi- Kərbəladən.
Mən indi istərəm rahi- vəfadən,
Bu cismi qanə əlavan, vay Əbəlfəzl, can Əbəlfəzl!

Yolun gözlər əxi mahi- Mədinə,
Çıxar nalə səsi ərşü-bərinə,
Bu düşmüş qolların görsə Səkinə,
Ələm- qan əllərin, vay Əbəlfəzl, can Əbəlfəzl!





O gözləri sağlığında çox yatardı,
Dəxi yatmaz, səni Tanrı itirdi.
Bu gün düşmənlərim kamın götürdü,
Olub halım pərişan, vay Əbəlfəzl, can Əbəlfəzl!

Vurublar cismüvə əzbəs ki, yarə,
Necə yarə olubdur parə-parə.
Salıb Gülsümü Zeynəb başə qarə,
Hərəmlər didə giryan, vay Əbəlfəzl, can Əbəlfəzl!

Fərağın çox çətindir qardaşuva,
Olum qurban o qanlı göz yaşıva,
Əmüd ilə vurubdur kim başıva,
Kim eylib cismun əl-qan, vay Əbəlfəzl, can Əbəlfəzl!

Basıbdır aləmi dərdi- məlalun,
Qalıbdır torpaq üstə gül cəmalun,
Aparram xeyməyə aya xəyalun?
Olaq ta sinə suzan, vay Əbəlfəzl, can Əbəlfəzl!

Görkəmli din xadimi Kərbəlayi seyid Miryusif ağa 1975-ci il mart ayının 3-də dünyasını dəyişib.

Allah rəhmət eləsin.

Nurlu ağamızın 4 övladı olub: **seyid Mirhüseyn, seyid Mirağa, seyid Mirəhməd və qızı Amənə.**

**Seyid Mirhüseyn ağa** 1928-ci ildə Alarda anadan olub. O, Mexanizasiya Texnikumunu bitirərək, rayonun MTS-də baş mexanik vəzifəsində çalışıb. 1991-ci il yanvar ayının 10-da haqq dünyasına qovuşub.

Qəbri kənd qəbirstanlığındadır, nurla dolsun.

Kənd camaatı, o cümlədən **Hacı Ilqar Əjdər oğlu** ilə birlikdə **Hafiz Əliyev, Hacı Qurban Əliyev, Sudeyf Əliyev** və başqa el oğulları bu qəbrin üstündə kümbəz ucaltmışlar.

Seyid Mirhüseyn ağanın 8 qızı, 1 oğlu var:



**Hacı seyid Mirfəttah ağa** 1951-ci ildə Alarda dünyaya gəlmişdir. Bakı Kooperativ Texnikumunu, Moskva Kooperativ Institutunu bitirmişdir. Uzun illər "Azərittifaq" sistemində çalışıb. 1997-ci ildə Məşhəd, Kərbəla, 2000-ci ildə isə Məkkə ziyarətində olub.

Dərin biliyə malik olan bu insan daim anılıb-sanılıb, xalq tərəfindən təqvalı bir ağa kimi tanınıb.

**Hacı seyid Mirfəttah ağanın övladları seyid Mirkamal, Məşədi seyid Mirmehdi** (2000-ci ildə Məşhəd ziyarətində olub, həm də Əl-Əzhər Universitetinin tələbəsidir), **seyid Miraziz, Dilarə və Ülkər.**

**Kərbəlayi seyid Mirağa Kərbəlayi seyid Miryusif oğlu** 1938-ci ildə anadan olub. O da atası kimi din xadimi idi. 1997-ci ildə Kərbəla ziyarətində olmuşdur.

Kərbəlayi seyid Mirağanın övladları: **seyid Mirsaleh, seyid Mirqəni** və 8 qız övladı.

**Kərbəlayi seyid Mirəhməd Kərbəlayi seyid Miryusif oğlu** 1939-cu ildə dunyaya göz açıb. 1997-ci ildə Kərbəla ziyarətində olub. **Kərbəlayi Məşədi seyid Mirkərim, seyid Mirhəmid, seyid Mirsəid** adlı oğlanları və iki qız övladı var.

Bu nəslin nümayəndələri öz imanlarını heç nəyə dəyişmirlər. Çünki onların ulu nəsli bineyi- qədimdən bu cür tərbiyə olunub.

Bir neçə əsrdir ki, müsəlman ölkələrindən yollar müqəddəs Kəbəyə, Kərbəlaya, Məşhəd və Məkkəyə uzanır. Milyonlarla adam bu yerləri ziyarət edib, mənəvi rahatlıq tapırlar.

Çox şükürlər ki, son illər respublikamızdakı müqəddəs ziyarətgahlar bərpa olunduqdan sonra xalqımız da imana qayıdıb.

Bu isə Kərbəlayi seyid Miryusif ağa, onun nəsil yaşadıcıları Hacı seyid Mirfəttah ağa kimi müqəddəs seyidlərimizin hesabına mümkün olmuşdur.





## SEYİD RƏCƏBƏLİ SEYİD BAYRAMƏLİ OĞLU



Imam Zeynalabidin əleyhissəlam buyururdu ki, möminlər imam üçün ağlayaraq gözlərindən yaş axıtsalar, Haqq-təala behiştdə onlara saraylar bəxş edər. Hər hansı bir möminə bizim vilayət və məhəbbətimiz üzündən əzab-əziyyət yetişsə və müsibətlərin yanğısından gözlərindən yaş axıb üzünə tökülsə, Haqq-təala onun üzərindən hər bir əzab-əziyyəti götürər, onu qiyamət günündə öz qəzəbindən və cəhənnəm odundan əmin-amanda saxlayar.

Kazim- qəzəbinin qarşısını alan deməkdir və imam Museyi Kazımın təxəllüsüdür. O Həzrət düşmənlərin əlindən çox əzab çəksə də, bu əzablara görə onlara qarğış etməzdi. Hətta Həzrəti uzun müddət həbsdə saxlasalar da, ondan qəzəbli bir kəlmə belə eşitmədilər.

Imam Abbasilər xəlifəsi Mənsurun, sonra Harun Ər-Rəşidin Xəlifəlik dövründə yaşamışdır.

Xəlifə Harunun tapşırığı ilə Museyi-Kazım (ə) zindana salınır. Zindanda Sənd bin Şahiq adlı bir şəxs tərəfindən hicri-qəməri tarixi ilə 183-cü il, rəcəb ayının 25-də şəhid edilir.

Bundan sonra səkkizinci imam Rza (ə) imamət səltənətini davam etdirir. Həmin dövrdə xəlifə Məmun idi. Məmun 200-cü ildə imamı riyakarlıqla Iranın Xorasan vilayətinə dəvət edir və hicri-qəməri ilə 203-cü ildə imam Rza (ə) şəhid edilir.

Cəlilabad rayonunun Günəşli kəndində yaşamış seyid Rəcəbəlinin şəcərəsi Imam Museyi Kazım (ə)-ın qardaşı **seyid Piridən** başlayır.

Imam Rza Xorasana köçürülərkən seyid Piri də köçür. Bir müddət Xorasanda yaşayan seyid Piri xəlifənin imam övladlarına qarşı işgəncə və zülmlərinə dözməyərək Iranın Meşkin şəhərinə hicrət edir.

Şərəcədə olan yazıda o vaxt seyid Pirinin ünvanı belə göstərilir: **Iran, Sasani dövləti, Meşkin şəhəri, Piran məhəlləsi, Rizvar-2.**

Digər ehtimala görə isə VII əsrin sonu, VIII əsrin əvvəllərində, Həccac ibn Yusifin xəlifəlik dövründə imam övladlarına- seyidlərə qarşı qəddarlıq çox güclənir. Seyidləri öldürür, şəhid edirdilər. Ona görə də seyidlər iman və əqidələrini qoruyub saxlamaq üçün müxtəlif ölkələrə, xüsusən də Iran ərazisinə, oradan da Azərbaycana köçürdülər. Seyid Piri və onun oğlu bu nəslin davamçısı, elm və hikmət sahibi **seyid Süleyman** Iranın Meşkin şəhərində yaşamış, Fəxrəba kəndində dəfn olunmuşlar.

Indi seyid Süleymanın oradakı müqəddəs məzarı böyük ziyarətgahdır.

Oğlu **seyid Mirbayraməli, seyid Mirşahmənzər, seyid Mirzəşah, seyid Mirəvəz, seyid Mirtahir, seyid Mircəfər** də Iranda yaşamışlar.

Lakin seyid Mircəfərin oğlu seyid Mirbayraməli Azərbaycanda islamın nisbətən zəif olduğunu və burada dini təbliğata ehtiyac olduğunu görüb ölkənin cənub zonasına- indiki Lerik rayonuna köçür. Orada müqəddəs dinimizi təbliğ edən seyid ailəsi həm də heyvandarlıqla məşğul olur. Nəhayət, bu ulu seyid nəsli uzun müddət yaylaq-qışlaq etdikləri Cəlilabad rayonuna köçür.

Seyid Mirbayraməli ağanın oğlu **seyid Rəcəbəli** atasının vəfatından sonra xalq tərəfindən dini rəhbər seçilir. Az bir zaman ərzində öz kəraməti, səxavəti, elm və təqvası ilə böyük nüfuz qazanır. Yaşadığı dövrdə göstərdiyi kəramətlər bu gün də yaddaşlarda, xatirələrdədir.

Ağa heç bir ustad yanında dərs almadığı halda Qurani- Kərimi gözəl və bəlağətlə tilavət edərdi. Onu ahıl vaxtı görənlər seyid Rəcəbəli ağa haqqında çox hikmətli fikirlər söyləyirlər. Danışırlar ki, ağanın yaşadığı yerdə camaata zülm edən, otlaq sahələrini özəlləşdirib mal-qaranı otlamağa qoymayan bir şəxs var imiş. Ağa ona Allahı yada salıb zülmkar olmamağı tövsiyyə edir. O isə qışqıraraq:





-Səni də onlara qatacağam,- deyib ağaya qamçı qaldırır. Sonra sürətlə atını sürməyə başlayır. Amma heç 500-600 metr getməmiş bütün bədəni quruyur və atdan yerə yıxılır. Bir müddət müalicə olunsa da faydası olmur. Son nəfəsi olduğunu, ağaya qarşı kobudluq etdiyini başa düşüb qırıq-qırıq səslə:

-Məni seyid Rəcəbəli ağanın yanına aparın, günahlarımı bağışlasın,- deyir.

Onu ağanın yanına gətirərkən yolda dünyasını dəyişir. Bu hadisədən xəbər tutan ağa onun dəfnində iştirak edir, onun günahından keçir.

...Bir gün ağa qohum-əqraba, qonşularla birlikdə əyləşib söhbət edirmiş. Birdən ağa sözünü kəsib:

Ya Allah, özün kömək ol,- deyir. Ağanın rəngi dəyişir, çox halsız bir vəziyyətə düşür.

Bir azdan: Şükür olsun Allaha, salamat qurtardı,- deyəndə, ətrafdakılar nə baş verdiyini soruşurlar.

Ağa da cavab verir ki, dağda bir nəfər yıxılıb ölüm ayağında bizim cəddimizi köməyə çağırırdı. Mən də dua etdim, Allah-təala qəbul elədi və o xilas oldu.

Ən maraqlısı isə ağanın sanki heyvanların dilini bilməsi idi. Dəfələrlə zəhərli ilanları görəndə əsası ilə xətt çəkər, onlara: "Bu tərəfə keçmə",- deyərmiş.

Ilan onu başa düşürmüş kimi o xətt çəkdiyi istiqamətdə çıxıb gedərmiş.

Seyid Rəcəbəli ağa Cəlilabadın Hamarqışlar kəndində, ən uca zirvədə dəfn olunmuşdur.

Allah rəhmət eləsin.

Ağanın vəfatından sonra övladları **seyid Cəbrayıl,** onun oğlu **seyid Israfil** yolunu davam etdirmişlər.

Ağanın övladları sonralar Cəlilabadın Pokrovka, indiki Günəşli kəndinə köçmüşlər. Öz ata-babalarının yolunu ləyaqətlə davam etdirən övladları da əqidələrini, təqvalarını möhkəm saxlamış və seyid ocağının kəramətini itirməmişlər.

1943-cü ildə ağanın nəvəsi seyid Israfil Böyük Vətən müharibəsində almanlara əsir düşür və 1948-ci ildə əsirlikdən qurtulub vətənə qayıdır. Bir il sonra isə onu həmin dövrün qa-

nunlarına görə sürgünə-uzaq Sibirə göndərirlər. Bütün çətinliklərə şərəflə sinə gərən seyid Israfil ağa dini fəaliyyətindən də qalmır və Sibirdə elm oxumağa başlayır.

O vaxt isə ağanın bir qızı, iki oğlu vardı. **Hamayıl, Mirsavad** və **Mirixtiyar**. Çətinliklə övladlarını böyüdən həyat yoldaşı Ərkinaz xanım dəfələrlə neftsiz lampanın yandığının şahidi olub. Həyətdə şam kimi alovun yandığını, həyətin işıqlandığını görəndə camaat başa düşüb ki, bu seyid balalarını Allah-təala özü qoruyur. Həmin vaxtlar dövlət məmurları bura ciddi nəzarət etsələr də, özləri də qorxu hissi keçirərdilər.

Sürgündən həyat yoldaşına, balalarına məktub göndərən seyid Israfil ağa yazırdı ki, seyidlik şərəfimizi qoruyub saxlayın. Möcüzələrdən qorxmayın.

Seyid Mirisrafil ağa yurdunda qalan oğulları atalarının vəsiyyətinə şərəflə əməl etdilər. Onlar el-obanın layiqli, nurlu seyidləridirlər.



**Seyid Mirsavadın Mirxalis** adlı bir oğlu və iki qızı;

Ata yurdunda oturan camaatın nurlu ağsaqqalı seyid Mirixtiyarın isə **Mirniyaz, Mirsalman, Mirəjdər, Mirfüzuli** və **Mirpaşa** adlı oğlanları var.

**Məşədi seyid Mirpaşa** (2001-ci ildə Məşhəd ziyarətində olub) Bakı Islam Universitetinin məzunudur. Təhsilini təkmilləşdirmək məqsədilə bir il də Misirdə- Əl Əzhar Universitetində oxuyub. Hal-hazırda Binəqədi dini icmasının sədridir.

... Haqq dünyasına qovuşmasından uzun bir müddət keçsə də Cəlilabad camaatı seyid Rəcəbəli ağaya həmişə "Quran"oxutdurur, bir çətinlikləri olanda onun cəddini köməyə çağırırlar.

Ruhu şad olsun.





## SEYID MIRTƏHMƏZ MƏŞƏDI SEYID MIRI OĞLU



Həyatının mənasını insanlara elm öyrətməkdə, sülh yaratmaqda keçirmiş, yüz ildən artıq bir zaman keçsə də, söz-söhbəti bu gün də el-obanın xatirindən silinməmiş seyid Mirtəhməz ağa halallıq, mərhəmət, səxavət sahibi idi.

XIX əsrin axırlarında Nəcəfdə, Ərbədildə ali ruhani təhsil almış seyid Mirtəhməz ağa Lənkəran bölgəsinə qazi təyin edilir. Sonralar Cəlilabad rayonuna köçən ağa Mirtəhməzli kəndinin əsasını qoyur. Oğlanları böyüdükdən sonra hərəsi bir tərəfə düşür. **Böyük oğlu Mirnağı** Lənkəranda yaşayıb. Onun oğlu **Mirtağı** isə Böyük bazarın yanındakı məsciddə axund işləyib. Elə müqəddəs şərifi- məzarı da buradadır.

Mirtəhməz ağanın **ikinci oğlu Ağa Mirbağır ağa** Salyanda yaşayıb.

**Hacı Mirəbülhüseyn** isə Hasıllıya köçüb. O vaxtlar Hasıllı böyük ticarət mərkəzi idi. Ağa burada böyük vəzifə daşıyırdı. Çox kəramətli, dərin savadlı din xadimi idi. Hasıllı ticarət üçün əlverişli olmadığına görə seyid Mirməhəmməd ağa ilə razılaşıb bazarı Cəlilabada köçürdülər. Hacı Mirəbülhüseyn ağa Hasıllıda rəhmətə gedib və orada yerli əhalinin yaxşı tanıdığı armud ağacının altında dəfn edilib. Seyid Mirrəhim ağa da dövrünün tanınmış ağsaqqallarından, nurlu seyidlərindən olub. Tikəsinə heç vaxt haram qatmazdı. **Övladları Məşədi Miri, Mirsəftər** idi.

**Məşədi seyid Miri** (1900-1958) çox varlı-hallı ağa olub. Məşhədə gedəndə özü ilə çoxlu adam aparar, xərcini də özü çəkərdi. Ziyarətə həyat yoldaşı **Zeynəbi** də aparmışdı. Məşhəddə Allahdan oğul payı diləmişdi. Allah-təala da ona çoxlu oğul-uşaq bəxş eləmişdi.

Şeyx Qüdrətdən mükəmməl dini təhsil almışdı. Taleyi elə gətirmişdi ki, ağa yenidən ailə həyatı qurmuşdu. O biri nigahlardan **Mirkamal, Mirtəhməz, Mircamal, Mirilyas** dünyaya gəlmişdilər.

Məşədi seyid Miri çox çörəkli insan idi. Həmişə də qonaqlı-qaralı olardı. Evində yatmağa yorğan-döşək çatmazdı. Yetim-yesirə, kasıb-kusuba əl tutardı. Yüksək əxlaqı, ədəbi, davranışı ilə seçilirdi.

Bir gün Məşədi seyid Mirigilə Kərbəlayi Mirhəmzə adlı bir kişi gəlir. Deyir ki, ağa, çörəyinin səsi-sorağı aləmə yayılıb. Nə olar, bizə də bir gün ağla.

Məşədi Miri ağa ona iki otaq ayırır, mal-qara verir.

Il dolanır, zaman dəyişir. Ağanın vaxtilə köməklik etdiyi Kərbəlayi Mirhəmzə kişi bir gün Perinbeldən qız götürüb qaçmış NKVD işçisi **Yaqub Quliyevə** barışıqda vasitəçilik edir, onunla dost olur.

O vaxtlar Y. Quliyev rayonda işləyirdi. Kənddə bir rus əlili dördçarxlı araba ilə gəzər, bir rus qadını isə arabanı dartardı. Bir gün Y. Quliyev kəndə gedirmiş. Görür ki, guya əlil olan o kişi ilə qız çayda çimirlər. Xəritələri, aparatları isə çayın qırağındadır. O başa düşür ki, çoxdandır özünü əlilliyə vuran bu adam və rus qadını casusdurlar. Onların hər ikisini həbs edib dövlətə təhvil verir. Bu igidliyinə görə Y. Quliyevi irəli çəkir, ona mühüm vəzifə verirlər.

Məşədi seyid Miri ağa öz qızını Kərbəlayi Mirhəmzəyə ərə verir. Kərbəlayi Mirhəmzə sonralar Ağdaşa köçür. Hal-hazırda oğlu **Mirhəmid** orada yaşayır.

1946-cı ildə varlı-hallı seyid olduğuna görə Məşədi seyid Miri ağanı qardaşı seyid Mirsəftərlə həbs edirlər. Onun azad edilməsində Kərbəlayi Mirhəmzə böyük rol oynayır. 80 dəfə Bakıya gedib-gəlir. Vaxtilə yaxşılıq etdiyi Y. Quliyevin vasitəçiliyi ilə işi düzüb-qoşur, pulla, rüşvətlə onu zindandan azad etdirir.

Ağanı bir "sudabeker"lə kəndə yola salırlar. Məşədi seyid Miri ağa türmədən çıxanda bütün el-oba, ətraf rayonlardan insanlar gözaydınlığına gəlmişdilər. Hasıllıdan nurlu Mirməhəmməd ağa da bir erkək toğlu götürüb ona dəyməyə gəlmişdi.





Məşədi seyid Miri ağanın oğlu **seyid Mirtəhməz ağa** da ata-babasına layiq seyidlərdəndir. Ömrünün 75-ci baharını yaşayır, amma, maşallah, heç cavan oğlanlardan seçilmir.

Seyid Mirtəhməz ağa ilk təhsilini atasından alıb.

Salyanda texnikumu, sonra Gəncə Kənd Təsərrüfatı Institutunu bitirib. Uzun müddət kolxozda çalışıb, baş aqronom vəzifəsinə qədər yüksəlib. Həmişə el-obaya əl yetirib, işlədiyi müddətdə halallığını, paklığını qoruyub saxlaya bilib.

Qurani-Kərimdə yazılıb: "Allah-təala bütün bəndələrinə mərhəmətlidir, yazığı gəlir, lakin layiqliləri mükafatlandırır".

Seyid Mirtəhməz ağanın qazandığı hörmət, el-obanın rəğbəti narahat günlərinin, çəkdiyi əziyyətlərin, halal zəhmətin bəhrəsidir. Ağa çətinliklərə baxmayaraq, heç vaxt əlini Allahın ətəyindən üzən deyil. Halal zəhməti hesabına gördüyü işlərlə özünü xoşbəxt sayır və görür ki, onun əməyinin bəhrəsi qayıdır. Balaları **seyid Mirmehdi, seyid Mirhadı** (o, Qarabağ müharibəsi veteranıdır - red.), **seyid Mircavad, seyid Mirəşrəf** (Masallıda, Cəlilabadda dini təhsil alıb, savadlı gənc din xadimlərimizdəndir), **Zeynəb, Turac, Məleykə, Xavər, Xəyalə, Yaqut** və nəvələri öz ata-babasının yoluyla gedir, öz zəhmətləri, halallıqları ilə el gözündə ucalıblar.

Allah köməkləri olsun!

**Hacı Ibrahim, Xəlilli kənd ağsaqqalı:**

-Seyid Mirtəhməz ağanın evi həmişə qonaq-qaralıdır, süfrəsi çörəklidir. O, öz qədəmlərini hara qoyursa, oradan xeyirbərəkət əskik olmur.

Seyid Mirtəhməz ağa ömrü boyu Allah-təalanın yolunu tutub, gözəl əxlaqa, şəriət qaydalarına dürüst əməl etməsilə seçilib, islamın, peyğəmbər (s)-in buyruqlarını yerinə yetirib.

Mən seyid Mirtəhməz ağanın özünü, atası Məşədi seyid Mirini çoxdan tanıyıram. Ağanın cəddinin şəfaverici qüvvəsinin şahidi olmuşam. Uzaq səfərlərə gedəndə, müşkülə düşəndə, xəstələndiyim vaxtlarda ağanın cəddini köməyə çağırıram. Nəticədə işim avanda düşür, salamatlıq və gümrahlıq məndən və ailəmdən gen düşmür.

Seyid Mirtəhməz ağa çox mehriban, xoşxasiyyət, səmimi insandır. O, rayonun bütün xeyir-şərində yaxından iştirak edir, xeyirxahlığı ilə fərqlənir.

Xeyirxahlıq, elin gərəyi olmaq həmişə qədirbilən xalqımız tərəfindən layiqli qiymətini almış, yaddaşlardan silinməmişdir.

Seyid Mirtəhməz ağanın atası Məşədi seyid Miri çox təqvalı, kəramətli, fəqir və xeyirxah bir adam idi. Babası da əsl imam-peyğəmbər övladı olub.

Allah o dünyalarını versin. Seyid Mitrtəhməz ağanın nəfəsini, ağsaqqallığını camaatdan əskik eləməsin.

**Hacı Əfqan, axund:**

-Elimiz, obamız isti qucağını daim sevimli peyğəmbərimizin (s) övladlarına açmışdır. Onların torpaqlarımızda çoxlu ocaqları miras qalmışdır. Qədirbilən xalqımız seyidlərin, övliyaların məzarlarını ziyarət yerinə çevirmişdir.

Seyid Mirtəhməz ağa da nurlu, kəramətli seyidlərimizdəndir. Onun atası Məşədi seyid Miri ağadan söz düşəndə hamı onu hörmətlə yad edir, haqqında xoş sözlər deyir, ruhuna salavat çevirir. Bir torpaqda, eldə yaşadığımıza görə Allah-təala ağanın sahibi olduğu cəddinin şəfqət və kəramətindən hamımıza xeyir-bərəkət, əmin-amanlıq, firavanlıq, xoşbəxtlik əta edir. Allahdan dilərdim ki, ocaqlara xatir torpaqlarımıza, xalqımıza bir daha yaman gün göstərməsin.

Məhəmməd peyğəmbər (s) buyurmuşdur: "Dua-möminin silahı və dinin sütunudur". Ibadətlərin ən yaxşısı və yer üzərində əməllərin ən sevimlisi - Allahın dərgahına edilən duadır.

Allahdan diləyirəm ki, ağalarımızın cəddi cənabi peyğəmbər xatirinə hamının karına gəlsin! Qoy bu kəramət elimizin, obamızın çiçəklənən bir diyara çevrilməsinə təkan versin.

Inanıram ki, ağamızın pak cəddi həmişə bizə yardımçı olacaq, onun kəraməti kürreyi-ərzi xeyirxahlıq nuruna qərq edəcəkdir.

Allah-təala ağamıza can sağlığı və uzun ömür versin, cəddinin şəfqəti üstümüzdən əskik olmasın.

Amin!



# ƏLİ-BAYRAMLI











# ŞEYX HACI ƏLIZADƏ ŞEYX ŞIXZADƏ OĞLU



Respublikamızın bir çox bölgələrində Şıx adı ilə tanınmış möcüzəli şeyxlərimiz öz kəraməti, nəfəsi, şəfavericiliyi ilə xalq arasında çoxdan tanınmışlar. Belə müqəddəs Şıx ocaqları ilə tanınmış bölgələrimizdən biri də Əli-Bayramlı rayonudur. **Hacı Əlizadə Şıxzadə oğlu** da bu bölgədəndir.

Hacı Əlizadə 1937-ci il mart ayının 10-da Minbaşı kəndində anadan olmuşdur. Onun **ulu babası Gülalı kişi Əli-Bayramlının** əsasını qoyanlardandır. Hacı Əlizadə də babalarının xeyirxahlıq yolunu ləyaqətlə davam etdirir.

Hacının həyatı heç də rəvan keçməmişdir. Hələ uşaq yaşlarında **anası Kətan** dünyasını dəyişmişdir.

Hacı Əlizadə orta məktəbi, sonralar isə sürücülük məktəbini bitirdikdən sonra öz peşəsi üzrə işləmişdir. Işləyə-işləyə qiyabi olaraq Bakı Politexnik Texnikumunu bitirmişdir. Xeyli müddət Əli-Bayramlı Pambıqtəmizləmə zavodunda mexanik kimi fəaliyyət göstərmişdir. Işinin ağırlığına baxmayaraq, Hacı oxumaq, savadını artırmaq üçün gecə-gündüz çalışırdı. Nəhayət o Krasnodar Politexnik Institutunun Bakı filialına daxil oldu. Amma tezliklə bu institutun filialı ləğv edildiyindən Azərbaycan Xalq Təsərrüfatı Institutuna dəyişildi. O, burada ali təhsilini başa vuraraq iqtisadçı- mühəndis ixtisasına yiyələnir. Ömrü boyu müxtəlif məsul işlərdə çalışıb, amma heç vaxt öz adına, nəslinə xələl gətirə biləcək cüzi hərəkətlərə belə yol verməyib. Həmişə elə-obaya kömək edib, əlindən gələni heç kimdən əsirgəməyib.







Nurlu Hacının 5 övladı var. O, iki oğul, üç qız atasıdır.

**Həyat yoldaşı Böyükxanım, oğlanları Əlisoltan və Əlizamin** də Məkkə ziyarətlərində, Hacı isə Məşhəd, Kərbəla, həm də Məkkə ziyarətində olub.

Onu da qeyd edək ki, Hacı Əlizadə Əli-Bayramlıdan müqəddəs Məkkə ziyarətinə gedən ilk hacılardandır.

Hacı Əlizadə uzun müddət bir çox dövlət işlərində çalışmışdır. 1993-cü ilin iyun ayından 1995-ci ilin sentyabrına qədər Əli-Bayramlı Şəhər Icra Hakimiyyətinin başçısı vəzifəsində işləmişdir. Harada işləməsindən asılı olmayaraq o, öz işini layiqincə yerinə yetirmiş, insaflı, zəhmətkeş rəhbər işçilərdən olmuşdur. Öz işindən uzaqlaşanda bütün onu tanıyanlar deyirdilər ki, Hacı bizim süfrəmizin bərəkəti idi. O, işindən uzaqlaşsa da onu tanıyanların qəlbindən çıxmayıb, hər zaman onun xeyirxahlığından danışır və yenə də ondan yararlanırlar.

Hacı rayonda bir çox xeyirxah təşəbbüslərin, işlərin səbəbkarı, təşkilatçısıdır. O öz adına layiq əməllərlə camaatın dərin hörmət və ehtiramını qazanmışdır. Ömrü boyu kasıb-kusaba, yetim-yesirə, imkansızlara, qocalara əl tutmuş, onların xeyir-duası, alqışı ilə yaşamışdır.

**Oğlu Hacı Əlisoltan** 1984-cü ildə Əli-Bayramlı şəhərindəki 2 nömrəli orta məktəbi bitirərək, elə həmin il də Azərbaycan Xalq Təsərrüfatı Institutuna qəbul olunmuşdur. O, hər-

bi xidməti başa vurduqdan sonra Zaqafqaziya Hərbi Komandanlığının göndərişi ilə DIN-də işə götürülmüşdür. Hacı Əlisoltan 1997-ci ildə BDU-nun hüquq fakültəsini də bitirərək, ikinci ali təhsil almışdır. O da atası kimi xeyirxah əməllər sahibidir. Hacı Əli-Bayramlı rayonunda tanınmış xeyriyyəçi, dərin iman sahibi, kasıbların pasibanıdır.

Bu gün möhtərəm Hacı Əlizadə yüksək vəzifələrdə işləməsə də, yenə el-obanın nüfuzlu, hörmətli ziyalılarından, ilahi vergili şeyxlərindəndir.

Tanrı onun pak nəfəsini xalqımızın üzərindən əskik eləməsin!

**Şöhrətpərəst qoca, zülmkar varlı, qırsaqqız dilənçi və təkəbbürlü kasıb-Allahın düşmənləridir.**





## SEYİD MİRABBAS AĞA



Əli-Bayramlı rayonunun sayı az, sanbalı çox, dağdan qopan qaya kimi həmişə yeri görünən görkəmli din xadimlərindən biri də **seyid Mirabbas ağadır**. Bu gün onun ömrü şirin xatirəyə dönüb.

Bu şəhərdə həmişə ağır seyidliyi, xeyir-şər məclislərinin yaraşığı olması ilə seçilən Mirabbas ağa əslən Sabirabad rayonunun Ətcələr kəndindəndir. O, 1925-ci ildə anadan olub. 1960-cı ildən etibarən ailəsi ilə birgə Əli-Bayramlı şəhərinə köçüb, bu şəhərdə əbədi məskunlaşıb.

Söylənilənlərə görə **Mirabbas ağanın atası seyid Abbas ağa** isə Şamaxı rayonundan Sabirabada gəlibmiş. Tarixi fərziyyələrə görə, bu nəslin soy-kökü imam Cəfəri Sadiqə bağlanır.

Seyid Abbas ağanın beş övladı olub: **Seyid Mirəsgər** (Böyük Vətən müharibəsində itkin düşüb), **seyid Əli, seyid Mirabbas, seyid Miryusif, Bəyim xanım.**

65 illik mənalı və şərəfli bir həyat yolu keçən seyid Mirabbas ağa 1990-cı ildə dünyasını dəyişmişdir. Bu müqəddəs insanın ölümü də çox möcüzəli olmuşdur.

Ömrünün sona yetdiyini hiss edən ağa övladlarına bildirir ki, ürəyi Kür çayının balığını istəyir. Həmin gün çaydan balıq tutub gətirirlər, ailəsi ilə birgə yeyir. Sonra Mirabbas ağa övladlarına öz nəsihətlərini verib həmin gecə də əbədiyyətə qovuşur. Ağa Əli-Bayramlı şəhər qəbirstanlığında dəfn olunub.

Mirabbas ağa ağır seyidliyi ilə bərabər həm də zəhmətə bağlı bir şəxs, gözəl ailə başçısı idi.

Ağa müxtəlif vəzifələrdə can-başla çalışıb. Mühasib, sürücü, müəllim kimi layiqli peşələrin təmsilçisi olan ağa kollek-



tiv arasında öz dəyərli məsləhətləri, çalışqanlığı, ağsaqqallığı ilə seçilərdi.

Mirabbas **ağanın oğlu Hacı Mirsəməd** atasının müqəddəs yolunun davamçısıdır. O, **anası Hacı Badisəba xanımla** və qaynanası ilə Həcc ziyarətində olublar.

Ağanın digər övladı, sonbeşiyi olan **Miryaqub** atasının sevimli övladı olub. Miryaqub deyir ki, atam çox xeyirxah bir şəxsiyyət idi. Həmişə xalqın xeyir-şər işlərinin layiqli keçirilməsi üçün əlindən gələn köməkliyi əsirgəməzdi. Hətta Qazaxa, Ağstafaya qədər gedib xeyir-şər işlərində iştirak edərdi. Xalqa əl tutmaqdan özündə bir qürur hissi keçirərdi. Biz övladları ona ata yox, "Dadaş" deyə müraciət edərdik. Bu gün oğlum atam Mirabbasın adını daşıyır. Anam Hacı Badisəba da müqəddəs bir nəsildəndir. Ana babam özü Məhşədi və Kərbəlanı ziyarət edib.

**Mirabbas ağanın sürücü yoldaşı Hüseynqulu kişinin dedikləri:**

- Günlərin bir günü sürücü yoldaşlarımdan biri ilə sözüm çəp gəldi. Az qaldıq ki, əlbəyaxa olaq. Bunu görən Mirabbas ağa həmin gün addımbaaddım məni izlədi ki, birdən o sürücüyə qarşı əlimdən xəta çıxar.

Mirabbas ağa çox xeyirxah, rəhmdil bir insan idi. Hər bir kəsə öz imkanı daxilində köməklik edərdi. Ağanın evi, qapısı həmişə qonaqlı-qaralı olardı. Olduqca qonaqpərvər bir şəxs idi.

Allahdan Mirabbas ağaya rəhmət diləyir, övladlarına torpağı sanı ömür arzu edirəm.

**Mirabbas ağanın kürəkəni Islam Hüseynov:**

- Bu ocaq bütün əli-bayramlılar kimi, mənim də ən müqəddəs sandığım, inandığım ocaqdır. Paklığın, müqəddəsliyin





nümunəsidir bu ocaq. Bu ailə ilə tanışlığım 1950-ci ilə təsadüf edir. Tale elə gətirdi ki, mən də bu ailənin bir üzvü oldum. Ağa ilə möhkəm dost olmuşdum. Mirabbas ağa çox baməzə adam idi. Hamının könlünü almağı bacarırdı. Heç kəsin xətrinə dəyməzdi. Kim bir çətinə düşərdisə, o şəxsə öz ağıllı məsləhətlərini verərdi.

Allah-təala Mirabbas ağaya qəni-qəni rəhmət eləsin.

**Tahir Hacı Əhməd oğlu Hüseynov, şəhər sakini:**

- Insan öz rəhmətini sağlığında qazanır. Seyid Mirabbas ağa, seyid Əli ağa, Mürgüllər nənə, Hacı Gülalı baba kimi müqəddəslərimiz öz xeyirxah əməlləri ilə xalqın hörmətini qazanmışlar. Bu gün onların müqəddəs qəbirləri nəinki Əli- Bayramlı camaatının, eləcə də yaxın, uzaq ellərin ziyarətgahıdır. Allah onların hamısına rəhmət eləsin.

**Seyid Mirabbas ağanın ortancıl oğlu seyid Əli idi.**

Seyid Əli 1918-ci ildə Sabirabad rayon Ətcələr kəndində anadan olmuş, Böyük Vətən müharibəsində iştirak etmiş, qıç nahiyəsindən yaralanmış, hərbi xidmətdən tərxis edilmiş, ömrünün sonunadək doğma kəndində sovet sədri, kolxoz sədri vəzifələrində çalışmışdır. 1966-cı ildə ağa dünyasını dəyişmişdir.

Bir oğul övladı yadigar qalıb ağanın. Oğlu **Mirmövsüm ağa** bu gün də xalqın sayılıb-seçilən ağsaqqalarındandır. Xalq arasında xüsusi hörmət və izzət sahibidir.

Mirmövsüm ağanın 4 övladı var: **seyid Mirsəftər, seyid Abbas, seyid Mirəsgər, seyid Mirvəfa.**

Mirabbas ağa və seyid Əli ağanın adına ucalmış məqbərə Əli-Bayramlı camaatının and yerinə çevrilib.

**Məşədi Əvəz Mehrəliyev, Əli-Bayramlı şəhər məscidinin axundu:**

- Islam dininə etiqad hər birimizin müqəddəs borcudur. Dünənimizi bizə dönə-dönə xatırladan ocaqlarımız, pirlərimiz, sayılıb-seçilən inanılmış seyidlərimiz, görkəmli din xadimlərimiz həmişə düzlük, paklıq mücəssəməsi olmuşlar. Azərbay-

canımızın elə bir bölgəsi yoxdur ki, orada ocaq, pir, imam-peyğəmbər övladları olan din xadimlərimiz el-obaya müdriklik aşılamasınlar. Belə insanlar həmişə obanın and yerinə çevrilib. Mirabbas ağa, seyid Əli ağa, Mürgüllər nənə, Hacı Güllalı baba və digər müqəddəslərimiz xalq arasında böyük hörmət qazanıblar.

Allah onların hamısına rəhmət eləsin!

**Seyid Mirmövsüm seyid Əli oğlu:**

- Atam seyid Əli haqqında söz demək mənim üçün çox çətindir. Ona görə ki, o, mənim atamdır. Onun əməli-saleh işləri xalq arasında bəllidir. O həm də ailəcanlı bir insan idi. Həmişə bizə böyük-kiçiyin yerini bilməyi, təhsil almağı, vətənə, xalqa bağlılığı dönə-dönə tövsiyə edərdi. Digər rayonlardan da atamın yanına gələr, onun nurlu simasını görüb, onu ziyarət edərdilər. Atam həmişə hörməti saxlayan bir insan idi.

Allah cəmi rəhmətə gedənlərə rəhmət eləsin!

**Sizə üz verən hər bir uğursuzluq vaxtilə etdiyiniz əməllərin kaffarəsidir.**



# İMİŞLİ



Həzrət Əli ə.s.-nın kəlamlarından birində deyilir: **"Islamdan yüksək şərəf yoxdur".**

Təəssüflər olsun ki, biz uzun zaman öz kökümüzdən, dinimizdən, adət-ənənələrimizdən kənar düşmüşük.

Əsl həqiqətdə başımıza gələn bir sıra müsibətlərin əsas səbəblərindən biri də budur. Orası da tam həqiqətdir ki, Imişli camaatı tarixən dinə, Allaha, haqqa-ədalətə yaxın olub, haqqı nahaqqa verməyib. Lakin bununla birlikdə maraqlı, həm də acınacaqlıdır ki, son zamanlaradək rayonda böyük məscid olmamışdır. Xeyirxah, nəcib insan **Hacı Tofiq Isayevin** vəsaiti hesabına öz həyətində tikdirdiyi məscid isə tələbatı tam ödəmirdi. Ona görə də qərara alındı ki, şəhərin mərkəzində böyük məscid binasının tikintisinə başlansın.



Binanın tikintisinə 1991-ci ildə başlanıldı. Bu işdə **Məşədi Xanhüseyn Bəylərovun** böyük zəhməti olub. Lakin məlum hakimiyyət dəyişikliklərindən sonra məscidin tikintisi dayandırıldı və yalnız yarımçıq qalmış tikinti 1993-cü ildə sürətləndi və 1994-cü il iyulun 9-da onun təntənəli açılışı oldu.

On ikinci Iman adını daşıyan Vəliyyəsr məscidi XX əsrin ən böyük məscid tikintisidir. Onun ümumi ərazisi 0,6 hektar, binanın ümumi sahəsi 619 kvadratmetrdir. Hər birinin hündürlüyü 28 metr olan qoşa minarə, 16 metr hündürlükdə olan gümbəz məscidə xüsusi yaraşıq verir. Məscid üç salondan ibarətdir. Onun memarı mərhum **professor Hafiz Qəmbərovdur.** Füsunkar gözəlliyi, əzəmətli görünüşü ilə seçilən bu tarixi Allah evinin tikintisi əsl zəhmətin, əməyin və birliyin təntənəsi olub.







Məsciddə eyni vaxtda iki min nəfərin namaz qılması, ibadəti üçün şərait yaradılmışdır. Məscidin axundu nəcib insan, savadlı din xadimi **Hacı Adıgözəl Cəmil oğludur.**

Bundan başqa **Kərbəlayi Mireyyubun, Məşədi Elmanın** köməkliyi ilə Hüsniyyə məscidi də təzələnmişdir.

Bu yerdə dini-tarixi abidələrimizin inşasında, abadlaşdırılmasında müstəsna xidmətləri olan insanlardan ikisi - **Hacı Atakişi və qardaşı Məmi Atakişiyevlər** haqqında söhbət açsaq, bizcə yerinə düşər.

Nəinki Mil-Muğan, Qarabağ ellərinin, eləcə də respublika əhalisinin dərin hörmət bəslədiyi nurlu Hacı Atakişi və Məmi Atakişiyevləri tanımayan yoxdur. Hacının nəslinin hamısı öz mübarək adlarının qarşısına Hacı, Məşədi, Kərbəlayi müqəddəs adlarını əlavə ediblər. Onların ulu babaları **Hacı Kərbəlayi general Ismayıl bəy Səfəvi Nadir şahın** sultanı idi. Bu nəsil həmişə Quran himayəsində olub, evlərindən Allahu-Əkbər sədaları eşidilib. Bu ulu nəsli başqalarından seçən bir çox əlamətlər var. Nəslin 6-7 nümayəndəsinin alnında möhür yeri olub.

Hacı Atakişi 3 məscid tikdirib. Məmi isə kəndlərində tikdirdiyi məscidlə yanaşı, həm də şəhər məscidinin inşasına yaxından kömək göstərib.

Allah sizin xeyirxah əməllərinizi layiqincə qəbul etsin. Heç vaxt nəzərini üstünüzdən əskik etməsin.

## KƏRBƏLAYİ SEYİD MİRSALAH AĞA OCAĞI



Elm, kəramət sahibi, böyük bir nəslin davamçısı olan Kərbəlayi seyid Mirsalah ağanın balalarının, nəvələrinin məzarlarının üstündə insanların onlara hörmət və məhəbbəti ilə çiçəklənmiş müqəddəs məqbərələri hər bir rayon sakininin inam, ümid yeridir. Bu məqbərələr həmişə anılmış, nəzir-niyaz sahiblərinin, niyyət edənlərin müqəddəs ziyarətgahına çevrilmişdir.

Kərbəlayi seyid Mirsalah ağanın atası **seyid Eyvaz** adlı şəxs olub. Deyilənlərə və dövrümüzə gəlib çatan məlumatlara görə Kərbəlayi Mirsalah ağanın ulu babalarını, imam Cəfəri Sadiq ə.s.-nın törəmələrini bir neçə əsr bundan əvvəl Şah Abbas islamı təbliğ etmək, gücləndirmək məqsədilə Pakistandan Azərbaycana dəvət etmişdir. Bu nəslin görkəmli nümayəndələrindən olan seyid Eyvazın iki oğlu var idi:

**Seyid Mirsəlim və Kərbəlayi seyid Mirsalah.**

Seyid Mirsəlim ağa haqqında əlimizdə geniş məlumat yoxdur. Bircə o məlumdur ki, o, Qaraməryəmdə yaşayıb və orada da haqq dünyasına qovuşub.

Kərbəlayi Mirsalahın isə 2 övladı olub: **seyid Mirisa və Kərbəlayi seyid Sarı.**

Seyid Mirisa ağanın övladları **Miradəm, Vətən və Nəzmiyyədir.** Ağanın yolunu nəvəsi **Mirisa** davam etdirir.

Kərbəlayi seyid Sarı isə **seyid Mirqiyas, Nəsihət ağa, Fizzə, seyid Mirqoca, seyid Mirdamət** (seyid Mirdamət ağa rəhmətə gedib. El arasında ona "Pırı" deyə müraciət edərdilər-red), **seyid Mirkamal, Gülafərin** atası idi.

Kərbəlayi seyid Sarı ilahi vergili, kəskin nəfəsli imam-peyğəmbər övladı olub.







Bir gün ağanın atları İran tərəfə keçir. O yerlərin qaçaqquldurları ağanın atlarını qaytarmaq istəmirlər. Ağa çox sifariş eləsə də atları vermirlər. Belə olduqda ağa qəzəblənir. Aradan bir xeyli vaxt keçmiş həmin kənddə xəstəlik yayılır. Səhv etdiklərini başa düşən oğrular ağanın atlarını özünə qaytarır, kəndin ağsaqqallarını nəzir-niyazla ağaya minnətçi göndərirlər. Ağa da onları bağışlayır.

Kərbəlayi seyid Mirsalah ağa Qaraməryəm qəsəbəsindən İmişli rayonuna gəlmiş, bu torpaqda dərin hörmət qazanmış, xalqa ağsaqqallıq etmiş, hörmətli, mərhəmətli peyğəmbər övladı kimi tanınmış, el arasında tükənməz ehtiram sahibi olmuşdur. Bu nurlu ocağa pənah gətirən hər bir şəxs şəfa tapar.

Bu müqəddəslər həmişə elinə, obasına arxa olub. Dara düşəni dardan qurtarmaq, xəstələrin dərdinə əlac etmək üçün əllərindən gələni əsirgəməyiblər.

Sovet hakimiyyətindən əvvəl Qaradonluda yaşayan Kərbəlayi seyid Mirsalah ağa xalq arasında imam övladı kimi böyük nüfuza, hörmətə malik idi.

Ağa xalq arasında ağıllı, uzaqgörən məsləhətləri və öz cəddi xatirinə göstərdikləri kəramətləri ilə and yeri, kömək yeri olmuşdur.

Kərbəlayi Mirsalah ağanın yaşadığı yer Araz çayı ətrafında idi. O vaxt dəliqanlı Araz daşaraq sağ və sol sahilləri basardı. Onun nəvəsi Mirqiyas ağa söyləyirdi ki, bir dəfə Araz çox daşdı və az qalırdı ki, kəndi yuyub aparsın. Kərbəlayi Mirsalah babam suyun qarşısına çıxdı, ey Allahın suyu, Allahın köməyi ilə çəkil get, - dedi.

Eləcə də su çəkilib getmişdi.

**Əziz Xuduş oğlu Məmmədovun dediklərindən:**

-Eşitdiyimə görə o vaxtlar kəndimizdən rəhmətə gedən

olanda min bir əzab-əziyyətlə aparıb qonşu Göbəktala kəndində dəfn edərdilər. Şura hökuməti təzə gələndə ağa bütün uşaqlarını başına yığıb vəsiyyətini edir. Bir də onu deyir ki, təzə hökümət gəlməmişdən mən dünyamı dəyişib Allah dərgahına gedəcəyəm. Mənim qəbrimi göstərdiyim yerdə qazarsınız.

Deyirlər ki, ağa, axı dediyin yer Arazın yuyub dağıtdığı ərazidir. Sonra necə olar?

Ağa inamla: Inşallah Araz öz məcrasını dəyişər,- deyir.

Belə də olur. Ağanın cənazəsi dediyi yerdə dəfn olunur. Çay isə öz məcrasını dəyişib oradan iki kilometr aralıdan axır.

Indi həmin qəbirstanlıq "Kərbəlayi Mirsalah qəbirstanlığı" adlanır.

Onu da xatırladaq ki, Kərbəlayi Mirsalah ağanın ocağına **Məleykə seyid Mənsur qızı** xidmət edir. Ağanın qəbri-şərifi isə respublika əhalisinin ziyarət yeridir.

Kərbəlayi seyid Mirsalah və onun övladları haqqında olan möcüzələr indi də dillərdə söylənilməkdədir.

## *"KƏRİMXANI QAYTARAN KİŞİNİN CƏDDİ HAQQI!"*

Azərbaycanda Sovet hakimiyyəti qurulduğu illərdən bir az əvvəl Qaradonlu Azərbaycanda ağsaqqalları, qoçaq adamları ilə tanınan bir rayon idi. Hələ rayonda Çar hökümətinin jandarmları tuğyan edirdi. O vaxtlar Qaradonluda hökumətə baş əyməyən Kərimxan adlı bir nəfər var idi. Bir gün pristavın jandarmları Kərimxanı tuturlar. Lakin gecəyə düşdükləri üçün onu saxlaya bilməyəcəklərini bilib Kərbəlayi Mirsalah ağanın evinə təhvil verib ağaya Kərimxanı sabah geri alacaqlarını bildirirlər. Ağa əlacsız qalıb razılıq verir.

Muğanın isti yay axşamı imiş. Ağa Kərimxanın rahat yatması üçün qapı- pəncərəni açıq qoyur ki, otaq sərin olsun.

Kərimxan çox da mərd olmayan qaçaq idi. Gecənin bir aləmində fikirləşir ki, daha bundan yaxşı fürsət olmayacaq, qaçmaq lazımdır.





Gecəylə evdən çıxıb yolunu yaxınlıqdakı meşəyə salır. Amma hara gedirsə kol-kosa, çaya rast gəlir. Çox gəzdikdən sonra əlacsız qalıb bir evin qapısını döyür: Ay ev yiyəsi, Allah qonağıyam, mənə yer ver.

Ev yiyəsi çölə çıxır və: Kərimxan, bala çöldə nə gəzirsən, gəl yat. Bu sözləri deyən Kərbəlayi Mirsalah ağa idi.

Kərimxan yatağa girir. Səhərə yaxın yenə də qaçmaq niyyəti ilə evdən çıxır. Özünü çox ora-bura vurduqdan sonra yenə də bir evə yaxınlaşır. Ev yiyəsi haya çıxır. Bu ev də yenə Kərbəlayi Mirsalah ağanın evi idi.

Kərimxan hansı səmtə getsə də qaranlıqda yenə fırlanıb ağanın qapısına gəlib çıxır. Beləcə də səhər açılır.

O vaxtdan "Kərimxanı qaytaran kişinin cəddi haqqı" andı xalqın dilinə düşür.

**Insan oğlu halal yaşa dünyada,**
**Halal yaşa, harama əl atma sən!**
**Halal malın bərəkəti çox olar,**
**Halal mala haram əl uzatma sən!**

**Mirnaib Mirsalahov**

1951-ci ildə Kərbəlayi seyid Mirsalah ağanın nəslini Sovet hökuməti düşmən hesab edib Qazaxstan torpaqlarına sürgün etmə istəyir. Amma seyidləri aparmağa gələn maşın yerindən belə tərpənmirmiş. Sonra sürücü gəlib ağalardan xahiş edir ki, "O kafirlər mühərrikin işə düşməməsində məni günahkar sayırlar".

Bundan heç bir-iki gün keçmir ki, Qazaxıstandan xəbər gəlir ki, burada vəba xəstəliyi baş alıb gedir. Ona görə də onların nəslini Ismayıllı rayonuna, bir hissəsini isə Quşencə kəndinə sürgün edirlər. Bu kənddə onlar **Qəhrəman kişinin** evində qalmış, iki ailə ömürlük dost olmuşdur.

Ağalar bir illik ayrılıqdan sonra ata-baba ocağına qayıtdılar. Onları sürgünə göndərən zalımlar isə cəhənnəmə varid oldular.

## SEYİD MİRQİYAS AĞA



Seyid Mirqiyas ağa 1890-cı ildə Qaradonlu qəsəbəsində dünyaya göz açmış, 1996-cı il dekabr ayının 4-də rəhmətə getmişdir. Din xadimləri arasında ərsəyə çatan Mirqiyas ağa dini elmləri yaxşı mənimsəmiş, zəmanəsinin say-seçmə seyidlərindən biri kimi xoş əməllərin carçısı olmuşdur.

Seyid Mirqiyas ağa Hacımuradlı kəndindən olan Ruqiyyə adlı bir qızla evlənmiş, ondan **Hacı seyid Rəsul, Gülsüm, seyid Habil (rəhmətə gedib-red), seyid Qabil, Gülüm** adlı övladları dünyaya gəlir. Bir neçə vaxtdan sonra Ruqiyyə xanım sağalmaz xəstəliyə düçar olur. Mirqiyas ağanın əzab çəkdiyini görən Ruqiyyə xanım ərinə məsləhət görür ki, bibisi qızı Şamayılla evlənsin. Mirqiyas ağa Şamayılla evlənir.

Şamayıl xanımdan isə **Hacı seyid Sarı, seyid Qara, Gülrüb, Seyid Mirdamət, Elrub** kimi övladları dünyaya gəlir.

**Seyid Mirqiyas ağanın oğlu Hacı seyid Sarı:**

-Atam nəql edərdi ki, Sovet hakimiyyəti təzə qurulanda mal-qaramızı qoruyub saxlamaq üçün Irana-Savalan dağının ətəyinə çəkilmişdik. Amma tez-tez, xəlvətcə evlə əlaqə saxlayırdıq. Bir gün **Sulduz Mirzəyevlə** yenə sərhəddi keçəndə sərhədçilər bizi tutub apardılar. Həmişə ağanın yapıncısı mənim çiynimdə olardı. Bizi bir daxala salıb ağzımızı bağladılar. Üç gün burala qaldıq. Bir gecə ağam yuxuma girdi. Dedi bala, niyə yatmısan, dur get evə.

Yuxudan ayılıb gördüm ki, bərk qaranlıqdı. Diqqətlə baxanda gördüm ki, bizi saxladıqları daxalın arxasında yarıq var. Yol yoldaşım Sulduz Mirzəyevi də oyadıb bayıra çıxdıq. Bərk külək əsirdi. Göz gözü görmürdü. Sonra bir nəfər atlı gözlə-





rim önündə peyda olaraq dedi ki, küləyin istiqamətində gedin, azad olacaqsınız. Doğrudan da küləyin istiqamətində getdik. Gəlib bir nəfərin evinə çatdıq. Həmin adam bizə iki at verdi. Həmin atlara minib çıxıb getdik. Sonra atlarını özünə qaytardıq.

Yaxşı yadımdadır, bir dəfə Sabirabad bazarında atam bir uzunsaç kişini mənə göstərib dedi:-"Bu şəxs bizə at verib, o vaxt bizi xilas edib. Bu şəxsdən əlindən gələn yaxşılığı əsirgəmə".

**Seyid Mirdamət ağa:**

-Bizim rayondan **Aydın Əliyev** adında mötəbər bir kişi vardı. O, uzun müddət xəstə yatmışdı. Müalicə üçün Moskvaya gedən Aydın müəllim burada onu müalicə eləmiş cərrahla dost olur, evlərinə get-gəl edir. Amma görür ki, həmişə dostunun 16 yaşlı qızı üzü örtülü gəzir. Bir gün bunun səbəbi ilə maraqlanır. Professor ona açıb dərdini danışır. Deyir ki, neçə illərdir qızımın ağız nahiyəsi əyilib. Xaricdən belə məşhur həkimlərə müraciət etmişəm. Amma qızımın dərdinə əlac edən tapılmayıb.

Aydın müəllim rusa bildirir ki, qızının dərdinin əlacı Azərbaycanda yaxşı tanınmış, ilahi vergili, müqəddəs ocaqdadır. Gəlin sizi Imişliyə, seyid Mirqiyas ağagilə aparım.

Rus razılaşır və onlar Imişliyə gəlirlər. Aydın müəllimin sürücüsü Zamin onları ağanın qapısına gətirir.

...Seyid Mirqiyas ağanın bir xasiyyəti vardı. Heç vaxt iti qapıya qoymazdı. Uşaqlara da dönə-dönə tapşırardı ki, iti həyətin həndəvərinə qoymasınlar. Yemini də çöldə versinlər.

Onu da qeyd edim ki, atam ümumiyyətlə, ciddi, möhkəm xarakterli, dözümlü insan idi. Heç vaxt da hər saat kövrəlməzdi.

Bir səhər anam görür ki, ağa bərk kövrəlib. Səbəbini soruşur. Ağam cavab verir ki, bəs bu gecə iki dənə küçüyü sığallamışam.

Günortaya yaxın Aydın müəllim qonaqlarla ağagilə gəlib çatır. Ağa bir yerə, bir göyə baxır. Amma heç nə deyə bilmir.

Qonağın dərdindən hali olandan sonra arvad-uşağa tapşırır ki, çöldə stol qoysunlar. Qonaqlara çay verilir. Ağa ağzı əyilən qızın çayını götürüb üfürür, bir dua oxuyub üstünə çiləyir. Bir az keçməmiş sanki möcüzə baş verir. İllərlə məşhur həkimlərin əncam çəkə bilmədikləri dərdə ağanın müqəddəs nəfəsi şəfa verir.

Aradan bir müddət keçəndən sonra o vaxt kənd soveti sədri işləyən **Xanlar Xudiyev** ağaya bir bağlama gətirdi. Dedi ki, ağa, Moskvadan göndəriblər. Ağa isə dedi ki, Xanlar, sən Allah onu mənim qapımda açma. Onu sənə verirəm. Içində nə varsa sənin olsun.

Bəli, ağa belə möcüzəli, kəramətli imam-peyğəmbər övladı idi.

Allah ona rəhmət eləsin.

Hacı seyid Sarı ağa da, qardaşları **Hacı seyid Rəsul ağa, seyid Mirdamət, seyid Qabil də** həmişə ata-babasının yolu ilə gedir, onun vəsiyyətlərini layiqincə yerinə yetirirlər. Müxtəlif mötəbər vəzifələrdə çalışsalar da həmişə seyidlik adını şərəflə qorumuş, öz işlərinə vicdanla yanaşıb, düzə-düz, əyriyə-əyri demişlər. Səmimi davranışları ilə camaatın dərin hörmətini qazanan bu nurlu seyidlər həmişə haqqın- ədalətin carçısı olublar. Atalar yaxşı deyib: "Ot kökü üstə bitər".

Ümumiyyətlə, bu müqəddəs insanlarla yaxınlaşıb cəddlərinə sığınanlar həmişə xeyir-bərəkət, ruzi tapıblar. Ağa ocağına bağlananlardan biri də **İntiqam Əliyevdir**. Indi o da namaz əhli, ağalara dərin inam bəsləyən Allah adamıdır. Allah imanını kamil eləsin.

**Məşədi Əlikram İbişov, seyid Mirqiyas ağanın nəvəsi:**

-Seyid Nəsihət ağanın həyətində bir erkək tut ağacı var idi. Heç zaman bu ağac bar verməzdi. Bir gün payız vaxtı seyid Nəsihət ağanın könlündən tut yemək keçir. Amma payızın bu çağında tut tapmaq müşkül məsələ idi. Ağa gecə yatır, yuxuda görür ki, babası Kərbəlayi Mirsalah ağa deyir:

-Seyid Nəsihət, dur çıx həyətə, tutu dər ye.





Ağa xəstə olduğundan onu köməkləşib bayıra çıxarırlar. Doğrudan da görürlər ki, ağacın bir qanadında çoxlu tut var. Tutu dərib seyid Nəsihət ağaya və ailə üzvlərinə verirlər. Hətta ziyarətə gələnlər də bu tutdan nübar edirlər.

Ocağın içərisində həmişə bir ilan yatarmış. Kimin günahı olsa ilan o adamı ocağa yaxın buraxmazmış. Həmin ilan ziyarətə gələnlərlə birlikdə ağanın ocağını, qəbrini ziyarət edərmiş. Müqəddəslərin dediyinə görə bu ilan deyil, məleykədi. Ağanın qəbrini qoruyur.

## SEYİD MİRQOCA AĞA

Camaatın nurlu seyidi, ağsaqqalı olmuş seyid Mirqoca ağa yaddaşlarda ilahi vergili, xeyirxah bir seyid kimi qalıb. Özü də hər şey ona qabaqcadan bəlli olurdu. Hətta ölüm tarixini də bilirdi. Hələ sağlığında özünə başdaşı da düzəltdirmişdi. Özünə də 65 yaş ömür qoymuşdu. Dediyi kimi də oldu. Düz 65 yaşında haqq dünyasına qovuşdu.

1969-cu il idi. Seyid Mirqoca ağa ev tikmək üçün Sabirabad rayonuna taxta almağa getmişdi. Bir gün küçədə dostu Əliheydər kişi ilə söhbət edərkən yanında bir "Volqa" maşını saxlayır. Ağa görür ki, hələ Imişlidə işlədiyi vaxtdan dostluq etdiyi Sabirabad rayon Partiya Komitəsinin katibi **Məmməd Məmmədovdur** . Məmməd müəllim hal-əhval tutduqdan sonra onu evinə qonaq aparır.

Zarafatlarla müşayiət olunan söhbət uzun çəkir. Evin xanımı Roza bacı və dörd qızı gəlib ağanı ziyarət edirlər. Ağa soruşur ki, bəs oğlun yoxdur?

Yox, cavabını alan Mirqoca ağa ürəyində Allaha dua edir və deyir ki, Məmməd müəllim, Allah qismət eləsin oğlun olsun, gələn dəfə gələndə bu evdə oğlan səsi eşidək.

Məmməd müəllim də cavab verir ki, ağa, onda sizin əliniz də onun çiynində olar.

Belə əhd-peyman oldu iki dost arasında.

Aradan bir il keçməmişdi ki, Məmməd müəllim ağanı Sabirabada, öz evinə aparmışdı. Allah ağanın sidq- ürəkdən etdiyi duasını eşitmiş, Məmməd müəllimin oğlu olmuşdu.

Məmməd müəllim ağadan xahiş etdi ki, uşağın adını qoysun. Ağa uşağın adını Sabir qoydu. Dedi ki, əvvəla, səbr Allahın birinci adıdır. Ikincisi isə uşaq Sabirabad şəhərinin yadigarıdır.

Bir müddətdən sonra Sabirin kiçik toyu oldu və ağanın oğlu əhd-peyman üzrə əlini balaca Sabirin çiyninə qoydu.

Seyid Mirqoca ağanın özünün 5 oğlu, 6 qızı var: **seyid Mirhasil (rəhmətə gedib-red), seyid Eyvaz, seyid Mirnaib, seyid Mirsalah, seyid Mirfazil, Nazı, Fatma, Səkinə, Iradə, Arzu, və Tərbiyə.**

## SEYİD NƏSİHƏT AĞA



Seyid Nəsihət ağanın (1900-1974) bir qızı olub: **Pakizə.**

Seyid Mirkamal ağanın övladlarının adları isə **seyid Miradil, seyid Mirbağır, seyid Rasim, seyid Rasət, seyid Sabir, Məleykə, Səliqə və Güləndir.**

Allah əhd- peymanına düz olub dünyasını dəyişənlərə rəhmət eləsin.

**Sulduz Ləzimov:**

- Çətin günlərdə pənah apardığımız ocaqlarımızdan biri də seyid Nəsihət ağanın ocağıdır. Dara düşəndə onun cəddini çağırır və Allaha şükür olsun ki, naümid qalmıram.

Allah seyid Nəsihət ağaya, ata-babasına rəhmət eləsin.

**Məmi Atakişiyev:**

-Gözümü açandan evimizdə zülmətləri yaran bir nur, haqqa yol göstərən bir çıraq-müqəddəs Qurani Kərimi görmüş,





namaz səsi eşitmişəm. Ağlım kəsən gündən Allahın yolunu tutmuş, namazımdan, orucumdan qalmamışam. Ulu tanrıya, bir də möcüzəli seyid- peyğəmbər övladlarına inanıb, onların cəddinə sığınmışam.

İmam- peyğəmbər övladlarından biri də cəddinə güvəndiyim Kərbəlayi Mirsalah ağanın seyid Nəsihət ağanın ocağıdır. Uzaq səfərə çıxanda, dara düşəndə bu ocaq həmişə güməyimiz olub. Eyni zamanda seyid Mirqiyas ağaya xüsusilə böyük inamım, şəxsi hörmətim olmuşdur. Bu ocaqların cəddi xatirinə qoy insanların qəlbində bir-birinə paxıllıq hissi olmasın. Çətinə düşəndə imkanlı imkansıza əl tutsun. Axı, "Əl tutmaq əlidən qalıb" deyiblər.

**İmamverdi Kazımov:**

- Seyid Nəsihət ağanın babası seyid Kərbəlayi Mirsalah ağanı, atası seyid Sarı ağanı, oğlanları Mirqoca ağanı. Mirqiyas ağa və başqa müqəddəslərimizi İmişli torpağında tanımayan şəxsi ağlıma belə gətirə bilmirəm. Mənim bu ocağa olan inamımdır ki, həmişə seyidlərimizin şəkillərini özümlə gəzdirirəm. Onların hamısının cəddinə qurban olum. Allaha çox şükürlər olsun ki, bu ağaların davamçıları müqəddəslərin adına layiq işlər görürlər.

Allah-təala bütün haqq dünyasında olan seyidlərimizə rəhmət eləsin.

**Rafiq Kazımov:**

- Seyid Nəsihət ağa müqəddəs şəxsiyyət olub. Onu gənc yaşlarından tanıyırdım. Çox gözəl insan olmaqla bərabər ağır seyid idi. Nəsihət ağa mənim həyat yoldaşıma bir yaylıq bağışlamışdı, indi də yoldaşım həmin yaylığın üstündə namaz qılır. Nəsihət ağa çox gözü-könlü tox adam idi. Ona 5 manat nəzir verəndə onun 4-nü yanında, böyründəki adamlara paylayardı.

**Bahadur Kazımov:**

- Seyid Nəsihət ağa son dərəcə alicənab insan, el- obanın ağbirçəyi idi. O küsənləri barışdırar, çətin işləri asan edər, haqsız dara düşənləri dardan qurtarmaq üçün əlindən gələni

əsirgəməzdi. Müxtəlif xəstəlikləri, o cümlədən ürək-damar, əsəb, ruhi cəhətdən xəstə olanlar ağanın ocağından şəfa tapardılar.

**Tahir Şükürov:**

-Taleyin mənə verdiyi xoşbəxtliyə görə gözəgörünməz Allahıma, bir də seyid-peyğəmbər övladlarına borcluyam. Bu seyidlərimizin ən qüdrətlisi və alisindən biri mən deyərdim ki, Kərbəlayi Mirsalah ağa, onun övladlarıdır. Ən çətin anlarda belə onların cəddini köməyə çağırıram. Çox şükürlər olsun ki, istəyimə- arzuma qovuşmuşam. Ilahidən diləyim budur ki, respublikamızda tanınmış Kərbəlayi seyid Mirsalah ağanın, seyid Nəsihət ağanın ocağı xatirinə işğal olunmuş torpaqlarımız geriyə alınsın. Qohum- qardaşla, balalarımızla ağaların pak qəirlərini ziyarət edib ocaqlarında qurban kəsib paylayacaqam.

**Elxan Şirinov:**

- Həyatda kiməsə, nəyəsə inam olmasa insan yaşaya bilməz. Bütün insanların ümidi qurban olduğumuz, gözə görünməyən o bir Allahdır. Allahımızın isə yaxınları yer üzərindəki övliya sahibləridir. Bu sahiblərdən biri də cəddinə güvəndiyimiz seyid Nəsihət ağadır. Qoy seyid Nəsihət ağanın hökmü, cəddi həmişə köməyimiz olsun. Allah dünyadan köçən ağalarımıza rəhmət eləsin.

**Onu da xatırladaq ki, müqəddəs seyid Nəsihət ağanın yolunu bu gün nurani ağbirçəyimiz, təqvalı imam-peyğəmbər övladı seyid Gülsüm ana davam etdirir. Allah onun da nəfəsini eldən əsirgəməsin.**





## SEYİD MİRFİDƏ SEYİD MİRQOCA OĞLU

### Əli Əleyhissəlamın mədhi

*Ey iki aləm pənahi, şahi-sərdar,ya Əli,*
*Sahibi-fəzli vilayət, şire-Heydər, ya Əli,*
*Gəldi dəstin şəninə ismi-Yədullah bigüman,*
*Oldu zati-bimisalin həqqə məzhər, ya Əli.*
*Ruzi-hica-saedin bir fərqe-edam bəsdürür,*
*Qəbzeyi-hacət degil şəmşirü xəncər, ya Əli.*
*Ey şücaət mədəni, sən xəşm ilə hökm eyləsən,*
*Kün fəkan bir almadır dəstində yeksər, ya Əli.*
*Fəzlü-ehsanü mürəvvət, həm səxavət kanı sən,*
*Lütfünün xakilə cövhərdir bərabər, ya Əli.*

**Şah Ismayıl Xətai**

***"Sizlərə iki şey əmanət qoyuram: biri özü də, sözü də Allahın olan Qurani-Kərim. Nur və Hidayət ondadır. Ikincisi də əhli-beytimdir. Onları qoruyun və hər işdə daima Allahı xatırlayın".***

**Məhəmməd peyğəmbər (s).**



Belə peyğəmbər əmanətlərindən biri də Aran ellərinin nurlu ağsaqqalı, iman əhli, böyük hikmət və kəramət sahibi, imam Hüseyn (ə.s)-nın törəməsi seyid Mirfidə ağa idi.

Bu nurlu insan 1940-cı ildə Imişlinin Çahar kəndində dünyaya gəlmiş, gözünü dünyaya açandan həyatın sərt sınaqları ilə üzləşmişdi. Ömrü boyu minbir əzab-əziyyətə qatlaşıb, çörəyi necə deyərlər, "daşdan" çıxıb. Amma heç vaxt Allahını, peyğəmbərini unutmayıb, halal tikəsinə haram qatmayıb.

Hələ erkən yaşlarından kolxozda sıravi işlərdə çalışıb. Sonralar atası kimi texnikaya meyl göstərib. Traktor işlədib.

Bu müqəddəs, uşaq kimi sadəlövh, təmiz qəlbli, məsum, pak insan öz əməlləri, saflığı ilə el-obanın dərin hörmətini qazanmışdı. Paklığı, sadəliyi, zəhmətsevərliyi, gözü-könlü toxluğu ilə həmişə başqalarından seçilmiş, sevilmişdi.

Ağa bu xüsusiyyətlərinə görə də el gözündə müqəddəsləşmiş, camaatın inam və iman yerinə çevrilmişdi. Ağanın cəddinin hikmətini, gözə görünməyən ilahi gücünü duyanlar ona pənah gətirərdilər.

Ağa yaşlaşdıqca daha da nuraniləşmiş, müdrikləşmişdi. Özü də imam Hüseyn (ə.s) aşiqi idi. Bir işə başlayanda Allahın, peyğəmbərin, sevimli imamın adı ilə başlayardı. Camaat da çalışardı ki, səfərə çıxanda, xeyir iş görəndə ağa qabaqlarına çıxsın. Onda səfərləri də uğurlu alınar, bərəkət-ruzi sahibi olardılar.

Ömrü boyu kasıbçılıq, maddi sıxıntılar içərisində yaşasa da öz kasıb büdcəsindən başqalarına pay da tutardı. Yola, kəndin ortasına çıxanda elə indicə aldığı siqareti axırıncı giləsinə qədər ona-buna paylayardı.

Yalan nə olduğunu bilməzdi. Hamı onunla zarafat edər, könlünü alardı.

Ailədə də çox mehriban idi.

Xeyirxah əməllər sahibi kimi elin bütün işlərində qabağa düşərdi. Hər hansı bir müşkül məsələni həll etmək üçün gecə-gündüz çalışar, yorulmaq bilməzdi.

Elə kənddəki məscidin tikintisi də onun adı ilə bağlıdır. Aşura vaxtı kəndin sədrindən məscid tikməyə kömək etməsini xahiş etdi. Camaatdan pul yığdı. Özünün də nəyi vardı, əsirgəmədi.

Seyid Mirfidə ağanın övladları da halal, zəhmətkeş insanlardır. **Seyid Mirqoca, seyid Namiq, seyid Mirtaleh, seyid Nahid, seyid Mirxuda, Zahidə, Xanım və Samirə** də ataları kimi nurlu insanlardır. Hamısı da oğul-uşaq sahibidir.







Ailənin böyüyü, nəcib insan seyid Mirqocanın oğlu **seyid Elvində** ata-babasının nəfəsi duyulur. Qızları **Aydan və Türkan** da ata-babasına çəkiblər.

Seyid Namiq ağa isə **Ayşənlə Zamiqin** atasıdır.

Seyid Mirfidə ağanın 3-cü oğlu seyid Nahidin uşaqları **seyid Mirsaleh və Ləman** indidən şəriəti öyrənirlər.

Seyid Mirxuda ağanın isə **Çansu** və **Mirfəqan** adlı övladları var.

Seyid Mirtaleh isə **Aysu** ilə **Mərahim** adlı övladların atasıdır.

Seyid Mirfidə ağa son dərəcə ailəcanlı insan idi.

2000-ci ildə həyat yoldaşı Səkinə xanım haqq dünyasına qovuşandan sonra elə hey kövrələrdi. İstəkli həyat yoldaşının itkisinə heç cürə dözə bilmirdi. Get-gedə xəstəliyi də artdı və 2001-ci ildə quş kimi uçub getdi.

Bu gün Çahar kənd qəbirstanlığında uyuyan məzarı- şərifi kənd camaatının, ətraf bölgələrin tez-tez ziyarət etdiyi ocaqlardandır.

**Eyyub Yaqub oğlu Ağayev, Əliqulular kənd sakini:**

-İnsandan öyrənmək asandır, onun özünü öyrənmək isə mümkün deyil. İnsanı öyrənmək üçün gərək O olasan. Bu isə təkcə Allah-təalaya məxsus keyfiyyətdir. Kimsə desə ki, filankəsi yaxşı tanıyıram, bilin ki, yalan demiş olar. İnsanda inam

olmasa yaşaya bilməz. Inamla yaşayan insanlar, paxıllıq çəkməyənlər çox yaşayırlar. Hər bir insanın isə öz daxilində öz inamı var.

Seyidlərimiz də Allahın seçilmiş bəndələridir. Onları isə tanımaq daha asandır. Çünki hamısı təmiz, pak insanlar, başqalarına pislik istəməyən müqəddəslərdir. Ona görə də biz həmişə onlara pənah aparırıq.

Tez-tez rayonumuzdakı ocaqlarımıza, Bakıdakı Mirmövsüm ağa ziyarətgahına gedirəm. Xeyirxah, nəcib seyidlərimiz xalqın ən qiymətli sərvətidir. Onları qorumaq, onlardan bəhrələnmək hər bir insanın borcudur. Insanlara düz, halal yol göstərən bu cür insanlar illər keçsə də heç vaxt xalqın yaddaşından çıxmır, onların xatirələri yaddaşlara hopur, insanlar onların əməllərindən, davranışlarından nümunə götürürlər.

Qədim, ulu tarixə malik Imişli rayon camaatının Tərəkəmə tayfaları həmişə nəcib seyidlərimizin mənəvi dayağını hiss etmiş, onların dəyərli məsləhətlərindən bəhrələnmişlər.

Allah bütün seyidlərimizə, haqq dünyasına qovuşmuş əməli-əqidəsi saf olan insanlara rəhmət eləsin

***Soltanın istəyi yerinə yetməz,***
***Xalqının halına yanmasa əgər.***
***Istərsən ki, Allah səni ucaltsın,***
***Allahın xalqına mərhəmət göstər.***

**Sədi Şirazi**

Seyid Mirfidə ağa həqiqətən xalqının mərhəmətli, pak, ulu seyidi idi.

Allah ona rəhmət eləsin.





## SEYİD HİLAL SEYİD CABBAR OĞLU

Qarabağda öz kəramətləri, nurlu ağsaqqalları ilə tanınmış bir seyidlər kəndi vardı nə vaxtsa... Alxaslı kəndi. Zaman-zaman bu kəndin nurlu seyidləri, görkəmli ziyalıları, elm, din xadimlərinin səsi-sorağı, şöhrəti bütün Qarabağa yayılmışdı. Hələ dədə-babadan Alxaslı seyidlərinin Imişli camaatı ilə sıx əlaqələri vardı. Onlar bir-biriylə dostluq əlaqələri yaratmış, qız verib qız almışdılar. Laçın rayonunda doğulub boya-başa çatmış **seyid Hilal seyid Cabbar oğlu** Boşçallar kəndindən Hacı Adıgözəl adlı nurani bir insanla dostluq edərdi. Ağa da onun dəvəti ilə bu kəndə, qardaşları **seyid Musa, seyid Alı və seyid Məhəmməd** isə Ağcabədiyə köçür. Kolxoz quruculuğu illərində isə seyid Hilal ağanın övladları camaatın xahişi ilə Sarxanlı kəndinə köçür və gəlişi ilə də gəldiyi ellərə ruzi-bərəkət gətirirlər.

Seyid Hilal ağa Tərəkəmə camaatının dərin hörmətini qazanmışdı. Ağa ilahi vergili seyidlərimizdən idi. Nə niyyət diləyirdisə müstəcəb olardı.

Bir gün ağanın həyat yoldaşı deyir ki, ağa, teşnədə unumuz qurtarmaq üzrədir. Gərək un alaq.

Ağa deyir ki, narahat olma, ceddimiz yetirər, inşallah.

Elə həmin günün sabahısı Beyləqanın Tatallar kəndindən sübh namazı vaxtı bir nəfər dəvə ilə ağagilə gəlir. Dəvənin üstündə də un çuvalları.

Ağa qapıya çıxır, deyir tezdən xeyirdirmi, a kişi?

Kişi deyir ki, ağa, ceddinə qurban olum, bu gecə vaxtı məni niyə qərq eləyirsən?

Seyid Hilal ağa gülür. Deyir ki, mən neyləmişəm ki. Mən ceddimdən kömək diləmişəm.

Kişi danışır ki, gecə yatmışdım. Gecənin bir aləmi bir nu-

rani ağsaqqal yuxuma girib dedi ki, seyid Hilalın unu qurtarıb, dur onlara un apar.

Yuxudan ayılsam da fikir verməyib, yenə yuxuya getdim. Həmin kişi yenə yuxuma girib dedi ki, sənə demədim ki, dur un apar.

Yuxudan oyanıb gördüm ki, gecənin bir aləmidi. Hara gedim, nə təhər gedim? Çox götür-qoy edəndən sonra yenə də yıxılıb yatdım. Amma həmin kişi yenə də mənə dinclik vermədi. Yuxuma girib çox qeyzlə: gərək mən sənə möcüzə göstərəm,-deyə məni yuxuda danladı.

Yerimdən dik qalxdım. Dedim ki, arvad, dur ayağa, yoxsa məni öldürərlər.

Çuvalları unla doldurub gecə yola düşdüm. Ona görə də belə tezdən qapınıza gəlmişəm.

Seyid Hilal ağanın 6 qızı və 3 oğlu vardı: **seyid Cabbar, seyid Aydın, seyid Mirəddin.**



Böyük oğlu seyid Cabbar 1918-ci ildə Alxaslıda anadan olmuşdu. Uşaqlıqdan ağır zəhmətə qatlaşmışdı. Sadəliyi, əməyə bağlılığı, insanlara qarşı mehribançılığı, Hatəm səxavəti onu camaata sevdirmişdi. Ağa özü imkansız olsa da həmişə kasıb-kusuba əl tutar, ocağına gələnləri heç vaxt naümüd geri qaytarmaz, dərdli insanlara şəfa, nur paylayardı.

Qonaq- gözünün işığı idi. Həmişə evi qonaqlı-qaralı olardı.

Seyid Cabbar ağa sözün əsl mənasında möcüzəli seyid idi. Ağanın **Nəriman** adlı bir kirvəsi vardı. Kolxoz vaxtı traktorist işləyirdi. Evləri rayon mərkəzində olduğuna görə gəlib ağagildə qalardı. Nəriman kişinin bacısı Gülarə çoxdan ailə həyatı qursa da, övladı olmurdu.







Bir gün ağanın yolu onlara düşür. Namaz üstə Allah dərgahına əl qaldırıb dua edir: Ilahi, səni and verirəm öz birliyinə, Havarla Gülarəni göyərt, onlara övlad payı ver.

O biri ili ağa yenə onlara getmişdi. Allah-təala onun duasını eşidib ailəyə gülüzlü bir oğul payı əta eləmişdi. Sonra seyid Cabbar ağa uşağın kirvəsi oldu.

Ağa çox mehriban ailə başçısı idi. Həyat yoldaşı **Qutayıs xanıma,** övladlarına qarşı çox diqqətcil idi. Həyat yoldaşı 1966-cı ildə haqq dünyasına qovuşsa da, ağa bir də ailə həyatı qurmadı. Həmişə də balalarına deyərdi ki, mən razı olmaram ki, sizin gözünüz anamızdan sonra ayrı bir qadının üzünü görsün.

Bax, beləcə mənalı, şərəfli bir ömür yaşadı seyid Cabbar ağa. 1996-cı il fevralın 27-də haqq dünyasına qovuşdu. Yurdunda balaları **seyid Hüseyn, seyid Adil** və **Hacı seyid Əli** qaldı. Hər biri el-obanın hörmətli, izzətli seyid övladlarıdır.

Elimizin nurlu oğlu **seyid Hüseyn ağa** bu gün həyat yoldaşı, istedadlı pedaqoq **Zemfira xanımla** ata yurdunda yaşayır. Hər gün onlarla insan müxtəlif dərdlərlə bağlı onlara - seyid Cabbar ağa ocağına pənah gətirir və onların şəfalı nəfəsləri ilə istəklərinə qovuşurlar.

Seyid Hüseyn ağanın nurlu balaları - **seyid Mirəddin, Sü-**



rəyya və **Ülkər** də ata-babasına layiq övladlardır.

Seyid Cabbar ağanın o biri oğlu seyid Adilin isə 3 övladı var: **seyid Cavid, Rüxsarə və Kəmalə.**

Seyid Cabbar ağa övladlarından seyid Əlini daha çox istəyirdi. Həmişə deyərdi ki, bala, istəyirəm ki, öləndə də sən mənim yanımda olsan.

Dediyi kimi də oldu. 1996-cı ildə Hacı seyid Əli ağa atasını Bakıya müalicəyə gətirdi. Və ağa Hacının evində haqq dünyasına qovuşdu.

Hacı seyid Əli atasının itkisinə heç cürə dözə bilmirdi. Özü ailə sahibi olsa da, elə bil ki, yetim qalmışdı. Məkkəyə gedib-gəldikdən sonra bir az toxdayıb.

Hacı seyid Əli ağa 1956-cı ildə Sarxanlı kəndində anadan olub. Bakı Dəmir Yol texnikumunu bitirəndən sonra bir müddət rayonda, hal-hazırda isə Bakı Vaqon deposunda çalışır. Öz zəhmətsevərliyi, hallalığı, mehribançılığı və səxavəti ilə həm rayonlarında, həm də işlədiyi kollektivdə dərin hörmət qazanmışdır.

Nurlu Hacı 2003-cü ildə müqəddəs Məşhəd, Kərbəla, Məkkə ziyarətlərində olub. Məşhədə həyat yoldaşı **Şuşa xanımı** da aparmışdı.

Hacının ziyarətə getməsi də cəddinin kəraməti sayəsində mümkün olmuşdur.

2001-ci ildə Rusiyada yaşayan qaynına dəyməyə gedən Hacı burada Füzuli rayonunun Kərimbəyli kəndindən **Hüseynağa Məmmədov** adlı xeyirxah bir insanla tanış olur. O vaxtlar Hüseynağa müəllimin işləri heç də rəvan getmirmiş. Seyid Əliyə deyir ki, ağa, əgər cəddinin sayəsində niyyətimə







qovuşsam, səni müqəddəs yerlərə ziyarətə göndərəcəyəm.

2002-ci ilin axırları idi. Bir gün seyid Əli ağanın qapısı döyülür. Görür ki, Rusiyada tanış olduğu, xeyir-dua verdiyi Hüseynağa müəllimdir. Deyir ki, ağa, gəlmişəm ki, vədimi yerinə yetirəm. Hazırlaş, ziyarətə gedəcəksən.

Ziyarət vaxtına az vaxt qalsa belə o şəxsi vəsaiti hesabına ağanı ziyarətə göndərdi.

**Allah razı olsun!**

Bu gün Hacı seyid Əli ağa gecə-gündüz Allaha ibadətindən qalmır. Övladları **Əsmər** və atasının adını qoyduğu oğlu da onun yolu ilə gedirlər.

Seyid Hilal ağanın digər oğlu **seyid Aydın ağa** öz xeyirxah əməlləri, kəskin nəfəsi ilə tanınmışdı. Dara düşən adamlar ondan imdad diləyərdilər. Seyid Aydın ağa xəstə adamlara əl çəkib onlara nəfəs verəndə şəfa tapardılar. Ağanın möcüzələrini görənlər, onun haqqında danışılanda indinin özündə də həyəcanlanırlar. Çünki yer üzərində olan kəramətlərin yaradıcılarından biri də seyid Aydın ağa idi. Onun cəddinin kəramətini görənlərin, ona inananların sayı minlərlədir. Onun cəddini çağıran, adına tapınan insanlar işlərinin düzəlməsini istəyəndə arzularına indi də çatırlar.

Seyid Aydın ağa 1939-cu ildə Imişli rayonunda anadan olmuşdur.

Ağa dövrümüzün, əsrimizin ən möcüzəli övliya sahibi idi. Cəmisi 55 il ömür sürmüş ağa ömrünün pis günlərini belə lütfükarlıqla qarşılamış, sevincini kədərinə qatmışdı.

Seyid Aydın ağa 1994-cü il iyul ayının 26-da dünyasını



dəyişmişdir. Ağanın ölümü onu tanıyanları həddsiz yandırır.

Həyat yoldaşı **seyid Zöhrə** seyid Aydın ağayla həm də əmioğlu, əmiqızıdır. Özü də deyir ki, seyid Aydının hökmü məndən güclü idi.

**Hacı seyid Əli ağa:**

-1971-ci il idi. Mən doqquzuncu sinifdə oxuyurdum. Beyləqanın Qarallar kəndindən **Iltifat** adında bir nəfər ağaya taxıl gətirmişdi. Yükü boşaldandan sonra ağa ona dedi ki, gəl çörək ye, sonra gedərsən. Amma Iltifat imtina etdi. Bildirdi ki, təcili işə qayıtmalıdır.

Seyid Aydın ağa ona dedi ki, gedə bilsən, gedərsən.

Doğrudan da Iltifat kişi nə qədər əlləşdisə də maşın işə düşmədi. Oturub ağa ilə çörək yeyəndən sonra əl atmağı ilə maşının işə düşməyi bir oldu.

Seyid Aydın ağanın 4 qızı, 2 oğlu var: **Həcər, Səriyyə, Zeynəb və Rüzgarə.** Oğulları isə **seyid Hilal və seyid Qabildir.**

Seyid Hilalın **Miryusif** adlı bir oğlu var. Körpə olsa da, hər adam onu yerindən qaldıra bilmir.

Seyid Qabilin isə bircə qızı var. Adını da anası Zöhrənin adını qoyub.

Seyidlər peyğəmbər nəslinin varisidirlər. Rəhmətlik seyid Aydın ağa da həmin nəsildən, tanınmış seyidlərdəndi. Kənd





adamları indi tez-tez seyid Aydın ağanın, eləcə də böyük qardaşı seyid Cabbar ağanın qoşa kümbəzini ziyarət edir, qəbul edilmiş nəzirlərini ocağa aparırlar.

Onu da xatırladaq ki, seyid Aydın ağanın müqəddəs məzarının üstündə xeyirxah, nəcib insan **Əbdüləli Ismayılov** kümbəz düzəltdirmiş, ustalığını isə **Səfər kişi** etmişdir.

Allah onların ölənlərinə, o cümlədən seyid Hilal ağaya, balaları seyid Cabbar ağaya, seyid Aydın ağaya rəhmət eləsin!

**Soruşdular:**
**"Ən pis adam kimdir?"**
**Buyurdu:**
**"Ömrü uzun, əməlləri pis olan şəxs".**

**Məhəmməd peyğəmbər (s.)**

## SEYİD MİRƏLİ AĞA



Seyid Mirəli ağa 1912-ci ildə Laçın rayonunun Molla Əhmədli kəndində anadan olmuş, kənddə 7 illik məktəbi bitirmiş, 37-ci ildə isə Imişli rayonuna köçmüşdür.

Böyük Vətən müharibəsində yaralanmış, ömrünün sonunadək Imişli rayonunun Ağaməmmədli kəndində yaşamışdır. Əsl möcüzəli, sınaqlı seyid, el ağsaqqalı olmuş, özünə böyük hörmət və nüfuz qazanmış, yaxşı Quran oxuyan, dindar, güclü bir ağa kimi tanınmışdır.

1986-cı ilin aprel ayında həmin kənddə də vəfat etmişdir.

Qəbri üstündə kümbəz tikilmiş, müqəddəs məzarı bütün Muğan elatının and yeri və ziyarətgahıdır.

7 qızı, 2 oğlu var: **seyid Mirqasım, seyid Mirheydər, Sədaqət, Həqiqət, Pəri, Aminə, Afərim, Yenigül və Gülşən.**

Hal-hazırda oğlanları seyid Mirqasım və seyid Mirheydər ata mülkündə ocağın yaşadıcılarıdır.

**Seyid Mirqasım** ADU-nun kimya fakültəsini bitirmiş, hal-hazırda Ağaməmmədli kənd orta məktəbinin direktorudur.

Ibadətini keçirmir. **Mirnaib** adlı bir oğlu və bir qızı var.

Seyid Mirheydər ADU-nun riyaziyyat fakültəsini bitirmiş, kənddə müəllim, məktəb direktoru, kolxoz sədri işləmiş, "Seyid Cabbar" fermer təsərrüfatını yaratmış, indi isə "Nur" kooperativinin sahibidir.

Seyid **Mirəziz və seyid Mirəli** adlı iki oğlu və bir qızı var.



# LƏNKƏRAN











Rayonda ən qədim məscid XIV əsrə aid edilən, Şıxakəran kəndində tikilmiş məscid və 1802-1804-cü illərdə **Seyid Məmi seyid Ibrahim oğlu** tərəfindən həyətində inşa edilmiş məsciddir.



## BÖYÜK BAZAR MƏSCİDİ

Lənkəran şəhərinin mərkəzindəki bu məscid 1864-cü ildə **Hacı Mirağa Mirtağızadə** tərəfindən inşa edilmişdir.

## KİÇİK BAZAR MƏSCİDİ



Kiçik Bazar məscidi 1904-cü ildə **Hacı Novruzəli** tərəfindən tikdirilmişdir.

Lənkəran şəhərinin girəcəyində, Astara yolunun üstündə gözəl, yaraşıqlı bir məscid elin təəssübkeşi, nurlu insan **Hacı Mais** tərəfindən 2000-ci ildə inşa edilmişdir.



Hacı Mais 1999-cu ildə Məkkə ziyarətində olub. Ziyarətdən qayıdandan sonra yol ilə səfərə gedib-gələnlərin ibadət etmələri, namaz qılmaları üçün öz vəsaiti hesabına bu məscidi inşa etdirib.

Cəmi seyidlərimizin nəfəsi, cəddi- cənabi Peyğəmbər həmişə üstündə olsun!





## SEYİD XƏLİFƏ ZİYARƏTGAHI



Azərbaycanın qədim yaşayış məskənlərindən sayılan Cil kəndinin yaranma tarixi islamın ilk illərinə təsadüf edir. Min illərin süzgəcindən keçib dövrümüzə çatmış məlumatlar bəsit olsa da, bu kəndin qədim yaşayış məskənlərindən olduğu barədə bir çox mənbələrdə xəbər verilir. Bunu kəndin qədim qəbirstanlığındakı kitabələr də təsdiq edir. Şah Ismayıl Xətainin dövründə bu kənd daha da qüdrətlənmiş, elm, din xadimlərinin, alim və filosofların məskəninə çevrilmişdi. Bildiyimiz kimi o vaxtlar, Səfəvilər dövlətinin hakimiyyəti illərində hökumətin mühüm idarəetmə, divan-tərəzi işləri tanınmış adamlara, müqəddəs seyidlərimizə həvalə edilər və onlara "Xəlifə" titulu verilərdi.

Cil kəndindəki Seyid Xəlifə ziyarətgahı da belə müqəddəs seyidlərimizin - IV imamımız Zeynalabidin (ə.s.) törəmələrinin qəbri-şərifi üstündə ucaldılmışdır.

Uzun illər bu ziyarətgah baxımsızlıq ucbatından yararsız hala düşmüşdü. Sağ olsun xalqımızın xeyirxah oğullarını ki, belə müqəddəs ocaqlarımızın abadlaşması üçün öz köməkliklərini əsirgəmədilər.

Bütün Qafqazın Şeyxi, müsəlman bacı-qardaşlarımızın böyük ehtiram bəslədiyi nurlu insan, imam-peyğəmbər aşiqi, dinimizin möhkəmlənməsi, daha da qüvvətlənməsi uğrunda böyük işlər görmüş və bu gün də görən **Şeyx Hacı Allahşükür Paşazadənin qardaşı Hacı Cavanşirin** vəsaiti hesabına Seyid Xəlifə ocağı abadlaşdırılmış, Şərqin möhtəşəm, gözəl ziyarətgahlarından birinə çevrilmişdir.

Onu da xatırladaq ki, ziyarətgahın ətrafındakı qədim qəbirstanlıqda bu bölgənin nurlu seyidləri olmuş **seyid Ibrahim, seyid Davud, seyid Əmirxan** və başqaları da dəfn edilmişlər.

Ziyarətgahın xuddamı **Məşədi Fətullahdır.**

Azərbaycandan müqəddəs məkanlara - Məşhədə, Kərbəlaya, Məkkəyə ziyarətə gedənlərin əksəriyyətinin əvvəlcə Seyid Xəlifə ocağını ziyarət etməsi bir ənənə halını alıb.

Allah ziyarətinizi qəbul eləsin.

## ŞEYX ZAHİD TÜRBƏSİ



Qədim tarixə malik Lənkəran bölgəsi X əsrin əvvəllərindən başlayaraq sürətlə inkişaf etməyə başlayır. İslam dini burada özünə geniş pərvəriş tapır, elmi- dini mədrəsələr tikilir, məscidlər inşa edilirdi.

Şıxakəran kənd qəbirstanlığında tikilmiş qədim məscid, Şeyx Zahid türbəsi (1215-1300) dediklərimizə sübutdur.

**Şeyx Zahid ibn Rövşən Əmir** şərqdə tanınmış alimlərdən olub.

Şeyx Zahidin **Şəmsəddin, Cəmaləddin,** Əli adlı oğulları və **Bibifatma** adlı qızı olub. Şeyx qızı Bibifatmanı Şeyx Səfiəddinə (1252-1334) ərə verib. Bildiyiniz kimi o, Şah İsmayıl Xətainin babası idi.

Məşədixanım Nemət yazır ki, seyid Cəmaləddinin müridi Şeyx Zahid adıyla şöhrət tapmış Tacəddin Ibrahim idi. Şeyx Tacəddin İbrahim əs-Səncani Şeyx Zahid kimi daha məşhur olmuş (hicri 700/1300/1301)-ci ildə vəfat etmiş, indiki Lənkəran rayonunun Şıxakəran kəndində dəfn olunmuşdur. O, gilan dilində şerlər yazmışdır.

Deyilənlərə görə, Şeyx Zahid Snyavurd kəndində dəfn edilib. Onun məqbərəsini bir neçə dəfə su basdıqdan sonra Şah İsmayılın atası Şeyx Heydər (1460-1488-ci illər) bir neçə





məşhur bənna və nəccarla məqbərəni Şıxakəran kəndinə köçürür.

Şeyx Zahidin böyük əkin sahələri olub. 30-cu illərə qədər o sahələr dururdu.

Bu gün Şeyx Zahidin 42-ci nəvəsi Türkiyədə - İzmirdə yaşayır.

## BABA SƏMƏND TÜRBƏSİ



Deyilənlərə görə, vaxtilə 7 qardaş islam dinini təbliğ etmək üçün Lerik bölgəsinə gəlirlər. Zaman keçdikcə bu qardaşların hərəsi bir diyara düşür, məskunlaşırlar.

Bu qardaşlardan biri də Baba Səmənd idi. Baba Səmənd və onun əshabələri Tükəvilə kəndində yaşayır və orada rəhmətə gediblər. Onun qəbri üstündə ucaldılmış türbəyə uzun illər Məşədi Daşdəmirin babası **Baba Səmid** baxıb. Ondan sonra kəndin ağsaqqalı olmuş **Hacı** ocağa nəzarət edib.

Bu gün isə **Məşədi Aydəmir** qədim ocaqda xidmət göstərir. O, öz əvvəlki görkəmini itirmiş ocağı abadlaşdırmış, ziyarətgaha yol çəkdirmişdir.

Bu ocağın möcüzələri çox olub.

Bilməməzlik ucbatından türbədən sinə daşını evinə aparıb çox bəlalar çəkən kənd sakini o daşı yenidən yerinə qoyandan sonra şəfa tapıb.

Müxtəlif əzaları ağrıyanlar özlərini o daşa sürtür və nicat tapırlar.

Aşura günü türbənin həyətindəki palıd ağacından qan gəldiyini çoxları görüb. Bu ocağa niyyət diləyib, pənah gətirənlər həmişə öz diləklərinə çatıblar və bundan sonra da çatacaqlar.

İnşallah!

## BABA RƏHMAN OCAĞI



Lerik yolunun üstündə, sıx meşəlikdə, şimşər ağaclarının əhatəsində olan Baba Rəhman ocağı qədim qəbirstanlıqda yerləşir və XV əsrə aid edilir.

Çox qəribədir ki, ocağın yanından keçən çayın səsi eşidilmir.

Kəndin 82 yaşlı sakini **Səfər Məmmədqulu oğlu Abbasov** danışır ki, keçmişdə burada 3-4 metr uzunluğunda qəbirlər vardı. Çayın o üzündəki daşlara "Div qəbirləri" deyərdilər. Deyilənlərə görə Baba Rəhman 7 qardaş olublar. Onların hərəsi bir obaya düşüb: Babagil ocağı, Baba Səmənd ocağı, Baba Rəhman bu qardaşların adı ilə bağlıdır.

Ocaq 1995-ci ildə əsaslı surətdə təmir edilib. Pilləkənini kənd sakini **Heybət Hüseynov, üstünü isə Əhəd Əhədov** düzəltdirib. **Hacı Şirəli** isə öz övladları ilə birlikdə ocağa su çəkdirib. Şovu kəndinin camaatının vəsaiti ilə Baba Rəhman ocağı hasara alınıb.

Ocağa uzun illər **Mehdiyev Hacı Əli Şıxəli oğlu** xidmət göstərib. Hal-hazırda isə onun oğlu **Əkrəm və anası Qızbəs Manaf qızı** ocağa gələnlərə xidmət göstərir. Baba Rəhman ocağı əsrlərin sınağından keçmiş sınaqlı ziyarətgahlarımızdandır.





## HACI SEYİD MİRSÜLEYMAN SEYİD MİRBƏNDƏLİ OĞLU

Ulu Tanrı kainatı, ulduzları yaratdı. Bu yaradıcılıq nəhayət yer kürəsində tamamlandı. Hər nə yaratdısa öz zövqünə uyğun, bənzərsiz gözəlliklə yaratdı. Əlalxüsus sondan yaratdığına qurub-yaratmaq, nəsil artırmaq rizası verdi. Və öz mələklərini yer üzündəki bu gözəl insanın, gözəl məkanın sahibinin əməlinə, onun oxşarsız bəndəsinə sitayişə, ziyarətə yendirdi. Məleykələr endirilən ilk bəşər beşiklərindən biri də Azərbaycanın Lənkəran ərazisinə düşür.

"Kafir olanların və insanları Allah yolundan döndərənlərin əməllərini Allah puç edəcəkdir.

İman gətirib yaxşı əməllər edənlərin, Rəbbindən Məhəmmədə haqq olaraq nazil edilənə- Qurana inananların isə günahlarının üstünü örtəcək, onların əhvalını dünyada və axirətdə yaxşılaşdıracaqdır."

***Qurani-Kərim.***

Peyğəmbərlərimizin son varisləri olan bu cür din xadimlərinin dünyaya gəlişi Tanrının bizə olan məhəbbətinin ifadəsidir. Çünki ömrü boyu belə insanlar öz ətrafında olanları dürüstlüyə, paklığa, ədalətli olmağa çağırır. Bu cür nurani simalardan biri də el ağsaqqalı, ilahi vergili seyid, qadir Allahın sınanmış bəndəsi Hacı seyid Mirsüleyman ağa olub.

Soy kökü İmam Cəfəri Sadiq ə.s.-ya bağlanan **Hacı seyid Mirsüleyman ağa** 1840-cı ildə anadan olmuşdur. Ulu babası Museyi Kazım ə.s.nın qardaşı seyid Piridir. Seyid Süleyman ağa dünyaya gələndə dünya nura qərq oldu. Baxışları, hərəkətləri, nurani sifəti onun gələcək taleyindən, xeyirxah əməllərindən xəbər verirdi. Yaradandan başqa heç kim bilməzdi ki, bu uşağın gələcək taleyi necə olacaq, o hansı yolu tutacaq. Ancaq onun nurlu seyid olacağı özünü biruzə verirdi.



Mirsüleyman ağa həyatı boyu öz xeyirxahlığı, dürüstlüyü, möcüzələri və əməlləri ilə el arasında böyük nüfuz qazanmış, özünü camaata sevdirmişdi. Xoş əməllər carçısı idi. Haqqında bu gün də el arasında çoxlu xoş xatirələr danışılır. O, öz xeyirxah əməllərini camaatdan əsirgəməzdi. Hacı çox ağır nəfəsli, sınaqlı seyid idi. Çıxartdığı ayaqqabıları özü cütlənər, çırağı qeybdən yanarmış. Ağanı tanıyanlar dəfələrlə bunun şahidi olmuşdular.

Hacı seyid Mirsüleyman ağa bir müddət Lerik rayonunun Çayrud kəndində yaşayıb. Ağanın 7 oğlu, 3 qızı olub: **Kərbəlayi seyid Mirxanış, seyid Mirsaleh, seyid Mircavad, seyid Mirsəməd, seyid Mirqubad, seyid Mirmaşallah, seyid Mirqələm.**



Hacı seyid Mirsüleyman ağanın böyük oğlu Kərbəlayi Mirxanış Lənkəranda ticarətlə məşğul olurdu. 1908-ci ildə Mirxanış ağa qırmızı kərpicdən iki mərtəbəli ev tikdirmiş və atası Hacı Mirsüleyman ağanı ailəsiylə birlikdə Lənkərana gətirmişdir.

Kərbəlayi Mirxanış ağanın iki oğlu olub: **seyid Ağamirzə və seyid Mirkərim.**

Seyid Mirkərim ağa Böyük Sovetlər ölkəsinin müdafiəsi zamanı şəhid olmuşdur. Bir qızı, bir oğlu olub. Övladlarının hər ikisi haqq dərgahına qovuşublar.

Allah onlara rəhmət eləsin, qəbri nurla dolsun!







Seyid Ağamirzə ağanın böyük oğlu **seyid Mirəhəd ağa** 1928-ci ildə Lənkəranda anadan olmuş və 1986-cı ilin sentyabr ayında rəhmətə getmişdir. Onun altı oğlu, bir qızı var. Bir oğlu **Mirhabil ağa** vəfat edib. O biri oğlanlarının adları seyid **Cabir, seyid Nasir, seyid Vüqar, seyid Əfqan** və **seyid Qorxmazdır .**

Seyid Ağamirzə ağanın o biri oğlu **seyid Mirhəmid ağa** 1932-ci ildə Lənkəran şəhərində anadan olmuşdur. Onun gözləri dünya işığından məhrum olsa da qeyri-adi fitri istedada, qabiliyyətə malikdir. Onun bu istedadını görən dayısı **Molla Ağakazım** bacısı oğluna dərin dini savad vermiş və onu öz yolunun davamçısı etmişdir. Seyid Mirhəmid ağa bütöv Azərbaycanın şimallı-cənublu bir çox ziyarətgahlarında, ocaqlarında olmuş, 1993-cü ildə isə övladları ilə birlikdə müqəddəs Xorasanı da ziyarət etmişdir.

Allah qəbul eləsin.



Seyid Mirhəmid ağa el-obanın xeyir-şərinin yaraşığıdır. Xalqın yas mərasimlərini təmannasız yola verir, ölü götürür, "Yasin" oxuyur, sinədən mərsiyyələr deyir.

**Məşədi seyid Mirhəmid** ağanın möcüzələri çoxdur. Onun üstünə pənah gətirənlər heç vaxt naümid olmayıblar. Bu yaxınlarda ağzı əyilmiş bir nəfəri onun yanına gətirmişdilər. Ağa üç gün ardıcıl həmin şəxsə gündə bir sillə vurmaqla müalicə elədi, həmin şəxsin ağzı düzəldi və ağaya öz minnətdarlığını bildirdi.

Mirhəmid ağanın 3 oğlu, 3 qızı var: **seyid Mirsabir, seyid Mirqabil, seyid Mirsadir.**

**Kərbəlayi seyid Mirəhməd seyid Ağamirzə oğlu** 1934-cü ildə Lənkəran şəhərində anadan olub. Ağa 1997-ci ildə bacıları ilə birlikdə Kərbəla ziyarətində olub. Ağanın seyid Mirfuad adlı bir oğlu, beş qızı var.

Seyid Ağamirzə ağanın övladlarından biri də seyid Mirmüslüm ağadır. Mirmüslüm ağa 1945-ci ildə Lənkəran şəhərində dünyaya gəlmişdir. Yaradanın bizə verdiyi buyruqlara əməl edir. **Seyid Mirramin, seyid Mirsamid və seyid Mirvaleh** kimi 3 nurlu oğul və 1 qız atasıdır.

Ailənin sonbeşiyi Məşədi seyid Mirkamal ağa da 1952-ci ildə Lənkəranda doğulub. 1994-cü ildə Xorasana gedərək müqəddəs məkanı ziyarət edib. Seyid Mirkamal ağanın 2 oğul, 2 qız övladı var. Oğlanları seyid Mirvüsal və seyid Mirelnurdur.



Tanrı onların əməllərini layiqincə qiymətləndirər, inşallah.

Deyirlər, ağsaqqal olan yerdə xeyir-bərəkət, əmin-amanlıq olar. Seyid- peyğəmbər övladları xalqımız tərəfindən həmişə dərin hörmətlə qarşılanıb, insanlar onları ziyarət etməkdən mənəvi qida alıblar. Uca Tanrıdan arzu edirik ki, bu müqəddəs bəndələri el-obadan, camaatın üstündən əskik eləməsin. Qoy seyidlərimizə, övliyalarımıza öz xeyirxah əməllərini, müqəddəs işlərini davam etdirməkdə Böyük Yaradanımız yardımçıları olsun.





## SEYİD MİRİSLAM SEYİD MİRABBAS OĞLU



Allah-təalanın qüdrəti, kəraməti hədsiz, sonsuzdur. İlahi öz qüdrətini yerlərə öz mələkləri, peyğəmbərləri, imamları, seyid və müqəddəs adamları ilə göndərir.

Sirr deyil ki, həyatda elə bir insan tapmaq olmaz ki, ünsiyyət bağlayıb, cəddinə tapındığı seyidlərimizin kəraməti ilə rastlaşıb, onların ilahi vergisinin şahidi olmasın. Dediklərimizi sübut etmək üçün hər birimizin başına gələn bir mənzərəni yada salaq.

Səhər evdən çıxıb iş dalınca və ya hansısa səfərə yollanan adamın qarşısına kəndlərinin, obalarının müqəddəs adamı, seyidi çıxanda nə qədər böyük sevinc hissi keçirir və həmin gün mütləq işimizin yaxşı gedəcəyinə əmin oluruq.

Bəli, seyidlərimiz- ilahinin seçilmiş bəndələri sirr, kəramət sahibidirlər.

Liman şəhəri Lənkəran-Bakı dəmir yolu şose yolunda, Xəzər dənizi sahilində, rayon mərkəzindən 12 km şimalda yerləşir. Rayon tabeliyində olan şəhərdir. 1922-ci ildə Xəzər dənizi sahilində tikilmiş ilk sovet limanıdır. 14-cü Ümumbakı partiya konfransının qərarı ilə 1922-ci ildə V. I. Leninin şərəfinə Port-İliç adlandırılmışdır.

1935-ci ildə şəhər tipli qəsəbəyə, 1971-ci ildən isə Lənkəran rayonunun tabeliyində olan şəhərə çevrilmişdir.

1922-ci ilə kimi Port-İliçə yerli camaat rus sözündən olan "Pereval", yəni "aşırımlı keçid" deyirdilər. Bu ad ona Sarı adasına və Qızılağac körfəzinə su keçidi yolu olması ilə əlaqədar verilmişdi.

Bu qəsəbədə yaşayıb insanlara nur, mərhəmət, xoş-əhval ruhiyyə bəxş eləmiş **seyid Mirislam ağanı** Allah-təala doğu-

lan gündən qeyri-adi yaratmışdı. O, dünyaya gələndən çoxlarından əllərində təkcə 6 barmağı olması ilə deyil, bir çox məziyyətləri ilə də seçilirdi. Dünyaya təzə gəlmiş körpənin siması göy parçası kimi nur saçırdı.

Bəli, 1930-cu ildə Masallı rayonunun Qızılağac kəndində, Seyidlər məhəlləsində, seyid Mirabbas ağanın ocağında dünyaya gəlmiş Mirislam ağa ömrü boyu -1984-cü ilə qədər insanları öz kəramətləri ilə heyrətləndirdi, ilahi vergisi ilə dərdliləri, bəlaya düçar olanları, pis gözə gələnləri xətalardan qurtardı. Onlara inam, etiqad əta elədi.

Seyid Mirislam ağa qızılağaclı **seyid Mirhəsən ağa** ilə doğma əmioğlu idi.

Körpə vaxtından Liman qəsəbəsinə köçən Mirislam ağa həm işlədiyi qəsəbədə, həm də ətraf yerlərdə böyük nüfuz qazanaraq, ellərin nurlu bir seyidi, gözü-könlü tox bir insan kimi ömür yaşadı. Haqq dünyasına qovuşandan sonra camaatın xahişi ilə qəsəbədə torpağa tapşırıldı. Müqəddəs qəbrinin üstündə eloğlumuz **Vaqif Abbas oğlu Abbasov** tərəfindən möhtəşəm kümbəz ucaldıldı.

Vaqif müəllim Dubaydan səfərdən qayıdarkən təyyarənin mühərriki xarab olur və suya düşməyə başlayır. O, Mirislam ağanın cəddini köməyə çağırır. Sanki möcüzə baş verir. Təyyarə ilahinin qüdrəti, Mirislam ağanın cəddi sayəsində yenidən havaya qalxır və sərnişinlər xətadan qurtarır.

Mirislam ağa möcüzəli seyid idi. Onun evi yolun kənarındadı. Təsərrüfatı çox sevən ağa qapısında qoyun-quzu da saxlayardı.

Bir gün yoldan keçən bir maşın ağanın 2 qoyununu vurur. Sürücü çox pis hala düşür. Qoyunların pulunu vermək istəsə də, Mirislam ağa razı olmur, əksinə, qoyunun birini ona verir. Sürücü etiraz eləsə də, ağa deyir ki, sözümü çevirmə.

Bir gündən sonra həmin sürücü qohum-əqrabasını da götürüb ağanın ziyarətinə gəlmişdi...

Mirislam ağanın ocağına başqa millətlərin nümayəndələri də pənah gətirərdilər.





Bir gün ana Xəzər yenə də aşıb-daşırdı. Dənizdə olarkən rus millətindən olan bir nəfər burulğana düşür, onun cəddini köməyə çağırır. Fırtına sakitləşir. Fəlakətdən qurtulan həmin şəxs gəlib ağanın ayaqlarına düşmüşdü.

Bu gün Mirislam ağa aramızda yoxdur, amma balaları **seyid Mirkazım, seyid Ağa, seyid Ağadil (onu da qeyd edək ki, Ağadil ağanın da əllərində 6 barmağı var-red.), Mirxanım, Mirxatın, Mirsüdabə** şərəflə atalarının yolunu davam etdirirlər.

Ağanın ocağında oğlu seyid Ağa oturur. O da ata-babası kimi əhli-ibadətdir.

Oğlu **Mirislam** Quranı çıxıb. Ağanın **Pərviz, Ramin, Mirislam adlı oğlanları, Aygün və Nəzakət** adlı qızları;

Seyid Mirkazımın isə iki oğlu, bir qızı var: **seyid Ismayıl, seyid Kamran və Vüsalə.**

İlahi vergili Ağadilin isə övladlarının adı **Ilkin, Suğra (anasının adını qoyub) və Könüldür.**

Onu da qeyd edək ki, Liman şəhər qəbirstanlığının girəcəyindəki məscidi şəhər sakini **Zakir Təyyaroğlu** tikdirib.

Tikinti işlərini isə qardaşı **Azad** görmüşdür.

Allah seyid Mirislam ağaya rəhmət eləsin.

**Bir iş görmək istəsən, sonunu düşün:**

**sonu xeyirdisə ondan yapış,**

**şərdirsə fikrindən daşın**

## SEYİD MİRİ AĞA

Soy kökü VII imamımız Müseyi-Kazım (ə.s.)-a bağlanan, əslən Mazandarandan olan seyid Miri seyid Mirənnağı oğlu ömrünü, gününü insanlara həsr etmiş, el-obanın işlərini ləyaqətlə yola vermiş, camaata mənən rəhbərlik etmişdir.

Bir gün seyid Miri ağa səfərdən qayıdırmış. Görür ki, ev qaranlıqdır. Soruşur ki, lampanı niyə yandırmamısınız?

Cavab verirlər ki, bəs lampa sınıb. Ağa deyir ki, mənim lampam sınmaz. O biri otağa keçib görürlər ki, doğrudan da lampa sınmayıb, özü də yanır...

Aclıq, qıtlıq illərində uşaqlar korluq çəkirmiş. Bir gün ağa ixtisarə edib ulu Yaradandan kömək istəyir.

Sabah iki atlı ağaya qonaq olur. Bir çuval da un gətirmişdilər. Un çox bərəkətli idi. Hey işlədər, qohum-qonşuya paylayardılar, amma un qurtarmaq bilmirdi. Ta o vaxta qədər ki, axırda həyat yoldaşı ağzından söz qaçırır, sirri faş edir...

Seyid Miri ağanın oğlanları **seyid Mirabdulla, seyid Mirqulamhüseyn** və **seyid Mirismayıl** da ata-babaları kimi ilahi vergili, müdrik, ağır nəfəsli seyidlər olublar.

## SEYİD MİRQULAMHÜSEYN AĞA



Xalqımız zaman-zaman müxtəlif soyqırımlara məruz qalıb. Hələ əsrin əvvəlində Azərbaycanda Şura hökuməti qurulan il öz azadlığı uğrunda mübarizəyə qalxan Gərgəlan camaatını bolşeviklər süngüdən keçirir, bir nəfərin ölümünə görə günahsız insanları qətlə yetirirlər.

Şəhid olanlar arasında seyid Mirqulamhüseyn ağa da vardı. Yurdunda övladları **Mirhəsən** və **Mirnənəşi** qoyub, şəhidliyin zirvəsinə yüksəldi.





**Seyid Mirhəsən ağa** (1911-1961) atasından dini təhsil almışdı. Uzun illər mexanizator, briqadir işləyib. Var-dövlətini camaatdan əsirgəməyib. Bir el ağsaqqalı, müdrik bir insan kimi camaata pasiban durub. Kəndin xeyir-şər işlərinin yaraşığı idi.

Övladları **seyid Mirqulam, Məşədi seyid Mirbaba** (ağanın yurdunda o oturur, 1994-95-ci illərdə Məşhədi üç dəfə ziyarət edib), **Mirfatma, Mirbahar, Mirbacı, Mirnənəş, Mirbəyim** və **Mirbanu** atalarına layiq övladlardır.

Allah başacan eləsin!

## SEYİD MİRAĞA



Seyid Miri ağanın nəvəsi seyid Mirağa seyid Mirismayıl oğlu öz dərin biliyinə, iti fəhminə, kəsərli nəfəsinə görə babasına daha çox oxşayırdı.

Seyid Mirağa 1913-cü ildə bu kənddə anadan olmuşdu. Ali təhsil almasa da, keçməkeşli həyat tərzi yaşamış, zamanın sınaqlarından üzüağ çıxmış, sovet hakimiyyətinin qısqılarına səbrlə dözmüş və heç vaxt öz yolundan dönməmişdi. Müharibə illərində arxa cəbhədə işləmiş, camaata əlindən gələn yaxşılıqları etmişdi. Neçə-neçə ac insanı ölümün pəncəsindən qurtarmışdı seyid Mirağa.

Ölümü də bir sirri-xuda idi. 1983-cü ilin mart ayının 28-də babasını yuxusunda görür, üç gündən sonra öz istəkli Allahına qovuşacağını bildirir. Ağa öz övladları **Mirismayılı, Mirbəşiri, Mirəhmədi, Seyidağanı, Mirzadəni, Mirkərimi, Mirsuqranı, Mirgursümü, Mirxanımı, Mircavadı, Mirzəhranı**

və bu gün ocağında oturan, onun yolunu davam etdirən Mirələmi başına yığır, onlarla halallaşır və martın 31-də heç kəsə əzab-əziyyət vermədən rəhmətə gedir.

Allah rəhmət eləsin.

Seyid Miri ağanın digər oğlu **seyid Mirabdulla ağa** haqqında qısa da olsa məlumat verməyi özümüzə borc bilirik.

Seyid Mirabdulla ağa da bu kənddə doğulub, boya-başa çatıb. Iki oğlu, bir qızı var: **seyid Mirməhəmməd, seyid Mirqasım və Mircahan.**

Seyid Mirməhəmmədin isə 2 oğlu, 2 qızı var: **seyid Mirtaleh, seyid Mirənnağı, Mirtuğra və Mirşövkət.**

Allah bütün rəhmətə gedən imam-peyğəmbər övladlarına rəhmət eləsin.

**Yoxsula sədəqə vermək özünü gələcək bədbəxtlikdən hifz etmək deməkdir. Yetimlərə yardım edən cənnəti satın alır.**





## MƏŞƏDİ SEYİD MİRSALEH AĞA



Olmasın kəm imam övladı seyid Mirsaleh.
Cəddi nurlu, özü mövladı seyid Mirsaleh.

Gül onun pak nəfəsi, Kövsər onun hikmətidir,
Mərhəmət, nur dolu dəryadı, seyid Mirsaleh.

Xoş əməl çarçısıdır, sirli, müqəddəs bu ocaq,
Müşkül iş açmağın ustadı, seyid Mirsaleh.

Çağırır cəddini, bimara ki, olsun köməyi,
Diləyir Tanrıdan imdadı, seyid Mirsaleh.

Cəmlənir el bu müqəddəs yerə pərvanə sayaq,
Darda qoymaz qala bərbadı, seyid Mirsaleh.

Dəstəgül, varmı bərabər ona şəfqətdə görən,
Tanrıya eşqdi, sevdadı seyid Mirsaleh.

**Dəstəgül Zamanlı**

Azərbaycan xalqı öz mentalitetinə, milli-mənəvi və əxlaqi dəyərlərinə görə həmişə müsbət mənada fərqlənib. Minilliklərin, əsrlərin sınağından keçə-keçə gəlib bu günümüzə çatan adət-ənənələrimiz, qədim Odlar yurdunun dünya sivilizasiyasının əski beşiklərindən biri olduğunu sübut edir.

Xalqımız qədim mədəniyyət və yüksək mənəviyyat sahibi olduğu üçün bizlərdə böyük-kiçiyin yeri sayılmış, bilinmiş, ağsaqqal və ağbirçəklərə hörmət və ehtiram göstərilmiş, seyid-peyğəmbər övladının yeri uca tutulmuşdur.

Azərbaycan xalqının fərqli xüsusiyyətlərindən biri də onun qonaqpərvərliyidir. Münbit və bərəkətli torpaqlarımız və geniş ürəyimiz çoxları üçün ümid yeri olmuş və dara düşənlər bizim yurdlarımıza pənah gətirmişlər. Peyğəmbər övladları,

seyidlər, üləmalar öz vətənlərindən didərgin salınsalar da, Azərbaycanda hörmətlə qəbul edilmiş, onlar böyük izzət və nüfuz sahibi olmuşlar.

Həzrət Əli (ə) nin sözləridir: "Hər bir insanın qiyməti onun etdiyi yaxşılıqlarla ölçülür".

Bu qiymətli kəlam- kəramət sahibi olan Məşədi seyid Mirsaleh ağaya yetərincə şamil edilə bilər. Onun atası rəhmətlik seyid Mirtağı ağa ağır seyidlərdən olub. Ağanın cəddini köməyə çağıranlar həmişə nicat tapıblar. Insanlar seyid Mirsaleh ağa ocağına inanıblar, bu ocağa tapınıblar.

**Fəxr edirik səninlə,**
**Şəfa tapdıq əlinlə,**
**Qalacaq əməliylə**
**Seyid Mirsaleh ağa.**
**Idris Şükürlü**

Azərbaycanımızın gözəl, əsrarəngiz təbiətli guşələrindən biri də Lənkərandır. Şəhərin yaxınlığında yerləşən Kərgəlan kəndi həm füsunkar gözəlliklərinə, həm də müqəddəs ocaqlarına görə insanları cəzb edir. Buradakı seyid Mirsaleh ağa ocağına çoxları yığışır, ağanın cəddini köməyə çağıraraq ümidlərini ona və göydəki ulu Tanrıya bağlayırlar. Onun atası da ağır kəramət sahibi idi...

Ağsaqqallar danışırlar ki, bir dəfə ağanın qonağı varmış. Çırağın nefti qurtardığından lampa sönür. Çox sadə və qonaqcanlı bir insan olan seyid Mirtağı ağa qonşuya özü gedir. Bir azdan geri qayıdan seyidin ətəyi isti közlə dolu idi. Qonaqlar təəccübdən donub qalırlar. Qaynar köz ağanın nə əllərini, nə də ətəyini yandırmışdı.





Məşədi seyid Mirsaleh ağa belə müqəddəs bir insanın övladıdır. Ağanı tez-tez Lənkəran-Lerik yolunun üstündə görmək olar. O, yolun iki tərəfi ilə gedən maşınların mənzil başına sağ-salamat, xətərsiz çatması üçün xeyir-dua verir, sərnişinlərə yaxşı yol arzulayır. Ağanın cəddini çağıranlar da həmişə xeyir tapıb, istəklərinə çatıblar.

Tarixən Azərbaycanda olan ocaqlar milli- mənəvi dəyərlərin qorunub saxlandığı yerlər olublar. Bu ocaqları ziyarət edənlər şəfa diləmək, xəstəliklərdən qurtulmaq, yoxsullara yardımçı olmaq, ruzi tapmaq üçün dualar ediblər. Məşədi seyid Mirsaleh ağanın da evi həmişə Allah qonağı ilə doludur. Onun ocağına pənah gətirənlərə ağa əlindən gələni edir, son tikəsini belə onlarla yarı bölür. Axı Həzrət Əli (ə) deyib ki, "hər kəs mömin qardaşını şadlandırsa, biz əhli-beyti şadlandırmış olar". Elə bu səbəbdən də ağamız kimsəsizləri, yoxsulları, xəstələri, ümummiyyətlə problemlərə düçar olanları şadlandırır, onları sevindirir.

Deyirlər, dua Tanrı ilə insan arasında bir söhbətdir, bir əlaqə, ünsiyyət vasitəsidir. Dua özü də bir ibadətdir. Sevimli peyğəmbərimiz Məhəmməd (s) buyurub ki, Allahın yanında duadan qiymətli heç nə yoxdur, dua möminin silahıdır, dinin dirəyidir, göylərin və yerin nurudur. Seyid Mirsaleh ağa ömrü boyu yüksək əxlaqı, nümunəvi davranışı ilə seçilib. Ağa duanın hikməti barədə belə söyləyir:

-Dua- Allahdan istəməkdir. Hədislərdə deyirlər ki, Allah öz bəndəsinin ah-naləsini eşidəndə mələklərə deyir: Mən bəndənin yalvarışını sevirəm, qoy bəndə çox ah-zar etsin.

Ağa 13 övlad böyüdüb, 12 nəvə və 1 nəticə sahibidir: **seyid Mirhüseyn, seyid Mirmehdi, seyid Mirəhməd, seyid Ağalar, seyid Ramin, seyid Mais, Mirzəhra, Mirməryəm, Rəfiqə, Mirtuqra, Rayidə, Nəzakət və Naidə.**

Oğlanlarından Ramin dini təhsil alıb.

Ağanın Mirəhməd adlı oğlu söyləyir ki, o, keçmiş SSRI-nin demək olar ki, bütün şəhərlərində olub və orada yaşayan soydaşlarımızla görüşüb: "Hər yerdə də ağanın ceddinin uca tutulmasının şahidi olmuşam. Tanıdığım və tanımadığım insanlar biləndə ki, ağanın övladıyam, müxtəlif vaxtlarda ceddimizin onlara şəfaətedici təsirlərindən mənə danışırlar"...

Bakı sakini **Etibar Vəliyev** seyid Mirsaleh ağanı təbiblərin təbibi, loğmanların loğmanı adlandırır. Elə bir loğman ki, iynəsiz və dərmansız şəfa verir, insanları dardan qurtarır, bağlı qapıları açır, insanları bəd nəzərlərdən qoruyur. Etibar özü həkimdir. Amma xəstələrə tibbi yardım göstərən zaman seyid Mirsaleh ağanın ceddini çağırır.

**Hacı Əbdüləzim Əbülfət oğlu** söyləyir ki, ailədə xəstə adam olanda ağanın ceddini köməyə çağırırlar. O zaman həkimə ehtiyac qalmır, xəstənin əhvalı yaxşılaşır.

**Kənd sakini Hacı Qalib Kərimov, Məşədi Əjdər Molla Mürsəl oğlu, Məşədi Daşdəmir** və onlarla başqa eloğlularımız ağanın möcüzələrindən, xeyirxahlığından, səxavət və kəramətindən danışdı.

**Mirbaba Miriyevin** danışdığı əhvalat da ağanın müqəddəs ceddinin kəramətindən xəbər verir.

Belə ki, keçmiş Sovetlər Birliyinin mövcudluğunun son illərində o, ərzaq gətirmək üçün Rusiya paytaxtına getmişdi. Azərbaycanda ərzaq qıtlığı idi. Rusiyadan ərzaq gətirmək müşkül bir iş idi. Mirbaba deyir ki, Moskva milisi hamını axtarırdı. Həyəcan içində olan o, birdən ağanı yadına salır, Mirsaleh ağanın ceddinə nəzir niyyət eləyir. Elə bu zaman milislərin gözü elə bil ki, bağlanır. Hamını yoxlayan hüquq-mühafizə işçiləri Mirbabaya çatanda onu yoxlamırlar.





Məşədi seyid Mirsaleh ağanın özünün də xəbəri olmadan etdiyi bu cür yaxşılıqların sayı-hesabı yoxdur.

***Ocağına gələn naümid qalmaz,***
***Əlini öpənlər qismətsiz olmaz,***
***Səndəki şəfanı Loğmanda tapmaz,***
***Ağanın hikmətinə, ceddinə qurban.***

Əminik və inanırıq ki, bundan sonra da Məşədi seyid Mirsaleh ağanın müqəddəs ocağına saf niyyətlə üz tutanların arzuları yerinə yetəcək, onlar ağanın şəfqət və kəramətinin xeyrini, faydasını, bəhrəsini görəcəklər.

Allah imanınızı kamil etsin. Amin!

**İqrar Cəfəroğlu,**
*"Azərbaycan" qəzetinin parlament müxbiri*

**Elm sənin məsləhətçin,**
**mötədillik sənin dostun,**
**ağıl sənin bələdçin, səbr sənin sərkərdən - bax bu dörd şeylə**
**sən dünyanı fəth edərsən.**

## SEYİD MİRNİZAM SEYİD MİRAĞA OĞLU


*Seyid Mirnizam ağa oğlu seyid Mirhaşımla*

Azərbaycanın bütün bölgələrində imam-peyğəmbər övladları, seyidləri, övliyaları yaşamış, xalqa, insanlara kömək etmiş, dərdlərini yüngülləşdirmiş, öz kəramətləri, möcüzələri, müqəddəslikləri ilə hamını heyrətləndirmişlər.

**Seyid Mirnizam ağa** da respublikamızın cənub bölgəsində öz təqvası, kəraməti, nəcibliyi, xeyirxah əməlləri ilə tanınmışdı. Atası seyid Mirağa Azərbaycana Ərəbistandan gəlmişdir. Bunun da öz qəribə tarixi var.

Deyilənlərə görə seyid Mirağanın üç bacısı olub. Iş elə gətirir ki, onun böyük bacısını qoca bir kişiyə ərə verirlər. Ağanın bacısı hər gün ağlayırmış.

Bu hadisənin üstündən bir il keçməmiş ağanın kiçik bacısı Rəbiyyəni də qoca kişiyə ərə vermək istəyirlər. Bacısı gecə-gündüz ağlayır. Qardaşına şikayət edib bildirir ki, ərə getmək istəmir.

Seyid Mirağa da atasına deyir ki, böyük bacımı qoca kişiyə ərə verib bədbəxt elədin. Heç olmasa Rəbiyyənin bədbəxtliyinə bais olma.

**Atası isə cavabında:**

-Qız mənimdir, özüm bilərəm, kimə ərə verirəm,-deyir.

Atasının inadını görən seyid Mirağa xəlvətcə bacısı Rəbiyyəyə deyir ki, fikrin qətidirsə, gəl buradan çıxıb gedək. Evdəkilər bilməsin, pal-paltarını, əşyalardan lazımlısını və yatacaq götür, yığ at tövləsinə. Mən deyəndə, hazır olarsan.





Seyid Mirağa həmin axşam tövlələrindən üç at götürüb, birinə özü, birinə bacısı Rəbiyyəni mindirir, o biri ata isə xalça-palaz və ev əşyalarını yığıb Iraqın Mahmudiyyə kəndindən yola düşür. Onlar Lənkəranın Göyşaban kəndinə gəlib çıxırlar.

Yay vaxtı imiş. Bacı -qardaş palaz sərib bir ağacın gölgəsində dincəlir, öz aralarında ərəb dilində danışırmışlar.

Onları görənlər kəndxudaya xəbər verirlər. Kəndxuda əvvəlcə onları ər-arvad hesab edir. Lakin sonradan söhbət zamanı onların bacı-qardaş olduqlarını bilir və başlarına gələnlərdən hali olur. Camaat da onlara torpaq sahəsi ayırır. Seyid Mirağa bu eldə ev tikir və onlar bir müddət burada yaşayırlar.

Seyid Mirağa ağa bacısını Göyşabanda ərə verir (deyilənə görə bacısı Rəbiyyə xanım çox gözəl olub). Sonra özü Lənkərana köçür və seyid Mirgülsüm adlı bir qadınla evlənir.

Onların 4 uşaqları dünyaya gəlir: **seyid Mirsadıq, seyid Mirnizam, Mirfatma və Seyidxanım.**

Seyid Mirağa çavuşluq edər, Azərbaycandan Kərbəlaya ziyarətə gedənləri aparıb-gətirərmiş. Xanımı **Mirgülsüm ağanın** səfərdən qayıdacağı günü də bilərmiş. Göz-qulaqda olarmış ki, ağa səfərdən nə vaxt dönəcək.

Seyid Mirağanın həddindən artıq gözəl səsi varmış. Lənkəranın Nüvədi kəndinə çatanda seyid ucadan Imam Hüseynin şəninə oxuyarmış. Mirgülsüm xanım onun səsini eşidib plovu hazır edərmiş ki, seyid Mirağa gəlir. Mehriban və gülərüzlə ağanı qarşılayarmış.

Bir dəfə səfərə gedəndə seyid Mirağa atdan yıxılır, xəsarət alır və Kərbəlanın həyətində də rəhmətə gedir. Yığışıb onu orada- İmam Hüseyn (ə.s.)-nin ayağının altında dəfn edirlər.

Lənkəranda **Gülsüm** xanım 4 körpə uşaqla tək qalır. Çətinliklə olsa da uşaqlarını böyüdüb ərsəyə çatdırır.

**Böyük qızı Mirfatmanı Məşədi Əzizbəyovun dayısı Məşədi Abdullaya ərə verir.**

Seyid Mirnizam ağa kiçik yaşlarından zəhmətə qatlaşıb. Hələ körpə yaşlarından gücü çatan qədər ailəyə kömək edərdi. Gənc yaşlarından qəbir daşları yonub baş daşları düzəldər, bir tikə halal çörəyini qazanardı.

Seyid Mirnizam ağa həddindən artıq dindar, şəriətə dəqiq əməl edən imam-peyğəmbər övladı, Allahı, düzgünlüyü sevən insan idi.

Həmişə məhərrəmlik mərasimlərində teşt qoyub Imam Hüseyn (ə.s.)-ya təziyyə saxlayardı.

**Sənubər xanım, ağanın qız nəvəsi:**

- Mənim yadıma gəlir ki, teşt qurulan otaqda nənəmlə bir yerdə yatardıq. Amma ağa nədənsə o otağa tək girməyə çəkinərdi. Bir gün nənəmdən soruşdum ki, ağa niyə təziyyə olan otağa girməyə qorxur?

Nənəm cavabında dedi ki, Sovet hökuməti qurulandan sonra belə şeyləri qadağan etmişdilər. Biz isə gizlicə təziyyə saxlayardıq. Həmin otağın qapı-pəncərələrini də bağlayardıq ki, heç kim bilməsin.

Hər gün axşam üstü ağa gəlib qapını açar, lampanı yandırıb otağı işıqlandırarmış. Bir gün də içəri girəndə görər ki, otaqdakı lampa yanır. Otaqda qara çarşablı arvadlar isə "Ya Hüseyn, vay Hüseyn",-deyib ağlaşırlar.

Seyid Mirnizam ağa qışqırıb həyat yoldaşı Tutu nənəmi çağırır. Nənəm səsi eşidib haya gəlir. Mirnizam ağanın yerə yıxılıb özündən getdiyini görür. O gündən etibarən Mirnizam ağa təziyyə olan otağa girməzdi.

Seyid Mirağa ağa Göyşabana köçdükdən sonra ev başlı-başına qaldığına görə sökülüb-dağılır. Lənkəranda Aşura vaxtı camaat ələm götürüb gəzərmiş. Belə rəvayət edirlər ki, ələm onları çəkib həmin ocağa apararmış. Ancaq adamlar bilmirmiş-





lər ki, vaxtı ilə bura Kərbəladan gəlmiş seyid Mirağa ağanın ocağı olub. Sonralar camaat bundan xəbər tutdu.

Seyid Mirnizam ağanın gözəl səsi olduğuna görə, yaxşı mərsiyə deyər, orucluq duası oxuyarmış. Bütün məhəllə bu ocağa gəlib özü üçün şəfa istəyərmiş. Övlad payı istəyənlər öz niyyətlərinə çatarmış. Teştə yığılan nəzir pullarının hesabına ocaqda 40 gün ehsan verilərdi. Müharibə illərində ağa ehsan verilən zaman yetim, kimsəsiz, gündüzlər bazarda, axşamlar isə hamamın gülxanında yatan uşaqları yığıb evinə gətirər, böyük mis məcməyilərdə onları doyunca yedizdirərdi. Yeməyin qalanını isə məhəllədə ev-ev paylatdırardı.

Seyid Mirnizam ağa heç vaxt nəzir pulunu evə, özünə sərf eləməzdi. Deyərdi ki, cəddim yolçuluq etməyib. Ağa bacardığı qədər xeyriyyəçilik edər, öz qazancı hesabına imkansızlara, kasıb-kusuba yardım göstərər, onlara həyan olardı.

Seyid Mirnizam ağanın 3 övladı olub: **seyid Mirhaşım, Mirgülsüm və Mirtacı.**

Seyid Mirnizam Haşımi ağa görkəmli alim və tanınmış ziyalı, şəriətimizin qızğın təbliğatçısı idi . Onun müxtəlif məzmunlu şerləri ilə yanaşı 75-dən çox mərsiyyələri olub. Onlardan birini nəzərinizə çatdırırıq:

Dur ayağa anam oğlu məni nalan gedirəm,
Şami-Şümə baş açıq didəsi- giryan gedirəm.

Ayırır zülm ilə səndən məni bu ləşkəri kin,
Məni biçarəyə aya kim olur yari- müin
Razi olma baş açıq Şamə gedə tazə gəlin,
Olmuşam Şümrə əsir xaru- pəşiman gedirəm.

Nə rəvadur qala bu dəştdə avarə bacun,
Gözü yaşlı, ürəyi dağlı, günü qarə bacun,
Bu qədər zülmə necə tab edə biçarə bacun,
Dəstgirəm qolu bağlı, qəmi- tüğyan gedirəm.

Aç gözün, bircə oyan Zeynəbin əfqanını gör,
Alışan atəşi- hicrə dili- büryanını gör.
Daği-dağ üstə sinəyi-süzanini gör
Bacun ölsün, necə gör zaru- pərişan gedirəm.

Mən həmin Zeynəbunəm, cahi- cəlal ilən gələn,
Həm zəru- zivərilən, malu- məlal ilən gələn,
Ali peyğəmbər ilən, yeddi cavan ilən gələn,
Yeddi qardaşım ölüb, zivəri- talan gedirəm.

Badi zülm ilə Hüseyn, cahi- cəlalun dağılıb,
Cövr- əşrar ilə həm mali- mənalın dağılıb,
Çöllərə başi açıq əhli- əyalun dağılıb,
Pasibanım olub indi mənə üdvan, gedirəm.

Necə insafidu nəşun qala yer üstə sənin
Yoxdu bir kimsə məzara qoya başsız bədənin.
Zeynəbi yandıracaq həşrə kimi dədu- qəmin,
Gün qabaqında kəfənsiz qoyub üryan gedirəm.

Yeddi qardaşım ölübdür çəkilib sinəmə dağ
Səbrimi əldən alıbdu sitəmu dərd- fəraq.
Qorxudan şivən edir tazə gəlin, övrət- uşaq,
Qalmayıb kimsə məni zarə- nigahban gedirəm.

Çərxi dönmüş fələk axir necə rəftar elədi
Ali peyğəmbəri aləmdə kiriftar elədi.
Zülm ilə baci, imamət gülünü xar elədi,
Cövri əşrar ilə çün gülşəni- xəndan gedirəm.

Ayrılıq vəqtidi qardaş, ver ələmdarə xəbər
Açа qanlu ələmin, ta eliyək Şamə səfər,
Gülməsə Əkbər ilən Qasımi gül peygər əgər,
Qılaram ahim ilən, aləmi- viran gedirəm.





## "ƏFRAD"

Fələk cahanda Əli gülşəni xar elədi
Bəlayi- dərdü qəmə zülm ilə düçar elədi.
Çıraqi ali- Əbani sitəmlə söndürdü
İmami əsri susuz,, əşqiyalər öldürdü.
Nə eyləmişdi məgər şahidin küffarə,
Ediblər gül bədənin xəncər ilə sədparə.

Kəsibdular başıni, edibdular qaninə qəltan
Soyub libasını yeksər, qoyubdular üryan.
Necə rəvadur Hüseynə olmaya hənuti kəfən,
Gedə köməkləri əldən, ola qəribi- vətən.
Necə gedim qalu nəşin quru yer üstə sənin
Öləydi Zeynəbun ey, kaş görməyəydi qəmun
Ayırır zülmilə səndən bu ləşkəri üdvan,
Yarali canuvə biçarə Zeynəbun qurban.

## "BAQİYİ SİNƏZƏN"

Saxlaram bəzmi- müsübət sənə göz yaşım ilən
Qılıram nalə qəmundən bu Bəni-Haşım ilən.
Gedərəm məşhərə qardaş bu açıq başım ilən,
Ki gərək həqq edə bu barədə divan, gedirəm.

Qıldı fələk cahanda məni illər ayrısı,
Bad xəzan ilən pozulan güllər ayrısı,
Rəhm eyləmədi bu qürbət ara hal zarıma
Hicran odunu vurdu mənim laləzarıma.
Artırdı günbəgün qəmi ahu- fəqanımı
Viranə qoydu əhli- cəfa xanimanımı.

Öldürdülər cəfa ilə ali peyğəmbəri
Məzlum Hüseyn, Qasimi Əbbas Əkbəri.
Seyyid Nizam bəs et yazma çox müsibəti- qəm
Ki qorxgilən alışa, od tuta əlində qələm.

Qoydun məni bu dəştdə avarə, ey oğul!
Qıldın zəmanədə günümü qarə, ey oğul!
Saldın bəlayi- firqətə biçarə Leylini
Etdin əsir ləşkəri əşrarə ey oğul!
Şümr dəğa bizi aparır Kufəyə əsir
Qol bağlı, baş açıq elə bir çarə ey oğul!
Eşqunda hər cəfavü- sitəm eylərəm qəbul
Qorxum budu çəkə bizi bazarə ey oğul!
Billəm bu möhnəti eyləməz qeyrətin qəbul
Eylə sifariş Heydəri Kərrarə ey oğul!
Övladini salıbdular avarə çöllərə,
Rəhm eyləsun bu itrəti əthare ya Hüseyn.
SEYYID NİZAM Həşrə kimi eylə ahu-zar,
Məşərdə eylə dərdinə bir çarə, ey oğul!

Seyid Mirnizam ağanın oğlu **seyid Mirhaşımın** 2 qızı, 4 oğlu olub. Böyük oğlu seyid Mirnizam riyaziyyat sahəsi üzrə alimdir. O, hazırda Amerika **universitetlərinin birində müəllimdir. Digər oğlu-** seyid Mirəziz fizika elmləri namizədidir.

**Seyid Mirramiz** isə Azərbaycan Dövlət Universitetinin biologiya fakultəsini qurtarıb.

Ağanın 4-cü oğlu seyid Mirtəhsil sənətkardır. Qızı Mirnətavan Politexnik Institunun məzunudur. Mirnazilə isə ADU-nun filologiya fakültəsini bitirib. Öz ixtisası üzrə çalışır.

Mirgülsümün (Mirnizam ağanın qızı) 8 övladı var: **Sənubər, Yusif, Bəhriyyə, Xaliq, Malik (Haqq dərgahındadır), Cəmil, Nigar və Kamil** (Haqq dünyasındadır).





Mirtacının isə 2 övladı olub: **Şükufə və Ənvər** (Haqq dünyasındadır).

Allah haqq dünyasında olanların hamısına rəhmət eləsin.

Seyid Mirnizam ağa düzgünlüyü sevən insan idi. Ağanın hörmətini bütün Lənkəran camaatı saxlayırdı. O gedən qapıya"yox" sözü deyilməzmiş. Qonum-qonşuda oğlan evinə qız verməyəndə ağanın yanına gəlib, təvəqqə edərmişlər.

Seyid ömrü boyu müqəddəs işlərlə məşğul olardı. O, imkanı olmayan adamları öləndə təmənnasız götürər, maliyyə yardımına ehtiyac duyanlara əl tutardı.

Ağa 1963-cü ildə, dekabrın 4-də heç kəsi incitmədən-qəflətən, 65 yaşında vəfat etdi.

Seyid Mirnizam ağanın vəfatından 4 il keçmiş nəvəsi Bəhriyyə xanım Lənkərana gedib anasına deyir ki, gedək ağanın qəbrini ziyarət edək. Ocağa gedəndə Bəhriyyə xanım başına yaylıq örtmür. Anası təkid etsə də, Bəhriyyə buna əhəmiyyət vermir,

sonra keçib ağlaya-ağlaya ağanın qəbrini ziyarət etməyə başlayırlar. Orada həm də başqa 7 seyid dəfn olunub. Bəhriyyə xanım içəri keçəndə, görür ki, Mirnizam ağanın baş daşına yaşıl rəngdə böyük bir ilan sarılıb. Onlar içəri keçəndə ilan fışıltı ilə başını uzadıb ağanın baş daşına yaxınlaşmağa qoymur.

Bəhriyyə bu möcüzədən qorxub qaçır. Seyid Mirnizam ağa nəvəsinə möcüzə göstərib ki, ziyarətə başı açıq gəlməzlər.

Allah ona rəhmət eləsin!

## SEYİD MİRƏZİZ SEYİD MİRƏSGƏR OĞLU



*Seyid Mirəziz ağa oğlu seyid Ağamir və həyat yoldaşı Sona xanımla*

Lənkəran şəhəri, Veravul kəndində anadan olmuş seyid Mirəziz ağa həyatın keşməkeşlərindən keçib. Ata çörəyi yeməyən Mirəziz ağa anasının, əmisinin himayəsində böyüyüb.

Mirəziz ağanın doğulduğu kəndə bəzən "Seyid oba" da deyirlər. Çünki bu kənddə soy kökü imam Cəfəri Sadiqə (ə.s.) bağlanan seyidlərimizin ulu bir nəsli yaşayıb. Bu kənd, bu el onların, həm də kəndin ağsaqqalarının, ağbirçəklərinin adları ilə tanınıb.

**Seyid Mirağa, oğlu seyid Miri və nəvəsi seyid Mirəlibala** həmişə bu kəndə əmin-amanlıq, bərəkət, ruzi gətirmişlər.

Seyid Mirağa ilahi vergili insan idi. Ağa ayaqqabısını soyunanda özləri cütlənər, dəstələnərdi. Nəfəsindən yüzlərlə insan şəfa tapmışdı. Onun nəvəsi seyid Mirəlibalanın 4 övladı olub.

**Seyid Miradil** erkən rəhmətə gedib. **Seyid Mirəsgər** Fin müharibəsindən sonra, 1941-ci ilin may ayının 24-də haqq dünyasına qovuşub. Qardaşı **Mirvahab** isə Böyük Vətən müharibəsində itkin düşüb. Müharibə illəri Mirhadı ağa yeniyetmə olduğuna görə müharibənin dəhşətlərindən qurtula bilib.

**Seyid Mirhadı ağa** öz övladlarına atası Mirəlibala ağanın və qardaşı Mirvahabın adını qoyub. O biri oğluna isə Əli-əkbərin şərəfinə Mirəkbər adı verib.





Mirəsgər ağaya Allah-təala təkcə Mirəziz ağanı qismət elədi. Amma Allah da təkdi, deyirlər.

Seyid Mirəziz ağa həyatda çox əzab-əziyyət çəkib. Ağa düz 43 il sıravi işlərdə işləyib, mexanizatorluq eləyib. Amma heç vaxt adına, nəslinə azca da olsa xələl gətirə biləcək hərəkətlərə yol verməyib. Heç vaxt araq içənlərlə bir stolda oturmayıb, camaatın xeyir-şərini ləyaqətlə yola verib.

Seyid Mirəziz ağa kənddə birinci seyiddir. El-oba dara düşəndə onun ceddini çağırır, ağaya üz tuturlar.

Balaları da onun yolu ilə gedirlər.

**Məşədi Mirağa** (2001-ci ildə Məşhəd ziyarətində olub), **seyid Ağamir, seyid Qulu** və yeddi qız övladı ata-babalarına layiq övladlardır.

Allah başacan eləsin.

**Yolun ortasına düşmüş bir daşı götürüb kənara atan, yolu səhmana salan şəxs savab qazanır .**

## SEYİD MİRTAHİR SEYİD MİRDAYAN OĞLU

### *XƏLİFƏ RƏHİMİN VARİSLƏRİ*



Lənkəran rayonunda böyük, qədim bir qəsəbə var. Adına Xarxatan deyirlər.

Xarxatan kəndində əsasən dördüncü imamımız Zeynalabidin (ə.s)-nın törəmələri yaşayırlar. Nüfuzlu ağsaqqalları, görkəmli din, elm, maarif, mədəniyyət, incəsənət xadimləri ilə tanınıb Xarxatan kəndi. Səsi-sorağı yaxın-uzaq ellərə yayılmış üləmaların, müştehidlərin çoxu bu kəndin yetirmələridir.

Deyilənlərə görə 600-700 il bundan əvvəl 4-cü imamımızın 8-ci törəməsi Xəlifə Rəhim bu kəndə köçmüş, burada yaşayıb haqq dünyasına qovuşmuşdur. Bu həmin Xəlifə Rəhimdir ki, Separadi qəbirstanlığında dəfn edilərkən qəbirdən qeybə çəkilmiş və yüz illərdir camaatın and yeridir.

Xəlifə Rəhimin törəmələrindən olan seyid Mirtahir seyid Mirdayan oğlunun yaşadığı həyətdə "Cədd" deyilən ziyarətgah var. Həmin yerdə yaşı bilinməyən nil ağacı əsrlərin tufanlarından keçərək bu günə qədər qalıb. Deyirlər bir zamanlar ulu seyidlərimiz **Xəlifə Mirdavud** (Seyid Xəlifə ocağında dəfn edilib) və **Miribrahim ağa** bu ağacın dibində oturar, çay içər, çörək yeyər, el-obanın müşkül məsələlərini həll edər, camaata dəyərli tövsiyyələr verərdilər. Ağzı əyilənlər, müxtəlif dərdə mübtəla olanlar bura gələr, Allahdan ağaların cəddi xatirinə kömək diləyər, istəklərinə çatar və elə bu ağacın da dibində qurban kəsərdilər. Və bu gün də kəsirlər.

Xəlifə Rəhimin bu günə gəlib çatan nəslinin ən görkəmli nümayəndələrindən biri də 120 il mənalı, şərəfli ömür yaşamış, ellərə ağsaqqallıq etmiş, nəfəsi ilə neçə-neçə insana şəfa vermiş **seyid Mirdayan seyid Mirməhəmməd oğludur** (1868-1978).







İki müxtəlif quruluşda yaşamış seyid Mirdayan ağa ilahi vergili, kəskin nəfəsli, səbrli, təmkinli, zəhmətkeş insan idi. Nikolay hökuməti yıxılandan sonra Mirdayan ağa da yeni quruluşla ayaqlaşmağa məcbur oldu. Amma heç vaxt dinini, kökünü, islamı unutmadı, öz yolundan dönmədi. Həmişə xalqın mənəvi rəhbəri, arxası, pasibanı oldu.

Şura hökuməti illərində meşəbəyi, direktor vəzifəsində işləyərkən 3 kəndi dolandırar, yüzlərlə kasıb-kusubun qarnını doyuzdurar, onlara çörək verərdi.

Seyid Mirdayan ağa böyük külfət sahibi idi: **Miri, Rizvan, (Böyük Vətən müharibəsində vəfat ediblər), Eşqabad, (2001-ci ildə 99 yaşında vəfat edib), Iltifat, Məhəbbət, Sabir, Abdulla, Mirtahir, Miribrahim, Mirbəşir** və dörd qız övladı. Hamısı da dindar, əhli-ibadətdir.

Bu gün ata yurdunda kəndin xeyir-şərinin yaraşığı **seyid Mirtahir ağa** oturur.

Seyid Mirtahir ağa əvvəlcə sıravi işlərdə çalışıb. Dini təhsilini **Qafqaz Müsəlmanları Ruhani idarəsi Elm, Təhsil şöbəsinin müdiri, tanınmış islamşünas, alim-tədqiqatçı, xeyirxah insan Hacı Mirəzizdən alıb.**

Seyid Mirtahir ağa hər hərəkətində ölçülü-biçilidir. Necə deyərlər, hər sözünü bişirib deyən ağsaqqallarımızdandır. Sülh adamı, Allah adamıdır. Elə balaları seyid Pəhləvan və seyid Mirsahil və dörd qızı da atalarına layiq övladlardır. Hər iki oğlu Quran oxuyur, Allahın yolunu sidq-ürəklə saxlayırlar.

Allah dualarınızı müstəcəb etsin.

**Onu da qeyd edək ki, kənddə lap qədim zamanlardan məscid fəaliyyət göstərib. Son illər həmin məscidin yerində kənd camaatının və xalqımızın xeyirxah oğullarının vəsaiti hesabına yeni məscid inşa edilmişdir.**

## HACI SEYİD MİRHAŞIM TALIŞLI

*"Mirhaşım müəllim-şerin, sənətin sərrafı".*

**B.Vahabzadə**

*"Ustadımız, pirimiz Ağa Mirhaşım"*

**Tədqiqatçı alim,**
**şair Əbülfəz Hüseynli**

*"Nə qədər ki, səninləyəm Mirşahım,*
*Talış dağları tək ucadır başım."*

**Qabil**

*"Vətənə, millətə xidmət etdikcə ömrü nəcibləşən, müdrik ağsaqqal müəllimimiz, Allahın mömin, pak bəndəsi, saf ürəkli, sadə diləkli Mirhaşım müəllim".*

**İmamverdi Əbilov f.e.d.**



Yuxarıdakı müraciət formaları yurdumuzun cənub bölgəsinin mirvarisi Lənkəranın ulu seyid nəslinin ocaq yaşadıcısı Hacı Mirhaşım ağaya təqdim edilmiş kitablardakı avtoqraflardan götürülmüşdür.

1926-cı ildə Lənkəran şəhərində anadan olmuş Mirhaşım Mirmurtuza oğlu tariximizdə iz qoymuş ulu bir nəsildəndir. Soy kökü imam Hüseyn (ə.s.)-a bağlanan Hacı Mirhaşım ağanın ulu babası Hacı seyid Mirabbas xan XVII əsrin sonlarında Ərdəbildən Cil kəndinə köçüb. Çox hallı-varlı ağalardan olan Hacı indiki MTS-in həyətində 20 otaqlı ev tikdirib.





Hacı Mirabbas ağanın 3 oğlu olub: **seyid Qaraxan, seyid Mirtəhmasib və Kərbəlayi seyid Soltan.**

Hacı seyid Mirabbas ağanın nəslinin nümayəndələri zaman-zaman respublikamızın tarixində, həyatında mühüm rol oynamış, bu nəsildən onlarla görkəmli ziyalı, elm, din xadimləri çıxmışdır.

Hacı seyid Mirhaşımın atası seyid Mirmurtuza ağa əsrin əvvəllərində Lənkəranda Mirzeynalabdin Təbrizinin naşirliyi ilə çıxan "Lətayif" adlı həftəlik qəzetə rəhbərlik edib. Seyid Mirmurtuza ağanın beş övladı var: **seyid Mirhaşım, seyid Mirsaleh, seyid Mirmustafaxan, Munir xanım, Sadat xanım.**

Mirhaşım müəllim gözünü açandan ziyalılar əhatəsində böyüyüb, 12-13 yaşlarından şer yazmağa başlayıb. Onun şərəfli ömrü yaradıcılıq uğurları ilə zəngindir. Mirhaşım müəllim onlarla elmi, tarixi əsərlərin, qiymətli araşdırmaların, kitabların müəllifidir. Filologiya elmləri namizədi, dosent, Lənkəran Dövlət Universiteti Azərbaycan dilçiliyi kafedrasının müdiri, Respublikanın Əməkdar müəllimi Mirhaşım Müsafir ömrü boyu çiynini ağır yüklərin altına verib. Klassik Şərq üslubunda, əruz vəznində yazıb-yaradıb. Füzulişünasdır.

Ağanın bacısı **Hacı Mirsadat** 1997-ci ildə, özü isə 1998-ci ildə Məkkə ziyarətində olub.

Inanırıq ki, görkəmli alim, istedadlı şair, məhsuldar tədqiqatçı, Vətənini, elini, obasını sonsuz məhəbbətlə sevən müdrik insan-Ağa Hacı Mirhaşım ağa bundan sonra da cavanlıq eşqiylə yazıb-yaradacaq, tariximizin öyrənilməsində, tədqiqində əlindən gələni əsirgəməyəcəkdir.

## MƏŞƏDİ BALOĞLAN KƏRBƏLAYİ ƏLİ OĞLU

*"Allah-təala sizin simanıza, mallarınıza baxmaz, ürəklərinizə və əməllərinizə baxar".*

**Məhəmməd peyğəmbər (s)**



Ömrü boyu ruzi-bərəkət, hallalıq mənbəyi olan, torpaqla ülfət bağlayıb zəhmətə qatlaşan, həqiqəti, peyğəmbər nəsillərinin ruhunu hər şeydən üstün tutan, xoşxasiyyətli, mərhəmətli, qonaqpərvər, çörək verən, ağsaqqallığı ilə seçilən, müşkülə düşənlərə ürəkdən dua edib Allah-təalaya tapşıran Məşədi Baloğlan Əli oğlu...

Bu müqəddəs insanın əməlləri, gördüyü xeyirxah işləri ifadə etmək üçün sözün qüdrəti yetmir. Onun insanların xoşbəxtliyi naminə etdiklərinin yüzdə birini biz etsəydik, bəlkə də bu fani dünyamızda nə pisliklər olardı, nə də pis adamlar. Dünyaya gəldiyi gündən ömrünü-gününü insanlara həsr edib qətrə-qətrə əridən Məşədi Baloğlan kişi Allah-təalanın seçilmiş, ilahi vergili bəndəsidir. Deyirlər Allah-təala öz seçilmişlərini yalnız və yalnız pak insanların arasından seçir. Məşədi Baloğlan kişinin atası, babası da məhz belə insanlar olublar.

Babası **Məşədi Rza** XIX əsrin əvvəllərində "Elmin paytaxtı" adlandırılan Nəcəfül-Əşrəfdə doğulmuş, burada dini təhsil almışdı. 1908-ci ildə Nəcəfdə doğulmuş oğlu Əli kişi də bu şəhərdə mükəmməl dini təhsillə yanaşı, dünyəvi elmləri də mənimsəmişdi. Atası rəhmətə gedəndən sonra - təxminən 30-cu illərdə ta qədimdən çoxlu qohum - əqrabasının yaşadığı Lənkərana köçür və **Minə Xəlil qızı** ilə ailə həyatı qurur. O





vaxtlar kolxozlaşmanın ilk illəri idi. Savadlı, qabiliyyətli kadrlara böyük ehtiyac duyulurdu. Kərbəlayi Əli kişinin dərin biliyini, şəriətlə bahəm elmi fənnləri də bilməsini nəzərə alıb onu yeddi rayona aqronom vəzifəsinə təyin edirlər. Əli kişi də öz qüvvə və bacarığını əsirgəmir, öyrəndiklərini həyatda tətbiq edir. Səmərəli əməyinə görə dövlətin yüksək mükafatlarına layiq görülür. Lakin o hökumət işlərinin çoxluğuna baxmayaraq, övladları **Xanoğlana, Baloğlana, Məzahirə, Arifə, Zərifəyə, Arifəyə** sovet təhsili ilə yanaşı dini dəyərlərimizi, şəriətimizi də aşılayır, onları islam dini ruhunda tərbiyələndirir. Sovet hakimiyyətinin qadağalarına baxmayaraq Aşurada o ata-babasıdan qalmış, Kərbəladan gətirdiyi Həzrət Abbas ələmini çıxarar, gizlicə və ya aşkar imamlarımıza təziyyələr keçirərdi.



Böyük Vətən müharibəsi başlayanda Əli kişini də cəbhəyə yolladılar. O, qanlı cəbhə yolları ilə şərəflə addımladı. Üç-dörd dəfə yaralansa da, faşist işğalçılarına qarşı mübarizədə axıradək iştirak etdi.

Kərbəlayi Əli kişi el ağsaqqalı idi. Din xadimlərinin müəllimi, mənəvi rəhbəri kimi camaatın hörmətini qazanmışdı. Möcüzəsi isə elmində idi. Onun gözlərinə hər adam baxa bilmirdi.

Bir dəfə oturub Quran oxuyurdu. Oğlu Baloğlan yanına gedir. Deyir ki, get qüsullan, sonra gəl. Baloğlan gedib çimsə də qüsullanmır. Onda Əli kişi kitabı açır və arasından ilanlar çıxır. Körpə Baloğlan qorxub qaçır və bir daha belə hərəkət etməyəcəyini tövbə edir.

1982-ci ildə haqq dünyasına qovuşan Əli kişiyə böyük

inam və ehtiram bəsləyən camaat onun qəbri üzərində gözəl bir kümbəz düzəldib ziyarətgaha çevirmişdir.

**Allah rəhmət eləsin.**

Bu gün Əli kişinin yolunu oğlu, ilahi vergili, nurlu insan, camaatımızın böyük inam bəslədiyi, yüzlərlə insanın dərdinə məlhəm qoyan **Məşədi Baloğlan kişi** davam etdirir.

O, müharibə başlayan il- 1941-ci ildə anadan olub. Uzun illər ticarət sahəsində çalışıb.

1996-1998 və 2001-ci illərdə Məşhəd ziyarətində olub. Hər dəfə də həyat yoldaşı, analar anası **Xalidə Əbdüləhəd qızını** da özü ilə aparıb. Axırıncı dəfə isə qeybdən Quran oxumağı öyrənmiş, ali təhsilli müəllimə **Sevinc xanım** da onunla ziyarətdə olub.

Bu məşədilər ailəsini nəinki Lənkəran, eləcə də respublikamızın əksər əhalisi xeyrxah, nəcib insanlar kimi tanıyır və sevirlər.

Məşədi Baloğlan el-obanın hörmətli ağsaqqalıdır. Dini hədisləri, şəriəti mükəmməl bilir. Yolunu azanları haqq yoluna qaytarır. Neçə-neçə övlad üzünə həsrət qalanlar onun ocağından pay istəyib, imam Rza ə.s ziyarətində olmuş qara ələmi ziyarət edib istəklərinə qovuşmuşlar.

Məşədi Baloğlan kişi yeddi nəvə sahibidir. Oğlanları **Iqbal, Şahin, Ilqar, Etibar və qızı Məşədi Sevinc** də hələ cavankən camaatın dərin hörmətini qazanmış, öz xeyirxah əməlləriylə el içində yüksəlmişlər.

Bu gün Məşədi Baloğlan cənub bölgəsində sınanılmış, ilahi vergili ocaq sahibidir. Bu ocağa saf niyyətlə pənah gətirənlər heç vaxt naümid geri qayıtmayıblar. Çünki Məşədi Baloğlan ilahinin seçilmiş bəndəsi, vergili müqəddəslərimizdəndir.

Müqəddəs insanlar isə Allahın elçiləridir.



# LERİK









## BABAGİL TÜRBƏSİ



Babagil türbəsi (Bobogil) Babagil kəndindən bir qədər aralıda, Lənkəran-Lerik şosse yolunun və Vazaru çayının kənarında, meşələr qoynunda yerləşir. Türbənin sahəsi iki hektara yaxındır. Burada üçüncü dövrün relikt ağacları bitir. Ziyarətgahın qışı da yazı kimi yaşıllığa qərq olur. Türbəyə il boyu zəvvarlar gəlir. Çünki insanlar ən çətin məqamlarında Babagil pirinə nəzir-niyaz boyun olurlar. Xalqın bu müqəddəs inanc yeri əsrlərin sınağından çıxıbdır. Ocağı ziyarət edənlər heç vaxt buradan naümid qayıtmırlar.

Tədqiqatçı-jurnalist, cənub ərazisinin mahir bilicisi, mərhum **Gülməmməd Məmmədzadə** türbədə dəfn olunmuş Babagilin şəxsiyyəti barədə maraqlı tədqiqatlar aparmışdır.

Tarixi qaynaqlardan məlum olur ki, Babagil vaxtilə Kəskərdən keçərək buraya gəlmiş, tayfa ağsaqqalı olmuşdur. Tarixi sənədlərdə Babagil haqqında "Ariflərin sultanı", "Türbəli müqəddəs sultan Babagil", "Qaliblərin ən seçilmişi olan asnaqaranlı Babagil" sözlərinin yazılması Babagilin müdrik nəsil başçısı, böyük nüfuza malik ağsaqqal olduğunu göstərir.

Babagilin qardaşları **Baba Məhəmməd, Baba Həsən, Baba Davud, Baba Peyda, Pir Baba, Baba İsa, Baba Rəhmanın,** bir sözlə tayfasının bu kəndə köçməsindən çox-çox əvvəllər də kənd binə olmuş, müqəddəs şəxsin buraya köçməsi ilə əvvəlki "Asnaqaran", "Dəmirçilər" adı tədricən unudulmuşdur.

Tarixçi **T. Musəvinin** məlumatına görə kənd hələ Şah İsmayılın hakimiyyət başına gəlməsindən çox-çox əvvəllər mövcud olmuşdur.





Tarixçi Tağı Musəvinin nəşr etdirdiyi "Orta əsr Azərbaycan tarixinə dair fars dilində yazılmış sənədlər" /1965/ kitabından öyrənirik ki, Babagilin əsl adı Nizaməddin Əmir Şahsevər Gilanı Kəngəridir. O, I Şah Təhmasibin dövründə yaşamışdır. Əbdülfəttah Furəminin "Tarixi-Gilan" adlı əsərində 1578-ci ildə Biyəpuş orduları əleyhinə vuruşma zamanı öldürüldüyü qeyd olunur.

I Şah Təhmasibin fərmanı ilə 1573-ci ildə Babagilin övladlarından Mir Hüseynin Şeyx Səfiəddin məqbərəsini ziyarət etməsi və orada şah hakimiyyətinin davamı üçün xeyir-dua verməsi təsdiq edilmişdir. Onu da qeyd edək ki, Babagil Şeyx Zahid Gilaninin müridlərindən və yaxın adamlarından biri olmuşdur.

... **İslam Hacı Sadıq oğlu Kərimov** xeyriyyəçi və iş adamıdır. O, bir gün yuxuda görür ki, Babagil türbəsində qəbir üstə məqbərə tikdirib. Yuxusunu atası Hacı Sadıqa danışır. Atası məsləhət görür ki, Babagil kəndinin ağsaqqalları ilə görüşüb onların da fikrini öyrənsin.

Kənd camaatının fikri əvvəlcə birmənalı olmur. Nəhayət qərara alınır ki, kənd camaatının və xeyriyyəçilərin köməyi ilə türbədəki qəbir üzərində məqbərə ucaldılsın.

Türbə **Hacı Ağamirzə Mirzəyevin** cızdığı layihə əsasında, 1998-1999-cu illərdə inşa edilib. Məqbərinin abadlaşmasında **Vaqif Musayevin**, Lənkəran şəhər sakinləri **Mahir və onun qardaşlarının** da xidmətləri olub.

Məqbərə dövrü qədimdən kənd camaatı tərəfindən qorunur. Camaat növbə ilə ziyarətgaha xidmət edir.

**Mirzağa seyid Xudaş oğlu Vəliyev:**

-Atamın 108 yaşı vardı. Danışardı ki, Əmiri Şahsevər Babayi-Gilani XV-XVI əsrlərdə bura Gilandan gəlib. Yerli cavanlar bilməyib onun mal-qarasına daş atıb. Atmaqlarıyla da ağızları əyilib.

Bu ocağın qəzəbi çoxdur.

1870-ci ildə Nikolay hökuməti kəndi ocağa görə bütün

vergilərdən azad etmişdi. Keçmişdə ocağın ta Lənkərana-Rva kəndinə qədər becər yerləri olub.

**Mirələm Cəfərov:**

-Deyilənə görə Şah İsmayıl Xətai başda Babagil olmaqla 7 qardaşı bura islamı təbliğ etmək, öz hakimiyyətini möhkəmlətmək üçün göndərib. Hamısı dərin təhsilli, müqəddəs insanlar olub. Onların müqəddəsliyini nəzərə alan xalq məzarlarının üstə məqbərə tikmişdir.

Əsrlərdən bəri ziyarətgaha çevrilmiş Babagil məqbərəsi insan əllərinin qüdrətilə daha görümlü olmuşdur. Bu müqəddəs inanc yeri bundan sonra da insanların, şəfa diləyənələrin ümidgahına çevriləcəkdir.

## XOCA SEYİD TÜRBƏSİ



Xocakəndin ərazisində yerləşən Xoca Seyid türbəsi XIV əsrin yadigarıdır. Türbədəki qoç heykəli də XIV əsrə aiddir. Qədim zamanlardan insanlar bura ziyarətə gəlmişlər. Türbənin həm də məscidi var. XIV əsrdən qalma bu məscid Lüləkəran kəndindədir.

## PİRA YUSİF TÜRBƏSİ

Pira Yusif türbəsi Kegonu kəndindədir. Yerli əhali Pira Yusif türbəsinə gəlir, əlini daşa sürtür və şəfa tapırlar. Deyilənlərə görə bu, həm də ağrı daşıdır.





## COBİR TÜRBƏSİ



Bu tarixi abidə Lerik qəsəbəsi ilə Cəngəmiran kəndi arasında yerləşir. Türbənin XII-XIV əsrlərə aid olduğu ehtimal edilir. Deyilənlərə görə, burada Xəlifə Cobir Ənsar dəfn edilib. Türbə müsəlman bacı-qardaşlarımız tərəfindən tez-tez ziyarət olunur.

Xeyirxah insan, istedadlı həkim **Hacı Elman Abdullayev** türbənin üstünü təmir etdirmişdir.

## ARTA OCAĞI

Ocaq Arta kəndinin yuxarı hissəsində yerləşir. Iri nil ağaclarının əhatəsindədir. Bu müqəddəs ocağın üstündə müxtəlif diləklərinə çatmış insanlar tərəfindən həmişə qurbanlar kəsilir.

## MIKOMAN TÜRBƏSİ

Zövnə kəndindəki bu dini abidə camaatın inam yeridir. Deyirlər ki, Babagil Ənsarın qardaşı burada dəfn edilib. Respublikamızda tanınmış ziyarətgahlardandır.

## ŞEYX KƏLA TÜRBƏSİ

Orand kəndinin yaxınlığında yerləşən Şeyx Kəla türbəsi XIV əsrin yadigarıdır. Türbədə dəfn edilən Şeyxin adı Əkkaşə ibn Möhsün Əsədidir.

Deyilənlərə əsasən o, Məhəmməd peyğəmbərin 407 nəfərə təyin etdiyi sərkərdə olmuşdur. O, Orandda yaşamağa qərar vermişdir. Burada onun adı ilə bağlı bulaq da vardır.

Şeyx bu yerlərə ərazidə yaşayan əhalini islamı qəbul etməyə çağırmaq üçün gəlmiş, bu yolda bütün qüvvə və bacarığını sərf etmişdir. Rəhmətə gedəndən sonra məzarı müqəddəs sayılmış, XIV əsrdə üstündə türbə ucaldılmışdır. Səfəvilər vaxtı türbə bərpa edilmişdir.

Şeyx Kəlanın məzarı türbədə sənduqə içərisindədir.

Əhali arasında belə bir şer də var:

**Orand, Zuvand gəlib Çini- Maçindən,**
**Düşmənlərin qırıbdılar acından.**

## ÇİLKONA TÜRBƏSİ

Tarixi çox qədim dövrlərə söykənən Cəngəmiran kəndinin Xəlifə Zəkəriyyə türbəsi qəbirüstü abidələrlə zəngindir. Çilkona (Qırxevlər) adlanan ocaq da belə abidələr sırasındadır. Bu ocaq kəndin Pendi məhəlləsində yerləşir. Əvvələr burada kənd olub. Bunu qəbir yerləri də sübut edir.

Kəndin sakini **Rahil Babayev** bir dəfə yuxuda görür ki, yaşadığı həyətin evində ocaq tikir. Ona məsləhət görürlər ki, nəzir-niyaz versin, evində təkyə qoysun. Günlərin bir günü isə Rahil usta alətlərini götürüb Çilkona ocağına gedir. O, buranı abadlaşdırır, su çeşməsini açır, ərazini kol-kosdan təmizləyir, evində təkyə qoyur. Bununla da kifayətlənməyən Rahil Babayev çoxəsrlik azat ağaclarının ətrafını qaydaya salır. Özünün maddi ehtiyacı olsa da, Rahil ocağa ziyarətə gəlib şəfa tapanlar üçün bir otaq tikib. Qədim gil qırıntılarını iri daşların üzərinə yığıb, ocağın ətrafını dəmir torla hasara alıb, dəmir qapı asıb.

Qədim ocağın kəramət, şəfaverici gücü nədədir? Kənd adamları dedilər ki, əlində, barmaqlarında ziyili olan adamlar ocağın torpağından bir qədər götürüb isladır və ziyilin üstünə sürtürlər. Torpağın bir hissəsini də ocaq daşlarının üzərinə qoyurlar. Beləliklə də çox çəkmir ki, ziyil yox olub gedir.

Bax, bundadır ocağın hikməti.





## KƏRBƏLAYİ SEYİD MİRHADİ SEYİD MİRYUNUS OĞLU



Bizə ulu babalarımızdan qalmış xeyirxahlıq, insansevərlik, mənəvi paklıq, əmin-amanlıq, sülhsevərlik bütün dövrlərdə bəşəriyyətin istəyinə çevrilmişdir.

Bu dünyanın bir imtahan olduğunu anlayan insanlar ömürlərini Allaha ibadət etməklə keçirirlər. Bacardıqları qədər insanlara əl tutur, köməyə ehtiyacı olanlara yol göstərirlər. Belə insanlardan biri də **Kərbəlayi seyid Mirhadi ağadır.**

Kərbəlayi seyid Mirhadi ağa mömin bacı və qardaşlarının qayğısına qalan, onları həmişə dünya malı üçün yaşamaqdan çəkindirib axirət üçün yaxşı işlər görməyə dəvət edən mömin bir seyid övladıdır.

Yeddi oğul, bir qız atası, 36 nəvə babası olan seyid **Mirhadi Miryunus oğlu** 1929-cu ildə anadan olub.

Ağanın övladlarından **Ələmdar, Ağaseyid Məcidovlar** müəllim işləyirlər. Mirsahib diplomatik işlə məşğuldur. **Mirqalib** isə şəriət elmini öyrənir. Ağa övladlarını haqqa-ədalətə, cəmiyyətə layiqli vətəndaş kimi mövqe tutmağa dəvət edir, elobanın xeyir-şərindən qalmır. Ağa tez-tez **Hacı Ağamirzənin** inşa etdiyi Mir Kazım ağa məqbərəsini və başqa müqəddəs məkanları ziyarət edir.

Allah adamı, seyid- peyğəmbər övladı Mirhadi ağa 1990-cu ildə Məşhəd və 1996-ci ildə həyat yoldaşı **Bənövşə xanımla** Kərbəla ziyarətində olub. Kərbəlayi Mirhadi ağa müqəddəs ziyarətgahlarda olanda xalqımızın bəlalardan qurtarması, torpaqlarımızın azad edilməsi, insanların firavan yaşaması üçün dualar oxuyub.

Imam Zeynalabidin ə.s. kəlamlarında belə buyurmuşdur: **"Dünya sizdən üz döndərib gedir, axirət isə üz tutub sizə tərəf gəlir. Siz hamınız onun övladlarısınız, dünya övladı olmayın, axirət övladı olun".**

Imamın kəlamındakı hikmət belədir ki, ömür qısadır, ötən günlər geri qayıtmır, axirətdə layiqli yer tutmaq üçün isə yaxşı əməllər qoyub getmək lazımdır ki, xatırlanasan, rəhmətlik qazanasan...

Söz yox ki, Allaha tapınmadan, ruhani kəramət və hikməti, şəfqət və mərhəməti duymadan, vacibatı yerinə yetirmədən böyük Yaradana qovuşmaq mümkün deyil.

Sizə təqdim etdiyimiz Mirhadi ağa hər dəfə namaz üstdə el-obaya, bütün Azərbaycan xalqına sidq-ürəkdən dua edir, bizi cəddinin hikmət və kəramətinə, Allahın qüdrətinə tapşırır. Və o bütün varlığı ilə inanır ki, kainatın sükanı həmişə Allah-təalanın ixtiyarındadır.

Mirhadi ağa gənclik illərindən-alnını möhürə qoyduğu vaxtdan yəqin edib ki, dua möminin silahıdır və o, dua vasitəsilə Allahla özü arasında bir rabitə, əlaqə yaradır. Allah yanında duasının müstəcəb olduğunu hiss etdikcə bundan böyük arzu diləmir.

Məhəmməd peyğəmbər (s) buyurmuşdur:

"Ibadətlərin ən yaxşısı və yer üzündə əməllərin ən sevimlisi Allahın dərgahına duadır".

Həzrəti Imam Cəfəri Sadiq deyərmiş: "Babam Imam Həzrət Əli (ə) buyurardı ki, dua oxumaq mömin üçün bəlalar qarşısında bir qalxandır və əgər bir evin qapısını çox döysən, axırda üzünə açılmış olar".

Kərbəlayi Mirhadi ağa hər dəfə namaz qılanda öz arzu və istəklərini təkrarlayır. Inanır ki, ölkəmizdə sülh və əmin-amanlıq, haqq hökm sürəcək. Allah-təala dualarımızın müstəcəb olması üçün səsimizi eşidəcək, bizi mərkli düşmənlərin fitnə-fəsadından hifz edəcək.



# MASALLI









Masallı torpağı çox qədim tarixə malikdir. Aparılan arxeoloji tədqiqatlar və yazılı mənbələr göstərir ki, Masallının ərazisində qədim insanlar 15-20 min il bundan əvvəl yaşamışlar. Bu diyar antik dövrdə Manna, Atropatena dövlətlərinə, sonralar Qafqaz Albaniyasının Kaspiana vilayətinə daxil olmuşdur. XVI-XVIII əsrin ortalarına qədər Masallının indiki ərazisi Səfəvilər dövlətinin tərkibində olmuşdur. XVIII əsrin ortalarında yaranan Talış xanlığı bu ərazini də əhatə etmişdir.

XIX əsrin ortalarında Astara, Lənkəran, Lerik, Masallı, Yardımlı və Cəlilabad rayonlarının ərazisi Lənkəran qəzası adlanırdı. 1930-cu il sentyabrın 8-də Masallı inzibati rayonu yaradılmışdır. Onu da qeyd edək ik, bu ulu torpaq bəşəriyyətə yüzlərlə görkəmli mütəfəkkir, alimlər, böyük elm və din xadimləri bəxş etmişdir. Masallı rayonunun işıqlı oğulları respublikamızı bütün dünyada tanıtmışdır.

Masallını başqa rayonlarımızdan ayıran bir cəhət də var. Bu torpağın əhalisi başqa bölgələrimizdən dinə, islama daha dərin bağlılıqları ilə də fərqlənirlər.

İmanları kamil olsun!

**Novruz Novruzov, yazıçı-publisist**



*Masallı Cümə məscidi*
*120 il bundan əvvəl tikilib*





## HACI RAMAZAN MƏSCİDİ

**Candan artıq usansaq da, arzu, kamı cahanda,**
**Axırını düşünsün gərək hamı cahanda.**
**Biz könüllər hakimi, zərrəsiyik aləmin,**
**Dəfnəmiz yerdədir, gövhəriyik aləmin.**
**Necə gəldik, sirrinə yetməyimiz var bizim,**
**Gəlməyimiz kimi də getməyimiz var bizim.**

*N. Gəncəvi*



Ürəyi, qəlbi təmiz, süfrəsi həmişə yetim-yesirin üzünə açıq **Hacı Ramazan Zeynalovu** cənub bölgəsində tanımayan az adam tapılar. Rayonun elə bir xeyriyyə işi olmaz ki, orada onun nəcib adı çəkilməsin.

Masallı-Lənkəran yolu üstündə səfərdə olan möminlər üçün tikdirdiyi yaraşıqlı məscid də Hacının xeyirxah əməllərindən biridir. Uzaq səfərə gedib-gələnlər burada əylənir, namazlarını qılır, dincəlir və Hacının ölənlərinə rəhmət, özünə cansağlığı arzulayırlar.

## NƏBİƏDDİN OCAĞI



Masallı rayonunun Çaxırlı kəndindəki **Nəbiəddin ocağı** qədim ziyarətgahlardandır. XVIII əsrin yadigarıdır.

Deyilənə görə, əsli Ərdəbildən olan Şeyx Səfiədinin nəslindən olan sərkərdə və müqəddəs insan seyid Nəbiəddin burada yaşayıb. Çox sınaqlı seyid olub. Xalq ona iman gətirərək qəbrinin üstündə kümbəz ucaldıb.

Yaxın-uzaq ellərin ziyarətgahıdır.

## IMAMZADƏ

**Hər daş bir tarixə çəkilən pərdə,**
**Hər gün son mənzilə buraxılan şar.**
**Nəhəng nöqtələrə bənzər günlərdə,**
**Bir nəslin son anı gizlənib yatar.**

***S.RÜSTƏMXANLI***



Respublikamızın digər bölgələrində olduğu kimi, Hişkədərə kəndində də Imamzadə var.

Imamzadədə kitabə dövrümüzə qədər qalmasa da, yaşlı nəslin nümayəndələrinin dediklərindən, rəvayətlərdən belə məlum olur ki, burada yeddinci imam Museyi-Kazım ə.s.-nın **nəvəsi Ibrahim** dəfn edilib.

Əsrlərlə insanlar Imamzadəni qorumuş, ziyarət etmiş,





dərdlərinə əlac tapmışlar. Yüz illərin sınağından keçib gəlmiş bu müqəddəs məkanı sovet hakimiyyəti illərində bağlamaq istəsələr də, buna müvəffəq olmayıblar. Imamzadədə, burada dəfn edilənin kəraməti ilə möcüzələr baş verirdi.

50-ci illərdə kəndə göndərilmiş kolxoz sədri Imamzadənin qapısını kilidlətsə də, qıfıl özü açılırdı. Həmin sədr tezliklə boğulub vəfat etmişdi.

**Kənd sakini Hacı Nəsir Əliyev:**

- Kəndin nüfuzlu ağsaqqalarından olan **Mirzəcan Səlimov** 1880-90-cı illərdə qəbrin yeri itməsin deyə, üstündə ağacdan daxma tikmişdi. Sonralar kənd sakinləri **Mirzağa və Əbülfəz** kişi onu çiy kərpicdən tikdilər, lakin o da uçub-dağılmışdı.

60-cı illərdə gecələr hökumətdən xəlvət kənd sakinləri **Abbas, Heybət, Məhərrəm, Naib, Əbülfəz** və digər dindar qardaşlarımız Imamzadənin üstünü çay daşı ilə düzəltdilər. Lakin o da illər keçdikcə dağılmış, Imamzadə bərbad vəziyyətə düşmüşdü.

Nəhayət, 2000-ci ilin ortalarında kəndin hörmətli ziyalılarından, ağsaqqalarından olan **Nəriman Qafarovun** övladları - Moskvada çalışan, xeyirxah işləri ilə tanınan **Əlirza və qardaşları** İmamzadəni yenidən tikmək üçün atalarından xeyirdua aldılar. Nəriman kişi oğlanlarının bu təklifindən çox şad oldu. Qafqaz Müsəlmanları Ruhani İdarəsinin Cənub bölgəsi üzrə qazisi **Hacı Mirqiyas ağa Təhməzovla** məsləhətləşdilər.

Moskvada **Əlirza Nəriman oğlunun başçılıq etdiyi "Təbriz"** firmasının sifarişi ilə layihə hazırlandı və tikintiyə başlanıldı. Artıq 10 aydan sonra zəngin ornametlərlə bəzədilmiş, Şərq memarlığının klassik üslubunu özündə əks etdirən möhtəşəm bir abidə alındı.

Məqbərənin üstü səkkizguşəlidir. Müqəddəs İbrahimin məzari-şərifi son dərəcə orijinal naxışlarla bəzədilib. Məqbərənin inşasında **usta Ərəstun Məmmədov** böyük zəhmət çəkib. Kənd camaatı da tikintiyə əlindən gələn köməkliyi əsirgəməyib.

Onu da qeyd edək ki, **Nəriman kişinin anası Şahbəyim seyid qızıdır.** Cənub bölgəsində kəsərli nəfəsi ilə tanınmış Seyidağanın övladıdır. **Seyidağanın atası seyid Fəttah,** onun atası isə **seyid Mirnağı ağa** idi.

İmamzadəyə yaxın-uzaq ellərdən gələn dindarların ziyarət etməsi üçün hər cür şərait yaradılıb. Həyətdəki, adətən, müqəddəs ziyarətgahlarda rast gəldiyimiz nil ağacının bəlkə də 500 ilə yaxın yaşı var. Ürəyində niyyəti olanlar, ağzı əyilənlər, müxtəlif xəstəliklərə mübtəla olanlar müqəddəs imam övladının məzarını ziyarət edir və dərdlərinə şəfa tapırlar.

Allah ziyarətinizi qəbul eləsin!

## PEQƏDİM OCAĞI



Mahmudavar kəndində yerləşən bu müqəddəs məbəd də qədim ocaqlarımızdandır. Sətri tərcüməsi - "Qoca, qədim" mənasını verir. Kəndin ətrafında iki qədim qəbirstanlıq mövcuddur. Biri "Baba Seyidağa" qəbirstanlığıdır. Burada əsasən seyidlərimiz dəfn ediliblər.

Peqədim ocağındakı başdaşı 1225 hicri, 1810-cü illərə aid edilmiş, başdaşının üstündə Allahın, peyğəmbərin və 14 məsumun adları həkk edilmiş yazılar var.

1820-ci illərə aid edilən digər başdaşı Rus-İran müharibəsi illərindən xəbər verir. Həmin başdaşı general İbrahimə məxsusdur.

Bu gün də köhnə qəbirstanlıqda tapılan qədim sənduqələr, başdaşları bu ocağın uzaq keçmişindən xəbər verir.

Peqədim ziyarətgahı xeyirxah insan - **Zümrüd Höccət qızı** tərəfindən abadlaşdırılmışdır.







Qədim qəbirstanlıqda **Zeparz** adlanan daha bir ocaq var. Əsasən dalaq ağrıları olanlar bura gəlir, daşı ağrıyan yerlərinə sürtür və şəfa tapırlar.

Ocağın yaranma tarixi, demək olar ki, Peqədimlə eyni dövrə təsadüf edir.

Qəbirstanlıqdakı məscid də qədim, köhnə abidədir.

Məscidin axundu savadlı, nurlu din xadimimiz **Hacı Qurban Kərimovdur.**

## SIĞDAŞ MƏSCİDİ



Masallı rayonundakı qədim məscidlərdən biri də Mürsəlli məscidi-ziyarətgahıdır.

Əvvəllər məscidin adı Mürtəza-Əli olub. Sonralar Mürsəlli-yəni "Allah tərəfindən göndərilmiş müqəddəs" adlandırılıb. Keçmiş zamanlarda kənd böyük ticarət yolunun üstündə yerləşib.

Rəvayətə görə, imam Əli əleyhissəlam burada olub. Gecələr məsciddən nöhə səsi eşidilirmiş. Səsə gələn yerli camaat heç kimi görmür. Bu hadisə bir neçə dəfə təkrar olunur. Axırda yerli ağsaqqallar, tanınmış seyid və din xadimləri qərara gəlirlər ki, bu yer müqəddəsdir və XIX əsrdə orada məscid tikirlər.

Bu gün Kərbəla, Məşhəd, Məkkə ziyarətlərinə gedən zəvvarlara orada deyirlər ki, gedin birinci İmamzadəni, Seyid Xəlifə ocağını, Şah Səfi ziyarətgahını, Mürsəlli məscidini ziyarət edin, sonra bura gəlin.

Məscidin axundu **Hacı Əshab Vahab oğludur.**

## ŞAH SƏFİ ZİYARƏTGAHI



Cənub bölgəsində ən böyük və qədim kəndlərimizdən biri də 15 minə yaxın əhalisi olan Ərkivan kəndidir. 2000-ci ildə kəndin 1500 illiyi böyük təntənə ilə keçirildi.

12 məhəllədən ibarət kənd həmişə öz görkəmli ziyalıları, alim və din xadimləri ilə seçilib. Ərəbistanda, Iranda və dünyanın əksər müsəlman ölkələrində elə bir kənd tapılmaz ki, Ərkivandakı qədər alimlər, din xadimləri yetişdirmiş olsun.

İstər keçmişdə, istərsə də indinin özündə kənd böyük ticarət, mədəniyyət və dini mərkəz olub.

Bircə faktı qeyd edək ki, kənddə 9 məscid var: **Ramazanlı, Bədirli, Bağlagücə, Qızlagücə** məhəllələrindəki məscidlər daha qədimdir. Kəndin 8 əhli-qürubu var.

Nəinki cənub bölgəsinin, eləcə də respublikamızın tanınmış ziyarətgahlarından biri - Şah Səfi ziyarətgahı da Ərkivanda yerləşir.

Bu ocaq başqa ocaqlarımızdan seçilir. Içərisindəki quyu niyyət diləyənlərin səcdə etdikləri müqəddəs bir məkandır. Avqust ayında ərazidə olan bütün quyular qurusa da, ocaqdakı quyu qurumur. Əsrlərlə müxtəlif niyyəti, diləyi olanlar bu ocağa gəlmiş, həmin quyudan dilək diləmişlər. Niyyətləri qəbul olunduqda quyudakı su tərpənir.

**Hacı Əlihəsən molla Bəşir oğlu:**

- Şah Səfi Şeyx Səfəvi nəslindəndir - imamlarımızdan törəmədir. Ziyarətgahın yaranması tarixi XI-XII əsrlərə gedib çıxır.







Ərazidə tapılan qoç heykəlləri onun uzaq keçmişindən xəbər verir. Atam Nəcəfül- Əşrəfdə uzun illər oxumuş, ali təhsil almış, dini və dünyəvi elmləri mənimsəmişdi. O, zamanasının müştehidi idi. Hələ ata-babaları ona Şah Səfi ziyarətgahı haqqında danışmışdılar. Deyərdi ki, burada dəfn edilən Şah Səfi imamlarımızın nəslindən olub. Ziyarətgah möcüzəli, kəramətli ocaqlarımızdandır. Keçmişdə də, indi də camaat bu kəramətli ocağa tez-tez gəlir.

Onu da xatırladaq ki, əvvəllər ziyarətgah balaca komadan ibarət, dağılmaq, yox olmaq təhlükəsi qarşısında idi.

Sağ olsun xeyirxah əməllər sahibi, imam-peyğəmbər aşiqi **Xanəli Bəşir oğlu Ismayılovu** ki, şəxsi vəsaiti hesabına ziyarətgahı yenidən tikdirdi, camaatın istifadəsinə verdi.

**Xanəli Bəşir oğlu İsmayılov:**

- Əvvəllər Rusiyada yaşayırdım. Hər dəfə kəndə gələndə bu qədim ziyarətgahın vəziyyətini gördükcə narahat olardım. Bir dəfə niyyət dilədim, əhd elədim ki, niyyətim həyata keçsin, gəlib Şah Səfi ziyarətgahını abadlaşdıracağam. Şükür Allahın kəramətinə ki, istəyimə yetişdim. 1995-ci ildə işə başladıq və ziyarətgahı 1997-ci ildə istifadəyə verdik.

Bəli, xeyirxah insan, eloğlumuz-Xanəli müəllimin hesabına bu gün Şah Səfi ziyarətgahı özünün ikinci ömrünü yaşayır. Çox yaraşıqlı, klassik üslubda tikilmiş bu ocaq yenə də dindar bacı-qardaşlarımıza şəfa paylayır.

Allah-təala Xanəli müəllim kimi xeyirxah əməl sahiblərini el-obadan əskik eləməsin.

## SEYİD MİRSADİQ HACI SEYİD RZA OĞLU



**"Ay camaat! Siz hamınız Allaha möhtacsınız, o Allahdır ki, heç kəsə möhtac deyil. (O, hər bir eyibdən və nöqsandan uzaqdır)".**

Islamdan əvvəl seyid adını qəbilə başçılarına verərdilər. Sonralar bu söz müsəlman aləmində geniş məna kəsb etmiş, peyğəmbər nəslinə mənsub olanlar həmin ada layiq görülmüşlər.

Bu adı şərəflə daşıyanlardan biri də imam Museyi Kazım ə.s.-ın nəslindən olan seyid Mirsadiq ağa idi. Seyid Mirsadiq ağa el-obanın sayılıb-seçilən, hamı tərəfindən hörmət və ehtiramla qarşılanan, kəskin nəfəsli, ilahi vergili seyidlərindən idi.

**Seyid Mirsadiq seyid Rza oğlu Ərkivani** 1929-cu ildə Masallı rayonunun Ərkivan kəndində, müqəddəs seyid ailəsində anadan olmuşdu.

Onun ulu babası **seyid Mirkazım ağa** əslən Yəməndəndir. O, XIX əsrin əvvəllərində Azərbaycana-Ərkivana köçüb. Oğlu **seyid Mirhəşim ağa** da Ərkivanda doğulub boya- başa çatmışdı. Tanınmış din xadimi idi. Ona görə də oğlu **Mirbəşirin** (1880-1938) dərin dini savad alması üçün onu əvvəlcə Ərdəbilə mədrəsədə oxumağa yollayır. O, mədrəsədə islamın sirlərinə yiyələndikdən sonra Nəcəf şəhərində ali ruhani təhsili alır və axund rütbəsinə yiyələnir. Seyid Mirbəşir ağa Xorasanda ailə həyatı qurur. Sonra vətənə dönən seyid Mirbəşir ağa doğma kəndlərinin Isioba məhəlləsindəki məsciddə çalışır və burada ikinci dəfə evlənir. Iki nigahdan olan övladları **Hacı seyid Rza (1891-1973), seyid Maşallah, seyid Əhmədağa, seyid Mirhəşim və Mirzəhra** dünyaya gəliblər. Dövrünün məşhur axundu, təqvalı, ilahi nəfəsli, ağzı dualı seyid Mirbəşir ağa ömrü boyu şəriətlə məşğul olub. Həmişə deyərdi ki, 14 məsumu ziyarət etmişəm. Kaş bir də qismət olaydı. Amma qismət olmadı. Ağa 1938 -ci ildə rəhmətə getdi.





Ata yolunun davamçısı **Hacı seyid Rza ağa** da cavan yaşlarından şəriətlə məşğul olub. Ilk təhsilini əvvəlcə atasından, sonra isə Xorasanda ali dini məktəbdə alıb. Həm fitri istedadı, həm də kəramətli nəfəsi ilə seçilib. Cəddinin möcüzatları haqqında danışılan rəvayətlər hələ bu gün də camaatın yaddaşında, xatirindədir. Cəddini çağırıb bıçağın ucu iti hissəsinə bərkdən vursa da əllərinə heç nə olmazdı. Hafizi-Quran idi.

Hacı seyid Rza ağa böyük ailə sahibi idi. Əlinin qabarı, zəhməti ilə balalarını böyüdər, tikəsinə haram qatmaz, şəriəti də unutmazdı.

Hacı seyid Rza ağanın övladları **seyid Mirsadiq, seyid Mirxaliq, seyid Mirhəbib (rəhmətə gedib), seyid Mirtalıb, seyid Mirtahir (rəhmətə gedib), seyid Mirteyyub, seyid Mirtaha, Mirzöhrə, Mirzadə, Mirbacı, Seyidbacı** (rəhmətə **gedib), Gövhər və Nurbacıdır.**

**Kərbəlayi Mirxaliq ağa** sınaqlı, qəzəbli seyidlərimizdəndir. 2000-ci ildə Kərbəla ziyarətində olub. Kərbəlayi Mirxaliq ağanın övladları **seyid Mirəyyub, seyid Bəyzadə, Zakirə, Rəna, seyid Mirqayıt, Sədaqət, seyid Mirteymur, seyid Mirzamin, seyid Mirhakimdir.**

Ağanın bircə arzusu var: Məkkə ziyarətinə də getmək. Allah qismət eləsin!

Seyid Mirhəbib Hacı seyid Rza oğlunun (1939-1978) övladları: **seyid Mirtəbi, seyid Mirnəci, seyid Rövşən, seyid Vüqar, seyid Mirnəsir və seyid Azər.**

Hacı seyid Rza ağanın 4-cü oğlu seyid Mirtalıb ağanın isə 4 oğlu, 1 qızı var: **seyid Mircabir, seyid Mircavid, seyid Mircahid, seyid Miryasin və Sahilə.**

**Seyid Mirtahir ağa** isə (1951-1998) 2 oğul, 4 qız atası idi. Ömrünün çiçəkləndiyi vaxtda haqq dünyasına qovuşdu. Övladları **seyid Mirnasir, seyid Mirzamin, Könül, Nuridə, Ülkər və Nuriyyə** ocağının yaşadıcılarıdır.



Hacı seyid Rza ağanın digər oğlu seyid Mirteyyub ağa isə **Əminə, Zəminə, seyid Amid** kimi nurlu övladların atasıdır.

Seyid Mirtaha ağanın isə 2 oğlu, 1 qızı var: **seyid Rza, seyid Mirrahim və Məsmə.**

Nəinki cənub bölgəsinin, eləcə də o taylı -bu taylı Azərbaycanımızın uzaqdan görünən zirvəsi-seyid Mirsadiq ağa sadə, təmtaraqsız, mənalı bir ömür yaşayıb. Böyük ağamızın həyatda başı çox müsibətlər çəkib. Hələ kiçik yaşlarında olarkən anası Mənzəri itirib. Buna görə də uzun müddət xəstə yatıb və orta məktəbi yarımçıq oxuyub. Amma buna baxmayaraq ağa çox sərbəst yazar, oxuyardı. Gözəl avazı, məlahətli səsi vardı.

Ağa qeyri-adi bir insan idi. Həmişə deyib-gülər, şən zarafatlarından qalmaz, insanlar onu görəndə sevinər, rahatlıq tapardılar. Heç kəsdən qorxmadan da sözünü üzə şax deyərdi. Bu dünyada kişi varmı,- axtarışında idi ağa. Axtardığını tapa bilmirdi. Insanların qəlbindəki məkr, yalan, hiylə narahat edərdi ağanı. **"Yalan, yalan, hər şey yalan, ölümdən başqa"**, deyən ağamız ömrü boyu yalançılara, sözükəsiklərə, yaltaqlara qarşı mübarizə apardı, yorulmadı. Amma etdiyi iradları da zarafatla, istiqanlılıqla deyərdi ki, könülləri sındırmasın. Çünki bilirdi ki, söz yiyəsi sözünü götürəcək. Təsadüfi deyil ki, ona zəmanəsinin Bəhlul Danəndəsi deyirdilər.

Seyid Mirsadiq ağa ilahinin qüdrəti ilə hər şeyi əvvəlcədən görür, bilirdi. Rayonda olan bütün xeyir-şər işlərində iştirak edərdi. Vaxtını haradan bilirdi, hamısına necə çatdırırdı, bir Allah bilir. Sanki seyid Mirsadiqdən yüzlərlə idi...

Ağamızın böyük külfəti, on övladı var:

**Kərbəlayi seyid Mirvaleh, Xanzadə, Vəfa, Mənzər, Zeynəb, Mirbəstə, Rəvanə, Xoşqədəm, Gülxar və Gülbəniz.**







Ağa övladlarını böyüdüb, boya-başa çatdırıb, el adəti ilə 9 qızını gəlin köçürdüb. Yeganə oğlu Mirvalehə ali təhsil verib, toy edib, gəlin gətirib, gül üzlü nəvələrini görmüşdü. Ağa tanrının ona bəxş etdiyi övladlarına görə gecə-gündüz Tanrıya şükür edərdi.

**Seyid Mirsadiq** ağa dostluqda çox möhkəm insan idi. O, nuraniliyi, səxavətli, doğruluğu ilə onu tanıyanların sevgisini qazanmış ehtibarlı seyidlərdən idi. Onun cəddini çağıran hər kəs xətadan-bəladan uzaq olar və ağanın nurlu nəfəsindən şəfa tapardı. Ziyarətinə gələn insanların verdiyi nəzir-niyazları elə oradaca kasıb-kusuba, yetim-yesirə verər, onların korluq çəkmələrinə ürəyi dözməzdi.

Seyid Mirsadiq ağanın cəddi dərdli insanlarla Ulu Tanrı arasında vasitəçi idi. Ona pənah gətirən minlərlə insanların verdiyi nəzir-niyazı da elə oradaca kasıb-kusubun başına səpərdi. Həmişə də deyərdi ki, "sağ əl verdiyini sol əl gərək bilməsin". O, belə də edərdi. Çünki bu onun böyüklüyündən, sevgisindən, insanlara olan məhəbbətindən, sadəliyindən irəli gəlirdi. Elə ona görə də minlərlə insan onun müqəddəs şəklini evinin ən pak yerində, ürəklərinin başında saxlayırlar. Çünki ağanın nurlu şəkli uğurun, ruzi bolluğunun rəmzidir.

Seyid Mirsadiq ağa 2000-ci il iyul ayının 16-da haqq dünyasına qovuşdu. Ellər qara geyindi, yer-göy qan ağladı. Ağanın yasına kimlər gəlməmişdi. Hamı böyük ağanın itkisini el itkisi kim qarşıladı. Amma nə etmək olardı. Ağaya böyük ehtiram bəsləyən el-oba nurlu ağamızın adına layiq qəbri-şərifi üstündə möhtəşəm məqbərə düzəltmişdir.

Allah seyid Mirsadiq ağaya rəhmət eləsin.

## AĞAM MƏNİ DİNDİRMƏDİ

Yalan dünya yalanların puç oldu,
Yəni doğrun yalanlardan gəc oldu,
Harda görsə dindirərdi, necoldu,
Ağam məni dindirmədi bu dəfə?

Qəfil gəlib qəfil varıb gedərdi,
Sıramızı seltək yarıb gedərdi,
Ağrımızı unutdurub gedərdi,
Ağrımızı yendirmədi bu dəfə.

Ömür sanki bir hay- küylü küçəydi,
Gödək boynan ucalardan ucaydı,
Heç olmasa, söz ataydı, keçəydi,
Ağam məni dindirmədi bu dəfə.

Çəngə-çəngə pulu əzib düyərdi
Hirslənəndə pulnan bizi "döyərdi",
Kimi nabat, kimi qapaz yeyərdi,
Qapazını endirmədi bu dəfə.

Əldən ələ körpü idi əli, oy!
Əyildi bu tərəzinin mili, oy!
Mərmər üstdən tərpənmədi dili, oy!
Ağam məni dindirmədi bu dəfə.

**Arif Fərzəli**





Seyid Mirsadiq ağanın çoxlu kəramətləri olmuşdur.

**Hacı Mirəziz Seyidzadə:**

-Bir din xadimi kimi deyə bilərəm ki, seyidlərin özündə bir şaxələnmə vardır. Bu şaxələrdən biri də Səhinəsəb adlanan seyidlərdir ki, onlar digər seyidlərdən əsəbilik və səbirsizlik kimi xarakterlərinə görə fərqlənirlər.

Haqqında söhbət açdığımız seyid Mirsadiqin seyidliyinə, saflığına, peyğəmbər nurunun onun daxilində olmasına heç kəs şübhə edə bilməz. Bunu artıq seyid Mirsadiq ağa öz əməlləri yaddaşı və zəkası ilə sübuta yetirib.

Allah ona rəhmət eləsin.

**Müzəffər Mirqiyas oğlu Baxışov:**

-Mən Mirsadiq ağanın kəramətini çox görmüşəm və ona səmimi qəlbdən inanıram. Masallı rayonunun Bədələn kəndində doğulub böyümüşəm. Özüm də seyid, peyğəmbər övladıyam. Bədələnlı Mirtağı ocağının nümayəndəsiyəm.

Rayondan uzaqda yaşasam da, tez-tez eliмə-obama baş çəkir, əzizlərimlə görüşürəm. Rayona gələndə mütləq seyid Mirsadiq ağanın məqbərəsini də ziyarət edirəm. Ağlım kəsəndən ailəmizdə seyid Mirsadiq ağa haqqında eşitmiş və ona inanmışam. Təsadüfi deyil ki, kiçik qardaşım **Ramiz** övladına seyid Mirsadiq ağanın şərəfinə **Mirsadiq** adını vermişdir.

1989-cu ildə Bakı Dövlət Universitetinin hüquq fakültəsinin sonuncu kursunda idim. Ailəmiz seyid Mirsadiq ağanın cəddinə qurbanlıq nəzir etmişdi. Elə həmin ilin iyul ayında bütün ailəmizlə birlikdə seyid Mirsadiq ağanın ocağına getdik və qurbanımızı kəsib payladıq.

Həmişə seyid Mirsadiq ağanın gümbəzini ziyarət edəndən sonra işlərim daha uğurla gedir. Onun şəkili həmişə xidməti vəsiqəmin arasında olur. Hər gün bu nurlu insanın şəklini öpüb gözlərim üstünə qoyuram.

Xoşbəxt ailə sahibiyəm. **Emil, Miralim** adlı iki oğlum, **Günel** adlı bir qızım var. Bu xoşbəxtliyə çatmaqda seyid Mirsadiq ağanın möcüzəli cəddi köməyim olmuşdur.



Mirsadiq ağa elə bil Allah-təala tərəfindən göndərilmiş ən şirin bir nemət idi.

Allah cəmi dünyadan köçən seyidlərimizə rəhmət eləsin.

**Qurbanəli Məmmədov:**

-Eşitdiyimə görə repressiya illərində ağanın babası seyid Mirbəşirin var-dövlətini əlindən alırlar. Amma nə qədər edirlər, maşın yerindən tərpənmir. Əşyaları yerə tökəndən sonra işə düşür, ağanın əşyalarını maşına yığanda yenə tərpənmirmiş.

... Bir dəfə də NKVD işçiləri gəliblər ki, ağanın ailəsini tutub aparsınlar. Evə girəndə məlunların üstünə ilanlar atılıb. Ondan sonra bu evə gəlib bir də onları narahat edən olmayıb.

Ağanın cəddinə qurban olum! Cəddin bizə kömək olsun seyid Mirsadiq ağa!

Bu gün nurlu Mirsadiq ağa ocağının yaşadıcısı, cavankən ağsaqqal hörməti qazanmış Kərbəlayi seyid Mirvaleh ağa ata-babasının müqəddəs yolunu şərəflə davam etdirir.

Kərbəlayi Mirvaleh ağanın 39 yaşı var. Beynəlxalq Universitetin hüquq fakültəsini bitirərək ikinci ali təhsilə yiyələnib.

**Kərbəlayi seyid Mirvaleh ağa:**

- Həmişə maşınla rayonu gəzib-dolaşanda gözlərim ağamın olduğu yerlərə baxır. Elə bilirəm ki, indicə orada ağanı görəcəyəm. Çox vaxt elə bil səsini eşidirəm. Ailəmizdə ilk oğlan uşağı dünyaya gələndə adını Mirsadiq qoymaq istəyirdik. Lakin bibim dedi ki, yuxusunda baban seyid Rza ağanı görüb və deyib ki, peyğəmbərimizin adını verin. Odur ki, adını







Məhəmməd qoyduq. Nə qədər ki, ikinci oğul nəvəsi dünyaya gəlməmişdi, ağa meylini ona salmışdı. Ikinci oğluma babasının adını verdik. Atamın bütün əlamətləri eyni ilə balaca Mirsadiqdədir. Babam dünyasını dəyişdikdən sonra bir nəfər bizə gəldi. Dedi ki, mənə seyid Sadiq ağa lazımdır. Əvvəl elə düşündüm ki, gələn şəxsin yəqin ağanın Allah rəhmətinə getməsindən xəbəri yoxdur. Təkidlə bildirdi ki, mən nəzirimi seyid Mirsadiq ağaya verəcəyəm. Bilirəm ki, evdədir.

Sən demə ağanın adını daşıyan balaca **Mirsadiqi** deyirmiş. Bilirmiş ki, ağam dünyasını dəyişib. Ancaq onun ocağında Mirsadiq adında nəvəsi yaşayır.

Doğrudan da balaca seyid Mirsadiqdə babasının nəfəsi duyulur. Hərəkətləri babasının hərəkətlərinə çox oxşayır. Ağanı ziyarətə gələnlər məqbərəni, evə gələnlər isə balaca Mirsadiqi ziyarət edir. Çünki hamı bilir ki, babası öz nəfəsini ona verib.

Allah onu başacan eləsin!

Kərbəlayi Mirvaleh ağanın o biri oğlu **seyid Mirməhəmməd, qızları Kərbəlayi Pərvin, Gülnar və Aysel** də nurlu, nəcib seyid övladlarıdır.

Bəli, artıq 5-ci ildir ki, **böyük ağamız** bizimlə deyil. Amma bircə onunla təsəlli tapırıq ki, yoxluğuna təəssüfləndiyimiz ağamızın ruhu həmişə bizimlədir və uyuduğu müqəddəs ziyarətgahı yenə də insanların şəfa mənbəyi, nicat yeridir.

Allah seyid Mirsadiq ağaya qəni-qəni rəhmət eləsin.

Qəbrin nurla dolsun, ağa.

## SEYİD MİRƏLİCAN AĞA VƏ OĞLU HACI SEYİD MİRRƏSUL AĞA



Şıxlar kəndində el-obanın ümid, inam yeri olan bir ocaq var: Seyid Mirəlican və oğlu Hacı Mirrəsul ağa ocağı. Bu ocağın hərarətindən, istisindən, kəramətindən, nurundan çoxlarının taleyinə pay düşüb. Neçə-neçə insan bu ocağın sorağına gəlib.

Soy-kökü İmam Zeynalabidin (ə.s.)-a gedib çıxan (22-ci nəsil) Mirəlican ağanın qapısı həmişə ümidlə açılıb, sözü kəsərli olub.

Rəsuli Əkrəm buyurur: "Sədəqə verməyin yaxşısı odur ki, iki nəfərin arasında sülh yaradasan".

Ümumiyyətlə, bütün xeyirxahlıqlarda səxavətli olan ağa küsülüləri barışdırar, narazılıqları aradan qaldırar, ayaq qoyduğu, xahişə getdiyi yerdə qan düşmənçiliyi olsa belə kəsərdi.

**Seyid Mirəlican ağa** 1891-ci ildə Yardımlı rayonunda, Perinbel kəndində, müqəddəs seyidlərimizin vətənində anadan olub.

30-cu illərin repressiyaları nəticəsində kənd dağılandan, sakinləri köçürüləndən sonra ağa da ailəsi ilə Cəlilabada, oradan isə Masallı rayonunun Şıxlar kəndinə köçür.

Həmin il qış çox sərt keçirmiş. Mal-qarasına ot axtara-axtara ağa Şıxlar kəndinə gəlib çıxır. Yerli camaat ağa ilə yaxından tanış olur. Onun yüksək əxlaqını, ədəbini, təqvalı seyid olduğunu görüb onu buraxmır, ondan Şıxlara köçməyi xahiş edirlər. Ağa da camaatın xahişindən keçə bilmir və Şıxlara köçür.

Ömrünün axırına qədər el-obaya layiqli ağsaqqallıq edir. Camaat onun nəfəsinin bərəkətindən bəhrələnər, çətinə düşəndə ondan ümid diləyərdi.







Seyid Mirəlican ağanın 2 oğlu olub: **Miralı və Mirrəsul.**

Seyid Miralı ağa Böyük Vətən müharibəsinə gedib və itkin düşüb.

Seyid Mirəlican ağa oğlunun vəfatından sarsılsa da, oğlu **Hacı seyid Mirrəsul ağa** ona dayaq, arxa oldu.

Seyid Mirəlican ağanın dünyasını dəyişdiyi tarix barədə oğlu Hacı seyid Mirrəsul ağa **deyərdi:**

-1980-ci il yanvarın əvvəlləri idi. Ağam qohum-qardaşı, kənd ağsaqqallarını bir yerə yığdı. Bizə dedi ki, böyük bir səfərə hazırlaşır. Doxsan iki yaşlı müdrik el ağsaqqalı, ömrü boyu camaatın güvənc yeri olan imam övladının haqq dərgahına qovuşacağı ürəyinə dammış, yuxusunda görmüşdü. Nurani siması bir az da işıqlanmışdı. Gözləri yol çəkirdi. Hələ sağlığında ehsan verilməsini vəsiyyət etdi. Tapşırdı ki, kəndin əlsiz-ayaqsızlarının hamısına ehsan çatdırsınlar. Yanvarın 8-də dünyasını dəyişdi.

Görünür, müqəddəs insanlar, böyük iman, əqidə sahibləri, Allahın istəkli bəndələri yaradanın hər qismətini yüksək mükafat kimi qəbul edirlərmiş. Yəqin ki, onlar üçün ölüm uca bir məqama çatmaq, həyatdan, yaşayışdan daha gözəl mənəviyyata qovuşmaq imiş.

1937-ci ildə Perinbel kəndində doğulan Hacı seyid Mirrəsul ağa hələ uşaqlıqdan el-obanın məhəbbətini qazanmışdı. Son dərəcə zəhmətkeş, təqvalı seyid idi. Xeyirxahlığı ilə ad çıxarmışdı. Hörməti, səxavəti, sülh yaratması, xırda bir problemi həll etmək üçün gecə-gündüz, yorulmadan əziyyət çəkməsi ellərə məlumdur. O olan yerdə həmişə əmin-amanlıq yaranar, küsülülər barışar, divan-tərəziyə, məhkəməyə, polisə ehtiyac olmazdı. Hikmətamiz sözləri, müdrik məsləhətləri ilə cavanlara düz yol göstərər, şəfalı əlləri, pak nəfəsi ilə dərdli insanlara mərhəmət, nur paylayardı. Təsadüfi deyil ki, el ara-



sında ona **"sağlığında özünə rəhmət qazanan kişi"** deyərdilər.

Ağa gecə-gündüz xalqın firavanlığı yolunda, camaatın xətadan-bəladan uzaq olması üçün ulu Yaradana dualar edər, Quran oxuyardı. 1994-cü ildə Kərbəlada, 1997-ci ildə isə müqəddəs Məkkə ziyarətlərində olmuş, adının qabağına mübarək Kərbəlayi, Hacı adlarını əlavə etmişdi.

...Bir gün təsadüfən hörmətli bir ailənin yeganə oğlunu maşın vurmuşdu. Uşaq ağır yaralanmışdı. Sahibləri qan-qan deyirdilər. Uşağı vuran sürücü ağaya minnətçi düşmüşdü. Ağa işə qarışmalı oldu. Onun xahişini yerə salmadılar. Dedilər ki, qalsa, sənin nəvəndir, ölsə, qurban olsun sənə...

Bax, beləcə bir qan düşmənçiliyi də aradan qaldırıldı...

Seyid Mirrəsul ağa 2002-ci ilin avqust ayının 6-da haqq dünyasına qovuşdu. Hacı seyid Mirrəsul ağanın yaxınları deyir ki, ağa heç bir dava-dərman qəbul etmədi. Allaha dua-səna edə-edə onu yoxlamağa gələnlərə vəsiyyət, nəsihət verə-verə dünyadan köçdü.

Hacı seyid Mirrəsul ağa təkcə bir ailənin deyil, elin-obanın itkisi idi.

Onun saf siqlətindən, halal cövhərindən yaranan, Hacı seyid Mirrəsul ağanın adı ilə tanınan ocaq-pirə sahibi dünyasını dəyişdikdən sonra da ziyarətə gələnlərin sayı çoxdur. Şıxlar və Yeddioymaq kəndlərinin qəbirstanlığında ucalan, şərq memarlığının gözəl nümunəsi kimi diqqəti cəlb edən məqbərə övladlarının vəsaiti ilə tikilmişdir.





Mirəlican ağa və onun oğlu Hacı seyid Mirrəsul ağanı tanıyanlardan çoxu çətinə, dara düşəndə işinin düz gəlməsi üçün onların adına tapınır, seyid Mirəlican ağa, Hacı seyid Mirrəsul ağa ismini dilinə gətirir, onların əddindən kömək istəyir. Ağanın dualarının kəramətindən danışanlar, ziyarətdən sonra sağlamlıq tapanlar, mətləblərinə çatanlardır. Elə ona görə də bu soraq uzaqlara yayılmış, dildən-dilə düşmüş, ocağına gələn zəvvarların sayı artmışdır.

...Lənkərandan seyid ocağına gələn gənc barəsində söhbətlər qonşu kəndlərdə çoxlarına məlumdur. Rusiyaya çörək dalınca gedən gəncə ailəsi barədə yanlış xəbər verirlər. Oğlan bir neçə dəfə intihar etmək qərarına gəlir, amma hər dəfə gözünə tanımadığı nurani bir sima görünür. Bu nurani şəxs onu təmkinli olmağa, hər deyilənlərə inanmamağa çağırır. Rayona qayıdan və deyilənlərin iftira olduğunu öyrənən gənc öz xilaskarını axtarır, soraqlaşıb çətinlik çəkmədən tapır...

**Hacı seyid Miryəhya** söhbət edir ki, o vaxt babamın qəbri üstə məqbərə olmadığından, nəzirləri bəzən təsadüfi adamlar götürür, lazım olmayan yollara xərcləyirdilər. Bunu atam da bilirdi. Bir dəfə türbədə hüzr mərasiminə yığılan camaatın yanında barmağını dəmir boruya tuşlayıb dedi:

- Baxın, orada ilan var. Ona tapşıracağam toplanan nəzirləri qorusun. Hər kəsin ki, ehtiyacı var, ilan ona dəyməyəcək. Tamah məqsədilə götürənlər isə cəzasını alacaq. Elə bu vaxt dəmir bənddən çıxan nəhəng bir ilan hamını heyrətləndirdi. Sakitcə sürünüb yaxınlıqdan keçdi. Dörd kənddə hamının yadındadır ki, evində, həyətində ilana rast gələnlər Hacı seyid Mirrəsul ağaya müraciət edərdilər.

Hacı Mirrəsul ağanın övladları **Hacı seyid Miryəhya, seyid Mirbaba, seyid Mirrəhim, seyid Mirrafiq, seyid Mirkamal, seyid Mirrəhman, seyid Mirrauf, seyid Mirpaşa** müxtəlif sahədə çalışan iş adamlarıdır.

Başda böyük qardaşları Hacı seyid Miryəhya olmaqla, nəslə, kökə, baba, ata ocağına sadiqdirlər.



Bu gün ocağında kiçik oğlu seyid **Mirrauf ağa** və nəvəsi, təqvalı seyid balası **Mirsəmid** ağa oturur.

Allah seyid Mirəlican ağaya, Hacı seyid Mirrəsul ağaya rəhmət eləsin, ruhları şad olsun.



Hər iki seyidin kəramətlərini görənlər indi də bu barədə həyəcanla danışırlar.

**Qafqaz Müsəlmanları İdarəsinin Qazisi Axund Hacı Mirqiyas ağa Təhməzov:**

- Bismillahir-rəhmanir-rəhim!

Peyğəmbərimizin (s) kəlamı var: **"Pak nəsillər heç vaxt itməz".**

Pak nəsil o nəsildir ki, öz ceddinin yolunu gedər. O nəsillərin ardıcılları, bizim ən mötəbər ağalarımız **seyid Mirəlican ağa və oğlu Hacı seyid Mirrəsul ağadır**. Onlar həmişə öz təqvalıqları və zəhmətsevərlikləri ilə xalq arasında seçilmiş kəramətli ağalar idi. Seyid Mirəlican ağa həmişə halal zəhməti ilə özünə ruzi qazanıb. Onun davamçısı olan Hacı seyid Mirrəsul ağa da atasının yolu ilə gedib. Hazırda onun övladları da ata-babalarının yolunu davam etdirirlər. Bu nəslin indiki davamçıları da cəmiyyətdə yüksək mövqe sahibi kimi böyük nüfuza malikdirlər. Onların tutduqları yol peyğəmbərlərimizin bizə göstərdiyi yoldur. Peyğəmbərimiz (s) buyurub: "Zəhmətkeşin təri şəhidin qanından üstündür". Mənim o ağalarla sıx əlaqələrim olub. Mən indi də bu ocağa, o ağaların pak övladlarına yaxından bağlıyam. Çünki onlar imanlı, təqvalı, cəmiyyətimizdə yüksək əxlaqi keyfiyyətləri ilə seçilən insanlardır.





**Hacı Əliəşrəf Zeynalov, Masallı Rayon Təhsil Şöbəsi müdirinin müavini:**

- Fitrətində Allahı axtarmaq, ona çatmaq istəyi olan insanlar öz milli təfəkkürünü illərlə formalaşdıraraq, bu yolda ocaqlara, türbələrə, ziyarətgahlara çevrilmiş müqəddəs insanların Allah yanındakı şərafətindən bəhrələnirlər.

Belə müqəddəslərdən Şıxlar kənd qəbirstanlığının girəcəyində uyuyan iki məzar sahibini: Mirəlican ağanı və Hacı Mirrəsul ağanı xatirimə gətirirəm. O ağalar, onları sevən digər insanlar kimi, mənim üçün də çox əhəmiyyətli və dəyərlidirlər.

Əlbəttə, Həcc ziyarətinin bərəkətindən mən bu ailənin üzvləri ilə yaxından tanış oldum. Mən xoşbəxtəm ki, az müddət içərisində Hacı Mirrəsul ağa ilə çox yaxın ünsiyyətdə oldum. Nə qədər təvazökar, nə qədər Allah nuruna bürünmüş və bu nuru özündə əks etdirən bir insanı-peyğəmbər balasını gördüm. Şəxsən Mirrəsul ağanın göstərdiyi bu vəch mənim iman dəryamı nə qədər zənginləşdirdi. O danışanda elə bil hər şeyi gözü ilə görür, Allahı öz hərəkətləri, sözləri ilə, reallıqla tərəfmüqabilə çatdırırdı.

Əlbəttə, Allahı, onun Rəsulunu biz insanlara bu qaydada təqdim edən bəşəri dəyərlər qazanmış ağaları heç vaxt unutmaq olmaz. Bu həm də bizə peyğəmbərimiz Məhəmməd əleyhissəlamın vəsiyyətidir.

*Tapşırıb ümmətə səqəleyni-Rəsuli-səqəleyn,*
*Biri Quran, biri zürriyyeyi-Zəhra...*

**Xanəli Paşayev, N. Tusi adına Pedaqoji Universitetinin dosenti, alim-pedaqoq:**

- Seyid Mirəlican ağa və onun oğlu Hacı seyid Mirrəsul ağa Cənub bölgəsinin, eləcə də respublikanın ən nüfuzlu, kəramətli və təqvalı seyidlərindəndir. Mənim o ağalara həmişə böyük ehtiramım olub. Hacı seyid Mirrəsul ağa ilə şəxsən çox yaxın və doğma münasibətdə olmuşam. Ağa təqvalı və imanlı bir şəxs olduğu kimi, eyni zamanda dərin biliyə **malik, di-**

ni- tarixi savada malik, xalqımızın milli-mənəvi dəyərlərinə dərindən bələd olan, sülhsevər və qayğıkeş bir şəxs idi.

Bir çox müşkül işlərimdə onun qiymətli məsləhətləri mənim köməyimə çatıb. Hacı seyid Mirrəsul ağanın şəxsində biz böyük el ağsaqqalını, hamı üçün kömək və dayaq olan, pak əxlaqi ilə seçilən nüfuzlu və mömin bir şəxsi itirmişik. Allah onun müqəddəs ruhunu daim bizə duaçı etsin. Cəddi həmişə bizə kömək olsun.

Amin!

**Hacı Əlisgəndər Yaqubov, I Yeddioymaq kənd ağsaqqalı:**

- Rəhbəri olduğum təsərrüfatın tayalarında yanğın baş vermişdi. Yayda küləkli gündə alovun nə demək olduğunu hər kəs yaxşı bilir. Tayalardan ikisi alışmışdı. Camaat söndürməyə çətinlik çəkirdi. Od başqa tayalara keçsəydi, böyük bir heyvandarlıq təsərrüfatı yemsiz qalacaqdı. Seyid Mirəlican ağanı gətirdik. Ağa dua-səna etdi. Əlini uzadıb göstərdi ki, alov bu hissəyə keçməyəcək. Allah-təala ağanın duasını qəbul etdi. Bir azdan sonra od söndü. Bu müqəddəs insanın duasının kəraməti camaatı böyük bir bəladan qurtardı.

**Rəsul Rzayev, şair-publisist, Azərbaycan Yazıçılar Birliyinin üzvü:**

- Mən də ocaq sahibləri- seyid Mirəlican ağa və Hacı seyid Mirrəsul ağa ilə sağlıqlarında dəfələrlə görüşmüş, möcüzələrini, kəramətlərini görmüş, eşitmişəm. Məzuniyyət vaxtı, səfərə çıxanda adətən bu ocağa baş çəkirdim. Hər dəfə ziyarətdən sonra yenileşirəm. Buradan şəfqət, gümrahlıq, Hacı Mirrəsul ağanın söhbətlərinin şirinliyini, yaradıcılığım üçün xeyir-duasını aparırdım. Bir sıra kitablarım bu xeyir-duadan yaranıb. İndi də çətinə düşəndə bu ağaların cəddini köməyə çağırır, onların ruhunu yad edir və müqəddəs məqbərəsini ziyarət edirəm.

Allah onlara qəni-qəni rəhmət eləsin!





## SEYİD MİRTAĞI AĞA OCAĞI



Min ildən artıqdır ki, bəşəriyyət Allah-təalanın yer üzünə göndərdiyi Həzrəti peyğəmbər salavatullahın nurunun, kəramətinin işığında yol gedir. Zamanın enişli-yoxuşlu yollarında addımlayan bəni- adəm övladlarının yolçusu, çətin məqamlarda pənah və güman yeri olan seyidlərimiz həmişə insanlarla bir olublar.

Ulu Tanrı ölkəmizin Cənub bölgəsinə belə bəsirət sahibləri, müqəddəs seyidlərimizi daha çox ərməğan edib.

Ümumiyyətlə, bu diyarda seyidlərimiz tarixən təkcə dini sahədə deyil, həm də mühüm dövlət işlərində xüsusi rol oynayıblar.

Talış xanlığı sülaləsi məhz seyidlərimizlə başlamışdır. Bu sülalənin banisi Səfəvi nəslinə məxsus ərdəbilli seyid Abbas xan idi.

Bu gözəl diyarın tarixinə, kənd və qəsəbələrinin etnoqrafiyasına nəzər saldıqda görürük ki, onların yaranma tarixi, adları daha çox nurlu, nəcib seyidlərimizin adı ilə bağlıdır. Burada bir paradoks da var. Əgər hansısa bir kənd birbaşa onların adı ilə bağlı deyilsə belə, mütləq bir imam-peyğəmbər övladının adı ilə seyidləşib, adlandırılıb.

Masallı rayonundakı Bədələn kəndinə də el arasında **"Seyidin kəndi"** deyirlər.

Bəli, məhz cəddinin işığına minlərlə insanın yığışdığı, 30 ilə yaxındır ki, bu dünyadan köç eləsə də, bu gün də diri kimi yad edilən, hər cümləbaşı ruhuna salavat çevrilən, adı, cəd-



di ilə insanlara inam, mərhəmət paylayan seyid Mirtağı ağa bu kənddə yaşamış və haqq dünyasına qovuşmuşdu.

Hələ 1979-cu ildə kəndin 110 yaşlı ağsaqqalı **Kərbəlayi Ağahüseyn kişinin** babalarından eşitdiyi məlumatdan aydın olur ki, Mirtağı ağanın ulu babaları Şah Ismayılın dövründə Ərdəbildən əvvəlcə Lənkərana, sonra isə Bədələna köçüb və dolayısı ilə Xətainin ulu babaları Şeyx Səfiəddin, Şeyx Cüneyd və Şeyx Heydərin nəsli ilə birləşir və imam Müseyi-Kazım (ə.s.) törəməsidir.

Mirtağı ağanın babası seyid Mircəfərdə, **atası seyid Mirnağıda** və özündə də imamlarımızın nişanələri vardı. Ağanın sol qolunda olan iz Həzrət Abbas əleyhissəlamın nişanəsini xatırladırdı. Doğrudan da Mirtağı ağa əsl imam-peyğəmbər övladı idi. Həm qəzəbi, həm də rəhmdilliyi, ürək yumşaqlığı, həm də adi adamlardan seçilən hərəkətləri, kəraməti, səxavət və gözü-könlü toxluğu ancaq müqəddəs insanlarda birləşə bilərdi.

Mirtağı ağanı yaddaşlarda yaşadan, onu el gözündə pillə-pillə ucaldan təkcə bu xüsusiyyətləri deyildi. Bu insan öz ömrünü insanlara həsr elədi. Neçə-neçə yetim-yesirə öz ömründən pay tutdu. Bu gün nəinki Masallıda, respublikamızın başqa bölgələrində də ağanın "Kisədibi" kimi payladığı on minlərlə pulun bərəkətindən minlərlə adam var-dövlət sahibi olub. Ağa isə heç özünə "Kisədibi" də saxlamırdı. Əlindəki köhnə zənbili gecə-gündüz dolub-boşalırdı. Bir elə var-dövlətdən





özünə qıyıb heç əməlli-başlı ev də tikdirməmişdi. Çox vaxt da çöldə - ləmdə yatırdı.

Ağa özündən sonra ancaq rəhmət və insanlıqdan başqa sərvət qoymadı.

Hatəm, Həzrət Əli ə.s. səxavətli ağa idi seyid Mirtağı ağa. Kəramətinin, cəddinin qüdrətini çoxları görmüş, çoxları onun şirinliyini, acısını dadmışdı. Tüpürcəyi, şilləsi isə hər dərdə məlhəm idi.

Seyid Mirtağı ağanın övladları da gözlərini açandan ocaqlarını belə görmüş, bu ruhda tərbiyələnmişdilər.

Ağanın 4 oğlu, 2 qızı olub.

Böyük oğlu **seyid Mirmahmud** idi. Sonra isə **seyid Mirmusa, seyid Miri və seyid Mirqurban ağadır**.

Seyid Mirmahmudun **seyid Mirfəttah, seyid Mircamal** və **seyid Mirtapdıq** adlı oğlanları və altı qızı var.

**Kərbəlayi seyid Mirmusa ağanın** isə 8 oğlu, 3 qızı vardır. Əsl Allah adamı idi. Ibtidai təhsil almışdı. Ata ocağında yaşayırdı. Sadə və mehriban idi. Özü də bir peyğəmbər ömrü yaşadı. Düz 62 yaşında haqq dünyasına qovuşdu. Kərbəla ziyarətinin xərcini çəkən boradigahlı xeyriyyəçi **Yasər Hacı Mirzağa oğlu (bu savab işdə Vasif Həsənovun da payı var)** onun Həcc ziyarətinə də yardım edəcəkdi. Avtomobil qəzası müqəddəs Kəbənin ziyarət etmək arzusunu yarımçıq qoydu, Amurlu kənd qəbirstanlığında dəfn olundu.

Bu gün yurdunda övladları **seyid Mircəfər, Məşədi seyid Mirağa, seyid Mirpenc, seyid Mirşam, seyid Mirməhərrəm, Hacı seyid Mirtağı və seyid Mirəli ağa** ocaq yaşadıcılarıdır.

Seyid Miri ağanın külfəti isə daha böyükdür: **seyid Mirəkbər, seyid Miryaqub, seyid Mirxuda, seyid Mirxəlil, seyid Mirsalam, seyid Mircavad** və 8 qız övladı.

**Seyid Mirtağı ağanın oğlanları seyid Mirmahmud, seyid Miri** və



**seyid Mirmusa haqq dünyasındadırlar.**

Allah rəhmət eləsin.

**Kərbəlayi seyid Mirqurban ağa** uşaq yaşlarından zəhmətə alışıb. Ağa 1990-cı ildə Məşhəd, 2002-ci ildə isə Kərbəla ziyarətində olmuşdur.

Kərbəlayi seyid Mirqurban ağa 5 uşaq atasıdır. **Seyid Mirsübhan, seyid Mirmais** və 3 qız övladı.

Allah onun nəfəsini heç vaxt eldən əskik eləməsin.

Seyid Mirtağı ağa 1975-ci il noyabr ayının 6-da 74 yaşında rəhmətə getdi və vəsiyyətinə uyğun olaraq öz həyətində torpağa tapşırıldı. Həmin il övladları onun qəbrinin üstünü götürüb, təmir işləri aparmaq istəyəndə hökumət məmurları buna yol vermədilər. Uzun müddət ağanın qəbrinin üstü belə qaldı. Lakin 80-ci illərin ortalarında Moskvada yaşayan, ağaya dərin hörmət bəsləyən eloğullarımız **Arif Qiyas oğlu Əzizov və Elman Ağababa oğlu Zülfüqarov** Bakıda qara mərmərdən başdaşı düzəltdirib ağanın qəbrinin üstünü götürdülər.

90-cı illərdə isə digər eloğullarımız, xeyirxah ağsaqqal **Hacı Mirzağa kişi** və övladları **Kərbəlayi Yasər və Saleh Əsədullayevlər** ağanın müqəddəs məzari-şərifi üzərində adına layiq məqbərə ucaltdılar.

Ağanın cəddi qoy həmişə onların üzərində olsun.

Seyid Mirtağı ağa Tanrı dərgahına ucaldı. Yurdunda, ocağında balaları, nəvələri onun yolunu davam etdirirlər. Ümumiyyətlə, ağanın bütün nəvə-nəticələri iman sahibi, əsl imam-peyğəmbər övladlarıdır. Hamısı bir-birindən layiqli, səxavətli, xeyirxah.





Kərbəlayi seyid Mirmusa ağanın oğlanları, xüsusən də **seyid Mircəfər ağa** xüsusilə fərqlənir. Onu xeyirxah əməllərinə görə hamı tanıyır. Babası kimi həmişə insanların hayına yetir. Qabağına çıxanlara əlindən gələn köməkliyi əsirgəmir. Bu nurlu insan hər gün neçə-neçə insana bərəkət, ruzi, təbərrik paylayır. Cibləri həmişə konfetlə dolu olur. Bu təbərrik hər bir kəsə xeyir-bərəkət, xoşbəxtlik gətirir. Bütün varlığı ilə babasının yolunu doğrultmaq, bu müqəddəs yolun layiqli yolçusu olmağa çalışır. Elə ona görə də Əhmədlidə şəhər Icra Hakimiyyətinin müvafiq sərəncamını aldıqdan sonra **"Mirtağı məscid-ibadətgahı"** ucaltmaq üçün gecə-gündüz çalışır. Özü də "Mirtağı" dini icmasının sədridir.

Seyid Mircəfər ağanın tikdirəcəyi müqəddəs məsciddə Allahın nəzəri, babasının ruhu dolaşır. Hər gün onlarla insan onun ocağına pənah gətirir və dərdlərinə şəfa tapırlar.

Mircəfər ağanın bir niyyəti də var. Bu məscidin bünövrəsi qoyulandan sonra Məkkə ziyarətinə getmək arzusundadır. Inşallah.

Kərbəlayi seyid Mirtağı ağanın sevimli nəvəsi **Hacı seyid Mirtağı ağa** gənc olsa da, camaatımızın layiqli seyidlərindəndir. Elə sir-sifətdən, hərəkətlərindən, səxavətindən də babasına oxşayır. Keçən il xeyirxah eloğlularımızın köməkliyi ilə müqəddəs Məkkə ziyarətində olub. Onun bu əziyyətini çəkənlərin Allah ölənlərinə rəhmət eləsin!

Seyid Miri ağanın övladları da el-oba içərisində böyük hörmət sahibidirlər.

Redaksiyamızın qonağı olmuş, istedadlı filoloq, iman əhli, seyid Mirtağı ağanın nəvəsi **seyid Mirəkbər ağa** bu materialın hazırlanmasında bizə yaxından köməklik etdi.

Seyid Mirəkbər ağa hal-hazırda Boradigah kənd məktəbində müəllim işləyir. Hələ körpə vaxtlarında Quranı xətm etmişdir.

**Tağıyev Qərib Abıəli oğlu:**

- Bir dəfə Boradigah bazarına getmək istəyirdim. Yola çıxanda gördüm ki, Mirtağı ağa da maşın gözləyir. Bu vaxt bir maşın gəldi. Içərisində adam olduğuna görə saxlamadı. Maşın bir az getmiş dayandı. Sürücü nə qədər əlləşirdisə də, maşını işə sala bilmirdi. Bu hadisəyə xeyli adam yığışdı. Nəhayət, yerli olmayan sürücüyə hansı səhvə yol verdiyini başa saldılar. Sürücü ağadan üzr istədi. Sonra isə maşın heç nə olmamış kimi işə düşdü.

**Salman Mikayılov:**

- Böyük Vətən müharibəsi illərində NKVD işçiləri ağanı müharibəyə aparmaq üçün kəndə gəlirlər. Onu zorla maşına oturdurlar. Sürücü maşını işə salmaq istəsə də, işə düşmür. Həmin vaxt kolxoz sədri işləyən rəhmətlik **Şahlar Mikayılov** hadisə yerinə gəlir. Vəziyyətlə tanış olduqdan sonra NKVD işçilərini məzəmmət edir. Deyir ki, siz bilirsiniz kimi aparmaq istəyirsiniz? Bu el-obanın pasibanı, ağır seyidi olan Mirtağı ağadır. Camaatı aclıqdan o qoruyur, o saxlayır. Onu zorla heç vaxt apara bilməzsiniz.

Bunu eşidən NKVD-çilər ağanı yerə düşürürlər. Maşın işə düşür. Bu hadisədən heyrətlənən çağrılmamış qonaqlar ağadan üzr istəyib, gəldikləri kimi də geri qayıdır, bir də ağanı narahat etmirlər.

**Kərbəlayi Xeyrulla Fərman oğlu:**

- 1954-cü il idi. Astaralı tələbə yoldaşımla onlara getmişdim. Rayonda olarkən bir dükançı ilə həmsöhbət olduq. O, mənim ağanın kəndindən olduğumu bilib, konvertdə bir əmanət verdi ki, Mirtağı ağaya çatdırım.

Sonra isə başına gələnləri danışdı.

Dedi ki, o vaxt mağazasında təftiş edən müfəttiş yoxlama zamanı haqsızlığa yol vermiş və nəticədə dükançıya iş kəsmişdilər. Türmədə bir nəfərin tövsiyəsi ilə o, Mirtağı ağanın cəddinə nəzir deyir. Həmin vaxt onun dükanını başqasına vermək üçün təhvil-təslim edən müfəttişlər sənədlərin qaydasında olduğunu aşkar edirlər. Yenidən məhkəmə olur və nahaqdan tutulan dükançı azadlığa buraxılır. Pula, rüşvətə görə saxta yoxlama aparan müfəttiş isə işdən çıxarılaraq həbsə alınır.





**Xudaverdi Bayramov, Rayon Mərkəzi Xəstəxanasının həkimi:**

- Uşaq vaxtlarımda əlimin üstündə çoxlu ziyillər əmələ gəlmişdi. Anam məni Boradigaha - bazara tez-tez gələn Mirtağı ağanın yanına apardı. Ağa məlhəmli tüpürcəyini ziyillərin üstünə çəkdi. Düz altı gündən sonra əllərimdə bir dənə də olsun ziyil qalmadı.

Allah Mirtağı ağaya rəhmət eləsin!

Ağanın həyatında belə kəramət çox olub.

Ağsaqqallar, kənd sakinləri **Hidayət Əhmədov, Yaqub Əhmədov, Kərbəlayi Sayad Mehdiyev, Kərbəlayi Eynəli Xəlilov** və onlarla insan ağanın kəramətləri, səxavət və nəcibliyindən, xeyirxahlığından söhbət açdılar.

Dostumuz, istedadlı yazıçı, şair **Nurməmməd** "Ağa Mirtağı - Nur ocağı" kitabında seyid Mirtağı ağanın ömür yoluna işıq salmış və ağanın kəramətləri haqqında maraqlı materiallar toplaya bilmişdir.

Allah-təala nurlu Mirtağı ağanın, onun övladlarının pak nəfəsini heç vaxt xalqımızın üstündən əskik eləməsin. Onun ocağına pənah gətirərək Allah dərgahına qaldırılmış əlləri heç vaxt boşda qoymasın.

# MƏŞƏDİ SEYİD MİRXƏLİL AĞA



Dünyaya gələn insanın həyatında baş verəcək hadisələrin hər biri insanın taleyinə, qismətinə yazılır. Keçən günlərin hər birinin bir xatirəsi var. Hər yaşanan gün üçün hər birimiz Allaha şükür etməliyik. Bir şeyin sonu nəyəsə başlanğıc olur. Şərəflə, halallıqla yaşanan ömür xatirələrdə, yaddaşlarda qalır.

Bu cür şərəfli ömür sürənlərdən biri də Öncəqalada yaşamış **Məşədi seyid Mirxəlil ağa** (1880-1943) idi.

Ağa əsl el ağsaqqalı idi. Onun ocağının qüdrəti, nuru, hərarəti bu gün də insanların qəlbində yaşayır. Öncəqala və ətraf kəndlərdən, başqa rayonlardan gələnlər bu ocağı inam yeri, ümid qapısı hesab edir, imanlarını möhkəmləndirib qayıdırlar. Bu ocağın sahibi qüdrətli, dövrünün tanınmış, inanılmış ağır seyidlərindən biri idi. Onun ceddi xatirinə Ulu Tanrı sevimli bəndələrinə öz bərəkətini nazil edib və edir.

Peyğəmbərimiz (s) buyurub: "Mənim əhli- beytim sizin aranızda Nuhun gəmisi kimidir. Tanıyan qurtulur, ondan üz döndərən isə qərq olar".

Bütün dövrlərdə qurtuluş, ümid adası olan bu gəmiyə pənah aparmışıq. Allahın müqəddəs bəndələri, seyid- peyğəmbər övladlarının xətri, hörməti həmişə bizə əziz olub.

Məşədi seyid Mirxəlil ağanın bu və ya digər möcüzələri, ölümə bərabər təqib və təzyiqlərə məhəl qoymayaraq Qurani-Kərimin xalq arasında təbliği, arası kəsilmədən ona gətirilən





nəzir-niyazı fağır-füqaralara paylaması və ilaxır bu kimi digər müsbət keyfiyyətləri ağanı öz dövrünün ən hörmətli şəxsiyyətinə çevirmişdir. Ağa sağlığında olduğu kimi bu gün də ziyarətgaha çevrilmiş məzarı ilə xalqın xidmətindədir. Belə ki, ağa Allah dərgahına qovuşduqdan, cismi Öncəqala kənd qəbirstanlığında torpağa əmanət verildiyi gündən bu günə qədər xalqın ümid, imdad yeri, xəstələrin şəfa ocağı kimi fəaliyyət göstərməkdədir...

Övladları **seyid Mirzakir, seyid Mirfazil, Hacı seyid Mirəkbər, seyid Mirmüqərrəba, seyid Mirmüctəba, seyid Mirəhməd və Hacı seyid Miribadulla** da ata-babasının yolunu saxlayıblar. Yəni "Ot kökü üstə bitər" atalar sözünü seyid Mirxəlil ağaya və onun ailə üzvlərinə fəxarət və böyük məmmuniyyətlə şamil etmək olar. Belə ki, ağanın həyat yoldaşı, ağbirçək el anası, məleykə qiyafəli **xanım Sayad ana**, onların həyata bəxş etdiyi və boya-başa çatdırdığı yeddi oğulun hər biri həm müasir və həm də ilahi elmlərə mükəmməl yiyələnərək el-obada ən nümunəvi xeyirxah əməlləri ilə seyidlər ocağı yaradaraq "Ot kökü üstə bitər" atalar sözünün təsdiqinə imza atmışlar. Bu müqəddəs imza ilə kifayətlənməyən Mirmüctəba ağa, Mirəkbər ağa, Miribadulla ağa və Mirəhməd ağa atalarının yarımçıq qalmış arzularını davam etdirərək müqəddəs Məşhəddən başlayaraq imam qanı ilə sirab olan Kərbəla torpağında imam Hüseyn ağanı ziyarət etmiş və müqəddəs Məkkədə müsəlman dünyasının qibləgahı olan Kəbə evi qarşısında diz çöküb, səcdə edərək Həcc ziyarətini tamamlayıb, müqəddəs Hacı rütbəsi ilə rütbələnərək ataları Məşədi seyid Mirxəlil ağanın məzarı üstə qayıdıb, ata tapşırığını yerinə yetirdiklərini təzim və təqdim etmişlər...

## SEYİD MİRZAKİR AĞA



Məşədi Mirxəlil ağa yurdunun seyidlər ocağı bu gün də öz müqəddəsliyini qoruyub inkişaf etdirməkdədir. Çünki bu ocaq bu gün də müqəddəs əllərdədir. Yeddi qardaş seyidlərin ən böyüyü Mirzakir ağa ata- anası və onların ruhları ilə birlikdə dərgahda bərqərar olan **Mirmüqərrəba ağa, Mirfazil ağa** və **Hacı Mirmüctəba ağa** ruhlarına layiq bu müqəddəs seyidlər ocağına rəhbərlik edir...

Seyid Mirzakir ağa 1923-cü ildə Öncəqala kəndində anadan olmuşdur.

1948-ci ildə ADPI-nin coğrafiya fakultəsinə daxil olmuş, 1952-ci ildə oranı bitirmişdir. O, bundan əvvəl də orta təhsilli müəllim kimi fəaliyyət göstərmişdir.

Zakir müəllimin ən böyük zəhməti 1941-1945-ci illərdə məktəb şagirdlərini aclıqdan qoruması olub. O, şagirdləri ilə birlikdə taxıl sahəsində iməcilik yolu ilə sünbül toplayar, məktəbdə isti yemək təşkil edərdi. Şagirdlərinin acından ölməməsi üçün o, müharibə illərində bu xeyirxah işini davam etdirmişdir. Bu, əsl qəhrəmanlıq, əsl kişilik, əsl müəllimlik işidir. Həmin şagirdlərdən indi müəllim, həkim və yüksək rütbəli işçilər var. Onlar Zakir müəllimi bir ata kimi sevirlər.

O, qardaşlarının təhsilinə, bir ziyalı kimi kamilləşmələrinə, yaxşı yaşamalarına böyük səy göstərmişdir.

Seyid Mirzakir ağa el-obanın nurlu ağsaqqalıdır.

**Seyid Mirxəlil, seyid Mirşakir, seyid Mirşahin** adlı oğulların və 2 qız övladının atasıdır.





## HACI SEYİD MİRMÜCTƏBA AĞA



1931-ci ildə Məşədi seyid Mirxəlil ağanın ocağında dünyaya göz açmışdı.

Ata yolunun davamçısı Hacı Mirmüctəba ağanın ömür yolu, taleyi bəlkə də qalın-qalın kitablara sığmaz. O, çox ibrətamiz, heyrətamiz bir həyat yolu keçib. Çoxlarına örnək ola bilər bu həyat. Mirmüctəba hər cür çətinliyə dözür, gecə-gündüz çalışırdı. Kolxozda işləyib, ailəyə kömək edirdi.

Çox qətiyyətli də adam idi. Hər hansı bir məqsədə çatmaq üçün var qüvvəsi ilə çalışardı. Orta məktəbi qurtardıqdan sonra əzablara qatlaşıb Azərbaycan Politexnik Institutuna daxil olub. Ali təhsil aldıqdan sonra müxtəlif sahələrdə çalışıb. Işinin əlverişsizliyinə və çətinliyinə baxmayaraq, həmişə namazını qılar, orucunu tutardı. Iş yoldaşları ona qibtə edər və böyük ehtiram göstərərdilər. Namaz qılmaq imkanı olmayan balalarının əvəzinə də namaz qılardı.

Övladları **seyid Mirhadı, seyid Mirmahir, seyid Mirağa, seyid Mirkahin, seyid Dünyamalı** və 4 qız övladı atasından çox şey öyrənmişdi.

Həmişə də narahatdı. Soruşanda niyə belə narahatsan, niyə hamının fikrini ürəyinə salırsan? Deyərdi: El malını, məzlumların tikəsini yeyən, dünyaya rüşvət gözü ilə baxıb vicdanını atanlar bilmirlər, bilmək istəmirlər ki, hamının başını yeyib, özü yenə qalan dünyadı bu dünya!

...Peyğəmbər səlləllahu əleyhi və alidən soruşurlar ki, dünya və axirətin xeyri nədədir?

Cavab verir ki, hər kəs dörd xüsusiyyətə malik olsa, Allah dünya və axirət xeyrini ona verər;

- Təqva ki, onu günahdan qorusun;

- Xoş əxlaq ki, onun vasitəsilə camaatla yaşaya bilsin;
- Allaha şükür edən qəlb və zikr edən dili olsun;
- Halim və dözümlülük ki, onun vasitəsilə nadanların cahilliyini aradan aparsın.

Səmimi təqvalı, xoş əxlaqlı ağa idi Mirmüctəba ağa! Allaha şükr edən qəlbi, Allahı zikr edən dili, xalqla xoş rəftarı vardı. Həmişə ata- babasının adını doğrultmağa çalışar, hamını təqvalı olmağa dəvət edərdi.

Hacı seyid Mirmüctəba ağa seçilmişlərdən idi. Bu dünyanın müvəqqəti olduğunu, Böyük Yaradanın iradəsinə uyğun yaşamağı və haqq dünyası-əbədiyyət dünyasında layiqli yer qazanmaq üçün çalışmağı çoxları başa düşmür.

Hacı Mirmüctəbanın doğma, yaxın sözünü haqq sözü əvəz etmişdi. Gözlərinin ağı- qarası da olsa, günahgardırsa onu müdafiə etməz, həmişə haqqın tərəfində durardı. Bir çətinə düşəndə onun üstünə arxayın gedərdilər və bilirdilər ki, hökmən kömək edəcək.

Məhəmməd (ə.s) peyğəmbərin iki kəlamını xatırlatmaq istəyirik:

-"Mənəvi paklıq insanın bir hissəsidir". "Insanın gözəlliyindən biri də onun aydın və gözəl danışmasıdır".

Həqiqətən də, Mirmüctəba ağa bu sözlərə layiq insan idi. O, atası Məşədi seyid Mirxəlil ağanın sanki nurundan yaranmış surəti idi. Ağanın nurundan hamı bəhrələnirdi.

Ağa 2001-ci il avqust ayının 8-də rəhmətə getdi. Öncəqala kənd qəbirstanlığında torpağa tapşırıldı. Qardaşları **seyid Mirfazil, Hacı seyid Mirəkbər və seyid Mirmüqərraba** da burada uyuyurlar.

Ağanın itkisi el üçün ağır itki oldu. Çünki o hamı üçün müqəddəs və əziz idi.

Seyid Mirmüctəba ağanın bir seyid kimi möcüzələri də çox idi.

Öz toyunda hava günəşli, isti bir gün idi. Musiqiçilər həyətə girən kimi külək qalxdı və getdikcə gücləndi. Külək qurulan toyxananı söküb dağıtdı. Az sonra gürşad yağış yağmağa başladı. Məcbur olub toyu kənd klubunda təşkil etdilər.





Elə bu səbəbə görə ağa sonralar öz uşaqlarının toyunda ya musiqi çaldırmaz, ya da toyxananı öz həyətlərində yox, başqa yerdə qurdurardı.

**Hacı Alşan Təhməzov, həkim, Öncəqala kəndi:**

- Hacı Mirmüctəba ağa el-obasının ağrı-acıları, dərdləri ilə yaşayan bir insan idi.

Günlərin birində onlara getmişdim. Gördüm ki, namaz qılır. Əyləşib tamaşa edirdim. Məni görmürdü. Namazı qurtarıb, dua etməyə başladı. Etdiyi dua təxminən yadımdadır. Ağa deyirdi:

- Gözümün nuru sönənə kimi, dizim taqətdən düşənə kimi, ürəyimin son döyüntüsünə kimi sənin məhəbbətini usanmadan, şərəflə qəlbimdə daşıyacağam. Hər səhər-axşam üzümü sənə tutub, əllərimi sənə tərəf qaldırıb mərhəmətini diləyirəm camaatıma, uşaqlarıma, özümə. Qəlbim həmişə sənə məhəbbətlə pak olmuşdur. Səni həmişə əlimdən tutan, doğru yol göstərən, çətinliklərdən məni xilas edən görmüşəm. Görəsən sənin ülvi məhəbbətinə layiqəmmi, ey Yaradan?!

Bu duadan çox duyğulandım. Fikirləşdim ki, yalnız Hacı Mirmüctəba ağa kimi adamlar belə dua edə bilərlər.

**Qəhrəman Binnətov,** *texnika elmləri doktoru, professor:*

- Islam dininin əsası müvazinətə, tarazlığa, dincliyə söykənir. Ailədə, şəxsiyyətdə, cəmiyyətdə isə tarazlığa. Bir Allah var və bir də Allahdan kənar varlıqlar. Əxlaqa belə bir tərif verilir. "Allah və Allahdan kənar varlıqlar qarşısında mənəvi və maddi baxımdan vəzifələrimizin lazımı səviyyədə yerinə yetirilməsinə əxlaq deyilir". Əxlaqımız isə pis və yaxşı xasiyyətlərdən ibarətdir.

Hacı Mirmüctəba ağa yüksək əxlaqlı, hərtərfli insani keyfiyyətlərə malik bir insan idi.

Allah ona rəhmət eləsin.

**Fəxrəddin Baxışov, "Fəxrəddin" kərpic zavodunun baş direktoru:**

- Rəhmətlik seyid Mirmüctəbanı 1977-ci ildən tanıyıram. Rayon "Sovxoztikinti" idarəsində bir yerdə işləyirdik. O, sahə iş icraçısı, mən isə briqadir idim. Tanış olduğumuz ilk gündən mənə nəsihət verərdi: halal-haramı, həyatda özünü aparmağı, işçilərlə rəftarı mənə başa salardı. Altı ay bir yerdə işlədik. Sonra idarənin rəisi **Bayram Bayramovdan** ağa xahiş etdi ki, cavan oğlandı, gələcəyi var, qoy müstəqil işləməyi öyrənsin. Ağanın sözü ilə rəis məni başqa bir sahəyə iş icraçısı təyin etdi. Müstəqil işlədiyimə baxmayaraq, həmişə ağa ilə məsləhətləşərdim. Həyatda seyid Mirmüctəba mənə ata, sirdaş, dost və ağsaqqalım olub. Nə iş görmüşəmsə, valideynlərimlə bərabər ağadan da xeyir-dua almışam.

Allah ona rəhmət eləsin!

## SEYİD MİRFAZİL AĞA



Seyid Mirfazil ağa 1928-ci ildə anadan olmuşdu.

Ömrü boyu çörəyini əlinin qabarı, alın təri ilə qazanmış, uzun illər müəllim işləmişdi.

Böyük Vətən müharibəsi və ondan sonrakı aclıq illərində ağa çox adama pasiban durmuş, çoxlarına çörək vermiş, camaatın təpər, inam, təsəlli yeri olmuşdu.

O, 1997-ci ildə rəhmətə gedib.

Seyid Mirfazil ağa 4 qız və 4 oğul atası idi: **seyid Vidadi, seyid Nazim, seyid Elçin və seyid Şəmsəddin.**





## HACI SEYİD MİRƏKBƏR AĞA



Hacı seyid Mirəkbər ağa 1934-cü ildə anadan olmuşdu. İxtisası orta tibb işçisi idi. Kənd camaatına pulsuz xidmət edərdi. Hətta gecəyarısı da yardıma gəlsəydilər, öz köməyini əsirgəməzdi. Elin ümid yeri idi.

Rayonun elmli axundlarından Qurani- Kərimi oxumağı öyrənmişdi. Sonralar özü də bu elmi onlarla gəncə öyrətmişdi. Onlardan bəziləri indi xarici ölkələrin ali dini məktəblərində oxuyurlar.

Seyid Mirəkbər ağa 1998-ci ildə Həcc ziyarətində olmuş, həm də Kərbəla və Məşhədi ziyarət etmişdi.

Uzun illər Öncəqala kənd məscidinin axundu işləmişdi.

Ağa 2002-ci il iyun ayının 8-də qəflətən vəfat etdi.

Hacı seyid Mirəkbər ağanın 6 övladı var: **seyid Ceyhun, seyid Şaiq, seyid Əkrəm və qız övladları.**

## SEYİD MİRMÜQƏRRƏBA AĞA

Seyid Mirmüqərrəba ağa 1936-cı ildə anadan olmuşdur. O, lap körpəlikdən möcüzələri ilə seçilirdi.



Münəvvər xala deyərdi ki, bir dəfə Sayad bacımgilə gəlmişdim. Beşikdə yatan Müqərrəbanın bələyi üstündə bəzəkli ilanın qıvrılıb yatdığını görüb hay-küy saldım. Hamıdan tez Mirmüctəba gəldi. İlanı ona göstərdim. Cəld yaxınlaşıb ilanı əlinə götürdü. İlan dili ilə onun əllərini yalayır, sanki onu ziyarət edirdi. O, ilanı aparıb çölə buraxdı. Gəlib qardaşının üzündən öpüb ağladı...

Bunu Mirxəlil ağaya xəbər verdikdə o deyir ki, o ilan mələk imiş, Müqərrəbanı ziyarətə gəlibmiş. O gündən atası da, anası da Müqərrəbanı daha çox istərmişlər.

Seyid Mirmüqərrəba Gəncə Kənd Təsərrüfatı Institunun Mexanika fakültəsini bitirmişdi. "1 May" sovxozunda mühəndis işləyirdi.

Seyid Mirmüqərrəba ağa 1981-ci ildə qəflətən xəstələndi və dünyasını dəyişdi. Ata-anasının istəkli balası indi onların qəbirləri arasında uyuyur.

Seyid Mirmüqərrəba ağanın üç övladı: **seyid Şirvan, seyid Vaqif** və bir qızı onun yolunu davam etdirirlər.

## ƏQİDƏ QADAĞALARA QALİB GƏLİR



Çox vaxt deyirlər ki, Sovet dövründə adamların hətta ibadətinə də qadağa qoyulmuşdu. Buna şübhə yoxdur ki, belə idi. Ancaq möhkəm əqidə sahibləri, qəlbində Allah xofu olanlar heç bir qadağaya, vəzifə qorxusuna baxmayaraq vaxtlı-vaxtında namazını qılır, oruc tuturdular.

1973-cü ilin noyabrından 1995-ci ilin noyabrına kimi Masallı qaz-istismar kontorunun rəisi vəzifəsində çalışan Öncəqalalı **seyid Mirəhməd Məşədi seyid Mirxəlil oğlu Hüseynli** belə əqidə sahibidir. Dəfələrlə Rayon Partiya Komitəsinə çağrılıb namaz qılması, oruc tutması barəsində məlumat daxil olduğu nəzərinə çatdırılmışdı. Ancaq vəzifəsini itirmək qorxusu onu əqidəsindən döndərə bilməmişdi. Bu dönməzlik, qorxmazlıq ona bütün rayonda hörmət qazandırmışdır.

Seyid Mirəhməd 1941-ci ilin yanvarında Öncəqala kəndində anadan olmuş, orta təhsilini Qızılağacda almışdı. Sumqayıtda 3 saylı peşə məktəbini bitirdikdən sonra Bakıda bir saylı tikinti-quraşdırma idarəsində bənna işləmişdir.





1960-1966-cı illərdə M. Əzizbəyov adına Azərbaycan Neft-Kimya Institutunda təhsil almışdır. Elə həmin il Masallıda tikilməkdə olan konserv zavoduna baş mexanik təyin olunur. 1970-ci ildən isə burada baş mühəndis vəzifəsinə keçir. Bacarığı, təşkilatçılığı rayon rəhbərlərinə bəlli olur. 1973-cü ildə ona daha məsul vəzifə - rayon qaz-istismar kontorunun rəisi vəzifəsi tapşırılır.

Hacı seyid Mirəhməd ağa hazırda Öncəqala kənd məscidinin axundudur.

Ağa İslam dininin alovlu təbliğatçısıdır. Qurani-Kərimi tilavat edəndir. Şəriət qanunlarını alimlərdən heç də az bilmir. On beş yaşından ibadətə başlayan Hacı Mirəhmədin qəlbində bu müqəddəs hisslər gündən-günə alovlanmaqdadır.

1991-ci ildə Məşhəd ziyarətindən sonra, o Həcc ziyarətində olmağı qərara aldı. Bu arzuya qədər müqəddəs Kərbəla torpağında olmuşdu. Bundan sonra yenə iki dəfə Məşhədə gedib Imam Rzanın qəbrini ziyarət etdi.

Nəhayət, 1999-cu ildə arzuladığı Kəbə evinin ziyarəti də qismətinə düşdü. Müqəddəs torpaqda bütün həcc əməllərini yerinə yetirən Mirəhməd burada qurban kəsmiş, Məqami-Ibrahimdə namaz qılmış, Ərəfatda Allahından qohum-əqrəbası, el-obası, xalqı üçün əmin-amanlıq diləmişdir.

Hacı Mirəhmədi rayonda tanıdıb hörmət sahibi edən həm də böyüdüb tərbiyə verdiyi övladlarıdır. Özü Allah adamı olduğu kimi ailəsi də dinimizə hədsiz məhəbbət bəsləyir. Altı uşaq atasıdır. Yeganə oğlu **seyid Mirəhəd** Bakı Islam Universitetini bitirmişdir.

Həmişə Mirəhməd ağanın da nurani simasında bir narahatlıq duyulur. Ağır təbiətli bu adamla söhbətdən aydın oldu ki, o, xalqın, millətin çətin anları, gənclərimizin sabahı, dinimizin təbliğindəki ziddiyyətli cəhətlər üçün narahatdır. Ancaq bu nikbin qəlbli Hacı sabaha ümidlə baxır. Bilir ki, müstəqilliyə nail olmuş xalqımız dini əxlaqın inkişafına da qayğı və məsuliyyətlə yanaşacaq.

## NURLU ÜRƏK



Hacı seyid Miribadulla ağa Öncəqala kəndində anadan olub.

Azərbaycan Dövlət Pedaqoji İnstitunu bitirib. Uzun illər məktəb direktoru vəzifəsində çalışıb. Hal-hazırda doğma kəndlərində müəllim işləyir.

Ədəbi yaradıcılığa tələbəlik illərindən başlayıb. Dövrü mətbuatda şerləri və hekayələri çap olunub.

Altı kitabın-"Külək, mənə toxunma", "Danışdır məni, ana", "Tərbiyə beşikdən başlayır", "Hanı əvvəli, sonu bu yolun", "Qaçqın gəlin", "Allah adamı" nəsr və nəzm əsərlərinin müəllifidir. 1999-cu ildə Həcc ziyarətində olub.

Onun "Masallı", "Vətən sevən görəndə", "Inciyər","Ay həsrəti" və "Gəlmədin" şerlərinə bəstəkar Qasım Qasımov musiqi bəstələmişdir. "Vətən" mediya mükafatının laureatıdır. Azərbaycan Jurnalistlər və Yazıçılar birliyinin üzvüdür.

Hacı Miribadullanın "Aşuraya gedən yol" kitabında toplanan əsərlərində İmam Hüseynin bəsitlərin əli çatmayan, ünü yetməyən, ağılasığmaz idraki nikbinliyindən bəhs olunur. Sözün işığında həyatın fəlsəfi duyumları, ibrət dərsləri öz əksini tapmışdır.

Hacı Miribadullanın "Ölümünə inanma, ana" və "Qaçqın gəlin" əsərləri tamaşaya qoyulmuşdur.

Evin sonbeşiyi, istedadlı yazıçı, əsərləri tez-tez səhnəmizi bəzəyən Hacı Miribadulla tanınmış ziyalı və nurlu seyid övladıdır. Oğlanları **Mirziya, Mirmühacir** və qızı, nəvələri özü kimi hörmət-izzət sahibidirlər.

**Qoy böyük Yaradan haqq dünyasına qovuşmuş peyğəmbər övladlarının qəbrini nurla doldursun.**





## KƏRBƏLAYİ MƏŞƏDİ MİRBABA SEYİD MİRTƏQİ OĞLU



İmam- peyğəmbər övladı, gözəlliyin zirvəsində yaranmış, nurdan doğulmuş, yaxşıların nümunəsi olan **Kərbəlayi Məşədi seyid Mirbaba ağa** 1928-ci ildə Lənkəranın Tuadu kəndində dünyaya gəlmişdir. Onun soy kökü 6-cı imamımız imam Cəfər Sadiq ə.s.-a bağlanır.

Allah-təala buyurur: **"Həqiqətən məndən sonra ümmətim üçün olan canişinlərim, vəsillərim və Allahın bəndələrə olan höccətləri on iki nəfərdən ibarətdir. Onların əvvəli Əli, axırıncı isə mənim övladım Mehdidir".**

Seyid Mirbaba ağanın əsli Nəcəfdəndir. İmam-peyğəmbər övladı olan Mirbaba ağa dünyaya gələn gündən qeyri-adiliyi, üzünün nuru ilə onu görənləri valeh edirdi. O, uşaqlıqdan halallığı, zəhmətsevərliyi, dürüstlüyü, ilahiyə məhəbbəti, sevgisi ilə haqqın dərgahında tanınmışdır. Çünki, ağa məhz saflığın içində dünyaya göz açmışdır. Onun babası dinimizin qorunub saxlanılması və inkişaf üçün öz yurd-yuvasından ayrı düşmüşdür.

Kərbəlayi Məşədi seyid Mirbaba ağanın ulu babası **seyid Piridir**. Seyid Piri imam Museyi Kazım ə.s.-nın qardaşıdır. O, imam Rza ə.s. Xorasana köçürülərkən Xorasana, oradan isə İrana köçmüş və orada yaşamışdır. Seyid Pirinin oğlu **seyid Mirsüleyman** da İranda-Meşkin şəhərində yaşamışdır. Nəslin 28 nəfər müctehid və Şah Abbasın möhürü ilə təsdiqlənmiş şəcərəsində seyid Mirsüleymanın ünvanı belə göstərilir: **İran, Sasani dövləti. Meşkin şəhəri, Piran məhəlləsi, Rizvar-2.**

Museyi-Kazım ə.s-nın qardaşı seyid Pirinin nəvəsi seyid

Mirpirinin 7 övladı olub. Onun bir övladı **seyid Mirhüseyn əmisi oğlu seyid Bayraməli** ilə İrandan Lerikə köçüb.

Seyid Mirhüseynin oğlu **seyid Mirxancamalın** 3 övladı olub: **seyid Mirxanıbəy, seyid Mirdinibəy və seyid Mirənibəy.**

Seyid Bayraməlinin isə 6 övladı vardı: **seyid Rəcəbəli, seyid Mirsəfərəli, seyid Mircəfərəli, seyid Mirbünyad, seyid Mirqəfərəli, seyid Mirkərəm.**

Seyid Xanıbəy ağa ocağının yaşadıcısı **Məşədi Kərbəlayi seyid Mirbaba seyid Mirtəqi oğlu** ailədə 6 övlad olublar: 2 qardaş, 4 bacı. Bu ilahi vergili insanlar yoxsul olsalar da, öz tikələrinə heç vaxt haram qatmamış, alın təri ilə az qazansalar az, çox qazansalar çox yeyib, Tanrıya şükr ediblər. Ona görə də tanrı onların süfrəsini həmişə bol, ruzulu edib. Dahi Nizami demişkən:

***İnsan yem dalınca qaçmasın gərək,***
***Quşdan ayıq olsun, zirəkdən-zirək.***
***Çalış insanların işinə yara,***
***Geysin əməlindən dünya zərxara.***

Şair boş, faydasız həyatın zərərindən danışaraq insanları yaşamağa, öz əməlləri ilə dünyanı bəzəməyə səsləyir.

Mirbaba ağa və qardaşı **Mirnovruz** da öz halal qazancları ilə yaşayırlar.

Ağanın qardaşı seyid Mirnovruz da ustalıq edib. Alın təri ilə qazandığı halal ruzu ilə 9 övlad böyüdüb boya-başa çatdırmışdır.

Seyid Mirbaba ağa özü maddi cəhətdən kasıb olsa da, Tanrı ona 10 özü kimi nurlu, zəhmətkeş övlad payı vermişdir.

Təəssüf ki, ağanın övladlarından biri 18 yaşında vəfat etmişdir.

Allah ona rəhmət eləsin.

Həzrəti Məhəmməd ə.s.-ın kəlamlarından birində buyrulur: **"Hər hansı bir valideyn üç qız övladı böyüdüb, onu düzgün tərbiləyələndirsə, cənnəti bu dünyada qazanmışdır".**





El ağsaqqalı, nurlu insan seyid Mirbaba ağa öz əməlləri, xeyirxahlığı, şirin söhbəti, dərin məzmunlu söhbətləri ilə onu tanıyanların sevgisini qazanmışdır. Ağa xalqın xeyir-şəriniin yaraşığıdır.

Allah-təala buyurur:

"Hər kəs Ali Məhəmmədi sevərək ölsə, şəhid halında ölər, bağışlanmış halda ölər. Xatırlayın, hər kəs Ali Məhəmmədin məhəbbəti ilə ölsə, tövbə edən halda ölmüşdür. Hər kəs Ali Məhəmmədi sevərək ölsə, imanını tamamlayaraq ölmüşdür. Unutmayın, hər kəs Ali Məhəmmədi sevərək ölsə, əvvəlcə ölüm mələyi, daha sonra Nəkir və Münkər ona cənnəti müjdə verəcəkdir. Onun sevgisiylə ölən insanların qəbrindən cənnətə iki qapı açılır. Unutmayın, Allah Ali Məhəmmədi sevərək ölən şəxsin qəbrini mələklərin ziyarətgahı edəcəkdir. Yox, əgər düşmən olaraq ölsə, qiyamətdə gözlərinin arasına "Allahın rəhmətindən uzaq və ümidi kəsilmişdir" yazılmış halda gələr. Agah olun ki, hər kəs Ali Məhəmmədə düşmən olaraq ölsə, kafir olaraq ölmüşdür. Hər kəs Ali Məhəmmədə düşmən olaraq ölsə cənnətin ətrindən əbədi məhrum olur".

Bu nur üzlü, zəhmətsevər insanın hal-hazırda 30 nəvəsi, 8 nəticəsi var. Ağanı tanıyanlar dara düşəndə onun cəddinə sığınır, ondan kömək istəyirlər.

Mirbaba ağanın nəfəsi nəvəsi körpə **Əlidə** indidən hiss olunur. Ağa övladlarını gözəl tərbiyə etmiş, onları gözəlliyin, dürüstlüyün, saflığın içərisidə böyütmüşdür. Ağanın uşaqları da öz övladlarını bu cür tərbiyə edirlər.

Yeri gəlmişkən onu da qeyd edək ki, seyid Mirbaba ağanın həyat yoldaşı **Kubra xanım seyid Dəmir qızı** da ulu bir seyid nəslindəndir.

Ailənin böyük oğlu **seyid Mirəkbər ağa** 1958-ci ildə dünyaya gəlmişdir. 7 övlad atasıdır: **Günel, Elmira, Günay, Nigar, Mirismayıl, Vəfa və Əli.**

Mirəsgərin isə **Rəvanə, Mirbahadur, Sevanə və Mirqadir** adlı övladları var.

Ağanın üçüncü oğlu isə seyid Mirrəşiddir. **İlahə, Mirfərid** və **Lalə** adlı övladları var. Bu uşaqların hər biri nəsillərinə, köklərinə layiq övladlardır.

Seyid Mirbaba ağa övladlarını tərbiyəli, ədalətli, torpağını, vətənini sevən, elinə-obasına bağlı insanlar kimi tərbiyələndirib.

Ağanın ocağına pənah gətirənlər həmişə nicat tapıb, dərdli gəlib, dərdsiz qayıdır. Bu ocaqdan "Quran" avazı heç vaxt əskik olmayıb.

Seyid Mirbaba ağa nəinki cənub bölgəsində, eləcə də respublikamızın digər yerlərində nüfuzlu ağsaqqallarımızdan biri kimi tanınır. Çünki ağa ömrü boyu halallığı, paklığı, gözü-könlü toxluğu ilə bu hörməti qazanıb.

Həzrəti Məhəmməd s.-nın hədislərindən birində deyilir: "Xeyir- bərəkət qocalardadır".

Nurlu ağamız ulu babalarının uyuduğu müqəddəs məkanları da ziyarət edib. 2000-ci ildə Kərbəla və Məşhəd ziyarətlərində olub.

Məkkə ziyarətindən söz düşəndə deyir ki, bu, mənim boynuma düşmür. Çünki buna maddi vəziyyətim imkan vermir. Ağanın oğlanları onu Həccə göndərmək istəsələr də, o, buna razı olmur. Deyir ki, bu ziyarət böyük oğlum, cavan olsa da camaatın dərin hörmətini qazanmış seyid Mirəkbərin boynuna düşür. Allah qismət eləsin! Qismət olsa, özüm halal zəhmətimlə Məkkəni ziyarət edəcəyəm.

İnşallah, ağanın bu istəyi də yerinə yetər.

Allah-təala Qurani- Kərimdə belə buyurur:





"Orada (Kəbədə) aydın nişanələr-İbrahimin məqamı vardır. Ora daxil olan şəxs əmin-amanlıqdadı. Onun yoluna imkanı olan hər bir kəsin həccə gedib, o evi ziyarət etməsi insanların Allah qarşısında borcudur. Kim bunu (bu borcu) inkar edərsə, (özünə zülm etmiş olar). Əlbəttə, Allah aləmlərdən ehtiyacsızdır".

**Hacı Tofiq Əbülfəzl oğlu Səfərov, Xaçmaz şəhər sakini:**

-Seyidlərimizin yolu peyğəmbər salavatullahın, imamlarımızın yoludur. O yolla gedən insanlar heç vaxt azmaz, ayaqlarına daş dəyməz. Allaha yaxın olanlar həmişə ruzili, bərəkətli olarlar. Seyidlərimiz halallıqla yaşamağın ali məktəbidir.

Haqqında çox eşitdiyim, ceddinə güvəndiyim Məşədi Kərbəlayi Mirbaba ağa da nəcim, pak peyğəmbər övladıdır. Ağanın xeyirxah əməlləri bir kitaba yox, 5-10 kitaba sığmaz. O, peyğəmbər ə.s.-nın yolunun layiqli davamçı olmaqla bərabər, öz adını, ağalığını qoruyan ağalarımızdandır. Allah- təala Məşədi Mirbaba ağaya böyük kəramət qismət eləyib. Onun pak nəfəsindən yüzlərlə insan şəfa tapıb, muradına çatıb. Ağanın övladları da atalarına- babalarına layiq, nəcib seyidlərdir.

Allah seyidlərimizin babalarına rəhmət eləsin, qəbirləri nurla dolsun.

Axırda peyğəmbər ə. s.-nın bir hədisini nəzərinizə çatdırmaq istəyirəm. Peyğəmbər ə.s. buyurur ki, Allaha yaxın olanlar heç vaxt ölmürlər. Onlar həmişə diridirlər. Nə vaxt Allahtəaladan bir niyyət eləsən peyğəmbərimizin, imamlarımızın, onların balalarının eşqinə onu verəndir. Çünki seyidlərimiz yaranmış insanlar arasında ən pak insanlar və Allah-təalanın nurudurlar.

## HACI SEYİD MİRHEYDƏR SEYİD MİRŞƏMSULLA OĞLU



Biz dünyadan gedər olduq,
Qalanlara salam olsun.
Bizim üçün xeyir-dua
Qalanlara salam olsun.

Əcəl bükə belimizi,
Söylətməyə dilimizi,
Xəstə ikən halımızı,
Soranlara salam olsun.

Səla verdiq qəsdimizə,
Gedər olduq dostumuza,
Namaz üçün üstümüzə
Duranlara salam olsun.

Aşıq Yunus söylər sözü,
Yaş doludur iki gözü,
Bilməyən nə bilsin bizi,
Bilənlərə salam olsun.

**Yunus Əmrə**

**Hacı seyid Mirheydər ağa!**

Masallı rayonunun Bambaşı kəndində dünyaya gələn Allah-təalanın bu sevimli bəndəsini el-oba çox yaxşı tanıyırdı. Hacı Mirheydər ağa alicənablığı, xeyirxahlığı, qonaqsevərliyi ilə gənc yaşlarından diqqəti cəlb edərdi. O, əsl el ağsaqqalı idi. Çətinə düşənə, küsülülərə həmişə müdrik məsləhəti ilə yardımçı olardı.

**"Səla vermək"** - qədimdə birisi ölərkən məscidin minarəsindən əzan çəkilər və onun öldüyü elan olunardı.





Nəslinin 1803-cü ildə Səfəvi tərəfindən tərtib edilmiş şəcərəsi var.

Soy kökü Museyi- Kazıma bağlanan seyid Mirheydər ağanın ulu babası seyid **Mirfeyzulla ağa** və onun oğlu **Mirfazil** Lerikin Həzov kəndində yaşayıb və orada rəhmətə gediblər. **Seyid Miryaqub** seyid Mirfazil oğlu isə Bambaşı kəndinə, qardaşı **Mirəhəd** isə Lənkərana köçüb.

Seyid Miryaqub ağanın oğlu **seyid Mirşəmsulla** (1897-1995) uzun bir ömür yaşayıb. Böyük Vətən müharibəsində iştirak edib. Kolxozda sıravi işlərdə çalışıb. Həmişə nurlu, ədalətli, səxavətli bir ağsaqqal kimi davranıb, camaatın dərin hörmətini qazanmışdı. Çox da təqvalı, kəramətli insan idi.

Böyük Vətən müharibəsində cəddinin sayəsində xilas etdiyi bir ukraynalı aradan uzun bir müddət keçəndən sonra soraqlaya-soraqlaya gəlib onu tapmışdı.



Mirşəmsulla ağa 3 oğul, 1 qız atası idi: **seyid Mirheydər, seyid Mirəli, seyid Mirsəmid və Mirreyhan.**

Seyid Mirəlinin **seyid Mirhüseyn, Mirhəsən, Mirfərhad** adlı 3 oğlu, 2 qızı; seyid Mirsəmidin isə **Mirtaleh, Mircabbar, Mirnağı və Mirtağı** adlı oğulları və 3 qızı var.

Hacı seyid Mirheydər ağa (1931-2001) atası kimi həmişə təsərrüfatda çalışıb. Böyük təsərrüfat sahibi idi. Ibtidai dini təhsil alıb, şəriəti öyrənsə də heç vaxt mollalıq etməz, çox

gözəl avazla Quran oxuyar, ocağına gətirilən nəzir-niyazı imkansızlara, məscidlərin tikintisinə sərf edərdi.

Hacı Mirheydər ağa 1990-cı ildə Məşhəddə, 1994-cü ildə Kərbəlada, 1996-cı ildə müqəddəs Məkkədə olmuşdu. Kərbəla ziyarətinə həyat yoldaşı **Nubar Abdulbağır qızını** da aparmışdı.

Ağanın evi həmişə müqəddəs ocaq timsalında ziyarət olunur. Ziyarətə gələnlərə Hacı Mirheydər ağa xeyir-dua verər, sidq ürəklə cəddini çağıranlar nicat tapar, məqsədlərinə çatardılar. Ağa tez-tez ehsan verər, imkansızlara əl tutardı. Hər gün ocağına neçə-neçə pənah gətirənə yardımçı olardı.

Mirheydər ağa məclislərin yaraşığı idi. Xeyir iş tutanlar ilk xeyir-duanı ağadan alardılar.

"Mənə inananlara da, mənə inanmayanlara da Allah kömək olsun, cəddim heç kəsi darda qoymasın!"

Bu dua ağanın yüksək insani dəyərlərə malik olduğuna gözəl nümunədir.

Azərbaycanın hüdudlarından kənarda yaşayan həmyerlilərimiz etiraf edirlər ki, Hacı Mirheydər ağanın cəddi həmişə köməyimizə çatır. Kazan şəhərində yaşayan və ağanın cəddini dəfələrlə sınaqdan keçirən bir qrup həmyerlimiz Hacı Mirheydər ağa haqqında yazılmış kitabın işıq üzü görməsinə yardım ediblər.

Hacı Mirheydər ağanın gördüyü xeyirxah əməllər, ömür yolu bir kitaba sığmayan bir müsəlman kişisinin nurlu ömrüdür. Şair haqlı olaraq Hacı Mirheydər ağaya həsr etdiyi şerində deyirdi:

**Üzün işıqlıdır, göy üzü kimi,**
**Eldən nur alırsan Mirheydər ağa.**





**Elə bil heç ana doğmayıb səni,**
**Nurdan yaranmısan Mirheydər ağa!**



Sibirdə, Tatarıstanda, Rusiyanın müxtəlif şəhərlərində yaşayan azərbaycanlılar Mirheydər ağanın kümbəzinin ziyarətinə gələ bilməsələr də ilbəil nəzir-niyazlarını göndərirlər.

Hacı Mirheydər ağanın 9 övladı var: **Mirkazım, Ağakazım, Kərbəlayi Miryaqub, Mirhadı, Mirhaşim, Məşədi Mircavad, Mirbacı, Mirtamam və Mirxədicə.**

**Kərbəlayi Miryaqub ağa** ata ocağında oturur. **Molla Əlisadan, Hacı Mirxas ağadan** dərs alıb. Hacı Mirheydər ağanın istəkli övladı Kərbəlayi Miryaqub da əliaçıq, səxavətli bir mömin insandır. Ərəb-fars dillərini bilən Kərbəlayi Miryaqub dini xidmətlərinə, seyidliyinə görə el-oba arasında böyük hörmət qazanıb.

3 övladı var: **Kərbəlayi Mirdamət, Mirfazil və Mirsadiq.** Allah başacan eləsin.

**Ağayev Mirəhmədağa Mirağa oğlu:**

-Bizim camaat Hacı Mirheydər ağa kimi şəxsiyyət çox az görüb. Hamı onu özünə nümunə bilirdi. Ədəbli-ərkanlı, gözükönlü tox insan idi. Uşağa da, böyüyə də "Qadan alım, başına dönüm", - deyə müraciət edər, həmişə camaata dua edərdi.

**Allah-təala Hacı seyid Mirheydər ağaya rəhmət eləsin!**

## AXUND SEYİD MİRDAMƏD AĞA

Müqəddəs şəcərəsi ikinci İmamımız İmam Həsən Əleyhissəlamdan zinətlənən, əslən Səudiyyə ərəbistanın Ciddə şəhərindən olan **seyid Mirdaməd seyid Mürsüleyman oğlunun** babası **seyid Miradil ağa** əhli- beytə olan təzyiqlərə dözməyərək XIII əsrin axırlarında İrana, oradan da Azərbaycana-Masallı rayonuna pənah gətirmişdir.

Masallıda iki əmioğlu: **seyid Mirsüleyman və seyid Mirvəli ağa** yurd-yuva salmışlar.

Yeri gəlmişkən qeyd edək ki, seyid Mirsüleyman ağanın həyat yoldaşı Fizzə Əbdullah qızı ərəb dilindən başqa dildə danışa bilmirdi. Seyid Miradil ağa isə Azərbaycan türkcəsini Masallıda öyrənmişdi.



Seyid Mirsüleyman ağanın oğlu axund **seyid Mirdaməd ağa (1859-1937)** Nəcəfül-Əşrəfdə təhsil almışdı. Ağanın oğlanları **axund seyid Mirhüseyn ağa** Nəcəf alimi Şeyx Əsədullah axundun elmindən bəhrələnmiş, elmdə Axund rütbəsinə qədər yüksəlmişdir.

Axundun digər oğlu **seyid Mirsüleyman** (atasının adı olduğu üçün ona "Mirböyük ağa" deyərdilər), ruhani alim və rövzəxan olmuşdur.

**Seyid Mirələkbər və seyid Mirələsgər** ağalar müəllim olmuş və Böyük Vətən müharibəsində həlak olmuşlar.

Övladları hal-hazırda Cəlilabad şəhərində yaşayırlar.

Seyid Mirhüseyn ağanın oğlanları **seyid Mirməhəmməd və seyid Mirbəşirdir.**

Seyid Mirsüleyman ağanın (Mirböyük ağa) oğlanları isə **Mirhəşim, seyid Mirhəbib, seyid Mircəlal və seyid Mirceyhundur.**







Seyid Mirvəli ağanın oğlu seyid Mirəli ağanın oğlanlarından **seyid Mirheydər ağa** din xadimi, ruhani alim olmuş, Masallı rayonunun Seybətin kəndində özünə yurd- yuva salmış, bir neçə hektar əkin sahəsinə sahib olmuşdur.

Digər oğlu - **seyid Mirvəlinin** bir qız övladı olmuşdur.

Seyid Mirheydər ağanın oğlanları **seyid Mirheydər** və **seyid Mirtahir** ağalardır.

Axund seyid Mirheydər ağanın oğlanları **seyid Mirəli, seyid Mirvəli və seyid Miradildir.**

Seyid Mirtahir ağanın oğlu isə **seyid Mirkalam** ağadır.

Zəmanəsinin adlı-sanlı alimi **Axund seyid Mirdaməd seyid Mirsüleyman oğlu** 1859-cu ildə Masallı şəhərində dünyaya göz açmışdır.

Atası seyid Mirsüleyman ağa öz məntəqəsinin mömin və dindar seyidlərindən biri idi. Ilk təhsilini atasından almışdır, 1878-ci ildə təhsilini artırmaq üçün əvvəlcə İranda-Ərdəbil şəhərində, daha sonra Xorasanda- Məşhədi-Müqəddəs şəhərində təhsilini davam etdirir və ali dini təhsil almaq üçün İraqa-Nəcəfül- Əşrəf şəhərinə yola düşür.

25 il Nəcəfin məşhur alim-müctehidlərindən Müctehid Ayətullah Hacı Şeyx Həsən Şəkur oğlu Hatəmi-Lənkərani, Ayətullah-ül-üzma Hacı Şeyx Məhəmməd Əli Naxçıvani və Ayətullah Mirzə Baqir İrəvaninin üsul və fiqh dərslərində iştirak edir.

Uzun illər müctehid Ayətullah Hacı Şeyx Həsən Hatəmi Lənkəranidən dərs aldığına görə, onun yaxın adamlarından biri olub.

Axund seyid Mirdaməd ağa Nəcəfül-Əşrəfdə Şeyx Əsədullah Axund, Şeyx Bəşir Axund, Şeyx Həsən Axund, Şeyx

Qüdrət Axundla birlikdə təhsil almışdır.

Seyid Mirdaməd ağa Nəcəfdə dini təhsillə yanaşı, xalq təbabəti üzrə 8 il əlavə təhsil almış və eczacılıq-əttarlıq sənətinə yiyələnmişdir. (eczaçı- farmaseft, əttar- "ətriyyat sənayesi işçisi" deməkdir).

1910-cu ildə vətəninə qayıdan alim Masallı şəhərində əttar dükanı açmış və 21 il bu işin istehsalı və satışı ilə məşğul olmuşdur.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra din xadimlərinin şiddətlə təqib və terror edilməsindən Axund Mirdaməd ağa da yaxa qurtara bilmir.

N.K.V.D.-nin nəzarəti altına düşən Axund 1931-ci ildə gecəykən evini, əmlakını, dükanını qoyub, ailəsi ilə birlikdə prişibli( Göytəpəli) Naməzli kişinin arabasında Cəlilabad (Astarxan bazar) rayonunun Göytəpə məntəqəsinə üz tutub orada sakin olur.

Mirdaməd ağanın Masallıdakı taxtadan tikilmiş 2 mərtəbəli evini 1931-ci ildə müsadirə edib Masallı kolxoz idarə heyətinin binası kimi istifadə etmişlər. Bilinməyən səbəblər üzündən 1945-ci ildə həmin bina tamamilə yanıb kül olmuşdur.

Axundu Göytəpədə himayə edib ona sığınacaq verirlər.

Əzablı günlərini qorxu və vahimə içərisində yaşayan, çətinlik və əzablara dözə bilməyən alim 1937-ci ildə Göytəpədə, Eyvaz kişinin evində, namaz qılarkən səcdədə dünyasını dəyişir.

Məzarı Masallı şəhər qəbirsanlığındadır.

Allah rəhmət eləsin!





## SEYİD MİRHƏSƏN SEYİD MİRİBRAHİM OĞLU



Müqəddəs şəcərəsi yeddinci imamımız Museyi-Kazımdan (ə.s.) zinətlənən seyid Mirhəsən ağanın ulu babası Azərbaycana Ərəbistandan gəlib.

Deyirlər ki, seyid Mircamal ağa öləndə vəsiyyət eləyir ki, cəsədimi bir gəmiyə qoyun, harada dayansa, orada dəfn edərsiniz. Ağanın vəsiyyətinə əməl edirlər. Gəmi gəlib Astaraya yan alır. Ona görə də ağanı Astarada-uca bir təpədə dəfn edirlər.

Seyid Mircamal ağanın 2 oğlu: **seyid Mirabdulla və seyid Mirkazım Qızılağaca** köçüblər.

O vaxtlar bu kənddə seyid yox imiş. Qardaşların seyid olduğunu bilən camaat onları sorğu-suala tutur. Deyirlər ki, havalar quraqlıq keçir, məhsulumuz zay olur. Cəddinizi çağırın görək, yağış yağacaqmı?

Qardaşlar Tanrı dərgahına əl qaldırırlar. Səhər bir yağış başlayır ki, gəl görəsən. Bu hadisəni görən, oxumuş, hərtərəfli dünyagörüşə malik **Qubad bəyin** bu seyidlərdən xoşu gəlir, onlara şərait yaradır. Sonralar isə öz yeganə qızını seyid Mirabdullaya ərə verir.

Seyid Mirabdulla ağanın **oğlu seyid Miribrahim ağa** da atası kimi həlim təbiətli, yüksək əxlaqlı, kəramətli insan idi. Atasından ibtidai dini təhsil almışdı. Lakin daha dərin biliklərə yiyələnmək istəyirdi. Elə ona görə də, İrana-İsfahan şəhərinə yollanır. Burada İslamın sirlərinə yiyələnir və elə orada

da **Rüqəyyə Soltanla** ailə həyatı qurur. Və öz yurduna - Qızılağaca qayıdır.

Ağa bir müddət burada yaşadıqdan sonra vəziyyəti ağırlaşır. Böyük qardaşı **Hacı Mirhüseyni** yanına çağırtdırıb ona İsfahandakı ailəsi haqqında məlumat verir və vəsiyyət edir ki, ömrünün sonudur, ailəsini İsfahandan bura- öz evinə gətirsin.

Hacı Mirhüseyn ağa çox imkanlı tacir idi. O, qardaşının vəsiyyətini həyata keçirmək üçün İsfahana yollanır, qardaşının ailəsini tapır. Lakin **Rüqəyyə Soltan** Azərbayana köçmək istəmir. Amma oğlu Mirhəsən anasını dilə tutur ki, icazə versin, gedib atalarının qəbrini ziyarət etsin. Uşaqlarının sözündən çıxmayan Rüqəyyə xanım Hacı Mirhüseyn ağa ilə Qızılağaca gəlir və həmişəlik burada qalır.

**Seyid Mirhəsən ağa** 1868-ci ildə İsfahan şəhərində dünyaya göz açmışdı. Mədrəsədə təhsil almışdı. Ərəb-fars dillərini mükəmməl bilirdi. Quranın hafizi idi. Kiçik olsa da, dükanda da işləyər, ailəsinə kömək edərdi. **Əmisi Hacı Mirhüseyn** də tez-tez onu səfərlərə aparar, ticarətlə məşğul olardılar.

Seyid Mirhəsən ağa səxavətinə və etibarına görə camaatın böyük hörmətini qazanır. Məclislərdə həmişə deyərdi ki, ibadət əhli nə namazına, nə də orucuna görə deyil, səxavətinə görə fərqlənir.

Ağa həddi-buluğa çatandan sonra Lənkərandan çox nurlu bir insan, **usta Qurbanın qızı Gülsüm xanımla** ailə həyatı qurur. Bu izdivacdan 3 qızı olur. Oğlanları erkən rəhmətə gedirlər. Ağa Allahdan oğul payı istəyir. Ilahi onun duasını qəbul edir. 1924-cü ildə ailədə bir oğlan uşağı dünyaya gəlir. Adını da imam Həsən (ə.s.) şərəfinə Həsənağa qoyur.

Mirhəsən ağa 37-ci illərin repressiya zamanı çox bəlalara düçar olur. NKVD işçiləri daima onu izləyirdilər.





Bir gün nəzir adı ilə ağaya 500-600 manat həcmində pul verirlər. Güdürlər, görürlər ki, ağa evlərə gedir, həmin pulları kasıb-kusuba paylayır. Onlar verdiyi pul qurtarandan sonra isə öz cibindəki pulları da paylayır. Bunu görüb bir söz demir, bir də ağaya dəyib, dolaşmırlar.

Bir nəfər öz sahəsində soğan əkir. Yarısını da ağaya nəzir deyir.

Bəli, o ili yaxşı da məhsul alınır. Məhsulu yığmaq vaxtı çatanda gecə məhsulun yarısını oğurlayırlar. Soğan sahibi başına-gözünə döyür ki, ağaya nə deyəcəyəm. Durub ağanın yanına gəlir. Deyir ki, ağa, sənin yanında üzüm qaradır. Bu gecə soğanımı oğurlayıblar.

Ağa soruşur ki, soğanın ətrafına nə çəkmişdin? Cavab verir ki, qara koldan çəpər çəkmişdim.

Seyid Mirhəsən ağa deyir ki, vay o yazığın halına ki, o soğanı nə zülmlə oğurlayıb, əl-qolu qana batıb. Onun ehtiyacı olmasaydı, heç oğurluğa da getməzdi,- deyə ağa soğan sahibinə toxtaqlıq verir.

Ağa şəhərə gedəndə bir maşın yanında saxlayır. Maşının yükü çox olduğuna görə minmir. Maşın sahibi şəhərə çatanda görür ki, ağa şəhərdədir.

Belə hadisələr ağanın həyatında çox olub.

Seyid Mirhəsən ağa 1955-ci ildə rəhmətə gedib. Qəbri Qızılağac kənd qəbirstanlığındadır. Ağır ziyarətgahdır. Kənd camaatı, qədirbilən oğullarımız çox istəsələr də, nəvəsi üstündə kümbəz düzəldilməsinə razı olmayıb.

Seyid Mirhəsən ağanın oğlu **seyid Həsənağa** belə bir ailədə böyüyüb, boya-başa çatmışdı.

Uzun müddət sıravi işlərdə çalışıb. Traktorçu işləyib. Müharibə illəri ailədə yeganə oğul olduğuna görə onu ön cəbhə-



yə aparmayıblar. Arxa cəbhədə arabaçı işləyib. Sonralar benzindoldurma məntəqəsində çalışıb.

Seyid Həsənağa o qanlı illərdə camaata arxa-kömək olub, heç kimdən əlindən gələn köməyi əsirgəməyib.

Seyid Həsənağa 1994-cü ildə rəhmətə gedib. Atasının, babasının yanında dəfn edilib.

Allah rəhmət eləsin!

Seyid Həsənağanın 4 oğlu, 4 qızı var: **seyid Ağaşükür, seyid Mirhəbib, seyid Mirtahir, Məşədi seyid Mircamal, Gülsümxanım, Məryəmxanım, Səkinəxanım və Şəfayətxanım**. Hamısı elə bu kənddə yaşayır.

Seyid Həsənağanın böyük oğlu seyid Ağaşükürün **Elnurə, Zülfünaz, Nurlanə, Rəqsanə, Gülnar adlı qızları və Fuad** adlı oğlu;

**Seyid Mirhəbibin Vəfa, Əqidə və Ağamiri adlı övladları;**

**Seyid Mirtahirin isə Mirnicat, Nigar və Nuranə** adlı uşaqları var.

Ocaqda ailənin sonbeşiyi **Məşədi seyid Mircamal ağa** oturur. Əhli- Qurandır. İki dəfə Məhşəd ziyarətində olub. Üç övladı var: **Həsənağa, Fatimə və Ruqəyyə.**

Allah cəmi seyidlərimizin nəfəsini xalqın üstündən əskik eləməsin.





## SEYİD MİRİ SEYİD MİRMUSA OĞLU



Masallı rayonunun Mahmudavar kənd qəbirstanlığından tapılan müxtəlif məişət alətləri, baltalar, qoç heykəlləri bu kəndin dəmir-tunc dövrlərində də mövcud olduğundan xəbər verir. Kənddəki bu qəbirstanlıq "Baba Seyidağa" qəbristanlığı adlanır. Çox güman ki, Baba Seyid ağa bu ərazidə inanc yerləri, səcdəgahları olan Babagil, Baba Rəhman, Baba Səmənd qardaşların nəslindən olub.

El-obanın nurlu seyidi, mütərəqqi fikirli, geniş qəlbli, zəhmətkeş insan seyid Mirinin ulu babası **Baba Seyidağa** idi.

Seyid Mirinin babası seyid Əli (Kor seyid) də öz cəddinin kəraməti, yaxşı ağsaqqalığı ilə yaddaşlarda qalıb.

Seyid Əlinin iki oğlu olub.

Böyük oğlu **seyid Mirmusa** çox boylu-buxunlu, imanlı, əqidəli insan idi. Oğlanları **seyid Miri və seyid Dadaş** da özünə oxşamışdı.

**Seyid Dadaş** (1935-2000) tikintidə işləmiş, öz çörəyini əllərinin qabarı ilə qazanmışdı. Yurdunda yolunu övladları **seyid Mirəhməd, seyid Mirkazım, seyid Mirmustafa, seyid Mirlazım, seyid Mirvaleh, seyid Mirfail, seyid Mircavad** və 5 qız övladı davam etdirir.

Seyid Dadaş ağanın evində namaz qılıb, oruc tutmayan yoxdur.

**Seyid Miri ağa** 1927-ci ildə Mahmudavar kəndində anadan olmuşdu. Dini təhsili olmasa da, çox savadlı, qabaqda gedən ağalardan olub. Həmişə camaata köməyi dəyib. Məsləhətə ehtiyac olan yerə onu aparardılar. Ömrü boyu kolxozda sıravi işlərdə çalışıb. Təqaüdə çıxana qədər əli işdən soyuma-

yıb. Həmişə deyərdi ki, kişini durğuzmazlar, kişi gərək özü dursun, günəşi görsün.

Yaman da gül-çiçək aşiqi idi. Həyatində nə cür gül-çiçəyə desən rast gəlmək olardı. Hətta ekvalit kufra ağacını da əkib-becərərdi. Çox yaxşı da yaddaşı vardı. Hər hansı bir ölkə haqqında geniş məlumata malik idi. Kərbəlaya, Məkkəyə getmək arzusuyla yaşayırdı. Lakin amansız ölüm imkan vermədi.

Seyid Miri ağa 1991-ci ildə haqq dünyasına qovuşdu.

Allah rəhmət eləsin.

Seyid Miri ağa çox kəramətli, zarafatcıl insan idi.

SSRI-nin vaxtında maaş vaxtı hər əmək haqqı alandan 30 qəpik saxlayıb əvəzində lotoreya bileti verərdilər. Bir arabaçıya da lotoreya verəndə o hay-küy salır, götürmür. Ağa ona kömək etmək üçün pulunu verib, özü götürür.

Təsadüfən həmin lotoreyaya "Moskviç-412" markalı bir maşın düşür.

Bir gün ağa qapıda maşını sürmək istəyir. Həyat yoldaşına deyir ki, mən maşını geri verəcəm, divara dəyəndə de.

Maşını geri verəndə divara dəyir. Arvadı qışqırır ki, ağa, dəydi.

O gündən bu hadisə xoş bir misal kimi ellərə yayılır.

Seyid Miri ağa özü kimi də alicənab, nurlu balalar böyüdüb: **Hacı seyid İsa, Məşədi seyid Mirzəbala, seyid Mirməhəmməd, Seyidbəyim, Mirnisə, Mirxanım, Mirbəyim, Ağabəyim, Gülxanım, Nazxanım və Səidə.**

Ailənin böyük oğlu **Hacı seyid İsa ağadır.** O, 1998-ci ildə Məkkə ziyarətində olub. Niyyət edib ki, bir dəfə də atası əvəzindən getsin.

Üç oğlu, bir qızı var: **seyid İslam, seyid Bəhruz, seyid Pərviz və Zeynəb.**

**Məşədi seyid Mirzəbala** isə 2 oğul, iki qız atasıdır: **seyid Səid, seyid Mirbəşir, Nuranə və Heyranə.** Onlar da ataları kimi hamısı əhli-ibadətdir. Quranı çıxıblar.





Seyid Miri ağanın 3-cü oğlu **seyid Mirməhəmməd** isə oğluna babası **seyid Mirmusanın** adını qoyub.

Adı ilə yaşasın!

**Məşədi seyid Mirzəbala:**

- Atam mənim idealım idi. Hələ uşaq ikən mənə Quran oxumağı öyrətmişdi. Balalarına, camaata dəyərli məsləhətlər verməkdən yorulmazdı. Deyərdi ki, oğul, heç vaxt elmli adamlardan qabağa keçmə, bağışlamağı bacar, nə edirsən et, ziyanın olsa da, Allaha xoşdursa onu et.

Atamın sözlərini ömrü boyu unutmaram. Bu gün bir çətinliyə düşəndə onun öyüdlərini yadıma salır və hərəkətlərimi nizamlayıram.

**Hacı Qurban Kərimov:**

- Ağa bizim ağamız idi. Çox nurlu, halal, mehriban insan idi. Həmişə qapısında imamlarımıza təziyyə keçirərdi. Hətta Sovet hakimiyyətinin islamı yasaq etdiyi illərdə belə, NKVD işçiləri onun həyətinə girə bilməzdilər.

Göydən ələmin ağanın qapısına gəlib düşməsinin şahidi olmuşam.

Bir il Məhərrəmlikdə ağa xəstəliklə əlaqədar Bakıya - müalicəyə getmişdi. Aşura günü evdəkilər görürlər ki, ələmin qoyulduğu sandıqdan səs-küy gəlir. Fikir vermirlər. Qətl sınan vaxtı ələm sandığı parçalayıb, tavana sancıldı, yarısı isə qırılıb yerə düşdü.

Kəndimizin camaatı bütün inamını o ələmə yığıb. Ağanın özü də, ocağı da camaatın ziyarətgahı, tapındığı inam ocağıdır.

Allah seyid Miri ağaya və bütün haqq dünyasına qovuşmuş imam Hüseyn aşiqlərinə rəhmət eləsin!

## ZİYARƏT

Seyid Miri ocağına ziyarətə getdim bir gün
Yada saldım, burda keçən yaddan çıxmaz günlərimi.
Seyid Miri ocağına ziyarətə getdim bir gün
Yada saldım o illərdə unudulmaz günlərimi.

Qonşumuzda seyidlərin çox hörmətli nəsli vardı,
Elin böyük ağsaqqalı seyid Miri sayılardı.
Şirin-şirin danışanda üz-gözündən nur yağardı,
Çöhrəsində mələk nuru, əllərində şəfa vardı.

Yaxın-uzaq axın-axın gəlib səcdə edərdilər,
Bu ocağa üz tutanlar şəfa tapıb gedərdilər.
O gələndə böyük-kiçik durub ona yer verərdi,
Sakit-sakit danışardı...çox ağıllı söz deyərdi.

Şirin-şirin danışanda mən də baxıb düşünərdim,
Belə böyük insanların varlığına sevinərdim.
Yada düşdü xatirələr, yada düşdü ötən günlər,
Unudulmaz günlərimi xatırladım birər-birər.
Ona görə seyid Miri ocağına getdim o gün,
Onun sirli ocağını mən ziyarət etdim o gün.

**Intiqam Əfsus (Əbilov)**





## AXUND HACI SEYİD MİRQİYAS HÜSEYNLİ



"Göylərdə və yerdə nə varsa, hamısı Allaha məxsusdur. Bütün işlər axırda Allaha qayıdacaqdır. Insanın Tanrıya olan məhəbbəti sonsuzdur. Bu məhəbbəti insanlar öz doğru əməlləri ilə biruzə verirlər. Belə doğru əməl sahiblərindən biri də **Hacı Mirqiyas Mirxas oğludur.**

Hacı Mirqiyas ağa 1944-cü ildə Yardımlı rayonunun Telavar kəndində anadan olmuşdur. "Allah kimi düz yola yönəltmək istəsə, onun köksünü Islam dini üçün açıb genişləndirər, kimi azdırmaq istəsə, onun ürəyini daraldıb sıxıntıya salır. O san ki, sıxıntının şiddətindən göyə çıxar. Allah iman gətirməyənlərə pisliyi belə edər!"

Hacı Mirqiyas ağa dünyaya göz açan gündən onun qəlbi Tanrıya böyük məhəbbətlə döyünmüşdür. Onun dərin dini savad və bilik sahibi olmasında **Molla Hüseyn axundun** əməyi çox olmuşdur. **Molla Qələm, Şeyx Rəhmət axund** ona ustadlıq ediblər.

Hacı seyid Mirqiyas ağa 1963-cü ildən Masallı rayonunun Çaxırlı kəndində yaşayır. El-obada doğru əməlləri, şirin söhbəti, nuraniliyi, düzgünlüyü və yaxşılığı ilə camaatın dərin sevgi və hörmətini qazanmışdır.

Hacı ömrünün 21 ilini dini biliklərin öyrənilməsinə həsr etmişdir. Ömrü boyu şəriətlə sıx məşğul olub. Islamın yayılmasında, dinimizin möhkəmlənməsində həmişə fəal mübarizə aparıb. Bu gün də elə o cürdür.

Hal-hazırda Hacı Qafqaz Müsəlmanları Ruhani idarəsinin Cənub bölgəsi üzrə nümayəndəsi (qazisi) və Masallı rayonunun baş axundudur.

Məkkəyə gedib Allah evinin ziyarət etmək hər insana qismət olmur. Hacı bu xoşbəxtliyə nail olmuşdur. O, Azərbaycandan Məkkəyə gedən ilk zəvvarlarımızdandır. Müqəddəs Kəbəni 13 dəfə ziyarət etmişdir. Bundan başqa Hacı Mirqiyas ağa dəfələrlə müxtəlif ziyarətlərdə də olmuşdur. O, 10 dəfə Kərbəla, 12 dəfə Məşhəd ziyarətlərində olub.

Hacı ustadlarından aldığı dini bilikləri həvəslə gənclərə öyrədir.

Bu gün rayon ərazisində heç bir tədbir onsuz keçirilmir. Dini mərasimləri yüksək səviyyədə həyata keçirir, İslam nurunu ellərə yayır.

Onu da qeyd edək ki, Hacı dərin biliyə, fitri istedada malik ruhani alimlərimizdəndir.

Tanrı Sizi qorusun, Hacı!

Ruha qanad verir kamalın sənin,
Mömünlər ağası, ağa Mirqiyas.
Ustadı olmusan söz sənətinin,
Mömünlər ağası, ağa Mirqiyas.

İmamlar eşqinə ürəyin yanır,
Ən kövrək duyğular birdən oyanır.
O təmiz, saf qəlbin qana boyanır,
Mömünlər ağası, ağa Mirqiyas.

Hünər lövhəsində qadir Allahın,
İşıqla yazılıb hər bir sabahın.
Kərbəla, Kəbədir ziyarətgahın,
Mömünlər ağası, ağa Mirqiyas.

Səadət yoldaşın, bəxt köməyindir,
Üzünə nur yayan öz əməlindir.
İmamlar şəninə söz deməyindir,
Mömünlər ağası, ağa Mirqiyas.

İmama bağlıdır ürəyin, beynin,
Ağlaya-ağlaya açıldı eynin.
Sadiq nökərisən məzlum Hüseynin,
Mömünlər ağası, ağa Mirqiyas.

Həkk olub çöhrəndə cəddinin nuru,
On iki imamın eşqi, qüruru,
Beytulla söyləyir, qəlbini qoru,
Mömünlər ağası, ağa Mirqiyas.

*Beytulla ƏLIYEV*





## SEYİD MİRSADIQ SEYİD MƏHƏMMƏDƏLİ OĞLU



Həsənli kəndində bir qərib seyid yaşayıb. - Seyid Mirsadıq seyid Məhəmmədəli oğlu (1787-1887).

Hələ bu gün də el-obada onun kəramətindən, hikmətlərindən danışırlar. Bu müqəddəs insan öz davranışı, əxlaqı ilə camaata örnək olub. 100 il mənalı ömür yaşayıb. Təəssüf ki, onun həyatı haqqında əlimizdə geniş məlumat yoxdur. Bircə onu bilirik ki, seyid Mirsadıq Cənubi Azərbaycanda anadan olub. XIX əsrin əvvəllərində Həsənli kəndinə köçüb, burada yaşayıb və haqq dünyasına qovuşub.

**Hacı Əlibala, kənd sakini:**

- Seyid Mirsadıq ağa bacısı ilə Həsənli kəndinə gələndə məscidin həyətində qalırlar. Qışın oğlan çağı imiş. Heç kəs onları evinə qəbul etmirmiş. Belə olduqda ağa qarı bir yerə komalayıb od vurur. İlahinin qüdrəti, cəddinin kəraməti ilə qar alışıb yanır. Bunu görən camaat onun başına yığışır, Hacı Məhəmməd onları öz evinə aparır.

Ağa ailə həyatı qursa da, övladı olmayıb.

Köhnə kişilər seyid Mirsadığın çoxlu möcüzələrindən danışardılar.

**Hacı Mirulduzxan seyid Qulam oğlu:**

- Seyid Mirsadıq uzun bir dövr ərzində bu kənddə yaşamış, təqvalı bir seyid kimi tanınmışdı. Torpaq işləri görəndə beli (lapatkası) özü işləyər, torpaq atardı. Cəddinə iman gətirən Əli kişi öz qızını ona ərə vermiş və ona himayədarlıq etmişdi.

Seyid Mirsadıq ağanın ocağından həmişə işıq gələrdi. Allah ona rəhmət eləsin.

**Məşədi Yusifəli Fərəcov:**

- Uzun illərdir ağanın müqəddəs məzarı camaatımızın ziyarətgahına çevrilib. Onun qəbrinin üstünü qardaşım Hacı Nofəl götürərək üstündə gözəl bir kümbəz ucaldıb.

Bir gün qardaşım yuxuda görür ki, ağa onu çağırır. Deyir ki, gəl mənim də üstümü səhmanla. Qardaşım sabahı kəndə gəldi, ağsaqqallarla məsləhətləşdi və camaatın xeyir-duası ilə ağanın qəbri üstündə adına layiq kümbəz ucaltdı.

Allah bütün iman sahiblərinin imanını kamil eləsin.

**Hacı Nofəl Qulam oğlu** erkən yaşlarından Allaha ibadətlə məşğul olur, namaz qılır, oruc tutur.

Onların evi seyid Mirsadıq ağanın qəbrinin lap yaxınlığındadır. Ona görə də uşaqlıq illəri tez-tez onun qəbrinin üstündə alov yandığının şahidi olardı. Atası **Qulam kişi, anası Yasəmən Əsəd qızı** tez-tez ağa haqqında söhbət edərdilər. Anası Yasəmənin babası Hacı Məhəmməd deyərmiş ki, seyid Mirsadığın bacısı ocaq üstə sac olur, yəni hamı odu maşa ilə götürəndə, o əli ilə götürərmiş.

Seyid Mirsadıq ağa Hacı Məhəmmədin ona verdiyi komada yaşamış, sonra öz qız nəvəsini ona ərə vermişdi.

1986-cı il Məhərrəm ayında kəndin sayılan din xadimlərindən **molla Qəhrəman Rəcəb oğlu** Aşura günü seyid Mirsadıq ağa haqqında çoxlu möcüzələr danışır. Hamı oturub diqqətlə ona qulaq asırdı. Həmin gecə Nofəl röyada görür ki, nur içində, başında əmmamə bir müqəddəs şəxs ona deyir:

-Oğul, mənim məzarım üstünə çox fikir vermirlər. Görürəm ki, sən əhli-ibadətsən. Ona görə də məzarımın üstünü düzəltdirməyi sənə tapşırıram.





Bunu deyir və qeyb olur.

Səhər yuxudan ayılan Nofəl gecə yuxuda gördüklərini qardaşı Məşədi Yusifəliyə, sonra kəndin ağsaqqalları **Əliağa Hüseynova, Mirulduzxan ağaya, molla Əlibalaya** danışır. Onlar hamısı bir ağızdan deyirlər ki, bu müqəddəs işi görmək sənə rəva bilinib, sən də gərək bu işi görəsən.

Elə həmin il də Nofəl ağanın müqəddəs məzarının üstünü düzəltdirməyə başladı. Bu işdə ona kənd camaatı, xüsusilə də sürücülər **Asif, Səfər və Dünyamalı, o cümlədən seyid Cəlal, Alim kişinin oğlu Yalçın** yaxından kömək etdilər. **Hacı Təpə kənd sakini Lazım Kazım oğlu** qəbrin üstünün mərmər lövhəsini hədiyyə etdi.

O vaxt Yalçın ali məktəbə imtahanlara hazırlaşırdı. Nofəlin xahişi ilə tikintiyə kömək etdikdən sonra imtahandan "5" qiymət alaraq instituta qəbul olundu. **Anası Rahilə xanım** ağanın ocağının üstündə qurban kəsib, nəzir payladı.

Hacı Nofəl 1961-ci il oktyabr ayının 8-də Həsənli kəndində dünyaya göz açmışdır. Ayağı yer, dili söz tutandan evlərində Allahu-əkbər sədaları eşidib.

Ailədə 7 qardaş, 3 bacı olublar.

Böyük qardaşı **Məşədi Yusifəli** din adamı olduğundan ondan çox şey öyrənib.

Ağanın ocağının məzarının üstünü düzəldirdikdən sonra işləri də Allaha şükür ki, daha da yaxşılaşıb. Həyatda nə arzusu varsa, ona çatıb.

**Hacı Nofəl:**

Ürəkdə qalmamış heç bir muradım,
Dolub boşalmışdır bütün arzular.
Haqq üçün dinəndə qana düşürəm,
Dinməz yaradaydın məni, Pərvərdigar!

Haqsızlıq üzündən yandım, kül oldum,
Sönməz yaradaydın məni, ay Allah!
Şahmar ilan olub çaldılar məni,
Sızladım, yüz hala saldılar məni.
Dönməz yaradaydın məni, ay Allah!
Elə bil dünyanı dünən yaratdın,
Nə qədər əhdindən dönən yaratın,
Bəs niyə Nofəli qanan yaratdın?!
Bilməz yaradaydın məni, ay Allah!

Hacı Nofəlin üç nurlu övladı var: **Röyal, Rauf, Qulam.**

2002-ci ildə Məkkə, 2003-cü ildə Məşhəd ziyarətlərində olub.

**Yusif Məmmədov, kənd ərazi nümayəndəsi:**

- Bizim rayon camaatının imam-peyğəmbər övladlarına ta dövrü- binadan böyük etiqadı, ehtiramı olub. Uşaqdan böyüyə onların - seyidlərimizin sözləri ilə oturub-durar, çətinə düşəndə onlarla məsləhətləşərlər.

Seyid Mirsadıq ağa da kəndimizin möhtəbər ağalarından olub. Bu gün də məclislərdə camaat onun mübarək adını hörmətlə çəkir, ruhuna dualar oxuyurlar.

1997-ci ildə ağanın anadan olmasının 210 illiyini yüksək ehtiramla qeyd etdik.

Müqəddəslər- unudulmurlar! Hansısa bir müdrik deyib ki, keçmişini unudan xalq o dövrü bir daha yaşamağa məhkumdur. Biz də çalışırıq ki, öz tariximizi, görkəmli, nurlu şəxsiyyətlərimizi unutmayaq.

Allah cəmi haqq dünyasına qovuşmuş seyidlərimizə, ağsaqqalarımıza rəhmət eləsin.



# Naxçıvan



Naxçıvan Azərbaycanın qədim yaşayış məskənlərindəndir. 1,5 hektar ərazini tutan, Naxçıvan çayının sol tərəfində yerləşən Kültəpədə aparılan arxeoloji qazıntılar zamanı tapılan əşyalar neolitdən eneolitə keçid dövrünün əvvəllərinə və dəmir dövrünə aid edilir. Yəni eramızdan əvvəl IV-III əsrlərdən tutmuş bizim eranın ilk minilliklərinə qədər.

Hələ Qurani-Kərimdə Naxçıvanın dini-tarixi abidələri haqqında söhbət açılır, Əshabi-Kəhfdə məscidin olduğu barəsində məlumat verilirdi. Tarixi yolların üzərində yerləşən Naxçıvan memarlığı XII-XIII əsrlərdə öz inkişafının yüksək həddinə çatır. Abubəkrin oğlu Əcəmi Yaxın və Uzaq Şərqdə memarlığın yeni formasının əsasını qoyur. Onun 1186-cı ildə Atabəy-Eldəgizləri Məhəmməd Cahan Pəhləvanın birinci arvadının şərəfinə ucaltdığı Möminə xatun türbəsi Azərbaycan memarlığının ən parlaq nümunəsidir.

Əcəmi məktəbinin təsiri çox əhatəli olmuşdur. **Qunbad Kabud (Marağa), Axancan (Məşhəd)** mavzoleylərində bu məktəbin təsiri görünməkdədir.

Əcəmi təkcə Möminə-xatun türbəsi ilə yadda qalmayıb. Naxçıvandan Ordubada gedən yolun üzərində tikilmiş, **"Türk məscidi"** adlandırılan böyük məscid də yəqin ki, onun adı ilə bağlıdır.

Culfa rayonunda yerləşən **Şeyx Xorasan türbəsi** də qədim tarixə malikdir. Onun inşaası da XII-XIII əsrlərə aid edilir. Bura Qələndəriyyə - sufi şeyxi Əbu Ömər Naxçıvaninin xanəgahı olub. Girişində yazılıb ki, bu binanın ustası Xacə, hörmətli Cəmaləddindir.

Gülüstan türbəsi də həmin dövrlərin məhsuludur.

Qarabağlar kəndindəki türbə isə XIV əsrə aid edilir. Burada olan çoxsaylı türbələr, qalalara gedən su sisteminin qalıqları bir zaman buranın iri yaşayış yeri - böyük şəhər olduğundan xəbər verir.





Evliya Çələbi XVII əsrdə İrəvandan Naxçıvana səyahət edərkən yaşıllıqlar içərisində itib-batan, müxtəlif tikililəri ilə göz oxşayan 10 min evi, 40-nın minarəsi olan 70 məscidin olmasından söhbət açır. Buradakı tikililərin üslubu, istifadə edilmiş material və texniki detallar türbənin Abu Səid Bahadur xanın (1319-1335-ci illər) dövründə, minarənin isə erkən tikildiyindən xəbər verir.

Onu da xatırladaq ki, Qarabağlar türbəsinə oxşar türbə Bərdə şəhərində 1322-ci ildə **ustad Əhməd Əyyub Əl-Hafiz oğlu** tərəfindən tikilmişdir. XVI-XVII əsrlərin dini-tarixi abidələri sırasında Ordubad Məhəmməd İbrahim Zəhiriyyə mədrəsəsi xüsusilə seçilir. Bu yeganə mədrəsədir ki, dövrümüzə qədər gəlib çıxmışdır. Ümumiyyətlə ilk mədrəsələrin Azərbaycanda tikilməsi XII əsrə təsadüf edir. Bir qayda olaraq mədrəsələr Cami məscidlərin kompleksinə daxil olurdu. O vaxtlar Gəncə, Şamaxı, Bakı Came məscidlərinin yanında da iki yaruslu mədrəsələr fəaliyyət göstərirdi. Ordubaddakı mədrəsənin binasında bir kitabədə 1126-cı il (1714) tarixi göstərilir. Bizə elə gəlir ki, bu tarix mədrəsənin yenidən qurulduğu tarixi əks etdirir. Mədrəsə kərpicdən tikilib və müxtəlif ornamentlərlə, oymalarla bəzədilib.

## DİLBƏR MƏSCİDİ

Ordubaddakı bu məscid assimetrik formada olmaqla, şəbəkə pəncərələri ilə da çox yaşayış evlərini xatırladır. **Came məscidi** XVIII əsrə aid edilir. Rayondakı Cümə məscidi isə XVII əsrə aiddir. Məscidin şərq girişində Şah Abbasın fərmanı nəqş edilib- 1012-ci il (1604). Məscid hündür qayanın üstündə inşa edilib.

## XANAĞA PİRİ

Naxçıvanın Ordubad rayonunda Xanağa adlı kənd vardır. Pir binasında giriş qapısı ilə üzbəüz divarda iki daş kitabə hörülmüşdür. Sağ tərəfdəki düzbucaqlı formaya malik daşda, (0,70-0,40 m) qabarıq, ərəbcə süls xəttilə həkk olunmuş kitabədə deyilir:-"Hamımız tələsin deməyə-"Allahda olduğundan savay qüdrət və qüvvə yoxdur". Sonra Qurani-Kərimdən 55-ci surənin 26-27-ci ayələri yazılmışdır. Bu qəbir Seyyid Həmidin oğlu Seyyid Tahirindir. 707/ 1307-08 il. İkinci daş düzbucaqlıdır (0,59-0,37). Üzərində nəsx xəttilə ərəbcə yazılmış kitabənin məzmunu belədir:

"Ey bütün qəriblərin dostu! Bu bağ (məzar) Şeyx Nurəddinin oğlu rəhmətlik, bağışlanmış, xoşbəxt şəhid, 1010-cu ildə Allah rəhmətinə çatmış, şeyxlər nəslindən (olan) Şeyx İslamındır"(1601-1602-il miladi).

**Məşədixanım Hemət ,**
**AMEA-nın müxbir üzvü, Memarlıq doktoru**

## CAME (CÜMƏ) MƏSCİDİ



Azərbaycan məscidləri arasında ən diqqətçəkəni Naxçıvandakı Came (Cümə) məscidi kimi tanınan, XII-XIII əsrlərin yadigarı olan memarlıq abidəsidir. Məscidin öz ölçülərinə görə, hətta Möminə xatun türbəsini belə kölgədə qoyması barədə də məlumatlar vardır. Came məscidi mərkəzi gümbəz tipli məscidlərin kompozisiyalarına aid edilir. XIX əsrdə məscidin foto-şəklini lentə alanların verdiyi faktlara əsasən binanın içərisində gözəl tərtib edilmiş bədii oyma, bəzək işlərinə təsadüf olunurmuş.

Möminə xatun türbəsi ilə müqayisə edilən Came məscidinin hündürlüyünün təxminən 35 m-dən az olmaması barədə





söylənənlərə ancaq inanmaq olar.

Came məscidinin kompozisiya- plan quruluşunun əsasını keçid qaleyeraları ilə dövrələnmiş geniş ibadət salonu təşkil edir.

## İMAMZADƏ KOMPLEKSİ



Naxçıvanda, Araz çayına yaxın sahədə yerləşən, maraqlı, lakin hələ dərindən öyrənilməmiş görkəmli bir memarlıq kompleksi İmamzadə adı ilə tanınan abidədir. Ümumiyyətlə, bütün Azərbaycanda olduğu kimi, Naxçıvandakı İmamzadə kompleksi də XVII-XVIII əsrlərdə formalaşmışdır. Belə komplekslərin özəyini daha əvvəlki zamanlara aid məqbərələr təşkil edirdi. Bu cür məqbərələr Səfəvilər dövründə vəziyyətinə görə təmir və ya yenidən bərpa edilir, məqbərənin ətrafında məscid, təkyə, ziyarətxana yaradılaraq kompleksə çevrilirdi.

Imamzadə kompleksinin özəyini planda kvadratşəkilli, xarici görünüşü etibarilə kubik formalı qülləvarı türbələrdən gələn dairəvi gövdənin qovuşduğu bir kompozisiya təşkil edir. Silindrşəkilli gövdənin səthi naxçıvanlı memar Əhməd Əyyub oğlunun hələ XIV əsrdə tətbiq etdiyi üsulla- üfüqi qırmızı bişmiş və şaquli bənövşəyi rəngli kaşılı kərpiclərlə düzülmüş kitabə ilə örtülmüşdür.

Imamzadə kompleksinə daxil olan binalar bir-birinə bitişikdir. Lakin kompleksdən bir az kənarda yerləşən səkkizbucaqlı "soğanvarı" kümbəzlə örtülmüş türbə bu ərazinin keçmişdə əhəmiyyətli məqbərələr yerləşən bir ərazi olduğunu ehtimal etməyə əsas verir.

## YENİ MƏSCİDLƏR



Naxçıvan hələ qədimdən müqəddəs ziyarətgahları, məscidləri ilə tanınıb. Son illər onların sırasına xeyli yeni məscidlər də əlavə olunub.

1999-cu ilin oktyabr ayında Iran Islam Respublikasının "Bonyadi Moste-zəfan" fondu tərəfindən inşa edilmiş Həzrəti Zəhra (ə) məscidi və Türkiyə Dəyanət Vakfı tərəfindən tikilmiş "Kazım Qarabəkir Paşa" came-məscidi də dindarlarımızın istifadəsinə verilmişdir. Hər iki mərasimdə mərhum prezidentimiz Heydər Əliyev iştirak etmişdi. **"Islam dinin mənəvi dəyərləri ən yüksək qiymətə layiqdir"**, -deyən H. Əliyev məscidlərin tikintisindən razı qaldığını bildirmişdi.



**Şərur rayonu, Aralıq kəndində tikilmiş "Heydər Əliyev" məsçidi də ona olan xalq məhəbbətinin təzahürüdür.**

## "ƏSHABİ-KƏHF"

Qədim diyarımız, Dədə-Qorqud qəhrəmanlarının at oynatdığı, yağıların gözünə bıçaq kimi saplanan, ən nadir gözəlliyi ilə dünyanı heyran qoyan **"Nəqşi cahan"** diyarı...

Təbiətin min bir gizlici burada bitib. Havası dərman, suyu dərman Naxçıvan...

Minillərin süzgəcindən keçib gələn **"Əshabi-Kəhf"** dünənimizi, bu günümüzü tanıdan tarixi abidələrimizdəndir.

Azərbaycanın ayrılmaz bir hissəsi olan qədim Oğuz Türk yurdu- Naxçıvan bəşər övladının ilk yaşayış yeri, ilk məskənlərindən biri olmuşdur. Burada yerüstü abidələr, qalalar, mağa-





ralar, duz mədənləri, daş alətlər və şəfaxanalar ölkənin tarixini daha uzaqlara aparır. Belə ki, "Qurani-Kərim"də zikr olunan və xalq arasında "Nuxdaban" və ya "Nuxtaban" adlanan Nuh peyğəmbərin məzarı, "Gəmiqaya kitabələri", Quranda "Əl-Kəhf" surəsində adı çəkilən "Əshabi-Kəhf" mağarası da Naxçıvanın qədim və hələ indiyədək sirri açılmamış abidələrindəndir.



*"Əshabi-Kəhf" ziyarətgahında bərpa və abadlıq işləri 1998-ci ildə Azərbaycan Respublikasının Prezidenti möhtərəm Heydər Əliyevin tapşırığı və himayəsi ilə görülmüşdür.*

Son illər ölkəmizdəki yaradıcı abhava, qurub yaratmaq eşqi Naxçıvanda da geniş vüsət tapıb. Hələ bir neçə il öncə bura yolu düşənlər bu gün Naxçıvanı tanımırlar. Şəhər və kəndlərdəki abadlıq, quruculuq işləri camaatın xoş güzaranından xəbər verir. **Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri cənab Vasif Talıbovun** işgüzarlığı, zəhmətsevərliyi sayəsində çox şey dəyişib Naxçıvanda.

Biz "Əshabi-Kəhf"də olarkən onun başqa sahələrlə yanaşı, ocaq və pirlərimizə, məscid və tarixi abidələrimizə də xüsusi qayğı və diqqət göstərdiyini xüsusilə vurğuladılar. Dedilər ki, hələ bir neçə il bundan əvvəl "Əshabi-Kəhf"-ə ziyarətə gələnlər çox əzab-əziyyət çəkirdilər. **Mərhum prezidentimiz Heydər Əliyevin** qayğısı və Vasif müəllimin tapşırığı və yaxından iştirakı ilə "Əshabi-Kəhf"də çox böyük işlər görülüb. Şəhərdən ocağa qədər şüşə kimi asfalt yol salınmış, qurban kəsmək üçün zəruri şərait yaradılmışdır. Zəvvarların ibadət etməsi və dincəlməsi üçün hücrələr tikilmiş, mağaranın ziyarətgah yerlərinə pilləkənlər salınmışdır.

Biz bu işdə zəhməti olanların hamısına camaatın dərin minnətdarlığını çatdırırıq.

Ocaqda olarkən görülən işlər, "Əshabi-Kəhf"lə bağlı bil-

gilər aldıq. Bundan sonra Türkiyədə və Iordaniyada mövcud olan eyni adlı ocàqlar barəsində mə`lumatlar topladıq. Türkiyənin Tarsus şəhəri yaxınlığındakı ocaqdan bəhs edən, "Osmanlı Yayım evi" nəşriyyatı tərəfindən dərc edilmiş "Peyğəmbərlər tarixi" kitabındakı fəsli, o cümlədən digər elmi mənbələri alimlərimiz ilə birgə araşdırdıqdan və "Qurani-Kərim"dəki "Əl-Kəhf" surəsini öyrəndiklərimizlə tutuşdurduqdan sonra tam məlum oldu ki, Naxçıvandakı "Əshabi-Kəhf" ocağı"Quran"da adı çəkilən ocağın özüdür.

Bizim araşdırmalarımıza kömək etdiklərinə, əziyyətimizi çəkdiklərinə görə bütün ziyalılarımıza- xüsusi ilə - **Əziz Orucova, Məhərrəm Talıbova, Ilqar Əliyevə, Isa Həbibbəyliyə, Həsən Hümbətova** və başqalarına öz dərin minnətdarlığımızı bildirir və "Əshabi-Kəhf" köməyiniz olsun, deyirik.

***

**Qazi, Hacı Mirəziz Seyidzadə, Qafqaz Müsəlmanları Idarəsi, Elm və Təhsil şöbəsinin müdiri:**

- Bismillahir-rəhmanir-rəhim!

"Qurani-Kərim"də adı çəkilən müqəddəs "Əshabi-Kəhf" ocağının yeri haqqında bu gün islam dünyasında müxtəlif fərziyyələr söylənilməkdədir. Tarixi sənədlər və mənbələrə əsaslanaraq, "Əshabi-Kəhf" ocağının Naxçıvan ərazisində olması həqiqətə daha uyğun gəlir.

"Qurani-Kərim"in "Əl-Kəhf" surəsində təsvir olunan hadisələr Türkiyənin Ufsus şəhərində baş verib. Bu şəhərin viranələri bu gün də Izmir şəhərinin yaxınlığındadır. Lakin "Quran"da zülmdən qaçanların sığındıqları yer haqqında dəqiq məlumat verilməyib. Bircə o məlumdur ki, onların qeyb olduqları yer - mağaranın ağzı şimal-şərq istiqamətindədir və buna görə də gün çıxan vaxt mağaranın sağ tərəfinə, batanda isə sol tərəfinə düşür. Əsən şimal küləyi daima mağarının havasını təzələyir, sərinlik yaradır və gün birbaşa onların üzərinə düşmür. Bir də onu bilirik ki, müqəddəslərin qeybə çəkildikləri yerdə məscid tikilib və bu barədə müvafiq ayə də var ("Əl-Kəhf" surəsi, ayə 21). Bilirik ki, o dövrün camaatı müqəddəslərimizin, ulu adamların qəbrləri üstündə məscidlər tikər, onların xatirəsini əbədiləşdirərdilər.





Bu günlər vəhabilər qəbr üstündə məbəd və məscidlərin tikilməsinin əleyhinədirlər. Amma hələ "Əshabi-Kəhf" dövründə, o dövrün müsəlmançılığında ziyarətgahların, qəbir üstlərinin əzəmətli düzəldilməsi şəriət qanunları idi və o cümlədən müqəddəslərimizin, peyğəmbər əleyhissəlamın qəbri, ziyarətgahı düzəldilməsə idi, bu günün camaatı ondan necə xəbər tuta bilərdi? Müqəddəs şəxsiyyətləri tanıtmaq və onların gözəl əməllərini xalqa çatdırmaq özü insan tərbiyəsində böyük amildir və mənəviyyatımızın simvoludur.

Artıq "Əshabi-Kəhf" hadisəsinin üzərindən 17 əsrə yaxın vaxt keçmişdir. Ona görə də burada tikilən məsciddən əsər-əlamət qalmayıb. Lakin elmi, tarixi, dini mənbələrdən məlumdur ki, burada mövcud olmuş kitabə XVII əsrdə Naxçıvan xanı tərəfindən təzələnmişdir.

Hadisəyə tarixi yönümdən yanaşdıqda hadisələr Dəğyunusun vaxtına təsadüf edir. Bu isə İsa peyğəmbərdən sonrakı dövr idi. Bəzi tədqiqatçılar guya bu rəvayətin xristianlara aid olduğunu iddia edirlər. Əgər belə olsaydı, onda yəqin ki, bu hadisə "Incil"də öz əksini tapardı. Bu da dediklərimizi bir daha təsdiq edir.

"Qurani-Kərim"də göstərilir ki, qeyb olanlar 300 (sonra üstünə doqquz il artırılıb 309 il ) uyuyublar. Bu da onunla əlaqədardır ki, Hicri, Qəməri və Miladi tarixlərinin arasında 11 gün fərq var. Həmin 9 il də həmin 11 günlərin hesabına yaranmışdır.

Bəzi xəbərlərə görə, bu əhvalat Əmman vilayətində baş vermişdir. Tarixi sənədlər və mənim elmi axtarışlarımın nəticəsi həmin "Əshabi-Kəhf"in Naxçıvan yaxınlığında, dağlarda yerləşdiyini bir daha sübut edir. Hadisələrin Izmirin, bir xəbər-

də isə İqdır şəhərinin yaxınlığında baş verməsi nəql edilsə də, zamanın süzgəcindən keçib gələn tarixi mənbələrə, öz əsər və əlamətlərinə görə həmin mağaranın Naxçıvanın dağlarında olması əyani vəsait kimi göz qabağındadır. Ola bilsin ki, bəzi alimlər bizimlə razılaşmasınlar. Elə isə gəlin daha bir neçə tarixi hadisələrə üz tutaq.

Bu gün Buzovnadakı "Əli ayağı" adlı ziyarətgah birinci imamımız Əli ibn Əbu Talibin adı ilə bağlıdır. Necə etiraz etmək olar ki, Əli gəlib Azərbaycana çıxmayıb? Tarixi sənədlərə görə peyğəmbərin müəyyən mirasları Türkiyədəki muzeydə saxlanılır. Onun mübarək saqqalının tükü, Uhud müharibəsində sındırılmış dişi, şəxsi köynəyi, qılıncı və Kə'bənin bir sütunu orada qorunur. Bəs peyğəmbərimizə məxsus həmin əşyalar Türkiyəyə necə gəlib çıxıb? Tarixi sənədlərə və hədisçilərin yazdıqlarına görə, həmin mirasların bir qismi 12-ci imamımız tərəfindən qorunub saxlanılır.

Həzrəti İmam Hüseynin qəbri-şərifi Kərbəla şəhərindədir. Lakin Qahirə şəhərində Rəsuli-Hüseyn (Hüseynin başı) adlı məscid tikilmişdir. Bir xəbərə görə, Imam Hüseynin başı orada dəfn olunmuşdur. Və bu gün minlərlə müsəlmanlar oranı ziyarət edir, həmin məscidə ibadət edirlər.

Burada Allah-təalanın qüdrəti, qadirliyi ilə bağlı daha bir maraqlı, tərbiyəvi örnək var. Bu adamlar Dəğyanus şahlığının vəziri, vəkilləri olmuşlar və onların yaşı ahıllıq dövrünə təsadüf edir. Lakin "Quran"da Allah-təalanın onlara cavan kimi xitab etməsi, əqidə saflığı, cavanlığın həmişə yaşarlığı ilə bağlıdır. Yəni "Əshabi-Kəhf" əhvalatının "Quran"da xəbər verilməsi dünya və axirətin mövcudluğunun timsalıdır. Bu gün müasir cəmiyyət çox asanlıqla qəbul edir ki, bəli, Allah insanı istədiyi qədər yatızdırar və orqanizmlərində heç bir dəyişiklik etmədən onlara yenidən həyat bəxş edə bilər. Bu,, bir daha insanların ölümdən sonra dirilib Qiyamət məhkəməsinə gedəcəyinin təzahürüdür. "Qurani-Kərim"də göstərilir ki, Allah-təala da öz mələkləri vasitəsilə cavanların sağa, sola çevrilmələri üçün hər





cür şərait yaradır. Bunu Allah-təala öz qüdrəti ilə etmişdir. Bu gün elm aləmi "Əshabi-Kəhf"in əsrlər keçsə də dəyişməz qalması təcrübəsindən bəhrələnərək, insanları yatırmağa çalışır və müəyyən qədər buna nail olurlar. Bu da "Əshabi-Kəhf" əhvalatının bir daha elmi əhəmiyyətindən xəbər verir.

Müasir cavanların islamın elmliyini dərk etməsi eyni həqiqətdir. Keçmiş Sovet İttifaqı islamı xurafat və cəhalət kimi cəmiyyətə təlqin etmiş və insanlar Allah-təalaya müəyyən dövr kortəbii ibadət etmişlər. Lakin bu günkü demokratiya və müstəqilliyimiz bizə imkan verir ki, islamı olduğu kimi - elmi surətdə öyrənək və onun qanunlarına layiqli əməl edək.

"Əshabi-Kəhf" ocağının bu baxımdan böyük tərbiyəvi əhəmiyyəti də var.

Sonda bir məsələni də qeyd etmək istərdim. Bu müqəddəs torpaqda - yə'ni "Əshabi-Kəhf"in yerləşdiyi Naxçıvan diyarında dünya şöhrətli, cahanşümul bir şəxsiyyətin - Heydər Əliyevin dünyaya gəlməsi "Əshabi-Kəhf"in müqəddəsliyi və bərəkəti hesabınadır. Yəni müqəddəs torpaqlarda həmişə müdrik şəxsiyyətlər doğular.

İnanırıq ki, alim və ziyalılarımız bizim yuxarıda dediklərimizə dəstək verəcək və "Qurani-Kərim"də adı çəkilən "Əshabi-Kəhf"in məhz Naxçıvanda olduğunu öz elmi məqalələri ilə bir daha sübut edəcəklər.

Vəssəlamu-əleykum və rəhmətullahi və bərəkat.hu.

**Hacı Nurani Ayətullah, İran Islam Respublikası, Qum Universitetinin üləması, 270-dən çox dini- elmi kitabın müəllifi:**

-Bismillahir-rəhmanir-rəhim!

Hər bir kəs doğulandan ta qəbir evinəcən Allah-təalanı unutmamalı, onun böyüklüyünə, kərəmətinə şəkk etməməli, islamı qorumalı və möhkəmləndirməlidir. Allah-təalanın biz insanlar üçün yaratdıqları möcüzələri çoxdur. "Qurani-Kərim"in 18-ci surəsində bir daha belə möcüzələrdən xəbər verilir. "Əl-Kəhf" surəsində adı çəkilən hadisənin baş vermə ye-

ri dəqiq göstərilməsə də, uzun illər bir çox üləmalarımızın apardığı tədqiqatları, elmi mənbələri və öz araşdırmalarımı əldə rəhbər tutaraq ürəklə deyə bilərəm ki, haqqında söhbət açılan hadisə, həm coğrafi şəraitinə, həm günəşin düşməsi istiqamətinə və həm də tarixinə görə Naxçıvandakı ilə uyğun gəlir. Çünki dünyanın heç bir yerində "Qurani-Kərim"də təsvir olduğu kimi günəş yatmışların üzərinə Naxçıvanda olan dağdakı kimi həm sağdan, həm də soldan düşə bilməz. Lakin Naxçıvandakı Əshabi-Kəhf dağının quruluşu elədir ki, həqiqətən o, Quranda təsvir olunan dağa bənzəyir. Türkiyədə, Iordaniyada və ya başqa ölkələrdə qeybə çəkilmiş kimsənələr haqqında müxtəlif rəvayətlər dolaşır. Lakin Naxçıvandakı rəvayət və hədislər həqiqətə daha uyğundur.

Allah bütün müsəlman bacı və qardaşlarımızın üstündən öz nəzərini əskik etməsin!

Vəssəllamu-əleykum və rəhmətullahi və bərəkət ihu.

**Hacı Fəttah Səməd oğlu Heydərov:**

**- "Əshabi-Kəhf" barəsində araşdırmalar apararkən eşitdik ki, Milli Məclisin üzvü, millət vəkili Hacı Fəttah Heydərov hələ bir neçə il bundan əvvəl "Əshabi-Kəhf" haqqında el arasında dolaşan əfsanə və rəvayətləri toplamış və kitabça halında dərc etdirmişdir.**

**Onun topladığı rəvayətlərdən birini nəzərinizə çatdırırıq:**

...Çox-çox keçmiş zamanlarda Ağrı dağı ilə Ilanlı dağı arasında, Araz çayının sahilində, dağlar başındakı böyük bir şəhərdə Dağ Yunus adında bir hökmdar yaşarmış. Qüvvətli və tədbirli olmaqla bərabər, həm də çox zalım və qaniçən Dağ Yunus hər gün qala qapılarından ikiyə parçalanmış insan cəsədləri asdırar, xalqı itaət içində saxlamaq, vahimə yaratmaq üçün əzazil tədbirlər tökməkdən çəkinməzdi. O öz yanındakılarına, "Mən bir tanrıyam, görürsünüz mən yağmur da yağdıra bilirəm?!", deyərdi. Hökmdarın zülmü artdıqca, "mən tanrıyam" deməsi də şiddətlənirdi. Sarayda yaşayanlar da, xalq da







onun qorxusundan sözlərinə inanır və Dağ Yunusu tanrı kimi qəbul edirdilər. Hökmdarın veziri Temleyha çox ağıllı və idraklı bir adam idi. Bir gün axşam yatarkən vəziri şübhə götürdü. "Dağ Yunus da bizim kimi bir adamdır", - deyə düşündü. O hər gün bizim kimi insanları günahsız yerə öldürür. Yaxşı, onda o beynindəki kiçik bir məxluqu nə üçün öldürmür", - deyə düşünürdü.

Bəli, Dağ Yunusun cavankən qulağına bir sinək (**burada qurd mə'nasında-red**) girmiş və beynində özünə yer eləmişdi. Hər səfərində sinək tərpənir və Dağ Yunusun başında dəhşətli bir ağrı yaranırdı. Hökmdar əlindəki balaca dəyənəklə başına vuraraq sinəyi sakitləşdirirdi.

"Əgər Dağ Yunus doğrudan da tanrıdırsa, o zaman əmr etsin ki, beynindəki kiçik sinək ölsün. Onun əmri ilə yalnız insanlar ölür, demək o tanrı deyil". Temleyhanın şübhələri hər gün artmaqda idi. Düşüncələr içərisində daşınıb dururdu.

Günlərin bir günü sarayda ikinci adam və Temleyhanın dostu olan Bernuş onun bu halını görcək gizlincə ondan soruşdu:

-Sizə nə oldu, hörmətli Temleyha? Sanki fikir dəryasına düşmüsünüz?

-Heç,- dedi vəzir.

Ancaq Bernuş vaz keçmədi. Temleyhanın dalğınlığının səbəbsiz olmadığını bilirdi. Buna görə də əmin etdi ki, sirri heç kimə söyləməyəcək. Temleyha şübhələrini onunla bölüşdü. Bernuş da ona qoşularaq eyni fikirdə olduğunu söylədi. Dağ Yunusun tanrı olmadığını o da çoxdan düşünürdü.

Bir neçə gündən sonra sarayın dörd önəmli adamı onlara qoşuldu. Nəhayət, gecələrin birində bu altı kişi bir fikirə gələrək, "Dağ Yunus tanrı deyil, gedək həqiqi tanrımızı tapaq", deyərək sarayı tərk etdilər. Gecənin qaranlığında yola düşdülər. Yolda hökmdarın çobanına rast gəldilər. Çoban çomağını qaldırıb yolçuları saxladı:

-Söyləyin görüm siz kimsiniz, gecənin bu vaxtında hara gedirsiniz?! - deyə soruşdu.

Yolçular fikirlərini çobana da açdılar. Çoban da: - Ay qardaşlar, mən də çoxdan bunu anlamışdım, Bu zalım hökmdardan tanrı olmaz, mən də həqiqi Allahımızı axtarmağa gedirəm",- deyərək yolçulara qoşuldu.

Yeddi kişi uzun bir yol getdilər və birdən çobanın köpəyinin də gəldiyini gördülər. Qorxdular ki, köpək onların yolunu bildirəcək. Çoban bir neçə dəfə köpəyi geri qovmaq istədi, ancaq köpək qayıtmadı. Işi belə görən çoban əlindəki ağacla köpəyin ayağını qırdı. Birdən köpək insan kimi dil açıb dedi:

-Niyə məni şikəst etdin?! Sizi yaradan məni və mənim kimiləri də yaradıb. Mən də **Onu** axtarmağa gedirəm.

Yolçular heyrət etdilər ki, bizi yaradan və bu heyvanı insan kimi danışdıran kimdirsə, o, bizim tanrımızdı, - deyib yollarına davam etdilər. Köpək bir az getdikdən sonra öldü. Yolçular onun üstünü basdırıb yollarına davam etdilər. Nəhəcir dağına yetişdilər. Yüksək qayalarla rastlaşdılar. Qayaların üzərindəki sərt cığırdan keçib, sakit bir yer tapdılar. Bir az oturub dincəldilər.

Daha sonra qayaların arasıyla, dağın içinə doğru gedən, sanki bıçaqla kəsilmiş bir yolla irəlilədilər. Qarşılarına çıxan bir mağarada ayaqüstə, bitkin bir vəziyyətdə yuxuya daldılar.

Səhərsi sarayda bir qarışıqlıq oldu: "Sarayın altı adamı və çoban itibdi..." Hər yana atlılar göndərdilər. Sarayın adamları tapılmadı. Bir neçə adam izi tapıb, onların gizləndiyi qayalıqlara gəldilər. Lakin qayaların önündə böyük bir hörümçək toru gördülər və buraya kimsənin girmədiyini zənn edərək, geri döndülər.





...Yeddi yolçu yuxudan oyandı. Çox acmışdılar. Bir yoldaşlarına pul verdilər ki, yaxınlıqdakı Naxçıvana yemək almağa getsin. O da şəhərə gəlib satıcıya yaxınlaşdı və pulunu ödəyib, yeməyə bir şey aldı. Satıcı onun puluna baxıb çox hirsləndi:

- Mənimlə zarafat edirsən, mənə köhnə pul verib aldatmaq istəyirsən?!

Yolçu çaşa-çaşa satıcıya baxdı:

-Anlamadım, nəyə görə köhnə pul olsun ki? Mən bu pulları dünən xəzinədən götürdüm.

Satıcı güldü:

- Bu pul üç yüz əvvəlinkidir. Üzərində də Dağ Yunusun şəkili var. Mənim babamın babasının babası söyləyirdi ki, üç yüz il bundan əvvəl Dağ Yunus adında bir padşah varmış. O, çox zalımın biri imiş. Allah onun torpağına od-alov tökmüş, sarayını və dövlətini dağıdıb məhv etmişdi. Bu pul da o vaxtdan qalmadı.

Çörək almağa gedən bunları eşidincə tez yoldaşlarının yanına gəlir və onlara gördüklərini danışır. Onlar anlayırlar ki, düz üç yüz il yatıblar. Sonra onlar Allaha bir daha üz tutaraq daha insanların arasına dönmək istəmədiklərini bildirirlər. Allah da onların istəyini qəbul etmiş, həmin anda onlar qeyb etmişdi.

Yemək almağa gedən adamın arxasınca gələnlər qayalara rast gəlib mağaranı görmüşlər. Fəqət, burada kimsənin olmadığını görüb, geri dönmüşlər. O vaxtdan bəri bu yer müqəddəs "Əshabi- Kəhf" adını almış və neçə yüz illərdir ki, insanlar buranı müqəddəs bir yer kimi ziyarət edir, niyyət edib qurbanlar kəsirlər.

Müqəddəs kitabımız "Qurani-Kərim"də bir neçə surədə bu yerin adı çəkilir. Ayrıca "Əl-Kəhf" surəsi nazil edilmişdir.

# NAXÇIVAN TARİXİNİN DAŞ YADDAŞI "ƏSHABİ-KƏHF"



**Hacı Qədir Qədirzadə,**
*AMEA-nın Naxçıvan bölməsi üzrə Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutunun direktor müavini, tarix elmləri doktoru*

Naxçıvan ərazisində yaranma tarixi milyon illərlə öncəyə aid olan, sonrakı inkişaf mərhələsində qədim insan məskəninə çevrilmiş "Əshabi-Kəhf" adlı tarixi-dini abidə mövcuddur. Bura İrəvandan Zəngəzura qədər Qərbi Azərbaycan, Şərqi Anadolu və Cənubi Azərbaycan türklərinin min illər boyu and yeri, ümid qapısı sayılmışdır. Abidənin müqəddəsliyi xalq arasında mövcud olan Dağ Yunislə bağlı rəvayətlə, həmçinin "Qurani-Kərim"in "Mağara" surəsindəki ayələrlə əlaqələndirilir. Qeyd edilməlidir ki, Dağ Yunis rəvayəti Şimali Afrikadan Mərkəzi Asiyaya qədər yayılmışdır. Təsadüfi deyil ki, dünyanın bir neçə ölkəsində "Əshabi-Kəhf" adı ilə tanınan abidə vardır.

Allahdan üz çevirib bütlərə tapınan, Dağ Yunis adlı hökmdarın zülmündən və dinsizliyindən qaçıb Allahın birliyinə sığınan adamların başına gələn hadisələr rəvayətin əsas süjetini təşkil edir. Bütün variantlarda hökmdarın adı Dağ Yunis olsa da, qaçanların sayı, mağarada nə qədər yatmaları fərqlidir.

"Qurani-Kərim"in ayələrinə, tarixi faktlara və rəvayətə əsaslanaraq, "Əshabi-Kəhf"in tarixiliyi, rəvayətin genezisi ilə bağlı məsələlərə açıqlama vermək niyyəti ilə hazırlanan bu yazıda mənbə olaraq Nəriman Qasımzadənin tərcümə etdiyi "Qurani-Kərim" (Bakı, 1993) kitabından istifadə edilmişdir.





Hər şeydən əvvəl qeyd edək ki, "Qurani-Kərim"də mağaranın harada yerləşməsi ilə bağlı məlumat olmasa da, bir sıra tarixçilər və təfsirçilər arasında fərqli fikirlər vardır.

"Qurani-Kərim"də mağaranın quruluşu ilə bağlı aşağıdakılar qeyd olunur: "Bir nəzər sal günəşə, doğan zaman mağaranın sağ yanından, batan zaman sol yanından düşür gün. Mağaranın geniş bir sahəsində rahatlıq taparaq uyumuş onlar". *("Əl-Kəhf" surəsi. Ayə 17).*

Buradan aydın olur ki, mağaranın girişi güneydən olmaqla şimal istiqamətində uzanmışdır. Naxçıvandakı "Əshabi-Kəhf" də bu istiqamətdə uzanmışdır.

"Əshabi-Kəhf"in və rəvayətin tarixliyinin öyrənilməsinə gəlincə, dünya ədəbiyyatında başlıca diqqət Türkiyə və Suriya ərazilərindəki mağaralara yönəldilmişdir. Bu baxımdan rus tarixçilərindən A.Krimskiy, M.Attay, V.A.Qordevski, A.Kalmikov, Q.R.Snesarev və başqalarının araşdırmaları diqqəti cəlb edir. Onlar rəvayətin tarixini xristianlıqla bağlamağa çalışırlar. Hətta rəvayətdəki Dağ Yunisin Roma hökmdarı Detsiy olduğunu iddia edirlər. Bu müəlliflərin əsas arqumentləri rəvayətin islamdan öncə baş verməsidir. Yəni qaçma xristianlıqdan öncəki çoxallahlılıq zamanı baş vermiş, onlar şəhərə dönərkən xristianlıq hakim olmuşdur. Bizcə, xristianlığın önə çəkilməsi məsələyə qeyri-elmi yanaşmadır, xristianlıqdan çox öncə, türklərin tək tanrıçılığı dövründə baş verməsi fikri diqqətdən yayınmışdır. Bir sıra qaynaqlarda - Oğuznamələrdən, Əbülqazı Bahadır xanın məlumatlarından aydın olur ki, Nuh (ə.s) peyğəmbərin oğlu Yafəsdən, onun oğlu Türkdən Alınca xana qədər türk soyu ancaq Tanrının birliyinə iman gətirmişdir. Lakin Alınca xanın zamanında bolluca sərvətə malik oldular, Tanrını unudub bütlərə tapındılar. Bu vəziyyət Oğuz xana qədər davam etmişdir. Alınca xandan Oğuz xana qədər dörd hökmdar olmuşdur. Alınca xanla Naxçıvandakı Alınca qalası arasında müəyyən əlaqə olması fikrini nəzərdən qaçırmaq olmaz. Bir sıra qaynaqlarda türklərin Qafqazda, o cümlədən

Naxçıvanda təqribən 3500-4000 il öncə yaşadıqları xəbər verilir. Deməli, rəvayətin genezisində Türk tək tanrıçılığının dayandığını söyləməyə əsas vardır. Bizcə, hadisə məhz türkün bütlərə sığındığı vaxtda baş vermişdir. Oyanıb şəhərə gəlmələri Oğuz Xandan sonrakı dövrə düşmüşdür. Rəvayətin türklərə bağlılığını, onun yayılma arealı, mağaranın yerləşdiyi bölgələr, süjetdəki adlar, mağara ilə bağlı inancların xarakteri və genezisi də bunu sübut edir.

Yayılma arealını nəzərə alaraq, rəvayətin türklər arasında yarandığını söyləmək olar. Hadisənin məhz Naxçıvanda baş verdiyini önə çəkmək üçün bəzi faktlara diqqət yetirək.

Naxçıvanda yayılmış rəvayətdə Dağ Yunisin şəxsiyyəti, onun Araz çayının sol sahilində böyük bir şəhər saldırması, suvarma üçün "Dağ Yunisin çarxı" adlanan yerdə böyük qurğunun olduğu, həmin yerin "Əshabi-Kəhf"ə yaxın olan Nehrəm kəndində eyni adla məlum olması söylənilməkdədir. Xalq arasında Naxçıvan ərazisinin "Dağ Yunis torpağı" adlanması mövcuddur.

Deməli, Dağ Yunisin məsələsi mə'lum rəvayətlə bitmir. Maraq doğuran bir məsələ də var. Necə olur ki, harada yayılmasından asılı olmayaraq, bütün rəvayətlərdə ad Dağ Yunis olduğu halda, müəlliflər onu Roma-yunanlarla bağlamağa çalışırlar. Oğuz xanın oğlanlarından birinin adı Dağ xândır. Dağ eyni zamanda böyüklük, güclülük rəmzi olaraq ləqəb kimi işlədilə bilər.

Rəvayətdən məlum olur ki, vəzirin adı Təmilhandır (adın Təmriho, Təmireyxa deyilişləri də vardır). Bütün variantlarda türklərdəki Temir (Dəmir) əsas götürülməlidir. Hazırda türklərdə Timir, Demir, Teymur, Temir, Temirtaş, Kantemir və s. adlar geniş yayılmışdır. Adın ikinci tərəfi (han) xan türklərdə hakimlik tituludur.

Maraqlı məsələ rəvayətin hansı istiqamətdə və necə yayılmasıdır. Rəvayətin Orta Asiyada zəifliyi, burada mağaraların olması haqqında məlumatın əldə edilməsi onun bu regiona





Qərbdən-Naxçıvan-Anadolu istiqamətindən yayıldığını söyləməyə imkan verir.

Orta Asiya variantlarında təsvir edilən mağaralarla bağlı rəvayətlərə Həzrəti Peyğəmbərimizin hicrət zamanı Sevr mağarasına sığınarkən baş vermiş hadisələr də daxil edilmişdir: zülmdən qaçanlar mağaraya sığınırlar. Onların ardınca düşmənlər gəlincə mağaranın girəcəyində hörümçək tor qurur, göyərçin bala çıxarır.

Digər bir variantda isə mağaranın çox kiçik olduğunu görməkdəyik. Onlar mağaraya daxil olduqdan sonra girəcəyi daşla örtürlər.

Bizcə, rəvayət Orta Asiyaya iki yolla yayıla bilər: **birincisi**, Batı və Doğu türklərinin daimi əlaqələri, **ikincisi**, islamı qəbul etdikdən sonra "Qurani-Kərim" vasitəsilə. Lakin buradakı rəvayətlərin müxtəlif variantlılığı hər iki yolla yayıldığını söyləməyə imkan verir.

Rəvayətin əski çağdaş türklərlə bağlı olduğunu təsdiq edəcək əsas amillərdən biri "Əshabi-Kəhf"dəki inanclardır. Araşdırmalar göstərir ki, inanclar islam və xristianlıqdan çox öncəki dövrə aid olmaqla, türk xalq inamları pantionuna daxildir. Xüsusilə, dağ, daş, su və ağac kultu daha güclüdür.

Yuxarıdakılardan belə nəticəyə gəlmək olar ki, Naxçıvandakı "Əshabi-Kəhf" mağarası tarixilik baxımından çox qədim zamanlara aiddir. Mağara ilə bağlı rəvayət burada baş verməklə digər xalqlar arasında da yayılmışdır.

Min illər boyu heç bir yad əlin toxuna bilmədiyi bu abidə Naxçıvanda türkün pasportu, əbədiyyət yaddaşıdır.

Rəvayətlərdə mağaranın zülmdən qaçanların sığındıqları zaman yarandığı söylənilir: "Allahın hökmü" ilə dağ yarıldı və onlar orada gizləndilər". "Əshabi-Kəhf" də isə: "Onlardan və Allahdan başqası adına tapındıqlarından madam ki, ayrıldınız, mağaraya sığının, bolluca versin sizə rəhmətindən Rəbbi-niz, işinizi avand eləsin *("Əl-Kəhf" surəsi. Ayə 16)*.

Deməli, rəvayətdə söylənilənlərin əksinə olaraq mağara

öncədən mövcud olmuşdur. Qaçanlarda onun haqqında məlumat varmış.

"Qurani-Kərim"də xəbər verilən mağaranın Naxçıvanda olmasını sübut edən daha bir fikir: "...Eləcə də göstərdik onları soydaşlarına. Bunu belə elədik ki, bilələr. Haqdır vədi Allahın və qiyamət saatı, şübhəsiz gələcəkdir. Yatmış cavanlar üçün nə iş görmək barəsində mübahisə edirdi mö'minlərlə, kafirlər. Deyirdilər: Onların üstündə bir bina tikin. Rəbbiləri onları daha yaxşı tanıyır. Onların halından hali olan möminlərə dedilər: "Bir məscid quracağıq onların üstündə". *(Ayə 21).*

Naxçıvanda "Əshabi-Kəhf"in daxilində qeyb olanların yanbaşı istiqamətində məscid tikilmişdir.

Mağaranın tarixiliyi diqqəti cəlb edir. "Qurani-Kərim"də onun əvvəlcədən mövcud olduğu xəbər verilir: "...Madam ki, ayrıldınız, mağaraya sığının..." ifadəsi buranın xalq arasında öncədən məlum olduğunu söyləməyə imkan verir. Onların buralara sığınmaları bir tərəfdən gizlənmə ilə bağlıdırsa, digər tərəfdən marağanın müqəddəsliyini göz önünə gətirir. Çünki "Qurani-Kərim"də onların Rəbbilərinin rəhmini burada qazana biləcəkləri söylənilir. Mağaranın quruluşu, təbii-coğrafi şəraiti ilə tanışlıq onun ilkin yaşayış məskənlərindən biri olmasını söyləməyə imkan verir. Burada qışın soyuqluğundan, yayın istisindən qorunmaq üçün hər cür şərait vardır. Son illərə qədər mağaranın girəcəyindən bulaq çıxırdı. Buradakı təbii köşələr ibtidai qohumluq münasibətlərinə malik olan insanların ayrı-ayrı qruplar halında yaşamasına imkan verməklə bir növ daxili sığınacaq xarakteri daşımışdır. Mağaranın təbii girəcəyi çox çətin keçilə bilən sürüşkən qayalıqdan ibarət olmaqla, mağara sakinlərinin xarici təhlükələrdən qorunmasında mühüm rol oynamışdır. Mağara və ətrafı zəngin bitki örtüyünə malik idi. Bundan yanacaq, əmək alətləri vasitəsi kimi istifadə edilirdi. Bu mağara ən qədim dövrlərdə Naxçıvan türklərinin Ata Ocağı olmuşdur. Zaman keçdikcə onlar buranı tərk edərək yaxınlıqda yaşayış məskənləri salmışlar. Lakin onlar Allahın möcüzəsi hesab edilən bu yeri tərk etməmişlər. Burada genetik cəhətdən əski türk mədəniyyəti ilə bağlı olan mərasim və ayinlər keçirməklə **Ata Ocacı** yad edilmişdir.





"Əshabi-Kəhf" hadisəsi ilə mağara böyük nüfuz qazanmaqla daha geniş ziyarətgaha çevrilmişdir.

## "ƏSHABİ- KƏHF"

**Hacı Fəxrəddin Səfərli,**
**Həmzə Cəfərov**

Naxçıvan Muxtar Respublikası ərazisində ən məşhur ziyarətgahlardan biri "Əshabi-Kəhf"dir. Əhəmiyyətinə və zəvvarların gəlməsinə görə bu müqəddəs yer ərazidə birinci ziyarətgah hesab edilir. Yerli əhalinin fikrincə, **"Əshabi-Kəhf"i yeddi dəfə ziyarət etmək Kərbəla ziyarətinə bərabərdir.**

Bu ziyarətgah nəinki Naxçıvan MR ərazisində, eləcə də bütün Azərbaycanda məhşurdur. Buraya hər il müxtəlif yerlərdən çoxlu zəvvar ziyarətə gəlir. Son illərdə, sərhədlər açıldıqdan sonra qonşu Iran və Türkiyə respublikalarından da buraya zəvvarlar gəlməyə başlamışdır.

Naxçıvan şəhərindən şərqdə, Qahab kəndinin yaxınlığında, yüksək dağlıq ərazidə yerləşən bu müqəddəs yerə gələn zəvvarlar uzun müddət təqib olunsalar və bu sahədə müəyyən qadağanlar qoyulsa da, əhali buraya gizli yollarla, əsasən gecələr gəlmiş və ziyarətlərini həyata keçirmişlər. Hətta, həmin vaxtlar ziyarətgahın giriş hissəsində yüzə yaxın pilitəsi olan beton pilləkən də düzəldilmişdir.

Ərəbcə "Mağara sahibləri" mənasını verən "Əshabi-Kəhf" sözü el arasında "Asəfkəf" şəkilində tələffüz edilir.

Bəllidir ki, dünyanın bir neçə yerində "Əshabi- Kəhf" adlı abidə vardır. Məsələn, Türkiyə ərazisinin iki yerində "Əshabi- Kəhf" adlı abidə olması rəvayət edilir. Onlardan birinin Mərsinin Tarsus ilçəsində, digərinin isə Qəhrəman Maraşın



Afşin ilçəsində olması ehtimal edilir.

Səmavi kitabların axırıncısı olan "Qurani-Kərim"in 18-ci, "Əl-Kəhf" ("Mağara") surəsində "Əshabi- Kəhf" haqqında dolğun məlumat verilir. Ancaq Quranda bəhs olunan məlumatın dünyanın hansı ərazisindəki abidəyə məxsus olması hələlik aydınlaşdırılmamışdır.

"Qurani-Kərim"in Azərbaycan dilinə tərcüməçilərindən biri olan akademik Ziya Bünyadovun fikirincə, Quranın "Əl-Kəhf" surəsində xatırlanan zülmkar padşah Roma imperatoru, bütpərəst Qay Avreli Valeri Diokletian Avqustdur (284-305-ci illərdə hakimiyyətdə olmuşdur). Hadisələr isə şərqdə Əfsus və ya Tərsus kimi tanınan Efes şəhərində baş vermişdir. Iranlı alim Sədrəddin Bəlağinin fikirincə isə həmin padşah miladi tarixi ilə 249-251-ci illərdə hakimiyyətdə olmuş romalı Dəqyanus, Zuqyus və ya Dəqyusdur. Hadisələr isə Kiçik Asiyada, Kaystr çayının ağzında, Izmir şəhərindən 40 mil cənub-şərq tərəfdə yerləşən məşhur Efesus şəhərində cərəyan etmişdir .

Naxçıvan Muxtar Respublikasının əhalisi arasında "Əshabi-Kəhf" haqqında geniş bir rəvayət vardır. Qeyd etmək lazımdır ki, indi də məscidlərdə söhbət edilən bu rəvayət "Qurani-Kərim"in "Əl-Kəhf" surəsində verilən mə'lumata çox oxşardır. Muxtar respublikanın müxtəlif yerlərində cüz'i fərqlərlə mövcud olan bu rəvayətdə hadisələrin Naxçıvan ərazisində baş verməsi fikri söylənilir.

Ziyarətgah haqqında rəvayətin qısa məzmunu belədir: uzun əsrlər bundan əvvəl Naxçıvan şəhərində (bəzi rəvayətlərə görə Naxçıvan şəhərindən təxminən 30-40 km şərqdə, Arazın sol sahilində indi qalıqları qalan "Ölən şəhər"də, başqa bir fikrə görə isə mövcud olmuş və Nuh peyğəmbərin oğlu Yafəsin adını daşımış şəhərdə) Dağ Yunus (Dəğyanus, Təqyanus, Dakyanus, Dikyanus və s. şəkillərdə də adlandırılır) adlı zülmkar bir şah varmış. Altı nəfər Allaha inanan gənc özünü Allah adlandıran şahın zülmündən qaçaraq şəhəri tərk etmiş, yolda onlara bir çoban və iti də qoşulmuşdur. Onlar bir mağaraya sığınmış və orada yuxuya getmişlər. Oyandıqdan sonra ətrafda çoxlu dəyişiklik görən adamlar ac olduqları üçün Təmlixa adlı yoldaşlarını çörək almaq üçün şəhərə göndərirlər. Şəhərdə böyük dəyişikliklərlə rastlaşan Təmlixa heç bir tanış adam görmür. Çörək alıb pulunu verərkən Dağ Yunusun dövründə zərb edilmiş sikkəni görən çörəkçi onun xəzinə tapdığını güman edir və onu şəhər hakiminin yanına aparır. Təmlixa ilə söhbətlərdən aydın olur ki, onlar mağarada 300 (309) il yatmışlar. Təmlixa şah və adamları ilə birlikdə mağaraya gəlir və yoldaşları qorxmasın deyə özü tək içəri daxil olub əhvalatı yoldaşlarına söyləyir. Bundan sonra onlar qeyb olmaları üçün Allaha yalvarırlar və duaları Allah tərəfindən qəbul olunur. Çox gözlədikdən sonra mağaraya daxil olan şah və adamları onları tapa bilmir və yəqin edirlər ki, həmin adamlar müqəddəs şəxsiyyətlər imişlər.





Həcmcə çox geniş olan bu rəvayət müxtəlif vaxtlarda əhalidən toplanaraq nəşr edilmişdir. Rəvayət ilk dəfə Naxçıvan şəhər məktəbinin müfəttiş-müəllimi K.Nikitin tərəfindən toplanmış və 1882-ci ildə SMOMPK məcmuəsində rus dilində nəşr edilmişdir. Sonralar da bu rəvayət tədqiqatçılar tərəfindən toplanmış, müxtəlif kitab və məcmuələrdə, qəzetlərdə nəşr olunmuş, müəyyən fikirlər söylənmişdir.

**Hacı Fəttah Səmədoğlu və fotoqraf Hüseyn Hüseynzadə** "Əshabi- Kəhf" haqqında nəfis şəkildə rəngli buklet nəşr etdirmişlər.

"Əshabi- Kəhf" haqqındakı rəvayət barədə geniş məlumat almaq üçün qeyd olunan bu nəşrlərlə yanaşı digər ədəbiyyatlardan da bəhrələnmək olar. "Şərq qapısı" qəzetinin səhifələ-

rində nəşr olunan məqalələrdə bu abidə haqqında bəhs edilmiş, müəyyən fikirlər söylənilmişdir.

Abidənin girişi cənub-şərq tərəfindədir. Burada ziyarət edilən bir neçə yer mövcuddur. Girişə bir az qalmış, təpə üzərində qəbir vardır. Rəvayətə görə bu qəbir Dağ Yunusun zülmündən qaçan adamlara qoşulmuş çobanın itinin qəbiridir.

Mağaranın girişindən bir az içəridə, sol tərəfdə, el arasında "yeddi kimsənə" adlanan yer vardır. Rəvayətə görə Dağ Yunusun zülmündən qaçan adamlar yeddi nəfər olmuşlar və burada "yeddi kimsənə" adlanan yerdə qeybə çəkilmişlər.

Həmin adamların sayı haqqında müxtəlif fikirlər vardır. Bu haqda ən samballı məlumata "Qurani- Kərim"də rast gəlirik. XVIII surənin 22-ci ayəsində bu haqda belə deyilir: ("Kitab əhlindən "Əshabi- Kəhf"in sayı barəsində mübahisə edənlər") sanki qaranlıq yerə daş ataraq: "Onlar üçdür, dördüncüsü köpəkləridir",-deyəcəklər. Bəziləri: "Onlar beşdir, altıncısı köpəkləridir" -deyəcəklər. Digərləri (mö'minlər) isə "Onlar yeddidir, səkkizincisi köpəkləridir!"-söyləyəcəklər. (Ya Məhəmməd!) De ki, "Onların sayını Rəbbim daha yaxşı bilir. (Insanlardan isə) bunu bilən çox azdır!" ("Ya Rəsulum") "Əshabi-Kəhf" barəsində yalnız sənə açıq-aşkar nazil olan ayələrə əsaslanıb onlarla mübahisə et (Quranda onlarla kifayətlənib çox dərinə getmə) və (kitab əhlinin) heç birindən onlar haqqında bir şey soruşma!"

"Qurani-Kərim"in verdiyi məlumatdan da göründüyü kimi burada qeybə çəkilən adamların sayını ancaq Allah bilir. Buna baxmayaraq ayrı-ayrı islamşünaslar öz təfsirlərində onların sayını və adlarını müxtəlif cür qeyd edirlər. Həmin adlardan ən məşhurları: Məksəlmina, Təmlixa, Yərtunəs, Saziyunəs, Minunəs, Rəyyan, Kəşittunəs, Tənur. Bəzi müəlliflər və yerli əhalidən yaşlı adamlar isə onların adının Təmlixa, Bərnuş, Sərnuş, Məksilma, Məslina, Sazənuş, Kəftəntuş (çoban) olduğunu söyləyirlər. Onlara qoşulan itin adı Qitmir imiş.

Rəvayətə görə çoban qaçqınlara qoşularkən qırmızı rəngli





bu it də onlara qoşulmuş, nə qədər qovsalar da geri qayıtmamışdır. Nəhayət o, insan kimi danışmış və bildirmişdir ki, o gözətçilik edəcək, onları qoruyacaqdır. Ziyaəddin Nəxşəbi yazır: "Əshabi- Kəhf"in ardınca düşüb getdiyi zaman onlar həmin itə mane olur, onu öz dəstələrindən qovub dala qaytarmaq istəyirdilər. Heyvan isə onlara belə sual vermişdi: "Siz niyə məni özünüzə yaxın qoymursunuz, dəstənizdən uzağa qovursunuz?". Cavabında ona demişdilər: "Ona görə ki, sən bizim cinsdən deyilsən". O heyvan demişdi: "Məhəbbət məzhəbində, sədaqət dinində cins əsas şərt deyil. Əgər onu siz şərt hesab edirsinizsə, siz də bu yoldan geri qayıtmalısınız, çünki o kəsin ki məhəbbətinə görə yola çıxmısınız, o da sizin cinsinizdən deyil". Bundan sonra onlar itə toxunmur və birlikdə gedirlər.

Qeyd edildiyi kimi, itin qəbri mağaranın girişinə az qalmış sol tərəfdə, təpə üzərindədir. Xırda daşlardan ibarət bir qalaq şəkilində olan həmin yer itin qəbri hesab edilir. El arasında həmin yerə itin adı ilə "Qitmir" deyilir.

Qeyd etmək lazımdır ki, bu itin sədaqəti, vəfası və s. cəhətləri çox şöhrətlənməsinə, hətta şərq və şifahi xalq ədəbiyyatına düşməsinə gətirib çıxarmışdır. Məsələn, Şərq ədəbiyyatının görkəmli nümayəndəsi Sədi Şirazi özünün məşhur "Gülüstan" əsərində tərbiyə məsələlərindən bəhs edərkən həmin it haqqında yazır:

**Pislərə yar oldu Lutun arvadı,**
**Ayrıldı peyğəmbər xanədanından.**
**İtisə bir zaman Əshabi- Kəhfin,**
**Yaxşılarla getdi, oldu bir insan.**

"Qurani-Kərim"in xəbər verdiyinə görə (bax: "Əraf" surəsi, ayə 80-84; "Hud" surəsi, ayə 70, 74, 77-83, "Təhrim" surəsi, ayə 10, və s.) Lut peyğəmbərin qövmünə Allah tərəfindən bəla göndərilərkən onun ailəsi xilas edilmiş, ancaq arvadı

peyğəmbərin dinini qəbul etməyərək kafirlərə qoşulduğuna və ərindən üz döndərdiyinə görə məhv olmuşdur. Eyni zamanda onun cəhənnəmə gedəcəyi bildirilmişdir. Dini rəvayətlərə görə axirət dünyasında "Əshabi- Kəhf"in iti Qitmirlə Lut peyğəmbərin arvadının dərisini bir-birilə dəyişdirəcəklər və it insan şəklinə düşəcəkdir.

Şəriət ehkamlarına görə itin murdar hesab edilməsinə baxmayaraq, "Əshabi- Kəhf"in iti müqəddəs hesab edilir, insanla bərabər tutulur. Görkəmli tarixçi və şair Abbasqulu ağa Bakıxanov özünün "Mişkatül-Ənvər" adlı əsərində bu haqda yazır:

**Bir mötəbər mənbədə mən gördüm belə bir xəbər,**
**İt ayağı dəyən yerə qədəm basmaz mələklər.**
**Neçin bəs "it Əshabi- Kəhf" ilə kaha girərək,**
**Dördüncü, ya səkkizinci hesab oldu o köpək?**

"Əshabi- Kəhf"ə ziyarətə gələn zəvvarlar "Qitmir" adlanan yerdə niyyət edir və kiçik bir daş götürüb evlərinə aparırlar. Niyyətləri yerinə yetərsə, yenidən ziyarətə gəlir və həmin daşı qaytarıb yerinə qoyurlar.

"Əshabi- Kəhf"də ən mühüm ziyarət yeri "yeddi kimsənə" adlı yerdir. İri həcmli bütöv sal daşın şərqə baxan üzündə yaranmış oyuqdan (eni təxminən 4 metr, hündürlüyü 2 metr, qərbə doğru dərinliyi 1 metrdən artıq) ibarət olan bu yerdə zəvvarlar namaz qılır, arzu və niyyətlərinin həyata keçib-keçməyəcəyini yoxlamaq məqsədi ilə kiçik daşları qayaya yapışdırmaq üçün vururlar. Əgər daş divara yapışsa niyyətin həyata keçilməsi kimi qəbul edilir.

Ziyarətgah-mağaranın axırında məscid vardır. Məscidin girişində sol tərəfdə qara bir daş vardır. Məscidə daxil olmaq istəyənlər əvvəlcə həmin daşı öpür, ziyarət edir və yanına nəzir qoyurlar.

Məsciddə zəvvarlar namaz qılır, dua edirlər. "Qurani-Kərim"in verdiyi mə'lumata görə məscidin əsası qaçqın adamlar





qeybə çəkiləndən sonra qoyulmuşdur. Bu haqda "Qurani-Kərim"də oxuyuruq: "...O zaman (Tarsusdakı mö'minlər və kafirlər) öz aralarında onların ("Əshabi- Kəhfə"in) işi (və ya insanların öləndən sonra dirilib-dirilməyəcəyi, dirilmənin yalnız ruhla, yaxud ruh və bədənlə birlikdə olacağı kimi dini məsələlər) barəsində mübahisə edirdilər. (Nəhayət, "Əshabi- Kəhf" öldükdən sonra kafirlər) dedilər: "Onların üstündə bir bina tikin. Rəbbi (onların öldüyünü, yaxud yenidən yuxuya getdiyini və nəyə etiqad etdiyini) daha yaxşı bilir!" "Əshabi- Kəhf" haqqında mübahisədə qalib gələnlər (mö'minlər) isə: "Onların (məzarı) üstündə (Allaha ibadət məqsədilə) bir məscid tikəcəyik!"-dedilər".

Orada tikilən məscid zaman keçdikcə uçub-dağılmış, sonralar daşlar üst-üstə yığılaraq divar düzəldilmiş və ibadət etmək üçün ayrılan sahə (təxminən 50 m) ətrafdan təcrid olunmuşdur. Hazırda divar kərpiclə yenidən hörülmüşdür.

Məsciddə müsəlman epiqrafiyasına aid bir neçə kitabə vardır. Qeyd etmək lazımdır ki, "Əshabi- Kəhf" ziyarətgahı kiçik tədqiqatlar nəzərə alınmazsa, dövrün tələblərinə uyğun olaraq tədqiqatçıların diqqətindən kənarda qalmışdır. Burada indiyədək digər sahələrdə olduğu kimi, epiqrafik tədqiqatlar da aparılmamışdır.

Məscidin cənub tərəfindəki qayada mehrab düzəldilmişdir. Qıraqları gəclə və digər materiallarla işlənmiş mehrabın orta hissəsində-çuxurda böyük həcmli bir kitabə yerləşdirilmişdir. Sarımtıl rəngli mərmər lövhə üzərində nəstəliq xətti ilə həkk edilmiş bü kitabə gözəl sənət nümunəsidir. Nəfis ornament və naxışlarla bəzədilmiş abidə onu hazırlayan ustanın incə zövqündən və yüksək sənətkarlığından xəbər verir.

Təəssüf ki, illər keçdikcə ziyarətə gələn adamların əllərini toxundurması, öpməsi və s. nəticəsində yazıların bir hissəsi sürtülərək yeyilmiş və oxunuşu çətinləşmişdir. Həmçinin orada yandırılan şamların və pambıq piltələrin hisi zaman keçdikcə öz işini görmüş, hərflərarası boşluqları doldurmuş və ki-

tabəni korlamışdır. Bütün bu səbəblərdən kitabənin tam oxunuşu mümkün olmamışdır.

Ölçüsü 145x35 sm olan mərmər lövhənin səthinin kənarlarında lentvari haşiyə şəklində kitabə həkk edilmişdir. Mərkəzdə, 15 ədəd çərçivə içərisində nəfis şəkildə həkk edilmiş kitabənin mətni "Qurani-Kərim"in "Əl-Kəhf" surəsindən götrülmüş 9,10,11,12,17 və 18-ci ayələrdən ibarətdir. Tərcüməsi belədir: 9. (Ya Məhəmməd!) Yoxsa "Əshabi- Kəhf"in və Rəqimin (mağara və Rəqim əhlinin) ayələrimizdən əcayib bir şey olduğunu güman edirsən? (Xeyr, bu bizim qüdrətimiz qarşısında adi bir işdir!) 10. (Ya Məhəmməd!) Xatırla ki, o zaman gənclər mağaraya sığınıb: "Ey Rəbbimiz! Bizə öz dərgahından mərhəmət bəxş et və işimizə fərəc ver!" (Bizi kafirlərin bəlasından, düşmənlərin təhlükəsindən qoru, bizə ruzi verib yola yönəlt!")-demişdilər. 11. Biz onları mağarada illərlə (üç yüz doqquz il) yuxuya verdik. 12. Sonra iki tayfadan (möminlərdən və kafirlərdən) hansının onların (mağarada) qaldıqları müddəti daha düzgün hesabladıqlarını bilmək üçün onları oyatdıq... 17. (Ya Məhəmməd, Əgər o zaman onlara baxsaydın günəşin doğduğunu, onların mağarasının sağ tərəfinə meyl etdiyini, batdığı zaman isə onları tərk edib sol tərəfə yönəldiyini (mağaranın içinə düşüb onları yandırmadığını), onların da mağaranın ortasında geniş bir yerdə olduqlarını (küləyin onları oxşadığını və rahat nəfəs aldıqlarını) görərdin. Bu, Allahın mö'cüzələrindəndir. Allahın doğru yola saldığı kəs doğru yoldadır. Allahın yoldan çıxartdığı şəxs isə əsla doğru yol göstərən bir rəhbər tapa bilməzsən! 18. (Gözləri açıq olduğu üçün) onlar yuxuda ikən sən onları oyaq sanardın. (Torpağın rütubəti bədənlərini çürütməsin deyə) Biz onları sağa, sola çevirirdik. Onların iti də iki əlini(qabaq pəncələrini) mağaranın astanasına uzadıb yatmışdı. Əgər sən onları (bu vəziyyətdə) görsəydin, yəqin ki, səni dəhşət bürüyər və (qorxudan) dönüb qaçardın."

Mağarada gizlənən gənclərin nə qədər yatması məsələsində tədqiqatçıların fikirləri müxtəlifdir. Bəziləri onların 309 il yatdığını, digərləri isə miladi ilə 300, Hicri-qəməri təqvimlə 309 il yatdığını qeyd edirlər.







"Qurani-Kərim"də bu barədə belə bir ayə vardır: "Onlar mağarada üç yüz doqquz il qaldılar. (üç yüz il qaldılar, üstünə bir doqquz il də əlavə olundu). ("Ya Məhəmməd!") De ki: "Onların nə qədər qaldıqlarını Allah daha yaxşı bilir".

Mərmər lövhənin kənarlarında sağ tərəfdə başadək ensiz haşiyə şəklində başqa bir kitabə həkk edilmişdir. Kitabənin axır hissəsini oxumaq hələlik mümkün olmamışdır. Kitabənin salamat qalan hissəsində qeyd olunur ki, qar, yağış səbəbindən yazılmış xəttlər məhv olmuşdu. Ona görə də bu əzəmətli məkanın taleyi barəsində adı çəkilmiş ölkənin (Naxçıvan-S.F.) keçmiş hakimi, mərhəmətli və bağışlayan (Allaha) sığınmış **Heydərqulu xanın oğlu, Naxçıvan ölkəsinin hakimi Şükurulla xan Kəngərli** qərar verərək buyurdu ki, həmin lövhənin üzünü təzədən, səhvsiz, ayrı bir daşa yazdırsınlar və yadigar olaraq əvvəlki lövhənin yerinə nəsib etsinlər.

Kitabədən aydın olur ki, hazırda mövcud olan mərmər kitabənin yerində "Qurani-Kərim"in qeyd olunan ayələri həkk olunmuş kitabə var imiş. Ancaq zaman keçdikcə təbii qüvvələrin tə'sirindən həmin kitabə məhv olmuş, ona görə də onun mətni olduğu kimi indi mehrabda olan lövhəyə həkk edilmiş və köhnə kitabənin yerinə qoyulmuşdur. Həmin vaxt bu xeyirxah göstərişi verən adamın adı da orada, kitabənin kənar haşiyələrində qeyd edilmişdir. Abidənin sol tərəfi daha çox aşındığından həmin hissədə həkk olunan kitabə də tam oxunmamışdır. Kitabənin sonunda onun həkk edildiyi tarix yazılmışdır: 1109.

Hicri-qəməri təqvimlə 1109-cu il miladi tarixlə 1697-ci ilə müvafiqdir.

Kitabədə adı qeyd edilən Heydərqulu xan Naxçıvan ərazisində qədim zamanlarda məskun olan Kəngərli tayfasının başçılarındandır. Kitabəni yenidən yazdırıb mehraba qoyduran Şükürulla xan isə onun oğludur. XVI əsrdən etibarən Naxçıvan torpaqları titul hüququ ilə (müəyyən xidmət müqavilində tayfa başçılarına, sərkərdələrə və s. müvəqqəti verilən torpaq sahələri) Kəngərlidə verildiyindən, eyni zamanda ərazinin idarə edilməsi tayfa başçılarına tapşırıldığından və onlar ərazinin iri feodalları olmaqla bərabər hakimləri hesab olunduğundan kitabədə hər iki şəxsiyyət Naxçıvan ölkəsinin hakimi (atadan sonra oğul) kimi qeyd edilir.

Mehrabın yan tərəflərində üzərində kitabə olan bir neçə başdaşı formalı xatirə abidəsi gəc və sementlə qayaya kəsb edilmişdir. Ancaq onlar çox aşındığından və üstlərində şam, piltə yandırıldığından, kitabələr oxunmaz hala düşmüşdür.

Məscidin şimal tərəfində, təxminən 10 metr yüksəkliyində "Damcıxana" adlı yer vardır. Mağara tipli bu yerdə zəvvarlar müəyyən bir niyyət edib otururlar. Əgər onların niyyəti həyata keçəcəksə başına mağaranın tavanından su damcısı düşür. Suyun düşməməsi niyyətin həyata keçməyəcəyi kimi yozulur.

Xalq inancına görə, "Damcıxana"da daman su damcıları zülmdən qaçan adamların mağaraya girdikləri vaxt girişin ağzında gördükləri bulağın suyudur. Rəvayətə görə onlar yatan müddətdə bulaq möcüzəli şəkildə dağın başına qalxaraq niyyəti həyata keçən zəvvarların başına daman su damcılarına çevrilmişdir.

Qeyd etmək lazımdır ki, "Qurani-Kərim"də və digər ədəbiyyat nümunələrində "Əshabi-Kəhf"in quruluşundan danışılarkən verilən mə'lumatlar Naxçıvan ərazisindəki ziyarətgahla çox oxşardır. Məsələn, "Əl-Kəhf" surəsinin 17-ci ayəsində deyildiyi kimi, Naxçıvan ərazisindəki "Əshabi- Kəhf"də də günəş doğan zaman mağaranın sağ yanından, batan zaman sol yanından düşür. Həmiçinin müqəddəs kitabda deyildiyi kimi onların iti mağaranın qarşısında uzanıb yatmış, qəbri də oradadır.





Orta əsr tarixçisi və coğrafiyaşünası Əbdürrəşid əl-Bakuvinin qeydlərində belə bir fikrə rast gəlirik: "Mağaradan şəhərə qədər bir fərsahlıq yoldur. Mağaranın (ağzı) Böyük Ayı ulduzlarına tərəfdir. Onun içində ölənlərin meyidləri çürümür. Onlar yeddi nəfərdir: altısı arxası üstə yatır, yeddincisi də mağaranın uzaq küncündə arxası mağaranın divarına sağ böyürü üstə söykənib yatır. Onların ayaqlarının altında heç bir yeri zədələnməmiş ölü it yatır. Mağaranın yanında məscid var və buraya gələnlərin duası Allaha çatır. Burada qeyd edilən mə'lumatlar da Naxçıvan ərazisindəki "Əshabi- Kəhf"in əlamətləri ilə təxminən oxşardır.

Son olaraq bir daha qeyd etmək istəyirik ki, Naxçıvandakı "Əshabi- Kəhf" uzun müddət tədqiqatçıların diqqətindən kənarda qalmışdır və onun geniş tədqiqatına böyük ehtiyac vardır. Hazırkı zamanda qarşıda açılan imkanlardan istifadə edərək orada kompleks tədqiqat işləri aparılsa, ziyarətgah haqqında daha samballı elmi fikir söyləmək olar.

***

**Budaq Budaqov, Coğrafiya İnstitutunun direktoru, akademik:**

-"Əshabi-Kəhf" ocağını müqəddəs bir yer, Tanrıya inam mənbəyi kimi, ona ümid bəsləyən, ilahi gücünə inanan insanların ümidgahı kimi tanıyıram."Əshabi- Kəhf"-in adını tutub ona iman gətirənlərin arzu və niyyətlərinin hasil olması bu ocağa etibarın çoxalmasına səbəb olub.

"Əshabi-Kəhf" ulu ocaqlarımızdan biri olmaqla bərabər, həm də coğrafi baxımdan qiymətli təbiət əsəridir. Hələ lap qədimlərdə Nəhəcir, Ilan və Əshabi-Kəhf dağları yerin dərin qatlarındakı odların- vulkanların təsiri ilə yaranıb. Xarici qüvvələrin tə`siri nəticəsində bu dağların üstü yuyulub açılmış və konsvari şəkildə formalaşmışdır. O biri dağlar kimi Əshabi-Kəhf dağı da vaxtı ilə dəniz altında olub.Vulkanların püskür-

məsi nəticəsində konqlomerat qat, ayrı-ayrı müxtəlif tərkibli daşların sementləşməsi nəticəsində dağ yaranıb. Dağın yuxarı hissələrindəki laylara fikir versək suxurlarının sualtı vulkanların püskürməsi nəticəsində yarandığını müşahidə edə bilərik." Əshabi-Kəhf"in üç hissəsini təşkil edən konqlomerat qat ana suxurun üst hissəsini qalxanvari şəkildə örtmüş və onların müəyyən hissəsi göydən asılı vəziyyətdə qalmışdır. Buna da səbəb konqlomerat qatın alt suxurlarının aşınma proseslərinin təsiri nəticəsində yuyulmasıdır. Ona görə də o ərazidə təbii mağara(kaha) yaranmışdır.

Əshabi-Kəhf dağı təbiət abidəsidir. Onun ərazisini xəritələşdirmək, süxurlarını tədqiq etmək, bu məkanı qorumaq hər birimizin və dövlətin borcudur.

**Bəsti Şahbaz qızı İsmayılova:**

-Hər bir insan yaranandan ta axirətədək öz yaradanını unutmamalıdır. Bu baxımdan qədim Naxçıvan elində- "Əshabi-Kəhf"də qeyb olunan kimsələrin taleyi hər birimizə örnəkdir. Gənclərimiz belə müqəddəs övliyaları, ocaqları tanımalı, sevməlidirlər. **Ümummilli liderimiz Heydər Əliyevin** diqqət və qayğısı nəticəsində müsəlman qardaş və bacılarımız illərlə həsrətində qaldıqları arzularına çatmışlar. Bu gün dinimizə yaradılan hərtərəfli şərait üçün Allaha dua etməli, Allahımızı unutmamalıyıq. Axı İslam dini ağsaqqala hörmət, torpağa məhəbbət, ailəyə diqqət və s. kimi məziyyətləri özündə əks etdirir. Yetimə əl tutmaq, əməli-saleh olmaq, pis işlərdən uzaq durmaq hər bir insanın borcudur. Allah bütün iman sahiblərini darda qoymasın.

**Hacı Yusif İsmayılov:**

-"Əshabi-Kəhf"- bu ülvi və ulu bir səcdəgahın ismidir. Bu ismin tarixi haqqında çox bəhs edilmişdir. Ulu Tanrının bizlərə bəxş etdiyi bu müqəddəs ocaq daima qədirbilən, mərhəmətli, öz dininə qırılmaz tellərlə bağlı olan xalqımız tərəfindən həmişə sevilib və inanılıb. Naxçıvan bölgəsində, dağlar qoynunda yerləşən bu inam ocağına gələn insan selinin ardı-arası





kəsilmir. Bu gün elə bir naxçıvanlı tapmaq olmaz ki, o müqəddəs ocağı dəfələrlə ziyarət etməsin. O ocaq hamımızın düzlük və paklıq mücəssəməsidir.

Tarixi ehtimallara görə qayalara söykənib bir neçə əsr yuxuya gedənlər oyandıqdan sonra yeməyə bir şey almaq üçün öz aralarından bir nəfəri şəhərə bazarlıq üçün göndərirlər. Həmin şəxs ərzaq almaq istərkən satıcı onun pulunun çox köhnə olduğunu görüb şübhələnir. Onun ardınca gələn şəxslər dağın arasından onun və yoldaşlarının bir anda qeyb olduğunun şahidi olurlar.

Bu gün haqqında bəhs edilən Əshabi-Kəhf" ocağı azəri xalqının bu torpaqda neçə min illər də öncə yaşamasından xəbər verir.

**Allahverdi Rəşid oğlu Həsənov (Süleyman bəyin nəvəsi):**

-Doğulduğum, boya-başa çatdığım Naxçıvan diyarında elmi dinə, müqəddəs sayılan ocaq və pirlərimizə xalqımız tərəfindən tükənməz hörmət var. Belə sayılıb inanılan, paklıq və düzlük mücəmməsi "Əshabi-Kəhf" ocağıdır. Tarixi ta qədimlərə gedib çıxan bu ocaq haqqında bir sıra müqəddəs kitablarda, ayrı-ayrı alimlərin elmi əsərlərində mə`lumat verilib. Bir naxçıvanlı kimi qeyd edə bilərəm ki, bu ocağı özüm dəfələrlə ziyarət etmişəm. Niyyət edib arzuma çatmışam. Xalqımızın tarixi varlığını bizlərə əxs etdirən ocaqlarımıza, pirlərimizə, digər tarixi abidələrimizə sonsuz məhəbbət hər birimizin müqəddəs borcudur. Bu ocaq haqqında söhbət açanda adam sözün kasadlığından, elmin gücsüzlüyündən gileylənmək istəyir. O müqəddəs diyar haqqında adi sözlərlə danışmaq çox çətindir. Bu gün xeyirxahlıq və xeyriyyəçilik bir kökdən qidalanan söz budaqlarıdır. Belə müqəddəs yerlər haqqında geniş bilgilər vermək, gələcək nəsilə bu ocağı tanıtmaq üçün biz, o cümlədən imkanlı şəxslər əlimizdən gələnləri əsirgəməməliyik. Əgər bu gün biz belə müqəddəs ocaq və pirl ərimiz haqqında sorulan sorğulara biganəlik donu geyindirsək, bizi nə gələ-

cək nəsil, nə də ki, tarix bağışlayacaq. Belə bir təşəbbüsü qaldıranlara imkanımız daxilində öz köməkliyimizi əsirgəməməliyik. Axı bu müqəddəs diyarların sakinləri daim bir-birinə arxa olmuş, tariximizi, mənşəyimizi bir qarını ac, bir qarını tox qoruyub saxlamışlar. "Əshabi-Kəhf" isə bütün müsəlmanların ən müqəddəs yerlərindən biridir. Onu qorumaq, bu ocaq haqqında bütün müsəlman qardaş və bacılarımıza mə`lumat çatdırmaq hər birimizin borcudur.

**Həsən Hümbətov:**

-Allahın dərgahı böyük, möcüzələri çoxdur. Allah-təala yaratdığı bəndələrini vaxtaşırı sınağa çəkib imtahan edir. O kəslər ki, ağıl və səbr sahibdirlər, onlar həmişə Allah dərgahında üzü ağdırlar. "Yaxşı və pis insanlar" kəlməsi nisbi anlayışdır. Insanlar pis və yaxşı doğulmurlar. Sarışın və ya qarabuğdayı olurlar, sadəcə bu insanlar və ya bir qrup insan xasiyyətinə, ideyasına və həvəsinə görə fərqlənirlər.

Bizim doğma Naxçıvanımızda-"Əshabi-Kəhf"də qeybə çıxmış kimsələr də öz Allahlarına, imanlarına görə başqalarından fərqləniblər. Bu gün yaxın- uzaq ellərin ziyarətgahına çevrilmiş "Əshabi-Kəhf" hələ də öz tədqiqini gözləyir. Tarixin daş möcüzəsidir "Əshabi-Kəhf". Dialektik materilalizmdən də məlum olduğu kimi hələ lap qədim zamanlardan insanlar başa düşə bilmədikləri təbiət hadisələrini əfsanələşdirmişlər. Bəlkə elə "Əshabi-Kəhf"- də qeyb olanların imanı xatirinə Allah-təalanın hökmü ilə hansısa bir dahi sənətkar bu dağları yarmış, müqəddəslərin Allaha sədaqətini gələcək nəsillərə çatdırmaq üçün onların daşdan heykəlini yonmuşdur. Bəlkə də... Axı elə Naxçıvanın neçə-neçə rayonlarında qədim daş dövründən xəbər verən yazı abidələri az deyil. Görəsən Şahbuz rayonunun qayalıqlarındakı başdaşılarının üzərindəki təsvirlər hansı eradan xəbər verir?!

"Qurani-Kərim"dən qabaq Allahını tanımış, onu vahid qəbul etmiş o kimsələrin bəlkə elə Naxçıvanın başqa yerlərində də izləri var?!

Hər halda "Əshabi-Kəhf" Allah-təalanın biz möminlərə





bəxş etdiyi daha bir əyani möcüzədir və bu möcüzə heç kəsdə şəkk doğurmur.

**Hacı Nərgiz Rüstəmli, "Respublika" qəzetinin baş redaktor müavini:**

-"Əshabi-Kəhf" ocağı hamımızın and yeridir. Bu ocaq həmişə inanılır. Uzaq səfərlərə gedənlərin, nəzir-niyaz sahiblərinin, niyyət edənlərin ziyarət yeridir. "O kəslər üçün ağlayıb göz yaşları tökmək lazımdır ki, onlar müqəddəsdirlər. Onların duasını Allah-təala eşidir. Bu düalara görə yer üzünü bəlalardan hifz edir. "Qurani-Kərim"in "Yunis" surəsinin 12 -ci ayəsində yazılıb ki, "Bir sıxıntı üz verəndə insana böyrü üstə, uzana-uzana, otura-otura, ayaq üstə dura-dura bizə dua eləyər. Onun sıxıntısına biz son qoyanda isə özünü elə aparır ki, sanki ona üz vermiş sıxıntıya görə bizə dua etməmiş. Həddini aşanlara beləcə bərbəzəkli görünmüşdü gördüyü iş." Adam gərək həmişə dininə, şəriətinə riayət etsin. Insani keyfiyyyətlərini heç vaxt unutmasın. Əziz və müqəddəs ocaqlarımızın daim hörmətini saxlamaq hər birimizin müqəddəs borcudur.

**Yusif Qafar oğlu Qədimbəyli, Məşədi Məhəmmədin nəvəsi:**

-"Əshabi-Kəhf" deyəndə gözlərim önündə müsəlmanların müqəddəs kitabı-"Quran" canlanır. Bu kitabın "Əl-Kəhf" surəsində xalqımızın müqəddəs ocağı olan "Əshabi-Kəhf" haqqında ətraflı məlumat verilib. Hər bir xalqın özünə xas sitayiş obyektləri mövcuddur. Naxçıvan Muxtar Respublikasında yerləşən bu ocaq isə bizə tarixi yaddaşlardan bir ərmağandır. Bu ocağın izlərindən məlum olur ki, Azəri xalqı daha qədim tarixi köklərə məxsusdur. Xalqımız hətta ibtidai icma quruluşu dövründən barlı- bərəkətli torpaqların sahibləri olublar. Dünyaya göz açandan bu ocağın sirli-sehirli möcüzələri haqqında çox eşidib və şahidi olmuşam. Dağdakı mağaranın içərisində "Damcıxana"deyilən yer var. Həmin guşədə əyləşən şəxs ürəyində hansısa bir ülvi arzunun həyata keçməsini niyyət edib

əyləşir. Haradan gəldiyi hələ də bir sirr olan damcı həmin şəxsin başına düşərsə, deməli, onun arzusu həyata keçəcəkdir. Bu ocaq, onun tarixi barədə bir çox alim və mütəxəssislər elmi- tədqiqat işləri görmüş, araşdırmalar aparmışlar. Amma bütün bunlar bu ocaq haqqında dəryada bir damlaya bənzər. Belə bir müqəddəs məkan gələcəkdə öz tədqiqatçılarını, alimlərini gözləyir. Neçə-neçə elmi işlərin sirri-sorağı yatır bu dağlar qoynunda.

**Nizami Dünyamalıyev, Şahbuz rayonu, Keçili kənd sakini:**

-Keçili kəndi son dərəcə dindar kənddir. Elə ona görə də kənd əhli o vaxt sürgün edilib. Nəslimiz Naxçıvanda məşhur **Kəlba Yəhyanın** nəslindəndir. Dayım Isa dini savadına görə dövrünün ən bilikli din xadimlərindən idi. **Atam Xəlil kişini, dayım Isanı** nəinki Naxçıvanda, hətta yaxın-uzaq bölgələrdə də el ağsaqqalları, din xadimləri kimi tanıyır, hörmət və izzətini saxlayırdılar. Yaxşı yadımdadır, hələ sovet hökumətinin tuthatut vaxtlarında atam hər il Məhərrəm ayında xəlvətcə, kənddən kənarda şəbeh keçirər, imamlarımızın yolunu saxlayar, qadağa qoyulmasına baxmayaraq, müqəddəs "Əshabi-Kəhf"i ziyarət edərdi.

Kəndimiz dağlıq yerdə yerləşir. Mən uşaq olarkən tez-tez öz heyvanlarımızı dağa otarmağa aparardım. Günlərin bir günü dağdan sürüşdüm. Yerə yıxılıb Şor çayına düşdüm. Çayın kənarında paltar yuyan bir qadın çaydan qan gəldiyini, mənim isə yaralı halda suda çapaladığımı görüb hay salır. Vəziyyətim son dərəcə ağır idi. Başım paralanmışdı. Bunu görən həkim başımın yarığına tikiş belə qoymağı, xəstəxanada qalmağımı valideynlərimə məsləhət bilmir. Çünki həkim öləcəyimi zənn edirdi. Valideynlərim, nənəm **Qızbəsti** əlini göyə qaldırıb Allaha yalvarırlar ki, mənə rəhm eləsin. Onlar mən sağ qalsam on iki il "Əshabi-Kəhf"də qurban kəsəcəklərini niyyət edirlər.

Belə də oldu. Allah-təalanın mənə rəhmi gəldi. Düz doqquz il "Əshabi-Kəhf"də qurban kəsdik. Tale elə gətirdi ki,





mən Rusiyada yaşamalı oldum. Firma yaratdım, maddi imkan sahibi oldum, lakin "Əshabi-Kəhf"ə üç qurban borclu qaldığım heç vaxt yadımdan çıxmırdı. Düz iyirmi ildən sonra doğma vətənimə qayıtdım. Artıq valideynlərim rəhmətə getmişdi. Gələn kimi "Əshabi-Kəhf"də 10-cu qurbanımı kəsdim. Qurban kəsərkən bir şeyin şahidi oldum: Burada zəvvarların rahat ziyarət etmələri üçün heç bir şərait yoxdur. "Əshabi-Kəhf"ə borclu olduğum üçün bu borcu xeyirxah bir işlə qaytarmaq qərarına gələrək, "Əshabi-Kəhf"də abadlıq işləri görməyi niyyət etdim. Bu təmənnasız məqsədimi həyata keçirmək üçün kənd ağsaqqalları ilə məsləhətləşdim. O vaxtlar Nazirlər Kabinetinin sədri işləyən **Mirismayıl Əliyevə** də fikrimi bildirdim. Hamı bu təşəbbüsümü bəyənib ürəkdən alqışladı.

Yuxarıda qeyd etdiyim kimi, mən Perm vilayətində olarkən bizneslə məşğul olur, güclü kooperativ yaratmışdım. Hesabımda milyonlarla manat vəsait var idi. Həmin hesabdan "Əshabi-Kəhf"in abadlaşması üçün pul keçirmək lazım idi. Ona görə də Nazirlər Kabinetində lazımi sənədləşmə işləri aparmaq, bir növ çöldən-çölə fəaliyyət göstərən "Əshabi-Kəhf"i rəsmi ocaq kimi sənədləşdirmək zərurəti yarandı.

Belə də etdik.

1989-cu il sentyabr ayının əvvəlləri idi. Sənədləşmə işlərini başa çatdırdıqdan sonra fəaliyyətə başladıq. Elə işə birinci gün idi ki, başlamışdıq, ocağa bir dəstə adam gəldi. Dedilər ki, gələn möhtərəm, **dünyada tanınmış ictimai-siyasi xadim Heydər Əliyev idi.** Biz ona yaxınlaşıb ziyarətinin qəbul olmasını diləyərək özüm və görəcəyim işlər barəsində mə`lumat verdim. Xalqımızın böyük oğlu bunu yüksək alqışladı, mənə öz xeyir-duasını verib böyük savab iş olduğunu bildirdi. Belə bir dahi adamın elə ilk gündə işimizin üstünə çıxması, bizə xeyir-dua verməsi, həvəsləndirməsi mənə böyük ruh verdi. Biz rəhmətlik Heydər Əliyevlə çox söhbət etdik. Bu görüş mənim heç vaxt yadımdan çıxmaz.

Bəli, işimizin ilk günü belə uğurlu alındı. Bir çox təşki-

latlarla müqavilələr bağlandı. Permdəki kooperativimin hesabından milyonlarla manat vəsaiti Naxçıvanda açdığımız hesaba köçürtdüm. Rusiyadan üç yük maşınımı "Əshabi-Kəhf"ə gətirtdim. İşlər vüsət alırdı. Hətta o vaxtlar respublika televiziyasının "Günün ekranı" xəbərlər proqramında bizim gördüyümüz işlər barəsində tamaşaçılara geniş mə`lumat da verildi. Yollar artıq düzəlmiş, qrabil və şebel döşənmişdi. Permdən xüsusi olaraq kərpiclər gətirtdirib pilləkənləri döşətdirdik. Zəvvarların dincəlməsi, ziyarət etməsi üçün qonaq otaqları tikildi. Lakin müəyyən səbəblərdən işləri tamamlaya bilmədik.

Sonralar eşitdim ki, bizim yarımçıq qalmış işlərimizin davam etdirilməsi üçün **Ali Məclisin sədri Vasif Talıbovun** böyük köməyi olub. Mən buna görə də ona, "Əshabi-Kəhf"in abadlaşdırılmasında zəhməti olan bütün eloğullarıma öz dərin minnətdarlığımı bildirirəm.

**Kəmaləddin Həsənov:**

- Minilliklərin süzgəcindən keçib gələn, dünənimizi bu günümüzə körpü kimi bağlayan ocaqlarımız, pirlərimiz həmişə düzlük, halallıq, paklıq mücəssəməsi olmuşdur. Diyarımızın elə bir guşəsi yoxdur ki, o yerlərdə bizlərin iman, inam yeri olan pirlər, məscidlər, ocaqlar olmasın.

Dünyanın naxışı, bəzəyi olan Naxçıvan diyarında bir ocaq var - "Əshabi-Kəhf"! Bu ocağın sirri dünyanın sirridir. İnsanın mif dünyası ilə real dünyanın vəhdəti haqqında ən müqəddəs varlıqdır "Əshabi-Kəhf"! Ana təbiət onu yapıb ki, insan dünyası ilə yanaşı yaşayan canlı aləmin birgəliyini, bağlılığını əbədiləşdirsin.

Azıx, Qobustan kimi, "Əshabi-Kəhf"də dünyanın bizə bəxş etdiyi bilməcədir. Əsrlərdən bəri vüqarla bizə boylanan, uca dağların qoynunda yerləşən bu müqəddəs ocağa hər gün yüzlərlə insan ziyarətə gəlir. Uzaq səfərə çıxanlar, işləri müşkülə düşənlər bu müqəddəs yerə gəlib niyyət edirlər. Bu yerdən ayrılıb gedən hər kəs buradan heç nə ilə əvəz oluna bilməyən bir sərvət aparır. Həmin şəxslərdə gələcəyə sonsuz





ümid yaranır. Bircə dəfə bu müqəddəs yeri görən şəxs könül pəncərəsini insanlığa məhəbbətlə açır, qəlbinə nifrətlərin yolunu əbədi bağlayır. Dünyaya gözümü açan gündən dağlar qoynunda yerləşən "Əshabi-Kəhf" haqqında çox eşitmişəm. Dəfələrlə o dağlara qalxıb o müqəddəs ocağı ziyarət etmişəm.

Yaxşı yadımdadır, o vaxtlar hələ mən çox gənc idim. Din hər yerdə yasaq edilmişdi. Amma bütün bunlara baxmayaraq, bu müqəddəs yerə qəlbində məhəbbət bəsləyən insanlar tez-tez gələr, niyyətlərinin hasil olması üçün Allah-təaladan təvəqqe edərdilər. Çox şükürlər olsun ki, totalitar sovet rejimi süquta uğradı. Din dövlətdən ayrılıb, azad surətdə fəaliyyət göstərir. Müqəddəs ocaqlarımız, pirlərimiz, Allah evi olan məscidlərimiz xalqın istifadəsinə verildi. Bu gün də "Əshabi-Kəhf" ocağı bütün naxçıvanlıların and yeridir.

**Qəzənfər Məhərrəm oğlu Novruzov:**

- Kasıb-kusuba əl tutmaq hər bir müsəlmanın borcudur. Peyğəmbər əleyhissəlam da buyurur ki, "Kasıbı doyuzdur, fağırın başına sığal çək." Bu gün çox şadam ki, yüzlərlə imkansız insana bir parça çörək verə bilirəm. Buna görə də Allahıma, yeri-göyü yaradana minnətdaram.

Orta məktəbin sonuncu ili idi. Bir gün elə bil ki, mənə vəhy gəldi. O sirli ocağa - "Əshabi-Kəhf"ə ziyarətə getdim. Öz dərdimi Allah-təala ilə bölüşdüm. Mənə yol göstərməsini dilədim. Niyyətimin hasil olub-olmayacağını öyrənmək məqsədi ilə "Damcıxana"da oturdum. Çiynimə o müqəddəs sudan düşdü. O gündən elə bil Allah-təala mənə güc verdi. Instituta girdim, ev-eşik sahibi oldum. Şükür Allahın dərgahına, bu gün hər şeyim var.

Allah hamıya da qismət eləsin!

Bu gün də mən "Əshabi-Kəhf"ə tez-tez ziyarət edir, qurbanlar kəsirəm. Həqiqətən də "Əshabi-Kəhf" müqəddəs ocaq, müqəddəs məkan, xalqımızın işıq yoludur. Orada qeyb olanlara və dünyasını dəyişmiş bütün müqəddəslərimizə Allah rəhmət eləsin.

**Mahirə Nağıyeva, Abşeron rayon Mehdiabad qəsəbə 1 saylı orta məktəbin dil-ədəbiyyat müəlliməsi:**

- Elə də böyük olmayan bir yazıya başlamaqda niyə belə tərəddüdlüyəm, bilmirəm?! Ürəyimdə deyilməli o qədər sözlərim var ki!

Ümumiyyətlə, bu cür pak, müqəddəs, möcüzəli bir məkan haqqında danışmaqla nəyinsə izahına nail olmaq mümkündürmü?

Açıq- aydın və hakim kitabın- "Quran"ın özündə deyilir:

*"(Ya Məhəmməd) de: əgər Rəbbimin sözlərini yazmaq üçün dərya mürəkkəb olsaydı və bir o qədər də ona əlavə etsəydik, yenə də Rəbbimin sözləri tükənməzdən əvvəl onlar tükənərdi!"*

***"Əl-Kəhf" surəsi, 109-cu** ayə.*

Bütün varlıqlardan adil, hər şeyə qadir ulu Yaradanla bizim aramızdakı əlaqənin əyani sübutu olan Quranın on səkkizinci surəsi "Əl-Kəhf", yəni "Mağara sahibləri" surəsidir. Bu surədə aydınlaşdırılır ki, bir olan Allaha etiqad etdiklərinə görə üç, beş, ola bilsin ki, yeddi gənc təqib olunur və təqibdən qaçıb uzaqlaşmaq üçün bir mağaraya pənah gətirirlər. Təbii ki, Allahın izni ilə onlar 300 və ya 309 il yuxuya gedirlər. Yatanlar oyandıqdan sonra onlardan biri cibindəki, 309 il bundan əvvəl zərb edilmiş dəmir pulla şəhərə yollanır ki, çörək alsın. Bu köhnə pulu görən şəhər əhli onun dalınca düşür. Həmin gənc özünü bir təhər yoldaşlarına çatdırır. Elə ordaca öz itləri ilə birlikdə məhz insanların gözü qarşısında qeyb olurlar. Tarix özü bu hadisənin yaşını daha dəqiq bilir. Lakin söylənilən rəvayətlərə, bəzi tarixi mənbələrə görə bu əhvalat təxminən 2300 il bundan əvvəl baş vermişdir. Deməli, müqəddəs Quranda öz əksini tapan, tək olan Allaha itaət və ibadət məsələsinin kökləri daha qədim dövrlərə gedib çıxır. Əqidə birliyi, iradə dözümlülüyü simvoluna çevrilən bu gənclərin qeybə çəkildiyi yer-"Əshabi-Kəhf" Naxçıvan torpağındadır. Qədim





Naxçıvan şəhərinin 30 kilometrliyində yerləşən bu müqəddəs, sirli-sehrli məkana hər gün axın-axın insan seli gəlməkdədir. Gəlirlər ki, hansısa bir möcüzəli qüvvənin sayəsində əqidə uğrunda mübarizə aparmağın Allah hüzurunda da yüksək qiymətləndirildiyini görsünlər. Bu müqəddəs yeri ziyarət edənlər daxilən paklanır, qurur hissi keçirirlər. Ərəb-fars dillərinin bilicisi, şərq ədəbiyyatına dərindən bələd olan el ağsaqqalı babam **İbrahim Mirzəlioğlu** oxuduqlarına əsaslanıb deyərdi: "Yeddi dəfə hər il cümə günü "Əshabi-Kəhf"i ziyarət etmək Həcc ziyarəti savabındadır. Odur ki, bu yeri ziyarət etmək bütün müsəlmanlar üçün savab işdir".

Yenə də müqəddəs Quran ayələrindən nümunəyə nəzər salaq:

*"Və heç bir şey barəsində- Mən onu sabah edəcəyəm,- demə!"*

***"Əl-Kəhf" surəsi, 23-cü ayə.***

Daha bundan artıq heç bir dəlil-sübut ola bilməz. Tanrı kəlamlarında da deyilir ki, qarşına qoyduğun məqsədə elə bu gün nail olmağa can at! Istər ziyarət olsun, istər ziyarətgahın abadlaşdırılması...

Dəfələrlə "Əshabi-Kəhf"i ziyarət etmişəm. Hər dəfə də Allahın adilliyi, aqilliyi zəvvar kimi qəlbimə hakim olur, özümdə bir qürur duyur, Tanrı qarşısındakı borcumu dərindən hiss edirəm. Bu lal qayalarda, ecazkar Quran səsində nələr var, Ilahi!

Axırıncı dəfə "Əshabi-Kəhf"i ziyarət edəndə sanki sehrlənmişdim. Danışmağa cürətim, vəsf etməyə qüdrətim yox idi. Qayalarda əks-səda verən azan səsi məni əlçatmaz səmanın maviənginliklərinə aparırdı. Mənə elə gəlirdi ki, bu qocaman dağlar Allah kəlamlarını dinlədikcə başlarını daha qürurla dik tutur, göylərə baş çəkirdilər. Hərdən də "Əshabi-Kəhf"in abadlaşdırılmasında rolu olanlara "Allah köməyiniz olsun!"- deyirdim. "Allahu Əkbər", "Allahu Əkbər" deyirdim və astaca ürəyimdən keçənlər şerə çevrilirdi:

## DAĞ "ƏSHABİ-KƏHF"

Yazmasam, ürəyim sökülər gedər,
Yazsam, dərd sinəmdən tökülər gedər.
Zəvvarın on dördü diz üstə gələr,
Dağların qoynunda dağ "Əshabi-Kəhf".

Gəlib ziyarətə dərdli bacılar,
Zəvvarın olanlar gül tək açılar,
Nahad-Dan ulduzu parlar, saçılar,
Dağların qoynunda dağ "Əshabi-Kəhf".

Ay Vəli, ay Natiq pir köməyiniz,
Gözlərdən oxunur qəm yeməyiniz,
İlahi əmrinə nə deməyimiz,
Dağların qoynunda dağ "Əshabi-Kəhf".

Nailə, Nahidə, İlhamə, İlqar,
Xalidə, Validə, Həmidlə, Vüqar,
Baş qoyar önündə, səcdəndə durar,
Ayeyi-Quranda var "Əshabi-Kəhf".

Qayalar dillənər Quran səsindən,
Dağlar qürurlanar azan səsindən,
Zəvvar olanların hər bir kəsindən,
Nicat əsirgəməz dağ "Əshabi-Kəhf".

Ulu ustadlarım qələm götürə,
Tərifini bir-birinə ötürə,
İki min üç yüz il tarix gətirə,
Dağlardan qocaman dağ "Əshabi-Kəhf".





## QİYAMƏTDİ

Düşdüm gözəl bir məclisə,
Gördüm vallah qiyamətdi.
Qulaq verdim hər bir səsə,
Gördüm vallah qiyamətdi.

Qurban dedim Əshab-Kəhfə,
Yol verdiyim hər bir səhvə,
Dedim bəlkə edim tövbə,
Gördüm vallah qiyamətdi.

Qiyamətdi burda vallah,
Bir də gələm inşallah,
Qohum-qardaş mənə sirdaş,
Köməyim ol qadir Allah.

Yaratdığım möcüzədi,
Möcüzənə qurban olum,
Qeyb olana, iz qoyana,
Damcıxana möcüzədi.
Möcüzənə qurban olum.

Şübhə yeri qalmayıbdır,
Xalidədən, Validədən.
Nailədən xəbər alın,
Sehrləyib Quran səsi,
Ziyarətdə olan kəsi.

Elə bil ki, təzələnir könlüm evi,
Paklanırıq hamılıqla.
İnan, mənə ziyarətdi,
Aman Allah, ziyarətim qiyamətdi.

Lal qayalar aralanıb,
Sanki anam qucaq açıb.
Ana haqqı, Tanrı haqqı,
Aman Tanrım möcüzənə,

Hər qeybinə, qaibinə.
Hər zəvvarın, mən kənizin,
Qurban olum, ziyarətdi.
Aman Allah, qiyamətdi.

## ƏSHABİ-KƏHF

Müsəlmanın səcdəgahı,
Mömünlərin sən dərgahı,
Zəvvarların qərargahı,
Əshabi-kəhf, Əshabi-kəhf.

Səcdənə gəlir hər bir kəs,
Hər bir eldən düzülür dəsd,
Din ocağım, ağırnəfəs
Əshabi-kəhf, Əshabi-kəhf.

Şəfa tapıb neçə insan,
Hər gün səndə olur qurban,
Kitabındır böyük Qur'an,
Əshabi-kəhf, Əshabi-kəhf.

Qədim Naxçıvan elində,
Olmusan xalqın dilində,
Yet dadına dar günündə,
Əshabi-kəhf, Əshabi-kəhf.

Dağın-daşın dumanısan,
Xəstələrin gümanısan,
Sən Sözlünün imanısan
Əshabi-kəhf, Əshabi-kəhf.

**Hüseyn Sözlü**





**Qalib Mənsur oğlu Məmmədov:**

-Həyatda tutduğu mövqeyindən, mənsəbindən asılı olmayaraq, hər bir insan övladı Allahını, peyğəmbərlərini tanımalı, onlara ürəyinin ən dərin guşələrində məhəbbət bəsləməlidir. Allah-təala hər birimizin ömür yolunu bir cürə yazıb. Həyatın çətin anlarını da, xoş günlərini də bizə onun qismət etdiyini unutmamalıyıq.

Mənim iş fəaliyyətim qaçqın və məcburi köçgünlərlə bağlıdır. Hər gün yüzlərlə insanla ünsiyyətdə olur, onların dərdsəri ilə məşğul oluram. Çalışıram ki, az da olsa, onların qırıq qəlblərini sevindirim, dərdlərinə şərik olum. Hər dəfə Naxçıvana, "Əshabi-Kəhf"ə yolum düşəndə öz şəxsi niyyətimlə bərabər, onların da yalvarışlarının Allah-təalaya çatmasını diləyirəm. Inşallah, o müqəddəs məkan, o böyük Varlıq tezliklə hamını öz arzu-istəyinə çatdıracaq. Çünki "Qurani-Kərim"də buyrulub ki," o kəslər ki, gəliblər imana və haqsızlıq qoymayıblar imanlarına, arxayınlıqdadır onlar. Doğru yoldadır onlar".

**Hüseyn Səfərov:**

-"Əshabi-Kəhf" müsəlmanların ən çətin günlərdə, həyatında dara düşəndə güman gətirdiyi, ibadət etdiyi müqəddəs bir ocaqdır. Bura nəinki Azərbaycandan, eləcə də yaxın-uzaq ölkələrdən zəvvarlar gəlirlər. Şəxsən mən özüm və ailə üzvlərim oranı dəfələrlə ziyarət etmiş, nə niyyət diləmişiksə arzumuza çatmışıq."Əshabi-Kəhf"i ziyarət edən hər bir kəs özündə qeyri-adi bir yüngüllük, paklıq hiss edir. Insan var ki, ayrı vaxt həyatın gəldi-gedər olduğunu dərk etmir. Amma bircə dəfə oranı ziyarət edən hər bir kəsin ürəyində bir Allah eşqi alovlanır. Mən hər dəfə "Əshabi-Kəhf"i ziyarət edərkən "Damcıxana"da oturmuş, ailəm üçün ürəyimdə bir niyyət, bir dilək tutmuşam. Qızlarım sənədlərini ali məktəbə verəndə ailə üzvlərimlə ocağa gedib, ziyarət etdik. Çoxlarına qismət olmayan damcı mənim də nəsibim oldu. Indi qızlarım ali məktəbin tələbəsidirlər. Onu da qeyd edim ki, mən təkcə "Əshabi-

Kəhf"i deyil, digər müqəddəs ocaq və pirlərimizi də tez-tez ziyarət edirəm. Şüvəlandakı Mir Mövsüm ağa, Nardarandakı Rəhimə xanım, Buzovnadakı "Əli ayağı" ocaqlarını və digər müqəddəs yerləri dəfələrlə ziyarət etmiş və edirəm. Sevindirici haldır ki, getdiyim bütün müqəddəs ocaq və pirlərimiz hörmətli, mərhum **prezidentimiz Heydər Əliyevin** qayğısı və Allahın buyruğu ilə abadlaşdırılmışdır. Naxçıvandakı ocaq da **Ali Məclisin sədri Vasif Talıbovun** və digər xeyriyyəçi insanların hesabına bərpa olunmuş, zəvvarlar üçün hər cür şərait yaradılmışdır.

"Əshabi-Kəhf" hər birimizin iman, səcdəgah yeridir. Onun tarixini öyrənmək və gənclərimizə təbliğ etmək hər birimizin borcudur.

**Natiq Əlişirin oğlu Nağıyev:**

- "Qurani-Kərim"də adı çəkilən bir müqəddəs məkanın bizim eldə - Naxçıvanda yerləşməsi bəlkə də Allahın biz bəndələrinə bəxş elədiyi bir rəhmin əlamətidir.

"Əshabi-Kəhf"dən söhbət düşəndə yadıma həmişə unudulmaz, qayğısız uşaqlıq illəri düşür.

Yaxşı yadımdadır, həmişə dağa qalxar, qurbanlar kəsər, niyyətlərimizin hasil olması üçün Allaha dualar edərdik. Çox qəribədir ki, "Əshabi-Kəhf"in kəklikotusunun, dağların üstündə, "Cənnət bağı"nda bitmiş üzümün dadı dünyanın heç bir yerindəkinə bənzəmir. Sanki Allah-təala öz səxavətini bu təamlarda daha çox göstərib.

İllər keçsə də mən yenə bu müqəddəs ocağı tez-tez ziyarət edirəm.

Bu ocağın kəraməti çox böyükdür. Hələ bir neçə il bundan əvvəl kirvəm xəstələnmişdi. O, bir gün yuxuda görür ki, onu istəyən bir adam "Əshabi-Kəhf"dən ona torpaq gətirib. Mən onun bu yuxusunu eşitcək, Naxçıvana getdim. Oranı ziyarət etdikdən sonra bu müqəddəs ocaqdan torpaq gətirib kirvəmə verdim. Elə bil mö'cüzə baş verdi. Bir neçə gündən sonra kirvəm sağalıb ayağa qalxdı.





Bu ocağın qüdrətinə, kəramətinə heç kəs şəkk etməmişdir. Hələ ulu babalarımızdan gəlib bu günə çıxmış "Əshabi-Kəhf" rəvayətləri bir daha sübut edir ki, "Əshabi-Kəhf" ocağı respublikamızda - Naxçıvandakıdır. Mən bundan böyük qürur və iftixar hissi duyuram.

***




Onu da qeyd edək ki, gənc, istedadlı hüquqşünas, xeyirxah, nəcib insan **Hacı Abid** "Əshabi-Kəhf"lə bağlı nəfis şəkildə bukletlər, təqvimlər hazırlayıb pulsuz camaata, xarici ölkələrə paylatmış və araşdırmalar aparmışdır. O, bu istiqamətdə işlərini davam etdirir.

Ona bu işdə Allahdan kömək diləyirik!

**Fərman Tağıyev, respublika əhəmiyyətli fərdi təqaüdçü, el ağsaqqalı:**

- Qadır Allah hər şeyi görən, hökm edən və bağışlayandır.

Şükür olsun onun qüdrətinə ki, bu xoş günləri biz yazıq bəndələrinə qismət eləyib.

Eh, ay bala, başımız çox müsibətlər çəkib. Ocaq nədi, heç əvvəllər namaz qılmağı belə bizə qadağa etmişdilər.

Yaxşı yadımdadır, atam rəhmətlik deyərdi ki, o vaxtlar da, Şuradan qabaq da Irandan, Iraqdan, Türkiyədən zəvvarlar dəvə ilə, karvanla "Asəf-Kəf"ə gələr, qurban kəsər, nəzir-niyaz paylayardılar. O vaxtlar "Asəf-Kəf"ə qalxmaq da çox çətin idi. Yollar palçıq, daşlı-kəsəkliydi. Dağ, dərə oğru-quldurla dolu olardı. Amma onlar zəvvarlara dəyməzdilər.

Mən gözümü açandan bu ocağı həmişə ağzı dualı adamlarla dolu görmüşəm.

Bəlkə bu ocağı yüz dəfədən də çox ziyarət etmişəm. Həmişə Allahdan nə diləmişəmsə, Allah tərəfindən nazil olub. Allaha çox şükür ki, balalarım hamısı sağ-salamat, çörək sahibidirlər. Balaca nəvəm Ruslan da bu ocağın möcüzəsi sayəsində dünyaya gəlib.



Cavanlara da tövsiyyəm var: Hərəkətinizə, davranışınıza fikir verin, bəd əməllərdən uzaq olun. Ağsaqqalın, böyüyün sözünə qulaq asın. Onda Allah da çörəyinizi yetirər. "Qurani-Kərim"də də yazılıb:

**"O kəslər ki, iman gətiriblər, savab işlər görüblər, bilsinlər, gözəl işlər görənlərin əcrini zay etmərik. Adn cənnətləri gözləyir onları".**



# NEFTÇALA











## XILLI



Neftçalanın qədim yaşayış məskənlərindən biri də Xıllı qəsəbəsidir. Akademik Ziya Bünyadovun fikrincə, xıllılar "rabintlər", yaxud "rəbbilər" adlı ərəb tayfasının VII əsrdən başlayaraq Azərbaycana köçmüş nəslindəndir. Başqa rayonlarda bu ada təsadüf edilsə də, ilk məskunların Iraqdan köçürülmüş Xıllı (Iraq-hillə) tayfasına mənsub olduğu fikri ilə razılaşmalıyıq.

Müxtəlif kənd təsərrüfatı ilə yanaşı, neft məhsulları da istehsal olunan Xıllı həmişə maarifə-ilahiyyata meylli yaşayış məntəqəsi kimi tanınmışdır.

Əsli Xıllıdan olan mötəbər din xadimi, həm də vaxtı ilə məscidin axundu olmuş **Molla Iskəndərin** məlumatlarına görə inşası ötən əsrin əvvəlinə təsadüf edən məscid və məktəb binası sonralar da əzəmətini itirmədi. Ümumiyyətlə, Xıllıda, ətraf kəndlərdə mədrəsələr, mollaxanalar həmişə olub.

Lakin Cavad quberniyasının əhatə etdiyi 6 nahiyədən yalnız birində - Xıllıda 1898-99-cu tədris ilində açılan rus-tatar məktəbi fəaliyyət göstərib.

## PİRƏTAVAN PİRİ



Yerli camaatın Pirətavan adlandırdığı bu ziyarətgahın adı Piri-taun (taun xəstəliyinə şəfa verən yer) söz birləşməsinin təhrif olunmuş şəklidir. Vaxtı ilə burada mövcud





olan İsmilli kəndi indi yoxdur, əvəzində minlərlə mərhumların əbədi uyuduğu nəhəng, həm də səliqəli bir aramgah var. Neftçalanın təxminən 3 kv.m qərbində salınmış qəbirstanlığın yeri vaxtı ilə dəniz sahili olmuşdur. Nəsildən-nəsilə, ağızdan-ağıza keçən rəvayətələrə görə bir vaxt burada möcüzəyə bənzər hadisə baş vermiş, Soltan Qeyzin, Xızır peyğəmbərin gözə görünməsi haqqındakı söyləmələr yadlaşsa da, xalq danışıq dilinə iz salmış, beləliklə, "Pirətavan" sözünün önünə "Soltan" sözü də əlavə edilmişdir.

İndi də yaşlı nəsil and içəndə bu ifadəni müqəddəs bilirlər: "Soltani-Pirətavan haqqı! Əvvəllər bu ocağın yanından su çıxar, bura ceyranlar gəlib su içər, ocaqda işıq yanardı.

Qərinələr boyu burada diqqəti cəlb edən Pir nişangahın üstündə gümbəz ucaltmaq çoxlarını düşündürüb. Lakin həmin şərəf Bakı kəndlərindən bu yerlərə gəlib Z. O. Qoltuq kəndində yaşayan **Heydər Almazov** adlı fazil bir xeyriyyəçiyə nəsib olmuşdur.

Heydər Almazov kimdir?

1853-cü ildə Bakının Mərdəkan kəndində anadan olmuş Heydər ömrünü xeyriyyəçiliklə keçirmiş, var-dövlətini el-oba yolunda sərf edən alicənab bir şəxs olmuşdur. Gənc sahibkar cavan yaşlarında Xəzərdən balıq ovu ixracı ilə məşğul olmuş, Mərdəkanda məşhur milyonçu H. Z. Tağıyevlə bağ qonşusu kimi dostluq etmişdir. Şəxsi bağında hər ay bir dəfə məclis qurdurar, fazil şəxsləri dəvət edər, kasıblara pul paylayarmış.

Nəhayət o, Neftçala-Xəzər sahilindəki Qoltuq kəndində balıq vətəgəsi yaratmışdı. Heydər Almazov o vaxtlar yerli camaatın axın-axın ziyarətə gəldiyi və kiçik daxmadan ibarət ziyarətgahın üstündə o vaxt üçün uca gümbəz- Pir inşa etdirmək qərarına gəlir. Bakıdan gəmilərlə gətirilən ağ daşları araba ilə o vaxtkı İsmilli kəndinə daşıtdırmış, hicri tarixi ilə 1311-ci ildə xüsusi ustanın-memarın şifahi layihəsi əsasında indi də əzəmətini qoruyan Pirin-Pirətavanın (yəni Piri-taun) inşasını başa çatdırmışdır.

Heydər Almazovun 1894-cı ildə doğma kəndində tikdirdiyi məscid bu gün də Mərdəkanda "Heydər məscidi" kimi fəaliyyət göstərir.

Uzun illər pirə rayonunun nurlu ağsaqqallarından olan **Mirhüseyn kişi** rəhbərlik edib. Ondan sonra pirə ziyarətə gələnlərə oğlu **Miraslan kişi** xidmət göstərib.

Hal-hazırda ocağa onun bacısı-**Xırdaxanımın qızı Mənsurə xanım** qulluq edir.

Rayon İcra hakimiyyətinin başçısı, dini-tarixi abidələrimizin qorunmasında çox böyük zəhmətləri olmuş **Fəzail Alışovun** təşəbbüsü ilə ziyarətgahda bərpa-abadlıq işləri görülmüşdür.

## QIRMIZI KƏND MƏSCİDİ



Neftçala-Salyan bölgəsinin camaatı həmişə öz dindarlıqları ilə seçiliblər. Bu ulu yurdun oğulları öz xeyirxahlıqları, xoş əməlləri, cəxavəti, qonaqpərvərlikləri, zəhmətsevərliyi ilə həmişə seçilib tanınıblar.

Qırmızı kənd sakini **Əlibala Səlimovun** gördüyü bu xeyirxah iş tarixə yazıldı. O, kəndin camaatının dəstəyi və şəxsi vəsati hesabına möhtəşəm bir məscid tikdirib.

Nurlu, nəcib Əlibala müəllim ömrü boyu el-oba üçün zəhmət çəkən, xalqdan öz əməyini əsirgəməyən xeyriyyəçidir. Balaları da özü kimi nurlu insanlardır.

Allah köməkləri olsun.





## KƏRBƏLAYİ SEYİD MİRƏZİZ SEYİD HACI OĞLU



Hamı onu yalovlu seyid kimi tanıyır. Onu tanıyanlar deyirlər ki, yaman seyiddir, qəzəbləndə zəhmli olur. Amma gecə-gündüz əlləşir ki, camaatı düz yola qaytarsın. Sözü qırmızı deyir: Deyir ki, bu işıqlı dünyada yalan deyən çox, doğru deyən azdır.

Sözün doğrusunu deyənlərdəndir Miraziz ağa...

Neftçala rayonunun el ağsaqqallarından biri, qəlbi, ruhu ilə elinə, obasına bağlı **Kərbəlayi Mirəziz ağa seyid Hacı oğlu Cəfərov** 1930-cu ildə Qaçaqkənddə anadan olub. Gözünü açandan "Allahu-əkbər" sədaları eşidib. Nəsli-nəcabəti ilə bütün Neftçala camaatına yaxşı tanışdır.

Qaçaqkəndin adının yaranma tarixçəsi də maraqlıdır. Keçən əsrin əvvəllərində qonşu kəndlərdə məskunlaşmış ermənilər həm Kürün balığını tutmaq, həm də yaxın kəndlərin əhalisini öz doğma ev-eşiklərindən didərgin salmaq üçün tez-tez çayın qabağını kəsər, suyunu kəndlərə döndərərmişlər. Kəndləri sel-su basar, camaat ev-eşiklərini qoyub qaçarmış. Sel çəkilib gedəndən sonra yenə də kəndə qayıdarmışlar. Elə ətraf kəndlərin adları-Xarabakənd, Qazaxdərənin də adları bax beləcə yaranıb. Kəndin yaranma tarixi haqqındakı bu fərziyyə Mirəziz ağaya məxsusdur.

Kənddə böyüyən ağa həmişə əlinin qabarına, cəddinə, bir də Allahına arxalanıb. Salyan Kənd Təsərrüfatı texnikumunu bitirərək, uzun illər briqadir, aqronom işləyib. O vaxtlar həm ulu nəslin adını qorumaq, həm də dövlət işində çalışmaq çətin olsa da, ağa heç vaxt halalı harama qatmırdı. Elə beş oğlu,

beş qızını da bu ruhda böyüdüb, tərbiyələndirib. Mirəziz ağanın 10 övladı var: **Seyidağa, Miribad, Mirheydər, Mirəli, Mirzəli, Mirzadə, Mirsəlimə, Mirtamam, Mirsəfər və Mirvari.**

Ağa dərin hikmət sahibidir. Onun müdrik kəlamları, qiymətli sözləri camaatın, xalqın ağzından düşmür, yolunu azanları, araq içənləri, pis əməllərlə məşğul olanları haqq yoluna qaytarır.

Ağanın el arasında danışılan kəramətləri çoxdur. Neçə-neçə cavana araq içməyi, siqaret çəkməyi tərgitdirib, neçə-neçə yolunu azmışları tövbələtdirib, düz yola qaytarıb. Özü də çəlikliyə-çəlikliyə.

Xalqın həm atası, həm də anasıdır Mirəziz ağa. Onun üçün oğlu ilə başqasının oğlu, "raykom"la otçalanın fərqi yoxdur. Ağa özü 1993-cü ildə Kərbəlada, yoldaşı isə Məşhəddə ziyarətdə olub.

Ağa xatırlayır ki, avtobusumuz Fərat çayının yanında saxladı. Hamı töküldü əl-üzünü yumağa, sərinləməyə. Mən iməkləyə-iməkləyə üzümü torpağa sürtdüm.

Dedim: - Ey qoca Fərat, mən səndən su içmərəm, çünki sən mənim Hüseynimə bir qurtum da su vermədin.

Ağam Hüseynin qəbrinin üstündə halım dəyişdi. Dedim ki, mənimki elə bura qədərmiş. Amma şəhid Hüseynimə bircə söz dedim. Dedim ki, sənin müqəddəs məzarının üstündə can vermək xoşbəxtlikdir, amma heç kəslə halallaşmamışam, həm də yol yoldaşlarımı pis vəziyyətdə qoyaram. Dedim və ayağa qalxdım. Elə bil mənə heç nə olmamışdı.

Mirəziz ağa adını "molla" qoyanlardan yaman narazıdır. Amma söhbət əsl din xadimlərindən düşəndə kişinin üzü gülür.

Deyir ki, Ağamirbağır ağa, Mirsultan ağa, Mirəşrəf ağa, Ağadədə kimi ruhanilər əsl ağalar idi.





**Kərbəlayi seyid Mirəziz ağa:**

- Bir gün peyğəmbər ə.s. gözlərini yumdu, açdı. Çox peşiman oldu. Dedi bir anda cəhənnəmi gördüm. Gördüm ki, seyidliyini saxlamayanlar, haram işlərlə məşğul olanlar çənəsindən, etibarsız, gözü dağınıq qadınlar gözlərindən, dili ilə onu-bunu yoldan çıxaran kişilər dilindən asılıb.

Əvvəllər biz tərəflərdə həyətlərin hasarı olmazdı. Ağalar onların hasarı idi. İndi hər şey korlanıb, insanlar haqqı-ədaləti unudublar. Belə olmasın gərək.

**Qırmızıkənd sakini Yusif Kərimov:**

- Gözümü açandan, özümü dərk edəndən evimizdə namaz qılan görmüş, Allahu-əkbər sədası eşitmişəm. Dədəm, nənəm həmişə oruc tutublar. Atam çox qocalsa da, heç vaxt orucundan qalmazdı. Səhər obaşdan durar, oruc tutardı. Bəzən də kişiyə ürəyim yanardı, qıymırdım. Bir gün saatı geri çəkdim ki, tezdən zəng çalmasın, vaxt keçdiyinə görə oruc tutmasın. Bunu bilən kişi məndən küsdü. Həmin günü ac qaldı. Acıqla əlavə 3 gün də oruc tutdu.

Həmişə evimizdə alimlərin, din xadimlərinin, nurlu seyidlərin söhbəti gedib. Mirbağır ağa, seyid Mirəşrəf ağa, seyid Mirhəşim ağa haqqında çox eşitmişəm.

Kərbəlayi seyid Mirəziz ağa da onların yolu ilə gedir. Bəzən çəliklə, bəzən də ibrətamiz sözlərlə yolunu azanları haqq yoluna qaytarır, gənclərə düz yol göstərir.

Allah rəhmətə gedən bütün imam-peyğəmbər övladlarına rəhmət eləsin, seyid Mirəziz ağa kimi əqidəli, gözü-könlü tox ağsaqqallarımızı eldən əskik eləməsin! Amin!

## SEYİD NƏNƏ OCAĞI



Düz 70 il bundan qabaq, dinin, şəriətin, islamın yasaq edildiyi o illərdə Xolqarabucaq kəndində ulu Tanrının kəraməti ilə bir möcüzə baş verdi. Möcüzə baş verdi ki, kommunist ideologiyasının təsiri ilə Allahını, peyğəmbərini unutmağa başlamış insanları silkələsin, düz yola qaytarsın...

Hadisə yaxın-uzaq kəndlərdə öz ulu nəcabəti ilə tanınmış seyid Mirhəsən ağanın nəvəsi, seyid Mirheydərin qızı **seyid Nənəgildə** baş vermişdi...

7-8 yaşlarında uşağı təndir başında qoyub kündə dalınca gedən anası qayıdandan sonra balaca Nənəni axtarır, tapmır. Xeyli axtarandan sonra ana balaca Nənənin təndirin içinə, odun üstünə düşdüyünü görür. Ana dizinə döyə-döyə uşağı yanan təndirdən çıxardır. Amma uşağa heç nə olmamışdı.

O gündən Nənə haqqında söz-söhbət ellərə yayılmağa başladı.

Hələ bu hadisədən iki-üç il qabaq Xolqarabucaq kəndində yaşayan Mirheydər ağanın gözləri tutulur. Bir gün qızı seyid Nənəni yanına çağırıb deyir:

-Qızım, məni apar atam Mirhəsən ağanın qəbrinin üstünə. Seyid Nənə atasının əlindən tutub babasının qəbrinin üstünə gedirlər. Atası deyir ki, qızım, mən bir az yatım, sənsə burada gəz.

Seyid Nənə görür ki, iki nəfər üzü rübəndli adam ona yaxınlaşdı. Hər tərəf günəş kimi şölə saçırdı.

Onlardan biri deyir ki, qızım, qorxma, biz sizin ağanızıq. Atanın gözlərinə şəfa verməyə gəlmişik. Onlar Mirheydər ağanın yanına gəlib gözlərinə əl çəkirlər. Seyid Nənənin ya-





nına qayıdıb deyirlər ki, narahat olma, atanın gözləri açılacaq. Sənə də əl çəkəcəyik və sənə hökm verəcəyik.

O vaxt seyid Nənənin 5 yaşı vardı. Atası ayılanda görür ki, seyid Nənənin ürəyi gedib. Onu qucağına alıb evə gətirir. Kənd əhli təəccüb içində görür ki, gedəndə seyid Nənə atasının əlindən tutub aparmışdı. Qayıdanda isə atasının qucağında bihuş halda qayıdır. Seyid Nənə ayılandan sonra başına gələnləri danışır.

Bundan sonra onda tez-tez möcüzələr baş verməyə başlayır.

Seyid Nənə seyid Mirheydər qızı 1929-cu ildə dünyaya gəlib. Ailədə bir qardaş, dörd bacı olublar. **Seyid Nənə, Mirsələmə, Mehrənsə, Mirzadə və Seyidəli.**

Yeganə qardaşı Seyidəli Salyanın Arbatan kəndinə köçüb. Övladları **Hacı Mirheydər, Güldəstə, Əliheydər, Mirağa, Mirzeynəb, Seyidbikə, Mirşən və Əli** ocaq yaşadıcılarıdır.

Seyid Nənə ananın övladları: **Mirbəyim, Mirsarə, Mirsəfiyyə, Mirsadat, Mirzəhra, Miryəhyadır.** Balalarının hamısı əhli-ibadətdir. Ocağının yaşadıcısı seyid Mirbəyimin isə 2 övladı var: **Mirseymur və Mirsəidə.**

...İllər keçdi. Seyid Nənə artıq böyümüşdü. Valideynlərinin, Allahın izni ilə **seyid Əzimlə** ailə həyatı qurdu. Lakin elə ailə həyatının ilk günlərində bu evdə gah ürəyi gedər, gah da özünü pis hiss edərdi. Bir gün qonşusu **Dünyaxanımı** yanına çağırır. Qonşusu görür ki, seyid Nənə uşağını belinə şələyib harasa getmək istəyir.

İstəyir ki, qoymaya, xeyri olmur. Elə bu zaman bərk tufan gəlir. Tufan seyid Nənəni aparır. Lakin aradan müəyyən vaxt keçəndən sonra külək, tufan kəsir və seyid Nənə qoltuğunda bir bükülü peyda olur. Açırlar ki, ələmdir. Bu tufanda hara getmişdi, gələndə külək niyə kəsdi, bu ələmi ona kim verib, hələ bu gün də bilən yoxdur.

Bir müddət keçəndən sonra seyid Nənə qəflətən "durun, mənim ocağım gəldi", deyə qonşu otağa keçir. Keçirlər ki, onun otaqdakı şalının arasından kimyə tökülür.

Bu hadisə 1954-cü ildə baş vermişdi. Allahın bu möcüzəsinə tökülüb gələn kənd camaatı o gündən seyid Nənəyə pənah gətirməyə başlayır. Hər cür dərd-səri olan, övlad həsrəti ilə alışıb yanan, onlarla müxtəlif dərdli insanlar seyid Nənə ocağının kəramətindən şəfa, dərdlərinə əlac tapır, qapısına üz tutanların heç biri bu ocaqdan naümid geri qayıtmırlar.

1981-ci il idi. Seyid Nənənin oğlu Moskvada Sovet Ordusu sıralarında xidmət edirdi. Bir gün xəbər gəlir ki, bəs, oğlun xəstəxanaya düşüb. Ananın yuxusu ərşə çəkilir. Heç yerini bilmir. Bir gün balalarını başına yığıb deyir ki, mənə agah olub ki, oğlumun dalınca özüm getməliyəm. Gedəcəyəm, kafirlərin içərisində mundarlanacağam. Amma sonra nə olacağını heç kəsə demir. Ana qəlbi balası uğrunda hər şeyə dözür. Ana gedir, balasına baş çəkir və qayıdandan sonra xəstəlik taparaq yataq xəstəsinə çevrilir. Seyid Nənənin xəstəliyinin bütün ağırlığını **qızı Mirbəyim** çəkib. Bəlkə də elə ona görə Allahın buyruğu ilə seyid Nənənin hökmü, nəfəsi Mirbəyimə keçib.

1998-ci may ayının 22-də elin ağbirçəyi seyid Nənə haqq dünyasına qovuşdu.

Onun ölümü də möcüzəli idi.

**Seyid Mirbəyim xanım:**

- Anam tez-tez özündən gedər, sanki ölüb-dirilərdi. 5 il bundan əvvəl onun vəziyyəti son dərəcə ağırlaşdı. Dedim, yəqin rəhmətə gedəcək, hətta üzünü qibləyə tərəf də çevirdik. Nəfəsi gedib-gəlmirdi. Xeyli vaxt keçəndən sonra ayıldı, durdu oturdu. Soruşduq ki, ay Nənə, biz səni ölmüş hesab etdik. Dedi ki, atamın, babamın yanına getmişdim. Yorulmuşam, mənə yemək verin, qoyun, dincəlim.

Soruşdum ki, bəs öldüyünü necə biləcəyəm? Dedi ki, sifətimdə təbəssüm görsən bil ki, ölmüşəm.

O gündən sonra anam onun yanına övladı olmayıb pənah gətirənlərin uşaqlarının adlarına imamlarımızın adını qoyardı. Həmişə də ulu babası Bimari Zeynalabdini köməyə çağırardı.

Anam öləndə gecə saat 12 idi. Həmin gecə göy guruldadı, ildırım çaxdı, külək qopdu. Təbiət sanki bu hadisədən xəbər tutub, öldüyünü bilib, onun müqəddəsliyi qarşısında səcdəyə gəlmişdi. Anam ölməmişdən qabaq vəsiyyət etmişdi ki, onu öləndən sonra həyətdəki gülün altında yusunlar. Elə də etdik. Sabahı günü seyid Nənənin yuyulduğu yer şölə saçmağa başladı. Bunu görən onlarla kənd camaatı bir daha onun müqəddəsliyinin şahidi oldular.





Bu hadisələrin ilk şahidi onun ən yaxşı rəfiqəsi, ürək dostu, **biləsuvarlı Dünyaxanım** olmuşdur.

Seyid Nənənin qəbri kənd qəbristanlığındadır və böyük ziyarətgahdır.

Allah rəhmət eləsin.

## SEYİD ƏLİ MƏŞƏDİ
## SEYİD MİRƏŞRƏF OĞLU

Gözünü aç, gör ey talib, Əlidir dükana sərvər,
Məhəmməd mədəni kandır, Əlidir qiyməti kövhər.

Məhəmməd elmə kan oldu, Məhəmməddir onun kanı,
Ona sirlər əyan oldu, Əlidir xaceyi-qənvər.

Əlidir cümlənin canı, Məhəmməddir onun kanı,
Həqiqətdir Əli şanı, Əlidir yari-peyğəmbər.

...Nəsiminin dili canı, münəvvərdir Əli nuru,
Əli vali, Əli vala, Əli sərvər, Əli səfdər.

**Nəsimi**



Hər bir nəslin, tayfa və qəbilənin, el-obanın öz tarixi var və hər qarışı Kəbə olan vətən torpağının övladlarının hərəsinin alnına Tanrı tərəfindən bir tale yazılıb.

Çox qəribədir ki, mayası Allah eşqi, imam-peyğəmbər məhəbbəti ilə yoğrulmuş seyidlərimizin əksəriyyətinin həyatı çox-keşməkeşli, ağlı-qaralı, şirinli-acılı keçib. Sanki bu insanlar dünyaya əzab-əziyyət çəkmək üçün gəliblər. Onların özlərinin qayğıya, mərhəmətə ehtiyacı olsa belə, həmişə insanlara dayaq durub, insanları dünyanın dərdlərinə səbrli olmağa çağırıblar.

Əslən Təbrizdən olan ulu bir seyid nəslinin də başına çox müsibətlər gəlib.

Bir neçə yüz il bundan əvvəl Şamaxıya Təbrizdən köçmüş **imam Cəfəri Sadiq ə.s.-ın törəməsi Məşədi seyid Mirəkbər ağa** Şamaxıda yaşamış, tərəkəmə həyat tərzi keçirmiş, heyvandarlıqla məşğul olmuşdu. O, qardaşları **seyid Mirsəmid,** seyid **Babalı, seyid Ağamir, seyid Mirhəşim və seyid Mirsəlimlə** tez-tez Neftçalaya, yaxın qohumlarının yaşadığı Seyidlər kəndinə gedərdi.





Nəhayət, Məşədi seyid Mirəkbərin oğlu Məşədi seyid Mirəşrəf ağa birdəfəlik bu kənddə məskən salır. Seyid Mirəşrəf ağanın oğlanları: **seyid Hüseynağa, seyid Mirmahmud və seyid Əli** bu kənddə yaşayıb, elin hörmət-izzətini qazanırlar.

Seyid Əli ağa 1922-ci ildə Seyidlər kəndində anadan olub. Kiçik yaşlarından ərəb-fars dillərini, şəriəti öyrənib. Əzablı-əziyyətli, sadə və mənalı bir ömür yaşayıb. Əlindən gələni eldən əsirgəməyib. Nurlu, məsum bir ağsaqqal kimi xalqın xeyir-şərini yola verib.

Bu gün ağa ömrünün ahıl çağlarını yaşayır. Balaları **seyid Əliəşrəf, seyid Ağahüseyn, seyid Ağarza, seyid Mirbabaş** və üç qızı onun yolu ilə gedirlər.

Ağanın müdrik kəlamları, ağıllı məsləhətləri, davranışı gənclərimizə nümunə bir örnəkdir.

Allah sənə ömür versin, ağa! Amin!

# Qonşunun qonşuya pislik etməsi haramdır.



# KƏRBƏLAYİ SEYİD BÖYÜKAĞA SEYİDAĞA OĞLU



Ağsaqqal olmayan el-obada xeyir-bərəkət olmaz, deyib babalar. Yaxşı ağsaqqalın gördüyü işi dövlətin böyük bir qurumu görə bilmir.

Soy kökü Museyi-Kazım (ə.s.) imama bağlanan, xeyirxah əməllər sahibi, nəcib, nurlu insan **Kərbəlayi seyid Böyükağa** kişi əsl el adamı, el ağsaqqalıdır. Simasından nur tökülən imam-peyğəmbər övladı ömrü boyu həyatını insanlara xidmətdə keçirib. Özünü dərk edəndən, hələ körpəlikdən, işgüzarlığı, əxlaqı, qoçaqlığı ilə tay-tuşlarından seçilərdi.

Başqa cürə də ola bilməzdi. Kərbəlayi seyid Böyükağanın tərbiyə aldığı ailə nəinki Muğanda, eləcə də Şirvan zonasında tanınmış nüfuzlu imam-peyğəmbər törəməsi idi.

Ulu babası **seyid Mirəsgər** XIX əsrdə Şamaxıdan köçərək, Kür üstünə düşüblər. **Oğlu seyid Süleyman** oğlu **seyid Seyidağa** ilə birlikdə Yuxarı Qaramanlıda yaşayıb.

Seyidağa (1883-1945) Nikoloy vaxtında imanlı bir din xadimi kimi camaata islami dəyərləri aşılamaqda müstəsna rol oynamışdı. Əkinçiliklə məşğul olan ağa öz çörəyini əlinin qabarı ilə qazanardı.





Mötəbər Seyidağanın iki oğlu, dörd qızı olub: **seyid Böyükağa, seyid Əliağa, Mircənnət, Mirleyla, Mirgövhər** və **Mirsəbir.**

Kərbəlayi seyid Böyükağa 1926-cı ildə Yuxarı Qaramanlıda böyüyüb boya-başa çatıb. Altıncı sinifi qurtaran ili Böyük Vətən müharibəsi başlayır. Ağa məcbur olaraq sıravi işlərdə çalışmağa başlayır. Uzun illər Əli-Bayramlıda "Şirvanneft"də sürücülük edib. Ağa ali təhsil almasa da, böyük həyat məktəbi keçib. Yaşlı bir kişidən şəriəti öyrənib. 1995-ci ildə müqəddəs Kərbəla ziyarətində olub. Allahına dua etməkdən, namaz qılmaqdan möhür alnına iz salıb.



Kərbəlayi seyid Böyükağa 4 qız, 3 oğul atasıdır: **Mirməsmə, Mirzəhra, Mirsona, Mirhəcər, Seyidağa, Mirmövsün** və **Mirbəşir.**

Bu gün kəndin bütün xeyir-şər işləri onsuz keçirilmir. Ağa da el yolunda, gecə-gündüz əziyyət çəkməyə bir növ vərdiş edib. Kənd məscidinin inşasında da ağanın böyük zəhməti olub.

Qoy ulu Tanrı Kərbəlayi seyid Böyükağa kimi nurlu ağsaqqallarımızı eldə həmişə var eləsin.

## SEYİD QURBAN SEYİD ABDULLA OĞLU



Neftçala-Salyan, eləcə də yaxın rayonların əhalisinin səcdəgahlarından biri də el ağsaqqalı, dar gündə pənah yeri olan seyid **Qurban seyid Abdulla** (1885-1975) oğlu olub. Seyid Qurban ağa əslən Şamaxıdandır. Ali dini təhsil almasa da, şəriəti mükəmməl öyrənmişdi. Sülh, əmin-amanlıq adamı idi. 90 il ömür sürdü. Həmişə insanların hayına-harayına yetdi. Oğulları **seyid Mirhəsən, seyid Mirhüseyn, seyid Allahyar, qızları Mirqönçə, Mirfatma, Mirxədicə, Seyidxanım və Nişanə** ata-babalarına layiq övladlardır.

Ağanın müqəddəs məzarı-şərifi üzərində kümbəz ucaldılmışdır. Ocağında **seyid Mirhəsən ağa** oturur. Hər gün neçə-neçə dərdli insan, niyyət və dilək sahibləri ağanın müqəddəs kümbəzini ziyarət edir, seyid Qurban ağanın cəddi, Allahın birliyi xətrinə istədiklərinə nail olurlar.

Allah niyyətlərinizi çin eləsin.





## SEYİD MİRCAMAL SEYİD CABBAR OĞLU

"Yeyin, için, amma israf etməyin. Allah-təala israfçıları sevmir.Hər kəs bizə tərəf gəlməyə səy etsə, biz ona öz yolumuzu açarıq".

**"Qurani-Kərim"**



Seyidlərin ağası, şəhidlərin seyidi Imam Hüseyn (ə.s) Kərbəla düzündə qətlə yetiriləndən sonra onun törəmələrinə, əshabələrinə qarşı təzyiqlər gücləndi. Bir çox imam övladları diyarbədiyar düşdülər. Onlar təqiblərdən yaxa qurtarmaq üçün başqa ölkələrə pənahlanar, uca dağlara çəkilər, sıldırım dağ mağaralarını, sıx ormanları özlərinə vətən seçər, kafirlərin hücumlarından qorunardılar.

Laçın rayonunun Böyük Seyidlər, Alxaslı, Kəlbəcərin Başlıbel, Yardımlının Perinbel kəndləri uca dağlar qoynunda yerləşirdi və bu kəndlərdə əsasən seyidlər yaşayırdılar.

Lakin əslən Şamaxıdan olan seyidlərimizin Neftçalanın Seyidlər kəndində məskən salması isə ilk növbədə Şamaxıda vaxtaşırı baş vermiş zəlzələlərin təsirindən və bu yerlərin yaşayış üçün əlverişli olmasından irəli gəlmişdir.

Əslən Şamaxıdan olan **seyid Mircamal seyid Cabbar oğlu da** (1876-1945) qədim Şirvan torpağında yaşayırdı. El-obanın iman gətirdiyi seyidlərdən idi. O, sonralar bir çox qohumları ilə birlikdə Neftçalaya köçüb.

Ailədə tək olduğuna görə həyatda çox əzab-əziyyət çəkib. Deyirlər, Allah-təala da təkdir. Göydə onu Allahı, yerdə isə nənəsi saxlayıb.

Ağanın çox kəramətli nəfəsi vardı. Camaat onu dəfələrlə sınamışdı.

Bir il bərk quraqlıq keçirmiş. Sədr onu yanına çağırır:

-Ağa, görürsən, yer-göy od tutub yanır, bir ceddini çağır də,- deyə onu sınağa çəkir.

Ağa qeyzlənib əllərini göyə qaldırır:

- Allahım, məgər görmürsənmi ki, məni sınağa çəkirlər?!"

Heç bir az keçməmiş aləmi sel-su götürür.

O gündən heç kəs ağanın ceddinə şübhə etməz, çətinə düşəndə ona pənah gətirərdilər.

Çox məsum, pak, nurani insan idi.

Peyğəmbər (s) buyururdu ki, Allah gözəldir və gözəllikdən xoşu gəlir. Pakdır və paklığı sevir.

Ağa insanlığın, paklığın tacı idi.

Seyid Mircamal ağanın 3 oğlu, 4 qızı olub: **seyid Mirağası, seyid Mircabbar və seyid Mirtərlan.**

Seyid Mirağasinin (1895-1983) bir qızı və **Əlmalik** adlı oğlu, **seyid Mirtərlanın** (1935-2002) 5 qızı və **Pərviz** adlı bir oğlu, seyid Mircabbarın (1932-1979) **seyid Əflatun, seyid Mircamal, seyid Sücaət** adlı oğlanları və 4 qızı var.

Ağa möcüzəli, sirli ağa idi. Onun ocağından qızıl balıq çıxmışdı. Kəhər atları heç kəs tuta bilməyəndə "qayıt" deməsi ilə at dayanardı.

İndi ağanın ocağında gəlini **seyid Tubu** oturur. Qəbri üzərindəki müqəddəs kümbəzi el-obanın müqəddəs ocaqlarındandır.

Hüseyn Cavid yaxşı demişdir:

**Bəxtəvərsən, əgər çəkdiyin əmək,**
**Cahan sərgisinə versə bir çiçək!**

Doğrudan da seyid Mircamal ağanın xeyirxah əməlləri öz bəhrəsini vermişdir.

Allah seyid Mircamal ağaya rəhmət eləsin.





## SEYİD MİRİSMAYIL SEYİD MİRQİYAS OĞLU



Bankə qəsəbəsi təkcə rayonun yox, həm də respublikamızın iqtisadiyyatında xüsusi əhəmiyyəti olan, ölkə hüdudlarından uzaqlarda da tanınan, fərqlənən şəhərtipli qəsəbədir.

Nadir balıq məhsulları və qara kürüsü ilə dünyada məşhur olan bu qəsəbəyə məşhur rus yazıçı-alimləri də, hindli sahibkar-tacir Maqundasov da, məşhur şərqşünas İ. Berezin də, Nəriman Nərimanov da, Hacı Zeynalabdin Tağıyev də buraya xoş məramla gəlmiş, xoş təəssüratla ayrılmışlar. Görkəmli rus yazıçısı Qleb Uspenski XIX əsrin ortalarında Tatar məhəlləsində olmuş və buranın təbiəti, işgüzar adamları, balıqovlama və emal prosesi haqqında romantik bir əsər yazmışdır.

Əvvəllər qəsəbədə başqa millətlərin nümayəndələri də yaşayırdılar. Lakin, buna baxmayaraq, qəsəbədə yaşayan imam-peyğəmbər övladları islami dəyərlərimizin itməməsi üçün böyük fədakarlıqlar göstərmiş, öz davranışları, əqidələr ilə insanlara örnək olmuşlar.

Belə insanlardan biri də soy kökü altıncı imamımız Cəfəri Sadiq (ə.s)-ə bağlanan **seyid Mirkazım ağanın nəvəsi seyid Mirəzizin oğlu seyid Mirqiyas ağa** olub.

Seyid Mirqiyas ağa Xıllı qəsəbəsində yaşayıb və haqq dünyasına qovuşub.

Lakin **oğlu seyid Mirismayıl ağa** 1933-cü ildə Bankə qə



səbəsində anadan olub və Mirhəsən müəllimin himayəsində böyüyüb.

Seyid Mirismayıl ağa düz 18 il Bərədə, sonra isə Nəbitdə işləyib. Həmişə dinimizin təbliğatçısı, təşviqatçısı olub.

Seyid Mirismayıl ağanın övladları: **seyid Mirlazım, seyid Mirkazım, seyid Miraziz** və **seyid Mirqiyasdır.** Qızlarının adı isə **Murtuza, Mirsurə, Mirgülsüm** və **Seyidxanımdır.**

Seyid Mirismayıl ağa el-obanın sınaqlı seyidlərindən, nurlu ağsaqqallarındandır. Cəddi cənabi- peyğəmbər nə onu, nə də ona pənah gətirən insanları heç vaxt darda qoymayıb. Tez-tez onun yanına gəlir, ağadan kömək istəyirlər.

Elə biz Bankədə olarkən ağanı Bakıya aparmışdılar.

Allah sənin pak nəfəsini el-obanın, xalqımızın üstündən əskik eləməsin, seyid Mirismayıl ağa!

Onu da xatırladım ki, Qəsəbədəki qədim məscidi son illər xeyirxah, nurlu insan **Kərbəlayi Məhəmməd Əsədulla oğlu** bərpa etdirib. Minarəsini isə **Ağagül Rəşid oğlu** düzəltdirib.

**"Onun ayələrindəndir ki, göyləri, yeri və aralarında yaydığı canlıları xəlq etdi və istədiyi zaman onları bir yerə cəm etməyə qadirdir". (əş- Şura, 29)**





## SEYİD MİRPAŞA SEYİD MİRAĞASI OĞLU



Respublikamızın digər bölgələri kimi, Salyan-Neftçala rayonları ta dövrüqədimdən elm-ürfan sahibləri, görkəmli din xadimləri ilə tanınıb. Bu yerlərin münbit iqlimi, Kür çayının Xəzərə töküldüyü vadinin əlverişli şəraitə malik olması bu bölgənin surətli inkişafına təkan verib. İnsanlarının qonaqpərvərliyi, zəhmətsevərliyi zaman-zaman başqa ölkələrdən bura çoxlu səyyahlar cəlb etmiş, çoxları buranı özlərinə vətən seçmişlər.

Hələ II əsr bundan əvvəl soy kökü imam Cəfəri-Sadiq ə.s.-ya bağlanan iki qardaş- seyid Ərəbistandan Salyana gəlir. Qardaşlardan biri Şirvan Ərəbqardaşbəyliyə, digəri isə Salyanın Ərəbqardaşbəyli kəndinə düşüb. Onlar bu kəndlərdə heyvandarlıq, balıqçılıqla məşğul olmuş, böyük var-dövlət qazanmış nurlu seyid övladları, xeyirxah din xadimləri kimi ad-san qazanmışlar. Bəlkə də bu kəndlərin yaranma tarixi onların adları ilə bağlıdır. Sonradan bu ulu nəslin törəməsi **seyid Mirubadullanın övladları Miryəhya, Miribrahim** və **Mirağasi** hərəsi bir kəndə köçüb məskunlaşır.

**Seyid Mirağasi** (1883-1973) Ərəbqardaşbəylidən Yenikəndə köçür, burada balıqçılıqla məşğul olur. Ağa 7 oğul, bir qız böyüdür: **seyid Mirpaşa, seyid Mirzabil, seyid Mirabil, seyid Mirqabil, seyid Mirəli, seyid Mircabir, seyid Mirramiz** və **Şücaət.**

Seyid Mirağasi ağanın qardaşı **seyid Miribrahim** (1881-1945) də din xadimi, şəfavərən seyidlərimizdən idi. Balıqçı olsa da, heç vaxt şəriəti unutmurdu. Seyid Miribrahim ağanın **seyid Təfəkkür, seyid Mirhafiz, seyid Mirəflatun** adlı oğlanları və bir qız övladı olub.

Seyid Mirabdulla ağanın 3-cü oğlu **seyid Miryəhya ağa** da balıqçı idi. Və Qaralı kəndində yaşayırdı. Yeganə oğlu atasının adını qoyduğu Mirabdulla ağa Böyük Vətən müharibəsində vəfat etmişdir.

Bu ulu nəslin ocaq yaşadıcısı, 1924-cü ildə Salyan Ərəbqardaşbəyli kəndində anadan olmuş, **seyid Mirpaşa seyid Mirağasi oğludur.**

Ailəsi 10 yaşında olanda o,Yenikəndə köçüb. O vaxtlar kənddə məktəb olmadığına görə, ağa məktəbə 10 yaşında gedib. Hələ bığ yeri təzə-təzə tərləyirdi ki, Böyük Vətən müharibəsi başladı. Ağa 1943-cü ildə müharibəyə getdi. Düz 5 il ordu sıralarında xidmət etdi. Dəfələrlə ölümlə üz-üzə gəldi. Lakin göydə Allahı, yerdə cəddi cənabi-peyğəmbər onu hifz elədi. Ağa sağ-salamat öz doğma el-obasına döndü. Sürücülük ixtisasına yiyələnərək, 1975-ci ilə qədər sürücülük etdi və sonralar isə ticarətlə məşğul olmağa başladı. Harada işləməsinə baxmayaraq, həmişə seyidlik adını qorudu. Özünə nüfuz qazandı, xalqa ağsaqqallıq etdi. Bu gün kəndin xeyir-şər, quruculuq işlərini onsuz təsəvvür etmək olmaz. El-obada bu nurlu seyid övladının xətrini istəyir, yolunu saxlayır, bir sözünü iki eləmirlər. Çünki bilirlər ki, seyid Mirpaşa ağa hər şeyin ədalətlə həll olunmasının tərəfdarıdır. Elə ona görə də rayonda ad-san qazanıb. Neftçalada kimi dindirsən sadə, nurlu seyidin xeyirxah əməllərindən söz açır. Rayon İcra Hakimiyyətinin başçısı Fəzail müəllim rayondakı quruculuq işləri ilə yanaşı nurlu din xadimlərinə də həmişə qayğı göstərib. Elə seyid Mirpaşa ağa haqqında da xoş sözlər dedi. Allah köməyi olsun.

Seyid Mirpaşa ağa vətənə, torpağa bağlı özü kimi zəhmətkeş 7 qız, bir oğul böyüdüb: **seyid Mirzeynal, Mirsəkinə, Gülüstan, Aləmzər, Mirzəhra, Mirzəkiyyə, Zülfiyyə** və **Simuzər.**

Mirsəkinə və Zülfiyyə artıq "Quran"ı xətm ediblər.

Allah-təala bu ocağın yaşadıcılarını heç vaxt darda qoymasın, elin alqışı yaşatsın onları.



# SALYAN








Müqəddəslik, saflıq və mərhəmət evi olan məscidlərimiz yüzilliklər boyu insan mənəviyyatının paklığına, dinin müqəddəs ehkamlarının təbliğinə xidmət etmişdir. Islamın gücünü, onun kult və rituallarını bi-rər-birər qoruyan məscidlər özünəməxsus memarlıq xüsusiyyətləri və əzəməti ilə müsafirləri həmişə heyrətə gətirmişdir.

"Darülmöminlər diyarı" kimi tanınan Salyanda məscid və mədrəsələrin tikilməsinə xüsusi diqqət yetirilmişdir. Bu işə Salyanın sayılıb-seçilən varlı tacirləri qoşulmuş, sərmayələri hesabına şəhərin ayrı-ayrı məhəllələrində məscid-mədrəsə tikdirməklə öz müsəlmanlıq borclarına sadiq qaldıqlarını göstərmişlər. Bunula həm də xalqa müəyyən fayda verməyə çalışmışlar. Bu məscid-mədrəsələrdə ali dini təhsilli, hərtərəfli dünyagörüşlü müctehidlər, axund və mollalar "Qurani-Kərim"in müqəddəs kəlamlarından söhbət açmış, şəriət qanunlarını öyrətməyə çalışmışlar.

Şərqin ilahiyyat məktəblərini bitirənlər içərisində salyanlıların sayı çox olmuşdur. Onlar Nəcəfül- Əşrəfdə, Tehranda, Təbrizdə və s. şəhərlərdə on il, bəziləri hətta iyirmi il və daha çox müddətdə təhsil almışlar. Onlardan müctehid Şeyx Ibrahim Səlyani, Ağa seyid Məmməd ağa, Mir Əşrəf ağa, Ağa Mirbağır ağa, Mirheydər ağa, Seyidəli, Mirhəşim ağa və başqalarının adları həmişə ehtiramla çəkilir. Müxtəlif vaxtlarda **Qafqaz şeyxülislamı olmuş axund Əhməd Səlyani, axund Əbdülsəlam Axundzadə, şeyxülislamın müavini Şeyx Əhməd Axundzadə** isə öz qabiliyyətləri ilə dini rütbənin ən yüksək pillələrinə qədər ucalmışlar. Ilahiyyat alimləri olan bu şəxsiyyətlər, geniş dünyagörüşü olan digər axund və mollalar Salyanın məscid və mədrəsələrində camaatın mənəvi inkişafından ötrü əllərindən gələni əsirgəməmişlər.

Salyan şəhərində tikilmiş məscidlərin tarixi ilə əlaqədar apardığımız araşdırmalara istinad edib deyə bilərik ki, şəhərdə əsasən XIX əsrin ortalarından etibarən əsaslı şəkildə məscid binalarının tikintisinə başlanmışdır. Həmin dövrdə tikilmiş iri-li-xırdalı məscid binalarının sayı on beşə yaxın olmuşdur. Onlardan bir neçəsi 20-30-cu illərdə din əleyhinə aparılan ümü-







mi siyasətin qurbanı olmuş, bəziləri isə sonrakı illərdə baxımsızlıq və ümumən etinasızlıq üzündən dağılıb getmişdir. Onlardan şəhərin Seyidlər məhəlləsində olmuş Qumqədir məscidini, Beşdəli məhəlləsində Ağa məscidini, Qaracüzlü məhəlləsində Fədai məscidini və s. göstərmək olar.

XIX əsrin ikinci yarısında tikilmiş "Böyük məscid", yaxud "Cümə məscidi"ni müqəddəs Məkkə ziyarətindən qayıtmış, Salyanın hörmətli adamlarından biri olan **Hacı Mehdi** öz sərmayəsi hesabına oğlunun adına ucaltmışdır. Məscidin içərisində baş fasadın sağ və sol girişində daşda həkk olunmuş ərəb dilində yazılar vardır. Burada göstərilir ki, bu məscid hicri 1283-cü ildə (miladi 1865-ci il -red) Hacı Mehdinin oğlu **Ağa Hüseynin** adına ucaldılmışdır. **Ustası Kərbəlayi Əli Əkbər** olmuşdur. Yazılar bu günə qədər yaxşı saxlanılmışdır. Məscidin bir hissəsi 30-cu illərin əvvəlində küçə çəkilişi ilə əlaqədar sökülmüşdür. Vaxtı ilə çəkilmiş, əlimizdə olan şəklinə əsasən deyə bilərik ki, məscidin minarəsi zərif və mütənasib olmuşdur. Həm məscid, həm də mədrəsə kimi fəaliyyət göstərən bu tikinti incə zövqlə işlənmişdir. Içəridən sütunlarla ayrılmış gümbəzaltı tacları cəlbedicidir. Sol girəcəkdə bir tağ aşırımı boyda otaqda şəbistan yerləşir.

Bu məscidi ən yaxşı memarlıq və arxitektura nümunələrindən biri kimi qiymətləndirirlər.

XIX əsrin ikinci yarısı və bizim əsrin əvvəllərində yaşamış varlı Salyan tacirlərindən olan, indi də adı hörmətlə çəkilən **Hacı Tağı Kərbəlayi Hüseyn bəy oğlunun** Salyan məscidlərinin tikilməsində böyük rolu olmuşdur. Hacı Tağı şəhərdə əsaslı şəkildə üç məscid binasını öz pulu ilə tikdirib müsəlman əhlinə bağışlamışdır.

Atasının var-dövləti hesabına özünə mülk yaradan Tağı getdikcə varlanmış və çox keçmədən adlı-sanlı bir bəyə çev-



rilmişdir. Tağının nə qədər sərvəti artsa da, üzü gülmürdü. Övladı olmayan Tağı deyilənə görə, üç dəfə evlənmişdir. Lakin qismətində övlad olmamışdır. Getdikcə yaşlanan Tağı bir varlı müsəlman kimi boynunda olan borcu yerinə yetirməyə çalışır. Müqəddəs Məkkəyə ziyarətə gedib qayıdır. Taleyinə sonsuzluq yazılan Hacı Tağı ömrünün qürub çağında Salyanın nüfuzlu şəxsiyyəti sayılan Ağa bəyin məsləhəti ilə övlad əvəzi kimi məscid tikdirməyi qərara almışdır.

Hacı Tağı şəhərin Qaracüzlü məhəlləsində məscid tikdirir. Məscidin çöl divarında, mehrabın üstündə ərəb dilində yazılmış kitabədə göstərilir: "Bu məscidin binası Kərbəlayi Hüseyn bəy oğlu Hacı Tağı tərəfindən qoyulub-hicri 1327-ci il, ramazan ayının ortalarında (miladi 1909-cu il sentyabr ayının ortaları -red) tikilib bağışlanılıbdır. Bənnası **Əli Əkbər** olmuşdur."

Məscid bu gün də fəaliyyyət göstərir. Binanın sol tərəfində olan minarə sonradan sökülmüşdür. Sağ tərəfdə şəbistan yerləşir. Məscidin içərisində bütün divarlar boyu müqəddəs "Quran"dan Məhəmməd peyğəmbərin meracını əks etdirən "Bəni israil" surəsinin ayələri yazılmış, şərq üslubunda müxtəlif bəzək işləri aparılmışdır. XX əsrin 30-cu illərinin axırlarında bir müddət bağlanılan məscidin 1943-cü ildə açılmasında rayonun hörmətli mömin şəxslərindən olan **Mirzə Xəlüllah Məşədi Fəttahın** böyük rolu olmuşdur.

Şəhərin Seyidlər məhəlləsində yerləşən, müxtəlif dərman və preparatlar saxlamaqdan ötrü anbar kimi istifadə edilən müqəddəs məscidimizdən bəlkə də indiki nəslin nümayəndələrinin xəbəri yoxdur, yaxud da binanın vaxtı ilə Allah evi olmasını heç ağıllarına belə gətirmirlər. Çünki məscidin fəaliyyəti 1929-30-cu illərdən dayandırılmışdır. Hündür və əzəmətli görünən məscidin minarəsi sökülmüşdür. Çöl divarında, mehrabın üstündə ərəb dilində olan kitabə məscidin kim tərəfindən tikilməsi ilə əlaqədar yuxarıda söylədiyimiz fikri təsdiq edir:





"Bu məscidin binası qoyulub **Hacı Tağı Kərbəlayi Hüseyn** bəy oğlu tərəfindən, rəbiəl-axır ayında, hicri 1326-cı ildə" (Miladi 1908-ci il, aprel ayında-red).

Şilli məhəlləsinin məscidi kimi tanınan tikili bu günə qədər qalsa da, baxımsızlıq üzündən köhnəlmişdir. Çox keyfiyyətlə və incə zövqlə tikilən məscidə zaman və təbiət nə qədər əl çəksə də gözəlliyi və orijinallığı ilə başqa tikililərdən seçilir. Məscidin fəaliyyəti 1929-cu ildə dayandırılmış və onun bir hissəsi sökülüb yerində küçə salınmışdır. Binanın divarlarında yazı və müəyyən bir qeyd aşkar edə bilmədik. Lakin məhəllənin ixtiyar qocaları onun tikilməsini də Hacı Tağının adı ilə bağlayırlar. Təxminən 1911-12- ci illərdə tikilməsi güman edilən məscidin sağ tərəfindəki şəbistan hissəsində mədrəsə olmuşdur. Burada **Kərbəlayi Molla Hüseyn, Molla Abısəməd, Molla Əbdülhəsən, Molla Əziz** kimi savadlı mollalar dərs demişlər.



Şəhər kolxoz bazarında yerləşən məscid də öz orijinallığı ilə seçilir. Məscid keçən əsrin ikinci yarısı və bizim əsrin əvvəllərində Salyanın varlı tacirlərindən biri olan **Hacı Səməd** tərəfindən tikdirilmişdir. Binanın 24 metrdən ibarət olan minarəsi sökülmüşdür. Hazırda minarənin təxminən 12 metrə çatan qalığı durur. Binanın divarlarında kitabəyə rast gəlməsək də yaşlılar binanın Birinci Dünya müharibəsi başlanan vaxt, yəni 1914-cü ildə açıldığını bildirirlər. Təxminən 400 nəfərə qədər adam üçün nəzərdə tutulmuş məscid həm də mədrəsə olmuşdur. Burada dini təhsili olan və xalq arasında "ruhani" adı ilə tanınan **Molla Məmməd** dərs demişdir.

**Sahib Həsənov,**
tarixçi.

*Yeri gəlmişkən onu da bildirək ki, rayondakı Pir xanəgahı 1265-ci ildə inşa edilmiş və qalıqları hələ də qalır.*

## "SARI SEYDAN" OCAĞI



Müqəddəs ocaq və pirlərimiz arasında "Sarı Seydan" ocağı da mühüm yer tutur.

"Sarı Seydan" ocağının tarixi barəsində 2 ehtimal var:

1721-ci ildə rusların Azərbaycana basqını zamanı İrandan seyidlər müsəlman bacı-qardaşlarının köməyinə gəlmiş, (Sali Seyidan, yə'ni seyidlər gələn il) düşmən basılmış, lakin onların rəhbəri, seyid Saləddin döyüşdə qəhrəmancasına şəhid olmuş və o Xalac kəndində dəfn edilmişdir.

İkinci ehtimal isə aşağıdakından ibarətdir: M. S.Ordubadinin "Qılınc və qələm" romanında belə bir epizod var: şəhid olmuş bir ərəb mücahidini-imamın yaxınlarından birini Şeyx Nizami Gəncəvi Salyanın Xalac kəndi ətrafında dəfn edir. O şəhid, qərib, islam uğrunda şəhid olmuş cəngavərin adı Sarı Seydan imiş.

Elə o vaxtlardan da xalq bu qəribin, imamımızın əshabələrindən olan Sarı Seydanın qəbrini ziyarətgaha çevirmiş, insanlar bu müqəddəs ocağa, Allahın dərgahına üz tutaraq, öz niyyət və diləklərinin qəbul edilməsi üçün dualar etmişlər.

Bu gün "Sarı Seydan" ocağına iman gətirən yüzlərlə xəstə, dilək, niyyət sahibləri Allah dərgahına üz tutanda xalqımızın qeyrətli oğullarının da ölənlərinə rəhmət, özlərinə can sağlığı diləyirlər. Minlərlə insanın dua etdiyi, alqış





elədiyi o nurlu insanlar bu müqəddəs yeri abadlaşdırmış, ocağın üstünü götürtmüş, ziyarətə gələnlər üçün hər cür şərait yaratmışlar. Namaz qılmaq, dəstəmaz almaq, qurban kəsmək üçün ayrıca otaqlar tikilmiş, bura ziyarətə gələnlərin dincəlməsi üçün rahatlıq yaradılmışdır.

Adının çəkilməsini istəməyən o xoşbəxt insanlara qibtə də edirsən... Böyük savab qazanmış o qeyrətli insanlara biz də üz tuturuq. Allah ölənlərinizə min rəhmət eləsin, sizi xatadan-bəladan, mərdimazardan uzaq eləsin.

**Hacı Salman Salyani, nahiyə qazisi:**

-"Sarı Seydan" ocağı sınanılmış ocaqlarımızdandır. El-oba bura həmişə üz tutur, yüzlərlə insan bu ocağa nəzir-niyaz deyir. Ən çoxu da sarılıq tutan xəstələr" Sarı Seydan"a pənah gətirirlər.

Əvvəllər bu ocaqda camaatın ziyarət etməsi üçün heç bir şərait yox idi. Sağ olsun eloğlularımız. Bu gözəl şəraiti onlar yaradıb. Həmişə də ailəsi ilə birlikdə bura ziyarətə gəlirlər. Allah onları və bütün iman sahiblərini darda qoymasın, "Sarı Seydan" ocağı onların yolunu daha da nurlu etsin!

**Zakir İbrahimov, Qırxçıraq kənd sakini:**

-Mən hər il bu ocağa gəlirəm. Oğlum Türkiyədə təhsil alırdı. "Sarı Seydan" ocağına niyyət etmişdim ki, oğlum sağ-salamat qurtarıb, Vətənə qayıtsın, qurban kəsim. Niyyətim qəbul olub. Allah bütün niyyət sahiblərinin niyyətini ürəyində qoymasın, "Sarı Seydan" köməklərinə çatsın.

"Sarı Seydan" ocağına axund, gənc islamşünas, ağır seyid nəslindən olan **Əlisəf Abbasov** nəzarət edir, burada dini ayin və adətlərə tam riayət edilməsinə çalışır.

Gənc olmasına baxmayaraq, onun başı çox bəlalar çəkmişdir. Seyid Əlisəf torpaqlarımızın azadlığı uğrunda döyüşlərdə iştirak edib. Şuşada-1988-ci ildə Kövhər ağa məscidi-



nin açılışı zamanı o vaxtkı bərbad məscidin minbərinə qalxmış, azan vermişdi.

Sonralar o Salyanın görkəmli **din xadimləri Hacı Salmanın, Axund Əlqəmənin** yanında islamın sirrlərini öyrənmiş, kamillik zirvəsinə çatmışdır.

Onu da qeyd edək ki, Əlisəfin anası seyid **Kübra bel-kürək seyidlərindən olan seyid Mirsadıq seyid Rza ağanın** törəməsidir.

Əlisəfin bir qızı var: **Mirkübra.**

Bu gün seyid Əlisəf öz ustadlarının, müəllimlərinin yolunu layiqincə davam etdirir. "Sarı Seydan" ocağına gələnlərin hamısı ondan razılıq edir.

**Yumşaq rəftarda xeyir, yaxşılıq və bərəkət vardır, mülayim rəftar etməyən xeyirdən məhrum olur. Həmişə xeyir söz söyləyin, şər sözlərdən uzaq olun.**

**Qurani- Kərim**





## MÜQƏDDƏS MƏSÇİD



*Mən bununla fəxr edirəm.*
*Ağa hamımıza, bizə gərəkdi,*
*Neçə nəsillərlə o bir örnəkdi.*
*Nəsildən-nəsilə keçəcək adın,*
*Möminlər diyarı ana Salyanın.*
*Çox yerdə görmüşəm xeyriyyəçini,*
*Bu gün Kərbəlayi Ağahüseyni,*
*Kəndində müqəddəs məscid tikibdir,*
*Bizim Kərbəlayi Ağahüseyn,*
*Çox yerdə iş görüb, göstərib özün.*
*O tikdiyi məscid ziyarətgahdı,*
*Ona hökm verən qadir Allahdı.*
*Əgər biz söyləsək düz həqiqəti,*
*Kərbəlayinin çoxdur zəhməti.*
*Məscidin bənnası, arxitektoru,*
*Həm də məscidin olub axundu.*
*Fəxr elə, Salyanım, bu amalına,*
*Müqəddəs nur yağır sənin adına.*
*Belə səxavətli övladlarına,*
*Onların cəddinə daim arxalan,*
*Nurani baxışlı ana Salyanım.*

**F. Fəxrəddin**

Dəfələrlə bölgələrimizdə olarkən xeyriyyəçilərimizin məscidlər tikdirdiyinin şahidi olmuşuq. Lakin Salyanda, Ərəb Bəbirxanlı kəndindəki məscidin xuddamı **Kərbəlayi Məşədi Ağahüseyn kişi** başqalarından seçilir.

O, el arasında öz zəhmətsevərliyi, vətənpərvərliyi, səxavəti, ədaləti ilə tanınmış insandır. İmkansızlara, yetim-yesirə əl tutmağı özünə müqəddəs borc hesab edir.

Kərbəlayi Məşədi Ağahüseyn Səfərov hələ o qanlı-qadalı günlərdə, 20 Yanvarda Bakıda təcavüzə məruz qalmış oğul



və qızlarımıza ilk yardım aparan, şəhidlərimizin matəm mərasimini təşkil edənlərdən biridir.

Onu da xatırladaq ki, bu məscidin yenidən tikilib ərsəyə gəlməsində Ağahüseyn kişi çox əziyyətlər çəkib.

Söhbət təkcə mə'nəvi əzab-əziyyətlərdən getmir. O qeyd edir ki, məscidin tikilməsində Salyanın, Neftçalanın, ətraf yerlərin qeyrətli oğullarının, xüsusən **B. Leysanov, Q. Həsənov, Ş. Salmanov, S. Salmanov, Ş. Qədirov, G. Salmanov** və o cümlədən digər oğullarımızın böyük zəhməti olub. Amma yenə də əsas yük Ağahüseyn kişinin boynuna, onun balalarının, kənd sakinlərinin çiyninə düşüb, məscidin inşasını 1989-cu ildə başlayıb, 2000-ci ildə başa çatdırıb.

2003-cü il sentyabr ayının 24-də Həzrəti Məhəmməd s-ya peyğəmbərlik verildiyi gün məscidin dövlət qeydiyyatına alınması mərasimi keçirildi.

Tədbirdə Salyan Rayon İcra Hakimiyyətinin keçmiş başçısı **Yusif Ələkbərov,** şöbə müdiri **Şəmsəddin müəllim,** Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin məsul işçisi, islamşünas alim **Mustafa İbrahimov**, Komitənin Salyan üzrə nümayəndəsi, fəlsəfə elmləri namizədi **Tərlan Quliyev**, Əli-Bayramlı şəhər məscidinin axundu **Məşədi Əvəz**, rayon sakinlərindən **seyid Mirnadir ağa, Məşədi Fəridə, Əvəz müəllim** və başqaları çıxış edib məscidlə bağlı ürək sözlərini dedilər.

Tədbirin sonunda **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, islami dəyərlərimizin möhkəmlənməsində bacarığını əsirgəməyən professor Rafiq Əliyevin** göndərdiyi müqəddəs "Quran" kitabları və müəllifi olduğu kitablar görüş iştirakçılarına hədiyyə edildi.





Hər gün bu müqəddəs məscidə onlarla adam pənah gətirir. Xəstəsi olan, nəzir deyən məscidə ziyarətə gəlir, niyyətləri qəbul edildiyi üçün Allaha dua edirlər.

Biz orada olarkən Neftçaladan **Surma xala** sudurğa keçirən oğlunun sağalması üçün bu məscidə nəzir dediyinə, niyyəti qəbul olduğuna görə iməkləyə-iməkləyə məscidə gəldiyinin, sevindiyindən ağladığının şahidi olduq.

İllərlə övlad üçün tamarzı olan, Biləsuvar rayon sakini **Gültəkinin** yuxusuna bu məscid girir. Axtara-axtara bu məscidi tapır. Ziyarətə gəlib niyyətinə çatır.

Onu da xatırlayaq ki, bu məscid üç dəfə tikilmişdir. Birinci tikilişi xatırlayanlar dünyasını dəyişmişdir. Amma ikinci dəfə məscidi **Səməd bəy** tikdirmişdir. O, dövrünün varlı-karlı kişilərindən biri olub. Bu məscidi də **Mirbağır ağayla** məsləhətləşdikdən sonra tikdirib.

Səməd bəy Həccə getmək istəyib, odur ki, Mirbağır ağanın yanına məsləhətə gedir. Ziyarətinin məscidin tikdirilməsində görən Mirbağır ağa onun gətirdiyi 5 kq qızılı üç yerə bölür və bir hissəsini Səməd bəyin özünə, bir hissəsini kasıb-kusublara, əlsiz-ayaqsızlara xərcləməsini və bir hissəsini də məscidin tikdirilməsinə sərf edilməsini məsləhət görür.

Səməd bəy də ağanın məsləhətinə qulaq asır. O, Ərəb Bəbirxanlı kəndindəki müqəddəs yerdə məscid tikdirir, məscidin daşının üstünə də öz adını yazdırır: (hicri-qəməri tarixi ilə 1332, miladi tarixi ilə 1911-1912-ci illər. Qədvəği məscid Kərbəlayi Səməd Kərbəlayi Cəbrayıl oğlu).

Deyirlər ki, bu yerdə X əsrdə islamın Azərbaycanda yayılması zamanı şəhid olmuş iki nəfər mücahid, imamlarımızın yaxınları dəfn edilib. Elə o vaxtdan da bu yer yaxın-uzaq ellərin iman yeri olub.

**Kərbəlayi Ağahüseyn hələ 1918-1919-cu illərin bolşevik-erməni rus qüvvələrinin Ərəb Bəbirxanlıya qədər gəlib çıxmasını atasının söylədiklərindən xatırlayır:**

- Ermənilər üç gəmi ilə Bakıdan Bankəyə gəlib çıxır, Diro dağında dinc əhalini qırırlar. Silahsız camaat naəlac qalır, ar-

vad-uşağı kənddən Salyana köçürməyə başlayırlar. Bankədən Salyana qədər camaat didərgin düşür. Bu zaman Mirbağır ağa, Mirəşrəf ağa, Mirhəşim ağa və başqa hörmətli din xadimləri türklərə xəbər göndərir. Əli silah tutanlar ağaların çağırışına yığılır.

Türk komandirlər - Ənvər paşa, Nuru paşa, İsmayıl paşa, Ramazan paşanın başçılığı ilə türk əsgərləri köməyə gəlirlər. Kur qaraqaşlının cənub tərəfində mövqe tuturlar. Onların bir topları da olub. Paşalar ağaların yanına gələrək qüvvələrinin, silahlarının az olduğunu bildirirlər. Ağalar da deyir ki, biz də varıq, hələ ki, ölməmişik. Camaata müraciət edirlər. Ağaların başına onlarla silahlı adam yığılır. Camaat Ərəb Bəbirxanlıdan bir az aralıda pusquda durur. Gözləməyə başlayırlar. Nuru paşa tapşırır ki, mənim işarəm olmadan bir nəfər də atəş açmasın.

Bu vaxt ermənilər xəbər göndərirlər ki, Salyana girəndən sonra Mirbağır ağanı gəminin dor ağacından asacağıq. Ağa da onlara cavab göndərir ki, sizin kimilərin heç dırnağı da bu torpağa dəyməyəcək...

Ermənilər yavaş-yavaş irəliləməyə başlayırlar. 30-40 metr



qalmış Nuru paşa işarə edir və ermənilərin hamısını darmadağın edirlər. **Məşədi Nağı İsmayıl oğlu, Nəzir Ağayar oğlu, Ağabba Hüseyn oğlu, Həşim Ələsgər oğlu, Məşədi Məmmədəli oğlu şəhid olmuş, o cümlədən Əli Kərbəlayi Hüseyn oğlu, Məcid İslam oğlu, Abbas Aslan oğlu** xüsusi qəhrəmanlıq göstərmişlər. 2004-cü ildə Kərbəlayi Ağahüseyn öz şəxsi vəsaiti hesabına məscidin həyətində onların xatirəsinə abidə kompleksi ucaltmışdır.





Həmin döyüşdə türklər Mirbağır ağaya fəs və üçatılan tüfəng bağışlamışlar. Həmin döyüşdə Kərbəlayi Ağahüseynin atası **Əli Səfərov** da iştirak edib.

30-cu illərdə həmin məscidi sökmək istəyirlər. Sökmək istəyənlərdən 2 nəfəri yuxarıdan yıxılaraq qol-qıçlarını sındırırlar. Sonradan məscidi sökməyə traktorçu göndərirlər. Traktor məscidin divarlarının bir metrində sönür. Buna inanmayan rayon rəhbəri gəlib özü şahid olduqdan sonra çıxıb gedir, məscidə toxunmamağı tapşırır.

Sonralar məscidi anbar edirlər. Aradan xeyli keçmiş məscidi yenə də sökmək istəyəndə qapının üstündəki şəklin qeybdən həkk olunmasına inanmayanlar, şəklin rəsmini bıçaqla qaşıyanda dəhşətli hadisə, mö'cüzə baş verir. Şəkildəki yaralanmış insanın yara yerindən həqiqi qan axmağa başlayır. Bununla da daha heç bir şeyə toxunmurlar və məscid bərbad hala düşənə qədər toxunulmaz qalır. Bunu o vaxtın fəal kommunistlərindən olan **Ərəstun Manafov** ölümündən əvvəl, bu yaxınlarda açıb danışdı. Bunu Qardaşbəyli kənd sakini, el ağbirçəyi, dünyanın hər üzünü görmüş, bir çox hadisələrin şahidi olmuş **Mina xala** da təsdiq etdi.

**Kərbəlayi Ağahüseyn :**

- Keçmişdə Salyan rayonu "Darülmöminlər diyarı" kimi çox yüksək bir ad qazanmışdı. Amma təəssüf ki, Sovet hakimiyyəti illərində bu ad qismən kölgədə qalsa da, Allaha çox şükür ki, rayonun nurlu ağsaqqalları, o cümlədən **Hacı Salman, Hacı Əlqəmə, Hacı Oqtay, seyid Mirnadir ağa** kimi nüfuzlu din xadimlərimizin sayəsində yenə də öz əvvəlki şöhrətini bərpa edə bilmişdir. Kərbəlayi Ağahüseyn kişinin özü kimi də nurlu, xeyirxah övladları var: **Xanhüseyn, Qüdrətəli, Lalə, Təranə, Bənövşə,** nəvələri: **Eynulla və Rəşad Quran** oxuyurlar.

İnanırıq ki, qədirbilən xalqımız Kərbəlayi Ağahüseyn kimi xeyirxah əməl sahiblərinin xidmətlərini heç vaxt unutmayacaq, həmişə onunla fəxr edəcəkdir.

## AXUND MİRBAĞIR AĞA

*"Hansı ölkəyə gedəcəyəm ki, din yolunda şəhid olmağa şərəfyar olacağam"*

**Ağa Mirbağır ağa**



Azərbaycanın ən qədim bölgələrindən sayılan Salyan bəşəriyyətə bir çox görkəmli şəxsiyyətlər bəxş etmişdir. **Əli bəy Hüseynzadə, Ənvər Qasımzadə, Xəlil Rza Ulutürk, Əliağa Kürçaylı, Ağaxan Əlibəyli, Yusif Qasımov, Əlövsət Quliyev, Ağacavad Əlizadə, Böyükkişi Talıblı, Fikrət Zərgərli, Firuz Məlikov, Arif Məlikov, Rahim Hüseynov, Əjdər Ağayev, Oktay Rza və onlarca başqaları bütün Azərbaycanın fəxridir.**

Ruhi mədəniyyət həmişə insan inkişafının mahiyyəti və aparıcı qüvvəsi olmuşdur. Ruhi mədəniyyətin yaradıcısı və daşıyıcısı mədəni insandır. Bu da əsasən dörd me'yardan ibarətdir: bilik, bacarıq, təşkil olunma qabiliyyəti və mə'nəviyyat. Mədəniyyətin səviyyəsi məhz bu göstəricilərdən asılıdır. Müasir, müstəqil Azərbaycanda ruhi mədəniyyət sahəsində köklü dəyişikliklər aparılması zamanın tələbidir. Cəhalətin aradan qaldırılması yalnız təhsilin və elmin inkişafının üstünlüyünü tə'min etmək vasitəsilə mümkündür. Bu həqiqəti əsas tutaraq insan kamilliyinə doğru getməliyik.

Salyan rayonu "Darülmö'minin" (mö'minlər evi) içərisində yeganə bir yerdir ki, Nəcəfül-Əşrəfdə yetirdiyi müctehidlərə görə "Darülmö'minat" fəxri adına layiq görülmüşdür.

Təkcə onu demək kifayətdir ki, Çafqaz müsəlmanları Şeyxülislamı vəzifəsində 3 nəfər salyanlı müxtəlif vaxtlarda işləmişdir. Sözsüz, onların mə'nəvi rəhbəri həmişə Mirbağır ağa olmuşdur.





Respublikamızın din alimlərindən biri də iyirmi iki ildən artıq Xorasan dini mərkəzində və Nəcəfül-Əşrəfdə Ali Ruhani Məktəbdə təhsil alan **axund Mirbağır ağa Ağazadədir.** Onun indi də həmin məktəbdə şərəf lövhəsində şəkili vardır.

Mirbağır ağa 1873-cü ildə Salyan şəhərinin köhnə Bərəüstü məhəlləsində sıravi ruhani **Hacı Zeynalabidinin** ailəsində anadan olmuşdur.

Mirbağır ağa Salyanda yaradılmış mədrəsədə (onun yaradıcısı Mirheydər ağa olmuşdur) ilk təhsilini almışdır. **O, Şeyx Əbdül Səmədağa, Seyid Ibrahim Salyani, axund Mirzə Xəlilullah** və başqaları ilə birlikdə 1887-ci ildə Iranın Xorasan vilayətinə-Elmi -Hövziyyə məktəbinə göndərilmişdir. Həmin vaxtda ona dərs deyən müctəhidlər **Seyid Kazım Təbatəbai və Ayətullah Şərabyani** ona Nəcəfül-Əşrəf şəhərinə oxumağa getməyi məsləhət görmüşlər. Onunla birgə bir neçə azərbaycanlı da təhsilini həmin ruhani məktəbində davam etdirmişdir.

Göstərilən Ruhani Akademiyasında astronomiya, riyaziyyat, həndəsə, nəbatət, təbabət elmlərinə mükəmməl yiyələnən Mirbağır ağa böyük elm sahibi kimi tanınmışdır. Bundan başqa o bir nurlu sima kimi ağsaqqal, sözünün yerini bilən, əsasən vətənpərvər olaraq özünü tanıtmışdır. Nəcəfül-Əşrəfdə müvəffəqiyyətlə təhsilini başa vurduqdan sonra Mədineyi-Münəvvərdə imtahan verərək "Qərini-Ictihad" ali ruhani adı ilə 1909-cu ildə Salyana dönmüşdür. O, Salyana təhsil alarkən evləndiyi seyid Mirsəfiyyə ilə qayıtmışdır. Ondan **oğlu Mirməhəmməd və üç qızı- Mirfatma, Mirməsmə və Mirsəkinə** anadan olmuşdur.

Mirbağır ağa el ağsaqqalı kimi çox böyük hörmətə malik olmuşdur. Salyan sakinləri hər hansı vacib məsələ çıxdıqda ilk növbədə onun yanına gəlib məsləhət alar və razı qalardılar. Onun elmi biliklərə yiyələnməsi camaata xeyir gətirirdi. Inqilabdan əvvəl inqilabçıları, əsasən Əzim Əzimzadəni zirzəmidə gizlətmişdi.

İnqilabdan sonra isə öz fəaliyyətində ölkə quruluşuna qarşı çıxmamışdı. Inqilabdan sonra Salyan ağalarının əksəriyyəti, Mirəşrəf ağa və başqaları Irana mühacirət etmişlər. Mirbağır ağaya bu təklif olunduqda e'tiraz etmişdir. Ağanın oğlu Məhəmməd isə Nəcəfə - Seyid Əşrəf ağanın oğlu Seyidəli ilə birgə oxumağa getdiyinə görə xaricdə qalmışdır.

Günlərin bir günü yenə də Mirbağır ağanın evinin qabağında qara maşın dayanır. Onun içində bir nəfər oturmuşdu. O, Ayna Sultanovanın həyat yoldaşı Həmid Sultanov idi. O, ağaya müraciət edərək dedi:

"Ağa, səni tutacaqlar, gəlmişik səni aparaq, gizlədək".

Mirbağır ağa cavab verdi:

"Mən heç bir pis iş görməmişəm, xalqımı müdafiə etmişəm, kömək etmişəm, heç yerə getməyəcəyəm, gizlənməyəcəyəm".

Onun nüfuzunun böyük olması, əlbəttə, dar düşüncəli dövlət aparatı işçilərini rahat buraxa bilməzdi. Ermənilər-bolşeviklər keçən əsrin əvvəlində Kür çayı boyu Salyana hücum etdikdə Mirbağır ağa vaxt itirmədən Türkiyə hökumətinə müraciət etmiş və kömək istəmişdi. Ağanın bu addımı sonralar ona baha başa gəlmiş və ilk repressiya qurbanlarından biri olmuşdur. 1930-cu ildə həbs edilmiş və 1932-ci ildə I.V.Stalinə məktubla müraciət etmişdir. 1933-cü ildə həbsdən qayıtdıqdan sonra tikdirdiyi məscidlərdən və mədrəsələrdən əsər-əlamət qalmamışdı. Adi ruhani kimi fəaliyyət göstərmiş və yenə də əvvəlki böyük nüfuzu qalmışdı. Mirbağır ağanın minbərə çıxması böyük hadisə kimi qarşılanırdı. Onun müdrik kəlamlarını eşitmək üçün çox adam toplanırdı və onu həmişə səbrsizliklə gözləyirdilər. 3-il Sibirdə sürgündə Mirbağır ağa daha da güclü olmuşdu. Ancaq 1937-ci ildə həbs edildikdə qərarı qəti verdilər: "Güllələnsin və bütün mülkiyyəti əlindən alınsın!".

Bu, onun ailəsinə və əsasən xalqına ağır cəza idi.

Mirbağır ağa Qazaxstanın Karaqanda şəhərində 1941-ci ildə rəhmətə getmişdir.





Mirbağır ağanın ailə üzvləri həm davranışda, həm də biliklərə yiyələnməkdə ondan çox bəhrələnmişlər. Ərəbstandan gətirdiyi həyat yoldaşı rəhmətə getdikdən sonra Mirbəyim adlı xanımla evlənir və ondan üç qızı həyata gəlir: **Mirələviyyə, Mirrübabə və Mirteyyibə.**

Üçüncü xanımı Səlmi olmuşdur. O Şorsulu kənd sakini idi. Ondan da iki qızı olur - **Sura və Sara**.

Mirbağır ağanın iki qızı yaşayır-**Sara və Mirteyyibə.** Mirteyyubənin qızı **Balacaxanım** babasının yolunu davam etdirir. Bir qızı var - **Zeynəb**. Sara xanım Şorsuluda, Mirteyyibə isə rayonun özündə olur. Nəvələri və nəticələri öz ailələri ilə Salyanda və başqa rayonlarda, əsasən Bakıda məskunlaşmışlar. Onun nəvələri özləri indi babadırlar və onun xatirəsini əbədi olaraq xoş məramlarla xatırlayırlar.

Ağaya Azərbaycan SSR Ali Məhkəməsinin 7-3/303 saylı qərarı ilə bəraət verilmiş və əmlakının az bir hissəsi ailəyə qaytarılmışdır.

Mirbağır ağanın qardaşı uşaqları **Mirsüleyman, Mirsəlim və Mirhadı** da ağanın adına layiq insanlar olmuşlar. Onların həyat tərzi, davranışları, yaşayışı nəsillərə nümunədir. Paklıq, doğruluq, ədalət təcəssüməsi olan bu insanların həyatı keşməkeşli olsa da, onlar Allahı, Qur'ani-Kərimi unutmamış, öz zəhmətləri, dinə bağlılığı ilə minlərlə insana örnək olmuşlar.

Allah onlara və bütün dünyasını dəyişmiş şiə övladlarına rəhmət eləsin, balalarını min budaq etsin!

**Ağanın nəvəsi Ağalarov Mirmehdi Sadiq oğlu da yaxşı buyurur:**

***Ey könül, Allahı sev, ol dərddən, qəmdən kənar,***
***Çün səni xəlq eyləyib, səninçin yaratmış kainat,***
***Istəsən məqsədə çatmaq, yada sal Peyğəmbəri.***
***Səbrdir həll eləyən, həll olmayan müşkülləri.***

**Mirbağır ağanın qızı Mirteyyibə xanım:**

-Atam haqqında nə isə söyləmək mənim üçün həm asandır, həm də çətin. Çətindir, ona görə ki, hələ erkən yaşlarımdan ata qayğısından məhrum olmuşam. Atasızlığın nə olduğunu dadmışam. Amma Mirbağır ağa kimi bir müqəddəs şəxsiyyətin qızı olmağımla fəxr edirəm.

- 37-ci il idi. Iki nəfər hərbi geyimli şəxs gecə yarısı evimizə gəldilər. Bizim göz yaşlarımıza baxmayaraq atamı həbs edib apardılar. Mənim onda 11 yaşım var idi. Bacımla mən atasız qaldıq. Bir neçə gündən sonra evimizə gəlib ev əşyalarımızı da müsadirə edib apardılar. Biz acınacaqlı bir həyat tərzi yaşadıq. Hər şeyə dözdük. El-oba atamın adını keçmişdə olduğu kimi, yenə də uca tutur. Onun xalqa, elə bağlılığı haqqında çox şeylər eşitmişəm. Bu gün də onun xoş əməllərindən söhbət açanlara, onu yad edənlərə Tanrıdan uzun ömür diləyirik.

**Mirbağır ağanın nəvəsi Ağazəki Məlikov:**

-Anam Mirməsmə danışır ki, atam bölgədə böyük nüfuz sahibi idi. Onun yanına hətta Irandan belə məsləhət almağa gələrdilər. Xalq arasında mübahisəli bir hadisə baş verərdisə bunun üçün dövlət orqanlarına deyil, ağama müraciət edərdilər. Ağam isə həmin insanları barışdırıb yola salardı.

Onu tanıyan və tanımayan, adını eşidən, müdrik kəlamlarını dinləyən, görmələrindən hali olan hər kəs daima onu qəlbində bəsləyəcək, yaddaşında saxlayacaq, imkanı daxilində onun haqqında maraqlı mə'lumatları gələcək nəslə ərmağan kimi çatdıracaq. Bax beləcə, biz qocalıb bu dünyaya əlvida deyəcəyik, mənim babam Mirbağır ağa kimi müqəddəslər isə zaman-zaman yaşayacaq, insanlara adları, sözləri ilə ümidlər paylayacaqlar.

**Allahın dərgahında müqəddəslərin yeri behiştlikdir.**

**Abbasov Allahverən Ağaxan oğlu, Salyan rayon sakini:**

-Eşitmişik ki, Mirbağır ağa məsciddə oturan zaman qış vaxtı bir qadın onun yanına gəlir. Ağadan balıq istəyir. Ağa





da bilir ki, qadının balıq almağa pulu yoxdur. Onun vəziyyətini başa düşür. Mə'lumdur ki, qadınlarda elə bir hal olur ki, onların ağızları dadsızlaşır (zahı vaxtı).



Ağa yanındakı Hidayət adlı kişiyə deyir ki, gedək. Onlar gəlib Kür çayının içinə sahildən 7 m uzaq məsafəyədək girirlər. Ağa buzu sındırıb əllərini Allah dərgahına tutaraq istixarə edir. Bu zaman Kürdən 10-a yaxın balıq atılaraq sahilə düşür. Onlardan 2-sini ağa götürür, qalanlarını suya buraxır. Hidayət kişi deyir ki, qışqırdım ki, "Ağa, sən nə edirsən?" O isə dedi: "Sən belə işlərə baş qoşma, həm də mənə cəmisi 2 balıq lazım idi.

O, balığın birini Hidayət kişi ilə həmin qadına göndərir. Ikincisini isə özü mübarək əli ilə yarı bölür, yarısını Hidayət kişiyə verir və deyir: "Allah bunun da yeyənini yetirsin". Hidayət kişi həmişə danışırdı ki, "Ağanın bu mö'cüzatını öz gözümlə görmüşəm".

**Onu da bildirirk ki, xeyirxah, tanınmış eloğlumuz, professor R.Hüseynov ağanın yaşadığı evin qabağında brelyefini qoydurmuşdur. Ömrü uzun olsun.**

**Allah Mirbağır ağaya rəhmət eləsin!**

## "KASIBLAR AĞASI"



"Darül-mö min"lər diyarı olan Salyan torpağı nəcib el ağsaqqalları, nurlu seyidləri ilə tanınır.

Onlardan biri də **seyid Mirhəşim ağadır**.

Seyid Mirhəşim ağa 1870-ci ildə Salyan rayonunda, seyidlər məhəlləsində ruhani ailəsində anadan olmuşdur. Hələ kiçik yaşlarından atasından ərəb və fars dillərini mənimsəmiş, müqəddəs kitabımız "Qur'ani-Kərim"i əzbərdən öyrənmişdir. Onun hafizəsinin belə qüvvətli olması xalqı heyrətə gətirmişdi. Nəhayət, 1898-ci ildə onu Ali ruhani təhsili almaq üçün Nəcəfül-Əşrəf şəhərinə göndərirlər.

Mirhəşim ağa Nəcəfdə 15 il təhsil aldıqdan sonra ali dini rütbə alır, həmin şəhərdə də ailə qurur. O, bir müddət Nəcəfdə yaşadıqdan sonra ailəsi və 2 uşağını götürüb doğma vətəninə, Salyan rayonuna gəlir. Çox keçmir ki, övladının biri rəhmətə gedir. Həyat yoldaşı o biri uşağı götürüb öz məmləkətlərinə getmək istəyir. Bunu görən Mirhəşim ağa öz ailəsini götürüb Nəcəf şəhərinə qayıdır. Orada bir neçə il qaldıqdan sonra həyat yoldaşı da dünyasını dəyişir. Mirhəşim ağa daha orada qalmaq qərarından daşınaraq oğlunu götürüb Salyana qayıtmaq istəyir. Dostlarına məktub yazıb bildirir ki, həyat yoldaşım vəfat edib, indi daha Salyana qayıdıram. Bundan agah olan dostları ağa üçün ev tikmək qərarına gəlirlər. Amma dostlarından biri öz ikimərtəbəli evini ağaya bağışlayır. Hazırda həmin evdə ağanın övladları yaşayırlar.

Mirhəşim ağa Salyanda hörmətli el ağsaqqallarından sayılan **Məhəmməd Rza kişinin qızı Maytab xanımla** evlənir.







Maytab xanımdan ağanın 4 oğlu, 2 qızı olur. Böyük oğlu 24 yaşında, 1948-ci ildə avtomobil qəzasında həlak olur. Onun digər oğlanları **seyid Abdulla** və dördüncü övladı **seyid Mirdaməd** ağa da vəfat etmişdir.

Mirhəşim ağa dövrünün alimi sayılırdı. O, ruhanilik edib, ruzi qazanar, ailəsini dolandırardı. Ağa verilən nəzirlərin çox cü'zi hissəsini götürər, qalanını öz sahibinə qaytararmış.

Fağır seyid olduğuna görə, onu xalq arasında "Kasıblar ağası" adlandırırmışlar.

Ağanın ikinci övladı **Mirsəfurə** Cəlilabad rayonunda ailə həyatı qurmuş, hal-hazırda orada yaşayır. Üçüncü övladı **seyid Mövsüm** ali təhsilli baytar həkimdir.

Ağanın dördüncü övladı **seyid Mirdaməd** (1934-1999) - uzun illər fəhlə, sonralar plastik kütlə e'malı zavodunda ambardar işləmişdir. Mirdaməd ağanın 1 oğlu, 3 qızı var: **Mirşahin, Mirmaytab, Yaqut, Rəşxəndə.**



**Nəvəsi Mirabdulla babasının** yolunu davam etdirir. Qu'ranı (özü də babasına məxsus, hicri tarixi ilə 1351-ci ildə çap edilmiş Qur'anı) tam başa vurub.

Ağa öz qızına anası Maytabın adını qoymuşdur. Hazırda Salyan rayonunda **Vaqif Hüseynovun** ömür-gün yoldaşıdır. Vaqif müəllim həm ağsaqqal, həm də xeyriyyəçi bir adamdır. O, Kürqaraqaşlı kəndindəki məscidi Mirhəşim ağanın adına inşa etdirib. Allah ondan razı olsun.

Ağanın beşinci övladı **Mirsəfiyyə** tibb bacısı, sonbeşiyi **seyid Hüseyn** Salyan rayonu 5 saylı SMD-də mühasib işləyir.

Seyid Mirhəşim ağa çox mülayim, sadə və insanların qəlbini oxşayan bir adam olub. Xalqının xeyir-şərində təmənnasız iştirak edərdi. Dünyasını dəyişənlərin kəfi-dəfnini ağa təmənnasız özü yerinə yetirərdi.

1941-ci ilin dekabrında seyid Mirhəşim ağa xəstələnir və bir neçə gündən sonra rəhmətə gedir. Məzarı Salyan rayon qəbristanlığında müqəddəs ziyarətgah kimi anılır. Buraya hər gün ziyarətə onlarla adam gəlir.

**Mirhəşim ağanın nəvəsi Mirşahin Mirdaməd oğlu:**

-Babam Mirhəşim ağa elimizin, obamızın ağsaqqalı, rayonumuzun ən hörmətli adamı idi. Camaatın pənah bilib sığındığı müqəddəs şəxsiyyət kimi hamının qəlbində bu gün də yaşayır. Onun adı hər evdə, hər ailədə and yeri, inanc məfhumu deməkdir. Təbiətən çox sakit, nurlu və mehriban bir adam olub. Danışırlar ki, adam onunla söhbət etməkdən doymurmuş. Bu nurlu insanın hər kəlamı məzmunlu imiş. Bütün ağalar hamımızın əzizi və müqəddəsidir. Allah-təaladan babama rəhmət, xalqıma əmin-amanlıq diləyirəm.

**Şeyx, axund Əlqəmə:**

- Tarix həmişə dühalar yetirib. Onlar öz elmləri, qabiliyyətləri, kəşfləri ilə qaranlıqları işıqlandırmış, insanlara düz yol göstərmişlər.

Salyan diyarında da belə insanlar çox olmuşdur. Molla Məhəmməd Səlyani, Molla Abdulhəsən, Molla Allahyar Cəngənli, Molla Əziz, Mirzə Həşimxan, Şeyx Səməd Rəbbani, Şeyx Rüstəm, Əbu Ərəbqardaşbəyli, Hacı Həkim Səməd Arbatani, Pirəbbə, Molla Ağabba, Molla Rəhim, molla Rəcəb, axund Mirbağır ağa, Mirhəşim ağa, Mirtərlan ağa, Mirəşrəf ağa və onlarca görkəmli din xadimlərimizin xidməti sayəsində Salyan rayonu müsəlman dünyasında "Darül-mö'min"lər diyarı kimi tanınır. Bu müqəddəs insanların hər birinin həyatı bu günkü gənclərimizə örnəkdir.





Onların həyatlarının öyrənilməsi, təbliği dinimizə, islamımıza böyük köməkdir.

Allah dünyadan köçən bütün islam əhlinə rəhmət eləsin.

**Kərbəlayi Qəhrəman Məmmədov:**

-Dünya dinlərinin şahı sayılan Islam dininə itaət hər bir müsəlmanın borcudur.

Allah evinə, Allaha yaxın olan, ağır seyidlərimizə pənah gətirənlər onlardan könül xoşluğu ilə ayrılır. Belə nurlu ağalarımızdan biri də Mirhəşim ağa idi. Ağamız yoxsul bir din xadimi olub. Ona xalq arasında "kasıb Mirhəşim ağa" da deyərmişlər. Mirhəşim ağa çox böyük hörmət və izzətlə anılan bir şəxsiyyət kimi bütün Salyan əhli tərəfindən daima yad edilir. Ömrünü-gününü dinimizin qorunub saxlanılmasına həsr etmiş müqəddəs insan idi. Bu gün elimizin ağsaqqalı Mirhəşim ağa aramızda olmasa da onun əməli-saleh işləri qəlbimizdə əbədi yaşayır. Ağanın övladları da adına layiq əməlləri ilə xalq yanında böyük nüfuz sahibidirlər. Ağanın yaxınları məscid binası da inşa etdiriblər. Allah-təaladan bölgəmizin nurlu seyidi Mirhəşim ağanı yad edənlərə, onun əməllərini tanımayanlara tanıdanlara uzun ömür diləyirəm.

İmkansızların həmişə köməyi olan Mirhəşim ağaya Allah rəhmət eləsin, qəbri nurla dolsun! Amin!

**Hacı Cavad Əliyev:**

-Mənim valideynlərim son dərəcə dindar olmuşlar. Mən də o ruhda tərbiyə almışam. Özüm də namaz əhliyəm. Şəriətimiz buyurur ki, böyüyünü tanıyan Allah-təalanı tanıyar. O kəslər ki, düz yolda-Allah yolundadırlar, halala haram qatmırlar, onların ruzisi başlarından töküləcək. Bölgəmizin müqəddəs insanları Mirbağır ağa, Mirhəşim ağa, Mirəşrəf ağa və başqaları hələ 70-80 il bundan əvvəl haqq dünyasına qovuşsalar da onlar, onların əməlləri camaatın xatirəsindən silinməmiş, unudulmamışdır. Mən deyərdim ki, bundan böyük xoşbəxtlik yoxdur. Allah o nurlu seyidlərimizə rəhmət eləsin.

## AĞA MİRHEYDƏR AĞA



Möminlər diyarı Salyanın görkəmli din xadimlərindən, alimlərindən biri də Ağa Mirheydər ağadır. O, kasıb seyid olub. Salyanda ilk dini mədrəsəni də o açıb. Bu bölgənin əksər din xadimləri onun mədrəsəsində təhsil alıblar.

Ağa Mirheydər ağanın 2 övladı olub: **Rübabə və seyid Mirkərim.**

Seyid Mirkərim ağa Əli-Bayramlıda yaşayıb və orada da rəhmətə gedib.

Seyid Mirheydər ağanın Salyanın qədim qəbirstanlığındakı müqəddəs məzarının üstünü **Kərbəlayi Seyran Əbil oğlu** götürtmüş, ziyarətgaha gedən yolu hörmətli **Əliağa Hüseynov** çəkdirmiş, qəbirstanlığın girəcəyindəki çardağı isə **Akif Məmmədyarov** düzəltdirmişdir.



Bu gün Salyan camaatının böyük ziyarətgahlarından sayılan ağa Mirheydər ağanın ocağına soy kökü imam Hüseyn əleyhissəlama bağlanan **Kərbəlayi seyid Mirəfsər ağa** rəhbərlik edir.

**Kərbəlayi seyid Mirəfsər ağa** 1995-ci ildə Kərbəla ziyarətində olub. **Oğlu seyid Rövşən** də atasının yolunu davam etdirir, ziyarətgaha gələnlərə dua edir.

Allah köməkləri olsun. Amin!





## SEYİD MİRƏŞRƏF AĞA



Salyan rayonunun daha bir nurlu siması seyid Mirəşrəf ağa Mirəhməd oğlunun soy-kökü ikinci imamımız Imam Həsənin nəslinə çatır. O, 1870-ci ildə Salyan rayonunda anadan olmuşdur.

Ağazadə Mirəşrəf Mirəhməd oğlu o vaxt Nəcəfdə təhsil alarkən ərəb qızı **Minarə xanımla** ailə həyatı qurmuşdur.

Mirəşrəfin bir qardaşı da Ağa seyid Məhəmməd ağadır. Onu da xatırladaq ki, seyid Mirəşrəf ağanın qardaşı dövrünün tanınmış ziyalısı olmuşdur. Seyid Məhəmməd ağa hətta Salyan qubernatorluğunda mühüm vəzifədə işləmişdir.

Ağa seyid Məhəmməd ağa 1917-ci ildə rəhmətə gedib. Şəhər qəbirstanlığında dəfn edilib. Qızı **Mirzəhra, nəvəsi Məmmədağa** kümbəzin yanında dəfn ediliblər. Qəbrinin üstə gümbəzi **Naib Həsənov**, qalan işləri isə **Kərbəlayi Şirin Yarıyev** gördürüb.



Seyid Məhəmməd ağanın bacıları **Mirsəkinə, Mirziynət, Mirməryəmdir.**

Mirəşrəf ağanın övladları **Mirfatimə, Mirtahirə, oğlu seyid Əhməd, Seyidəli, seyid Hüseyn** olmuşdur.

Mirəşrəf ağa 1901-ci ildə təhsilini başa vurduqdan sonra Nəcəfdən Salyana gəlir. **Rüstəmov Dadaş Xəlil oğlu:**

- Mirəşrəf ağanın anası Miranaxanım Mirələkbər qızı olmuşdur.

Onun qardaşı seyid Məhəmməd ağa isə vəsiyyətində bil-

dirmişdi ki, məni Salyanda dəfn edin, çünki mənim qəbrim burada olsa bu torpağa heç bir vaxt xəta-bəla yetişməz. Daşmış Kür çayının ağanın mö'cüzələri nəticəsində yatması buna əyani misaldır. Mirəşrəf ağa da Mirbağır ağayla birgə ermənilərə qarşı mübarizədə iştirak etmişdi. Bu hadisəni Miranaxanım eyniylə təsdiq etmişdir.



Mirəşrəf ağanın **oğlu Seyidəli** 1905-ci ildə Salyan rayonunda anadan olmuşdur. Ilk təhsilini rus-tatar məktəbində almışdır. O, 1912-1918-ci illərdə elmin əsaslarını öyrənmişdir. Bolşeviklərin Azərbaycana soxulması ilə əlaqədar Mirəşrəf ağanın ailəsi Iraqa köçmüş, oğlu Seyidəli Bakıya qayıdarkən bir daha xaricə buraxılmamış, ailəsindən aralı düşmüşdür.

Azərbaycanda qaldıqdan sonra Seyidəli 1923-cü ilin sentyabrında Lənkəranda təşkil edilmiş pedaqoji kursa daxil olur. Kursu bitirdikdən sonra Bankə qəsəbəsinin Surra kəndində ilk pedaqoji fəaliyyətə başlayır. 1928-ci ildə Salyanda 2-ci dəfə axşam məktəbini bitirir. Xalq Təhsili Komitəsinin əmri ilə Lənkəran qəzasının Kalaxan (indiki Lerik rayonunun ərazisindədir) kəndinə müəllim tə'yin olunur. 1936-37-ci illərdə Bakıda, Əhmədli qəsəbəsində, 64№-li məktəbdə tədris hissə müdiri, 1939-40-cı illərdə şəhər 24 saylı məktəbdə müəllim işləmişdir.

Seyidəli müəllim 1940-cı ildə Lenin adına (indiki N.Tusi adına) Pedoqoji Institutun fizika-riyaziyyat fakultəsinə daxil olur və müharibə başladığı üçün təhsili yarımçıq qalır.

Müharibədən sonra, 1945-50-ci illərdə Bakı Dövlət Universitetinin şərqşünaslıq fakultəsinin ərəb dili şö'bəsini bitirir. Müxtəlif təhsil ocaqlarında müəllimlik etmişdir.

Ağazadə Seyidəli 1976-cı ildə Ali Ruhani Idarəsi tərəfindən Sabirabad məscidinə axund tə'yin olunur.





Seyidəli müəllim istedadlı ziyalı, görkəmli elm xadimi, istedadlı qələm əhli idi. Onun "Bağdad gecələri" povesti hələ 1960-cı ildə "Azərbaycan" jurnalında çap olunmuşdu.

"Qurani-Kərim"in təfsirində Əli Fəhmi ilə birgə işləmişdir.

Ağazadə Seyidəli 12 oktyabr 1979-cu ildə Bakı şəhərində vəfat etmişdir.

Seyidəlinin 6 oğlu, 3 qızı var.

**Hacı İsmayıl, Qafqaz Müsəlmanları İdarəsinin qazisi, Əjdər bəy məscidinin (Göy məscid) axundu:**

- Əlbəttə, mənim üçün Kərbəlayi Seyidəli ağa haqqında danışmaq çox çətindir. Biz onun mərhum atası, qardaşları və anası ərəb qızı haqqında çox eşitmişdik. Eşitmişdik ki, Azərbaycanın bütün yerlərindən onların cəddini çağıraraq sürülər, dəvələr, ilxı atlar nəzir edilər, nəzirləri də qəbul olarmış və o sürünü, dəvələri və ya qaramalı ağanın qapısına gətirərmişlər. Ağa isə mal sahibinə sifariş göndərərmiş: ay oğul, get denən ağam onları öz sahibinə bir manata satır, nəzirləri də qəbuldur.

Seyid Əşrəf ağa həyatını xalqın maariflənməsinə, imkansızların işlə, torpaqla, hər cür maddi yardımla təmin edilməsinə həsr etmiş, nə qədər yetim, bivaris, evlənə bilməyən qızları, oğlanları ailə sahibi etmişdir. Ağanın qardaşı Məhəmməd ağanın vəfatında Salyanda, rayona yaxın bölgələrdə kəndlərin camaatı bir il hüzr mərasiminin qarasından çıxmamışdı.

Biz 1977-ci illərin əvvəllərində axund Əlqəmə ilə Kərbəlayi Seyidəli ağanın evinə gəldik. Mən ağanın evinə gələndə artıq 14 il idi ki, Masallının Əhmədli kəndində yaşamış və minbərə çıxaraq mollalıq etmişdim. Gəlmişdik ki, ağa bizim dərsimizin davamını desin.

Ağa bizə dedi: "Bala, mənim dilimdən iltizam alıblar ki, dini dərs deməyim. Dini dərs deməyi mənə qadağan ediblər, ancaq atam da, nəslimiz də din yolunda ömürlərini sona vu-

rublar. Mən də sizin elminizi təmənnasız davam etdirməyə hazıram.

Beləliklə, Ərəb qrammatikasından, yə"ni Ağayi Zəməxşərənin "Ünumüzəc" adlanan qrammatika kitabından dərsə başladıq. (Ərəb aləmində müəllif öz kitabının adını "nümunə" adlandırmışdır).

Dövlət tərəfindən ağaya nəzarət edirdilər. Bütün bunlara baxmayaraq ağa dərsi davam etdirirdi. Il yarımdan sonra Hacı Adil Sabirabadlını da özümüzə yoldaş etdik. Biz üç nəfər tələbə ağadan hər gün dərs alırdıq. O, həm müəllim, həm də bir ata kimi bizim qayğımıza qalırdı. Hacı Adilin Təzə Pir məscidinin rəisi olması və 1000-dən artıq tələbəyə dərs deməsi, Qur'anı öyrətməsi "Tozihil-məsail" kitabını tərcümə etməsi Kərbəlayi Seyidəli ağanın bərəkətindəndir.

1979-cu ilin oktyabr ayı idi. Həmin gün ki, bizə "Ürvətülvüska" (qırılmayan ip), adlanan kitabı tə'yin etmişdi. Cümə günü idi. Biz Hacı Adilin maşınıyla adəti üzrə dərsə getdik. Gördük ki, ağanın qapısında mafə var. İçəri daxil olduqda gördük ki, ağa rehlət buyurmuşdur. Bunu bilən kimi mənim ürəyim getdi, həkim çağırdılar, iynə-dərmandan sonra ayıldım.

Azərbaycanın hər yerindən axundlar, mollalar, Bakı şəhərindən gələnlər, Salyan camaatı, ziyalılar, din xadimləri, alimlər cəm oldular. Ağa vəsiyyət etmişdi ki, mənim qüslümü, kəfənimi, namazımı, dəfnimi, xanımlarımın payını, balalarımın payını Ismayıl etsin, mənim məclisimi o aparsın. Ağanın dediklərinin hamısına ağaya layiq əməl olundu.

Biz müntəzəm olaraq ağanın Bakının Əhmədli kəndindəki məzarıstanda olan şərəfli məzarının qarşısında baş əyir, onu öpür və ziyarətində oluruq. Ömrümün sonuna kimi də o ağanı Allah kəlamı, Qur'ani-Kərimlə yad etməyi özümə borc bilirəm.

Allah ağaya rəhmət eləsin!





## SEYİD MİRTƏRLAN KƏRBƏLAYİ SEYİD MİRİŞ OĞLU



Mirtərlan ağa Salyan rayonunda tanınmış seyid-peyğəmbər nəslinin nüfuzlu nümayəndələrindən biri olub.

O, 1884-cü ildə Xalac kəndində (yeri gəlmişkən onu da xatırladaq ki, Xalac kəndi qədim türk ellərinin 24 boylarından biri olan Xalac tayfasının adından yaranmışdır-red) anadan olmuş və 1953-cü ildə haqq dünyasına qovuşmuşdur.

Məzarı Xalac kəndində, "Sarı Seydan" ocağının yanındadır.

**Mirtərlan ağa** hələ uşaq vaxtlarından zəhmətə qatlaşmış, öz halal çörəyini əllərinin qabarı ilə qazanmışdır. Onun **atası Kərbəlayi Miriş** də zəhmətkeş olmaqla bərabər, dövrünün tanınmış iman sahiblərindən biri idi. Onların soy kökü yeddinci imamımız Museyi-Kazıma gedib bağlanır. Ağa öz övladlarını da din, Quran əhli kimi tərbiyə etmişdir. Mirtərlan ağanın 2 oğlu olub: **Mirsadiq və Miriş.**

Seyid Mirsadiq ağa (1924-1984) 2 oğul, 5 qız atası idi. **Miryavər, Miryasər, Mirfatma, Mirlayə, Mirtükəzban, Mirzəhra və Mirpüstə.**

Seyid Mirsadiq sıravi işlərdən tutmuş yüksək vəzifələrə qədər çalışıb. Həmişə camaatın hörmətini qazanıb. Mirtərlan ağa el içərisində nüfuzlu ağsaqqal, hörmətli din xadimi kimi

tanınmışdı. Onun möcüzələri və kəramətləri də çox olmuşdur.



Mirtərlan ağanın ölümündən sonra oğlu seyid Miriş ağa atasının yolunu davam etdirir. O həm gözəl insan, həm də xeyriyyəçidir.

Qapısında məscid də tikdirib. **Miryaqub** və **Mirdamət** adlı oğlanları və 5 qızı var.

Mirtərlan ağanın **nəvəsi Miryavər ağa** da babasının yolunu tutub. Həyat yoldaşı **Suma xanım** da əhli-ibadətdir.

**Seyid Miryusif, seyid Mirsaleh, seyid Mirəli, seyid Mirsadıq adlı nəcib oğlanları, Mirəşrəf, Mirsalam və Mirləman adlı nəvələri var.**

**Allah hamısını başacan eləsin.**

Bu gün Miryavər ağa camaatın xeyir-şərinin yaraşığıdır.



Miryavər ağanın ən böyük arzusu xalqına xidmət etmək və bir də babalarının müqəddəs ocaqlarını ziyarət etməkdir. Ağa xeyriyyəçi kimi də tələbələrə köməklik edir, kasıb-kusublara, əlsiz-ayaqsızlara əl tutur. Dövlət tərəfindən ona tapşırılan bütün işlərin yüksək səviyyədə həyata keçirilməsinə nail olmuşdur.

Allah köməyi olsun!

**Məmmədhüseyn Qarayev, həkim:**

- Rəhmətlik Mirtərlan ağanı 6 yaşım olanda görmüşəm. Ailəmizdə həmişə valideynlərim ondan danışar, bizə ibrət dər-





si verərdilər. Ağanın bir möcüzatını danışmaq istəyirəm.

Fevral ayı-qışın oğlan çağı idi. Anamın əmisi qızının toyu idi. Quşbaşı qar yağırdı. Toyun dağılma etimalı yaranmışdı. Camaat ağaya deyir ki, ağa, bir cəddini göstər də, bəs camaat soyuqdan qırılır.

Ağa hirslənir, papağını yerə çırpır və elə mağarda üzünü Allah dərgahına tutub dua edir. Bir az keçmiş qar kəsir və gün çıxır. Danışırlar ki, elə bil ki, yay havası idi. Toy yenidən şən keçməyə başlayır.

Ağa həmişə evində imamlarımıza təziyyə saxlayardı. Evimiz yaxın olduğundan mən də ora gedərdim. Camaat həmişə gəlib onu evdən kolxoz idarəsinin qabağına aparar, nəzir-niyaz verərdilər. Çöl işlərinə başlayanda ağanı mütləq sahələrə çıxarar, məhsulu xətadan-bəladan qorumaq, bol məhsul götürmək üçün dua etməsini ağadan təvəqqe edərdilər.

Allah Mirtərlan ağaya rəhmət eləsin.

**"Göyləri, yeri və onların arasındakıları altı gündə yaradan, sonra ərşə əyləşən Allahdır. Sizin Ondan başqa dostunuz və şəfaət edəniniz yoxdur. Məgər düşünmürsünüz? O, göydən yerədək bütün işlərə tədbir qılar. Sonra bunlar sizin hesabınızla min il qədər olan bir gündə Ona dönər". (əs-Səcdə, 4-5)**

## HACI SEYİD MİRTAĞI SEYİD MİRƏZİZ OĞLU



Salyan rayonunun tanınmış seyidlərindən biri də Hacı seyid Mirtağı ağa idi. O, 1927-ci ildə Salyan rayonunda anadan olmuşdu. Mirtağı ağa hələ uşaqlıqdan atasını itirmiş, anası isə yeganə oğlunu götürüb Marışlı kəndinə köçmüşdü. 5 nəfərdən ibarət ailəyə dayısı himayədarlıq etmişdi. Valideynlərini itirən Mirtağının ailəsini dayısı 2-3 il Lerikdə saxlamışdı. Ağa orta məktəbi bitirdikdən sonra kolxozda işləmişdi. Müharibə qurtarandan sonra Mirtağı ağa dəmir yol stansiyasında qatar bələdçisi vəzifəsində çalışmışdı. Ağa Marışlı kəndindən olan Faxranisə Əliqulu qızı ilə evlənmişdi. Onların 8 övladı olmuşdur: **Mirağa, Mirəziz, Mirmehdi, Mirnağı, Mirsəidə, Mirdürrə, Mirməsmə, Mirsəkinə.**

Mirtağı ağa Allahın sevimli və səbrli bəndəsi idi. Ağanın bir oğlu Mirağa 39 yaşında maşın qəzasında, Mirsəidə isə 25 yaşında xəstəlikdən, Mirmehdi isə 26 yaşında ürək çatışmamazlığından dünyalarını dəyişmişlər. Dərdin ağırlığına baxmayaraq, o Allahın işinə şükr etməkdən başqa bir çarə bilmirdi. Qalan övladları isə valideynlərinin adına layiq əməlləriylə xalq yanında hörmətlə anılırlar. Bu gün Mirtağı ağanın 14 nəvəsi və bir nəticəsi var. Hacı Mirtağı ağanın soy kökü imam Əli ibn- Əbu Talibin nəslindəndir.





Mirtağı ağa 1995-ci ildə Məşhəd, Kərbəla, 1996-cı ildə nahiyyə qazisi Hacı Salmanın köməkliyi ilə Həcc ziyarətində də olmuşdu.

Uşağı olub qalmayan valideynlərdən Seyid Sadıxlı kənd sakini **Surayə xanım** oğlu Elmirin həyatda qalmasını bir mö'cüzə kimi ağanın adı ilə bağlayır.

Ağanın qızı Mirməsmə xanım (onu da xatırladaq ki, Mirməsmə xanım da atası kimi ilahi vergi sahibi, dili tutulanlar, qorxu keçirənlər, ağzı əyilənlər, övlad üzünə həsrət qalanlar və neçə-neçə naümid xəstə onun şəfalı əlləri ilə nicat tapır) qardaşı Mirmehdinin ölmünü belə **xatırlayır:**

-Xocalı hadisələri televiziyada göstərilən vaxt Mirmehdinin qəflətən ürəyi dayandı. O, çox vətənpərvər, xalqını sevən bir insan idi. Onun özündən sonra bir qız nişanəsi qaldı. Allah bütün dünyasını dəyişənlərə rəhmət eləsin!

**Mirmehdinin həyat yoldaşı Şahinə xanımın dediklərindən:**

- 1990-cı ildə bu evə gəlin gəlmişəm. Ancaq tale belə gətirdi, həyat yoldaşımı vaxtsız itirdim. Mirmehdi öz dünyasını Vətən eşqinə təslim etdi. Vətənimizin bütövlüyü üçün canından keçən bütün şəhidlərimizin Allah-təala axirət dünyasını versin, qəbirlərini nurla doldursun.

Mart ayının 8-ində qızımız Miryaqut dünyaya göz açdı, atası isə martın 12-də dünyasını dəyişdi.

Ağa özü isə 2003-ci ildə rəhmətə getdi. Allah rəhmət eləsin.

**Xəqani Yusifov, Salyan rayon sakini:**

-Hacı Mirtağı ağanın ocağı hamımızın and yeridir. Elm və ürfan sahibi olan ağa gələcək nəsillərə bir örnək idi.

Onun ocağı həmişə anılır, uzaq səfərlərə gedənlərin, nəzir-niyaz sahiblərinin, niyyət edənlərin, niyyətləri hasil olanların ziyarətgahıdır. Bu bölgə üçün o kişi müqəddəs bir varlıq idi.

"O kəslər üçün ağlayıb göz yaşları tökmək lazımdır ki, onlar müqəddəsdirlər. Onların duasını Allah-təala eşidir". Bu dualara görə Allah-təala yer üzünü bəlalardan hifz edir.

Adam gərək həmişə dininə, şəriətinə sədaqətlə riayət etsin. Insani keyfiyyətləri heç vaxt unutmasın. O cümlədən də seyid, peyğəmbər övladlarının hörmətini saxlasın. Allah-təala Hacı Mirtağı ağaya rəhmət eləsin!

**Əlipaşa Babayev, Salyan rayon sakini:**

-Həyatda kiməsə, nəyəsə inam olmasa, insan yaşaya bilməz. Bütün insanların ümidi qurban olduğumuz gözə görünməyən Allahdır. Allahımızın isə yaxınları yer üzərindəki övliya sahibləridir. Bu sahiblərdən bizlərə əziz olan, cəddinə güvəndiyimiz seyid-peyğəmbər övladlarıdır. Qoy ağalarımızın cəddi bizlərə kömək, cəddi xatirinə insanlar bir-biri ilə mehriban olsunlar.

*Dinə nail olmağın əsası pis əməllərdən çəkinməkdir.*





## SEYİD MİRNADİR SEYİD MİRQULAM OĞLU

Seyid Mirnadir seyid Mirqulam oğlu
Seyid Mirqulam seyid Mirəsədulla oğlu
Seyid Mirəsədulla Məşədi seyid Mirsadıq oğlu
Məşədi seyid Mirsadıq Kərbəlayi seyid Mirzəkəriyyə oğlu
Kərbəlayi seyid Mirzəkəriyyə seyid Bədəl oğlu
Seyid Bədəl Məşədi seyid Mirmurtuza oğlu
Məşədi seyid Mirmurtuza seyid Mirzəkəriyyə oğlu
Seyid Mirzəkəriyyə seyid Mirhaşim oğlu
Seyid Mirhaşim seyid Sadıq oğlu



Bu insanlar soy kökü imam Bimari-Zeynalabidinə bağlanan seyid Mirnadir ağanın nəsil şəcərəsidir.

Ulu babaları Abbasilər sülaləsinin hökmdarı Mənsurun zülmündən baş götürüb Hindistanın Corağa mahalına qaçıblar. Nadir şah taxta çıxandan və seyidlərə qarşı təzyiqlər kəsiləndən sonra bu nurlu nəslin nümayəndəsi seyid Sadıq ağa Azərbaycana köçmək qərarına gəlir. **Seyid Sadıq ağa** həm müqəddəs bir seyid övladı, həm də bacarıqlı tacir, iş adamı idi.

Günlərin bir günü ağa Hindistana gəlmiş bir tacirlə tanış olur. Söhbət zamanı öyrənir ki, Azərbaycanın Aran bölgəsində - Salyanda balıqçılıqla məşğul olmaq üçün yaxşı, münbit yerlər var. O, Lənkərana, sonra isə Kürün Xəzərə töküldüyü yerə gəlib çıxır. Indiki "Xurşud" deyilən yerlər o vaxtlar bom-boş sahələr idi. Qarşıda, qiblə tərəfdə Xarabakənd adında bir oba vardı. Həmin ərazidəki dərin qobunun içi ilə su axırdı. Həmin su Qaraquş deyilən bir yerdə, Lopatidə Xəzərə qovuşurdu. Heç kəs o yerlərdən istifadə etmirdi.

Seyid Sadıq ağa həmin yerdə vətəkə qurur. Artıq bir neçə ildən sonra işləri tam qaydaya düşür, çoxlu var-dövlət qazanır. Həmin ərazinin həm də heyvandarlıq, əkinçilik üçün əlverişli olduğunu görüb Marışlı və Quyçu arasında olan boş yerləri satın alır və orada məskən qurur.

Ağanın dostları, tanış-bilişləri tez-tez onun ziyarətinə gələrdilər. "Gedək seyid Sadıqgilə" deyə insanlar tez-tez ona pənah gətirərdilər. Bu qayda ilə həmin kənd sonralar Seyid Sadıqlı adlanmağa başladı. İllər keçdikcə kənd də böyüyür, seyid Sadıq ağanın nəsli də artır-çoxalırdı.

Azərbaycanda Şura hökuməti qurulandan sonra böyük var-dövlət sahibi olan seyidlərimiz kimi seyid Sadıq ağanın törəmələri - **Mirqulam ağa** da təzyiqlərə məruz qalır. Nəhayət, 1942-ci ildə seyid Mirqulam dəmiryol stansiyasına köçməyə məcbur olur.

Seyid Mirqulam ağa 1965-ci ildə rəhmətə gedir və Seyid Sadıqlıda atasının və 20-ci illərdə rəhmətə getmiş əmisi Məşədi Miryəhyanın yanıda dəfn edilir. Bu nurlu ağaların dilindən və işindən inciməyən xalq onların qəbri üzərində kümbəz ucaldır və həmin müqəddəs məkan camaatın ziyarətgahına çevrilir.

Seyid Mirqulam ağanın 5 övladı var: **Mirməsmə, seyid Mirnadir, seyid Mirsədir, Mirvari və seyid Mirhəbib.**

El ağsaqqalı, heç nəyə baxmadan öz sözünü şax üzə deyən, el-obanın dərin hörmət bəslədiyi seyid Mirnadir ağa 1933-cü ildə Seyid Sadıqlı kəndində anadan olmuş, 1942-ci ildə dəmiryol stansiyasına köçmüşdür. Uzun müddət dəmiryol stansiyasında sıravi işlərdə çalışıb. Kiçik yaşlarından qocalarla oturub-durar, onların hikmətlərini, müdrik kəlamlarını öyrənərdi. Ağa həqiqətən böyük hikmət, kəramət sahibidir. Özü də şair təbiətli ağalarımızdandır. Hər sözü məntiqli, kəsərlidir:

Yoxdan xilqət etdin bu kainatı,
Üstündə yaratdın böyük Ədəmi.





Həvvanı bəxş etdin Adəm babama,
Məni də gətirdin fani dünyaya.
Aciz körpə idim, taqətsiz insan,
Yox idi taqətim qalxam o zaman.
Həqdən əmr oldu ata-anaya,
Övlad məhəbbətilə basdı bağrına.

Həyat nemətini mən dadmamışdım.
İlk dəfə anamın döşündən daddım.
Böyüyüb ərsəyə mən çatan zaman,
Qüvvələr alındı ata-anadan.
Bilmədim biçarə necə qocaldı,
Ata qocalsa da, güc övlada qaldı.

Çalış, ey vücudum, haqqın yolunda,
Gördüyün işlərə el rəhmət desin.
Eyləmə nadanlıq haqqın yolunda,
Gördüyün işlərə el lənət desin.

Bir gün olar mən də köç eyləyərəm,
Qismət olsa el çiynində gedərəm.
Qaranlıq məzarda pənci-Əladan
Köməklik rəmzini ondan dilərəm.
Mirnadirəm, başda ikən əqilim,
Kor olsun gözlərim, getsə əqilim.

Deyir ki, həyatda üç böyük borcum var:

Biri canımdır ki, Allaha borcluyam. Nə qədər ömür sürürəm, Allaha minnətdaram. Ikinci, ustadıma borcluyam. Elmim, əxlaqım, davranışım, həyatda qazandığım uğurlar ustadlarımın adı ilə bağlıdır. Həyatda atdığım səhv addımlar isə özüme məxsusdur. Deyir ki, Allah-təala yoxdan var yaradandır, biz isə varı kəşf edirik.

Ağa Sovet hakimiyyətinin islam dininə vurduğu ziyanları heç cür unuda bilmir. Deyir ki, o quruluş bizə hər cür nemət versə də, mən onu qəbul etmirdim. Çünki o bizə yalan danışmağı öyrətdi. Əli ə.s. buyururdu ki, qorx o insanlardan ki, xırda yalanları saymazlar. Amma onlar dərk etməzlər ki, yalanın

böyüyü-kiçiyi olmaz.

Xeyirxah əməllər sahibi olan seyid Mirnadir ağa 1987-ci ildə dədə-baba yurdunda - Seyid Sadıqlıdakı camaatla əl-ələ verib köhnə, dağılmış məscidin yerində altıguşəli məscid inşa etdirdi.

Məscid istifadəyə veriləndən sonra-1988-ci ildə stansiyanın camaatı tez-tez ağanı sorğu-suala tutardılar. Deyərdilər ki, ağa, sən Sadıqlıda cəmisi 9 il yaşamısan. Stansiyada isə 46 ildir ki, yaşayırsan. Necə olur ki, ömrünün çox az bir hissəsini yaşadığın kənddə məscidi bərqərar etdirirsən, amma uzun illər ömür sürdüyün stansiyada məscid inşa etdirmirsən?

Cəmiyyətin bu iradı ağaya bərk təsir etdi. Xalqın arzusunu, iradını nəzərə alan seyid Mirnadir ağa öz həyatinin yarısını kəsərək burada camaatın köməkliyi ilə gözəl bir məscid tikdirdi.

...Deyirlər ki, məşhur memar Əcəmi Möminə Xatun türbəsini tikib başa vurandan sonra öz işinə heyran qalır. "Allah-təala mənim kimi ikinci Əcəmi yaratmayacaq", -deyə qürrələndiyi vaxt bir hamilə qadın onun yanından keçirmiş. Onun bu sözlərini eşidən qadın təəccüblə Əcəminin sifətinə baxır. Onun baxışını dərk edən Əcəmi: mənim Allahım, məni əhf et, memarı yaradan memar var,-deyir və alnını möhürə qoyub Allaha - öz memarına səcdə eləyir.

Seyid Mirnadir ağanın qardaşları **seyid Mirsədir** və seyid **Mirhəbib ağa** da onun kimi nurlu, xeyirxah insanlardır.

Seyid Mirsədirin **Füzuli** adlı yeganə oğlu, Mirhəbibin isə **Ixtiyar, Etibar** adlı oğlanları və üç qızı var.

Seyid Mirnadir ağa həyat yoldaşı **Südabə xanım Cəfər qızı** ilə 8 övlad böyüdüb ərsəyə çatdırıblar: **seyid Mirqafur,** seyid **Mirqadir, seyid Mirzəkiyyə, Mirzinyət, seyid Mirqulam, seyid Miryəhya, Mirsəidə və Aynurə.**

Nurlu, mərhəmətli seyid Mirnadir ağa ilə söhbət edəndə o, atasının kümbəzinin abadlaşdırılmasında, məscidin inşasında, el obanın xeyir-şər işlərində öz qüvvə və bacarığını əsirgəməyən, vətənpərvər və xeyirxah insanın-**Əliağanın nəvəsi, Abseyin oğlu Rövşənin** xeyirxah əməllərindən də söz açdı.



# SABİRABAD











## CAME MƏSCİDİ



Məscidin əsası 1990-92-ci illərdə qoyulub. İcra başçısı işləmiş **Xanhüseyn** müəllimin vaxtında inşasına başlansa da, yarımçıq qalmışdı.

Rayon İcra Hakimiyyətinin keçmiş başçısı, xeyirxah insan, qurub-yaratmaq aşiqi, vətənpərvər eloğlumuz **Əbülfəz Ağayev** bu rayona təyin ediləndən sonra işlər sürətlə davam etdirilir. Sabirabadın abadlaşdırılmasında, əhalinin sosial-rifahının yaxşılaşdırılmasında böyük işlər görən Ə. Ağayev dini -tarixi abidələrimizin, məscidlərimizin qorunub saxlanılmasında, təmirində də gərəkli işlər görüb.

Ulu Tanrıdan bu cür qeyrətli insanlara uzun ömür diləyir, ona cansağlığı arzulayırıq.

## ŞAMAXILI MƏSCİDİ



Şamaxılı məscidi 1903-cü ildə tikilib.

O vaxtlar hazırkı məscidin minbərinin yerində balaca bir daxmada Əsiri- Zöhrə deyilən bir qadın yaşayırdı. Deyilənə görə o, ərəb qızı idi. Həsən və Musa adlı iki oğlu vardı. Həmin qadın kimsəsiz olduğuna görə camaat həmişə ona kömək edərdi.

Məhərrəm ayının ikinci gecəsi həmin qadın uşaqlarını çimizdirmək istəyir. Qəflətən qulağına səs gəlir ki, yeri mundarlama. Qadın qəşş eləyib, özündən gedir. Onun səsinə qonşular haya gəlirlər.

Həmin hadisə Məhərrəm ayının 9-da yenə təkrar olunur.





Qonşu Əliheydər əmi daxil olarkən qulağına nöhə səsi gəlir. O da nöhə deməyə başlayır.

İmamın qırxı çıxandan sonra **şamaxılı Sadıq, Məşədi Kərim, Kərbəlayi Qurban və Kərbəlayi Cabbar** daxmanı söküb, qadın üçün başqa yerdə birotaqlı ev tikir və daxmanın yerində məscid inşa etməyə başlayırlar.

Tacirlərdən **Kərbəlayi Məzahir, Məşədi Zaman, Məşədi Abbas, Məşədi Ağahəsən, Mirmürtəza ağa, Mirmahmud ağa, Məşədi Kərim, Abbas kişi** və başqaları məscidin tikintisinə sərmayə qoyurlar. **Əlisoltan, Mirələkbər ağa, Qədirbəy** və **Hüseynbəy** qardaşları da məscidin tikintisinə kömək edirlər. Bir ildən sonra məscidin inşası başa çatdırılır.

**Seyid Aminə müəllimənin dediklərindən:**

- Bir neçə il Aşura axşamı səhərə yaxın məscidin yaxınlığında yaşayanlar zəncir və nöhə sədaları eşidirdilər. Amma heç kəs gözə görünmürdü.

Məscid ikimərtəbəli idi. Sovet hakimiyyətinin vaxtında bağlanmışdı.

1936-cı ildə məscidin ikinci mərtəbəsini pedaqoji texnikumun yataqxanasına çevirdilər. Həmin gecə tələbələr şadyanalıq məclisi qurdular. Amma səhər pilləkəndən aşağı düşərkən 15 nəfərin hamısı yıxılaraq müxtəlif bədən xəsarəti aldılar.

3 gün dalbadal həmin hadisə təkrar olundu. Üçüncü gün tələbələrdən heç kəs bir də məscidə gəlmədi və məscidin qapısı bağlandı.

Sonralar məscidin aşağı mərtəbəsini yanğınsöndürmə dəstəsinə verdilər. Iki yanğınsöndürən maşın məscidə daxil oldu.

Bir neçə gün sonra rayonun çörək zavodunda yanğın baş verdi. Sürücülər nə illah etdilərsə də, maşınları işə sala bilmədilər. Zavod tam yanıb başa çatandan sonra maşınlar işə düşdü. Hamı heyrət içində idi. Maşınları oradan çıxartdılar və bir də ora qayıtmadılar.

1943-cü ildə məscidin binasını taxıl anbarı etdilər. Taxılı dərmanlayıb məscidə tökərək qapısını bağladılar. Qarovulçu

qoydular.

1944-cü ildə qapısını açanda taxılın yerində bir neçə sahədə saman qalığından başqa heç nə qalmamışdı.

Nəhayət, 1947-ci ildə məscidin fəaliyyətinə icazə verildi. Məscidə şamaxılı Əlisoltanı müdir təyin etdilər. Axundu isə Şeyx Mövsüm idi. Əliheydər nöhəxan, Ibadulla azançı, Nisə xala isə xidmətçi idi. Onlar şamaxılı məscidinin ilk icazəli işçiləri idi.

O vaxtlar Bakıda Şeyxülislam Şeyx Əli ağa idi.

Sonralar məsciddə bir qədər genişləndirmə işləri aparıldı, təmir olundu.

1998-ci ildən sonra, **Hacı Məhəmməd** məscidə axund təyin ediləndən sonra əsaslı təmir olundu, müasir məscid formasına salındı.

Hal-hazırda məsciddə müsəlman dindarlarımızın ibadət etmələri üçün hər cür şərait yaradılmışdır.

## BABA SAMİD TÜRBƏSİ



Şıxlar kəndində yerləşən Baba Samid türbəsi qədim pirlərimizdəndir. 1585-ci ildə tikilmiş bu türbədə **Soltan Bəlinin oğlu Soltan Hacı Bəktaşinin oğlu Baba Samid** dəfn olunmuşdur. Hacı Bəktaşi əslən Xorasandan olub. O, 1455-1456-cı illərdə Anatoliyaya gələrək Yanıçar ordusu yaratmışdı. "Bəktaşiyyə" cəmiyyəti onun adı ilə bağlıdır. Soy kökü imam Rza ə.s.-ya bağlanır. Baba Samid türbəsi Şirvan Bəylərbəyi Abdullaxan Ustaclı tərəfindən tikilmişdir. Baba Samid türbəsi respublikamızın ağır ziyarətgahlarındandır.





## KƏRBƏLAYİ MƏŞƏDİ SEYİD RƏSUL AĞA



Muğan dedikdə ilk növbədə yada Sabirabad şəhəri düşür. Muğan düzü qədimdə Midiyanın, eramızdan əvvəl IV əsrdən Atropatenanın əyaləti olub. Muğanın adı ilk dəfə III əsrdə çəkilir. Muğan atəşpərəst muğların yaşadığı yerlər idi. Ərəb xilafəti bu yerlərə islamı gətirdikdən sonra Muğanın mərkəzi-Kür-Araz ovlağının mərkəzində yerləşən Sabirabad qəsəbəsi Petropavlovka adlı rus kəndinin əsasında yaranmışdır. Həmin rus kəndi isə 1846-cı ildə Cavad qəza mərkəzi əsasında yaranmışdır. 1931-ci ildə Petropavlovka M.Ə.Sabirin şərəfinə Sabirabad adlandırılmışdır. 1952-ci ildə qəsəbə, 1959-cu ildə isə şəhər statusu verilmişdir. Sabirabad rayonunun ən qədim yaşayış məskənlərindən biri Qalağayındır.

Qayı qalası-Qalağayın. Dədə Qorqud dastanında Qayı qəbiləsinin adı çəkilir:

**"Axır zamanda xanlığa görə Qayıya dəkə, kimsənə almaya, axır zaman olub qiyamət qopunca".**

Burada söhbət xanlığın-Oğuz qəbilələrinə başçılığın Qayı qəbiləsinə çatmasından (çatacağından) gedir. Bu günkü Sabirabad şəhərinə qovuşmuş qədim Qalaqayın kəndi Qayı qəbiləsinin adını yaşatmaqdadır. "Qayı" şəkilcə "qaya"-"qayın" və "qayım" sözləri ilə də tuş gəlir. Onların məzmunca qohumluğunu güman etmək olar. Qaya da arxadır, qayın da. Dilimizdə "qayım-qədim" sözləri var. "Səni qayım-qədim olasan".

Bəlkə də "qayılar kimi qədim olasan, çox yaşayasan" deməkdir. "Qayım"ın qədimliklə yanaşı "bərk" mənası da məlumdur.



Qayılar da bayatılar kimi ulu Oğuz soylarındandır. Lakin bu gün Muğanda bu kəndi heç də bu cür tanımırlar. Qalaqayın kəndi təkcə Mil-Muğanın deyil-bütün Azərbaycanın tanıdığı bir obadır,-desək yanılmarıq. Çünki bu qədim kənddə bir el ağsaqqalı yaşayıb...

**Kərbəlayi Məşədi seyid Rəsul Kərbəlayi seyid Mirməhəmməd oğlu** 1871-ci ildə Sabirabad rayonunun Balvari kəndində-ulu bir seyid ailəsində anadan olmuş, 1965-ci ildə rəhmətə getmişdir. Ağanın doğulduğu Balvar adının mənası tam məlum deyil. Erkən orta əsrlərdə Cənubi Azərbaycanda Balvangorc adlı şəhər vardı. Çox güman ki, kəndin ilk sakinləri oradan gəlmiş və adı da özləri ilə gətirmişlər.

Sonralar ağa Qalaqayın kəndinə köçmüşdür. Seyid Rəsul ağanın nəsli imam Museyi-Kazım (ə.s.)-nın nəslindəndir.

Ağanın 4 oğlu, 5 qızı olub. Aşağıda ağanın övlad və nəvələrini bir daha nəzərinizə çatdırırıq:

Böyük **oğlu seyid Mirəzizdir.**

Onun oğlanları: **seyid Mirşəmil, seyid Mirsaleh, qızı Fizədir.**

Ikinci oğlu **seyid Hüseyn ağadır.**

Oğlanları: **Kərbəlayi seyid Miryaqub, seyid Mirnağı, qızı Namilə, Almas və Yaqutdur.**

Üçüncü oğlu- **Hacı seyid Mirhəmid ağadır**.

Oğlanları: **seyid Mirfəttah, Hacı seyid Mirnəsihət, Hacı seyid Mirqayıb, seyid Rəsul, seyid Mirkəbirdir. Qızları Məşədi Mələk, Zeynəb, Nigar.**

Seyid Rəsul ağanın qızları **Ağabəyim, Sura, Umuş, Nisədir.**

Suranın övladları: **Ağabala, Güllü, Mənzər, Leyla.**





Nisə xanımın övladları:

**Qabil, Cümşüd, Mürşüd, Akif, Əlirza, Əzizbəyim, Şamama.**

Ağanın beşinci qızı Kubra xanımın qızının adı **Xanımdır.**

Seyid Rəsul ağanın Mirfəsiyə adlı yeganə bir qardaşı olub.

**Sabirabad şəhər məscidinin axundu Hacı Məhəmməd:**

- Sabirabadın ağır seyidlərindən söhbət düşəndə ilk növbədə seyid Rəsul ağa yada düşür. O insan, elə bir müqəddəs şəxsiyyət idi ki, bir dəfə onu görənlər ömür boyu onu yaddan çıxarmazdılar. Ağanın bir sözü hamı üçün qanun idi. Həmişə camaat içərisinə çıxar, camaatın dərdinə-sərinə qalardı.

Dua yazmazdı. Bircə kağız parçasına "Bismillah" kəlməsi yazardı. Hələ elə bir adam olmayıb ki, seyid Rəsul ağanın adını çağıra, amma niyyətinə çatmaya... Muğanın bütün din xadimləri, hətta seyidlərimiz belə seyid Rəsul ağanın cəddini çağırırlar.

Allah-təala buyurdu: Ya Məhəmməd! Biz istədik səni və sənin əhli-beytini bütün natəmizlərdən pak edək. Həqiqətən də seyid Rəsul ağa pak, müqəddəs, ulu bir insan idi.



Allah ona qəni-qəni rəhmət eləsin.

Seyid Rəsul ağanın sonbeşiyi **Hacı seyid Mirhəmid ağa** 1992-ci ildə Məşhəddə, 1994-cü ildə Kərbəlada, 1996-cı ildə Məşhəd-Məkkə ziyarətində olub. Ağanın ocağında oturur. Özü də seyid Rəsul ağaya oxşayır. Rayonda böyük ehtiram və hörmət sahibi, rayonun sayılan-seçilən ağsaqqallarındandır.

**Hacı seyid Mirhəmid ağa:**

-Atam seyid Rəsul ağa 94 il ömür sürüb. O ömrü boyu bir kəsin də qəlbini qırmayıb, xətrinə dəyməyib. Həmişə də kasıb-kusubun tərəfində olub, onlara əl tutub.





Amma evdə çox tələbkardı. Bizə qarşı da xüsusən. Boş-boş gəzməyə icazə verməzdi. Amma çox mülayim və zəhmətkeş idi. Ömrü boyu kolxozda çalışıb. Başı çox zülmlər çəkib. Həmişə də səbrli, təmkinli idi. Sovetlər vaxtı onu NKVD-yə çağırıb orucunu pozdurmaq istəyirlər. Ona çay və bulka verib yeməyi əmr edirlər. Ağa "əgər bunun günahını öz üzərinizə götürürsünüzsə, yeyim"- deyir. Lakin hələ o vaxtlar da ağanın cəddinin gücünə bələd olduqlarına görə təkid etmirlər.

Bir dəfə də kolxozun briqadiri gəlib anam Ruqiyyəni pambığa aparmaq istəyir. Atam razı olmur, briqadir israr edir. Qayıdıb maşına minmək istəyəndə kabinkada yekə bir ilan göyrür... Nə qədər edirsə, ilan sürünüb getmir. Nəhayət, o öz səhvini başa düşür. Qayıdıb ağadan üzr istəyir. Geri dönəndə görür ki, ilan çıxıb gedib.

Ağam deyərdi ki, kimliyindən asılı olmayaraq hər bir kəs müəyyən bir kamillik dərəcəsinə çata bilər, lakin peyğəmbər ola bilməz.

Bir də deyərdi ki, heç vaxt pul alıb Quran oxumayın. Allahdan qorxun. Pis işlərdən, bəd əməllərdən uzaq olun. Mən də, balalarım da, qardaşım, bacım uşaqları da sağ olsunlar, ağamın yolunu saxlayır, vəsiyyətinə ürəkdən əməl edirlər...

Seyid Rəsul ağanın dəfn olunduğu qəbirstanlıq bu gün ən





çox ziyarət olunan müqəddəs bir ziyarətgaha çevrilib. Bu yerə insan axını heç vaxt kəsilmir. Yaxın-uzaq ellərdən niyyət edənlər, dərdə mübtəla olanlar, səfərdən qayıdanlar axın-axın ağanın ocağına ziyarətə gəlirlər.

Ağanın ocağının yanında 3 qəbir var. Seyid Rəsul ağanın həyat yoldaşı **Ruqiyyə xanımın** ikinci qəbir ağanın qızı **Kərbəlayi Ağabəyimindir**, üçüncü qəbir isə **Mirfəttahın** qəbridir.

Ziyarətgaha pənah gətirənlərin rahatlığı üçün burada hər cür şərait yaradılıb. Qurban kəsmək üçün ayrıca otaq tikilib. Su çəni quraşdırılıb, həyət-bacada stollar düzülüb, səliqə-səhman göz oxşayır. Həyətdə özü bitmiş qarağaclar ocağa xüsusi təravət verir. Ağanın ocağına gələn hər bir adam müqəddəslərin əzəmətini, paklığını-nurunu hiss edir, yüngülləşir, paklaşır...

**Hacı Əlabbas Şıxəliyev:**

- Seyid Rəsul ağa son dərəcə sakit və mülayim adam idi. Rəhmətlik atamla dost idi. Ağzından acı söz çıxmazdı. Ailəmizin ona böyük inamı var. Tez-tez onun ocağını ziyarət edir, ruhuna dualar oxuyuruq. Seyid Rəsul ağanın oğlu Hacı seyid Mirhəmid ağa da atasına çox oxşayır. O da atası kimi pak-təmiz adamdır. Allah ona uzun ömür versin. Qənimət adamdır.

**P.S.** *Onu da bildiririk ki, Hacı Əlabbas öz doğma kəndləri Türkədidədə- köhnə məscidin yerində təzə məscid tikdirib. Dindar qardaş-bacılarımızın istifadəsinə verib. Bu xeyirxah əməlinə görə Allah köməyi olsun.*

**Akif Məmmədov, seyid Rəsul ağanın nəticəsi, seyid Mirəzizin nəvəsi:**

- Babam seyid Mirəzizdən və onun qardaşı seyid Hüseyndən ulu babam seyid Rəsul ağa haqqında eşitdiklərimə görə ona pənah gətirən hər bir şəxs arzusuna nail olarmış.

Babam seyid Rəsul ağa Sabirabad rayonunda sayılıb-seçilən seyidlərdən biri olub. Onun müqəddəs ocağının işığına yüzlərlə-minlərlə insan ziyarətə gəlir, səcdə edir, dərdlərinə əlac tapırlar. Bütün Sabirabad camaatının bu ocaq and və iman

yeridir. Seyid Rəsul ağanın, o cümlədən bütün seyidlərimizin xatirəsini əbədiləşdirmək hər birimizin müqəddəs borcudur.

**Vəfadar Bağırov:**

- Seyid Rəsul ağa çox mehriban və nəvazişli bir insan, inanılmış bir ocaq idi. Hətta Sabirabadda yaşayan ruslar belə seyid Rəsul ağanın cəddinə and içərdilər. Rayon ərazisində keçirilən tədbirlərdə şəhidlərimizlə bərabər seyid Rəsul ağanın da qəbrini ziyarət edirik.

Bütün ölənlərimizə, o cümlədən, seyid Rəsul ağaya Allah rəhmət eləsin!

**Sakit Mikayılov:**

- Özümü tanıyandan, dünyanı dərk edəndən evimizdə seyid Rəsul ağanın, seyid Mirismayıl ağanın cəddinə and içmiş, ona pənah aparmışıq. Seyid Rəsul ağa bütün Muğan-Mil camaatının ziyarətgah yeri-and yeridir. Valideynlərim dindar olublar-oruc tutub, namaz qılıblar. Həmişə Allahın, peyğəmbərin yolunu saxlamışıq. Seyid Rəsul ağa bizim üçün müqəddəs bir şəxsiyyət, ali bir varlıqdır.

**Sabir Mikayılov:**

- Mən bir həkim kimi həmişə əlsiz-ayaqsızlara, kasıblara, vətən uğrunda yaralananlara xidmət göstərmişəm. O cümlədən müəyyən xəstəliklərlə əlaqədar mənə müraciət etmiş seyidlərimizə xüsusi olaraq ehtiramla yanaşmışam. Məlumat üçün bildirim ki, 20 il travmatalogiya və ortopediya elmi-tədqiqat institutunda çalışmış, on il orada baş həkim kimi fəaliyyət göstərmişəm. Işlədiyim müddət ərzində seyid Rəsul ağanın nəticələrindən birini müalicə etmişəm. Adı yadımda deyil, həmin xəstənin aşağı ətraf sümüyündə travmadan sonra ağırlaşma var idi. Cərrahiyyə əməliyyatı o qədər yüngül keçdi ki, iş yoldaşlarım da məəttəl qaldılar. Mən onlara bildirdim ki, bu xəstə elə-belə xəstə deyil, seyid Rəsul ağanın nəticəsidir.

Allah seyid Rəsul ağaya rəhmət eləsin!





## HACI SEYİD MİRİŞ SEYİD ƏHMƏD OĞLU



Qara xəbər tez yayılar, deyiblər.

2003-cü il dekabr ayının 7-də elləra bir bəd xəbər yayıldı. El ağsaqqalı, kamil insan, tanınmış din xadimi, bir neçə rayonun qazisi, mötəbər **seyid Mirhəbib ağa (seyid Miriş ağa)** haqq dünyasına qovuşdu. Ardı-arası kəsilməyən insan seli ağanın həyatinə axışdı. Yer-göy qan ağladı, el-oba qara geyindi.

Ölüm ilahinin bir möcüzəsi, bir qüdrətidir. Heç bir bəndə bu möcüzənin qarşısını saxlamağa qadir deyil. Seyid Həbib ağa da ilahinin dərgahına qovuşdu. Ölümü də özü kimi həyalı ölüm oldu, səssiz-səmirsiz, sakit.

Ömrü boyu insanlara sülh, sakitlik arzulamışdı. Ona görə ölümü də belə olmalı idi.

Soy kökü imam Cəfəri-Sadiq ə.s-ya bağlanan seyid Miriş ağa ilk təhsilini atasından- dövrünün mötəbər ağsaqqalı, əslən Ərdəbildən olan seyid Əhməd ağadan almışdı.

Seyid Əhməd ağa Sabirabada Şamaxıda zəlzələ baş verən zaman köç eləmiş və 1952-ci ildə rəhmətə getmişdi.

1926-cı ildə Qaralar kəndində anadan olmuş seyid Miriş ağa da atası kimi savadlı, kamil bir din xadimi, nurlu seyid övladı idi. O, hələ cavan vaxtlarından ərəb əlifbasını mükəmməl öyrənmiş, Quranı-Kərimi xətm eləmişdi.

Son dərəcə yüksək əxlaqlı, bəlağətli səsli alim-axund idi.

Çox zəngin kitabxanası vardı. Ömrü boyu mütaliəsiz yaşamadı. Məclislərdə söhbət edərkən camaat arzulayardı ki, kaş onun söhbəti qurtarmasın.

**Hacı İsrafil Salman oğlu:**

- Seyid Miriş ağa uzun illər atamla dostluq etmişdi. Dostluğa çox möhkəm, elm və təqva əhli idi. Məclis aparma-

sı, Qurani-Kərimin sadə dillə camaata çatdırılmasında əvəzi yoxdu.

O, uzun illər axund Museyibdən, bir çox başqa alimlərdən dərin bilik alsa da, heç vaxt kitablardan ayrılmaz, hey oxuyar-oxuyardı.

Molla Museyib vəsiyyət etmişdi ki, ondan sonra axundluğa ən yaxşı tələbələri olmuş Kərbəlayi Məhəmməd və seyid Həbib ağa layiqdirlər. Qoy onlardan biri olsun.

Ağa ömrü boyu insanlara, gənclərə kömək etdi və onlara Allah məhəbbəti aşıladı, özü də el-obanın məhəbbətini qazandı.

**Yədulla Paşa oğlu:**

- Seyid Həbib ağa Sabirabadda dini elmin inkişafında müstəsna xidmətləri olan bir alim idi. Yeniyetmələrə, gənclərə Quranın incəliklərini başa salmağı özünə borc bilirdi.

O, ağa kimi mötəbər bir ağa, alim kimi müdrik alim, ağsaqqal kimi kamil, ədalətli bir ağsaqqal idi. Ağa təkcə şəriət deyil, dünyəvi elmləri, xüsusən də riyaziyyatı mükəmməl bilirdi. Bütün şəriət məsələlərində ağadan məsləhət alardılar. Onun sözü yekun sözü idi.

Allah seyid Mirhəbib ağaya rəhmət eləsin!

Hacı seyid Mirhəbib ağa 1981-ci ildə Kərbəlada, 1997-ci ildə isə Bütün Qafqazın Şeyxi Hacı Allahşükür Paşazadə ilə Məkkə ziyarətində olmuşdu.

**Həyat yoldaşı Sona xanım Kərbəlayi seyid Nəsir qızı** da ulu nəsildəndir.

**Övladları Məşədi Nisə, Bikə, Dürrə, Fatma,** Kübra, **Fizzə, Hüsniyyə, seyid Əhməd, seyid Məhəmməd,** (rəhmətə **gedib), seyid Əli (rəhmətə gedib) və seyid Əliqismət** ata-babalarına layiq övladlardır.

Bu gün **ağanın yolunu nəvəsi, seyid Əhmədin oğlu** Kər**bəlayi seyid Mirnizam ağa** davam etdirir. O, Suriyada ali dini təhsil alıb. Bakı Islam Universitetini bitirib.

İnşallah, tezliklə o da seyid Miriş ağa kimi kamil bir din xadimi olacaq və nəsillərinin işıqlı yolunu şərəflə davam etdirəcəkdir.





## SEYİD MİRHEYDƏR KƏRBƏLAYİ SEYİD MİRHƏMİD OĞLU



**Seyid Mirheydər ağanın** qədim tarixə malik əlimizdə olan şəcərəsinə əsasən deyə bilərik ki, onun soy kökü imam Hüseyn ə.s.-ya bağlanır. Təxminən 500-550-il bundan əvvəl qeydə alınan şəcərə 11 müctehidin təsdiq etdiyi möhürlərlə imzalanmışdır. Həmin şəcərənin surəti Qum şəhərində, dini arxivdə saxlanılır.

Bu nəsil seyidlər nəsli olmaqla yanaşı Hacılar, Kərbəlayılar və Məşədilərlə zəngin bir nəsildir. Bu nəslin ocaq yaşadıcısı Kərbəlayi Məşədi seyid Böyükağanın atası **seyid Mirheydər, babası Kərbəlayi seyid Mirhəmid, ulu babası Kərbəlayi seyid Mirheydər, onun atası Hacı seyid Cəfər** olmuşdur. Seyid Böyükağanın ata tərəfi ilə yanaşı ana tərəfində də Hacılar, Kərbəlayılar və Məşədilər çox olmuşdur. Anasının əmisi **Kərbəlayi Alməmməd, babası isə Hacı Məmməd** olmuşdur.

Hacı Məmməd zəvvarlıq edərək adamları bir neçə dəfə Kərbəla və Həcc ziyarətlərinə aparmış, axırıncı dəfə ziyarətə getməzdən əvvəl bütün qohum-əqrabasını, tanış və dostlarını, yaxınlarını, ümumiliklə yaşadığı Kovlar kəndinin ağsaqqalarını bir yerə yığaraq ehsan vermiş və bildirmişdi ki, mən bu dəfə Həcc ziyarətinə gedirəm, amma əhdim var ki, ziyarətdən sonra ölüm və məni orada dəfn etsinlər.

Elə o cür də olur. Hacı Məmməd ağa axırıncı dəfə Həcc ziyarətinə gedir və orada da dünyasını dəyişərək, Mədinədə-"Bəqiyyə" qəbirstanlığında dəfn edilir.

Seyid Mirheydər ağanın həyat yoldaşı mərhumə **Gülarə xanım** əmisi Molla Kərbəlayi Alməmmədən "Quran" dərsi

almış, "Quran"ı bir neçə dəfə oxuyub o zamanın özünəməxsus imtahanından çıxmışdır. Gülarə xanım ömrünün sonuna kimi "Quran" oxuyar, ibadətindən qalmazdı. Qurani-Kərimin "Yasin" surəsini və bir neçə surələri əzbərdən oxuyardı.

O, 2002-ci ilin iyul ayının 15-də, 90 yaşında dünyasını dəyişmişdir.

Allah rəhmət eləsin.

**Seyid Mirheydər seyid Mirhəmid oğlu Heydərov** 1907-ci ildə Sabirabad rayonunun Kovlar kəndində anadan olmuşdur.

Atası da Kovlar kəndinin digər sakinləri kimi yaylaq-qışlaq şəraitində yaşayaraq maldarlıqla məşğul olmuşdur. Ulu babaları Şamaxı rayonunun "Qız meydanı"nda doğulublar. Deyilənlərə görə 1759-cu ildə Şamaxı zəlzələsindən sonra qədim yaşayış yeri olan, eramızın I-II yüzilliyində əsası qoyulan Kovlar kəndində məskunlaşıblar. Kovlar kəndi qədim Şirvan torpağının bir hissəsidir. Təsadüfi deyil ki, şairlər, yazıçılar, ustad aşıqlar Şirvan haqqında saysız- hesabsız sözlər demiş, qoşmalar, gəraylılar, dastanlar bəstələmiş, hekayələr, povest və romanlar yazmışlar.

***Bir yanı Şah dağı, bir yanı Şəki,***
***Ruha qida verir günəş, ay təki.***
***Bir yanı paytaxtım o gözəl Bakı,***
***Bir də Kür qırağı Şirvan deyilmi.***

Hazırda Kovlar kəndində 2000 nəfərə yaxın əhali yaşayır. Kəndin qədim tarixə malik olması müxtəlif mənbələrdə qeydə alınmışdır.

Tarixi mənbələrə görə Kovlar kəndi Cavad qəzasının ərazisində yerləşən kəndlərdən biri olmuşdur. Şah Ismayıl Xətainin Cavad kəndinin yanından, Kürlə Araz çayının birləşdiyi yerdən-"Suqovuşan"dan keçdiyi, 1606-cı ildə Şah Abbasın Cavadda olduğu, 1738-ci ildə Nadir Şahın Cavadda şahlıq etdiyi, 1768-ci ildə Cavadın Quba Xanlığına birləşdiyi dövrlərdə, rayonun Zəngənə kəndi yaxınlığında ticarət mərkəzi olan, Ba-





zarlı deyilən yerdə Şəhərgahın olduğu vaxtlarda Kovlar kəndi əhalisi sayca çox olan yaşayış məskəni olmuşdur.

Digər tarixi məlumatlara əsasən Kovlar kəndində yaşayan insanlar köçəri həyat tərzi keçirmişlər. Yay aylarında Şamaxı rayonunun yaylaqlarında, xüsusilə Şamaxının "Qız meydanı"nda, qışda isə Kür çayının kənarında, indiki Kovlar kəndinin məskunlaşdığı yerdə qışlamışlar. Yaşlı nəsilin vaxtilə dediklərinə əsasən 1759-cu ildə Şamaxıda zəlzələ baş verdiyinə görə əhalinin xeyli hissəsi bir dəfəlik Kovlar kəndində daimi sakinlərə çevrilmişdir.

"Kovlar" sözünün bir mənası da onların mal-qara ilə məşğul olmaları ilə bağlıdır. Bir sözlə, Kovlar qədim məkan olmaqla həmişə dövrünün inkişaf etmiş kəndlərindən olmuşdur. Kənd əhalisinin çox hissəsi keçən əsrin 30-cu illərində Kür çayının daşması ilə əlaqədar müvəqqəti olaraq rayonun Əhmədabad kəndinə köçmüşlər. Həmin kənddə 1956-cı ilə kimi yaşamış, sonralar yenidən öz doğma kəndlərinə -Kovlara qayıtmışlar. Həmin dövrdə Əhmədabad kəndinin dağılması ilə əlaqədar əhalinin bir hissəsi əsasən qonşu Navadan (indiki Nərimankənd) kəndinə, bir hissəsi qonşu Pakrovka (indiki Qaratəpə kəndinə) və eləcə də Sabirabad şəhərinə köçmüşlər. Hazırda Sabirabad şəhərində əslən kovlarlı olan yüzlərlə əhali yaşayır.

Kovlar kəndində seyidlər çoxluq təşkil etdiyinə görə Allaha, peyğəmbərə, imamlara, pirlərə, ocaqlara inam daha güclü olmuşdur. Bütün bunların nəticəsidir ki, Kovlarda Hacılar, Kərbəlayilər, Məşədilər digər kəndlərdən sayca çoxdur.

Məşhur din xadimi, Müştehid, İraqın Nəcəf şəhərində, İranın Xorasan vilayətində və Qum şəhərində dini təhsil almış **Molla Məhəmməd Axund Kovlari, Hacı Məmməd, Kərbəlayi Molla Alməmməd, Molla Məşədi Zeynal, Molla Abduləhəd, Hacı Cəfər, Kərbəlayi Mirheydər, Kərbəlayi Mirhəmid, Kərbəlayi İbad, Kərbəlayi Mahmud, Kərbəlayi Hüseyn, Seyidağa, seyid Hüseyn, seyid Tahir, seyid İsmayıl, se-**

yid Rza, Mirqədir, seyid İslam, Kərbəlayi Ağabala Mirsahib, seyid Mirheydər, Mirəhməd, Mirədil, Məşədi Mirsəmid, seyid Məmməd, seyid Mirmövsüm, mərsiyələri ilə tanınan Kərbəlayi Əliş kimi dindarlar XIX və XX əsrlərdə Kovlar kəndində dini təbliğatla məşğul olmuşlar.

Həmin dövrlərdə yaşamış, bədahətən mərsiyələr, qəsidələr, vaqiələr demiş, bu gün də mərsiyələri məscidlərdə və yas mərasimlərində oxunan, "Ahəngər" təxəllüsü ilə tanınan **Molla Əlican** Kovlar kəndinin sözlü-təbli adamlarından olmuşdur.

... Seyid Mirheydər ağanın kiçik qardaşı **Mirqiyas Heydərov** 1925-ci ildə anadan olmuş və hazırda təqaüddədir.

O biri qardaşları **Mirmövsüm, Mirilyas və Ağamir** Böyük Vətən müharibəsində iştirak etmişlər.

Seyid Mirmövsüm ağa müharibə qurtarandan sonra öz doğma kəndinə qayıtmış, 1980-cı ildə vəfat etmişdir.

Seyid Mirilyas və seyid Ağamir isə müharibədə həlak olmuşlar.

Seyid Mirilyas ağa müharibədə komandir olmuş, bir neçə orden və medallarla təltif edilmişdir. O, Moldovanın azad edilməsi zamanı qəhrəmancasına həlak olmuşdur.

Seyid Mirheydər ağa müharibə illəri arxa cəbhədə fəaliyyət göstərmiş, rayonun Əhmədabad kəndində uzun müddət kolxoz sədri, sonralar isə bir sıra rəhbər vəzifələrdə çalışmışdır. Ömrünün sonuna kimi oruc və namazını keçirməmişdir. Hər il, məhərrəmlikdə yaşadığı kəndin məclislərində iştirak etmək sanki onun ən ümdə vəzifələrindən biri olmuşdur. Qəlbən təmiz, Allaha, peyğəmbərə və imamlarımıza imanlı və onların yolunu daima uca tutan bir nurani şəxs idi. Onun, eləcə də babalarının dini etiqadı bu gün də övladlarında yaşayır.

Seyid Mirheydər ağanın babası Kərbəlayi Mirheydər 5 qardaş olmuşlar və onların törəmələri şəcərədə öz əksini tapmışdır. **Seyid Mirheydər, onun atası Kərbəlayi Mirhəmid, ulu babası Kərbəlayi Mirheydər, onun arvadı, seyid Mirheydərin nənəsi seyid Səkinə nənə** çoxlu möcüzələri ilə tanınmışdır.





Hazırda bu ocaqlara hər gün qurban və nəzirlər gəlir. Sabirabad rayonunda, eləcə də seyid Böyükağanın doğulduğu Kovlar kəndində çoxları həmin möcüzələrin şahidi olmuşlar.

Seyid Səkinə nənə əslən Xızı rayonundan idi. Deyilənlərə görə özünü qoruyan, heç kimlə üz-üzə gəlməyi sevməyən, üzünü örtülü saxlayan bir nəcib qadın olub.

Kovlar kəndində **Binyət** adlı bir nəfərin ağzı əyilmişdi. Onu **seyid Səkinə nənənin** ziyarətinə gətirirlər. Seyid Səkinə mübarək əlləri ilə onun ağzına vuraraq dualar etmiş və həmin adamın ağzı onun yanındaca düzəlmişdir.

Kovlar kənd sakini **Kərbəlayi Əliqulunun qızı Kəkliyin** (hazırda həmin qadın Sabirabad şəhərində yaşayır-red) sağ ayağı yanına birləşdiyindən yeriyə bilmirmiş. Kərbəlayi Əliqulu icazə alaraq qızını seyid Səkinə nənənin yanına gətirir. Miçətgəndə oturmuş bu şəfaverici nənə həmin qızın ayağının yanına bitişdiyi yerə əlini çəkir və qıza "dur"- deyə müraciət edir. Qız elə bilir ki, yenə də yeriyə bilməyəcək. Lakin seyid Səkinə nənə onun üstünə qışqırır:

-Sənə demirəm dur yeri!- dedikdən sonra qız ayağa durur və normal vəziyyətdə yeriməyə başlayır. Bunu görən uşaq qolunu nənənin boynuna salıb onu alqışlayır və öz minnətdarlığını bildirir.

Kəklik xanımın hazırda 70-ə yaxın yaşı olmasına baxmayaraq o xəstəlikdən bu günə kimi şikayəti yoxdur.

Kərbəlayi Mirheydər, Kərbəlayi Mirhəmid, atası seyid Mirheydər "Quran" əhli olmuş, ömürlərinin sonuna kimi oruc tutmuş, namazlarından qalmamışlar.

Seyid Mirheydər ağanın Kərbəla ziyarətinə getməsi ümdə arzusu idi. Lakin sovet dövründə Iranla, Iraqla yollar bağlı olduğu üçün o, arzusuna çata bilməmişdir. Ağa 56 yaşında dünyasını dəyişmişdir. Hazırda onun və atasının qəbirləri Sabirabad rayonunun Şıxlar kəndində- "Baba Samid" türbəsi olan qəbirstanlıqdadır. Seyid Mirheydər ağanın qəbri üstünə dəfələrlə qurbanlar gətirilib kəsilmişdir.

Seyid Səkinənin deməsinə görə xəstə adamları həmişə Kərbəlayi Mirhəmidin yanına gətirərmişlər. Ağa onları kimyələdikdən sonra şəfa taparmışlar. Möcüzələrlə zəngin olan bu nəsil ocağı bu gün də öz şəfaverici rolunu oynamaqdadır.

Bu ulu nəsil Sabirabad rayonunun Əhmədabad kəndinə 1930-cu ildən 1949-cu illər ərzində köçmüşlər.

Pambıq yığdıqları zaman, təxminən 1937-1938-ci illərdə görürlər ki, yığılıb qurudularaq bir yerə toplanmış pambıq nədənsə alışıb yanır. Tarla düşərgəsində günorta vaxtı nahar etməyə yığışan qadın və kişilər nə qədər vedrələrlə su töksələr də yanan pambığı söndürə bilmirlər. Bu zaman seyid Gülarə xanımı evə aparmağa gələn seyid Mirheydər ağa pambığın yandığını görür. Özünü yanan pambığa çatdıraraq iki əlini bir-birinə vuraraq pambıq komasına yaxınlaşır və yanan alova: "Sönməyəcəksən, sönməyəcəksən?!"- deyə bir neçə dəfə müraciət edir və bu zaman alovlanan pambıq sönür. Bu hikməti görən kolxozçular təəccüblənir və ağaya yaxınlaşaraq bir neçəsi onun əlindən öpür.

Kənddə bir-birindən inək, camış, hətta qoyun və keçi alan adamlar ağadan xahiş edərdilər ki, əlinizi bu heyvanın üstünə çəkin ki, xeyirli, bərəkətli olsun. O zaman çox adam mal-qara almaq üçün ona müraciət edərdi ki, əlin xeyirlidir, nəcib adamsan, ocağınız şəfavericidir, mənə bir baş heyvan sat ki, onu damazlıq saxlayım. Şübhəsiz ki, o da bəzən pulla, çox vaxt da pulsuz olaraq bir baş qoyun və ya quzu verərdi. Camaat onun verdiyi və ya satdığı mal-qaradan xeyir- bərəkət götürərdi.

**Kərbəlayi Məşədi seyid Böyükağa:**

-Yaxşı yadımdadır. 1973-cü ilin iyun-iyul ayları idi. O vaxt Azərbaycan KP Sabirabad RK-də təşkilat- partiya işi şöbəsində təlimatçı işləyirdim. *(Seyid Böyükağa sonralar təşkilat işi şöbəsinin müdiri, ideoloji sahə üzrə katib vəzifələrində işləmişdir. 1984-cü ildən hal-hazıra kimi Sabirabad rayon Mədəniyyət şöbəsinin müdiri vəzifəsində çalışır. Həmçinin rayon Ziyalılar Cəmiyyətinin sədridir-red)*





Mən 6 nömrəli pambıqçılıq sovxozuna pambığın becərilməsi işini təşkil etmək üçün təhkim olunmuşdum. O zaman kimlərin pambığın becərilməsinə getmədiyi bilinirdi. Həmin vaxt 2 nömrəli şöbənin müdiri **Hüseyn Quliyev** idi. Azadkənd kəndində yerləşən 2 nömrəli şöbə 1-ci və 3-cü şöbələrdən qismən geri qalırdı. Müəyyən etdim ki, şöbə müdirinin yoldaşı işə çıxmır, yəni pambığın becərilməsinə getmir. Bunu bildikdən sonra briqadirə tapşırıq verdim ki, sənin və şöbə müdirinin yoldaşı işə çıxmadığı halda, adamlara sizin necə üzünüz gəlir ki, söz deyəsiniz. Odur ki, hər ikinizin yoldaşı briqada üzvləri ilə birlikdə sahədə olmalıdırlar.

Şübhəsiz ki, onlar vəd etdilər ki, arxayın olun, səhərdən ailələrimiz hamıdan qabaq işə çıxacaq.

Bir işlə bir neçə dəfə maraqlandım. Məlum oldu ki, briqadirin yoldaşı işə çıxsa da, şöbə müdirinin həyat yoldaşı işə çıxmır. Hər gün axşam görülən işə yekun vurulurdu. Bir dəfə ciddi şəkildə tələb qoydum ki, rəhbər vəzifədə işləyənlərin ailələri bütün şöbələrdə işə çıxmalıdırlar ki, qalanlar da onlardan nümunə götürsünlər.

Bunun nəticəsi olaraq növbəti günlərin birində Azadkənddə briqadir işləyən **Hilal Həşimov** mənə bildirdi ki, şöbə müdiri Hüseyn Quliyev utanır, sizə deyə bilmir, onun 21 və 23 yaşlı iki uşağı yataq yerindən yerə düşə bilmirlər. Həm lal, həm də bədənləri ət kimidir. Odur ki, anaları onlara qulluq etdiyi üçün pambığa gedə bilmir. Mən ona öz iradımı bildirdim ki, bunu nə üçün əvvəldən deməmisiniz.

Şöbə müdirini yanıma çağırtdırdım və ona da öz iradımı bildirdim. Bu zaman Allahın hökmü ilə sanki qəlbimə gələn bir ifadə ilə ona bildirdim ki, Hüseyn, səhər inşallah imkan daxilində sənin həyətində çay içərik. Pambıq sahələrində işləri sahmana qoyandan sonra mənimlə əlaqə saxlayarsan.

Səhəri gün lazımi işləri gördükdən sonra şöbənin yerləşdiyi yerə qayıdanda briqadir Hilal Həşimovla şöbə müdiri Hüseyn Quliyevin bizi gözlədiklərini gördüm.

Mən sovxozun direktoru **Zabit Heydərova** məsələni olduğu kimi danışdım. O da çox heyifsləndi. Halına acıyaraq onun uşaqlarının o dərəcədə xəstə olduqlarını bilmədiyini söylədi. Biz birlikdə Hüseyn Quliyevin həyətinə getdik. O zamankı yaşayış tərzindən xeyli geri qalan evini, həyət-bacasını görəndə, doğrudan da şöbə müdiri olmasına baxmayaraq böyük ehtiyac içində yaşadığının şahidi oldum. Bir tərəfdən də xəstə uşaqlar məni düşünməyə vadar etdi. Allahın varlığına, peyğəmbərə, imamlara, ulu keçmişimə olan inamım, ata-babalarımın, ulu nənəmin möcüzələri, bütün şöbə üzrə yaşayan əhalinin mənə "seyid", "ağa" deyə müraciət etmələri sanki mənə yeni bir güc, yeni bir qüvvət verdi. Həmin dəqiqə mən Hüseyni yanıma çağıraraq uşaqlara baxmağa icazə verməsini xahiş etdim. Xəstə uşaqları gördükdən sonra elə oradaca ona üzümü tutaraq bildirdim ki, sən ocağımıza bir qurban de, Allah sənə sağlam övlad verər, inşallah. Əgər qızın olsa mənsiz ərə vermə, oğlunu mənsiz evləndirmə. Yəni arzusunda olan bir şəxs kimi mən də həmin şadlıqlarda iştirak edim.

Hüseyn isə bütün ora yığılan adamların içərisində ucadan:

-Cəddin haqqı niyyətimi elədim və qurbanımı dedim,- deyə sözünü tamamladı.

Bu əhvalatdan sonra mən həmin ilin sentyabrında Bakı ali partiya məktəbinə göndərildim. 1973-cü ilin sentyabrından 1975-ci ilin iyul ayına kimi BAPM-in iki illik şöbəsində təhsil alaraq həmin məktəbi fərqlənmə diplomu ilə bitirdim. 1975-ci ilin Novruz bayramında evə gəlmişdim. O zaman həyat yoldaşım bildirdi ki, 6 nömrəli sovxozdan Hüseyn adlı bir nəfər səni soruşurdu və bizə bir bud qoyun əti verərək bildirdi ki, qurban ətidir, ağaya deyin özü biləcək.





Həmin əhvalatı olduğu kimi mənə bildirdilər. Lakin vaxt olmadığı üçün mən məsələdən ətraflı hal- əhval tuta bilmədim.

1978-ci ildə rayonda şöbə müdiri işlədiyim vaxt Hüseyn yanıma gələrək bildirdi ki, ağa, Allah mənə bir qız övladı verib. Həmin uşaq normal danışır, yeriyir. Allah ikinci dəfə sevindirib bizə bir oğul payı da verib. Artıq uşağın iki yaşına az qalıb. O da Allaha şükür, normaldır və yavaş-yavaş danışmağa başlayıb.

Bunları dedikdən sonra məni qucaqlayıb üzümdən, əlimdən dəfələrlə öpdü. Allaha, peyğəmbərə və imamlarımıza şükür edərək qurbanının qəbul olduğunu və hər uşaq üçün ayrıca qurban kəsdiyini bildirdi.

Sonralar **Hüseyn Quliyevin** yolu rayon mərkəzinə düşəndə mənimlə görüşər və mənimlə əlaqəsini üzmürdü. İndi Hüseynin qızı öz kəndlərində müəllim, oğlu isə digər peşə sahibidir. Hər ikisi ailəlidir.

Bu nəslin layiqli ocaq yaşadıcısı **Kərbəlayi Məşədi seyid Böyükağa** əmək fəaliyyətinə 1962-ci ilin sentyabr ayından başlayıb. O gündən indiyə kimi hər il imam ehsanı verir, imkansızlara əl tutur, qohum-əqrabanın, doğma kəndi olan Kovlar kəndinin xeyir-şər mərasimlərində, kənddə aparılan sosial-mədəni quruculuq işlərində yaxından iştirak edir. Kovlar kənd orta məktəbinin direktoru olduğu 1965-1971-ci illərdə kənddə 2 ədəd körpü saldırmış, məktəbin 5 otaqdan ibarət olan əvvəlki binası, kənddə olan klub-kitabxana, kənd arasında çəkilən daxili yollar bilavasitə onun təşəbbüsü və köməkliyi nəticəsində tikilib istifadəyə verilmişdir.

Allaha, peyğəmbərə, imamlara olan inama, etiqadına arzu və istəyinə görə 1994-cü ildə Kərbəla ziyarətində, 1995-ci ildə isə Məşhəd ziyarətində olmuşdur. 12 imamdan 8-ni ziyarət etmək ona qismət olub.

Həcc ziyarəti də qismət olarsa peyğəmbər salavatullanı, digər imamlarımızı və Fatmeyi Zəhra əleyhissəlamı da ziyarət edəcək, inşallah.

Ata və babalarından ona nəsib olan xeyirxahlığın nəticəsidir ki, rayonda inşa edilən məscidin əsası, özülü ağanın qardaşı **seyid Mirhəmid Həmidovun** bilavasitə təşəbbüsü ilə qoyulmuşdur. Həmin məscidin tikilməsinə imkanı daxilində seyid Böyükağa da müəyyən miqdar vəsaitlə köməklik göstərmişdir.

Mirhəmid Həmidov Texnika elmlər namizədidir, hazırda Azərbaycan Dövlət Texniki Universitetinin dossentidir. Bir neçə dərsliyin, 20-yə yaxın Monoqrafiyanın və iki səmərələşdirici təklifin müəllifidir. Sabirabad Rayon Komsomol Komitəsinin katibi, Sabirabad Rayon Xalq Nəzarəti Komitəsinin inspektoru, Sabirabad Rayon Partiya Komitəsində kənd təsərrüfatı şöbəsinin müdiri, Azərbaycan KP Mərkəzi Komitəsində təlimatçı, Dəvəçi Rayon Partiya Komitəsinin ikinci katibi, Dəvəçi Rayon XDS-nin sədri, Sabirabad Rayon Partiya Komitəsinin birinci katibi, Rayon Sovetinin sədri, rayon Icra Hakimiyyətinin başçısı, Milli Məclisin deputatı olmuşdur. Bakı Ali Partiya Məktəbini, Hüquq institunu, Kənd Təsərrüfatı Akademiyasını bitirmişdir.

Allah bu nurlu imam-peyğəmbər övladlarının pak nəfəsini heç vaxt xalqımızın üstündən əskik eləməsin.





## MƏŞƏDİ SEYİD MİRKAZIM SEYİD MİRHƏSƏN OĞLU



Yazın gəlişi ilə yenə də Xan Araz aşıb-daşır, öz məcrasına sığmırdı. Camaat ayaq üstə idi. Suyun səviyyəsi son həddə çatmışdı. Camaat bənd vurur, buldozerlər gecə-gündüz işləsələr də suyu ram edə bilmirdilər. Bakıdan tökülüb gələn rəhbər işçilər deyirdilər ki, bu gecə Sabirabadın son gecəsidir.

Qəflətən bir nəfər soruşdu ki, sizin kənddə bəyəm seyid yoxdur ki, gəlsin cəddini köməyə çağırsın.

Cavab verdilər ki, var, **seyid Mirhəsən ağa.**

Kənd sakini Usub kişi qayıtdı ki, Allahın bəlasına seyid Həsən neyləsin?

Əl-qərəz ağanın dalınca adam göndərdilər. O gecə nə camaat yatdı, nə də seyid Mirhəsən ağa. Ağa əllərini ulu dərgaha qaldırıb, səhərəcən dua oxudu, zikr elədi, camaatına aman dilədi.

Səhər açılanda Xan Arazın səviyyəsi xeyli aşağı düşmüş, xəta-bəla aradan qalxmışdı.

**Seyid Mirhəsən Məşədi seyid Mirəli oğlu** imam Cəfəri-Sadiq (ə.s) -nin törəməsidir. Atası Məşədi seyid Mirəli Iranda rəhmətə gedəndən sonra qardaşları **Mirsaleh və Mirsadıqla** Imişliyə köçürlər. Qardaşları Imişlinin Göbəktala kəndində qalır. Seyid Mirhəsən ağa isə Qalaqayında məskunlaşır.

Bu yerlərin camaatının seyidlərə böyük məhəbbəti olduğuna görə, onun kəndlərinə düşməsinə çox şad olurlar.

Ağa da camaatın xeyir-şər işlərini can-başla yola verər, elin üstündən xəta-bəlanın uzaq olması üçün dualar oxuyardı. O, yüksək əxlaqı, kamilliyi, davranışı ilə hər bir qalaqayınlının qəlbində özünə əbədi məskən salır.

Seyid Mirhəsən ağa çox sınaqlı, kəsərli nəfəsli seyid, çox da zəhmətkeş insan idi. Deyərdi ki, zəhmətlə yeyilən çörək qurtarmaz.

Aclıq illəri kənddən 10-15 nəfər yığıb Kürdən o tərəfə biçin biçməyə gedir. Yayın istisində möhkəm işləyir, biçini başa vurur, taxılı xırmanda döyürlər. Əmək haqqı almaq vaxtı çatanda kolxoz sədri onlara danışdıqlarından az taxıl verir. Ağa çox pis vəziyyətə düşür. Axı camaatı o aparmışdı. Nə illah edir, kolxoz sədri dediyindən dönmür.

Seyid Mirhəsən ağa acıq edib kəndə qayıdır.

Elə o gecə də sədrin əhvalı dəyişilir. Zərbənin ona haradan dəydiyini başa düşüb ağanın dalınca atlı göndərir. Ondan üzr diləyib, biçinçilərin payını da artıqlaması ilə verir. Ancaq ağa onu bağışlayandan sonra sədr sağalıb ayağa qalxır.

Seyid Mirhəcən ağa öz ölümü ilə də kənd camaatına xidmət elədi.

Bir gün qəflətən ağa oğlunu molla Əlimədətin dalınca göndərir. Oğlu:

- Mollanın evini tanımıram,- deyəndə, ağa o, Musagildədir, tez get denən özünü mənə çatdırsın - deyib uşağı ora göndərir. Sanki ağa hər şeyi görür və hiss edirdi.

Molla Əlimədət həqiqətən Musagildə imiş. O, içəri daxil olanda, soruşur ki, Əlimədət, sözümüz sözdürmü?

- Bəli, ağa, amma bu söhbətin nə dəxli var,- deyə Əlimədət soruşur.

Ağa ona deyir ki, üstündə "Yasin" oxusun. Əlimədət bir az tərəddüd edəndən sonra "Yasin"ə başlayır. Ağa da oxuyur. Əlimədət tapşırmanı başa vurandan sonra seyid Mirhəsən ağa gözlərini yumur və haqq dünyasına qovuşur.

O vaxtlar kənd qəbirstanlığı tamamilə dolmuşdu. Təzə yerdə isə heç kəs öz ölüsünü basdırmaq istəmirdi. Sən demə, ağa vəsiyyət etmişmiş ki, onu təzə yerdə dəfn etsinlər ki, camaat da ölüsünü orada basdırcın.

Belə də edirlər.





:

O gecə ağanın çox yaxşılıqları **keçmiş Balakəndin kolxoz sədri Mirzəmməd kişi** gecə ağanı yuxusunda görür. Ağa ona tapşırır ki, mənim halvamı çaldır, gətir.

Mirzəmməd kişi fikirləşir ki, ağa elə-belə yuxuma girməzdi. Görünür burada nəsə var.

Evdəkilərə halva çalmağı tapşırıb ağagilə gedir. Qalaqayına çatanda ona xəbər verirlər ki, bəs, bu gecə seyid Mirhəsən ağa rəhmətə getdi...

Seyid Mirhəsən ağa çox sağlam adam idi. Ömrü boyu iynə-dərman nədi, bilməzdi. Rəhmətə gedəndə heç rəngi də dəyişməmişdi.

Ağa rəhmətə gedəndə balaları, **Mirhasil (rəhmətə gedib), Mirkazım və Seyidxanım** hələ körpə idilər. Onları el saxladı. Ağaya olan hörmətə görə.

Ağanın yolunun davamçısı **Məşədi seyid Mirkazım ağa** 1935-ci ildə Qalaqayında anadan olub. 7-ci sinifə qədər oxuyandan sonra kolxozda işləməyə başlayır. Gözü ilə od götürüb, hər əzab-əziyyətə qatlaşıb. Təqaüdə çıxana qədər sürücü işləyib. Həmişə də xeyirxah əməllər carçısı olub. Camaatla birlikdə qədim Qalaqayın məscidinin təmirinə kömək edib. Hal-hazırda elə həmin məscidin də sədridir.

Həyat yoldaşı **Lumu xanımla** 11 uşaq böyüdüblər: **seyid Mirfazil, seyid Mirzaman, seyid Mirhəsən, seyid Mirabbas** və 7 qız övladı.

Ağa Məşhəd, Kərbəla ziyarətlərində olub. Özü də zəvvarlara rəhbərlik edib.

Bu gün camaat müxtəlif, müşkül məsələlərin həllində ağaya pənah aparır, niyyətlərinə, diləklərinə çatırlar.

Ağanın dediyi ilə gördüyü birdir. Neçə-neçə insan onun pak nəfəsindən, kəramətindən şəfa tapıb.

**Allah səni eldən əskik eləməsin, ağa!**

## AXUND ŞEYX BÖYÜKAĞA ŞİRVANİ



İmam Məhəmməd Bağır ə.s. belə buyurur: "Elmindən faydalanılan alim yetmiş abiddən üstündür".

İmam Cəfəri-Sadiq ə.s. belə buyurur: "Alimin eynən abiddən fərqi on dörd gecəlik ay nisbətindədir".

Allah Rəsulunun səhabələri belə şərtləşdilər:

- Elmin maldan üstün olduğunun səbəbini hər birimiz ayrı-ayrılıqda Həzrət Əli (ə)-də soruşaq, görək hər birimizə ayrı-ayrı cavab verə biləcəkmi?

Hər biri ayrı-ayrılıqda Həzrət Əlinin hüzuruna gəlib soruşdular:

- Ya Əmir əl Möminin! Elmin maldan nə üçün üstün olduğunu bizə izah edə bilərsinizmi?

Elm və hikmət qütbi cənabi Həzrət Əli gün qədər ziyalı üzünü onlara döndərib birinciyə bu cavabı verdi:

- Elm peyğəmbərlərdən, mal isə Harun və Firondan mirasdır.

İkinciyə:

- Elm sahibini, malı isə sahibi qoruyur.

Üçüncüyə:

- Elm sahibinin dostu, mal sahibinin isə düşməni çox olar.

Dördüncüyə:

-Xərclədikcə elm artır, mal isə əksilir.

Beşinciyə:

-Elm sahibi şərəfli ünvanlar, mal sahibi isə simic və xəsis kimi ad qazanır.





Altıncıya:

- Elmin oğrudan qorunmasına lüzum yoxdur, malın isə qorunması vacibdir.

Yeddinciyə:

- Zaman keçdikcə elm cilalanır, mal isə quruyub tələf olur.

Səkkizinciyə:

- Elm qəlbi qüvvətləndirir, mal isə əksinə, zəifledir.

Doqquzuncuya:

- Elm təvazökarlıq, mal isə lovğalıq yaradır.

Onuncuya:

- Elm insanda mərhəmət, mal isə xəbislik doğurur.

Səhabələr bir ağızdan: cənab Əli (ə) elmlərə sahibdir, nəfsinə hakimdir, hökmündə adildir,-dedilər.

Haqqında söhbət açacağımız elm və şərəfli ünvan sahibi müctehid **Şeyx Böyükağa Şirvanidir**. Şeyx ağa həzrətləri (hicri-qəməri tarixi ilə 1275-ci ildə) Sabirabad rayonunun Cavad kəndində anadan olmuş və 63 il mənalı ömür sürmüşdür. Vəfat məqamı 1917-ci il inqilabından əvvələ təsadüf edir. İbtidai təhsilini atası axund molla İsmayıldan almışdır. Sonralar təhsilini Həzrət Əli (ə)-nin Elmi Hövzəsi olan Nəcəfül-Əşrəfdə davam etdirmişdir. 25 il dini təhsilini başa vurduqdan sonra orada saxlanılmış və "Əl Əkbər Hücrəsi"nə xuddam təyin olunmuşdur. Xeyli müddət orada yaşayaraq "Qərineyi-ictihad" dərəcəsinə qədər yüksəlmişdir.

**Allahın mərhəmətinə qovuşmuş Mir Səkinə bibinin dediklərindən:**

- Kəndimizdən Kərbəla ziyarətinə gedən zəvvarlar arasında Şeyxin dayıları Kərbəlayi Əziz və Kərbəlayi Hacıalı da var idi. Şeyxin anası zəvvarları yola salarkən qardaşlarına deyir:

- Ağaya deyin ki o, mənim sonbeşiyimdir və qocalmışam, qoy vətənə qayıtsın. Qayıtmasa, südümü ona haram edərəm.

Zəvvarlar Kərbəlaya yetişirlər. Şeyx həzrətləri onları qarşılayır və dayılarından anasını soruşur.

-Anam necədir?

-Anan sağ-salamatdır və sənə sifarişi var. Dedi ki, ağa Vətənə qayıtsın, yoxsa südümü ona haram edərəm.

Dayıları deyirlərmiş ki, ağa bir an fikrə getdi və çöhrəsinə elə bil bulud çökdü. Cavab vermədən dayılarından ayrılıb hücrəyə getdi. Səhər sübh namazından sonra dayıları qalan karvansaraya gəldi. Onlar ilə səmimi görüşərək dedi:

-İnşallah mən də sizinlə vətənə dönəcəyəm.

Dayıları sual etdilər ki, bəs dünən bizə nə üçün cavab vermədin?

-Ay mənim dayılarım! Məgər mənim ixtiyarım özümdə idi ki, sizə cavab verəydim? Keçən gecə yuxuma Şahzadə Əli Əkbər girdi. O mənə dedi ki, get ananın çağırışına, əks halda anan südünü sənə haram edər, onda bu elminin sənə faydası olmaz. Dayıları bu söhbətdən çox şad oldular. Alim axır ki, vətənə qayıdacaqdır.

Onlar vətənə qayıdırlar. Cavad və Türkəndi kəndlərinin camaatı ağanı təm-təraqla qarşılayır. O, Cavad məscidində ibadət işlərini bərpa edir və peyğəmbər minbərindən xalqa moizə oxuyur.

Yuxarıda deyilənləri **Şeyxin qızı Atikə xanım, mərhum Əliheydər kişi, mərhum Paşa kişi, mərhum Əli Salman Kərbəlayi Əziz oğlu, Yunis əmi, mərhum Əliqulu əminin oğlu** Məşədi **Əbülfəz, atası mərhum Ağaşirindən oğlu Hacı Ağamusa,** atası **mərhum Süleymandan oğlu Kərbəlayi Ağalar, əmisi mərhum** Əli **Salmandan və əhli-beyt Yunisdən şair Abbasağa, Molla** Məşədi **Əhməd əmidən oğlu Məşədi Malik, seyid Nəsir ağadan oğlu Mirtağı ağa, mərhum Həbib kişidən oğlu Əzizağa, mərhum Bəhmən əmidən oğlu Mirzə, mərhum Şanı kişi Museyib Azad oğlu, Hüsü əmi, mərhum Şeyx Həzrətlərinin nəvəsi Böyükağa İsmayıl** oğlu atası-anasından eşitmiş və deyilənləri təsdiq ediblər.

Şeyx ağa at üstündə gəzər və üzünü rübəndlə örtərdi.

Bir gün Cavad kəndindən bir dəstə adam ağaya ehtinasızlıq edir və öhdələrində olan zəkatı Şeyx Həzrətlərinə ödəmək əvəzinə özləri ilə Kərbəla ziyarətinə aparırlar. Onlar Nəcəf alimləri ilə görüşüb zəkatı (mala-dövlətə gələn 1/10-u) onlara gətirdiklərini deyirlər.





Alimlər sual edirlər:

-Siz hansı mahaldan gəlmisiniz?

Cavab verirlər ki, Şirvan mahalından.

-Sizin eldə Şeyx Böyükağa kimi müctehidiniz var. Bizdən ona salam deyin və zəkatı ona qaytarın, deyərək zəvvarların zəkatını götürmürlər, gedin ağadan üzr istəyin, o bizdən qat-qat güclü alimdir-deyə gedənlərə Şeyxin haqqında ətraflı məlumat verirlər.

Zəvvarlar vətənə qayıdanda Kür boynunda ayaqqabılarını boyunlarına keçirib torpağa düşürlər.

Ağa bundan xəbər tutub camaatı onları qarşılamağa göndərir, özü də onların dalınca gəlib yetişir. Möhtərəm bir ağsaqqalın qolundan tutub ayağa qaldırır. Nəcəfdəki əhvalatı ağsaqqallar ağaya danışır və zəkatı ona təqdim edərək bağışlanmalarını diləyirlər.

Ağa onlara belə deyir: -Mən sizi bağışladım. Qoy Allah da bağışlasın.

Bir müddət Şeyx Həzrətləri qonşu Türkəndi kəndinin möminlərinin dəvəti ilə kəndin məscidində moizə və nəsihət edir. Bu hadisədən sonra ağaya olan ehtiram daha da artır və o, ömrünün axırına kimi Allahın və peyğəmbərlərin buyurduqlarını xalqa çatdırır, islamı təbliğ edir.

Vəfatından bir neçə gün əvvəl isə bütün kənd əhlini və ətraf kəndlərin ağsaqqalarını məscidə dəvət edir. İbadət və moizədən sonra onlarla hallaşır və öz vəsiyyətini edir. **Şeyxin vəsiyyətindən:**

Son vidam olar sizinlə, inşallah! Yaxın günlərdə Rusiyada güclü inqilab olacaq. O inqilaba qədər dünyadan bir din alimi köçəcək, inşallah o da mən olaram.

**Əli-Salman Kərbəlayi Əziz oğlu** deyirdi ki, Şeyx Həzrətləri şəhadətə yetdi və onu Cavad kəndindəki Seyidlər qəbirstanlığında dəfn etdilər. Ondan az sonra 1917-ci il oktyabr inqlabı baş verdi.

**Şeyxin qızı Atikə xanımın dediklərindən:**

-Ağam olduqca mehriban və həlim xasiyyətli insan idi.

Mənə Quran və şəriət dərsini öyrətmişdi. Quranı yaxşı oxuduğuma və şəriətə dəqiq əməl etdiyimə görə məni çox istəyirdi. Mən Şeyxin həyat- fəaliyyəti ilə çox maraqlanırdım. Bir gün onlara gedib Şeyxin məşğuliyyəti ilə bağlı soruşdum. Dayıdostum dedi:

-Çox kitablar oxuyar, əsərlər yazardı. Gecələr az yatar, ilin çox günlərini oruc tutar və gecələr bir neçə rukət namaz qılardı. Bir neçə dəfə eşitmişdim ki, gecəyarı ağam kiminləsə danışır.

Bir dəfə ağamın əbasından yapışıb kimlə danışdığını xəbər aldım. Dedi ki, qızım, mənə baş qoşma.

Əl çəkmədikdə isə dedi ki, heç kəsə demə, mən zəmanənin imamı ilə danışırdım.

Ağamın bir sandıq kitabı, özünün əlyazmaları və yazılı çoxlu kəlamları vardı. Vəfatından sonra ağadan qalanlara qardaşı **Molla Hacı Həsən** sahib durdu.

Bir vaxt din xadimləri, mollalar represiyaya məruz qalanda Hacı Həsəni də həbs etdilər və Şeyxin bütün kitablarını, əlyazmalarını da apardılar. Özünə məxsus olan sənədləri də həmin sandıqda idi...

Şeyxin geyim əşyalırını (çuxası, əmmaməsi, rübəndi və s.) Sabirabad cümə məscidinin axundu mərhum Molla Museyibə hədiyyə etmişdilər. Gülab qabısı isə nəvəsindədir.

**Nəvəsi Böyükağada** babasının böyük yadigarı var. O da daşıdığı müqəddəs adıdır.

**Əli-Salman Kərbəlayi Əziz oğlunun** təşəbbüsü ilə kənd camaatı 1974-cü ildə Şeyx həzrətlərinin qəbrinin üstü üçün Quran ayələri ilə zəngin olan sinə daşı hazırlatdı ki, illər keçdikcə nəsillər "Qərineyi-ictihad" dərəcəsi almış alimi ziyarət etsinlər.

Bu daşı Bakı şəhərindən mərhum **Əliabbas Musa oğlu** yonub-hazırlatmışdı.

Müctehid Şeyx Böyükağa Şirvani adına dini icmanın sədri **axund Hacı İsrafil Əli-Salman oğludur.**



# SAATLI










## CAME MƏSCİDİ



Şərq memarlığının gözəl nümunəsi olan, klassik ornamentlərlə bəzədilmiş yaraşıqlı Came məscidi Saatlı rayon İcra Hakimiyyətinin başçısı **Gülhüseyn Əhmədovun** və camaatın köməkliyi ilə inşa edilib.

Onu da xatırladaq ki, Gülhüseyn müəllim təkcə məktəblərin, mədəniyyət ocaqlarının deyil, dinimizin, islami dəyərlərin qorunmasına da həmişə böyük əhəmiyyət verib, tarixi abidələrimizin təbliğində, bərpa edilməsində öz qüvvə və bacarığını heç vaxt əsirgəməyib. Beyləqandakı "Cərcis peyğəmbər"in ərazisinin abadlaşdırılmasında onun böyük zəhməti olub.

Qoy ulu Tanrı xeyirxah insanları həmişə hifz eləsin.

Saatlı Came məscidinin axundu **Hacı Vadərdir.**

## HƏZRƏT ƏLİ MƏSCİDİ



Bu qədim məscidin tikintisinə və bərpasına əsasən camaat köməklik edib. **Əliabbas Əsgərov, Əliş Mehdiyev, Məstalı kişi,** seyid **Cəlal, Yusif kişi, seyid Mirsahib, Mirzəxan, Misir, Məşədi seyid Əliş Abbasov, Kərbəlayi Yusifəli** və başqalarının böyük zəhməti olub.

Məscidin axundu **Hacı Bəxtiyar seyid Əliş oğludur.**

Xuddamı isə **Kərbəlayi Ağavəli Mirəzizovdur.**

Məscid 50-ci illərə qədər fəaliyyət göstərib, 60-61-ci illərdə hökumət məmurları tərəfindən bağlanılıb. Sonralar xalqın təkidi ilə yenidən möminlərə qaytarılıb.





## KƏRBƏLAYİ SEYİD MİRTAĞI AĞA, SEYİD MİRƏZİZ AĞA OCAĞI



*Kərbəlayi Mirtağı ağa qardaşı oğlu seyid Ağamirlə*

Seyidlərin seyidi - imam Əli ə.s. yalnız azadlıq və ədalət carçısı deyildi. O, həm də zəhmətsevərliyi, cəsarəti, qeyrəti, qayğıkeşliyi ilə insanlara nümunə idi. Gecələr xəlvətcə binəvalar üçün yemək-içmək daşıyar, kasıb-kusubun ürəyinə məlhəm qoyardı. Onun bu hərəkəti, rəftarı, əməlləri bir dəfə, iki dəfə deyil, müntəzəm davam edirdi. Və o qədər təkrar olunmuşdu ki, onun mübarək çiyinlərində heybənin kəndiri iz salmışdı.

Binəvaların dadına çatan, mayası yalnız halallıqla yoğrulan, ömrünü qətrə-qətrə el yolunda əridən Əli ə.s.-nın törəmələri yaşayır qədim Muğanda. Bu nəslin qolları çox böyükdür. O dövrdən başlamış, ta bu günə qədər bu nəslin ocaq yaşadıcıları harda yaşayıblarsa, mərhəmətlərindən, xoş əməllərindən ellər bəhrələnib, fədakarlıqları, mənəvi kamillikləri el yoluna işıq, nur saçıb. Qərinələr, əsrlər dəyişsə də bu ocağın alovu öləziməyib, daha da alovlanıb. Çox şey dəyişib bu qoca dünyada. Dəyişməyən yegənə şey isə Imam Hüseyn ocağının qüdrətidir.

Bu ulu, mötəbər nəslin əcdadlarından olan **Xəlifə Mirənnağı Soltani** haqqında əlimizdə çox bəsit məlumatlar var. Şah Ismayıl Xətainin mübarək möhürü ilə təsdiq edilmiş sənəddən görünür ki, Xəlifə Mirənnağının qəbiləsi Imişliyə, Cavadxanlıya gəlib və onlara böyük torpaq sahələri ayrılıb. Xəlifə Mirənnağı Soltani dövrünün kamil, varlı, halal şəxsiyyətlərindən,

böyük din xadimlərindən olub. Başına topladığı böyük atlı dəstəsi ilə dövlətin möhkəmlənməsində, islamın geniş yayılmasında yaxından iştirak edib. Onun oğlu da, nəvəsi Mircəfər də mühüm dövlət işlərində çalışıb. Mircəfər ağanın övladlarının bəziləri Ağcabədiyə, bəziləri Imişlinin Öncələr kəndinə, Qubaya, Ağsuya, Kürdəmirə köçüb. Oğlanları Kərbəlayi **seyid Miri** və **Kərbəlayi seyid Mirtağı** da atalarının yolunu şərəflə davam etdiriblər.

**Kərbəlayi seyid Mirtağı ağa** Kürlə Araz arasında olan camaata çavuşluq edib. Camaatı oğrudan, quldurdan qoruya-qoruya 6 aya sağ-salamat müqəddəs yerlərə ziyarətə aparıb gətirib. Zəvvarlar yol boyu yığılar, onun dəstəsinə qoşulardı. Bəzən Savalan dağının qarına düşüb, atların nəfəsi ilə qızınar, bəzən də yayın qızmar günəşindən daldalanmaq üçün kölgə tapmayıb əziyyət çəkərdilər. Belə hallarda ağa cəddini köməyə çağırardı. Allahı da zəvvarlara buluddan sərinlik göndərərdi. Kərbəlayi seyid Mirtağı ağa düz 7 dəfə Kərbəlaya gedib-gəldiyi üçün ona gümüşdən düzəldilmiş Həzrət Abbas nişanı və bir də ələm vermişdilər.


*Seyid Rəzi ağa*

**Cənnət hara, behişt hara, Kərbəla hara?**
**Rəqşi-cahandır, cənnəti-məvayi-Kərbəla,** -deyərdi.

Axırıncı dəfə 1924-cü ildə Kərbəla ziyarətinə gedib qayıtdı. Amma qardaşı Kərbəlayi seyid Miri səfər qabağı camaatla halallaşdı, vəsiyyətini etdi. Sanki qayıtmayacağını bilirdi. Getdi və istəyinə uyğun müqəddəs məkanda haqq dünyasına qovuşdu.

Qəbri-şərifi müqəddəs Kərbəla qəbirstanlığındadır.

Kərbəlayi seyid Miri ağa 5 övlad atası idi: **seyid Rəzi, seyid Seyidağa, Kərbəlayi seyid Nəzər, Seyidəbəyim və seyid Gülsüm.**





Bu nəslin övladları hərəsi öz xeyirxah əməlləri ilə el gözündə ucalıblar.


*Seyid Mirnəzər ağa*

Kərbəlayi seyid Miri ağanın böyük oğlu **seyid Rəzi** (1900-1982) Quran oxuyan, xeyirxah, çox məzlum bir seyid idi. Ömrü boyu kolxozda işləyib. Bircə qız yadigarı qalıb - **seyid Xuram.**

**Kərbəlayi seyid Mirnəzər Kərbəlayi seyid Miri oğlu** (1920-1998) isə hökümət işlərində çalışıb, mühüm vəzifələr tutub. Amma həmişə adını-sanını qoruya bilib. Böyük külfəti olub. 5 oğul, 5 qız: **seyid Mirhadı, seyid Mirələm, seyid Ağamusa, seyid Miri və seyid Nazim.**


*Seyid Seyidağa ağa*

**Seyid Miri ağanın ortancıl oğlu seyid Seyidağa** (1909-1948) Imişlidə, ulu babasına verilmiş Cavadxanlıda anadan olmuş, həyatda az ömür sürsə də camaatın hörmətini qazana bilmişdi. Ümumiyyətlə, Xəlifə Mirənnağı Soltaninin törəmələri ya Ramazan ayında, ya da Məhərrəmlikdə rəhmətə gediblər. Bu da Allahın bir möcüzəsidir.

Kərbalayi Miri oğlu Seyidağa dövrünün ən pis vaxtında yaşayıb. Ciddi represiyalara məruz qaldığından öz qohum-əqrabası ilə birgə İmişli rayonunun Mirili kəndindən Saatlının indiki Naharlı kəndinə köçüb. Cavan olmasına baxmayaraq dövrünün ən yaxşı ağsaqqallarından olmaqla bərabər, babası Iman Hüseyn ə.s. məktəbinin layiqli davamçılarından idi.

Seyid Seyidağa varlı-hallı seyid olub. Öz varını da el yolunda xərcləyər, yetim-yesirə əl tutar, aclara öz əlləri ilə taxıl paylayardı. Özü də elə edərdi ki, bunu heç kəs bilməsin. O vaxtlar ağanı gözü götürməyən bədxahlar ondan tez-tez əlaqə-



*Seyid Mirtağa ağanın kümbəzi*

dar təşkilatlara, M. C. Bağırova imzasız məktublar yazarmışlar. Ağanın xətrini çox istəyən M. C. Bağırov həmişə ona kömək edərdi.

Günlərin bir günü M. C. Bağırov yenə də onu yanına çağırtdırır, deyir:

-Əmioğlu, indiyədək nə bacarmışamsa, onu eləmişəm, amma daha sənə yardım edə bilməyəcəyəm. Səndən bu dəfə Moskvaya yazıblar.

Ağa soruşur ki, bəs mən neyləyim?

M.C. Bağırov qayıdır ki, heç nə, get əminoğlu Həzrət Abbasa ərizə yaz.



*Kərbəlayi seyid Mirşəmi ağa*

Ağa belə də edir. Aradan heç bir ay keçmir. Ondan donos yazanın nəsli yerlə-yeksan olur.

Seyidağaya Allah-təala 3 oğul bəxş eləmişdi. Hər biri cavankən ağsaqqal titulu qazanmışdı: **seyid Mirəziz, seyid Ağamir və Kərbəlayi seyid Mirşəmi.**

**Seyid Ağamir Seyidağa oğlu** (1934-1992) ömrü-boyu əziyyət çəkib. Çörəyini daşdan çıxardıb. Amma heç vaxt naşükür olmayıb. Balaları **seyid Mirbaba, seyid Mirsəlim, seyid Mirsayıl, seyid Mirşəfa, seyid Mircavan, Şəlalə, Nafilə, Vəsilə və Hürünü** də bu ruhda- halallıq ruhunda tərbiyələndib.

Seyidağanın sonbeşik oğlu **Kərbəlayi seyid Mirşəmi ağa** idi (1941-2001). İxtisasca həkim olsa da, ömrünün sonuna kimi Hacıqasımlı kəndinin sovet sədri vəzifəsində çalışdı. Əlindən gələni eldən əsirgəmədi. 1996-cı ildə həyat yoldaşı Ağca





xanımla Kərbəla ziyarətində oldu. Övladları **Ağaseyid, Mirsadiq, Mirəmanət, Kərbəlayi seyid Mirsamir, Səidə və Kəmalə** ocağının yaşadıcılarıdır.

***

Kərbəlayi Mirtağı ağa uzun zaman - 1926-ci ildən 1950-ci illərə qədər represiyalara məruz qalıb. Və elə bu səbəbdən də çox yerlər dəyişib. Çoxlu yer dəyişməsinə baxmayaraq vəfat edənədək bu nəslin ağsaqqalı olub. Nəcib seyid kimi hər yerdə hörmətlə qarşılanıb, yüksək məqam sahibi olub. Hazırda ağanın ziyarətinə müxtəlif rayonlardan, bölgələrdən yüzlərlə zəvvar ziyarətə gəlir.



*Hacı seyid Mirqafar ağa*

**Kərbəlayi Mirtağı ağa** 1959-cu ildə, 90 yaşında rəhmətə gedib. Qəbri İmişlinin Mirili kəndindədir. 5 oğlu, 2 qızı vardı: **seyid Mirsahib, Kərbəlayi seyid Mirqafar, seyid Mirxaliq, seyid Mirseyid, Kərbəlayi seyid Mirzeynal, Seyidəxanım və Seyidnənəş.**

Böyük oğlanları seyid **Mirsahib** və **seyid Mirxaliq** erkən rəhmətə gediblər. Hər ikisi vəsiyyət ediblər ki, onlardan sonra övladları qalmasın.



*Kərbəlayi seyid Mirzeynal ağa*

Hacı seyid Mirqafar ağa 3 oğul, 4 qız atasıdır. Bu nurlu seyid övladı camaatın sevimlisidir. Üzündəki nur insanlara şəfa verir. Onunla rastlaşan adam bu insanın mərhəmətindən özünə əvəzedilməz pay aparır. Ağa keçən il Məkkə ziyarətinə getmişdir. **Oğlanları seyid Mircəfər, seyid Mirsəid, seyid Mirvasif, qızları Fəridə, Suğra, Sevda, Sahilə ata-babalarına layiq övladlardır.**

**Hacı Mirqafar ağa** 1963-77-ci ilə qədər kənd soveti sədri vəzifəsində işləyib. Dəfələrlə rayon sovetinin deputatı seçilib. Harada işləyibsə el-obanı düşünüb. Kəndin abadlaşması, məktəb, məscid tikintisi, ümumiyyətlə bir çox xeyirxah işlər bu nəslin adı ilə bağlıdır. Və bu gün də atalarının yolunu övladları davam etdirirlər.

**Yeznəsi, Fəridənin həyat yoldaşı Zakir** müəllim uzun müddət məktəb direktoru vəzifəsində işləyib.

## SEYİD MİRƏZİZ AĞA (1922-1990)



*Seyid Mirəziz ağa həyat yoldaşı Kərbəlayi Məryəm xanımla*

Əmisi Kərbəlayi Mirtağı ağadan sonra seyid Mirəziz ağa nəslin ağsaqqalı, ağsaqqalların ağsaqqalı olub. Kolxozda briqadir işləyib.

Mirəziz ağanın 12 oğlu və bir qızı olub. Uşaqlarının maariflənməsi üçün əlindən gələni əsirgəməyib. Belə ki, ağanın övladlarının əksəriyyəti keçmiş SSRI-nin mərkəzi və başqa şəhərlərində müxtəlif ixtisaslar üzrə təhsil almışlar.



*Seyid Rza ağa*



*Seyid Mirağa ağa*

Özü isə ta ömrünün sonuna kimi rayonun ağsaqqalı kimi xeyirxah işlərdə öz köməyini, gücünü, ürəyini sərf edib. Rayon camaatının sözlərinə görə belə bir xeyirxah insan yüz ildə bir dəfə yetişir.

Həzrəti Məhəmməd





ə.s. "Insanın qiyməti onun elminin çəkisi qədərdir" - demişdir. Allah ulu şəxsiyyətləri bir para çörəyə möhtac etsə də qəlblərindəki mərhəməti, əllərindən səxavəti əskik etməmişdi. Insanlıq məktəbinin ən ulu şəxsləri həmişə tarix salnaməsində böyük iz qoymuşlar.

Seyid Mirəziz ağa da belə bir insan olub. Kəndin abadlaşmasında, məscidin tikintisində, yol salınmasında çox əzab-əziyyət çəkdi. Öz səxavəti, xeyirxahlığı ilə insanlara örnək oldu. Amma taleyi heç vaxt onun üzünə gülmədi. Allah-təala ona bala dağı da göstərdi. Balaları seyid **Mirağa və seyid Rza** eyni gündə rəhmətə gedəndən düz 17 gün sonra özü də istəkli balalarına qovuşdu.

Məgər bu ulu Tanrının, seyid nəslinin kəraməti deyilmi? Allah-təalanın bu pak, məsum, peyğəmbər övladının itkisi el üçün böyük dərd oldu.

**Seyid Rza** az ömür yaşasa da ellərə örnək ola biləcək bir tale yaşadı. O, həmişə mühüm dövlət işlərində çalışsa da heç vaxt haqqı nahaqqa vermədi, halallığı, paklığı ilə ad-san qazandı, bir imam-peyğəmbər övladı kimi el-obanın qəlbində özünə əbədi məskan saldı.



*Hacı Ramiz həyat yoldaşı Kərbəlayi seyid Səbirə xanım və nəvələri ilə*

Onu da xatırladaq ki, Mustafabəyli kənd orta məktəbi, Arazın üstündəki körpü və küçə seyid Mirağanın adını daşıyır.

**Allah hamısına rəhmət eləsin.**

Seyid Mirəziz ağa balalarını, ailəsini həddən çox istəyirdi Həyat yoldaşı **Kərbəlayi Məryəm** rəhmətə gedəndə qazılan qəbir təsadüfən düz onun ayaqları altına düşdü. Bir yeri qaz

dılar, daş çıxdı, ikinci bir yer ağanın ayaqlarının tuşuna düşmüşdü. Heç bəlkə də ölçüb-biçsəydilər bu tarazlığı ala bilməzdilər. Bu da bir sirri-xudadır.



Seyid Mirəziz ağanın o biri övladları **seyid Mirmahmud, Hacı seyid Mirqiyas (1993-cü ildə Məkkə ziyarətində olub), Kərbəlayi Səbirə, Kərbəlayi seyid Mirata, seyid Əziz** (rəhmətə gedib), **seyid Mirxuda, Məşədi seyid Mirnazim, seyid Mirkərim, seyid Mirhakim, Məşədi seyid Mirvaleh, seyid Mirnamiq** (ata ocağında o oturur, həyat yoldaşı da əmisi qızı Hürüdür) el-obanın layiqli, qeyrətli, bacarıqlı, xeyirxah, əməli- saleh övladlarıdır.

Onu da qeyd etmək yerinə düşər ki, Mirəziz ağanın yeznəsi Hacı Ramiz hələ dirikən özünə rəhmət qazanmışdı. Onun xoş əməlləri bir deyil, beş deyil. Bircə onu xatırladaq ki, Məzrəli kənd məscidinin inşası onun adı ilə bağlıdır və bu Allah evində namaz qılan möminlərimiz ona da rəhmət oxuyurlar.

Seyid Mirəziz ağa ta Sovet hakimiyyəti məscidləri bağladığı vaxtlarda hər il öz həyətində İmam Hüseyn ə.s. təziyəsi keçirər və dini mərasimlərdə xalq üçün ehsan verərdi. Bu nəcib işləri onun övladları bu gün də həyata keçirirlər.

**Rayonun nəcib ağsaqqallarından biri, uzun müddət rayon Təhsil Şöbəsində işləmiş qocaman pedaqoq Qoçəli Pənahov:**

- Nurlu seyidlərimiz çoxdur, amma seyid Mirəziz ağagilin nəsli bir dənədir. Bu nəsil çox zəhmətkeş, öz adlarının üstündə əsən, ancaq əllərindən xeyirxahlıqdan başqa pislik gəlməyən müqəddəs seyidlərdir. Belə insanların isə xatirəsi, sözü-söhbəti isə heç vaxt unudulmur, yaddan çıxmır.

Allah cəmi haqq dünyasında olan imam-peyğəmbər övladlarına rəhmət eləsin.





## SEYİD MİRBALA AĞA



Rayon ərazisində aşkar edilmiş arxeoloji abidələrə əsaslanaraq qeyd etmək olar ki, XV əsrədək Saatlıda kütləvi məskunlaşma baş verməmişdir.

Saatlı 1920-ci ilədək Bakı quberniyasının Cavad qəzasının tərkibinə daxil olmuşdur.

Azərbaycan MİK-in 1930-cu il avqust ayının 8- də verilmiş 476 nömrəli qərarına əsasən Azərbaycan respublikasının ərazisi kateqoriyalar üzrə rayonlara bölünərkən Saatlı Sabirabad rayonunun inzibati ərazi bölgüsünə daxil edildi. Beləliklə 1930-cu ildən 1943-il may ayının 25-dək Saatlı Sabirabad rayonun tərkibində idi. 1943-cü il may ayının 25-də Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 30/21 nömrəli qərarına əsasən Saatlı müstəqil rayon kimi təşkil edildi. 1947-ci ildən Saatlıya qəsəbə adı verilmişdir. 1963-cü il yanvar ayının 4-də Azərbaycan SSR Ali Soveti Rəyasət Hey`ətinin yeni bir fərmanı ilə Saatlı rayonu ləğv edilmiş və Sabirabad rayonuna birləşdirilmişdir. 1965-ci ilin yanvar ayının 14-də Saatlı rayonu yenidən təşkil edilmişdir.

Qaçqın və köçkünlərin məskunlaşdığı əsas rayonlardan biri də Saatlı rayonudur. Saatlı camaatı obasından-elindən didərkin salınmış qardaş və bacılarına əllərindən gələn köməyi əsirgəmirlər.

Saatlı rayonu öz tarixi abidələri, ziyarətgahları, pirləri, ocaqları ilə tanınan qədim bölgələrimizdən biridir.

Bu danılmaz bir həqiqətdir ki, Sovet hakimiyyəti vaxtlarında da xalq, el-oba üçün yaxşı işlər görən Allah adamları az olmamışdır. Belə müqəddəs, fenomen insanlardan biri də ceddinə tapınılan **seyid Mirbala ağadır.**

Mirbala ağa haqqında rayonun müxtəlif peşə sahibləri



fəxrlə söhbət açdılar. **Saatlı rayon İcra hakimiyyətinin başçısı Gülhüseyn Əhmədov** cənabları da ağa haqqında xoş xatirələr söylədi və bildirdi ki, imkanı daxilində Mirbala ağanın ziyarətgahını ziyarət edir və onun övladları da ağanın yolunu saxlayır.

Meşkin şəhərinin Mir kəndi indiki Iran Islam Respublikasının ərazisində olub. Kənd Şimaldan Urmiya gölü, Qərbdən Zoqra dağları və Şimali-Şərqdən Elbrus dağlarının əhatəsində özünə mövqe tutmuşdur.

O vaxtlar, təxminən 400 il bundan əvvəl Iranın Meşkin şəhərinin Mir kəndindən olan Mir Haqverdi adlı bir seyidin oğlu Ağ seyid, **(ona "Ağ seyid" adının verilməsi onun çox gözəl və ağ olması ilə əlaqələndirilir)** indiki Saatlı rayonunun Seyidlər kəndinə gəlir və orada məskən salıb yaşayır. Seyidlər kəndinin tarixini də bu seyidlərin həmin kənddə məskunlaşması ilə əlaqələndirirlər.

Seyidlər kəndində yaşayan Ağ Seyidin **(seyid Əhməd)** 4 oğlu olub. **Məşədi seyid Hüseyn, seyid Alməmməd,** seyid **Məmi, seyid Mir Abdulla.**

Seyid Hüseyn ağanın da 4 oğlu olub: **Mir Abutalıb, Kərbəlayı Tağı, seyid Cəfər, seyid Həsən.**

Seyid Həsən ağanın isə 4 oğlu, 1 qızı olub. **Seyid Səməd, seyid Atamağa, seyid Adış, seyid Mirbala və Nisə.**

Haqqında bəhs edəcəyimiz seyid Mirbala ağanın isə 7 övladı var. **Zeynəb, Kifayət, Ağanisə, Ağabacı, Ağaseyid,** Aydın, **Mirşamil.**

**Hüseynov Mirbala seyid Həsən oğlu** 1932-ci ildə Saatlı rayonunun Seyidlər kəndində dünyaya göz açmışdır. Seyid Mirbala ağa 4 yaşından dünya işığına həsrət qalmışdır. Deyilənlərə görə, balaca Mirbalanı valideynləri evdə tək qoyub iş





dalınca gedirlər. Qayıdıb gələndə isə uşağın iki gözlərinin kor olmasının şahidi olurlar. Bir tərəfdən gözləri tutulan Mirbala ağaya digər tərəfdən Tanrı tərəfindən möcüzəli, sirli-soraqlı bir dünya bəxş olunur. Yaşıdları kimi Mirbala ağanın da yaşının üstə yaş qalanır. Yetkinlik yaşına çatır, ailə qurur. Gözlərinin görməməsinə baxmayaraq, böyük fitri istedada malik olub. Bu insan çox zəhmətə bağlı bir seyid olub. Həmişə həyət-bacada ev işləri ilə məşğul olarmış. Ömür-gün yoldaşı **Xanımbikə Hüseyn qızı** seyid Mirbala haqqında belə **dedi:**

- Mirbalanın qohumları mənə elçi gəlib Mirbalaya almaq istədilər, amma valideynlərim razılıq vermədilər. Elçilər gedəndən sonra atam, anam bir qədər fikirləşib götür-qoy etdikdən sonra məni ona bir nəzir kimi ərməğan etdilər. O vaxtdan özümü xoşbəxt bir insan sayıram.

Allah ona qəni-qəni rəhmət eləsin!

**Kərbəlayi Cəfər:**

- Seyid Mirbala mənim əmim oğlu idi. Onunla xatirəli günlərim çox olub. Mirbala 4 yaşından dünya işığına həsrət qalmışdı. 1955-ci ildən 1959-cu islədək mən onun əlindən tutub gəzdirmişəm. 1959-cu ildə əsgəri xidmətə getmişəm.

Yaxşı yadımdadır; 1976-cı ildə seyid Mirbala bizə qonaq gəlmişdi. Oğlu Mirşamil təzə anadan olmuşdu. Dedim:-ay Mirbala, bu qədər uşaq nəyinə lazımdır? Daha bəsdir də.

Elə bunu demişdim ki, tikəsini ağzından çıxardıb mənə qayıtdı ki, səni görüm yanasan. Elə o yanasan, bu yanasan, düz üç il xəstəxanalarda o sözün altını çəkməli oldum.

Bir gün yanıma gəldi. Əlini keçirib yastığımı qaldırdı və dedi:

- Dur bala, dur get evinə. O deyəndən heç bir gün keçmədi ki, sağalıb xəstəxanadan çıxdım. O vaxtdan etibarən xəstəliyin nə olduğunu bilmirəm. Allah ona qəni-qəni rəhmət eləsin.

**Ağaseyid:**

- Mən evin böyük oğluyam. O, çox şeyi mənimlə məslə-



hətləşərdi. Atamın gözlərinin görməməsinə baxmayaraq, o çox həssas bir insan idi. Həyətin hansı tərəfində nəyin yerləşdiyini çox gözəl bilirdi. Biz evdə 7 uşaq idik. Hamımızı çox yaxşı tanıyırdı. Hansımızın nə rəngdə, nə boyda olduğumuzu da bilirdi.

**Mirşamilin dedikləri:**

- Uşaq idim. Günlərin bir günü həyət qapısını bir kişi döydü. Qapını açdım, mənə qayıtdı ki, atan evdədir? Dedim:-Bəli.

İçəri keçib, atamla görüşüb dedi ki, seyid, mən səni yuxuda görmüşəm, görürsənmi, ağzım necə əyilib. Atam həmin kişini əli ilə müalicə etdi, ağzı düzəldi. Kişi atama, onun cəddinə dua edə-edə xudahafizləşib getdi.

**Saatlı Rayon Mədəniyyət Sarayının direktoru, aktyor Mehdi Mehdizadə:**

-Ümidli, nikbin bir insan idi. Sadəliyi, şirindilliyi onun camaatla tez bir zamanda qaynayıb-qarışmasının əsas səbəbi idi. Ona pənah gətirənlərin hamısına təskinlik verər, hamının dərdinə yanar, qayğısını çəkərdi. Saatlıda onu tanımayan adam tapılmazdı. Saatlının və qonşu rayonların adlı-sanlı adamları onun ziyarətinə gələr, onun duzlu-məzəli söhbətlərindən doymazdılar.

Yaxşı yadımdadır, bir dəfə yuxuda gördüm ki, 12 imamımız çəmənlikdə addımlayır. Sonuncu imamımız mənə yaxınlaşıb dedi ki, sənə deyirəm... Elə bu vaxt yuxudan ayıldım. Nə qədər çalışdım ki, yuxulayım, amma faydası olmadı.

Səhəri maşınımla işə gedirdim. Yolda seyid Mirbalanı gördüm və onu maşınıma əyləşdirdim. Axşamkı yuxumu ona danışdım və dedim ki, seyid, kürəyim yaman ağrıyır. O, elə adəti üzrə belimi əli ilə ovdu. Ağrı elə onunla sovuşdu. Bundan bir müddət sonra evdə mənə dedilər ki, belində beş barmağın izi qalıb. Həmin iz kürəyimdə indi də qalmaqdadır.





**Lütvəli Şıxəliyev:**

- Biz hamımız ona inanır, onun müqəddəsliyinə səcdə edirik. O kişi bizim iman və inam yerimiz idi. Hardasa bir dara düşəndə seyid Mirbalanının cəddini köməyə çağırırıq. Həmişə onun yanına nə iş üçün gediriksə, hasil olardı. O kişi hansı bir məclisə təşrif buyurardısa, o saat bütün məclis əhli hörmət əlaməti olaraq ayağa qalxar, ona yer göstərərdilər. Cəddinə qurban olum, alicənab adam idi.

**Hacı Vəzir Abbasov:**

- Seyid Mirbala ağa ağıl və müdriklik mücəssəməsi idi. O elə bir şəxsiyyət idi ki, hələ sağlığında özünə hörmət və məhəbbətdən heykəl qoymuşdu. Onun xeyirxah əməlləri qədirbilən xalqımızın qəlbində əbədi olaraq yaşayacaq. Seyid Mirbala adı həmişə anılacaq, məqbərəsi isə həmişə ziyarət olunacaq. Dünyadan köçən cəmi seyidlərimizə Allah rəhmət eləsin!

**Mirkamil Qiyasov:**

- Bircə dəfə seyid Mirbalanın söhbətini dinləyən şəxs könül pəncərəsini insanlığa məhəbbətlə açar, qəlbinə yol tapmış pis əməllərin yolunu əbədi bağlayardı. Seyid Mirbala ruhən bu gün də sağ adamların arasındadır. Gün o gün olsun ki, torpaqlarımız işğaldan azad olsun, mən də öz nəzirimi aparıb seyid Mirbala ağanın məqbərəsinə tapşırım.

**Rayonun axundu Hacı Vadər Mirzəxan oğlu:**

-Mən deyərdim ki, tək Saatlı rayonunda deyil, hətta ətraf rayonlarda da Mirbala ağanı sınanılıb, inanılmış bir seyid kimi tanıyır və böyük hörmət bəsləyirlər. Mirbala çox gözü tox bir insan idi. Adına nəzirlər deyilər. Onu məscidə gətirərdilər, onu bütün ailələrdə məhrəm adam kimi qəbul edərdilər. Bütün camaat onu ziyarət edər, ürəklərindəki arzuların həyata keçməsi üçün ondan xeyir-dua istəyərdilər.

**Əlihüseyn Hüseynov:**

- Körpə uşağım xəstə idi. Hara müraciət edirdimsə, bir faydası yox idi. Uşağı götürüb gəldik Mirbala ağanın ocağına

və sonra da onun adına qurban kəsdim. Elə o vaxtdan da uşağın dərdinə əlac oldu.

Möcüzəli bir dünya yaşamış, indi isə haqq dünyasına qovuşmuş ağanın ceddindən təvəqqe edirəm ki, bizə pis günlər göstərməsin.

**Hacı Hüseynağa Əhmədov:**

- Yaxşı yadımdadır; 1979-cu il idi. Bizə su çaydan verilirdi. Amma həmin il çayda su az olduğuna görə bizə su vermədilər. Tarlalarda məhsul tələf olmaq üzrə idi. Rəhmətlik Mirbala kişinin əlindən tutub Icra hakimiyyətinin qabağına gətirdilər. Qayıdıb katibə dedi ki, **(o vaxt katib mərhum Əlisahib Babayev idi)** əlini ver mənə. Allah-təalanın köməyi ilə yağış yağar, məhsulumuz batmaz. Səhərisi çox güclü yağış yağdı.

**Arif Hacıyev:**

- Ağlı, zəkasının gücü ilə qaranlıqları kəsib keçən bu adamlar əqidələrini həyatlarından həmişə üstün tutmuşlar. Saatlı rayon sakini Mirbala ağa da belə müqəddəslərdən biri idi. Məclislər yaraşığı, el ağsaqqalı kimi xalq arasında böyük hörmətə malik idi. Rəhmətliyin çoxlu möcüzələri var idi, onları sadalamaqla qurtarmaz. Belə möcüzələrdən biri haqqında danışmaq istəyirəm.

Bir gün bir nəfər Mirbala ağaya yaxınlaşıb dedi ki, bəs ay seyid, mən axşam səni yuxuda görmüşəm, ağzım da əyilib.

Seyid əlini yuxarı qaldırıb həmin şəxsə dedi ki, üzünü mənə tərəf çevir. Elə bunu demişdi ki, əli ilə onun üzünə ehmalca bir sillə vurdu. Bundan sonra həmin adamın ağzı düzəldi.

**Seyfəddin Soltanov:**

- Saatlı rayonunun Qaracalar kəndində Mirbala ağa türbəsi ucalır. Bu türbə xalqın iman və inam ocağıdır. Böyük kəramət sahibi olan Mirbala ağa bu torpaqda boya-başa çatmışdır. Onun ocağına saysız-hesabsız adamlar gəlir, müşküllər açılır, çətinlər asan edilir. Xalq həmşə ondan imdad diləyərdi. Hamının demək olar ki, istəyi hasil olardı. Dəmirov deyilən xəstəliyi o kişi çox ustalıqla müalicə edərdi.





Evdə bizim uşaq xəstə idi. Nə qədər dava-dərmanla müalicə olunurdusa, bir şey hasil olmurdu. Nəhayət ona nəzir elədim. Uşaq şəfa tapdı.

Onun xeyirxah əməlləri, açılmayanları açması, ehtiyacı olanlara kömək əli uzatması-bunların hamısı sözsüz ki, adamların qəlbində əbədi yaşayacaqdır.

**Hacı Xudaverdi Surxay oğlu Şükürov:**

- O kişi belə bir insan idi ki, həmişə kimsəsizlərin, son vaxtlar isə qaçqınların dərdini çəkərdi. Ona verilən nəzirin çox hissəsini onlara paylayardı.

Onunla ilk dəfə kəlmə kəsən, həmsöhbət olan insan ömrü boyu onu unutmaz.

Oğul, Mirbala ağa haqqında xatirələri deməklə qurtarmaz. Deyərdim ki, onun haqqında cildlərlə kitablar bağlamaq olar. O kişi elin-obanın ağsaqqalı, məclislərimizin yaraşığı idi. Kim ev bünövrəsi qoyardı, yaxud əkinə başlayardısa, mütləq seyidi aparıb xeyir-duasını alardı.

İndi gəlməsin, yanıma tez-tez gələr, bircə bizdə çörək yeyərdi. Oturub saatlarla dərdləşərdik.

Yaxşı yadımdadır; mədəmdə cərrahiyyə əməliyyatı aparılması üçün şəhərə getməli idim. Durub getdim Mirbalanın yanına və xahiş etdim ki, mənə xeyir-dua ver. Onun xeyir-duasını alıb getdim. Indi Allaha çox şükür olsun ki, özümü yaxşı hiss edirəm. Allah-təala o kişiyə qəni-qəni rəhmət eləsin. O bu camaatın kisəsindən getdi.

**Cavanşir Qocayev:**

- Ağlım kəsəndən kəndimizdə dinə, din xadimlərinə, seyidlərə dərin rəğbət görmüşəm. Özüm elə bir ailədə böyümüşəm ki, səhərlər yuxudan "Allahu-Əkbər" səsinə oyanar və elə bu səbəbdən də heç vaxt dərsə gecikməzdim.

Mənə elə gəlir ki, hər bir millətin öz adət-ənənəsi o millətin formalaşmasında mühüm rol oynayır. Bu baxımdan hər bir insan ilahi elm olan öz dininə vaqif olmalıdır. Məndə dinə rəğbət uşaq çağlarımdan oyanıb. Bu da atamın, anamın, nənəmin dini ayinləri icra etmələrini görməyimlə əlaqədardır. 7-8

yaşından qonşumuz, zəlil-şikəst Əvəz kişinin əlindən tutar, dini mərasimlərə aparar, din xadimlərinin dəyərli söhbətlərinin şahidi olardım. Bütün bunlar da mənim düşüncə tərzimə, xarakterimə güclü təsir edərdi . Əvəz kişi dünya işığından məhrum olsa da, "Yasin" surəsini əzbərdən deyər və həmişə də Allaha şükür edərdi.

Saatlının sayılıb-seçilən seyidi - Mirbala ağanı da uşaqlıqdan tanıyırdım. Yaxşı yadımdadır, hələ onu o vaxt qardaşı oğlu Həsən əlindən tutub gəzdirərdi. Son dərəcə tamahsız, təmənnasız, pak bir insan idi.

Və mən çox sonralar dərk etdim ki, bu insana verilən nəzir-niyaz ona yazıqları gəldiklərinə görə deyil, o seyidin xalq arasında qazandığı hörmətə, izzətə görə edilirdi. Mən o kişini görəndə elə bilirdim ki, onun gözünün işığı onun üzündədi. O danışanda elə bilirdim ki, mənim gözümün içinə baxır.

Çox təəssüf ki, biz çox şeyləri itirəndən sonra qədir-qiymətini başa düşürük. Mirbala ağa əsl seyidlərə məxsus yüksək mənəvi dəyərləri özündə birləşdirdiyinə görə insanların qəlbində özünə əbədi yer tuta bilib. Məhz ona görə də bu gün hər birimiz onun yoxluğuna təəssüflənirik.

Allah dünyadan köçmüş insanlara, alimlərə, xalq üçün iş görənlərə və Mirbala ağa kimi əməli saleh, pak, gözü-könlü tox seyidlərimizə qəni-qəni rəhmət eləsin.

Bu gün qədim Muğan elində, Saatlı rayonunun Qaracalar kəndindəki qəbiristanlığı "müqəddəslər qəbiristanlığı" adlandırsaq, yanılmarıq. Xatırladaq ki, bu qəbiristanlıq 1937-ci ildə, Ağ seyid nəslindən olan seyid Yunus ağanın dəfni ilə salınmış, sonradan camaat bu müqəddəs şəxsiyyətin yanında öz ölülərini dəfn etməyi böyük şərəf hesab etmişdir. Hal-hazırda **seyid Mirbala ağa, seyid Yunus ağa, seyid Kamal ağa** və digər mömin, ağır nəfəsli seyidlərimizin müqəddəs məqbərələri bu qəbiristanlığı ellər ziyarətgahına çevirmişdir.

Onu da qeyd edək ki, gözəl insan və hörmətli eloğlumuz





**İlham Dadaşov** Mirbala ağanın qəbrinin üstündə memarlıq baxımından yaraşıqlı bir məqbərə ucaltmışdır. Digər qardaşımız **Kamal** isə böyük bir nəslin şəcərəsini işləyərək nəfis tərtibatla çap etdirmişdir.

Bu gün seyid Mirbala ağa cismən aramızda olmasa da onun əməlisaleh işlərini övladları layiqincə yerinə yetirirlər.

**Şamo Nərimanoğlu,**
*jurnalist-publisist.*
**Fikrət Əzizov,**
*şair-puplisist*

## HUN BABA PİRİ



Saatlı rayonu ərazisində, Xələflidə daha bir ziyarətgah var-Hun baba piri.

Bildiyimiz kimi Saatlı şəhərinin müasir qəbirstanlığı orta əsr qəbirstanlığının üzərində yerləşir. Hun baba piri də orta əsr qəbirstanlığındadır. Dəfələrlə Araz çayının suları daşsa da, pirə çatanda dayanıb. Inqilab vaxtı piri sökmək istəsələr də bu, Allahı qüdrəti, pirin kəraməti ilə mümkün olmayıb.

Pir, qəbir üzərində tikilmiş, kiçik ölçülü və darısqaldı Onun içərisini eyni vaxtda cəmi bir neçə nəfər ziyarət edə b lər.

Pirdə dəfn edilmiş şəxs pirin adından məlum olduğu kim Hun tayfalarından olan məşhur şəxslərin birinə məxsusdur.

Məlum olduğu kimi, Hun tayfaları şimaldan Azərbayca hərəkət etmişlər. V əsrdə Azərbaycana gəlmiş hunların m hüm izləri məhz Muğanda daha çox qorunub saxlanılmışdır

## SEYİD RZA SEYİD MİRAĞAMİR OĞLU

Səfəvilər dövlətinin hakimiyyəti illərində mərkəzi Gəncə şəhəri olan Qarabağ bəylərbəyliyi sonralar Qarabağ xanlığına çevrilir. Pənahəli xan Cavanşirin dövründə Qarabağ xanlığı cənub-şərqdən Kür-Araz çaylarının qovuşağı, cənubdan Araz çayı, qərbdən Salvartı, Ərikli dağları və Göyçə gölü, Şimaldan isə Kür çayı ilə əhatə olunan böyük bir ərazini əhatə edirdi. XVIII əsrin ortalarından başlayaraq İran dövlətində böyük tayfaların hakimiyyət uğrunda mübarizəsi şiddətlənir. Belə bir dövrdə əsilləri İrandan olan nurlu **seyid Vəli Sultani** çoxdan dostluq etdiyi xanların, Xankəndindəki bəylərin dəvəti ilə Qarabağa köçür. Xanlar ona hərtərəfli şərait yaradır, çoxlu var-dövlət verirlər. Qarabağ xanları qışda öz mal-qaralarını indiki Saatlı rayonun ərazisindəki qışlaqlara endirərdilər. Müəyyən bir vaxtdan sonra seyid Vəli Sultani vəfat edir.



**Seyid Vəli Sultaninin oğlu** seyid **Rza, seyid Rzanın oğlu Kərbəlayi seyid Ağamir ağa** Qarabağda doğulmuşdular. Seyid Ağamir ağa əvvəlki kimi mal-qarasını indiki Saatlı ərazilərinə endirərdi. Növbəti dəfə gecə yuxu görür. Yuxuda ona deyirlər ki, kəndin ərazisində ucları bir-birinə bağlanmış uzun qamışın dibində **(seyid Vəli Sultaninin qəbri-red)** sənin ceddinin nişanəsi var.

Səhərisi gün ağa öz yuxusunu xana danışır. Xan onun burada qalmasına etiraz etmir və bu ərazidə məskunlaşmasına icazə verir. Və ağa ömürlük bu kəndin daimi sakininə çevrilir.

Kənd isə o dövrdə əslən iranlı olmuş, mal-qarasını buradakı qışlaqlara gətirən Novruz kişinin adıyla bağlı olaraq "Novruzlu" adlandırılmışdır.







Kərbəlayi seyid Ağamir ağa ilahi vergili, çox nurlu insan idi. Bütün dini ayinlərə, şəriətin tələblərinə dəqiq əməl edərdi. Öz mal-qarasının başqalarının mal-qarasına qarışmasına belə imkan verməzdi. Sifəti də, barmaqları da sanki yanır, nur saçırdı.

Kərbəlayi seyid Ağamir ağa düz 12 dəfə öz boz atı ilə Kərbəla ziyarətində olmuşdu. Atı öləndə onu da insan kimi dəfn elədi.

Ağanın birinci nigahdan **seyid Rza, Seyidağa adlı** oğlanları və 4 qız övladı vardı. Taleyi elə gətirmişdi ki, ikinci dəfə ailə həyatı qurmalı olmuşdu. Ağa bu yerlərin məşhur adamları **Şıx Axundla, Kərbəlayi seyid Nəsirlə** bərk dostluq edərdi. Şıx Axund nəinki Sabirabadda, eləcə də İranda tanınmış məşhur övliya idi. Ağa ikinci dəfə şeyxin qızıyla ailə həyatı qurur. Bu izdivacdan **Mirələkbər** və **Mirsəhnə** dünyaya gəlir.



**Seyid Mirələkbər Rzazadə** mühüm dövlət işlərində çalışmışdı. M C. Bağırovla dost idi. Stalinlə yaxş münasibət qurmuşdu. Dövlət Təhlükəsizlik Komitəsində - yüksək vəzifələrdə çalışırdı. General-mayor rütbəsinə qədər yüksəlmişdi. Müharibə illəri Moskvaya dəvət olunmuş, qeyr müəyyən şəraitdə itkin düşmüşdü.

**Seyid Rza ağa** (1906-1990) bu kənddə anadan olub. Fe mada, kolxozda işləyib. Təkcə kəndin deyil, 2 rayonun-Saat və Sabirabadın el ağsaqqalı idi. Onun bir sözünü heç kim i eləməzdi. O olan yerdə polisə, məhkəməyə ehtiyac qalmaz Xeyirxah, sülh adamı idi. Bu əraziyə gələn adam ancaq onı evinə düşərdi. Həmişə qapısı qonaqlı-qaralı olardı. Söz-sən



vurğunu idi. Tanınmış sənətkarlarımız, aşıqlarımız tez-tez qonağı olardı. Xüsusən də **Aşıq Əhlimanla** dostluq edərdi.

Balaları seyid Rza ağaya xüsusi hörmət bəsləyər, ona "Akka" deyə müraciət edərdilər. **Kərbəlayi Ağamir, seyid Mirabbas, seyid Mirqiyas,** seyid **Böyükağa, seyid Mirağa, seyid Mirhüseyn, seyid Mirmöhsün (rəhmətə gedib), seyid Mirabad, seyid Mirmehdi adlı** oğlanları və 5 qız övladı var.

Seyid Rza ağa ocağının yaşadıcısı, el ağsaqqalı Kərbəlayi seyid Ağamir ağa 1934-cü ildə Novruzlu kəndində anadan olub. Kolxozda çalışıb, taxıl-pambıq briqadiri işləyib. Camaatın nurlu ağsaqqalı, uzun illər rəhbər vəzifələrdə çalışmış, minlərlə insana çörək vermiş, rayonun inkişafında əvəzedilməz xidməti olan xeyirxah insan, "Sosialist Əməyi Qəhrəmanı" **Əliəhməd kişidən** çox şey öyrənib. Xalqın yolunda öz ömrünü gecə-gündüz qətrə-qətrə əridən belə insanların məsləhətlərini diqqətlə dinləyib. Onun ömür yolunu özünə örnək seçib. Doğrudan da Kərbəlayi seyid Ağamir ağa xeyirxahlıq mücəssəməsidir.

Rayon Icra hakimiyyətinin başçısı, zəhmətkeş, fədakar, nəcib insan Gülhüseyn Əhmədovun xeyir-duası ilə kəndə çayın üstündən körpü saldırıb, su nasosu quraşdırıb.

Kərbəlayi seyid Ağamir ağa 1994-cü ildə Məşhəddə, 1995-ci ildə Kərbəla ziyrətlərində olub.

Balaları da özü kimi xeyirxah əməllər sahibidirlər. Onları siz də tanıyın: **seyid Mireyvaz, seyid Mirhəşim, seyid** Mirilyas, **seyid Mirşəmi, Həmayıl və İlahə.**

Soy kökü imam Cəfəri Sadiq ə.s-a bağlanan, qədim şəcərəsi yüzillərin keşməkeşindən xəbər verən Kərbəlayi seyid Ağamir ağanın nurlu çörəsi, pak nəfəsi, cəddi cənabi-peyğəmbər həmişə üstünüzdə olsun!



# Yardımlı











## PERİNBEL - SEYİDLƏR YURDUDUR



Perinbel kəndi zəngin tarixə malikdir. Kənd rayonda həmişə dini-mənəvi dəyərlərə bağlılığı ilə seçilib. İslam əxlaqi, ulu şəcərəsi olan kənd sakinlərini Vətən qeyrətinə, təmizliyə, hallalığa, yurd təəsübkeşliyinə elə kökləyib ki, bu milli dəyərlər həmişə hörmətlə anılıb, inkişaf etdirilib.

Perinbelin əsasının IX-X əsrlərdə qoyulduğu güman edilir. İlk adı Xəlfəli olub. İndinin özündə də bu ad tez-tez işlənir. Kənddə seyidlər nəsli yaşayır. El arasında nüfuz və hörmət sahibi kimi tanınan məşhur seyidlərin məzarları bu gün də hörmətlə anılır.

XX əsrin 20-ci illərində bolşevik işğalına qarşı rayonda ən sərt mövqe bu kənddə tutulub. Perinbellilər bir neçə il kommunist bayrağını kəndə qoymamaq üçün silaha sarılıblar. Kəndin əyilməz xarakteri ona baha başa gəlib. Bütün sakinləri deportasiya edilib.

Perinbellilər yurda bağlılıqları ilə seçilirlər. Harda yaşamalarından asılı olmayaraq kökə sədaqət onları bu kəndə çəkir. Onlar kəndin xeyir- şərində iştirak edir, qayğısına qalırlar. Bu ənənəni Moskva şəhərində yaşayan **Hacı Mir Əşrəf** və **Hacı Mir Əkbər Fətiyev** qardaşlarında da görmək olar. Eldə "Hacılar" kimi tanınan qardaşlar kənddə atalarının şərəfinə qədim Şərq memarlığı uslübunda tikilmiş qoşa minarəli bir məscid yapmış və başqa xeyirxah işlər görmüşlər.

**Allah köməkləri olsun!**





## ABU-ZƏRƏ (ABİ-DƏRDƏ) TÜRBƏSİ



XIV əsrə aid müqəddəs ziyarətgah yeri və memarlıq abidəsi olan Abudərdə (**Abu- zərə**) türbəsi Həzrət Əlinin əshabələrindən biri- **Əbu Dərdailə** məxsusdur. Əshabə Əbu Dərdail bu yerlərə imamın göstərişinə əsasən göndərilmiş və müəyyən dini tapşırıqları icra etmək, ola bilsin ki, yeni dini təbliğ etmək də əsas məqsədi olmuşdur. Türbənin adının Əbu Dərdalinin adıyla bağlı olduğunu, qismən dəyişikliyə uğrayaraq Abu-Dərdə, Abə-Dərda, Abu-Dərzə kimi işlənməsi də bu qəbildəndir. Deyilənə görə, "Xülasətul-əxbar" da bu müddəanı təsdiq etməkdədir.

VII əsrin ikinci yarısında burda vəfat etmiş əshabənin məzarının üstü XIV əsrdə orta əsrlər memarlıq ənənələri üslubunda inşa edilmişdir. Ərsilə və Ləzran kəndləri arasında yerləşən Abudərdə türbəsi Yardımlının ən yaxşı sənət abidələrindən hesab olunur.

## SEYID XÜRRAM PIRI



Yardımlı rayonu ərazisində tarixi əhəmiyyət kəsb edən tarixi abidələrdən biri də Seyid Xürram piridir.

Seyid Xürram (Xuram-Xurrami) piri Ünəç kəndində, köhnə kənd qəbirstanlığında yerləşir. Son illərdə pir yerli caamatın təşəbbüsü ilə bərpa olunmuşdur. Pirdə dəfn olunan şəxs adından göründüyü kimi, seyid olmaqla yanaşı, öz dövrünün görkəmli, müqəddəs və alicənab insanı olmuşdur.

## ÇİLƏXANƏ TÜRBƏSİ



Horonu kəndi yaxınlığında, bir km aralıda yerləşən, Orta əsrin tarixi abidələrindən biri də Çiləxanə türbəsidir. Son illərdə türbə yenidən tikilərək müasir memarlıq görkəmi almışdır. Səkkizguşəli formada üstü örtülmüşdür. Divarları ağ daşdan hörülmüşdür. Türbə barəsində ilk dəfə məlumat verilir.

Çiləxanə türbəsi nəcib işlərlə məşğul olan xeyirxah insan, kəndin nüfuzlu şəxsiyyətlərindən biri, hazırda Sumqayıt şəhərində əhəmiyyətli mövqeyi ilə seçilən **Əzizov Bəylər Abbas oğlu** tərəfindən 1997-ci ilin yayında inşa edilmişdir. Türbənin tikintisində həmçinin təşəbbüskar kimi **Abbas kişinin, Əzizov Mehdinin** və b. böyük zəhməti olmuşdur. Çiləxanə türbəsinin həyətindəki nil ağacları da türbəyə özünəməxsus yaraşıq verməkdədir.

## BABA PİRƏLİ TÜRBƏSİ

Alar kəndinin mərkəz hissəsindən kənarda yerləşən, camaatın böyük inam və etiqad bəslədikləri bir pir, ocaq yeri yerləşir. Adına "Baba Pirəli" türbəsi, yaxud piri deyirlər. Haqqında ilk dəfə məlumat verilən pirin tarixi mənşəyi maraqlı olduğu qədər də əhəmiyyətlidir. "Ömər kitabı"nda səhifə 329-da pirin coğrafi ərazisi və adı çəkilir. Dəfn olunan şəxsin müqəddəs olduğu şübhəsizdir.

## PİR MƏKKƏ PİRİ

Pir Məkkə piri rayonun Yolocaq kəndində, kəndin kənar ərazisində yerləşir. El arasında "Məkkə piri" kimi qeyd olunur. Ehtiram əlaməti olaraq müqəddəs Məkkə şəhərinin adıyla bağlanır.







Pir Məkkə piri 2001-ci ilin yayında kənd ağsaqqalı **Nərçə Şirməmmədov** tərəfindən bərpa edilmiş, tarixi- memarlıq abidəsi kimi özünəməxsus yaraşığa malik olmuşdur. Pir Məkkədə dəfn edilən şəxsin adı bizim üçün naməlum olaraq qalır. Məzarın sinə daşında ərəb əlifbası ilə kəlmeyi- şəhadət yazılmışdır.

Sinə daşının bir hissəsində " Qurani-Kərim"dən ayələrin yazıldığı şübhəsizdir. Pir Məkkə piri orta əsrin tarixi abidəsidir.

## ŞEYX SULTAN SEYİD MƏHƏMMƏD TÜRBƏSİ

Şeyx Sultan seyid Məhəmməd türbəsi orta əsrlərin tarixi abidəsi olmaqla Mişkireyn kəndi (əvvəlki adı Muxuş) ərazisində, Qabaqdibi kəndinin yuxarı hissəsində yerləşir. Türbə bu günümüzədək öz mövcudluğunu qoruyub saxlamışdır. Türbənin içərisindəki məzar müqəddəs Şeyx Sultan seyid Məhəmmədin məzarıdır. Lakin türbənin yaxınlığında eyni tarixi dövrü əks etdirən məzarıstanlıq mövcuddur. Türbə sahibinin başdaşı xüsusi sifarişlə hazırlanmış, özünəməxsus yaraşığa malikdir. Şeyx Sultan seyid Məhəmməd deyilənə görə, İranın ən böyük şəhərlərinə- Xorasan, İsfahan, Rəşt, Təbriz, Ərdəbil, Zəncan və başqa şəhərlərə, İraqın Nəcəf, Kərbəla şəhərlərə səyahət etmiş, geniş dünyagörüşə, dərin savada malik olmuşdur. Qeyd etməliyik ki, Orta əsrlərdən bu günümüzədək Yardımlıda "Şeyx" dini rütbəsini qazanmış iki şəxs olmuşdur. Birinci Orta əsrlərdə **Şeyx Sultan seyid Məhəmməd,** ikinci isə XIX əsrin sonu, XX əsrin əvvəllərində yaşamış, Horonu kəndinin savadlı şəxsiyyəti **Şeyx Məhəmməd Nurullahi** bu şərəfli ada layiq görülmüşdür.

## SEYİD MİRƏHMƏD SEYİD MƏHƏMMƏD OĞLU



Respublikamızın cənub bölgəsində, Yardımlı rayonunda seyidlərimizin əksəriyyəti Həzrəti Əli ə.s.-nın nəvələrindən biri olan VII imam Həzrəti Museyi- Kazımın nəslindəndir. Bu nəslin törəmələrindən biri təxminən 300 il bundan əvvəl İranın Ərdəbil şəhərində doğulmuş **seyid Əli seyid Hümmət oğlu** rayonun səfalı yerlərindən biri olan Osnaqaran kəndinə köçmüşdür. Seyid Əli seyid Hümmətin oğlanları, nəvələri **seyid Tacəddin, seyid Yəhya, seyid Əzizəddin, seyid Xurram və seyid Əli Məhəmməd** onunla gəlmişdilər. Bu nəslin nümayəndələri dini işlərlə yanaşı, qabiliyyətli ustalıq işləri - xarratlıq və dülgərliklə də tanınmışdılar.

Bölgədə öz mövqeyi ilə ad-san qazanmış seyid Əli Məhəmməd **(el arasında seyid Alməmməd adlanırdı)** ağanın iki oğlu dünyaya gəlib: **seyid Məhəmməd və seyid Ağamirzə.**

Seyid Ağamirzə Osnaqaran kəndində məskunlaşır və camaat arasında dərin hörmət qazanır. Seyid Ağamirzə ağanın övladları **seyid Mirkazım və seyid Mirsalah** idi.

Mirsalahın iki oğlu olmuşdur: **seyid Miribrahim və seyid Mirmöhsüm ağa.**

### *SEYİD MİRMÖHSÜM AĞA*

Seyid Mirmöhsüm ağa seyid Mirəhməd ağanın nəslinin bir qolunu təşkil edir. Onun məzarı üstündə ucaldılmış türbə XX yüzilliyin tarixi-memarlıq abidəsi olmaqla Yardımlı rayonunun Əsədabad kəndində, kənd qəbirstanlığında yerləşir. Mirmöhsüm ağa müqəddəs bir şəxsiyyət olub.







Türbə 1999-cu ilin yayında, səkkiz guşəli, üstü gümbəzli formada tikilmişdir.

**Ağamirzəyev Mirmöhsüm Mirsalah oğlu** 1863-cü ildə Osnaqaran kəndində anadan olub. Ağaya qarşı belə yüksək hörmətin yaranmasına onun sadəliyi, camaata olan ədalətli münasibəti və ən əsası isə möcüzələri səbəb olmuşdu. Məhz hörmət və ehtiramı hesabına anadan olduğu kənddə qərar tutmamışdı. Həm də Əsədabad kəndi sosial-iqtisadi baxımdan həyat tərzi üçün əlverişli idi. Osnaqaran kəndindən Əsədabada gələn zaman böyük sevinclə, şəxsiyyətinə layiq hörmətlə qarşılanmışdı. Təxminən 1950-ci ilin II yarısında bu eldə, obada məskən salmışdı.

Seyid Mirmöhsüm ağa dini təhsil almasa da, yüksək mənəvi-əxlaqi kamilliyə malik olması onun şəxsiyyətinin əsas spesifik xüsusiyyətlərindən hesab olunurdu. Dini qayda-qanunlara sadiqliklə etiqadi və əxlaqi məsələlərə dair fikirlərini bildirməklə insanları düzgün yola istiqamətləndirirdi.

Müqəddəs bir şəxsiyyətə çevrilən Mirmöhsüm ağa nurlu çöhrəsi, şəxsi insani keyfiyyətləri ilə fəqlənirdi. Həlim xasiyyətli, qayğıkeş, mehriban və sadə bir insan idi Mirmöhsüm ağa.

Deyilənə görə, çox da uca boylu olmayan Mirmöhsüm ağanın mənəvi aləmi zəngin, sözü, kəlməsi uca və yüksək idi.

Nurlu seyid Mirmöhsüm ağa camaatın çətinlikləri ilə maraqlanar, tövsiyə və məsləhətlərini bildirərdi. Cəddinin təsirindən, yaddaşlarda iz buraxan möcüzəliyindən hamı danışardı.

Bu gün də Yardımlı əhalisi, eləcə də Əsədabad camaat çətin, dar məqama düşən zaman ağanın cəddini köməyə çağırır, onun türbəsinə nəzir-niyazı əsirgəmirlər.

Yüksək mənəvi keyfiyyətlərə, nümunəvi əxlaqa mali

olan, ən əsası möcüzəli seyid Mirmöhsüm ağa 13 avqust 1963-cü ildə 100 yaşında ikən dünyasını dəyişmişdir.

Qeyd edək ki, Mirmöhsüm ağanın Əsədabad kəndindəki evi vəfatından sonra ibadətgah, ocaq yerinə çevrilmiş, son illər kənd camaatının təşəbbüsü ilə bərpa edilmiş, kənd məscidi kimi istifadəyə verilmişdir.

Mənalı, dəyərli və ibrətamiz ömür yolu keçən Mirmöhsüm ağa bu gün qəlbimizdə unudulmayan bir şəxsiyyətə çevrilmişdir.

...Seyid Mirkazım seyid Ağamirzə oğlunun iranlı həyat yoldaşı **Anaxanımdan** 6 oğlan övladı olmuşdur: **Məşədi seyid Mirnəzər ağa, seyid Mirqasım ağa, seyid Mirkazım ağa, seyid Mirxas ağa, seyid Mirocaq ağa, seyid Mirəhəd ağa.**

Bu seyidlərin oğlanları və nəvələri Osnağaran kəndində yaşayır, dini və təsərrüfat işləri ilə məşğul olurlar.

Seyid Mirkazımın Alar kəndindəki 100 evlilərdən olan həyat yoldaşı **Bəstiyetərdən** isə iki oğlan, bir qız övladı olmuşdur. Oğlanları: **Hacı Mirhüseyn ağa və Mirhəsən ağa.** Qızı isə **Şəhrəbanu xanım** olmuşdur.

**Hacı seyid Mirhüseyn ağa** Osnaqarandan Cəlilabadın Hasıllı kəndinə köçüb orada yaşayıb, ətraf kəndlərin məşhur din xadimi- axundu olub.

Seyid Mirkazım ağanın nəvələrindən biri- **Məşədi seyid Mirəzizədin Mirsəttar oğlu** hal-hazırda Yardımlı rayonunun din xadimi, axundu və el ağsaqqalıdır.

Seyid Mirəzizədin ağa əmisi seyid Mirbağır ağanın qızı **Güllü xanımla** ailə həyatı qurmuş, iki oğlu, 6 qızı dünyaya göz açmışdır.

...**Seyid Məhəmməd seyid Əli Məhəmməd oğlu** (Seyid Almәmməd-red) isə Sırıq kəndində məskunlaşır və iki oğlu olur: **Seyid Mirəhməd ağa və seyid Mirmahmud ağa.**





## *SEYİD MİRƏHMƏD AĞA*



Xalq arasında öz mərhəməti, kəraməti ilə böyük hörmət-izzət, nüfuz qazanan ağır nəfəsli **seyid Mirəhməd ağa** Yardımlı rayonunun Sırıq kəndində dünyaya göz açmışdır. Təxmini məlumatlara görə seyid Məhəmməd oğlu Mirəhməd ağa 1820-ci ildə anadan olmuş, 1923-cü ildə dünyasını dəyişmişdir. Yardımlı rayonunun ən müqəddəs və möcüzəli seyidlərindən biri olan Mirəhməd ağa ömrünün bütün hissəsini Sırıq kəndində keçirmişdir.

İlk təhsilini ata-babasının yanında, Sırıq molla məktəbində alan Mirəhməd ağa sonralar təhsilini davam etdirmək üçün bir neçə il İran və İraqda dindarlıq məsələləri ilə məşğul olmuşdur. Oradan öz doğma yurduna qayıdan seyid Mirəhməd ağa ailə həyatı quraraq ailə-uşaq sahibi olmuş və Allahın qisməti etdiyi ömrü yaşayıb doğma Sırıq kəndində əbədiyyətə, Tanrı dərgahına qovuşmuşdur. Məzarının üstünə çürüməyən uruc (palıd növüdür) ağacından əkilən taxta məqbərə indi də mömin insanların ibadət etdiyi ziyarətgah kimi mövcuddur. Mirəhməd ağa ocağına gələnləri ehtiramla qəbul edər, mətləblərini diqqətlə dinləyər, dərd-sərlərinə şərik olar, azar-bezardan müşkül işlərdən xilas olmaları üçün Allaha dualar edərdi. Ağa az danışar, çox dinləyərmiş. Sanki Allah- təala bütün gözəl insani xüsusiyyətləri onda cəm etmişdi.

Mirəhməd ağa əvvəlcə Osnaqarandakı əmisi qızlarından biri ilə evlənir və bu nigahdan **seyid Mirbağır, seyid Ağamir, Mirsuray, Mirməryəm və Mirxədicə** kimi gözəl övladları dünyaya gəlir. Ağanın həyat yoldaşı vəfat etdiyindən ikinci dəfə iranlı bir qızla evlənməli olur. Həmin qadından isə seyid **Mirbaxas və Mirgülsüm** doğulur.

Seyid Mirəhməd ağanın oğlu **seyid Mirbağır** boya-ba

çatıb yetkinləşəndən sonra Osnaqaran kəndində yaşayan **əmisi Mirnəzər ağanın sevimli qızı Mirleyla xanımla** ailə həyatı qurur və bu izdivacdan 5 qız övladı dünyaya göz açır. Mirleyla xanım vəfat etdikdən sonra qızların tərbiyəsilə özü məşğul olmuş, hüzrdən bir il keçəndən sonra yenə də Osnaqaran kəndindən **Mirsahibə Nəzərova** ilə evlənməyi qərara alır və nigahdan dörd nəfər qız uşağı doğulmuşdur. Beləliklə ailədə olan 9 qız uşağını böyütmək və tərbiyə etmək kimi zəruri işlərdə Mirbağır ağa ağır zəhmətə qatlaşmalı olur.

Hələ sağlığında böyük nüfuza malik olmuş seyid Mirbağır ağa insanlara təskinlik, inam, mənəvi qüvvə təlqin edən, cəfadan qurtarıb şəfa verən, səfa gətirən, fitri istedad, ecazkar qabiliyyət sahibi kimi şöhrəti Azərbaycanın cənub bölgəsinin hər guşəsinə yayılmışdı.

Mirbağır ağa 1880-cı ildə Sırıq kəndində anadan olmuş və 1958-ci ilin aprelində, 78 yaşında qəflətən rəhmətə getmiş, qəbri üstündə ağ daşdan məqbərə tikilmişdir.

İndi ziyarətgahdır.

Nəvəsi **Hacı Mirisa ağanın** məqbərəsinin tikilməsinə təşəbbüskar və yardımçı olmuşdur.

Seyid Mirbağır ağa ilə ailəvi dostluq edən Yardımlı qəsəbə sakini **Məşədi Buludxan** deyirdi ki, ağır nəfəsli seyid olan Mirbağır ağa baş verəcək hadisəni əvvəlcədən görə bilirdi, yəni öncəgörmə qabiliyyəti vardı. Söhbəti çox şirin olardı. Ağa deyərdi ki, hər bir insanın qəlbində inam olmalıdır. Allah-təalaya, peyğəmbərə, imamlara, ata-anaya, şeyxə, ordu rəhbərinə, hökumət başçısına inam vacibdir. İnamsız yaşamaq olmaz.

Mərhəmət sahibi və xeyriyyəçi insan, behiştlik Mirbağır ağanın **qızları Amanəxanım, Xavərxanım, Güllüxanım, Kübraxanım, Kafiyəxanım, Zəhraxanım, Kiyməxanım, Yaxşıxanım və Böyükxanım** öz el-obalarında xoşbəxt ailə həyatı qurmaqla atalarının əziz xatirəsini, şərəf və ləyaqətini daim uca tutur, heç zaman onu unutmur, ağalarının müqəddəs yolunu ləyaqətlə davam etdirirlər.





## *SEYİD AĞAMİR SEYİD MİRƏHMƏD OĞLU*



Mirəhməd ağa sağ ikən oğlu Ağamiri Səməd bəyin qızı Güləbətinlə evləndirmişdir. Bu nigahdan Ağamir ağanın 3 oğlu, 3 qızı olmuşdur.

Təəssüf ki, Güləbətin xanım 1952-ci ildə, Ağamir ağa isə 1953-cü ildə dünyasını dəyişmiş, Sırıq kənd qəbirstanlığında dəfn olunmuşlar.

Daşkənd kəndində yaşayan, Mirbağır ağanın məqbərəsinin ustası **Fədai Kərimovun** dediyinə görə onun **atası Məşədi İbiş (İbrahim) Ağamir ağa** ilə mehriban dost olduğundan tez-tez Sırıq kəndinə gedib o ocağ ziyarət edər, çox vaxt da ağa gildə qalardı. Ağamir ağa həya yoldaşının doğma kəndi Daşkənd Köryədisinə gələndə onı çox adam ziyarət edər, xeyli nəzir verərdi. Xeyirxah ağa isə ona verilən nəzirləri oradaca kasıb-kusublara, ehtiyacı olan ço xuşaqlı ailələrə paylayardı.

Ağamir ağanın oğlanları **seyid Miryavər** (1930), **seyi Mirəjdər, seyid Mirəziz, qızları - Mirmələk, Səkinə və Gül süm** ataları kimi halal zəhmətlə, el-obada hörmət- izzətlə yaşamış, ailə-uşaq sahibi olmuşlar. Hazırda öz ağalarının şər və ləyaqətini əziz tutur, müqəddəs seyidlik yolunu ləyaqətl davam etdirirlər.

## *SEYİD MİRBAXAS AĞA*

Seyid Mirəhməd ağanın ikinci arvadı iranlı Siyarə xanım dan **Mirbaxas ağa və Mirgülsüm xanım** dünyaya gəlibl Seyid Mirəhməd ağanın vəfatından sonra Siyarə xanımın qa daşları gəlib onların hər üçünü İrana aparmışlar. Mirbaxas a İranın Kalan kəndində mülk sahibi olmuş, böyük hörmət c zanmışdı.

**Mirbaxas ağanın** oğlanları son onillikdə rəsmi sənədlə bibisi Mirgülsümlə birlikdə Sınq kəndinə gəlmiş, Mirəhməd ağanın qəbrini ziyarət etmişlər.

İran inqilabı zamanı Mirbaxas ağa böyük işlərin sırasında təşkilatçı olduğundan onu həbs etmişlər.

Mirbaxas ağanın böyük oğlu **Mirhəsən** Tehranda, ortancıl oğlu **Mirməhəmməd** və **bacısı Mirgülsüm** Germidə, kiçik oğlu **Mirmustafa** İranın Gilan kəndində yaşayırlar.

Mirəhməd ağanın böyük qızı **Mirsuray** əmisi oğlu **Mirxas ağaya** ərə getmişdir. Bu nigahdan doğulan **Miryusif, Mirmahmud, qızları Mirxanım, Mirsurə və Mirsaradır.**

Mirsuray xanım və Miryusif ağa dünyasını dəyişiblər. Iki bacı və bir qardaş Sınq kəndində yaşayır.

Mirəhməd ağanın ikinci qızı **Mirməryəm** Lerik rayonunun Dırıq kəndində yaşayan və vaxtilə Nəcəf şəhərində dindarlıq üzrə ali təhsil almış Molla Əhmədlə ailə həyatı qurmuşdur. Hər ikisi haqq dünyasına qovuşub. Onların oğul-qız övladları və nəvələri Dırıq kəndində yaşayırlar.

Mirəhməd ağanın üçüncü **qızı Mirxədicə xanım** Çayüzü kəndində yaşayan **Axund Tağının oğlu Əbdülhüseynə** ərə getmiş, övladları olmamışdır.

Öz taleyinin qismətilə dünyasını dəyişən Mirxədicə xanım Çayüzü kənd qəbirstanlığında dəfn olunmuş və məzarı ziyarətgaha çevrilmişdir. El-obada kiçikdən böyüyədək hamı Mirxədicənin cəddinə and içir.

Seyid Mirəhməd ağanın qardaşı **seyid Mirmahmud ağa** (ona el arasında Böyük Baba deyərdilər-red) Sınq kəndində dünyaya gəlib. İlk dini təhsilini atasından, yerli mollalardan alıb. Sonra Ərdəbilə, İraqa gedərək mükəmməl ali dini təhsil almış, islam dininin sirlərini mənimsəmişdi.

Mirmahmud ağa öz övladlarını zəhmətə məhəbbət ruhunda böyütməklə yanaşı, onlara hərtərəfli dini təhsil də vermişdi.

Ailənin böyüyü, nəinki Yardımlı rayonunda, eləcə də res-







publikamızda yaxşı tanınmış **seyid Mirxas ağa** bu nəslin görkəmli nümayəndəsidir.

**Qulam Tağıyev, Çayüzü kənd sakini: (hazırda dünyasını dəyişmişdir-red):**

- Seyid Mirxas ağa çox dərin savadlı, müdrik, xeyirxah insan idi. Həmişə gənclərə öyüd-nəsihət verərdi. Deyərdi ki, yarımçıq qalan işin xeyri yoxdur, çalışın öhdənizə götürdüyünüz işi başa çatdırın. Yalançılara, yaltaqlara, əliəyrilərə qarşı mübarizə aparın, pis əməllərdən uzaq olun.

Qeybət edən adamın ömrü faydasız olar. Tamahgir olmayın, dünya malından ancaq zəhmətiniz müqabilində istifadə etməyə çalışın.

Seyid Mirxas ağa əsl el ağsaqqalı idi. Kəndin xeyir-şər işləri onsuz keçinməzdi. Çox məlahətli də səsi vardı. Onun rözəsinə qulaq asanlar hönkür-hönkür ağlayardılar. Son dərəcə mehriban və qayğıkeş insan, sınaqlı seyid idi. Iranda yüksək dini təhsil almışdı. Kəbin kəsər, namaz qılar, oruc tutardı. Quranın hafizi idi. Cəddinə deyilən bütün nəzirlər qəbul olardı.

Seyid Mirxas ağanın müqəddəs məzarı bu gün də camaatın ağır ziyarətgahıdır. Onun övladları **seyid Miryusif** və **seyid Mirmahmud ağa** el-obanın nüfuzlu, sınaqlı seyidlərindəndirlər. **Seyid Miryusif ağa** 1909-cu ildə Sınqda anadan olub Boylu-buxunlu, nurani sifətli, xoş ünsiyyətli, xeyirxah seyid idi. Miryusif ağa camaat arasında böyük nüfuza malik olmuş xeyir-şər ağsaqqalı kimi tanınmışdı. Həm də çox zəhmətkeş insan olmaqla öz təsərrüfatı ilə məşğul olmuşdur. Hal-hazırda Miryusif ağa ocağının sahibi oğlu, tanınmış **seyid Məşədi Mirməhəmməd ağadır**. Miryusif ağa 6 qız və 6 oğlandan ibarət böyük ailəsini ədəb-ərkanlı, əsl seyid övladı kimi tərbiyələndirmişdir: **seyid Mirhəmid, seyid Seyidağa, seyid Mirma**



**həmməd, seyid Miryunis, seyid Mirismayıl, seyid Mirkərim, Sona, Nazı, Nəcibə, Zərifə, Ceyran və Şəfiqə.**

Mirxas ağanın ikinci oğlu **Mirmahmud ağadır**.

Quba Müəllimlər İnstitutunu bitirən Mirmahmud ağa istedadlı pedaqoq, dərin hafizəli bir ədəbiyyat müəllimi kimi uzun illər gənclərimizin təlim-tərbiyəsi ilə məşğul olub və yaşının ahıl çağına baxmayaraq bu gün də valideynlərin xahişi ili müəllimlik peşəsini davam etdirir.

Mirmahmud ağa özü kimi də nurlu övladlar böyüdüb: **Hacı seyid Mirisa, Məşədi seyid Mirdaməd, seyid Miradil, seyid Mircəmaləddin, Dünyaxanım və Rəsmiyyə.**

Təəssüf ki, ağanın böyük oğlu, cavankən el ağsaqqalı kimi mötəbər bir ada layiq görülmüş **Hacı seyid Mirisa ağa** 50 yaşında dünyasını dəyişdi. Bu xəbər onu tanıyanlara böyük zərbə oldu. Əlindən ancaq xeyirxah işlər gələn Hacı seyid Mirisa əsl ziyalı, el adamı, imam- peyğəmbər övladı idi.

Allah ona rəhmət eləsin.

Seyid Mirmahmud ağanın ikinci oğlu **Məşədi seyid Mirdaməd** sırf şəriətlə məşğul olur. Quran oxuyur, camaatın xeyir-şər işlərini ləyaqətlə yola verir. Övladları da "Quran" əhlidir. **Oğlu Mirəddin** isə şəriəti müstəqil olaraq öyrənmiş, hədis və risalələri əxz eləmişdir.

Bu gün də Yardımlı rayonunun müqəddəs seyidi Mirəhməd ağanın yolunu, mənəvi irsini onun nəvələri dini və dünyəvi təhsil almaqla davam etdirirlər.

Allah haqq dünyasında olan bütün imam-peyğəmbər övladlarına rəhmət eləsin.





## SEYİD MİRƏHMƏD AĞA



Tarixdə elə şəxsiyyətlər var ki, onlar heç zaman unudulmur, onlar dünyalarını dəyişib əbədiyyətə qovuşduqdan sonra da xalq tərəfindən hörmətlə yad edilib ruhlarına rəhmət oxunur.

Belə unudulmaz şəxsiyyətlərdən biri də rəhmətlik **Mirəhməd ağadır.** Cəddi onu tanıyanlara daim köməkdir. Ağaya qəlbən inananlar sanki onun cəddinin köməyini bu gün də öz gözləri ilə görür, onun bir göz qırpımında köməyə çatdığını hiss edir, əməli şəkildə duyurlar. Bunu üçün ilk öncə böyük qüdrət sahibi olan yaradan Allaha, sonra Allaha qəlbən yaxın olan, Allahı dost tutan Mirəhməd ağ kimi seyid-peyğəmbər övladlarının Ulu Tanrı yanında ola hörmətinə arxalanmaq lazımdır. Gizlin deyil ki, yaşadığımı həyatda dünya işlərini araşdırmaq üçün insanlar yüksək mən səb sahibinə yaxın, onun yanında hörmətə malik olan adamla axtarır, dost- tanış tapırlar. Hər şeydən təmənnasız olan, yara dığı bəndələrdən isə yalnız **Onun** vahid və şəriksiz, və olunduğundan da artıq tərifə layiq və uca olduğunu, yalnı onun səcdəyə, ibadətə layiq olduğunu qəbul etməsini, yer üzü nə göndərdiyi, Allahın elçisi olan peyğəmbərlərimizin buyu duğu yolla getməyi umur. Bu şərtləri dərk edən hər kəs tə valı insandır, ondan xəta baş verməz, Allah ona rəhm edər.

Rəhmətlik Mirəhməd ağa da belə yüksək təqva sahibi, ə yüksək insani keyfiyyətlərə malik bir insan idi.

Mirəhməd ağa Kərbəlayi seyid Xurram oğlunun soy k kü Yəməndədir. Təxminən 4-5 əsr bundan əvvəl ulu baba Masallıya, oradan isə Yardımlı rayonuna köçüb. İmam Mus yi-Kazımın (ə.s.) törəməsidir.

Kərbəlayi Xurram ağanın 3 oğlu olub: **Seyid Mirəhməd, Mirəziz və Mirnağı.**

Hamısı da ataları kimi təqvalı, hörmətli seyidlər olublar.

Mirəhməd ağanın (1900-1982) 2 övladı vardı. **Mirəstə** erkən rəhmətə gedib. Yurdunda 4 qızı, 5 oğlu qalıb.

**Qızı Lalanın** isə 7 oğlu, 2 qızı var.

Seyid Mirəhməd ağanın bütün nəvə-nəticələri onun yolunu davam etdirir. Ocağında oturan **Məşədi Məzahir** bir imam-peyğəmbər övladı kimi camaatın hörmətini qazanıb.

Rayon İcra Hakimiyyətinin başçısı **Yaşar Abdulov** da hamı kimi seyid Mirəhməd ağanın kəramətindən danışır...

**Quliyev Əli Binyatəli oğlu, Qabaqdibi kənd sakini:**

- Məlum həqiqətdir ki, yaxşı insanlar haqqında fikir söyləmək çox çətindir. Xatirəsini həmişə əziz saxladığımız Mirəhməd ağa Ovra kəndində anadan olmuş, 1941-ci ilə kimi Fərsu kəndində yaşamışdı. 1941-ci ildə Iranla həmsərhəd zonasında yerləşən kəndlər köçürülərkən ağa Ovra kəndinə köçürülmüş, kəndin sakinləri respublika daxilində müxtəlif rayonlarda və rayonun müxtəlif kəndlərində məskunlaşmış, onlar acı həyat tərzi yaşamış və qəbul olunması mümkün olmayan mənəvi əzablara qatlaşmaq məcburiyyətində qalmışlar.

Ağa Mirəhməd ağanı atam vasitəsilə tanımışam. Atam ağa sarıdan həmişə çox narahat idi. Elə gün olmazdı ki, o Mirəhməd ağanın vəziyyəti ilə əlaqədar söhbət açmasın.

Mirəhməd ağa o vaxt rayonun Arus kəndində- öz qohumları ilə yaşayırdı. Atamın söhbətlərindən məlum oldu ki, Mirəhməd ağa Arusdan köçmək istəyir. Rayonumuzun Oduraqaran kəndində Mirəhməd ağanın qohumları yaşayırdı. O kəndə qız vermişdi. Ağa bir gün atamla görüşəndə Oduraqaran kəndinə köçmək istədiyini bildirir.

O dövrdə əhalinin miqrassiyasına çox ciddi diqqət yetirilirdi. Bir kənddən başqa kəndə köçmək hökumət və yerli nümayəndələrin razılığı ilə həyata keçirilirdi.

Mirəhməd ağanın Oduraqaran kəndinə köçməsi xahişini







rayon səviyyəsində hökm və nüfuza malik olan **rəhmətlik Zülfüqar Mənsimov etdi.** Ağa rəhmətlik Zülfüqar kişinin bu təklifini çox məmmuniyyətlə qəbul edir və Mirəhməd ağa Arus kəndindən Oduraqaran kəndinə köçür.

Ağa bir müddət Oduraqaran kəndində yaşayır. O, Oduraqaranda yaşayarkən atamla əlaqəsi daha da yaxınlaşır. Onlar tez-tez görüşər, öz problemləri barəsində məsləhətləşərdilər.

Bir gün Mirəhməd ağa atamın təklifi ilə qonağımız olur. Onun get-gedə kəndimizin ağsaqqalları ilə ünsüyyəti yaranır.

Atam hiss edir ki, Mirəhməd ağa bizim kəndə-Qabaqdibinə köçmək istəyir. Çox keçmədi ki, ağanın kəndimizə köçməsini atam həll etdi. Mirəhməd ağa üçün ev yeri aldı. Həmin yerdə də ağanın öz istədiyi qaydada ev tikildi...

Mirəhməd ağa ömrünün axırına kimi bizimlə, kəndimizin bütün adamları ilə səmimi, sağlam və hörmətli bir ömür yaşadı, el-oba ilə qaynadı- qarışdı, qohum oldu.

Təbiidir ki, peyğəmbər və imam övladları ədalətli, səmimi, xeyirxah, alicənab və bütövlükdə yüksək insani keyfiyyətlərə malik olurlar. Mirəhməd ağaya böyük Allah bu keyfiyyətlərin hamısını bəxş etmişdi. Ağa ədalətli, tamahsız, rəhmli, bütün insanlara qayğıkeş, ağır təbiətli, abırlı insan idi. İnsanlığ halallığı hər şeydən üstün tuturdu. Ona görə də Mirəhməd ağ rayonumuzda yaşayan digər seyidlərin də böyük hörmətini qazanmış, onu tanıyanların hamısının əvəzsiz ağsaqqalı olmudur.

O, heç vaxt lazım olmayan yerlərə getməz, heç kəsə əl amaz, heç kəsə əziyyət verməz, heç kəsi qapısından naümid yola salmazdı. Rayonumuzda ağanı tanıyanlar çox idi. Müşkül i olanlar, bərkə düşənlər, ürəyində arzusu olanlar ağanın cədd nə pənah gətirər və diləklərinə çatardılar.

Mirəhməd ağaya nəzir verənlər də çox idi. Ayrı-ayrı insanlar özləri ağanı axtarar, onun evinə gəlib nəzirini verərdilər.

Yeri gəlmişkən qeyd edim ki, ağa dünyasını dəyişəndən sonra da rayonun ayrı-ayrı kəndlərindən, respublikanın digər rayon və şəhərlərindən onun qəbrini ziyarətə gələnlərin sayı azalmır.

Ağa ona verilən nəzirdən imkanı olmayanlara, ona müraciət edənlərə verərdi. Hər il iki- üç dəfə ehsan verər, süfrəsinə həmişə kasıbları, ehtiyacı olanları yığardı.

Dünya malı, maşın, dəbdəbə ağaya çox yad idi. Ağa həmişə ibadət edər, məscidləri gəzər, Allahdan müsəlmanlara kömək diləyərdi.

Mirəhməd ağa arada Yardımlı qəsəbəsinə gedərdi. Qəsəbədə ancaq rəhmətlik **Seyidalı və Əliheydər Bədirovların** evində qalar, onlarla birlikdə məscidə gedib namaz qılardı.

Mirəhməd ağa Ovra kəndinə köçürüləndən sonra bir sıra çətinliklərin qarşısında qalsa da ömrünün sonrakı dövrünü sakit, mənalı, hörmətli və yaddaqalan bir şəraitdə keçirmiş, böyük hörmət sahibi olmuşdu.

Rəhmətlik ağamın bütün ailə üzvləri onun yolunu, böyüklüyünü bu gün də davam etdirirlər.

Ağanın cəddini çağırıb ona qəlbən pənah aparan elə bir şəxs tanımıram ki, onun diləyi həll edilməmiş olsun. Bunu isə yalnız ağanın böyük Allah yanında nə qədər əziz olduğu ilə izah etmək olar.

Göstərildiyi kimi Mirəhməd ağa ömrünün çox dövrünü ağa kimi yaşadı. Lakin ömrünün son illəri ağanın arada qəhərləndiyi, narahatlıq keçirdiyi hiss olunurdu. Bir dəfə bu hissi duydum və ağadan xahiş etdim ki, onu narahat edən dərdini mənə danışsın. Çox təkid etdim, amma bir söz demədi.

Aradan beş-altı ay keçmişdi. Bir gün yenə rastlaşanda dedi ki, dərdimi sənə demək istəmirdim, ancaq daha halım qalmayıb. Məni iki dərd rahat qoymur. Biri yurd, dədə- baba qə-





birlərindən kənarda qalmağım, o biri də qardaş həsrəti. Mə ağaya bacardığım qədər təskinlik verdim, onun qəlbini açma ğa çalışdım. Mənimlə bir təhər razılaşdı.

Aradan iki- üç ay keçmişdi ki, ağa mənə dedi ki, bir xa hişim var, imkanın olsa köməklik elə.

Ağaya bildirdim ki, imkanım olsa, nəyə gücüm çatsa sizi üçün etməliyəm.

Mirəhməd ağa gözləri yaşarmış halda dedi ki, qardaşı Mirxas ağa İrandadır. O vaxtdan indiyə kimi ondan bir xəbə tuta bilmirəm. Məni narahat edən budur. Qardaş həsrəti, qa daş ayrılığıdır.

Doğrusunu deyim ki, mən ağanın qoyduğu bu məsələ çaşbaş qaldım. Xeyli susandan sonra dedim ağa, Iranla əla saxlamaq özünüz də yaxşı bilirsiniz ki, çətin məsələdir.

Ağa dedi ki, başa düşürəm, amma sən sərhədçilər dostsan. Iranın Siya və Əfçə kəndləri sərhəddə çox yaxınd o kəndlərin ikisində qohumlarımız var. Mənim özümü keçirt taya, onlardan qardaşım barəsində bir xəbər bilim.

Məcburiyyət qarşısında qalaraq dedim ki, ağa, səni sərhə dən keçirib Ovra kəndinə apara bilərəm, lakin sənin onla əlaqə saxlamağın qeyri- mümkündür.

Bundan sonra Mirəhməd ağanın ümidsizliyə qapıldığ hiss edib, özüm ondan da ağır vəziyyətə düşdüm.

Söhbət etdiyimiz ilin yazında məni zastavaya dəvət et lər. Vəzifəm ilə əlaqədar doğrudan da mənim sərhədçil çox yaxın əlaqəm vardı. Zastavada tədbir qurtarıb yüksək r bəli qonaqlar gedəndən sonra zastava rəisi məni Əfçə kən nin 100-150 metrliyində olan çayın mənzərəli yerinə dəvət di.

Biz dörd nəfər gözəlliyi ilə adamı valeh edən bir ye idik. Maşının radiosunu açıb musiqiyə qulaq asırdıq. Ara bir-iki saat keçmişdi. Birdən bizim avtomaşından muğamat si yüksəldi. Çox keçmədi ki, kəndin adamları bizdən 50 metr yuxarıda evlərin həyətinə yığışdılar.

Mən sürücüyə acıqlandım ki, radionu bağlasın. Sürücü də dərhal radionu bağladı. Radio bağlanan kimi adamlar yalvarmağa başladılar ki, radionu açaq. Mən buna imkan vermək istəmədim. Lakin zastava rəisi (o çox dəyərli insan idi) özü gedib radionu açdı. Bəlkə də kənddə adam qalmadı, hamısı toplaşıb axıra kimi muğamat konsertinə qulaq asdılar.

Konsert qurtaranda Mirəhməd ağanın söhbəti yadıma düşdü. Yaranmış vəziyyətdən istifadə edib üzümü sürücümə tərəf tutub Azərbaycan dilində Ərçə kəndinin adamlarından soruşdum ki, ovralı Mirxas ağa sağdırmı?

Bir ağızdan hamısı:" sağdır, Kermidə yaşayır və yaxşı da dolanırlar, övladları, nəvələri var",- deyə mənə cavab verdilər.

Zastava rəisi mənim sürücü ilə deyil, iranlılarla danışdığımı hiss etdi və mənə yüksək səmimiyyətlə dedi ki, istəyirsən get ora, neçə gün qalırsan qal, biz dostuq, sən xətalı iş görməzsən.

Zastavadan yola düşəndə elə bilirdim ki, Mirəhməd ağanın qardaşı Mirxas ağanı da özümüzlə aparırıq. Evə qayıdan kimi ağa ilə görüşdüm. Qardaşının sağ- salamat olmasını ona bildirdim. Mirəhməd ağa çox şad oldu, hətta mənə muştuluq da verdi.

Hesab edirəm ki, Mirəhməd ağa onu tanıyan təmiz insanların qəlbində həmişə yaşayır və yaşayacaqdır.

Allah ona rəhmət eləsin, ruhu şad olsun.

**Feyruz Sultanov, tibb elmləri namizədi, rayon mərkəzi xəstəxanasının baş həkimi Ali kateqoriyalı cərrah:**

- Elimizin unudulmaz simalarından biri də dünyasını dəyişəndən sonra da anılıb ruhuna rəhmət oxunan imam-peyğəmbər övladı Mirəhməd ağa olmuşdur. Yüksək təqva sahibi, əsl insani keyfiyyətlərə malik ağa atamın yaxın dostu idi. Daşkəndə gələrkən mütləq bizim evə düşər və gəlişilə də evimizdə bir bayram əhval-ruhiyyəsi yaradardı. Xüsusi hörmət əlaməti kimi evdəki gilim-palazın üstündən mütləq təzə xalçalar döşənər, ipək üzlü mütəkkə qoyular, həyətdə samovar yandırılar,





çay dəmlənərdi. Çox sevdiyi armudu stəkanda çay içə-içə atamla başlardılar dünyanı arşından keçirməyə. Bu söhbətlərdə gəlimli-gedimli dünya söz biçimində ilmələnər, naxışlanar və daha da şirinləşərdi. Çünki ağanın ağzından dürr tökülərdi. Danışarkən tələsməz, beyninin süzgəcindən keçib ağlının gücündə, hikmətində ovxarlanmayan sözü dilinə gətirməzdi. Hər kəlməsi bir dağ boyda olardı. Sevməzdi onun-bunun dalınca danışmağı, söz bəzəməyi. Yalana, iftira-böhtana onda bir barışmazlıq vardı.

Həmişə ciddi, ağır görünərdi. Atamla birlikdə namaz qılıb dua edərkən əllərini Tanrı dərgahına qaldırıb xalqına sülh, əmin-amanlıq diləyəndə uşaq təxəyyülümdə onu kitablarda oxuduğum əsl nurani kişilərə bənzədərdim. Elə belə də qalıb yaddaşımda mənim Mirəhməd ağa.

Kəndin sakinlərindən,hörmətini saxlayanlardan həmişə xüsusi razılıq edərdi. Uzun illər vəzifə sahibləri olmuş Binyatəli kişi və onun böyük oğlu Əli Quliyevə xüsusi ehtiramından ağız dolusu danışar, qayğılarını qiymətləndirərdi.

Mirəhməd ağa qürrələnməyi qəti sevməzdi. Xalqın hörmət və ehtiramını qazandıran əsas cəhəti ona verilən nəzirləri bir əlilə alıb o biri əlilə paylaması idi. Onun üçün kasıb-varlı sözü yox, insan sözü əsas idi. İnsanlara böyük sevgisiydi ağanı böyük edən. Həyət-bacasında təcərrüfatına kömək edənlərə ana yurdu Ovra haqqında xatirələrini danışanda kövrələn görmək olardı onu. Unuda bilmirdi stalinizmin başa-bəla siyasətinin gətirdiyi faciəni. Köçürülən yurd yerində ürəyinin sızıltıları qalmışdı.

Ağanın xeyir-duasını alanlar heç vaxt onu yaddan çıxarmır Xoşbəxtəm ki, onlardan biri də mənəm.

1966-1972-ci illərdə Tibb İnstitutunda oxuyarkən təti günlərində həmişə görüşərdik. Ağa səxavətlə cibimə pul qoyar və deyərdi: "Bala, bunu sənə kisədibi verirəm".

Ağaya rayon rəhbərləri də ehtiramla yanaşardı. Bilirdilər ki, onun nüfuzu nə deməkdir. Digər tərəfdən ağa hər şey üçü

ağız açmağı, xahiş etməyi də sevmirdi. Qonşu, qohum söz-söhbətlərini məmurlardan o yaxşı yoluna qoyardı. Kimin nə həddi vardı ağa gedən yerdə sülhə səs verməyə?

Ağaya xidmətin özü bir aləm idi. Kəndimizin ərazisində onun üçün xüsusi biçənək sahəsi ayrılmışdı. Adamlar yığışıb ilk öncə ağanın payını tədarük edər, aparıb otunu həyətinə boşaldardılar. Ağa da camaatı buraxmaz, onları mütləq öz süfrəsinə dəvət edərdi.

Kiçik yazıda ağanın bütün məziyyətlərini açıb göstərmək çətindir. Ancaq mən sonralar bir həkim kimi ona qulluq etdiyimi yadıma salanda iftixar hissi duyuram. Mənə elə gəlir ki, onun cəddi həmişə mənimlədir.

**Nuriyev Eyvaz Əvəz oğlu, Köyrədi kənd sakini:**

- Seyidlər cəmiyyətin yüksək zirvəsində mövqe tutmuş ən layiqli nəsil, hörmətli və müqəddəs şəxsiyyətlərdir.

Bizim ərazidə bir neçə kənddə seyidlər yaşayırlar.

Qabaqdibi kəndində məskunlaşmış rəhmətlik Mirəhməd Kərbəlayi Xurram oğlunu yaxından tanıyırdım. Ağa bir müddət Oduraqaran kəndində yaşadıqdan sonra camaat arasında böyük hörməti olan el ağsaqqalı, rəhmətlik Quliyev Binyətəli Fərman oğlu tərəfindən Qabaqdibi kəndinə köçürülüb, burada yaşamışdır. Binyətəli müəllimin oğlu, rayonumuzda və respublikada tanınmış hörmətli ziyalılarımızdan biri, 22 ildən artıq bir vaxt ərzində rayon Istehlak Cəmiyyəti idarə heyətinin sədri və 8 il rayon Icra hakimiyyətinin başçısı vəzifələrində işləmiş Əli müəllim həmişə rəhmətlik Mirəhməd ağanı bütün təminatını verər, ağaya böyük ehtiram göstərərdi. Əli müəllim Icra başçısı işləyən vaxtlarda dini mərasimlərdə və müqəddəs bayramlarda özü ağanın qəbrini ziyarət edər, nəzir-niyaz verər, ağanın hörmət və ehtiramını saxlayırdı və bu gün də saxlayır. Mirəhməd ağa 1982-ci ildə dünyasını dəyişdikdən sonra Əli müəllim onun məzarını düzəltdirib böyük el ziyarətgahına çevirmişdir.

Xeyirxah adamlara Allah kömək etsin.





Mən rəhmətlik Mirəhməd ağanı Qabaqdibi kəndinə köçəndən sonra tanıdım. O, çox ağır təbiətli, təmkinli, səbrli və az danışan adam idi. Danışanları diqqətlə dinlər, özünü xalq içərisində çox hörmətli aparar, heç kəsdən nəzir istəməz, verilən nəzir-niyazı kasıblara, yetim-yesirə, imkansızlara paylayardı. Onun cəddi çox ağır idi. Hansı işə xeyir-dua verərdisə o iş öz xeyirxah həllini tapardı.

...1972-ci ilin iyul ayı idi. Mən kolxoz sədri işləyirdim. Ot toplanışı başa çatmaq üzrə idi. Kolxoz 3 təsərrüfat briqadasından təşkil olunmuşdu. Mirəhməd ağanın yaşadığı kənd 2 nömrəli briqadaya daxil idi. O, kəndin briqadasında təsərrüfat işləri başqa briqadalardan yaxşı gedirdi. 3 nömrəli sahə briqadasında isə işlər ləngiyirdi. 2 nömrəli Qabaqdibi kəndinin briqadiri rəhmətlik İbrahim Dəhnəz oğlu Vəliyevə sərəncam verilmişdi ki, 3 nömrəli Vəlixanlı briqadasına köməklik etsin. Kolxoz idarəsi Köryədi kəndində yerləşirdi. Səhər tezdən idarəyə toplaşıb işin gedişatı barəsində briqadirlərdən məlumat alır, vəziyyəti təhlil edirdik. İsti, buludsuz bir gün idi. Qəflətən ildırım çaxmağa, göy guruldamağa, bərk külək əsməyə, iri-iri dolu düşməyə başladı. Hamımız otaqdan çölə çıxdıq. Dolu ancaq idarənin ətrafına düşürdü. İdarənin üstündən Şimala- Vəlixanlı kəndinə kimi göyün üzünü bir topa qara bulud bürümüşdü. Bərk küləklə yağış yağırdı. Qalan yerlər aydın idi. Hamı bu möcüzəyə məəttəl qalmışdı. 2 nömrəli sahənin briqadiri rəhmətlik İbrahim Bəyəliyev dedi ki, sədr, Vəlixanlı camaatı bizim briqadanın köməyə getməsindən narazıdır. Deyirlər ki, siz bizim kəndin otunu çalsanız, seyid Mirəhmədin də qoruğunu çalıb kolxoza aparacağıq. Bəlkə onun qoruğunu çalıblar, ona görə hava belə tuğyan edir.

Mən ona təcili ora getməyi tapşırdım. Briqadir gedəndən bir az sonra hava sakitləşməyə başladı. Sonra mən də kəndə getdim. Gördüm ki, ağa bərk çox narahatdır. Otbiçənlər onun da qoruğunu çalıblar. Mən rəhmətlik Mirəhməd ağaya yaxınlaşıb onunla görüşdüm. O, çox bikef vəziyyətdə idi. Dedim ki

ağa, narahat olma, get Əhmədağa müəllimin evinə çay iç, əsəblərin sakitləşsin. Mən özüm məsələni həll edəcəyəm. Ağa bir söz deməyib getdi.

Mən 3 nömrəli sahənin briqadiri rəhmətlik **Həvulla Əsəd oğlu Abdullayevə** tapşırıq verdim ki, maşınları göndərəcəm, ağanın otunu yığdırıb evinə apararsan. Düz 5 maşın otu yığdırıb ağanın evinə göndərdim.

Kolxoz sədrliyi vəzifəsindən çıxandan sonra rayon kənd təsərrüfatı idarəsində mühasib işləyirdim. 1974-cü ilin fevral ayı idi. Kolxozda sənədli təftiş aparırdım.

Bir gün evdən zəng edib xəbər verdilər ki, qaynım **Kalam Fərzullayev** ağır xəstələnib, təcili rayona qayıt. Həmin gün bərk külək əsirdi. Mən rayona qayıtdım. 12 yaşlı qaynım rayon xəstəxanasında ağır vəziyyətdə yatırdı. Mən baş həkimdən xahiş etdim ki, Bakıdan xəstəliyi düzgün müəyyən etmək üçün mütəxəssis gəlməsi üçün çağırış versin. 3-4 saatdan sonra təcili yardım vertalyotu gəldi. Amma külək çox güclü olduğuna görə vertalyot yerə enə bilmirdi. Mən rəhmətlik Mirəhməd ağaya 3 manat nəzir ayırdım. Bir az keçməmiş külək yavaşıdı. Vertalyot yerə enib yenidən havaya qalxandan sonra külək əvvəlki kimi güclü əsməyə başladı.

Tanıdığım iş yoldaşlarımdan və yaxın tanışlarımdan 4 nəfərin oğlan övladı olmurdu. Onların yanında Mirəhməd ağaya nəzir boyun aldım ki, həmin şəxslərə Allah oğul payı versin. Indi onların hamısının oğlu vardır.

Elimizin nurlu ağsaqqalı, müqəddəs imam-peyğəmbər övladı seyid Mirəhməd ağaya olan hörmət və məhəbbətim əbədidir. Bütün müqəddəs bayramlarda onun qəbrinə nəzir göndərir, ruhuna dualar edirəm.



# Qərbi Azərbaycan








## ERMƏNİLƏR TÜRK ABİDƏLƏRİNİ NECƏ ÖZÜNÜNKÜLƏŞDİRİRLƏR?

Dərələyəz mahalında olan tarixi abidələrin inşası Elxanilər sülaləsinin hakimiyyətə gəlməsi ilə sıx bağlıdır. Bəlkə də abidələrin bu yerlərdə çoxluğu buranın füsunkar gözəlliyi, təbiətin bəxş etdiyi, yaşayış üçün lazım olan bütün maddi imkanların mövcudluğu, zəngin bitki və heyvanat aləmi ilə izah olunur.

Ələyəz, Əmağu, Arpa, Paşalı və başqa kəndlərdə XIII-XV əsrlərdə aid abidələrin kitabələrini ermənilər pozub, "xaç"larla bəzəməsinə baxmayaraq abidələrin bir çox qabarıq cizgiləri onların türklərə mənsub olduğunu tam sübut edir. Abidələrin üzərində olan ornamentlər, tikililərin memarlıq üslubu buna əyani nümunədir. Səlim keçidində 1325-1326-cı illərdə Əbu Səid Bahadur xanın tikdiyi karvansaranın başqa abidələrə eyni kompozisiya oxşarlığı da həmin qəbildəndir.

Memar Əcəmi Əbubəkir oğlu Naxçıvanın xalq arasında "Ata-baba türbəsi" kimi tanınan, 1162-ci ildə Yusif İbn Küseyrin xatirəsinin əbədiləşdirilməsi üçün tikdiyi abidənin səkkizbucaqlı olması və ornament, bəzəklərinin çoxbucaqlığı Əcəmi memarlığının gözəl nümunəsidir.

Dərələyəz mahalında olan abidə, sənduqə, kitabə və başqa memarlıq incilərini məhz Əcəmi naxışları bəzəyir. Ələyəz kəndində Abbasilər xilafəti dövründə mövcud olan Əxi zaviyəsinin aşkar edilməsi XII-XIII əsrlərdə Iran, Orta Asiya və xüsusilə Kiçik Asiyada geniş yayılmış dini cərəyanların bu ərazidə də geniş yayılmasını təsdiqləyir.

1961-ci ildə professor Məşədixanım Nemət tərəfindən araşdırılmış bu ziyarətgahda XVI əsrdə yaşayıb fəaliyyət göstərmiş Əxi Təvəkküllün məzarından tapılmış kitabədə onun şəhid edilməsi barədə də yazılmışdır.

Ələyəz XII-XIII əsrlərə qədər dövrünün inkişaf etmiş şəhərlərindən biri olmuşdur. On ikinci yüzillikdə baş verən zəlzələ zamanı dağılmış şəhərin xarabalıqları Hosdun və Ələyəz kəndləri arasında indi də qalmaqdadır. Həmin zəlzələ başqa bir yerdə-Kotanlı, Kendərə, Ərgəz və Her-Her kəndlərinin ərazisində böyük bir sahəni əhatə etməklə hündürlüyi 800 metrə çatan, yanmış qumdan, torpaqdan ibarət olan, hazırda "Təpəsdəlik piri" kimi ziyarətgaha çevrilmiş bir təpə də əmələ gətirmişdir. Bu pirə ziyarətə gedənlər Təpəsdəliyə qalxdıqları qədər də həmin təpənin ortasındakı çuxura bir o qədər enirlər. Püskürmə nəticəsində əmələ gələn bu çuxurun dibində də gözəl bir möcüzənin şahidi olurdun. Daşdan tikilmiş ziyarətgah və bir qədər aralıda buz kimi soyuq sulu şəffaf bulaq adamı heyran edirdi.





### DƏMROV PİRİ



Arpa çayının sağ sahilində, Bulaqlar kəndi ilə Her-Her kəndi arasında gözəl bir dağ silsiləsi öz sıldırım qayaları, gözəl mənzərəsi ilə insanları heyran edərək bütün ətra dağlardan öz görkəmi ilə seçilirdi. Dağın zirvəsində qədim bi abidə vardı - Dəmrov piri. Əslər boyu insanların sağlamlığın xidmət etmiş Dəmrov piri böyük bir qaya parçasından yonulu düzəldilmişdi. Pirin tarixi IV-V əsrlərə aid edilir. İnsanlar bə dənlərində əmələ gələn yaranı, dəmrovu olan hissəsini divar sürtər və şəfa tapardılar.

### ALLAH EVİ

Əmağu kəndindən 2 km aşağı, Arpa çayının sol sahilində aralı, Amağu çayından 500-600 metr kənarda, sıldırım qayala la əhatə olunmuş bir yastanada ətrafı hasarla çəkilərək iki hi sədən ibarət birmərtəbəli və ikimərtəbəli yaraşıqlı bir bin Əmağu abidəsi vardı.



Elxanilər dövlətinin hakimiyyəti illərində 1325-ci ildən başlayaraq Dərələyəz mahalının bir çox kəndlərində abidələr, mədrəsə və karvansaraylar tikilirdi. Əmağu abidəsinin tikintisinin bir hissəsini 1335-1336-cı illərdə tamamlayan Arpa xandan sonra 1339-1340-cı illərdə hakimiyyətə gələn Satıbəy Xatun binanın ikinci mərtəbəsini inşa etdirməyə başlayır və İslamiyyə elmini qadınlara öyrətmək, oxumaq, təlim etmək üçün ikinci mərtəbəsini tamamlatdırır.

Binanın üst hissəsi kümbəz formasında idi.

Mənfur ermənilər başqa abidələrimiz kimi Allah evini də özününküləşdirib adını da "Noravik" qoyublar.

## ƏRGƏZ PİRİ

Dərələyəz mahalında ən qədim abidələrdən biri olan Ərgəz piri Ərgəz çayının yuxarı axarında, Ağdərə ərazisində yerləşən Ərgəz kəndində idi.

Bu pir haqqında tədqiqatçılar müxtəlif fikirlər söyləmişlər.

H. Zeydliç Ərgəzdə olan bu tarixi abidə haqqında belə yazırdı:

"Ərgəz kəndində uçmuş halda məscid var. Qədim kənd abidəsi belə adlanır. "Arkaznc. Bu abidədən aralı Surp-xaç monastırı olmuş və 1870-ci ildə həmin abidə bərpa olunmuşdur. Həmin vaxtlar İrəvan və Yelzavetpol qəzalarından üç gün ərzində 6000 nəfərə qədər bura ibadətə gələn olurdu".

E. Lolayantsin redaktorluğu ilə Tiflisdə dərc olunan maraqlı bir fakt qeydə alınmışdı.

"Ərgəz kəndi yaxınlığında bərpa olunan (1872) abidəyə







qədim dövrlərdən indiyə kimi 100 minlərlə insan ibadət etməyə gedir. Bu abidənin inşası Bizans imperatoru İrakli tərəfindən verilən hədiyyə əsasında tikilmiş və həmin hədiyyə abidənin özülünə qoyularaq inşa edilmişdir. Abidə 621-c ildə inşa edilib."

Ərgəz piri qədim dövrlərdən başlayaraq insanların sağlamlığına xidmət etmişdir.

Ermənistan, Naxçıvan, bəzən Gürcüstanın bölgələrində Ərgəz pirini ziyarət etməyə gələnlər olurdu. Ziyarətə gələnlə arasında hər xəstəliyə düçar olmuş-sonsuz, şikəst, ruhi, cisma ni və başqa xəstəliyə tutulanlar, hətta ailə münasibəti ziddi yətlərinə məruz qalanalar da gəlirdilər. İbadətə gələnlərin ç xu şəfa tapardı.

Pir ətrafında olan loğmanlar ( ara həkimləri) Dərələy mahalında bitən gözəl müalicəvi bitkilərdən toplayıb, ibadə gələnlərə satar və müalicə üsullarını izah edərdilər.

Ziyarətə gələnlərin arasında azərbaycanlılarla yanaşı, r gürcü, kürd, ləzgi, avar və b. xalqların nümayəndələri olurdu.

1955-60-cı illərdə 110 yaşı Hüseyn kişi deyirdi ki, Ər pirinin dam örtüyü gümbəzlər vasitəsilə tamamlanmışdı. Q çən erməni daşnaqları pirin ətraf barısını dağıdıb içəri hüc etmiş, binanın daşını dağıtmışlar.

1919-cu ilə qədər Ərgəz pirinin damı ermənilər tərə dən dağıdıldıqdan sonra 1950-60-cı illərdə ermənilər tərə dən abidə kimi bərpa edilərək başqa şəkilə salınmışdır.

**Kamil Dərələy**
**"Dərələyəz od içində" kitabı**

## SEYID MIRISMAYIL SEYID MIRQAFAR OĞLU



Vedidən baxırdım İqdirə bir vaxt,
Əlçatmaz, ünyetməz bir məkan kimi.
İqdirdən baxıram Vediyə bu gün,
Didərgin taleli bir insan kimi.

İçimdə tufanlar çalxanır hər an,
Canda Ağrı boyda ağrı dayanıb.
Vediyə can atdım, gördüm arada,
Araz nəhri kimi barı dayanıb.

**Eldar İsmayıl**

İnsanlar ta ulu çağlardan üzübəri inam ocaqlarına sığınmış, ağır gündə, darda ikən gözəgörünməz tanrıdan, bir də əməlləriylə göylərə yaxın olan Allah adamlarından yardım diləmişlər.

Belə nurlu seyidlərimizdən biri də **seyid Mirismayıl ağa** olmuşdur.

Seyid Mirismayıl ağanın atası **seyid Mirqafar** ağanın əsli Ordubad rayonundandır. Ulu seyidliklərini təsdiqləyən, 15 müştehidin möhür vurduğu nəsil şəcərələri var.

Seyid Mirqafar ağa Xorasanda oxumuş, ali dini təhsil almışdı. 5 oğlu, 2 qızı olub: **seyid Mirismayıl, seyid Mirhəbib, seyid Mirheydər, seyid Mirbağır, seyid Miryəhya, Zinyət və Zeynəb.**

Seyid Mirhəbib ağa 37-ci illərin repressiyasının tüğyan etdiyi illərdə öz doğma ocağından didərgin düşərək Zaqatalada yaşayıb. 1924 -cü ildə Məşhəddə olmuşdu.

**Seyid Mirhəbib ağa** çox bilikli, dövrünün müdrik bir adamı idi. O, ərəb dilini mükəmməl bilirdi. Camaat onun danışdığı hədislərdən, ibrətamiz söhbətlərindən doymaq bilməzmiş.

**Seyid Mirbağır və seyid Mirheydər** də Zaqatalada yaşayıblar.





Mirheydər ağanın ocağında **seyid Mirmehdi** qalıb. O biri oğlu **seyid Mircəlal** isə Ordubadda- dədə yurdunda yaşayır.

**Seyid Mirbağır ağanın** isə **seyid Mirhüseyn və seyid Mirhəsən** adlı oğlanları var.

Seyid Mirismayıl ağa Urud kəndinə köçüb və orada yaşayıb. Onun ocağı hər yerdə tanınmış ağır ocaq idi. Ora sidq ürəklə gələnlərin nəziri qəbul olunardı. Xəstələri bu ocağa gətirərdilər, onlar şəfa tapıb qayıdardı. Ağanın gözləri uşaqlıqdan tutulmuşdu. Buna baxmayaraq, onda hissetmə qabiliyyəti çox güclü idi. Gözləri görməsə də, çox səlis və gözəl səslə Qur'an, Yasin oxuyardı.

Mirismayıl ağanın 4 övladı var: **Dürrə, Rübabə, Siddiqə və seyid Miriş.**

**Əbilov Əbil Qabil oğlu, Sisyan rayonunun Vağadi kənd sakini:**

- 1941-ci il idi. Müharibənin ağır günlərindən birində səngərdə oturmuşduq. Döyüşqabağı xəyala dalmışdım və birdən gözlərimin önünə Mirismayıl ağa gəldi. Gördüm ağa deyir ki, ə, burda niyə oturmusan, dur gedək Müxəstə toyuq bişirib, onu ye.

Ayılıb gördüm səngərdəyəm. Həmin gün hücuma keçdik və gündüz saat 10-11 radələrində yaralandım. Sol tərəfimi güllə parçalamışdı.Çoxlu qan itirmişdim. Komandir yaramı bintlə sarıdıqdan sonra məni iki əsgərə tapşırdı ki, aparın kazarmaya. Oradan yaralandığımı evimizə xəbər verdilər. Dayım məni Bakıya gətirdi. Yaram dərin olduğuna görə sağalmırdım. Mənə altı ay məzuniyyət verib evimizə buraxdılar. Kənddə qonşularımız bizə yığıldılar və başladılar davada olan qohum əqrabalarından xəbər bilməyə. Kəndimizdə bir qoz ağacı var dı. Gördüm Mirismayıl ağa başında göy əmmamə durub həmin ağacın altında. Gedib onun əlini-ayağını öpdüm, dedim ağa sənə nəzirim var. Dedi gəl bizə, Müxəstə bir toyuq bişirib onu yeyərsən. Yoldaşı Müxəstə bişmiş toyuğu gətirib mənim qabağıma qoydu. Yuxuda gördüyüm vaqiə gerçəkləşdi...

**Süleymanov Famil Cəbi oğlu, Qubadlı rayonunun Vəlicanlı kənd sakini:**

- Seyid Mirismayıl ağanın evi təkcə Sisyan camaatının deyil, bütün Şərqi və Qərbi Azərbaycan camaatının ümid qapısı idi. Onun ocağına respublikamızın hər yerindən-Qubadlı, Zəngilan, Füzuli, Ağdam və başqa bölgələrdən ziyarətə gələrdilər.

Mirismayıl ağanın adı hər yerdə hörmətlə çəkilərdi. O, məclislərin yaraşığı olub. Toy-düyündə, yas məclislərində onsuz keçinməzdilər. Onun ocağına pis niyyətlə gəlmək olmazdı. Xoş niyyətlə bu ocağa gələnlərin arzusu çin olurdu. Xəstə adamlar bu ocaqda elə bil yenidən həyata qayıdırdılar. Mirismayıl ağanın ocağına ağzı əyilən, axsayan və digər çatışmamazlığı olan adamlar da pənah gətirərdilər.

Mirismayıl ağa 1955 -ci ildə rəhmətə getdi. Mən deyərdim ki, bəlkə bütün rayonların camaatı ora yığışmışdı. Hətta onun yas mərasiminə başqa respublikalarda yaşayan azərbaycanlılar da gəlmişdilər. Camaat onun ölümünə çox təəssüflənirdi.

Allah ona rəhmət eləsin!

**Orucova Süreyya Mehdi qızı, 1969-cu ildən Abşeron rayonunun Saray qəsəbəsində yaşayır:**

- Mirismayıl ağanın adı gələndə adamın bədəninə üşütmə düşür. O, ağır seyid nəslindən idi. Kim çətinə düşürdüsə, gəlib Mirismayıl ağanın ətəyindən yapışırdı ki, ay ağa, mənə kömək eylə, göydə Allahı, yerdə səni tanıyıram. Ağa da əlini həmin adamın başına çəkərdi və deyərdi get, sabah işin düzələcək. Çox rəhmli, ədalətli, mehriban adam idi. Həmişə başında əmmamə, belində qurşaq, əynində çuxa, əlində isə əsa olardı. Hər bölgədən ağanın ziyarətinə gələrdilər. Əli əsalı adam bu ocaqdan əsasız qayıdardı. Xəstə gəlib bir gecə qalırdı ocaqda. Səhər sapsağlam evinə qayıdardı. O, dava-dərmandan istifadə eləmirdi. Xəstənin ağrıyan yerinə əl çəkirdi, çayının artığını ona verirdi, həmin adam sağalırdı...





**Mirismayıl ağanın yeganə oğlu seyid Miriş ağa** 1928-ci ildə Sisyan rayonunun Urud kəndində anadan olub.

Orta məktəbi qurtardıqdan sonra kolxozda işləyib. 1988-ci ildən Sumqayıtın Corat qəsəbəsində yaşayır. Atası haqq dünyasına qovuşduqdan sonra onun ocağında oğlu seyid Miriş oturmuşdu. Camaat necə Mirismayıl ağaya biyət edirdisə, seyid Mirişə də elə biyət edir. O, kimsəsizlərə kömək edir, aclara çörək verir.



Azərbaycana köçdükdən sonra seyid Miriş ağa 1992-ci ildə Məşhəd, 1994-cü ildə Məkkə ziyarətlərinə getdi. İndi həm Məşhədi, həm də Hacıdır. O, sınaqlı seyid övladı, gözəl insandır.

Hacı seyid Miriş ağanın 4 oğlu, 2 qızı var: **Miradil, Mirəhməd, Mirkamil, Mirismayıl, Tacirə və Gülayə.** Hamısı oxumuş, savadlı, xalqımızın tanınmış ziyalıları və nurlu seyid övladlarıdır. Xeyixahlıqda onlar da atalarından geri qalmırlar.

***

***Sumqayıt şəhər məcidinin tikintisi də ağanın xeyir-duası, dini-tarixi abidələrimizin bərpasında böyük zəhməti olan Kəmaləddin Heydərovun sayəsində, 1989-cü ildə tikilib inşa edilmişdir.***

Məscidin axundu **Hacı İbrahimdir.** Ağa da məscidin hörmətli üzvlərindəndir.

**Seyid Miriş ağa atasını belə xatırlayır:**

–Atam təxminən 1880-81- ci illərdə Ordubad rayonunun Vələvürz kəndində anadan olmuşdu. Sonra Sisyan rayonuna köçüb. Rayonun əvvəlki adı Qarakilsə idi. Qarakilsədə yaşayan ağsaqqallar bir yerə yığışıb belə qərara gəlirlər ki, burada yaşayan əhalinin bir Allah adamına ehtiyacı var. Təxminən 1904-cü ildə bir neçə ağsaqqal gedirlər Ordubada. Bilirdilər ki,



Ordubadda seyid Mirqafar kişinin oğlu yaşayır. Qonaqlar gəlişlərinin məqsədini açıqlayanda atamın anası və bacıları bu fikrə etirazlarını bildirirlər. Çünki çiçək xəstəliyindən atamın yeddi yaşında hər iki gözü tutulmuşdu. Elə buna görə də razı olmaq istəmirlər ki, Mirismayıl üçün tək yaşamaq orada çətin olacaq. Atam isə gələnləri boş qaytarmaq istəmir. Və onlara qoşulub gəlir Qarakilsə rayonunun Qızılcıq kəndinə. Bu kənd dağlıq olduğuna görə atam üçün burada yaşamaq çətin olur və təxminən on yeddi ildən sonra atam köçür Urud kəndinə. Urudun ərəbcə tərcüməsi Çaykənddir. Sonralar ermənilər bütün Azərbaycan kəndlərinin adlarını dəyişdilər və bu kəndin də adını Varatan qoydular. Ancaq camaat kəndə elə Urud dedi. Bu kənddə Mirzə Sadıq adlı bir adam yaşayırmış. Onun babası isə Qafqazın Şeyxülislamı olub. Kənd camaatı ilə ağsaqqallar məsləhətləşirlər ki, bu ev müqəddəs evdir və boş qalmamalıdır. Elə Mirismayıl ağa da müqəddəs adamdır, qoy bu evə o köçsün. Beləliklə, atam həmin evə köçür və ömrünün axırına qədər də orada yaşayır.

**İsmayılov Təmreyxa Niftalı oğlu, Sisyan rayonun Urud kənd sakini:**

– Müharibə qurtarmışdı. 1947-ci il idi. Ermənistanın hər yerində belə bir qaraguruh yayıldı ki, bütün azərbaycanlılar Azərbaycana köçməlidir. Hətta Azərbaycandan da gəlib deyirdilər ki, sizə yaşamağa yer verəcəyik, öz din qardaşlarınızın yanına niyə getmək istəmirsiniz? Sonra bəlli oldu ki, bu Stalin, Beriya və Mikoyan üçlüyünün azərbaycanlıların Ermənistandan çıxarmaq üçün qurduğu plandır. Bu plan 1947-ci ildə SSRI Nazirlər Kabinetində qərar şəklində qəbul olunub: bütün azərbaycanlılar Azərbaycanın işçi qüvvəsi çatışmayan, torpaqları boş olan Sabirabad, Saatlı, Salyan, Kürdəmir və digər bölgələrinə köçməlidirlər. Yenicə qurtarmış müharibə bizim üçün elə bil təzədən başladı. Kəndin ağsaqqalları yığışdılar bizə və babama dedilər ki, ay Mirismayıl ağa, biz neyləyək, köçək, ya köçməyək? Babam dedi ki, bütün imkanlarımıza qədər çalışmalıyıq ki, çıxmayaq. Görsək hərc-mərclik baş alıb gedir, məcbur qalıb köçərik. Bu söhbət altı il davam etdi. 1953-cü ildə Stalinin vəfatından sonra bu məsələ də yaddan çıxdı. Ta 1988-ci ilə kimi.





**Seyid Miriş ağa:**

**HƏSRƏT**

Nə vaxtdı nisgilli, kövrək olmuşam,
Doğma el-obadan köçəndən bəri.
Ürəyi ipəkdən ipək olmuşam,
Ağa, kümbəzindən gələndən bəri.

Səni axtarmaqdan gözüm dörd olur,
Həsrətin içimdə ağır yük olur.
Sənsizlik qəlbimə böyük dərd olur,
Ağa, kümbəzindən gələndən bəri.

Taleyin hökmünü bilə bilmirəm,
Haçandı yanına gələ bilmirəm,
Gözümün yaşını silə bilmirəm,
Ağa, kümbəzindən gələndən bəri.

## QARA SEYİD



Mən bilirəm, sən də öyrən,
Sirdi, sübhandı Əli.
Hələ dünya yaranmamış,
Yaranan insandı Əli.
Ali-əba, tanrı nuru,
Həmin nurdandı Əli.
Bu dünyada, o dünyada,
Şahı- Mərdandı Əli.

Allahı tək, pak bilirəm,
Məhəmmədi Rəsulallah.
Əli, Vəli, həm də Vəsi.
Əsədullah, Seyfullah.
Ərşə situn, göyə lənger,
Lailahəillələh.
Qətli Mərhəb, Fəthi Xeybər,
Şiri- Yəzdandı Əli.

**Hacı Zəki İslam**

Dərələyəz mahalında yaşamış insanların əksəriyyəti demək olar ki, islam dininə xidmət edən müsəlmanlar olublar. Ümumiyyətlə, XX əsrin əvvəllərinə qədər dərələyəzlilər islamda olan dini dəyərlərə sədaqətlə xidmət etmişlər. Elə ona görə də XX əsrin əvvəllərinə qədər hər yerdə olduğu kimi Azərbaycanın bu qədim mahalında da Allah evi olan məscidlər fəaliyyət göstərmişdir. Hətta XX əsrdə Dərələyəz mahalında dini məktəblər, mədrəsələr fəaliyyət göstərirdi. Həmin dövrdə Dərələyəz mahalında adlı-sanlı din xadimləri islamın inkişafı, tərəqqisi yolunda yorulmadan çalışırdılar. Buradakı müqəddəs ocaqlar camaatın ziyarətgahı, and yeri olmuşdur.

Belə ocaqlardan biri də Qabaxlı kəndində Qara Seyidin





ocağı olub. Bu ocaq kəndin girəcəyində, kiçik bir təpənin üstündə qərar tutub. Allahsızlar hökuməti hakimiyyətə gəldiyi zaman hər yerdə olduğu kimi Dərələyəz mahalında da dini məscidlər, ziyarət yerləri hökümət tərəfindən uçurulub dağıdılır, din xadimləri isə ya öldürülür, ya da ki, həbs olunub Sibirə sürgün edilirdi. Həmin dövrdə din xadimlərində olan dini kitablar, "Qurani-Kərim" müsadirə olunub camaatın gözləri önündə tonqallarda yandırılırdı. Çox qəribədir ki, erməni quldurları dəfələrlə Qabaxlı kəndinə hücum çəkib, kəndin əhalisinə olmazın işgəncələr versələr də, həmin ocağa toxuna bilməmişlər. Hətta 1989-cu ildə sonuncu dəfə ermənilər Qabaxlı kəndinin sakinlərini silah gücünə kənddən çıxaranda onlar Qara Seyidin ocağını uçurmaq üçün həmin ocağa traktor göndərmişdilər. Lakin həmin texnika qayadan aşmış, sürücü isə tikə-tikə olmuşdu. Bununla da ermənilər həmin müqəddəs ocağı dağıda bilməmişdilər.

Qara Seyidin ulu babası **seyid Qurbanəli** Dərələyəz mahalına İran Azərbaycanından gəlmişdir. Seyid Qurbanəlinin **seyid Hümbət, seyid Mirəziz və seyid Əli** adlı 3 övladı olub.

Seyid Əli ağanın ölümü də çox qəribə olub.

Bir gün seyid Kotanlı bulağının yanından keçərkən görür ki, bulağın başında nabələd, nurani bir kişi oturub. Seyid yaxınlaşıb nabələd adama salam verib söhbət eləyir. O, seyidə deyir:

-Seyid, burdan durub gedərsən Kotanlıya. Orada Hümbət bəyi tapıb deyərsən ki, sənin iki quyu buğdan var. Birinin bəndəmi qonşunun yerindən götürülüb. Lakin ikinci quyudakı buğdaya haram əl toxunmayıb. O buğdadan alıb gətir evə və ailənə söylə ki, hazırlıq görsünlər, səhər vaxtın tamam olur.

Seyid bir də dönüb görür ki, həmin adam yanında yoxdur. Ağa Kotanlıya gedir və taxılı alıb evə gətirir. Səhər olur, günorta namazından sonra seyid yatağa uzanıb gözlərini yu-

mur. **Hümbət bəy** günorta Qabaxlıya çatanda, artıq seyid dünyasını dəyişmişdi.

Seyid Hümbətin 2 oğlu olmuşdur. **Seyid Mirpirqulu və seyid Mirəhməd.**

Seyid Mirpirqulunun bir övladı var: **seyid Mirməhəmməd.**

Seyid Mirəhmədin yeganə övladının adı isə **Mirhümbətdir.**

Hər ikisi Naxçıvanın Dəmirçi kəndində yaşayır və ata yurdunun ocaq yaşadıcılarıdır.

Seyid Mirəzizin bir qız övladı olub: **seyid Səkinəbəyim xanım.** Səkinəbəyim xanım əmisi oğlu **seyid Heydər ağa** ilə ailə həyatı qurmuşdur.

Seyid Əlinin 3 övladı olub: **seyid Heydər, seyid Mirhəşim.** Üçüncü oğlu haqqında məlumat yoxdur.

Seyid Əli ağanın oğlu **seyid Heydər** (Qara Seyid) Dərələyəz mahalında tanınmış bir seyid olub. **Seyid Hüseyn, seyid Miryusib, seyid Mirabbas və seyid Mirməhəmməd** Qara Seyidin övladlarıdır. Qara Seyidin ocağına ziyarətə nəinki Dərələyəz camaatı, hətta Qarabağdan, Naxçıvandan, Göyçədən gələnlər olurdu. Ziyarətə gələnlər gətirdikləri qurbanları ocağın başında kəsib, kasıb-kusuba paylayırmışlar. Yaşlıların dediklərinə görə seyid Əlinin qapısında ov heyvanları sağına gələrmiş. Rusiyanın ucqar yerlərindən gəlmiş şikəst bir rus uşağı bu ocaqdan şəfa tapır. Elə ona görə də rus yarım ay Qara Seyidin qonağı olur və gedənə yaxın uşağa sünnət elətdirir.

Qara Seyidin sərgüzəştlərindən bir neçəsini oxuculara çatdırmaq yerinə düşərdi.

Bir gün Qara Seyid gəlir çobanın yanına və deyir:

-O qumral qoyunu kəs, onun ürəyini, ciyərini mənə ver.

Çoban imtina edir. Üç gündən sonra çoban seyidi tapıb deyir:





-Ceddinə qurban olum, dediyin qoyun üç gündür ki, yerindən durmur. O qoyunu sənə halal eliyirəm. Gəl apar.

Seyid gəlib əlini qoyunun belinə sürtən kimi qoyun ayağa durur.

Günlərin bir günü Qara Seyid gedir Qozlucaya və kolxoz sədri Hidayət müəllimə deyir:

-Hidayət müəllim, heyvanlarımın yemi qurtarıb. Mənə bir az ot ver.

Hidayət kişi onun sözünü yerə salır. Seyid kor-peşman bir dostunun evinə gedir. Elə bu zaman Hidayətin tayasına od düşür. Camaat tökülüb gələnə qədər taya yanıb kül olur. Hidayət tez bir araba ot yükləyib seyidin qapısına gedir və ondan üzr istəyir.

Müharibənin çətin vaxtları idi. Kənddə əl silah tutanların hamısını müharibəyə aparırdılar. Bir gün ağanın da qapısını döyürlər. Ağa həyətində oturub Allaha dua edirdi. O, həyətə daxil olan hərbçilərin nə məqsədlə gəldiklərini bilib ulu ceddindən, Allahından kömək dilədi. Axı bir çətən külfət ona baxırdı. Onu da müharibəyə aparsaydılar böyük bir ailə başsız qalardı. Ulu Tanrı ağanın dualarını qəbul elədi. Əli silahlı adamlar həyəti, evi gəzsələr də ağanı görmədilər. Ağa isə oturduğu yerdən tərpənməmişdi də. Bu da ilahinin bir möcüzəsi idi. Tanrı onu qoruyub saxladı.

...Ağanın pak nəfəsi ilə onlarla insan övlad payı qazanmışdı.

Qonşu kənddə Süleyman adlı bir kişinin övladları dünyaya gəlsə də, qalmırmış. Bir gün o ağaya pənah gətirir, dərdini açıb ona danışır. Ağa əllərini göyə qaldırıb ulu Tanrıdan mərhəmət diləyir. Öz köynəyini də çıxardıb Süleyman kişiyə verir ki, dünyaya yenicə gəlmiş övladına geyindirsin. Həmin gündən sonra Süleyman kişinin bir neçə övladı olur və uzun ömür yaşayırlar. Onlar hər il ağanın ocağına gələr, ziyarət edər və Allah-təalaya şükür edərdilər.

Bu gün də Dərələyəz camaatı həmin ocağın övladlarına böyük hörmətlə yanaşır və o müqəddəs ocağı ziyarət etmək arzusuyla yaşayırlar.

Qara Seyid ocağının yaşadıcısı **seyid Mirməhəmməd ağadır.** Seyid Mirməhəmməd ağa 1946-cı ildə əsrarəngiz Dərələyəz mahalında anadan olub. Dədə- baba torpaqlarından deportasiya olunandan sonra Sumqayıt şəhərində məskunlaşmışdır. Ağa həmişə öz hərəkəti, davranışı ilə ağır məşəqqətlərə məruz qalmış camaata dayaq olmuş, onlara təskinlik vermişdir. Bu gün seyid Mirməhəmməd ağa camaatın nurlu ağsaqqalı, dar gündə məsləhət yeridir. Müşkül işə düşənlər, dərdli insanlar ağaya müraciət edir, onun dəyərli tövsiyyələri ilə ömür yolunu işıqlandırırlar.

Allah köməyi olsun.

Seyid Mirməhəmməd ağanın 3 qızı və 3 oğlu var: **seyid Miraləm, seyid Mirfazil və seyid Mirələmdar.**

Ailənin böyüyü seyid Miraləmin 2 övladı var: **seyid Miraqil, seyid Mirelvin.**

Seyid Mirfazilin isə bir qızı, bir oğlu var. Oğlunun adı **seyid Mirşahindir.**

Ailənin sonbeşiyi **seyid Mirələmdar** isə bir qız, bir oğul atasıdır. Oğlunun adı **seyid Mirsəiddir.** Hər biri ulu nəsillərinə layiq imam-peyğəmbər övladlarıdır.

Allah sizin pak nəfəsinizi heç vaxt xalqımızın üstündən əskik eləməsin.

> "Yaxına, miskinə və yol oğluna (yolda qalana) haqqını ver. Bu, Allahın rizasını istəyənlərə xeyirdir. Və onlar nicat tapanlardır." (ər-Rum, 38)





## SEYİD MİRQASIM SEYİD AĞBAL OĞLU

Ruhlar dönəcəklər bu axşam evə,
Gəlib görəcəklər qapımız bağlı.
Gəlib görəcəklər qəm yağışında,
Qədim bir ocağın sinəsi dağlı.

Gəlib görəcəklər tüstüsü çıxmır,
Bu evin işığı yanmır bu axşam.
Boğulur ev-eşik qaranlıqlarda,
Onların gözündə sönəcək inam.

İnsafsız qonşular, heysiz qohumlar,
Bu axşam, bu evə baş çəkməyəcək.
Bu cümə axşamı, bu əziz axşam,
Kim deyir ruhlar yaş tökməyəcək?!

Girəcək qol-qola nakamlar kimi
Atamın ruhiylə, anamın ruhu.
Bacadan girəcək, damdan girəcək.
Gözü bu ocaqda olanın ruhu...

***Eldar İsmayıl***



**SEYİD AĞBAL AĞA**

Allah-təala özünü tanıtdırsın deyə, beş nəfərin nurunu yaratdı. Bunlar Həzrəti Məhəmməd (s), Həzrəti Əli (ə), Həzrəti Fatimə (ə), Həzrəti Həsən (ə), Həzrəti Hüseyn (ə)-dır.

Uca Tanrı birinci nurun - Həzrəti Məhəmməd (s)-nın xatirəsinə bəşəriyyəti yaratdı və bəşəriyyətə çoxlu peyğəmbərlər göndərdi. Allah-təalanın bu peyğəmbərləri yollamaqda məqsədi özünə bütün insanları tanıtdırmaqdır. Buna görə də Allah-təala heç vaxt insanları höccətsiz qoymaz. Yəni yer

üzərində insan tək qalsa belə, gərək bir höccət olsun ki, həmin insan Allahı tanımamış dünyadan köçməsin. Məhəmməd (s) Allah-təalanın izni ilə dünyaya gəldi. Sevimli peyğəmbərimizin məqsədi, amalı Allahı insanlara tanıtmaq oldu. Məhəmməd (s)-dan sonra qızı Fatimeyi Zəhra (ə.s.), əmisi oğlu- həyat yoldaşı Əli (ə) və onların övladları olan 11 imam bu ilahi missiyanı davam etdirdilər.

On dörd məsumun övladları olan seyidlər də bu istiqamətdə fəaliyyət göstərmişlər.

Bu seyidlərdən daha biri- altıncı imamımız imam Cəfəri Sadiq (ə) övladlarından olan **seyid Mireylas ağa** Cənubi Azərbaycanın Şiraz şəhərində yaşayıb. Bir müddət sonra seyid Eylas ağa qədim Azərbaycanın Vedi rayonuna köç edir və burada ilahi missiyanı yerinə yetirməyə başlayır. Ellərə ağsaqqallıq edir, insanlara imam-peyğəmbərlərimizin hikmətlərini çatdırır, islamın möhkəmlənməsində böyük rol oynayır.

Seyid Eylas ağanın 3 oğlu olub: **seyid Xudaverdi, seyid Mirhəmid və seyid Fəzullah.**

**Seyid Xudaverdi və seyid Mirhəmid** Vedinin Şirazlı kəndində yaşayıb haqq dünyasına qovuşublar. O biri qardaşları isə Kəlbəcərə köçüb.

Seyid Xudaverdi ağa da atası kimi ilahi vergili, dərin kəramətli seyidlərimizdən idi. Onun 7 oğlu və 4 qızı dünyaya gəlir. Böyük oğlu dağ kəndlərindən birində yaşayır.

Seyid Imamverdi Qədilidə, seyid **Mirsadiqla seyid Mireylas Göyçədə, seyid Mirtağı Kəlbəcərdə, seyid Mirnəbi Tərtərdə, sonbeşiyi seyid Mirhacı isə Şirazlıda** Allahın vəhdəniyyətini təbliğ etməyə başlamışlar.

Seyid Mirhacı ağanın 4 oğlu olub: **seyid Miryaqub, seyid Mirhüseyn, seyid Mirabbas və Məşədi seyid Miri.** Onlar hələ cavan yaşlarından camaatın ehtiramını qazanıb, el-obanın böyük inam bəslədiyi imam övladları, Imam Cəfəri Sadiq (ə.s)-nın layiqli davamçıları idilər.





Qardaşlardan **seyid Miryaqub ağa** kəsərli nəfəsi, kəraməti ilə seçilirdi.

Keçən əsrin əvvəllərindəki erməni-müsəlman davası zamanı ağanı 3 dəfə kənddən köçürmək istəsələr də Allah-təalanın hökmü, cəddinin qüdrəti sayəsində bu, mümkün olmamışdı.

Seyid Miryaqub ağanın ocağı çox sınaqlı ocaq idi. Hətta dağ ceyranının öz balasını ağanın həyətində dünyaya gətirməsi və burnu ilə itələyərək ağaya qurban verməsi, dağ keçisinin pənahgah kimi bu ocağa gəlməsi, yaralı, müharibədən qayıdan ilanların ocağın həyətinə döşənmələri, onlarca müxtəlif kəramətlər ağanın ocağının qüdrətindən xəbər verir. Bu ocağın kəraməti hətta ermənilər də heyrətə salmışdı.

Seyid Miryaqub ağanın özü kimi də iki nurlu övladı olub: **seyid Ağbal və seyid Mirvilayət.**

Seyid Mirvilayət ağa Böyük Vətən müharibəsində zabit kimi döyüşüb və sonralar itkin düşüb.

Seyid Miryaqub ağanın böyük oğlu **seyid Ağbal ağa** (1908-1988) nəinki doğma rayonlarında, eləcə də ətraf bölgələrdə çox böyük nüfuz və hörmət sahibi olub.

Allah-təala öz sevimli bəndəsini çox gözəl yaratmışdı. Elə ona görə də əsl adı Mirnağı olsa da el-oba onu "Ağbal" deyə çağırıb.

Deyir, bəd-nəzərdən Allahın da xəbəri yoxdur. Ağanın gözəlliyi insanları valeh edirdi. Sanki bir nur, ay parçası idi. Elə gözəlliyinə görə də ağa gözə gəldi və bir gözündən mayıf oldu.

Seyid Mirağbal ağa son dərəcə kəramətli, nəfəsi şəfalı seyidlərimizdən olmaqla, dövrünün alimi, müctehidi idi. Vedi rayonunda ondan kəsərli, üstün bir seyid olmayıb. Hətta ermənilər də onun qapısına ziyarətə gələrdilər.

Həyətində məscid də tikdirmişdi. Ağrı dağından Ağ dağa savaşa gedən ilanlar da onun qapısında qalar, ağanın müqəddəs ocağını ziyarət edərdilər. Söhbətləşdiyimiz neçə-neçə yaşlı kənd sakini də bunun şahidi olub.



Şirazlı kəndində bütün küçələr düz planlı idi. Təkcə ağanın ocağına görə əyilirdi. Neçə dəfə plan düz olsun, deyə ekskovatorla ocağı uçurtmaq istəsələr də bu, alınmamış, sürücülər düşüb qaçmışlar. Allah-təala öz müqəddəs yerini qorumuşdu.

Elə bu cür müqəddəsliyin nəticəsidir ki, ağa növbəti erməni-müsəlman davasını görmədi. O, 1988-ci il may ayının 19-da öz doğma vətənində rəhmətə getdi və Şiddi qəbirstanlığında torpağa tapşırıldı. Amma seyid Ağbal ağanın övladları: **seyid Mirbağır (rəhmətə gedib), seyid Mirsadıq, seyid Mirqasım, seyid Mirəhməd, qızları Urqiyəbəyim (rəhmətə gedib), Zeynəbbəyim və Bəyim** erməni millətçilərinin qurbanı olub, öz torpaqlarından deportasiya edilmişlər.

**Seyid Mirqasım ağa** 1941-ci ildə Vedi rayonunun Şirazlı kəndində dünyaya gəlib. Şəriəti öz ata-babasından öyrənib. 1988-ci ildə başqa soydaşlarımız kimi Azərbaycana pənah gətirib. Goranboy rayonunun Veyisli kəndində məskunlaşıb. Tezliklə el-oba onun cəddinin qüdrətini hiss edib.

Bu gün rayonun mötəbər ağalarındandır.

**Rayonun axundu Hacı Səbuhi demişkən:** "Səsi-sorağı çoxdan ətraf rayonlara yayılıb".

Veyisli kəndində məskunlaşdıqdan sonra ağa Allahın böyüklüyünü, təkliyini insanlara tanıtmağa başlayıb. Seyid Mirqasım ağa Veyisli kəndində də bir ocaq tikdirib və ata-babasının ocağından gətirdiyi torpaqla onun bünövrəsini qoyub. Əvvəllər yerli camaat seyid Mirqasım ağanı yaxından tanımasa da, tezliklə Allah-təalanın hökmü ilə həm öz rayonlarının camaatı, həm də başqa rayonlar onun cəddinin qüdrətini hiss etdilər.

Hər gün respublikamızın ən ucqar rayonlarından belə, insanlar onun sorağı ilə uzaq məsafələri qət edib, ağaya pənah gətirir və dərdlərinə şəfa tapırlar.







Biz ocaqda olarkən ağanın həyətinə xeyli adam toplaşmışdı. Məlum oldu ki, bu insanların hərəsi bir rayondan pənah gətiriblər. Buzluq kənd sakini **İlqar Haqverdiyevlə** həmsöhbət olduq. Dedi ki, bir neçə ay bundan əvvəl oğlum Ramil qorxu keçirmişdi. Neçə ünvana apardıq, xeyri olmadı. Axırda sorağını eşidib ağaya pənah gətirdik. Seyid Mirqasım ağanın mübarək qələmindən sonra hər şey ötüb keçdi.

İndi ağaya minnətdarlığa gəlmişik.

Allah ağanın nəfəsini üstümüzdən əskik eləməsin!

Seyid Mirqasım ağa həyat yoldaşı **Löhə bəyim seyid Miryasin qızı** ilə gözəl övladlar böyüdüblər: **seyid Mirhəmid, seyid Mirhüseyn, seyid Mirəli və seyid Mirhəsən.**

**Seyid Mirəli** Bakı İslam Universitetinin məzunudur.

**Seyid Mirhəmid** isə Quran və şəriət məktəbini bitirib.

Seyid Mirqasım ağanın qardaşı **Mirbağırın oğlu seyid Mirnəsir** isə hal-hazırda Misirdə ali təhsil alır.

O biri qardaşı Mirəhmədin oğlu **seyid Mirvilayət** isə Bakı İslam Universitetinin tələbəsidir.

***Bəli, illər keçir. Öz doğma vətənindən didərgin düşən başqa soydaşlarımız kimi seyidlərimiz də Vətən həsrəti ilə qovrulur, öz doğma ev-eşiklərinə qayıdacaqları günü səbirsizliklə gözləyirlər. Onlar bu gün ağır sıxıntılı günlər keçirsələr də, insanlara səbr diləyir və gecə-gündüz Allah dərgahına əl qaldırıb, el-obaya xoş günlər qismət eləməsini, insanların Allah-təalanın yolu ilə getmələrini və Allahı tanımalarını arzulayırlar.***

***Allah dualarınızı qəbul və müstəcab eləsin, ağa!***

## ISTIFADƏ EDILMIŞ ƏDƏBIYYAT


1. Z.M. Bünyadov, V.M. Məmmədəliyev. Qurani-Kərim. Ankara, 1997.
2. Nəriman Qasımzadə. Qurani-Kərim. Bakı, 1993.
3. Əliyev, Y. Yusifov, İ. Babayev, H. Səfərov, A. Məmmədova. Azərbaycan tarixi. Elm nəşriyyatı, 1991.
4. Məşədixanım Nemət. Azərbaycanda pirlər. Bakı, 1992.
5. Məşədixanım Nemət. Azərbaycanın epiqrafiq abidələrinin korpusu. I-II cildlər.
6. M. Hüseynov, L. Bretanitski, Ə. Salamzadə. H. Əliyev dinimizin, xalqımızın milli-mənəvi sərvətidir. Bakı, 1999.
7. M. Hüseynov, L.Bretanitski, Ə. Salamzadə. Azərbaycan memarlığı tarixi. Moskva - 1963.
8. Azərbaycan Sovet Ensiklopediyası, I-II cildlər. Bakı, 1976-1978-ci illər.
9. A.Bakıxanov. Gülüstani-Irəm.
10. Kamran Rəhimov. Insannamə. Bakı, 2004.
11. Fəzlullah Rəşidəddin. Oğuznamə. Bakı, 1992.
12. Ərəb-fars sözləri lüğəti. Bakı, 1985.
13. S.Ə. Şirvani, əsərlər, I-II cildlər.
14. Imadəddin Nəsimi. Seçilmiş əsərləri. Bakı, 1985.
15. Axund Hacı Soltan Hüsyenqulu oğlu Əlizadə. Azərbaycanın qadın şairləri və islam. Bakı, 2001.
16. Əli Himmət Bərki, Osman Kəskioğlu. Xatəmül Ənbiya Həzrəti Məhəmməd və həyatı. Ankara, 1997.
17. Osman Kəskioğlu. Siyer-i Nəbi. Ankara, 1993.
18. Islam. Bakı, 1989.
19. Buzovna. Həzrət Əli(ə) qədəmgahı. Bakı, 1992.
20. Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrin əhəmiyyət dərəcəsinə görə bölgüsü. Bakı, 2002.
21. Ə.V. Salamzadə, K.M. Məmmədzadə. Arazboyu abidələr. Bakı, 1979.
22. Z. Əkbərov, G.Əhmədov, R.Mahmudov. Mən deyən vaxt gəl Muğana. Bakı, 2003.
23. B. Hüseynbala oğlu, M.Talışlı. Lənkəran. Bakı, 1990.
24. Altay Məmmədli. Ya Rəbb, mənə hikmət ver. Bakı, 2004
25. Əhməd Sabiri Həmədani, İmam Hüseyn (əleyhissalam)-ın əxlaqi görüşləri.
26. Hacı Azər Əbilov. Məkkədən Mədinəyə. Bakı, 1997.
27. Hacı Abid, Əshabi-Kəhf. Tanrı dərgahına gedən yol. Bakı, 2004.
28. Hacı Imamverdi Əbilov. Əsrlər, nəsillər, əməllər. Neftçala, 2001.
29. Ş.F.Fiqarov. Abşeron memarlıq abidələri. Bakı, 2003.
30. V. Həbiboğlu. Keşlə və keşləlilər. Bakı, 1995.
31. Ələddin Əmirzadəoğlu. Seyid Mirismayıl ocağının işığı. Bakı, 1998.
32. Hacı Miribadulla. Allah adamı. Bakı, 2002.
33. M. Nəzərli. Tariximizin daş yaddaşı. Bakı, 2001.
34. Novruz Novruzov. Vətəni qoruyan oğullar (Masallı şəhidləri). Bakı, 1996.
35. Axund Hacı Mirqiyas Hüseynli, Hüseyn Əsədli, Nurəddin Ədiloğlu. Əsrin sözməz şamları. Bakı, 1999.
36. Mirvari Rəhimzadə. Inam dünyam. Bakı, 2001.
37. F. Əkbərov. Bir şəcərənin üç budağı. Bakı, 2000.
38. X. Bəylərov. Mənim Imişlim. Bakı, 1994.
39. Mirkamil Mirxəlil oğlu. Əbülqasim Mühəmməd-Əmin. Bakı, 2001.
40. R. Qəvvas. Möcüzələr işığında. Bakı, 2001.
41. Nur Məhəmməd ağa. Ağa Mirtağı -Nur ocağı. Bakı, 1999.
42. E. Ismayıl. Sabaha məktub. Bakı, 2001.
43. M. Şahverdiyeva. Seyid Aydın ağa. Bakı, 1996.
44. I.Şükürlü. "Seyid Mirsaleh ağanın ocağının nuru. Bakı, 2003.
45. Ş. Səlimbəyli, E.İsrafiloğlu. Seyid Tapı ocağı. Bakı, 2000.

## MÜNDƏRİCAT

Ön söz ....................3
Azərbaycan memarlığı tarixindən ....................7
Ərdəbil, Şeyx Səfi türbəsi, Təbriz, Dərbənd məscidləri .....11

### BAKI

Məhəmməd məscidi ....................14
Atəşgah ....................15
Bibi Heybət piri ....................16
Nardaran piri ....................19
Came məscidi ....................20
Keşlə Şah Abbas məscidi ....................21
Əjdər bəy məscidi (Göy məscid) ....................22
Təzə Pir məscidi ....................23
Hacı Soltanəli məscidi ....................24
"Əli ayağı" qədəmgahı ....................25
Pirhəftəxar piri ....................31
Aqil baba, 7 qapı ziyarətgahı ....................32
Pirhəsən türbəsi ....................35
Seyid Mirmövsüm ağa ....................37

### ASTARA

Şəhər məscidi, Məhəmməd Hənəfiyyə məscidi ....................44
Seyid Əhməd ziyarətgahı (Maşxan ocağı) ....................45
Seyid Cəmaləddin məqbərəsi ....................46
Seləkəran kənd məscidi ....................49
Seyid Kərim türbəsi ....................50
Zolazo ziyarətgahı ....................51
Gəzəndaş ziyarətgahı ....................52
Hacı seyid Mirhəşim ağa ....................53
Seyid Əli seyid Mirhəmzə oğlu ....................56
Kərbəlayi Məşədi seyid Mirhaşim seyid Mirdadaş oğlu .... 58
Kənd məscidləri ....................59
Seyid Mirəsgər ağa ocağı ....................60
Məşədi seyid Mirislam seyid Mirpaşa oğlu ....................63



### BİLƏSUVAR

Şəhər məscidi ....................66
Hacı seyid Mirsultan ağa ....................67
Hacı seyid Mirislam ağa ....................80
Kərbəlayi seyid Mirtahir seyid Mirmehdi oğlu ....................82
Hacı seyid Mirxas Kərbəlayi seyid Mirmehdi oğlu ....................87
Hacı seyid Mirtohid ağa ....................94
Hacı seyid Mirtapdıq seyid Mirməhəmməd oğlu ....................98
Hacı seyid Mirbaba seyid Mirqasım oğlu ....................101
Seyid Əzizağa seyid Sadıq oğlu .................... 105

### CƏLİLABAD

Şəhər məscidi, Alar məscidi, Göytəpə məscidi,
Suluçeşmə məscidi, Astanabad kənd məscidi ....................108
Seyid Mirməhəmməd ağa ....................113
Şeyx Hacı Məhəmməd Şeyx Qüdrət oğlu ....................126
Seyid Mirşükür ağa ....................132
Kərbəlayi Məşədi seyid Mirtəhməz ağa .................... 138
Kərbəlayi seyid Miryusif ağa ....................148
Seyid Rəcəbəli seyid Bayraməli oğlu .................... 153
Seyid Mirtəhməz Məşədi seyid Miri oğlu .................... 157

### ƏLİ-BAYRAMLI

Cümə məscidi ....................161
Şeyx Hacı Əlizadə Şeyx Şıxzadə oğlu ....................16[illegible]
Seyid Mirabbas ağa .................... 16[illegible]

### İMİŞLİ

Şəhər məscidi, Hacı Tofiq məscidi ....................17[illegible]
Kərbəlayi seyid Mirsalah ağa ocağı ....................17[illegible]
Seyid Mirqiyas ağa ....................17[illegible]
Seyid Mirqoca ağa ....................1[illegible]
Seyid Nəsihət ağa ....................1[illegible]

Seyid Mirfidə seyid Mirqoca oğlu ........ 183
Seyid Hilal seyid Cabbar oğlu ........ 187
Seyid Mirəli ağa ........ 194


## LƏNKƏRAN


Böyük Bazar məscidi, Kiçik Bazar məscidi,
Hacı Mais məscidi ........ 196
Seyid Xəlifə ziyarətgahı ........ 197
Şeyx Zahid türbəsi ........ 198
Baba Səmənd türbəsi ........ 199
Baba Rəhman ocağı ........ 200
Hacı seyid Mirsüleyman seyid Mirbəndəli oğlu ........ 201
Seyid Mirislam seyid Mirabbas oğlu ........ 205
Seyid Miri ağa ........ 208
Seyid Mirqulamhüseyn ağa ........ 208
Seyid Mirağa ........ 209
Məşədi seyid Mirsaleh ağa ........ 211
Seyid Mirnizam seyid Mirağa oğlu ........ 216
Seyid Mirəziz seyid Mirəsgər oğlu ........ 224
Seyid Mirtahir seyid Mirdayan oğlu ........ 226
Hacı seyid Mirhəşim Talışlı ........ 228
Məşədi Baloğlan Kərbəlayi Əli oğlu ........ 230


## LERİK


Babagil türbəsi ........ 234
Xoca seyid türbəsi ........ 236
Pira Yusif türbəsi ........ 236
Cobir türbəsi ........ 237
Arta ocağı ........ 237
Mikoman türbəsi ........ 237
Şeyx Kəla türbəsi ........ 237
Çilkona türbəsi ........ 238
Kərbəlayi seyid Mirhadi seyid Miryunus oğlu ........ 239




## MASALLI


Şəhər Cümə məscidi ........ 242
Hacı Ramazan məscidi ........ 243
Nəbiəddin ocağı ........ 244
Imamzadə ........ 244
Peqədim ocağı ........ 246
Sığdaş məscidi (Mürsəlli məscidi) ........ 247
Şah Səfi ziyarətgahı ........ 248
Seyid Mirsadıq Hacı seyid Rza oğlu ........ 250
Seyid Mirəlican ağa və oğlu Hacı seyid Mirrəsul ağa ........ 258
Seyid Mirtağı ağa ocağı ........ 265
Məşədi seyid Mirxəlil ağa ........ 272
Seyid Mirzakir ağa ........ 274
Hacı seyid Mirmüctəva ağa ........ 275
Seyid Mirfazil ağa ........ 278
Hacı seyid Mirəkbər ağa ........ 279
Seyid Mirmüqərrəba ağa ........ 279
Əqidə qadağalara qalib gəlir ........ 280
Nurlu ürək ........ 282
Kərbəlayi Məşədi seyid Mirbaba seyid Mirtəqi oğlu ........ 283
Hacı seyid Mirheydər seyid Mirşəmsulla oğlu ........ 288
Axund seyid Mirdaməd ağa ........ 292
Seyid Mirhəsən seyid Miribrahim oğlu ........ 295
Seyid Miri seyid Mirmusa oğlu ........ 299
Axund Hacı seyid Mirqiyas Hüseynli ........ 303
Seyid Mirsadıq seyid Məhəmmədəli oğlu ........ 305


## NAXÇIVAN


Şeyx Xorasan türbəsi, Ordubad mədrəsəsi, Heydər Əliyev
məscidi, təzə məscidlər ........ 309
Dilbər məscidi ........ 311
Xanağa piri ........ 312
İmamzadə kompleksi ........ 313
Əshabi-Kəhf ........ 314
Naxçıvan tarixinin daş yaddaşı "Əshabi-Kəhf" ........ 324

## NEFTÇALA


Xıllı məscidi, Əlibala məscidi ..........358
Pirətavan piri ..........358
Qırmızı kənd məscidi..........360
Kərbəlayi seyid Mirəziz seyid Hacı oğlu .......... 361
Seyid Nənə ocağı ..........364
Seyid Əli Məşədi seyid Mirəşrəf oğlu .......... 368
Kərbəlayi seyid Böyükağa Seyidağa oğlu..........370
Seyid Qurban seyid Abdulla oğlu ..........372
Seyid Mircamal seyid Cabbar oğlu..........373
Seyid Ismayıl seyid Mirqiyas oğlu ..........375
Seyid Mirpaşa seyid Mirağasi oğlu.......... 377


## SALYAN


Salyanın məscidləri ..........379
Sarı Seydan ocağı..........384
Müqəddəs məscid ..........387
Axund Mirbağır ağa ..........392
Kasıblar ağası ..........398
Ağa Mirheydər ağa .......... 402
Seyid Mirəşrəf ağa..........403
Seyid Mirtərlan Kərbəlayi seyid Miriş oğlu..........407
Hacı seyid Mirtağı seyid Mirəziz oğlu ..........410
Seyid Mirnadir seyid Mirqulam oğlu ..........413


## SABİRABAD


Cümə məscidi, Şamaxılı məscidi..........418
Baba Samid türbəsi.......... 420
Kərbəlayi Məşədi seyid Rəsul ağa .......... 421
Hacı seyid Miriş seyid Əhməd oğlu ..........427
Seyid Mirheydər Kərbəlayi seyid Mirhəmid oğlu ..........429
Məşədi seyid Mirkazım seyid Mirhəsən oğlu..........439
Axund Şeyx Böyükağa Şirvani ..........442




## SAATLI


Cümə məscidi .......... 448
Həzrət Əli məscidi ..........448
Kərbəlayi seyid Mirtağı ağa, seyid Mirəziz ağa ocağı.......... 449
Seyid Mirbala ağa ..........457
Nun Baba piri..........465
Seyid Rza seyid Mirağamir oğlu ..........466


## YARDIMLI


Perinbel- seyidlər yurdudur .......... 470
Abu-zərə (Abi-dərdə) türbəsi .......... 471
Seyid Xürram piri..........471
Çiləxana türbəsi .......... 472
Baba Pirəli türbəsi ..........472
Pir Məkkə piri ..........472
Şeyx Soltan seyid Məhəmməd türbəsi .......... 473
Seyid Mirəhməd seyid Məhəmməd oğlu ..........474
Seyid Mirmöhsüm ağa..........474
Seyid Ağamir seyid Mirəhməd oğlu ..........479
Seyid Mirbaxas ağa ..........479
Seyid Mirəhməd ağa ..........483


## QƏRBİ AZƏRBAYCAN


Ermənilər türk abidələrini necə özününküləşdirirlər? ..........494
Dəmrov piri ..........495
Allah evi .......... 495
Ərgəz piri ..........496
Seyid Mirismayıl seyid Mirqafar oğlu..........498
Qara seyid ..........504
Seyid Mirqasım seyid Ağbal oğlu ..........509
Istifadə edilmiş ədəbiyyat..........514

## MÜƏLLİF HAQQINDA



Heydərov Həşim Həsən oğlu 1958-ci il aprel ayının 17-də Ağdam rayonunun Qərvənd sovetliyinin Ortaqışlaq kəndində anadan olub.

Atası Həsən kişi (ədalətli, xeyirxah insan olduğuna görə el arasında ona "Ədalət",- deyə müraciət edərdilər) uzun illər Ağdam məscidinin müdiri vəzifəsində işləmişdir. Sovet hakimiyyətinin təzyiqlərinə baxmayaraq qapısında həmişə təziyyələr keçirər, namaz qılar, oruc tutardı. Əsl el ağsaqqalı idi.

Həşim Həsənoğlu 1976-1978-ci illərdə Sovet Ordusunun Monqolustan Xalq Respublikasındakı kontigentinin tərkibində xidmət etmiş, "Zabaykalsk" qəzetinin hərbi müxbiri işləmişdir. Hərbi xidməti başa vurduqdan sonra "Azərelektroterm" Istehsalat Birliyində tokar, cilingər, briqadir və s. vəzifələrdə işləmiş, birliyin "Məşəl" qəzeti ilə əməkdaşlıq etmişdir.

1981-86-ci illərdə indiki Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində təhsil almış, eyni zamanda ingilis və ərəb dilləri üzrə ikillik məktəbləri bitirmişdir.

1990-cı ildən "Sahil" və "Xəzinə" ictimai-siyasi qəzetlərinin baş redaktoru və təsisçisidir.



1996-98-ci illərdə Binəqədi rayon Icra hakimiyyətində şöbə müdiri vəzifəsində işləmişdir.

Həşim Həsənoğlu Qarabağ həqiqətlərini Amerikada yayan ilk jurnalistlərimizdəndir. 90-cı illərin əvvəlində ingiliscə dərc etdirdiyi xüsusi buraxılış Azərbaycanın informasiya blokadasından çıxarılmasında əhəmiyyətli rol oynamışdır.

Bir oğlu, bir qızı var.

"Qızıl qələm" fəxri media mükafatı laureatı, Azərbaycan Jurnalistlər Birliyi və Həsən bəy Zərdabi adına Dünya Azərbaycanlıları Xeyriyyə Cəmiyyətinin üzvüdür.

**Nəşriyyatın direktoru:** Famil Kərimov

***Texniki redaktor:*** Məhəmməd Nərimanoğlu,
*yazıçı-publisist, Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat institutunun dissertantı*
***Dizayner:*** Rahilə Məmmədova
***Korrektor:*** *Sevinc Əliyeva*

**Həşim Həsənoğlu**
*(Həşim Həsən oğlu Heydərov)*
**AZƏRBAYCANIN DİNİ-TARİXİ ABİDƏLƏRİ, ZİYARƏTGAHLARI, SEYİDLƏRİ, ÖVLİYALARI**

*(Azərbaycan dilində)*
"Nasir" nəşriyyatı. Bakı-2005.

**Formatı:** 84x108 1/16
**Tirajı:** 500 ədəd
**Çap vərəqi:** 32,5

Qiyməti: müqavilə ilə

Hazır diopozitivlərdən ofset üsulu ilə çap edilmişdir.
Əlaqə telefonları : 432- 00- 65
mob. 050 312- 45- 68

